AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

(Antologiya)

İKİ KİTABDA

İKİNCİ KİTAB



AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

(Antologiya)

İki kitabda
İkinci kitab

XXI YNE

Bakı – 2001

Tərtib edəni: Bəhlul Abdulla
Redaktoru: İsrafil Abbaslı
Rəyçi: Cəlal Bəydili

Azərbaycan şifahi xalq ədəbiyyatı (Antologiya). İki kitabda. İkinci kitab. – B.: XXI – Yeni Nəşrlər Evi, 2001. – 496 s.

Azərbaycan Respublikasının orta və ali məktəb proqramlarındakı şifahi xalq ədəbiyyatı mövzularına uyğun tərtib olunmuş və birinci kitabı, əsasən, lirik janrları əhatə edən "Antologiya"nın ikinci kitabına folklorumuzun epik növlərindən seçmə örnəklər daxil edilmişdir.
"Azərbaycan şifahi xalq ədəbiyyatı" (Antologiya) bir vəsait olaraq orta və ali məktəblər üçün nəzərdə tutulmuşdur.

A $\frac{4604000000-36}{080-01}$

© XXI – YNE, 2001.

MİFLƏR

Səmavi miflər

1

Lap qabaq zamanlarda allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan ayağa su imiş. Allah bu suyu lil eləyir. Sonra da lili qurudub torpaq eləyir. Bu torpaqdan bitkiləri cücərdir. Ondan sonra da torpaqdan palçıq hazırlayıb insanları yaradır, ona ruh verib canlandırır.

2

Qabaqlar göy yerə yaxın imiş. Adamlar bir-birini öldürüb qan tökür, bərəkətin qədrini bilmirmişlər. Bunu görən tanrının qəzəbi tutur və göyü yerdən uzaqlaşdırır.

3

Günəş ilə Ay bacı-qardaş imiş. Bunlar çox dəcəllik edir, elə hey savaşırmışlar. Günlərin bir günü yenə savaşırlar. Anaları da xəmir yoğurmuş. Birdən Günəş əlini xəmirə batırıb çırpır Ayın üzünə. Anaları da hirslənib onlara qarğış edir. Deyir ki, sizi görüm, bir-birinizin üzünü heç vaxt görməyəsiniz.

Odur ki, Günəş gündüz doğur, Ay da gecə. Günəş ki, xəmiri çırpmışdı Ayın üzünə, indi də gecə Aya baxanda həmin ləkə onun üzündə görünür.

4

Deyirlər, Ay Günəşin oğludur. O, uşuqlıqda çox dəcəl olur. Bir dəfə Günəş görür ki, təknədə çörək qurtarıb. Tez əl-ayağa düşür, başlayır un qatıb xəmir yoğurmağa. Ay gəlib anasının yanında dəcəllik eləyir. Günəş çox deyir ki, əl çək, qoy işimi görüm. Ay daha da qızışır. Axır-axırda Günəş bərk hirslənir. Xəmirli əli ilə Ayın üzünə bir şillə çəkir. Xəmirin izi qalır Ayın üzündə. Ay nə qədər çalışır üzündəki ləkəni yusun, amma bu ləkə heç cür yuyulmur. Ay üzündəki ləkədən çox utanır. Ona görə də dünyaya gecələr çıxır ki, heç kim bu ləkəni onun üzündə görməsin.

5

Ay – oğlandı, Günəş – qız. Ay Günəşi istəyirmiş. Hər gün onun dalınca gəzirmiş. Günəş nə qədər eləyirmişsə də, Ay əl çəkmirmiş ki, çəkmirmiş. Bir gün yenə Ay Günəşin arxasınca düşür. Günəş qaçır, Ay da onu qovur. Günəş baxır ki, Ayın əlindən qurtara bilməyəcək. Odur ki, əyilib yerdən palçıq götürür, atır onun üzünə. Ay dayanır. Günəş çıxır gedir. O vaxtdan da Ayın üzündə ləkə qalır.

6

Ay bir oğlan uşağı imiş, həm də çox şuluq uşaq imiş. Heç kimin sözünə baxmırmış. Bir gün anası xəmir yoğuranda yanında oynayıb onun əlayağına dolaşırmış. Nə qədər deyir, burdan get, sözünə baxmır. Axırda anası acıqlanıb əli xəmirli-xəmirli buna bir şillə vurur. O vaxtdan da Ayın üzü ləkəli qalır.

7

Bir kişi ova çıxır. Əlinə heç bir şey düşmür. Axır gəlib bir gölün kənarına yetişir. Görür, gölün o biri tayında gözəl bir qız oturub suya tamaşa eləyir. Qız o qədər gözəl imiş ki, şövqündən ovçu ona baxa bilmirmiş. Axır ovçu bir təhər ona yaxınlaşıb soruşur ki, sən kimsən?

Qız deyir ki, mənim adım Günəşdir. Ovçu ilə Günəş bir az söhbət edirlər, axşamın qaranlığı çökür. Ovçu Günəşi qonaq çağırır. Günəş razı olur. Onlar ovçunun evinə gəlirlər. Ovçu qonağı hörmətlə qarşılayır. Günəş ayrıca bir otaqda yatır. Sabah açılır, hamıdan qabaq qonaq durur. O, həyətə çıxan vaxt ətraf nura boyanır. Bu zaman ev yiyəsi də yuxudan oyanır. Günəşə baxanda gözləri qamaşır. Ovçu Günəşə yaxın gedə bilmir. Bu vaxt Günəş öz gözəlliyindən utanıb otağa qayıdır. Ovçu öz qonağının gözəlliyini qonşulara danışır. Deyir ki, ona yaxın düşmək çətindi.

Qonşuluqda olan bir kişi deyir ki, mən onu tuta bilərəm. Günəş yenə ovçugildə qalır. Səhər ovçu ilə onun qonşusu Günəşi tutmaq üçün bayırda gözləyirmişlər. Günəş çölə çıxan kimi yenə aləm nura boyanır. Ovçunun qonşusu görür ki, doğrudan da, ona yaxın düşmək mümkün deyil. Ondan süzülən işıq ox kimi adamın gözünə sancılır. Axır qonşu onu yayoxu ilə vurur. Ox Günəşi sinəsindən yaralayır. Günəş yaralı-yaralı qaçır. Günəş göyün üst qatına qalxır, donunu soyunub sərir. Donundakı qan izləri yeddi rəngli qurşaq olub yağışdan sonra göy üzündə görünür.

Ovçu tutduğu işdən peşman olur, bir at minib onu axtarmağa gedir. Amma ona çata bilmir.

Deyirlər, həmin ovçu Ay imiş. Bəzən görürsən sabaha qalır ki, Günəşlə görüşüb günahını boynuna alsın, üzr istəsin, ancaq bu mümkün olmur. Günəş ondan qaçır.

8

Deyirlər, Günəş – qız, Ay – oğlandır. Onlar bir-birini sevirmiş. Günəş həm də öz işığı ilə dünyanı işıqlandırır, qızdırır, insanlara kömək edir. Günəşin insanlara xidmətini, Aya məhəbbətini istəməyənlər onlara paxıllıq eləyir. Günəşi oğurlamaq istəyirlər.

Bir gün Günəş yenə də göy üzünə çıxıb insanlara işıq paylayır. Sonra sevgilisi Ayla görüşə gedir. Divlər, cinlər bunu görüb onun yolunu kəsir, Günəşi oğurlamaq istəyirlər. Ay vaxtında xəbər tutub divlərə, cinlərə hücum çəkir, onları Günəşdən çox-çox uzaqlara qovur.

Deyirlər ki, divlər, cinlər Günəşin qabağını kəsib ona hücum edəndə dünyanı qaranlıq bürüyərmiş. İndi də Günəş tutulanda elə bilirlər ki, onların işidi. Yenə də Günəşi oğurlamaq istəyirlər. Ona görə də adamlar göyə güllə atır, qab-qacaqları döyəcləyib səs-küy salırlar ki, divlər, cinlər qorxub qaçsınlar və Günəşi rahat buraxsınlar.

9

Ülkər ulduzu vaxtı ilə gözəl bir qız imiş. Bir gün qışın oğlan çağında onun atasının otu qurtarır. Qışın bu vaxtında otu hardan tapmaq olar? Əgər belə getsə mal, qoyun tamam acından öləcək.

Ülkərin atası gedib ağaya hal-qəziyyəni danışır. Bu qoca zalım ağa, kişi ilə şərt kəsir ki, mən sənə istədiyin qədər ot verərəm, ancaq sən də gərək öz qızını mənə verəsən. Kişi çox yalvarır, ağa az eşidir, dediyindən dönmür. Axır naəlac qalıb razılaşır. Gəlib vəziyyəti qızına danışır. Qız bütün günü göz yaşı tökür, öz halını düşünüb ağlayır.

Ülkər gecə kədərli -kədərli göydəki Aya baxır, əhvalını danışır, ondan kömək istəyir. Ülkər göydə Ayın lap nazik olduğunu görür, gəlib atasını yuxudan oyadıb deyir:

Ay göydə sallandı, ay dədə,
Daha yaza nə qaldı, ay dədə,
Vermə məni qənim əlinə, ay dədə.

Kişi yerindən qalxıb tez eşiyə çıxır. Gözlərinə inanmır. Hər yan dizə qədər boy vermiş göy otla dolu idi. Bundan bərk sevinir. Ancaq evə girib qızını görmür. Çünki onun gözəl qızı ulduz olub göyə çıxmışdı. O vaxtdan deyirlər, göydəki ən parlaq ulduz Ülkər ulduzudur. Atası yuxudan durana qədər göylərdən çəkilməyib yaza nə qədər qaldığını ona bildirir.

10

Öz gözəlliyi ilə öyünən Günəş çox məğrur bir qız idi. Göy üzündə səpələnən ulduzlar onun pişvazında durardılar, onun yolunu həsrətlə gözləyərdilər. Lakin bu məğrur qız yolunu gözləyənlərin çox olduğunu gördükdə daha da məğrurlaşar, gözlərindən sevinc alovu saçardı. Bu alova

dözməyən ulduzlar yanıb kül olar, Günəşin çıxması ilə yox olardılar. Amma Günəşi görmək istəyi onları ölməyə qoymazdı. Ulduzlar yenidən dirilib dünyaya gələrdilər. Lakin Günəşi ulduzlardan daha çox Ay maraqlandırırdı. Çünki o, tək idi, bəzən də öz məhəbbətini Günəşə bildirmək üçün ikiyə bölünər, bədənini parça-parça edərdi. Bəzən də həsrətdən o qədər nəzilərdi ki, Günəşin özü də onu görəndə xəcalətindən üzünə buluddan pərdə çəkib gizlənərdi. Bir gün Ay Günəşin görüşünə gedir. Günəş Ayın gözəlliyini, üzündəki qara xalı görərkən həsəddən qəlbi çırpınır, onu sevən oğlanın özündən də daha gözəl olduğunu görüb xəyala dalır, axırda deyir: – Əgər məni ürəkdən sevirsənsə, üzündəki qara xalı dırnağınla qoparıb mənə ver, onu ovcumda görmək istəyirəm. Ay heç nə düşünmədən sevgilisinin əmrini yerinə yetirir. Ayın üzünü qan bürüyür. Bu zaman Günəş qəhqəhə çəkib gülür, Ayın fədakarlığına cavab olaraq deyir: – Sənin gözəlliyin o xalda idi, onu da qopartdın, indi dünyanın ən gözəli mənəm. Günəşin bu sözü Ayı təəccübləndirir, onun üzünə tökülən qanı sifətində donur. Elə o vaxtdan Ayın üzündə ləkə qalır. Ay Günəşdən uzaqlaşır, bir daha onu görmək istəmir. Günəş tutduğu işə peşman olur, nə qədər Ayı çağırırsa, cavab almır. Odur ki, Günəş çıxarkən Ay üzünə pərdə çəkir, onun sifəti solğunlaşır. Ay istəmir ki, Günəş onun üzündə olan ləkəni görsün.

Mənşə mifləri

11

Allahdan Nuh peyğəmbərə xəbər gəlir ki, bütün dünyanı su basacaq. O, tez bir gəmi düzəltdirib bütün canlılardan bir cüt qoyur bu gəmiyə. Nuhun yeddi oğlu var imiş. Oğlanlarından altısı gəmiyə minir, biri minmir. Deyir ki, su gələndə çıxaram dağın başına, mənə heç nə olmaz.

Çox keçmir ki, dünyanın üzünü su alır. İnsanlar boğulub ölür. Nuh peyğəmbər baxır ki, dağa çıxan oğlu da boğulhaboğuldadır. İstəyir ki, gəmini ona sarı sürsün. Allahdan səs gəlir ki, ya Nuh, çıx get, bu oğlan sizlərdən deyil.

Nuh gəmini sürüb gedir. Çox çəkmir ki, tufan dayanır, su yatır. Nuh peyğəmbər oğlanlarına deyir ki, istədiyiniz canlılardan götürüb düşün quruya, yaşayın, nəslinizi artırın.

Nuhun oğlanlarından birinin adı Türk idi. Bu Türk qoyunla qoçu götürüb torpağa düşdü. Gəmi çıxıb getdi. Sən demə, Türkün düşdüyü torpaq cəzirə imiş. Hər tərəfi su olduğuna görə bu cəzirədən çıxmaq olmazmış.

Türk dörd yüz əlli il bu cəzirədə yaşayır. Onun heyvanları o qədə çoxalır ki, bütün cəzirəni tutur. Ot-ələf, kol-kos qalmır, heyvanlar hamısını yeyib qurtarır. Elə gün gəlib çatır ki, heyvanlar yeməyə heç nə tapmayıb başlayırlar qırılmağa. Nuh oğlu Türk baxır ki, belə getsə, heyvanlar da ölüb qurtaracaq, özü də. Ha fikirləşir, bir nicat yolu tapa bilmir.

Günlərin bir günü Türk görür ki, bir heyvanı parçalanıb yeyilib. Özözünə deyir ki, axı bu cəzirədə qoyundan başqa heç bir heyvan yoxdur. Bəs bu qoyunu nə yeyib? Türk çox təəccüblənir. Gecəni yatmayıb güdür. Bir də baxır ki, uzaqdan suyun içi ilə bir qaraltı gəlir. Bu qaraltı gəlib cəzirəyə çatanda tanıyır ki, gələn boz rəngli qurddur. Boz qurd cəzirəyə çıxan kimi cumur bir heyvanın üstünə. Bu tərəfdən də Türk gəlib çıxır bura. Boz qurd Türkü görüb gəldiyi yol ilə geri qaçır. Türk də düşür bunun arxasınca. Xeyli gedirlər. Türk baxır ki, qurdun getdiyi yerlərdə su heç topuğa qalxmır. Bir qədər gedəndən sonra quruya çıxırlar. Qurunu görən Türk qayıdıb həmin yolla heyvanlarını da buraya gətirir. Sonra Türk fikirləşir ki, məni bu cəzirədən boz qurd xilas elədi. Gərək onun şəklini öz bayrağıma çəkəm.

Belə də eləyir. Sonralar Türkün nəsli çoxalanda hamısına deyir ki, boz qurd bizim xilaskarımızdır. Əgər o, yol göstərməsəydi, nə mən olardım, nə də siz olardınız. Ona görə də gərək həmişə boz qurda inanasınız. Boz qurdun şəklini öz bayrağınıza çəkib bu bayrağın arxasınca gedəsiniz.

Türkün övladları bu nəsihətə həmişə əməl etməyə başladılar.

12

Bir tayfa varmış. Bu tayfanın başçısının uşağı yox imiş. Çox qurban, nəzir-niyazdan sonra onun bir oğlu olur. Uşaq dörd-beş yaşına çatır, amma yeriyə bilmir. Heç ayaq üstə də dura bilmir. Atası başlayır ağlamağa ki, bəs mən öləndən sonra bu şikəst oğlumun axırı nə olacaq?

Elə bu vaxtı düşmənlər basqın eləyib həmin tayfanı qırıb-çatırlar. Bütün kişiləri öldürür, arvad-uşağı qul eləyirlər. Uşaq şikəst olduğu üçün onu aparmırlar. Atırlar bir daşın dibinə ki, qurd-quş yesin.

Düşmənlər tutduqları əsirləri götürüb gedəndən sonra buraya bir canavar gəlir. O, uşağı əmizdirir. Sonra götürüb aparır öz yuvasına. Başlayır bu uşağı saxlayıb bəsləməyə. Neçə illər keçir, uşağın ayaqları açılır. Özü də bir pəhləvan olur ki, gəl görəsən. Əl atmağı ilə yüz illik çinarı kökündən çıxarmağı bir olur. Nərəsi gələndə şir, pələng gizlənməyə yer axtarır. Oğlanın şücaəti hər yana yayılır. Düşmənlər də bunun sorağını eşidib gəlirlər onu öldürməyə. Ancaq bir yandan oğlan, bir yandan da canavar bunların əhdini kəsir, bir nəfəri belə sağ buraxmırlar. Sonra oğlan gedib tayfasının sağ qalanlarını da düşmənlərin əlindən xilas edir. Onlar öz torpaqlarına qayıdırlar. Oğlan tayfanın başçısı seçilir və onlar yenə də törəyib çoxalırlar. O vaxtdan bu tayfaya qurdlar tayfası deyirlər. Naxçıvanın qurdlar məhəlləsi də onlardan qalmadır.

13

Qabaqlar uğuzlar olublar. Onlar çox hündür imişlər. Hər biri bir çinar kimi. Ona görə indinin özündə də bir uca boylu adam görəndə deyirlər ki,

uğuzdur. El arasında deyilir ki, uğuzlar bizim əcdadlarımız olublar. Özü də çox yaşamışlar, yüz il, iki yüz il, üç yüz il.

Günlərin bir günündə uğuzlardan biri meşəyə odun qırmağa gedibmiş. Orada gözünə qəribə bir şey dəyir. Bapbalaca. Uğuz onu ovcuna alıb evə gətirir. Bütün uğuzlar onun başına toplaşırlar. Başlayırlar bu əcayib şeyə baxmağa. Birdən onların bir ağsaqqalı qabağa gəlib deyir:

– Bu əcayib şey deyil. İnsandı. Vaxt gələcək, bunlar yer üzünü götürəcək, bizi də əvəz edəcəklər.

İnsanı tutub gətirən uğuz bərkdən gülüb deyir:

– Bu özü nə şeydir ki, bizi də əvəz edə bilsin. Boyu heç mənim bir qarışım qədər də deyil. Ovcumu yumsam, elə əlimdəcə canı çıxar.

Qoca uğuz dedi:

– Yox, elə deyil. Bunlar bizdən çox-çox ağıllıdırlar.

İnsanı gətirən uğuz dedi:

– Yaxşı, indi ki, belə oldu, mən onu imtahan edəcəyəm. Əgər sözümü yerinə yetirsə, inanaram, özünü də buraxaram gedər. Yox, əgər yerinə yetirməsə, onda cücü-mücüdü. Ovcumu yumaram, əzilib ölər.

Qoca uğuz dedi:

– Yaxşı, onu necə imtahan edəcəksən?

İnsanı gətirən uğuz dedi:

– Özüm bilərəm, indi görərsən.

Uğuzun bir atı varmış. Dam boyda. Elə hündür imiş ki, adam baxanda papağı başından yerə düşürmüş. Uğuz tövləyə gedib atı çəkə-çəkə gətirir insanın yanına. Sonra da bir torbaya arpa töküb deyir:

– Ey insan, bax bu torbada arpa var, keçir atın başına, qoy yesin.

İnsanın boyu atamı çata bilərdi? Heç ayağının yarısı boyda da deyildi. Amma o, torbanı baş tərəfindən başlayıb arpaya çatana qədər qatlayır. Sonra da torbadakı arpanı ata göstərib yırğalayır, başlayır muşqurmağa. At səs eşidib aşağı baxır. Arpanı görən kimi başını torbaya salıb yeməyə girişir. İnsan tez torbanın bağını atın başına keçirir.

Bunu belə görən uğuz əlini əlinə vurub bərkdən gülür. Deyir:

– Bir buna bax, bir bunun boyuna bax, gör torbanı atın boynuna necə keçirdi. Bir qarış boyu ilə torbanı dam boyda atın boynuna keçirdisə, deməli, bizi də əvəz edəcək.

Doğrudan da, vaxt keçdi, vədə gəldi, insanlar bütün dünyaya yayıldılar. Amma həmin uğuzların üç-dörd metrlik qəbirlərinə indi də torpaqlarımızın çox yerlərində rast gəlmək olur.

Tufan mifləri

14

Nuh böyük bir gəmi düzəltdirir, bütün canlılardan ora götürür. Tufan başlanır. Yer üzünü su basır. Yer üzündəki bütün canlılar tələf olur. Xeyli

vaxt keçir, gəminin bir yerindən deşik açılır, gəmiyə su dolmağa başlaır. Deşiyi qapaya bilmirlər. Nuh deyir ki, kim deşiyi qapaya bilsə, onun arzusunu yerinə yetirəcəyəm. Bu zaman gəmidə olan böyük bir ilan qıvrılıb deşiyi qapayır, gəmiyə daha su dolmur. Bir qədər sonra tufan sakitləşir, su çəkilir. Nuh gəmidəki canlıları yer üzərinə buraxır.

Bu hadisədən bir müddət keçir. Bir gün ilanın yadına Nuh peyğəmbərin dediyi söz düşür. O, Nuhun yanına gəlir, sözü yadına salır. Nuh ondan nə istədiyini soruşur. İlan deyir:

– Mən istəyirəm ki, mənim nəslimə dünyadakı ən şirin şeyi yeməyə izin verəsən.

Nuh razı olur. Qaranquşla arını dünyada ən şirin şeyi axtarmağa göndərir.

Qaranquşla arı uzun müddət gəzir, hər şeyin şirinliyini yoxlayırlar. Axırda arı deyir ki, ən şirin şey insan ətidi.

Onlar geri qayıdanda qaranquş insanları xilas eləməkdən ötrü aldadıb arının dilini dimdikləyib qoparır. Arı danışa bilmir, vızıldaya-vızıldaya bir təhər qaranquşdan soruşur:

– Sən məni niyə bu günə saldın?

Qaranquş arının sözünü cavabsız qoymur:

– Niyə sən təkcə insan ətinin şirinliyini gördün? O bizə ev tikir, isti yuva qurur, bizi qoruyur. Sən bunları niyə görmədin?

Arı nə qədər vızıldayırsa cavab verə bilmir, dili tutulur.

Onlar Nuhun yanına gəlirlər. Arı özünü qabağa verir. Çox çalışır, çox vızıldayır, ancaq bir şey anlada bilmir. Qaranquş deyir:

– Ən şirin şey torpaqdır.

Nuh ilana yemək üçün torpağı verir. İşin içində kələk olduğunu başa düşən ilan qaranquşu tutub məhv etmək istəyir. Lakin qaranquş uçub onun əlindən çıxır. İlan yalnız onun quyruğunu dişləyə bilir. Elə o gündən arı vızıldayır, qaranquşun da quyruğu haça qalır.

15

Nuh xəbər tutur ki, dünyanı su alacaq. Əl-ayağa düşür, gəmi hazırlayır, heyvanların hərəsindən bir cütünü də gəmiyə qoyur ki, onların nəsli kəsilməsin.

İşdən halı olan, dünya görmüş, ömür sürmüş ağbirçək bir qarı Nuha yaxınlaşıb deyir.:

– Məni də özünlə apar.

Nuh söz verir, amma səfər zamanı verdiyi söz yadından çıxır, qarı qalır yer üzündə.

Vaxt gəlir. Bir yağış yağır, bir yağış yağır, tut ucundan çıx göyə. Çaylar şahə qalxır, sel dağları qopartmaq istəyir. Hər yan suya qarışır, yer görünməz olur.

Vaxt keçir, vədə yetişir, gün çıxır. Günəşin zərbindən su ərşə çəkilir. Nuh qayıdanda qarı düşür yadına. Gedir ki, onun öldüsündən-qaldısından

bir xəbər tutsun. Qarının evinə yaxınlaşanda qulağına səs düşür, dinləyib görür ki, cəhrə səsidi, qarı salamatdı, özü də ip əyirir. Soruşur:

– Qarı, dünyanı su aldı, sən bunu görmədinmi, bilmədinmi?

– Yer üzünü su almağını ondan bildim ki, piltələrim bir az nəm kimi oldu.

Nuh barmağını dişləyir, başa düşür ki, qarı qoca dünyanın özü imiş.

16

Dünyanı su basanda Nuh gəmisi ilə bərabər qalıbmış su üzündə. Gün keçir, vaxt dolanır, su yavaş-yavaş çəkilməyə başlayır. Su çəkildikcə gəmi aşağı enir. Bir vaxt görürlər ki, gəmi nəsə ağır bir şeyə toxundu. Nuh deyir:

– Bu nə ağır şeydi?!

Su yatanda baxırlar ki, bu ağır şey böyük bir dağdı. Nuh bu dağın adını Ağır dağ qoyur. Günün istisindən su yenə də çəkilir. Az keçmir ki, gəmi lap bərk silkələnir. Nuh deyir:

– İnanın ki, bu da dağdı.

Buna görə də Ağır dağa Ağrı dağ, gəminin ikinci dəfə toxunduğu dağa İlanlı deyirlər.

17

Allahdan Nuh peyğəmbərə xəbər gəlir ki, tufan qopacaq, dünyanı su basacaq. Yır-yığış elə. Nuh yekə bir gəmi düzəltdirir. Yer üzündəki canlılardan bu gəmiyə doldurub dənizə çıxır. Tufan başlayır, nə başlayır. Hər yanı su alır. Nuh xeyli vaxt dənizdə qalır. Tufan sakitləşəndən sonra Nuh öyrənmək istəyir ki, quru yer var, ya yox. Odur ki, qarğanı xəbər gətirməyə göndərir.

Qarğa da o vaxta qədər ağ rəngli quş imiş. O uçub axtara-axtara gəlir və quru yeri tapır. Görür ki, həm də qışdır. Hər yan qarla örtülüb. Qarğa qurunu tapdıqdan sonra Nuhun yanına qayıtmır. Nuh bunu başa düşür, qarğanı qarğayır: – Səni görüm, qara rəngli quş olasan! Qarğa o saat qara rəngli quşa çevrilir. Amma özü bunu bilmir. Qar əriyəndə bir də baxıb görür ki, bunun da rəngi qaralıb. Elə başa düşür ki, onun ağ rəngini qar özü ilə aparır. Odur ki, "qarr, qarr" oxumaqla qarı çağırır ki, onun rəngini qaytarsın. Elə indi də qarğa qarıldayanda adamlar deyirlər ki, bəs qar yağacaq.

Nuh peyğəmbər qarğadan sonra, xəbər gətirmək üçün göyərçini gəmidən uçurur. O gedib quru yeri tapır və şad xəbərlə Nuhun yanına qayıdır. Elə o vaxtdan göyərçin xəbər aparıb, xəbər gətirən quş kimi tanınır.

18

Nuh peyğəmbərin Ham, Sam, Yafəs adlı üç oğlu və Vəjilə adlı bir qızı var imiş. Tufanın başlanacağını eşidən Nuh gəmi düzəltdirmək fikrinə

düşür. Və bu işi üç qonur gözlü kişiyə tapşırır. Əvəzində də qızı Vəjiləni onlara boyun olur. Qonurgözlülər Nuhun istədiyini can-başla yerinə yetirirlər. Vaxt-vədədə olan olur, keçən keçir. Tufan sovuşur. Nuh quruya qayıdır. Qonurgözlülər Nuhdan qızı istəyirlər. Nuh qalır iki od arasında. Qonurgözlülər üç, qız isə bir. Bəs indi bu iş necə olsun? Bu vaxt Allah taala Cəbrayılla sifariş göndərir ki, Nuh qızını eşşəyi və iti ilə bir dama salsın. Nuh belə də eləyir. Sabahısı gəlib görür ki, paho, eşşək də, it də dönüb olublar qız. Özü də eynən Vəjiləyə oxşayırlar. Nuh öz doğma qızını bunların arasında tanıya bilmir. Çar-naçar, haxbabam deyib bu "qızların" hərəsini bir qonurgözlüyə verir. Ay keçir, il dolanır. Nuh qızlarına baş çəkməyə yollanır. O, gəlib qonurgözlülərdən birinin yurduna yetişir. Hal-əhval tutub yaşayışlarını soruşur. Qonurgözlü deyir:

– Mənim xanımımla yaşamaq cəhənnəm əzabından da pisdir. O, hey deyinir, yetənə yetir, yetməyənə də bir daş atır. Çox bədxasiyyətdir.

Nuh barmağını dişləyir. Bilir ki, bu itdən dönən qızdır. Oradan durub ikinci qonurgözlügilə gəlir. Bu da arvadının yeməkdən doymayan, deyilən sözü bu qulağından alıb o biri qulağından ötürən, qonaq-qara saymayan, ədəb-ərkan qanmayan, şah tənbəli olduğunu bildirir. Nuh peyğəmbər başa düşür ki, bəli, bu da eşşəkdən dönən qızdır. Üçüncü qonurgözlü isə arvadının səliqə-sahmanından, işcilliyindən, ağıl-kamalından, mərifət yiyəsi olduğundan danışdıqca danışır. Beləcə, Nuh öz qızını tanıyır.

Təqvim mifləri

19

Qabaqlar insanlar bilmirmişlər ki, illəri necə adlandırsınlar. Novruz bayramında bilicilər yığışıb çıxırlar gəzməyə. Deyirlər ki, qabağımıza hansı heyvan çıxsa, o heyvanın adını verəcəyik bir ilə.

Bunların qabağına on iki heyvan çıxır. O heyvanların adları ilə on iki ilə ad verirlər. Özü də il hansı heyvanın üstündə təhvil olsa, insanlar o heyvanın xasiyyətində olar.

Birincisi, onlar donuza rast gəlirlər. Donuz ilində insanlar salamat olarlar.

İkincisi, siçan ilidir. İnsanlar siçan kimi olarlar, hər şeyi gəmirib dağıdarlar.

Üçüncüsü, öküz ilidir. İnsanlar işlək olarlar.

Dördüncüsü, pələng ilidir. İnsanlar pələng kimi yırtıcı olarlar.

Beşincisi, dovşan ilidir. İnsanlar dovşan kimi qorxaq olarlar.

Altıncısı, balıq ilidir. İnsanlar suda çox hərəkət etməyi xoşlayarlar.

Yeddincisi, ilan ilidir. Bu ildə insanlar bir birlərinə acı sözlər deyərlər.

Səkkizincisi, at ilidir. Bu ildə insanlar dözümlü olarlar.

Doqquzuncusu, qoyun ilidir. Bu ildə həlim, mehriban olarlar.

Onuncusu, meymun ilidir. Bu ildə insanlar meymun kimi oyunbaz olarlar.

On birincisi, quş ilidir. Bu ildə insanlar daha çox xəyalpərəst olarlar.

On ikincisi, it ilidir. Bu ildə insanlar daha çox dava-dalaşa meyl edərlər.

20

Bir padşah görür ki, onun ölkəsindəki adamlar tez-tez illəri bir-birinə qatışdırırlar. Çünki illərin adı yox imiş. Padşah fikirləşir ki, gərək illərə ad qoyam. Durur çıxır səfərə. Uçardan, qaçardan, sürünəndən onun qarşısına hansı çıxırsa, bunun adını verir bir ilə. Padşahın qarşısına on iki canlı çıxdığı üçün on iki də il adı düzəldir. Həmin canlılar bunlardır: donuz, siçan, pələng, dovşan, öküz, at, qoyun, meymun, quş, ilan, balıq.

21

Lap qədim zamanlarda aylar yox imiş. Bir vaxt insanlar görürlər ki, ilin günlərini qarışdırıblar. Durub ilin günlərini aylara bölürlər. Hər aya otuz iki gün verirlər. Boz aya on dörd gün qalır. Görürdər ki, Boz ay incidi. Durub qalan ayların hərəsindən bir gün alıb verirlər Boz aya. Onlar olur otuz bir gün, Boz ay olur iyirmi beş gün. Görürlər ki, Boz ay yenə narazı qaldı. Qayıdıb aylardan yenə bir gün istəyirlər. Ayların yarısı deyir ki, daha otuz bir günümüz var. Öz günlərimizdən verə bilmərik. O biri yarısı isə Boz aya bir gün verir, hətta birisi iki-üç gün verir. Boz ay olur otuz bir gün. Qalanlarının da bəzisi otuz bir gün, bəzisi otuz gün, bəzisi isə iyirmi doqquz, iyirmi səkkiz gün olur.

Boz ay günlərinin çoxunu o biri aylardan aldığı üçün qarışıqdı, bir cür deyil. Çünki Boz ay soyuq günlərini qış aylarından, isti günlərini yay aylarından, yağışlı günlərini isə yazla payızdan alıb.

22

İli bölüblər aylara, mart ayına gün çatmayıb. Götürüb bütün ayların hərəsindən bir neçə gün kəsib veriblər həmin aya. Ona görə də mart ayı dəyişkəndir.

23

Qış qoca bir qarı idi. Onun üç oğlu var idi. Böyük çillə, Kiçik çillə, Boz ay. Anaları birinci Böyük çilləni adamların arasına yollayır. Bu, gedib qayıdır. Anası soruşur ki, nə etdin?

Deyir:

– Adamları ocağın qırağına düzüb gəldim.

Sonra Kiçik çillə gedir. Qayıdanda anası ondan da nə etdiyini soruşur. Kiçik çillə cavab verir:

– Adamları ocağın içinə doldurdum gəldim.

Axırda Boz ay gedir. Bu qayıdıb gələndə də anası ondan gördüyü işi soruşur. Boz ay deyir:

– Mən qardaşlarımın işini tərsinə etdim. Hamını ocaqdan çıxarıb qayıtdım.

24

Üç çillə var: Böyük çillə, Kiçik çillə, bir də Boz çillə. Böyük çillə deyir ki, dolu qazanlar üstünə gəlmişəm, qarıları sağlam görmüşəm.

Qırx gün yaşayandan sonra bu gedir. Yolda Kiçik çilləynən qarşılaşır. Kiçik çillə soruşur ki, getdin nə etdin, nə gördün? Böyük çillə elədiyini, gördüyünü deyir. Kiçik çillə deyir ki, eh, sən heç nə eləməmisən. Mən gedib qazanları ağzı üstə çevirəcəyəm, qarıları təndirin ağzından basıb külfədən çıxaracağam.

Boz çillə də bu yandan çıxıb deyir ki, sənin acığına mən də gedib əkinləri cücərdəcəyəm.

25

Böyük çilləynən Kiçik çillə yolda rastlaşırlar. Kiçik çillə böyükdən soruşur:

– Getdin nə etdin?

Böyük çillə deyir:

– Təndirləri yandırdım, kürsüləri qurdurdum, küplərin, xaralların ağzını açdırdım.

Kiçik çillə deyir:

– Qoy mən gedim, gör nə edəcəyəm. Qarıları təndirin ağzından basıb külfədən çıxaracağam, küpləri, xaralları boşaldacağam, üzüqoylu qoyub gələcəyəm.

Böyük çillə də deyir:

– Bacarmazsan. Qabağın yazdır, ömrün azdır.

26

Bir qarının xeyli oğlağı (çəpişləri) var idi. Qışın axırı idi. Qarının otuələfi qurtarır. Bir təhər, ölüm-zülüm martı keçirir. Çöldə ot-zad göyərir. Oğlaqlar yeyib oynaşır. Qarı bunu görüb marta acıq verir:

Mart gözünə barmağım,
Oynaşır oğlaqlarım.

Bu sözlər martı qəzəbləndirir. Gəlir aprelin yanına ki, mənə on gün borc ver, işim var. O da verir. Bu on gündə mart bir çovğun, bir tufan eləyir ki, gəl görəsən. Qarının bircə oğlağı da qalmır, hamısı qırılır. "Qarı borcu" da bu vaxtdan qalıb. Odur deyirlər ki, "mart çıxdı – dərd çıxdı".

27

Qış adlı bir kişinin Böyük çillə, Kiçik çillə, Boz ay adlı üç oğlu var imiş. Qış əvvəlcə ilkini – Böyük çilləni qırx günlük səfərə göndərir ki, gedib el-obaları gəzsin, dünyaya tamaşa eləsin, görsün nə var, nə yox, adamlar necə yaşayır, necə işləyir.

Böyük çillə altdan-üstdən bərk-bərk geyindi. Ağ qar yapıncısını da çiyinlərinə salıb yola çıxdı. Az getdi, çox dayandı, çox getdi, az dayandı, axır ki, aralıq ayının, yəni dekabrın iyirmi ikisində gəlib el-obaya yetişdi.

Adamlar səhər yuxudan oyanıb eşiyə baxanda gördülər ki, paho... Hər yan ağappaq qardı. O saat barmaqlarını dişlədilər ki, Böyük çillə gəlib çıxıb. Deməli, nə az, nə çox, düz qırx gün, qırx gecə dağda-düzdə, kənddə-kəsəkdə bu, öz qar atını belədən belə,elədən elə çapacaq. Nə etməli? Böyük çillənin qarından-soyuqundan qorxub evin bir küncünə çəkilmək olmazdı ki! Bəs onda iş-gücün qulpundan kim yapışacaq?

Xaralların ağzı açıldı. Buğda götürülüb səməni göyərdildi. Göyərdilmiş səməni taxta çanaqda, tabaqda döyülüb suyu sıxılardı. Yeddi qonşu evdən un alınıb bu səməni suyunda sıyıq xəmir yoğruldu. Xəmir iri tavada ocaq üstə qoyuldu. Başladılar səməni halvası bişirməyə.

Halva bişənə yaxın onun içinə badam, qoz ləpəsi də salındı. Uşaqlar, cavanlar, qız-gəlinlər dəstə ilə səməni tavasının dövrəsinə dolana-dolana səs-səsə verib nəğmə oxudular:

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldım badam,
Qoymurlar bir barmaq dadam...

Halva bişəndən sonra qara istiot, darçın, mixək, razyana, ceviz, quluncan, badyan, qulsakəmər, zəncəfil, hil kimi ədviyyatı da döyüb ona qatırlar. Qoğal, kündə şəklində yumurlayıb qonşulara da payladılar. Halvanı elə böldülər ki, hər payda badam, qoz ləpəsindən də oldu. Axı bu həmişə el içində xeyir-bərəkət rəmzi sayılıb. Adamlar səməni halvasını yeyir, canları qızışırdı. Böyük çillənin qar-soyuğunu veclərinə də almayıb, elə öz işlərini görürdülər.

Qırx gün qurtardı. Böyük çillə kor-peşman geri qayıtdı. Yolda Soyuq ayın – fevralın lap başlanğıcında ortancıl qardaşa – Kiçik çilləyə rast oldu. Hal-əhval tutdular. Kiçik çillə dedi:

– Hə, qardaş, de görək, getdin nə iş gördün?

Böyük çillə dedi:

– Təndirləri yandırdım, kürsüləri qurdurdum, küplərin, xarallarn ağzını açdırdım.

Kiçik çillə dedi:

– Eh, heç nə eləməmisən ki. Bax, indi gör mən gedib nələr edəcəyəm! Qarıları təndirin ağzından basıb külfəsindən çıxaracağam. Zəhmimdən

uşaqlar tir-tir əsəcəklər. Xaralları, küpləri bomboş boşaldacağam, qazanları ağzı üstə çevirəcəyəm

Böyük çillə dedi:

– Çox da öyünmə. Sən insanları tanımırsan. Mən qırx günlük ömrümlə heç bir iş görə bilmədim. Sənin cəmi-cümlətanı iyirmi günlük ömrün var. Bu iyirmi gündə heç yel də olub onların yanından ötə bilməzsən.

Kiçik çillə böyük qardaşından ayrılıb haray-həşir qopara-qopara, boranla, dumanla el-obaya hücum çəkdi. Elə bil dünyanın axırıydı.

Böyük çilləni dambadurumla yola salan adamlar heç Kiçik çillənin də belə əsib coşmasından qorxub çəkinmədilər. Tez "Xıdır nəbi" mərasiminə tədarük görməyə başladılar. "Xıdır nəbi" mərasimi qışın ən soyuq günü sayılan Kiçik çillənin onuncu günü keçirilir. Adamlar buğda qovurub əl dəyirmanında üyüdüb qovut elədilər. Xaşıl, quymaq bişirib yağla, doşabla, sarıköklə yedilər. Canları qızışdı. Kiçik çillənin soyuğundan qorxmadıqlarını bildirmək üçün yaydan saxladıqları "Çillə qarpızı"nı da kəsdilər. Qaynadılmış yumurtaları bahar, Günəş rəmzi kimi yaşıl, qırmızı rəngdə boyadılar.

Uşaqlar da axşam qaranlıq düşəndə həyətləri gəzib bacalardan qurşaq, torba salladılar. "Xıdır nəbi" mərasimi nəğmələrindən oxudular:

Xanım, ayağa durşana,
Yük dibinə varsana,
Boşqabı doldursana,
Xıdırı yola salsana.

Uşaqlara qovutdan, boyadılmış yumurtalardan, ərik, əncir, alma, armud qurusundan pay verdilər. Pay verməyəni yenə də elə "Xıdır nəbi" nəğməsi ilə yamanladılar:

Çatma, çatma,çatmaya,
Çatma yerə batmaya,
Xıdır payın kəsənin,
Ayağı yerə çatmaya,
Gecə evində yatmaya.

Beləcə, Kiçik çillənin iyirmi günlük ömrü qurtardı. Lovğa-lovğa gələn Kiçik çillə suyu süzülə-süzülə geri qayıtdı. O da yolda sonbeşikləri – Boz ayla qarşılaşdı.

Boz ay baxdı ki, özündən böyük qardaşı – Kiçik çillənin qanı yamanca qaradı. Az qalır, hirsindən ürəyi partlasın. Dedi:

– Əziz qardaşım, Kiçik çillə, sən də böyük qardaşımız – Böyük çillə kimi insanların yanına xoş niyyətlə getməmişdin. Elə ikiniz də asaram-kəsərəm deyirdiniz. Amma indi baxın, görün mən gedib nə cləyəcəyəm. Mən adamlar üçün bayram aparacağam. Əkinləri cücərdəcəyəm. Çöllərdə, düzlərdə ot-ələf göyərdəcəyəm. Bağ-bağçalarda gül-çiçək açdıracağam.

İki qardaş ayrıldılar. Boz ay fevralın iyirmi ikisində gəldi adamların yanına. Bir ay ömrü olan, Bahar bayramı gününəcən yaşayan Boz ay başladı hər çərşənbədə bir iş görməyə: havaları qızdırdı, suların şaxını sındırdı, ağacları yuxudan oyatdı, torpağın canını isitdi. Adamlar torpağın istiləşdiyini görüb onu şumlamağa, əkin-biçinə hazırlaşmağa başladılar.

Boz ayın çərşənbələrində həyətdə tonqallar yandırıldı. Adamlar "Ağırlığım-uğurluğum tökülsün" deyib bu tonqalın üstündən hoppanmağa başladılar. Boz ay da beləcə ömür sürüb vaxtını başa vurdu. Artıq yer-yurd yaşıla bürünmüşdü. Üç qardaş köçünü sürüb gedirdi və onların yerinə istəkli bir qonaq gəlirdi – gözəllər gözəli Bahar...

28

Novruz bayramına açılacaq gündüzün gecəsində, Dan ulduzu doğulan vaxt çayların suyu bir an dayanır, yenidən axır. Kim həmin vaxt nə arzu eləsə, dilində hansı sözü desə o iş hasil olar. Araz qırağındakı kəndlərin birində yaşayan ərlə arvad ilin axır gecəsi, Dan ulduzu doğan zaman yekə bir daşı götürüb çayın qırağına gəlirlər. Bir qədər gözləyirlər. Arvad bir də baxır ki, Arazın suyu dayandı. Tez əlini arxaya atıb:

– Bu, qızıl olsun, – deyir. Sonra arxaya çevriləndə nə görsə yaxşıdı? Sən demə, qadın daş əvəzinə əlini ərinə vurubmuş və əri də o saat dönüb olub qızıl. O, xəlvətcə qızıl olmuş ərini gətirib evdə gizlədir. Qohum-qonşulara, uşuqlarına da deyir ki, ərim uzaq məmləkətə işləməyə gedib.

Sahibsiz qalan qadın gecə-gündüz ağlayır, peşimançılıq çəkir. Bir müddətdən sonra evdəki yemək-içmək tamam tükənir. O, bilmir ki, dərdini kimə desin. Axırda çarəsiz qalıb qızıl olmuş ərinin çeçələ barmağını kəsir, aparıb zərgərə verir, əvəzində pul alır və uşaqlarını bir təhər dolandırmağa başlayır. Nəhayət, yenə də ilin son gecəsi gəlib yetişir. Arvad qızıl olmuş ərini axşamdan götürüb gedir Arazın qırağına, gözləməyə başlayır. Dan ulduzu doğan zaman birdən Araz yenə dayanır. Arvad əlini qızılla vurub deyir: – Bu, adam olsun. Kişi o saat asqırıb ayılır. Qadın başına gələn əhvalatı ona danışır. Bundan sonra əkin-biçin eləyib firavan dolanırlar. Amma kişinin çeçələ barmağı olmur.

29

İlin axır çərşənbə gecəsi ərlə arvad evlərində yatmışdılar. Gecənin bir vaxtında arvad yuxudan ayılıb ərini səsləyir:

– A kişi, yadımdan çıxıb buzovu bağlamamışam.

Sonra arvad yuxulu-yuxulu çölə çıxıb görür ki, həyətdə böyrü üstə bir ağac yıxılıb. Buzovu gətirib həmin ağaca bağlayır, qayıdıb yerinə girib yatır.

Kişi səhər yuxudan duranda görür ki, buzov ağacın başından sallanır. Tez arvadını çağırır. Arvad gəlib bu vəziyyəti görəndə gecəki hadisəni

ona danışır. Adamlar yığışıb fikirləşirlər ki, bu necə olan işdi?! Sonra qocalardan biri deyir ki, ilin axır çərşənbə axşamı hər şey yatır. Yəqin ağac da yatıbmış, arvad buzovu gətirib ona bağlayıb. Ağac oyananda buzovu da özü ilə qaldırıb.

30

Yazın ilk gecəsi imiş. Bir arvad durur ki, inəyi sulasın. İnəyi sulayır, görür ki, çayın qırağında bir söyüd ağacı var. Söyüd ağacı yerə əyilib. Belə ağlına gəlir ki, inəyi buradaca söyüdə bağlasın, söyüdün təzəcə göyərməyə başlayan budaqlarından inək yesin. İnəyi bağlayb evinə gedir. Sabah açılır. Qadın gəlir ki, inəyi aparsın. Baxıb görür ki, söyüd başını yuxarı qaldırıb inək də ağacın başında boğulub ölüb.

Heyvan və bitkilərə aid miflər

31

Bir zamanlar bizim meşələr marallar, ceyranlar oylağı imiş. Uzaq-uzaq ellərdən də bura ova gələrmişlər. Bir gün bura mahir ovçu gəlir. O, neçə günahsız qana bais olubmuş. İsti günlərdən biri imiş. Ovçu çoxdan bəri axtardığı bir ana maralın izinə düşür. Deyilənə görə, elə gözəl heyvan yox imiş. Ovçu onu bulağa su içməyə enəndə vurur. Köksündən yaralanmış maral çırpına-çırpına gah suya, gah da meşəyə baxır. Onun başını kəsmək istəyən ovçu gözlərindən axan yaşı görüb sarsılır. Maralın baxdığı səmtə çevriləndə anasına tərəf boylanan bir cüt bala görür. Əməlindən peşman olub, bir də ovçuluq etməyəcəyinə and içir. Maralı həmin yerdə basdırır. Üstünə də nişanə üçün bir ağac sancır. Səhərə yaxın kəndin əhalisi bulağın başında bitmiş qollu-budaqlı çinarı görüb heyran qalır. Hamı bu möcüzənin tamaşasına çıxır. Baxırlar ki, köhnə çinar quruyub. Ondan aralı kiçik təpəciyin yanında isə bir cüt bulaq əmələ gəlib. Ucalan çinar da hər iki bulağan ortasında bitib. Ovçu əhvalatı söyləyir. Bunu hərə bir yerə yozur. Elə o vaxtdan da bu bulaq "Maral bulağı" adlanır.

Deyilənlərə görə,indi də hər günorta Maral bulağına bir cüt maral enib su içir. Heç kəs də onlara dəyib dolaşmır.

32

Qabaqlarda yer göyə yaxın imiş. Kimin nə sözü, nə dərdi varmış, elə yerdəncə allaha deyərmiş.

Allah ağır işləri görməkdə insanlara kömək etmək istəyir. Ona görə də başlayır heyvanları, öküzləri, inəkləri yaratmağa. Özü də onlar danışa bilirlərmiş. İnsanlar başlayır bu heyvanları işlətməyə, harda ağır iş olsa, onlara gördürməyə. Axırda heyvanlar insanların əlindən təngə gəlirlər.

Yığışıb gedirlər allaha şikayətə. Deyirlər ki, bəs yorulduq, daha dözə bilmirik. İnsanlar bizi çox işlədirlər.

Allah onların şikayətini dinləyir. Görür ki, heyvanların nə qədər ki, dili var, hey danışıb insanlardan şikayət eləyəcəklər. Ona görə də heyvanların dilini alır, onlar danışa bilmirlər.

Dilsiz heyvanlar böyürə-böyürə bir də insanlardan şikayətə gedəndə görürlər ki, göy yerdən aralanıb, nə səs yetər, nə ün. O vaxtdan heyvanlar səslərini çıxarmadan insanların sözünə baxır, daha şikayət eləmək fikrinə düşmürlər.

33

Quşlar yarananda hamısı uçurmuş. Bir dəfə quşlardan biri deyib ki, allah qoysa sabah uçacağıq. Toyuq deyir ki, allah qoysa da, qoymasa da uçacağıq.

Quşlardan bir qismi onun dediyini təsdiqləyir.

Səhərisi bütün quşlar uçur. Ancaq toyuqla onun sözlərini təsdiqləyən quşlar nə qədər eləyirsə də, uça bilmirlər. Onlar indi də uça bilmirlər.

34

Bir gün insan oğlu fikirləşir ki, hər şeyin padşahı, böyüyü var. Quşların da gərək padşahı olsun. Bütün quşları yığıb deyir ki, hansınız lap yuxarı qalxsanız, onu padşah qoyacağam. Quşlar razı olur. Uçurlar, ancaq qartal hamısından hündürə uçur. Bu dəmdə insan oğlu görür ki, qartalın tükləri arasından cırt-cırt quşu çıxdı, lap yuxarı uçdu. Bunu quşlar da gördü, pərt oldular ki. bundan bizə padşah çıxmaz.

İnsan oğlu cırt-cırt quşuna deyir ki, sən lap yuxarı uçdun, ancaq kələyinən. Ona görə gərək sənə bir iş də tapşıram. Onu da eləsən, səni padşah qoyacağam. Get mənə elə bir çöp gətir ki, nə əyri olsun, nə də düz.

Deyirlər ki, cırt-cırt quşu o vaxtdan həmişə kolluqda gəzir, həmin çöpü axtarır, ancaq tapa bilmir. Qartal isə quşların padşahı olur.

35

Bir nəfər cavan oğlan gölün kənarında ot yığdığı zaman yanına bir göyərçin qonur. Göyərçin dönüb gözəl bir qız olur. Bu əhvalat bir neçə gün təkrar olur. Axırda bunlar sevişirlər. Hər gün bu göyərçinlə oğlan günün qızmar vaxtı göldə çimərlərmiş. Oğlan hər gün səhər tezdən durub gölün sahilinə gedərmiş. Həmin göyərçin də gəlib gölün yanında qız olub oğlanla söhbət edərmiş. Oğlanın ailəsi onun hər gün tezdən gedib axşam gəlməsindən narahat olur. Bir gün atası onları izləməyə başlayır. Bunların hər ikisi suda çimdiyi vaxt oğlanın atası bunların üstünə çıxır. Onların hər ikisi çox çığırırlar ki, yaxın gəlməsin, ancaq kişi buna fikir verməyib, onların paltarlarının yanında dayanır. Sudakılar kişidən utanıb sudan çıxa bilmirlər. İkisi də göyərçin olub havaya qalxır.

36

Keçmiş zamanlarda ilanla qaranquş bərk dost imişlər. Aralarından su keçməzmiş. Həmişə bir yerdə gəzər, tapdıqları yemi bir yerdə bölüb yeyərmişlər.

Bir dəfə ilanla qaranquş nə barədəsə söz ləşirlər. İş o yerə çatır ki, əlbəyaxa olub dalaşırlar. Qaranquş uçub göyün bir qatına qalxır. Oradan şığıyıb ilana hücum çəkir. Onun dilini dimdikdən keçirib yaralayır. İlan da fürəsti əldən vermir, yaralı-yaralı qaranquşa tərəf cumur. Nə fayda, gecikir. Yalnız quyruğunu qopara bilir.

Deyirlər elə o vaxtlardan ilanla qaranquşun bir-birini görməyə gözləri yoxdur. İlanın dilinin haçalığı, qaranquşun haçalı quyruğu elə həmin davadan qalmadır.

37

Günlərin bir günü obaya bir adam gəlib camaatdan soruşur ki, məni filan ocağa kim apara bilər? Camaatdan səs çıxmır, hannan-hana kasıb bir odunçu deyir ki, mən apararam. Qonaq odunçuya deyir ki, ocağa getsək, orada mənim dediklərimi yerinə yetirsən, sənə özün ağarlığında qızıl verəcəyəm. Onlar razılaşıb yola düşürlər, gəlirlər ocağa. Ocaqda bir qəbir var idi, özü də qəbirin üstünə qara örtük çəkilmişdi. Qonaq heybəsindən bir cür dərman çıxarıb odunçuya deyir: – Bax, qardaş, mən soyunacağam, sən də bu dərmanı mənim bədənimə sürtərsən. Elə olsun ki, iynənin ucu boyda belə dərman sürtülməmiş bir yer qalmasın. Dərman sürtüləndən sonra mən bayılıb huşsuz düşəcəyəm qəbirin yanına. Sən o üzdə gizlənib baxarsan. Qəbirdən bir ilan çıxacaq, mənim bütün bədənimi iyləyəcək, sonra yıxılıb öləcək. Elə ki, gördün ilan tərpənmir, al bu biri dərmanı da tutarsan mənim burnuma. Qalanıynan sənin işin yoxdu. Özün ağırlığında qızılı al, çıx get.

Odunçu razılaşır, qonağı soyundurub başlayır dərman sürtməyə. Bütün bədənini dərmanlayır, ancaq yadından çıxır qoltuğunun altına dərman sürtmür. Qonağın huşu gedir, bayılıb yerdə qalır. Odunçu bir yanda gizlənir, başlayır güdməyə. Bir də görür ki, qəbirin yuxarı tərəfindən bir ilan çıxdı ki, adamı diri gözlü udar. Bu ilan başlayır qonağı başdan-ayağacan iyləməyə, hər dəfə ilanın ağzı qonağın bədəninə toxunanda acıqlanır, fısıldaya-fısıldaya başını dala çəkir. Birdən ilan qonağın qoltuğunu iylədi, o saat oradan çalıb gəldiyi kimi də çıxıb getdi.

Odunçu bir az gözlədi. Sonra yaxınlaşıb ikinci dərmanı qonağın burnuna tutdu. Ancaq qonaq ayılmadı. Odunçu bir də baxdı ki, ay dadi-bidad, qonaq çoxdan ölüb. Qorxusundan bilmədi nə etsin. Çox çək-çevirdən sonra aparıb meyidi başqa bir yerdə basdırdı. Qonağın paltarlarını da gizlədib bu sirri hamıdan gizli saxladı.

Bir müddət keçdi. Bir gün odunçu müştəri gözlədiyi yerdə gördü ki, budur, həmin qonaq gəlir, ancaq bir az cavanlaşıb. Odunçunun gözləri

dörd oldu. Qaçıb qonağı qucaqladı ki, ağa, başına dönüm, sən sağsan. Tanrıya min şükür... Paltarlarını saxlamışam, buyur, gedək verim.

Qonaq bir söz deməyib odunçunun yanına düşdü. Odunçu gizlətdiyi yerdən paltarları çıxarıb qonağa verdi. Qonaq paltarları görən kimi başladı hönkür-hönkür ağlamağa. Odunçu soruşdu ki, bəs niyə ağlayırsan? Qonaq dedi: – A kişi, sən məni yox, mənim atamı ocağa aparmısan. Bu paltarlar da onundu. Neçə il idi ki, atamın öldüsü-qaldısı xəbərini bilən yox idi. Ayrılanda demişdi ki, əgər qayıtmasam, işimi yarımçıq qoyma, dalımca gəl. İndi mən də gəlmişəm.

Odunçu bir az qorxdu. Elə fikirləşdi ki, onu qanlı tutacaqlar. Oğlan dedi: – Əmi, qorxma, işdi, olub. Ancaq yəqin sən onun bədənini yaxşı dərmanlamamısan. Harasısa açıq qalıb, ilan da atamı vurub.

Odunçu başladı başına-gözünə döyüb ağlamağa ki, bəli, mən onun qoltuğunun altını dərmanlamamışdım. İlan da oradan onu vurdu. Qonaq dedi ki, nəsə, olan olub. İndi dur gedək əvvəlcə atamın qəbrini göstər, sonra da məni apar ocağa.

Odunçu qonağı gətirdi atasını basdırdığı o yerə. Bir az ağlaşdılar, sonra gəldilər ocağa. Qonaq heybəsindən dərmanları çıxarıb odunçuya verdi, dedi ki, ala, atam sənə necə demişdisə, o cür də elə. Ancaq yadından çıxartma ki, gərək iynənin ucu boyda dərman sürtülməmiş yer qalmasın.

Odunçu dərmanı qonağın bədəninə sürtüb bir tərəfdə gizləndi. Bir də gördü ki, həmin ilan gəldi, başladı bayılmış qonağı iyləməyə. Ancaq bu dəfə odunçu dərmanı elə sürtmüşdü ki, iynənin ucu boyda da açıq yer qalmamışdı. İlan qonağı iylədi, iylədi, açıq yer tapmayıb hirsindən, hikkəsindən bağrı çatladı, qonağın yanında uzanıb öldü. Odunçu gördü ki, ilan ,tərpənmir, yaxınlaşıb ikinci dərmanı tutdu qonağın burnuna. Qonaq ayıldı, ilanı ölmüş görüb çox sevindi. Paltarlarını geyəndən sonra heybəsindən bir tava çıxartdı. Bıçaq ilə ilanın başından və quyruğundan bir qarış kəsib atdı, qalanını da doğrayıb tavaya tökdü, ocaq qalayıb başladı qızartmağa. İlan öz yağında qızardı. Qonaq tavanı qabağına çəkib ətin hamısını yedi. Sonra durub harasa getdi.

Odunçunun ağzı açıla qalmışdı. Fikirləşirdi ki, görəsən bu nə sirdi? İlanı niyə yeyirlər? Çəkinə-çəkinə tavaya baxdı. Tavada bir azca yağ qalmışdı. Odunçu "nə olur-olsun" deyib, barmağını bu yağa batırdı, ağzına qoydu. Gördü ki, çox dadlıdı, bütün tavanı sivirdi. Birdən qulağına bir səs gəldi. Baxdı ki, xırdaca bir ot deyir: – "Mən filan dərdin dərmanıyam". Böyründəki bir daş da pıçıldayır ki, mənim altımda qızıl var, qaz onu çıxar. Odunçu bildi ki, bu ilanı yeyən adam bütün canlıların, cansızların dilini başa düşür.

Bu zaman qonaq qayıdıb gəlib odunçuya dedi:

– Qardaş, atamla şərtləşdiyin kimi, özün ağırlığında qızıl sənin haqqındı. Haqqını göndərdim evinə, dur get, ona yiyə ol.

Birdən qonağın gözü sataşdı tavaya. Gördü ki, odunçu tavadakı yağı sivirib. Fikirləşdi ki, bu sirri ikinci adam da bilsə, sirr puç olar. Tez cibindən bir ot çıxarıb verdi odunçuya ki, ala bunu ye. Odunçu otu yedi, hər şey yadından çıxdı. Elə bil arada heç nə olmayıb, elə əvvəlki adamdı ki, durub. Odunçu gəldi evinə, qonağı da heç vaxt xatırlamadı. Ancaq hərdən təəccüblənirdi ki, kisə dolu qızılı onun evinə kim göndərib?

38

Ötən zamanlarda əldən-ayaqdan uzaq bir kənddə bir kişi vardı. Atababa günündə bu kişi qəbr üstünə gedərdi. Bir gün yenə qəbristanlığa gələndə bir səs eşitdi:

– Ay kişi, tez qayıt kəndə, gir filan evə, arvadıma de, bəs durmasın gəlsin, burada onu gözləyirəm.

Kişi o yana-bu yana baxıb heç kimi görmədi, təzədən düzəldi yola. Səs bir də gəldi :

– Sənə demədimmi qayıt kəndə, mənim arvadıma de gəlsin, onu gözləyirəm?!

Kişi yenə o tərəf-bu tərəfə baxıb bir kimsəni görmədi. Fikirləşdi ki, bəs bu nə olan işdi, bura qəbristanlıqdı, məndən başqa burada bir kəs yoxdu, xortdayıb qəbirdən çıxan da yoxdu ki, deyim bəlkə onun səsidi? Birdən ağlına gəldi ki, bu, yəqin ölənlərdən birinin ruhudu məni çağırır. Özü də eşitmişdi ki, dədə-baba günü ölənlərin ruhu ev-eşiyi gəzir. Həmin günlərdə adamlar onların adına qazan asır, bişmiş bişirirlər. Odur ki, kişi qorxmayıb dilləndi:

– Tutaq ki, mən getdim sizə, tapşırığını da dedim, arvadın buna inanarmı?

Onda səs kişiyə bir ot uzatdı. Kişi otu əlinə alan kimi gördü ki, hər tərəf ruhla doludu. O daha dayanmayıb bir baş səs dediyi evə gəldi. Gördü ki, kişinin arvadı ölüb, ruhu da evdə dolanır. Kişi arvadın ruhuna dedi ki, bəs ərin səni qəbristanlıqda gözləyir. Mənə tapşırdı, sənə deyim, tez onun yanına gedəsən.

Arvadın ruhu duruxdu. Kişi ona dedi ki, niyə dayanıbsan, tez ol get, ərin səni gözləyir. Arvadın ruhu kişidən soruşdu ki, sən məni necə görürsən? Kişi əlindəki otu göstərib ona dedi ki, bəs otu ərin mənə səni görmək üçün verib.

Arvadın ruhu tez kişinin üstünə atıldı ki, otu ondan alsın. Onlar əlbəyaxa oldular. Kişi qışqırıb camaatı köməyə çağırdı. Qonum-qonşu tökülüb gəldi. Gördülər ki, kişi kiminləsə əlbəyaxadadı. Ancaq yanında özündən savayı bir kimsə yoxdu. Bu işə mat qaldılar.

Bu vaxt arvadın ruhu özünü kişiyə elə toxudu ki, kişinin ovcunda tutduğu ot əlindən yerə düşdü. Arvadın ruhu tez əyilib onu götürmək istəyəndə bir it özünü yetirib otu uddu. O vaxtdan da itlər ruh görəndə ulayır.

39

Qırğı ilə gürzə bərk dost imişlər. Bir gün gürzə qırğının süzdüyü göylərə həsrətlə baxıb deyir:

– Qardaş, sən istədiyin vaxt göylərə qalxırsan, istədiyin vaxt yerə enirsən, mənimlə gəzirsən. Mən yazıq isə həmişə yerdə sürünürəm. Heç göyə çıxa bilmirəm ki, görüm oralar necə yerdi. Nə olar, məni də bircə dəfə göyə qaldır.

Qırğı dostunun sözünü yerə salmır. Onu caynağına götürüb göylərə qaldırır. Əvvəl çayların, dənizlərin üstündən keçirlər. Gürzə bərk qorxur ki, birdən qırğıdı da, buraxar caynaqlarından, o da düşər suya ölüb gedər. Elə ki, dəniz qurtardı, quru yerlərin üstündən keçməyə başladılar, o saat gürzənin ağlına pis fikirlər gəldi. İstədi dostluğa xəyanət eləsin. Qırğını çalıb öldürsün, yerə düşəndə də yesin.

Qırğı gürzənin ürəyindən keçənləri duydu. Tez caynaqlarını onun boğazına ilişdirib tərpənməyə qoymadı. Elə sıxdı ki, gürzənin gözləri yerindən oynadı, az qaldı çıxıb düşsün. Qırğı süzüb yerə endi. Gürzəni yarımcan halda torpağa düz uzadıb dedi:

– Bax, mən istəyirdim ki, sən dostluqda beləcə düz olasan. Ancaq görürəm ki, yolunu əyirsən. Səndən mənə dost olmaz.

40

Keçmişdə Şahişonqar bütün quşların padşahı imiş. Onun vəziri tərlan, vəkili qırqovul, məsləhətçisi isə qartal idi. Bir gün Şahişonqar quş bərk acıqlanır, vəzir-vəkilini, məsləhətçisini qovur. Alaqarğanı özünə vəzir, qara qarğanı vəkil, quzğunu məsləhətçi götürür.

Bir gün Şahişonqar quş Bağdada səfər edir. Bu vaxt Bağdad padşahı xəstələnir, Şahişonqar quşun qanını ona dərman buyururlar. Quşu tutmaq üçün hökmdarın əmri ilə yola bir neçə şaqqa ət, bir çəllək çaxır qoyurlar ki, quş gələndə əti yesin, çaxırı da içib özünü itirsin.

Şahişonqar quş vəzir-vəkili, məsləhətçisi ilə yoldan keçəndə əti görürlər. Vəzir-vəkil, məsləhətçi yerə enməyi təklif eləyirlər. Şahişonqar quş razı olmur ki, burada nə isə bir iş var. Nəhayət, onlar yerə enib, yeyib-içəndən sonra huşlarını itirib hərəsi bir yerə yıxılır. Bağdad hökmdarının adamları quşu tutub şahın hüzuruna gətirirlər. Şah əmr edir ki, tutuquşunu gətirsinlər. Tutuquşu Şahişonqardan xəbər alır ki, necə oldu, bu iş sənin başına gəldi? Şahişonqar quş tutuquşuna deyir ki, sən mənim ayağımdan qan alıb onun yarasına sürtsən şah sağalar. Padşah deyilənə əməl edir. Şahişonqar quş tutuquşuna deyir ki, mən göydən baxanda yerdəki buğda dənəsini də gözüm seçir. Kül o şahın başına ki, öz vəzir-vəkilinə inana. Mənim əvvəlki vəzirim tərlan, vəkilim qırqovul, məsləhətçim qartal idi. Onları çıxarıb yerinə alaqarğanı, qaraqarğanı, quzğunu qoydum. İndi mən uduzmuşam. Bir şahın ki, vəziri alaqarğa, vəkili qara-

qarğa, məsləhətçisi quzğun ola, o şahın axırı yoxdur. İndi, tutuquşu, sən padşahına de ki, neçə ki, həyatda yar heç vaxt vəzir, vəkilinin sözünə qulaq asmasın. Əgər sənin padşahın onların sözünə qulaq assa, mənim tək uduzar. Bu sözdən sonra padşah onu azad eləyir.

Bundan sonra Şahişonqar quş bir də heç nəyə yaxınlaşmır. O, evlənmir, nəsli törəmir. Ona görə də indi nəsli kəsilib.

41

Tısbağa gözəl bir gəlin imiş. Bir gün yuyunmaqçün su qızdırıbmış. Paltarını soyunub girir tasa, başlayır çimməyə. Birdən qayınatası içəri girir. Görür ki, gəlini tamam çılpaqdı. Gəlin də bilmir ki, neyləsin, harada gizlənsin. Üzünü göyə tərəf tutub yalvarır ki, nə ola bir iş ola, bədəni örtülə. Gəlinin ağzından söz qurtarmamış tas çevrilir onun üstünə, o da dönüb olur tısbağa. Deyirlər, tısbağanın çanağı həmin tasdı. Tısbağa həmişə bu çanağı belində gəzdirir ki, çılpaq bədəni görünməsin.

42

Bir gün itnən qurd rastlaşır. İt qurda deyir ki, gəl sən iy bilməyini mənə ver, mən də gücümü sənə verim. Qurd razı olur. İndi it iy bilir, qurd da güclüdür. Deyirlər ki, qurdun öz gücündən xəbəri yoxdur, yoxsa dünyanı dağıdar.

43

Lalə vaxtı ilə gözəl-göyçək bir qız imiş. El-oba həmişə onun gözəlliyini danışarmış. Bu qızın sorağı uzaq ellərə gedib çıxır. Hər yandan ona elçilər gəlir. Lalə onların heç birini bəyənmirmiş. Çünki öz obalarında sevdiyi oğlan varmış.

Lalə də, onun sevgilisi də öz istəklərini gizli saxlayar, açıb ağartmazmışlar. Oğlan ona elçi də göndərməmişdi. O da, qız da yaxşı bilirdi ki, elçi göndərməyin xeyri yoxdu. Qızın atası onu kasıb oğlana verməyəcək.

Lalə sevgilisinin həsrətinə dözə bilmir. Allahdan arzu eləyir ki, canını bu dərddən qurtarsın. Onun arzusu yerinə yetir. Qız dönüb lalə çiçəyi olur. Sinəsi isə sevgilisinə olan eşqindən yanıb qaralır.

44

Keçmiş zamanlarda Qızılgüllə Bülbül bir-birini ürəkdən sevirmişlər. Bunların sevgisi hər yana yayılır, axır gəlib qızın atasının qulağına çatır. Ata bərk qəzəblənir. Qızını çağırıb deyir ki, bu eşqdən əl çək. Qız çox yalvarır, amma ata heç cürə razı olmur.

Qız sevgilisi ilə qovuşmayacağını başa düşüb başqasına getməkdənsə, ölüm istəyir. Allaha yalvarır ki, bu arzusunu yerinə yetirsin. Amma Qızılgül ölmür, bir gülə çevrilir.

Bülbül sevgilisinin başına gələn əhvalatdan xəbərdar olub göz yaşı tökür. Onun ahı göylərə gedib çatır. Bir gün adamlar durub görürlər ki, Bülbül yoxdur. Onun yerində gülün başına dolanıb qəmli-qəmli oxuyan bir quş – bülbül var. Bülbül gülün başına dolandıqca özünü zərb ilə onun tikanlarına çırpır. Tikanlar bülbülün sinəsini dağıdıb qana qəltan eləyir. Bu qan gül koluna səpələnib onun rəngini qızardır.

Deyirlər, o vaxtdan həmin gülün adı Qızılgül qalıb. Bülbülü gülə yaxın qoymayıb onun sinəsini qana qəltan edən tikanlar da, sən demə, qızın atasıdı.

45

Yeddi qardaş varmış, bir bacı. Bu qardaşlar hər gün gedərmiş işləməyə, bacıları da evdə qalıb xörək bişirərmiş, axşam hamısı oturub yeyərmişlər.

Bir gün qız bişirməyə evdə heç nə tapmır. Gedib çöldən pencər yığıb gətirir və bişirir. Axşam qardaşları gəlir, elə pencərdən yeyən kimi hamısı qoyun olur. Qız başlayır başına-gözünə döyüb ağlamağa. Səhərisi də ağlaya-ağlaya bu qoyunları aparır otarmağa. Bir də görür ki, boz atlı bir kişi peyda oldu. Kişi soruşur ki, qızım, niyə ağlayırsan?

Qız əhvalatı danışır. Sən demə bu kişi Xızır peyğəmbər imiş. Adam qıza deyir ki, sən səsini çıxarma, mən onları adam edəcəyəm. Ancaq səs çıxarsan, qışqırsan öz baxtından küs.

Xızır peyğəmbər başlayır çomağı ilə qoyunları vurmağa. Altı qoyun dönüb adam olur. Ancaq bir qoyunu vuranda qız dözməyib qışqırır. Sən demə bu xırda qardaş imiş. Odur ki, onun bir tərəfi insan olur, bir tərəfi heyvan. Daha hara çatacaq. Bu kiçik qardaş altı ay yaşayıb ölür.

46

Bir qarı varmış. Bir gün bir yolçu bu qarıya qonaq olur. Axşam allah verənnən, azdan-çoxdan yeyirlər. Qarı yer salır ki, qonaq yatsın. Özü də başlayır qabları yumağa. Qonaq deyir ki, ay nənə, axşamın xeyrindən sabahın şəri yaxşıdı. Yıxıl yat, qabları səhər yuyarsan. Qarı deyir ki, yox, gərək indi yuyam. Allah ruzunu gecə paylayır. Əgər mənim qablarım yuyulmamış, çirkli qalsa, allah ruzi verməz.

47

Qədimlərdə buğdanın sünbülü yerdən başacan imiş. Çörək o qədər bol imiş ki, insanlar başlayırlar qudurmağa. Çörəyi zibilliyə atır, qədrini bilmirlər. Allah da hirslənib çörəyi çəkir göyə. İnsanlar yeməyə çörək tapmayıb acından ölməyə başlayırlar. İt üzünü göyə tutub ulayır və deyir ki, ay allah, sahiblərimiz belə eləyib, bəs bizim günahımız nədir? Allahın itə yazığı gəlir, çörəyi qaytarır yerə. Ancaq allah buğdanın başını bir cıqqılı sünbül eləyir ki, insanlar yenə qudurmasınlar.

48

Su pərisi gözəl bir qız imiş. Bir gün bu qız çayda çimərdə sel gəlir, az qalır ki, boğulsun. Allahın buna yazığı gəlir, bir dalğa göndərir. Dalğa qızı vurur və qızın qurşaqdan yuxarı hissəsi sudan yuxarı qalxır. Qızın sudan yuxarı çıxan hissəsi adam, suda qalan hissəsi isə balıq olur. Ona görə də su pərisinin qurşaqdan yuxarısı qızdı, qurşaqdan aşağısı balıq.

49

Ucubınıx adında bir adam varmış. Bu o qədər uzun imiş ki, başı buludlara dəyirmiş. Əlini atıb dəryadan balıq tutar, qaldırıb günəşdə bişirib yeyərmiş.

Ucubınıx camaatdan borc alıb özünə bir şalvar, bir köynək tikdiribmiş. Ancaq neçə illər keçsə də, camaatın borcunu qaytarmırmaş. Camaat görür ki, Ucubınıx bunların borcunu qaytarmayacaq, yığışıb istəyirlər ki, onu döysünlər. Ağacdan uzun-uzun payalar düzəldib cumurlar Ucubınıxın üstünə. Ancaq bu payalar onun topuğuna da çatmır. Ayaq barmaqlarını döyəcləmək istəyəndə o, bir addımını günbatana atır. Camaat neçə gün yol gedib günbatana çatanda Ucubınıx addımını gündoğana qoyur. Ona görə də buna heç kəs yaxın düşə bilmir. Bu iş allaha xoş getmir. Əzrayıla deyir ki, get Ucubınıxın canını al. Əzrayıl gəlir, ancaq görür ki, onu yerə yıxmasa, heç zad edə bilməyəcək. Bu heyvərəni yerə yıxmaq isə heç yüz Əzrayılın da işi deyil. Əzrayıl bilmir nə etsin. Bir tərəfdən allahın əmrindən çıxa bilmir, o biri tərəfdən də Ucubınıxı yerə yıxmağa gücü çatmır. Fikirləşib bir hiylə işlədir. Bir kötüyün ucunu yonub itiləyir, yola qoyur. Ucubınıx keçəndə bu kötük batır onun qıçına. O nə qədər əlləşirsə də, kötüyü qıçından çıxara bilmir. Görür ki, olmayacaq, camaata deyir:

– Qıçımdan bu tikanı çıxardın, sizin borcunuzu qaytarım.

Camaat deyir ki, razıyıq. Sən uzan yerə biz də kötüyə ip bağlayıb dartaq, bəlkə çıxara bildik. Ucubınıx yerə uzanır. Camaat kötüyü bunun qıçından çıxarmaq istəyəndə Əzrayıl tez çökür onun sinəsinə, canını alır.

50

Bir ər-arvad var idi. Onların uşaqları olmurdu. Kişi nə qədər arvadı ilə nəzir-niyaz verirdisə də, bir şey çıxmırdı. Axır bir il bunların bir uşağı olur ki, onlar sevinmək əvəzinə kədərlənirlər. Səbəbi də o idi ki, uşağın bir gözü var idi, o da təpəsinin ortasında. Ata-ana naəlac qalıb uşağı saxladılar. Sonrakı il onların bir qızı da oldu. Amma qız çox qəşəng idi.

Təpəgöz elə tez böyüyürdü ki, heç uşağa bənzəmirdi. Ata-ana onu doyuzdura bilmirdilər. Təpəgözə hər nə qədər yemək verirdilərsə də, o yenə qışqırırdı: – acam, acam.

Bir gün kənddən bir adam yoxa çıxır. Nə qədər axtarırlarsa, nə ölüsünü, nə dirisini tapa bilirlər. Bir neçə gün keçir, kəndin adamlarından biri də yoxa çıxır. Bunu da axtarıb tapa bilmirlər. Bu yolla hər gün bir adam yoxa çıxır. Camaat təəccüb qalır ki, görən bunlardan necə olur? Kimin ki, əli-ayağı tutur, bu kənddən çıxıb gedir. Gedə bilməyənlərdən hər gecə birisi yoxa çıxır.

Təpəgözün ata-anası qocalmışdı. Daha başqa yerə getməyə taqətləri qalmamışdı. Odur ki, oturub özlərinin də bir gün yoxa çıxacaqlarını gözləyirdilər. Balalarını yanlarına çağırıb dedilər:

– Balalarım, çıxın buradan gedin, biz günümüzü görüb, dövranımızı sürmüşük. Barı siz bir gün görün.

Qız getmək istəyir, ancaq Təpəgöz qoymur. Başlayır yalandan dil tökməyə ki:

– Nə danışırsınız, biz heç sizi qoyub bir yerə gedə bilərikmi? Qoy elə nə olacaqsa hamımıza olsun.

Demə, yoxa çıxan adamların hamısını Təpəgöz yeyirmiş. Bir gün kənddə qalan adamların axırıncısı da yoxa çıxdı. Təpəgöz bir neçə gün dözdü. Necə olsa ata-ana idi. Axır bar gecə dözməyib bunları da yedi. Sən demə bunları qız görürmüş. Yazıq qız başladı ehtiyatlı olmağa. Qız Təpəgözə dedi:

– Qardaş, gəl buradan gedək, indi də növbə bizimdi.

Qız bunu deyirdi ki, görsün Təpəgöz nə deyəcək. Təpəgöz dedi:

– Bacı, mən ölməmişəm ki, sənə toxunsunlar. Heç yerə getmək lazım deyil.

Qız gördü ki, yox, bunun fikri ayrıdı. Gecə ikən evdən çıxdı. Qızın bir iti də var idi. Bunlar ikisi də getməkdə olsun, görək Təpəgöz nə elədi.

Təpəgöz qalxıb gördü ki, qız yoxdu. Bildi ki, qaçıb. Bu da başladı qızın dalınca getməyə. Qız gördü ki, budur, Təpəgöz çathaçatdı. Yazıq ora baxdı, bura baxdı, bilmədi nə etsin. Gördü bir yekə qoz ağacı var. Tez dırmaşdı bu ağaca. Tpəgöz ağacın dibinə gəlib başladı yalandan qızı dilə tutmağa ki:

– Bacı, düş gəl evimizə gedək.

Qız dedi:

– Yox qardaş, elə bura yaxşıdı.

Təpəgöz gördü ki, qız düşməyəcək, başladı ağacı kəsməyə. Çünki o, ağaca çıxa bilmirdi. Azca qalmışdı ki, ağac qırılıb düşsün yerə, it bayaq tullandı Təpəgözün üstünə. Pəncələri ilə elə vurdu ki, Təpəgözün bircə gözü də çıxdı. Başladı özünü ora-bura vurub qışqırmağa. Bir xeyli çabalayıb öldü.

Qız sevinə-sevinə ağacdan düşdü. İtin boynunu tumarladı.

51

Bir kişi meşəynən gedirmiş. Birdən qabağına hal anası çıxır. Kişi tez onun yaxasına sancaq taxır, gətirir evlərinə və onunla evlənir. Hal anası-

nın iki uşağı olur. O həmişə bir iş dalınca gedəndə tapşırırmış ki, uşaqları yüyrükdə olan vaxtı yüyrüyün altına süpürgə çəkməyin.

Bir gün hal anası mçşəyə odun dalınca gedir. Kişi deyir ki, durun yüyrüyün altını süpürün, görək nə olur?

Evdəkilər yüyrüyün altını süpürür. Elə o dəqiqə yüyrükdəki uşaqlar donmuş qan parçasına dönürlər. O saat da hal anası gəlib çıxır. Yüyrüyə baxıb ağlayır, üz-gözünü cırır. Sonra kişiyə yalvarır ki, daha mən bu evdə qala bilmərəm. Burax çıxım gedim.

Kişi sancağı çıxarıb onu buraxır. Hal anası gedəndə deyir ki, mənə bir ovuc un, ya da bir başqa şey ver aparım. Kişi fikirləşir ki, yəqin burada bir hikmət var. Götürüb həyətin zibilindən bir ovuc verir ona. Hal anası çıxıb gedir. O gündən kişinin həyətində heç vaxt zibil olmur. Sən demə, hal anası həyətin zibilinin bərəkətini özü ilə aparıbmış.

52

Bir kişi cin tutur. Yaxasına iynə sancıb dörd il evində saxlayır, işlədir. Axırda cin yalvarır ki, məni buraxın, çıxıb gedim balalarımın yanına. Məndən sizə heç bir pislik gəlməz. Yazıqları gəlib bunu buraxırlar. Cin gedəndə deyir ki, çörəyinizi halal eləyin. Məni bu qədər saxlamısınız, amma heç birinizin ağlına gəlmədi ki, məndən ölümün əlacını soruşasınız. İndi salamat qalın, mən getdim. İstəyirlər onu təzədən tutsunlar, cin yox olur.

53

Bir kişi hər səhər dururmuş ki, atı qan-tər içindədi. Bilir ki, atını cinlər minir. Gətirir yəhəri qırlayır. Səhərisi gəlir tövləyə, görür atın üstündə gözəl bir qız oturub. Kişi bunun üstünə sancaq taxıb gətirir evə. Başlayır bunu işlətməyə. Ancaq bu qıza nə deyirmişsə, o, tərsinə eləyirmiş. Deyəndə tez gəl, gec gəlirmiş, deyəndə gec gəl, tez gəlirmiş. Görürlər ki, bu qız heç bir işi yarıtmır. Buna deyirlər ki, sən ancaq həyət-bacanın zibilini təmizlə.

Bir gün qız küçədə bir uşağı aldadır. Sancağı yaxasından çıxartdırır. Sonra gəlib çıxır kişinin damına. Çağırıb kişiyə deyir ki, mən bütün dərdlərin dərmanını bilirəm. Amma siz məndən heç zad soruşmadız. Elə hey göndərdiniz zibil təmizləməyə. Görüm həmişə zibiliniz bol olsun. Qız bunları deyib yox olur. O gündən kişigilin nə işləri iş olur, nə də əlləri boş olur. Həyətlərinin zibili də həmişə dizə çıxır.

54

Bir kişi evdə oturubmuş. Görür ki, küllükdə it bir qızı didir. Kişi tez cumur, qızı itin əlindən alır. Ondan soruşur ki, sən kimsən, buralarda nə gəzirsən?

Qız deyir ki, mən cinlər padşahının qızıyam. Biz gözəgörünməz oluruq. Təkcə itlər bizi görür. Buradan keçirdim ki, bu it məni tutdu. Baxdım ki, məni parçalayacaq, ona görə sənin gözünə göründüm. Sən məni ölümdən qurtardın. Gedək atamın yanına. Atam sənə nə versə alma, de ki, ağzıma tüpür. Ondan sonra sən hər şeyin dilini biləcəksən. Ancaq gərək bundan öz xeyrinə istifadə edib heç bir canlını ac qoymayasan.

Kişi razılaşır. Bunlar düşürlər yola. Çaya rast gələndə çay ikiyə ayrılır, bunlar keçəndən sonra birləşir. Dağa rast gələndə dağ aralanır, bunlara yol verir. Xülasə, axır ki, gəlib çatırlar cinlər diyarına. Cinlər padşahı kişini görən kimi gəlib alnından öpür. Buna çoxlu qızıl-gümüş verir. Kişi almır, deyir ki, tüpür ağzıma.

Cinlər padşahı bunun ağzına tüpürür, sonra cinlər kişini qaytarıb qoyurlar öz evinə. Kişi görür ki, dünyada nə varsa, hamısının dilini bilir. Başlayır şad-xürrəm yaşamağa.

Bir gün bu kişi çörək yeyirmiş. Pişiyi evdəymiş, iti eşikdə. Qapı da açıq imiş. Kişi eşidir ki, it pişiyə deyir:

– Sən orda yeyirsən, mən burda acam.

Pişik deyir:

– Mənim yediyim xırdaca bir tikədi. Onu sənə versəm, özüm ac qalaram. Darıxma, sabah ağamızın dəvəsi öləcək, onda doyunca yeyərsən.

Bu sözləri eşidən kişi tez aparıb dəvəni satır. Axşamı yenə it pişiyə deyir:

– Məni niyə aldatdın?

Pişik deyir:

– Sabah ağanın kəhər atı öləcək. Doyunca onun ətindən yeyərsən.

Kişi aparıb atı da satır. Axşam it pişiyə deyir:

– Məni yenə aldatdın. Axı mən neçə gündür acam, nə yeyim bəs?

Pişik deyir:

– Sabah ağamızın özü öləcək, ehsan verəcəklər, doyunca yeyərsən.

Kişi qorxuya düşür, amma ta hara yetəcək. Səhərisi Əzrayıl gəlib onun canını alır.

NAĞILLAR

SEHİRLİ NAĞILLAR

Dostluğun sirri

Belə rəvayət cləyirlər ki, bir padşahın gözünün ağı-qarası Məlik adlı bircə oğlu var imiş.

Bir gün Məlik ata minib dəniz qırağı ilə gedirmiş, bir də görür ki, öz mehtərləri ilə qonşuları keçəl Məmməd suyun qırağında dalaşırlar. Məlik bunları aralaşdırıb deyir:

– Nəyiniz artıq düşüb ki, bir-birinizi qırırsınız?

Mehtər deyir:

– Ağa, mən gördüm ki, dəryanın üzündə bir sandıq o yana-bu yana ləngər vurur. Girdim onu çıxartmağa, keçəl Məmməd özünü yetirib başladı ki, sandığı əvvəlcə mən görmüşəm, indi onun üstündə dalaşırıq.

Məlik çıxardıb bunların hərəsinə beş manat pul verib sandığı onlardan aldı. Bir az gedəndən sonra öz-özünə dedi:

– Açım görüm bunun içində nə var ki, onu dənizə atıblar?

Oğlan bu fikirlə sandığın ağzını açdı. Gördü içində bir balaca da sandıq var. Onun da ağzını açdı, gördu bunun da içində bir sandıq var, belə-belə oğlan üç sandıq açdı, axırıncı sandığın ağzın qaldıranda gördü içində yazılı bir məktub var. Məktubda yazılmışdı: "Hər kəs həqiqi dostluq eləməyin sirrini öyrənmək istəyirsə, üç qoca qələçəsinə getsin".

Oğlan məktubu oxuyub qurtaran kimi atasının yanına gedib deyir:

– Ateyi-mehriban, mənə icazə ver uzaq bir səfərə çıxım.

Padşah deyir:

– Oğul, xeyir olsun, de görüm səfərin haradır?

Oğlan dinmir. Atası yenə sual verir. Oğlan görür ki, atası əl çəkmək istəmir. Odur ki, məktub əhvalatını atasına danışır. Padşah gülüb deyir:

– Hansı ağılsız adamsa yazıb atıb, sən də onun sözü ilə yerindən oynayıb gedirsən. Dostluq eləməyin sirrini məgər burada öyrənmək olmaz?

Oğlan gördü ki, atası onun getməyinə razı olmayacaq, odur ki, bir söz deməyib, düz gəldi sarayın qəm otağına. Bura elə bir yer idi ki, kimin dərdi-qəmi olsaydı girib orada ağlayıb göz yaşı tökərdi. Bu otaqda hər nə

varsa qara rəngdəydi. Oğlan da qara paltar geyib düz bir həftə burada qaldı. O qədər ağlayıb ah-zar elədi ki, gözünün yaşından əlindəki kağızın rəngi getdi.

Bu əhvalatdan sonra padşah ha gözlədi, oğlundan soraq çıxmadı. Başladılar onu axtarmağa. Axırda gəlib Məliki sarayın qəm otağında tapdılar. O saat gedib padşaha xəbər apardılar. Padşah vəziri də götürüb oğlunun yanına gəldi. Gördü Məlikin rəngi qaçıb, ağlamaqdan gözləri şişib. Padşah soruşdu:

– Oğul, nə olub, dərdin nədir?

Məlik dedi:

– Həqiqi dostluq eləməyin sirrini öyrənmək üçün uzaq səfərə getməyimə səndən icazə istədim, vermədin. Nə qədər elədim ki, özümü ələ alam, gücüm çatmadı. Odur ki, gəlib qəm otağına girdim.

Atası oğluna nə qədər nəsihət elədisə, gördü kar eləmir, axırda əlacı kəsildi, vəziri ilə məsləhətləşib bu qərara gəldilər ki, yüz atlı ilə Məliki yola salsınlar. Özü də atlılara öyrətdi ki, bir az gedəndən sonra atları sulamaq bəhanəsilə qaçıb hərəniz bir tərəfə dağılarsınız, axırda oğlum baxıb görər ki, tək qalıb, əlacı kəsilər, o da qayıdıb gələr.

Padşah oğluna icazə verib onu yüz atlı ilə yola saldı. Oğlan elə bir az getmişdi ki, birdən keçəl Məmmədə rast gəldi. Onun qabağını kəsib dedi:

– Ay Məmməd, dənizdən tapdığınız sandığın içindən bir məktub tapmışam. O məktubda yazılan sözləri öyrənməyə gedirəm. Gəl mənimlə gedək.

Keçəl dedi:

– Yaxşı, qoy onda gedim ata-anama deyim gəlim.

Keçəl Məmməd atasından icazə aldı, anası onun xurcununa bir arpa çörəyi qoyub yola saldı. Keçəl Məmməd düz gəldi Məlikin yanına. Başladılar getməyə. Mənzilbəmənzil yol getdilər. Bir qədər gedəndən sonra keçəl Məmməd baxıb gördü ki, atlılar elə hey azalır, amma üstünü vurmadı ki, bəlkə Məlik əhvalatı belə görüb geri qayıda. Bir də Məlik dönüb geri baxanda gördü keçəl Məmmədlə ikisi qalıb. Keçəl Məmməd dedi:

– Qoşunsuz təkcə getməklə nə eləyə bilərik, gəl biz də qayıdaq.

Məlik dedi:

– Keçəl qardaş, görürəm qaçmaqdan ötəri ürəyin nanə yarpağı kimi əsir, istəyirsən sən də qayıt, mən təkcə gedərəm.

Yaxşı deyiblər, keçəl çoxbilmiş olar, bir altdan yuxarı baxıb dedi:

– Ağa Məlik, yadından çıxartma ki, o yeri tapsam təkcə mən tapacağam. Odur ki, mən sənlə gedəcəyəm.

Bunlar başladılar getməyə. Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, orada aynan, ilnən, burada şirin dilnən, bir də gördülər ki, çörəkləri qurtarıb.

Məlik dedi:

– İndi biz neyləyək, çörəyimiz qurtarıb, acından ölürük.

Keçəl Məmməd dedi:

– Anam xurcunuma bir arpa çörəyi qoyub, gəl onu yeyək.

Keçəl çörəyi çıxartdı, başladılar yeməyə, Məlik ömründə arpa çörəyi yeməmişdi, amma əlacı yox idi. Arpa çörəyini yeyib qurtarandan sonra başladılar yenə yol getməyə. Gethaget gəlib bir dağa çatdılar. Dağı aşıb bir güllük-çəmənlik yerə çıxdılar. Bura elə bir yer idi ki, bağı-gülüstan bunun yanında heç nə. Burada o qədər gül-çiçək vardı ki, hərəsi min rəngə çalırdı, ətrindən adam valeh olurdu. Bülbül, turac, kəklik, qırqovul, bildirçin, tovuz quşu, tutu quşu, hamısı bir-birinə qarışmışdı. Maral, ceyran,cüyür də ki, lap istədiyin qədər. Burada can dərmanı desən, vardı. Bağın lap ortasında bir kərpici qızıldan, bir kərpici gümüşdən bir saray tikilmişdi ki, başı göydə buluddan nəm çəkirdi. Amma buranın dörd tərəfində elə bir qalaça var idi ki, baxanda adamı vahimə basırdı.

Məlik dedi:

– Görürsən, nə gözəl yerdi, lap ölüb qalmağa dəyər.

Keçəl Məmməd dedi:

– Ağa Məlik, hələ bilmək olmaz, o qalaçadan mənim gözüm su içmir.

Hər ikisi yavaş-yavaş qalaçaya tərəf getdilər. Elə yenicə qalaça qapılarına çatmışdılar ki, bir də gördülər bir gurultu, nərilti qopdu, elə bil yer-göy lərzəyə gəldi, qalaçanın darvazaları taybatay açıldı. Qeybdən bir əl gəlib Məliyi, bir əl də keçəl Məmmədi atdan düşürtdü, ikisinin də atını apardı qalaçaya. Bunlar eləcə bir atları, bir də iki əl gördülər, adam gözə görünmürdü. Bu iki əl atları apardı tövləyə, bunlar da atların dalınca getdilər. Gördülər bu tövlə bir meydan yekəlikdə yerdi, yenə bir neçə əl gəldi, atlara arpa-saman tökdü. Sonra da haman əllər Məliklə keçəli gətirdilər qalaçadakı barigaha.

Məlik gördü ki, burada bir cah-cəlal var, bir ziynət var ki, öz atasının imarəti bunun yanında daxmaya oxşayır. Bir azdan sonra bunların əllərini yudular, dəsmal verdilər. Sonra süfrə açıldı, ortalığa qırx cür yemək gətirdilər. Hər şey gəldi, amma hardan gəldi, kim gətirdi, görünmürdü.

Bunlar ac idilər deyə, doyunca yedilər. Sonra yenə iki əl gəlib süfrəni yığışdırdı. Əllər Məliklə keçəlin qolundan tutub apardılar yataq otağına. Qonaqlar soyunub yatdılar. Padşah oğlu Məlik çox yorulmuşdu, həm də ərköyün böyümüşdü deyə, elə başını yatağa qoyan kimi getdi yuxuya.

Amma keçəl Məmməd çox ağıllı idi, fikirləşdi ki, birdən bunları öldürərlər. Odur ki, sərvaxt yatmışdı. Gecədən bir xeyli keçmişdi. Keçəl gördü otaq qapısı taybatay açıldı. Qara əmmaməli, qara əbalı, qara başmaqlı üç qoca içəri girdi. Qocaların birinin əlində kitab, birinin əlində qara əsa, birinin əlində də qara qəbzəli qılınc var idi. Əlində qılınc olan qoca dedi:

– Nə deyirsiniz, bunları qılıncdan keçirimmi? Qorxuram gedib sirrimizi yayalar.

Əli kitablı qoca dedi:

– O yatan cavan oğlan padşah oğludu. Öldürsən, atası səndən intiqam alar. Bu biri də keçəl Məmmədir, ona da hələ ölüm yoxdu.

Əli əsalı qoca dedi:

– Bəs bunları neyləyək?

Əli kitablı qoca dedi:

– İndi ki, bunlar bizə pənah gətiriblər, yaxşısı budur ki, onlara kömək edək, yazıqdılar.

Elə qocanın söz ağzından qurtaran kimi keçəl Məmməd yerindən qalxıb düşdü onun ayaqlarına. Başladı yalvarmağa ki, ey qoca, bizdən köməyini əsirgəmə, gedirik əsil dostluq eləməyin sirrini öyrənməyə. Bizə bir yol göstərin.

Qoca dedi:

– Ey oğlan, sən ki, belə yalvarırsan, onda mən deyim yadında saxla. Səhər sübh tezdən durub, atları minib yolun sağ tərəfi ilə gedərsiniz. Əvvəlcə qabağınıza bir tülkü çıxıcaq. Bu tülkü bir sehirbaz qarıdı. O, yeddi yolun ayrıcında oturub gəlib-gedənin sirrini öyrənir. Nəbadə ona sirr verəsiniz. Özü də tülküdən bir az aralanan kimi düşüb atlarınızın nalını söküb tərsinə nallayarsınız. O tülkünün xasiyyətidi, əgər sizdən bir söz ala bilməsə, izinizə düşüb axtaracaq, atlarınızı tərsinə nallarsınız, izi itirib sizi tapa bilməz.

Bir az da gedəndən sonra hər tükü min bir rəng çalan gözəl bir quşa rast olacaqsınız, ona da bir az dən töküb gedərsiniz, amma nəbadə onu vurasınız! O da tam tilsimlidi. Bu iki tilsimdən qurtarandan sonra gedib bir dənizin kənarına çıxacaqsınız. Sizin mindiyiniz bu atlar o dənizi keçə bilməyəcək. Atların yəhər-yüyənini açıb buraxarsınız meşəyə. Sonra görəcəksiniz ki, dəryanın qırağında qara bir daş var. O qara daşın altında bir at cilovu var.O cilovu götürüb bir ucunu atarsız dənizə. Amma onu da deyim ki, o daşın balacalığına baxma, onun ağırlığı min puddur, nə qədər eləsən, yerindən tərpədə bilməzsən. Daşın yanında durub deyərsən:

– Ey qara daş, sən göydən düşdün, yer sənə kömək durdu, sən də mənə kömək dur. Sözü deyəndən sonra daşı qaldırarsan, onda daş yüngülləşəcək, cilovu götürərsən. Bir də görəcəksən ki, dənizdən üç ayaqlı bir at çıxdı. Atılıb minərsiniz həmin ata. Elə ki, ata minib o tərəfə keçdiniz, bir belə qara daş da o tayda var. Yenə cilovu atın başından çıxardıb qara daşın altına qoyarsınız. Atla işiniz olmaz. At quruda gedə bilmir, yenə qayıdıb dənizə girəcək. Elə ki, o taya çıxdınız, hərəniz dəmirdən bir çarıq geyib, əlinizə də dəmir əsa alarsınız. O qədər gedərsiniz ki, çarıqların dabanı deşilər, əsanın ucu yeyilər, onda haman yerdə dayanarsınız. Sizə bir qarı rast olacaq, ona pul verərsiniz, axtardığınız yeri o sizə tapıb göstərər.

Qocalar sözlərini deyib getdilər. Keçəl Məmməd Məliki silkələyib oyatmaq istədi. Gördü o elə yatıb ki, elə bil ölüdü. Bir təhər oğlanı yuxudan oyatdı. Məlik dedi:

– Ay zalım keçəl, niyə məni yarımçıq oyatdın, elə yaxşı yuxu görürdüm ki, sən mənim yerimə olsan, heç ayılmazdın.

Keçəl Məmməd dedi:

– Ağa Məlik, xoş sənin halına, yatıbsan, dünyadan xəbərin yox. Bilsəydin ki, gecə qocalar canıma nə qorxu salmışdılar, onda ürəyin qopardı.

Məlik dedi:

– Nə qoca, sən nə danışırsan?

Keçəl Məmməd gecə gördüklərinin, eşitdiklərinin hamısını Məlikə söylədi. Amma bircə quşa rast gəlmək əhvalatını tərsinə danışdı, dedi ki, gərək quşu oxla vurasan. Keçəl qəsdən bu əhvalatı açmadı ki, birdən demək olmaz yolda Məliklə sözləri çəp gələr, sonra Məlik keçəli qovar ki, onsuz da sirləri özüm bilirəm. Amma keçəl Məliklə şərt bağladı ki, gərək yolda nə desəm, ona qulaq asasan. Özləri də əhd-peyman elədilər ki, möhkəm dost olaq. İkisi də barmaqlarını çərtib qanlarını qatdılar.

Məliklə keçəl evdən çıxdılar ki, atlarını gətirsinlər, gördülər həmin iki əl atları qapıda hazır saxlayıb. Atları minib yol getməyin binasını qoydular. Qoca dediyi kimi, əvvəlcə qabaqlarına tülkü çıxdı. Tülkü adam kimi dil açıb bunları nə qədər dilə tutdusa, bir sirr öyrənə bilmədi. Məlikgil bir az tülküdən aralanan kimi atlarının nallarını söküb tərsinə nalladılar. Bir qədər də gedəndən sonra quşa rast oldular. Məlik oxunu yaya qoyub quşu vurmaq istəyəndə keçəl qoymadı.

Məlik dedi:

– Sən demişdin ki, axırda rast olduğun quşu oxla vurarsan, bəs niyə qoymursan, olmaya sözündən döndün?

Keçəl Məmməd dedi:

– Yox, ağa Məlik, mən qəsdən bir şeyi tərsinə demişdim, arxayın ol.

Bunlar bir az da gedəndən sonra gəlib çatdılar həmin dənizin qırağına. Atların yəhər-yüyənini açıb buraxdılar meşəyə. Keçəl Məmməd qara daşı qaldırıb altından cilovu çıxartdı, aparıb dənizə saldı, o saat bir də gördülər bir gurultu, nərilti qopdu ki, elə bil yer-göy lərzəyə gəldi. Dəniz tələtüm elədi, içindən üç qıçlı bir at çıxdı. Keçəl tez cilovu çəkdi, at istədi yenə dənizə girsin, keçəl cilovu buraxmadı. Bir çətinliklə ikisi də tərkləşib ata mindilər. At özünü vurdu dənizə, bir göz qırpımında bunları çıxartdı o taya. Keçəl Məmməd cilovu başından açıb buraxdı, at o saat girdi dənizə, gözdən itdi. Keçəl cilovu bu tərəfdəki daşın altına qoydu.

Axtarıb özlərinə dəmir əsa, bir də dəmir çarıq tapdılar. Çarıqları geyib, dəmir əsanı əlinə çəkib çarığın dabanını, qırıb yerin damarını, dərələrdən yel kimi, təpələrdən sel kimi, dağların ətəyi ilə, yolların kəsəsi ilə az getdilər, üz getdilər, dərə-təpə düz getdilər bir də baxıb gördülər çarıqlarının dabanı deşilib, əsalarının da ucu yeyilib. Bildilər ki, mənzilə çatıblar. O yana, bu yana boylanıb gördülər yaxında bir koma görünür, getdilər ora. Qapını döymək istəyəndə qabaqlarına bir qarı çıxdı. Deyirlər qarılar cürbəcür olur. Bu, yaxşı qarılardan idi. Məlik qarını saxlayıb dedi:

– Qarı nənə, qalmağa yerimiz yoxdu, bu gecəliyə bizi qonaq saxlaya bilərsənmi?

Qarı dedi:

– Ay oğul, düzünü bilmək istəyirsinizsə, qalmağa yerim var, amma yeməyə çörəyim yoxdu.

Məlik dedi:

– Ay qarı nənə, zərər yoxdu, təki yer olsun, yemək tapmaq asandı.

Məlik cibindən bir qiymətli ləl çıxardıb verdi qarıya, dedi:

– Qarı nənə, apar bu ləli xırdala, bir az ayınnan-uyunnan al gətir, yeyək.

Qarı ləli görən kimi gözləri az qaldı kəlləsinə çıxsın, sevinə-sevinə düz getdi şəhərdə bir tacir var idi onun yanına. Ləli verib dedi:

– Qardaş, al buna bir az yemək-içmək ver, qalanını da xırdala qaytar.

Tacir lələ baxıb gördü bu elə qiymətli daşdı ki, bunu xırdalasa pulunu qarı təkcə apara bilməyəcək. Odur ki, dedi:

– Qarı nənə, get bir hambal gətir, pulunun artığını apar.

Qarı bu sözü eşidəndə elə bildi ki, tacir onu ələ salır, amma ürəyində dedi:

– Gedib gətirərəm, görsəm tacir məni aldadıb, onda onun başına bir oyun açaram ki, anasından əmdiyi süd burnundan gələr.

Qarı gedib bir hambal çağırdı. Tacir hambalın dalına bir kisə pulla şey yüklədi. Qarı gördü xeyir a, tacir düz deyirmiş, hambalı gətirdi evinə, yükü boşaltdı. Hambal pulunu alıb getdi.

Məliklə keçəl qarını dilə tutub qılığına girdilər.

Keçəl dedi:

– Qarı nənə, bizim bir işimiz var, əgər onu düzəltsən, sənə o qədər ləl-cəvahirət verərik ki, yığıb-yığışdıra bilməzsən.

Qarı dedi:

– Oğul, elə bu verdiyiniz pul da bəsimdi. Deyin görüm məndən nə istəyirsiniz?

Keçəl Məmməd dedi:

– Biz əsil dostluğun, sədaqətin sirlərini öyrənməyə gəlmişik. Eşitmişik ki, bu işləri sehirli üç dərviş qələçəsindən öyrənmək olar. İndi o yeri bizə göstərə bilərsənmi?

Qarı gülüb dedi:

– Sizi mənim yanıma göndərən dərvişlərin olduğu yer axtardığınız qələçənin özüdür.

Məlik dedi:

– Qarı nənə, bəs elə isə həmən dərvişlər bizi niyə sənin yanına göndərdilər?

Qarı dedi:

– Oğullarım, onu mən indi deyə bilmərəm, siz dərvişləri bir də görəcəksiniz, onda xəbər alarsınız, onlar bu sirdən sizi agah edərlər. İndi buradan gedərsiniz lap şəhərdən çıxhaçıxda qabağınıza hündür bir imarət çıxacaq. Orada Əhmədlə, Məmməd adlı iki dost olur. Axtardığınızı oradan öyrənə bilərsiniz.

Məliklə keçəl qarının yanından çıxıb başladılar yol getməyə, bir az getmişdilər ki, gördülər şəhərin kənarında bir çoban qoyun otarır. Ona yaxınlaşıb dedilər:

– Ay çoban qardaş, bəlkə sən biləsən, buralarda Əhmədlə Məmməd adında iki dost var, onlar harada olurlar?

Çoban dedi:

– Elə mən onların qoyunlarını otarıram. Odur bax, o uzaqda görünən hündür imarət onlarındı.

Məliklə Keçəl bir xeyli gedib həmən yerə çatdılar. Qapını döydülər. Qapıya Əhməd özü çıxdı.

Məlik dedi:

– Biz qərib adamıq, qalmağa yerimiz yoxdu, özü də sizinlə işimiz var. Bizi bir gecəliyə qonaq saxlaya bilərsinizmi?

Əhməd dedi:

– Qardaş, qonağa gözüm üstə yerim var, buyurun içəri.

Əhməd qonaqları apardı evə. Oradan, buradan söhbət eləyəndən sonra ortalığa yemək gəldi. Əhməd qonaqlara yemək təklif elədi. Heç biri əlini süfrəyə uzatmadı. Kişi nə qədər elədisə Məliklə Keçəl yemədi.

– Niyə mənim çörəyimi yemirsiniz?

Məlik dedi:

– Qardaş, biz gəlmişik sənin lə dostun Məmmədin sirrini öyrənməyə. Əgər bu sirri deməsən, əlimizi süfrəyə uzadan deyilik.

Əhməd gördü ki, qonağı çox tərs adamdı, sirri deməsə, əlini süfrəyə uzatmayacaq. Odur ki, dedi:

– Qardaş, siz qulaq asın, indi mən öz sirrimi açım. Mənim cavanlıqda çoxlu dostlarım vardı. Gündə biri ilə kef çəkib, vaxtımı keçirərdim. Bir gün atam dedi:

– Oğul, sənin ki, bu qədər dostun var, heç onları sınayıbsanmı?

Mən dedim:

– Ata, yox mən bilirəm ki, onlar mənim yaxın dostlarımdı. Görürsənmi hər gün gəlirlər yanıma; məni güldürürlər, darıxmağa qoymurlar özlərindən də heç bir pislik görməmişəm.

Atam dedi:

– Oğul, sən hələ uşaqsan, adam hər üzünə gülənə dost deməz. Onların çoxusu yemək dostudu, indi az-çox dövlətimiz var, milçək şirəyə yığılan kimi onların da çoxu yeməyə-içməyə gəlir, sən də elə bilirsən ki, səni istəyib gəlirlər, gəl bir-bir dostlarının ürəyini yoxla.

Atamın sözündən sonra, günlərin birində bir qoyun öldürüb saldım bir çuvala, ağzını da bağlayıb aldım dalıma, axşam şər qarışanda düşdüm qapı-qapı dostlarımın evinə, hansı dostum qapıya çıxdısa çuvalı yerə qoyub dedim.

– Bu gün əlimdən bir xəta çıxıb, vurub padşahın ən çox sevdiyi qoçu öldürmüşəm, Əgər şah bu işi bilsə, məni dar ağacından asdıracaq. İndi qoçun cəmdəyini gətirmişəm ki, sizdə gizlədim, sən nə deyirsən?

Dostum qaş-qabağını töküb dedi:

– Canım, əl çək yaxamdan, qələt eləmədim ki, sənin lə dost oldum, indi olmuram.

Çuvalı dalıma götürüb bütün dostlarımın yanına getdim. Əhvalatı söyləyən kimi hamısı qapını üzümə bağlayıb məni qovdular. O gecə düz otuz

doqquz dostumun evinə getdim, heç biri məni yaxın qoymadı. Kor-peşman qayıdıb gəldim evimizə, birdən yadıma düşdü ki, yolun qırağında mənim bir köhnə tanışım var. Onunla o qədər də yaxın deyildim. İstədim bunun qapısını döyəm, ürəyimə gəldi ki, gecə-gündüz evimdə yeyib-içən dostlarım mənə yiyə durmadı, bu necə yiyə durar?

Birdən lənət şeytana deyib, qapını döydüm, kişi özü çıxdı qapıya. Salamlaşıb dedim:

– Təsadüfən vurub padşahın qoçunu öldürmüşəm, indi onu gizlətməyə yer tapmıram, gəlmişəm sənin üstünə ki, mənə bir köməklik edəsən.

Kişi dedi:

– Əvvəla, sən özgənin qoçunu öldürməkdə çox pis iş görübsən. Daha olan olub, keçən-keçib, indi gərək sənə kömək eləyəm. Bir qoçdan ötrü səni ölümə vermək olmaz.

Kişi bel, külüng götürüb dedi:

– Düş qabağıma, gedək cəmdəyi şəhərin qırağında bir yerdə basdıraq.

Biz ikimiz də yol başlayıb getdik. Bir xeyli gedəndən sonra kişi çuvalı məndən aldı ki, sən yorulubsan, ver bir az da mən götürüm. Mən çuvalı vermək istəmədim, amma zorla əlimdən aldı. Gedib bir balaca arxın qırağına çatdıq. Bu arxın böyründə bir çuxur qazıb çuvalı yerə basdırdıq, üstünü torpaqlayandan sonra kişi dedi:

– Dostum, gəl bu arxı bir balaca bəridən qazaq, su düz çuvalın üstündən axsın. Heç kimin ağlına gəlməsin ki, burada bir şey var.

İkimiz də arxı bir azaca bəridən qazıb əydik, su düz qazdığımız yerin üstündən getdi. Sonra mən kişidən çox razılıq elədim, qayıtdım evimə. Sabah açıldı, getdim haman dostumun yanına ki, ona yenə razılıq eləyim. Dedilər evdə yoxdur, filan bəyin toyuna gedib. Öz-özümə fikirləşdim ki, bu dostluqda sədaqətli adama oxşayır.İndi də qoy bunun sirr saxlayan olub-olmamasını yoxlayım. Odur ki, getdim həmən toy məclisinə. Gördüm şəhərin nəki mənəm-mənəm deyən adamları var, hamısı burdadı. Düz girdim içəri, gördüm dostum yuxarı başda əyləşib. Onun adı Məmməd idi. Səsimi ucaldıb dedim.

– Ə, sənin atan belə, anan belə, bir çıx eşiyə, gör sənin başına nə oyun gətirəcəyəm. Dostum mənim bu sözümdən heç kefini də pozmadı, dedi:

– Ə, Əhməd yeri get, söymürsən nə istəyirsən de, qorxma, deməröm ki, su nəyin üstündən axır.

Mən dostumdan bu sözü eşidən kimi başa düşdüm ki, bu çox möhkəm adamdı.

O gündən Məmmədə olan məhəbbətim bir idisə, oldu min. Gediş-gəlişimiz günü-gündən artdı. İş elə gətirdi ki, Məmməd özgə şəhərə gedəsi oldu. Ev-eşiklərini satıb, atası ilə birlikdə köçdülər özgə bir vilayətə.

Aradan bir müddət keçdi, atam-anam öldü, əlim aşağı düşdü, dolana bilmədim. Bir bacım qalmışdı, onu da götürüb getdim özgə bir vilayətə. Heç yerdə iş tapmadım, əlimdə olan pulum da qurtardı, cır-cındır paltarın içində qaldım. Bir də öyrəndim ki, dostum Məmməd bu şəhərdə olur.

Yeməyə bir tikə çörəyimiz yox idi, Bacım acından taqətdən düşmüşdü. Fikirləşdim ki, gedim heç olmasa Məmmədi tapım, bir az ondan borc alım.Soraqlaşa-soraqlaşa gedib qapısını tapdım. Gördüm arvadı ilə çıxıb gedirlər. Yavaşca onu bir yana çəkib dedim:

– Qardaş, bir təhər gəlib bu şəhərə çıxmışam, yerim yoxdu, pulum qurtarıb, mənə bir az əlborcu ver.

Gördüm Məmməd heç üzümə də baxmaq istəmədi, çıxardıb beş-on tümən pul verdi, sonra çıxıb getdi. Mən Məmmədi belə soyuq görəndə istədim pulu geri qaytarım, fikirləşdim ki, bacım acından ölür, heç olmasa bu pula ətdən, çörəkdən alım aparım yesin.

O gecə gedib bacı-qardaş karvansarada qaldıq. Səhər tezdən bir də gördüm bir arvadla bir cavan qız gəlib mənə dedilər:

– Oğul, görürəm siz qərib adama oxşayırsınız. Bizim burada yeddi otağımız var. Hamısı boşdu, gedək siz də olun mənim uşaqlarım, ana-bala kimi bir yerdə dolanaq.

Mən gördüm ki, buralarda onsuz da ev tapmaq çətindi, bir də yeməyə heç nə tapmıram, ev pulu haradan tapacam. Razı oldum, durub arvadın evinə getdik. O gündən arvad bizə öz uşaqları kimi baxdı.

Bir gün evdən çıxıb bazara gedirdim. Bir də gördüm bir qoca kişi qabağımı kəsib dedi:

– Oğul, mən sənin atana iki kisə qızıl borcluyam. Odur ki, al bu pullar sənə çatacaq.

İstədim almayam, kişi əl çəkmədi. Pulu aldım, gətirib xərcləyib dolandıq.

Günlərin birində Əhməd bazarda Məmmədə rast gəldi. Onu görüb geri qayıtmaq istədi. Məmməd onu səsləyib dedi:

– Əhməd, deyəsən məndən küsübsən.

Əhməd dedi:

– Əlbəttə, küsmüşəm. Sən dostluqda sədaqətli adama oxşamırsan. Mən səndən pul istəyəndə üzümə də baxmadın, heç kefimi də xəbər almadın. Belə də dostluq olar?

Məmməd dedi:

– Əhməd, hər nə dedinsə düzdür, onlar hamısı olub. Yolda mən sənə pul verib üzünə baxmadım, o da düzdü. Bunların hamısını qəsdən elə edirdim. Mən gördüm ki, sən cırıq-cındır paltarın içində dilənçiyə oxşayırsan, arvadım səni bu kökdə görüb tanımasın deyə, qəsdən sənə soyuqluq göstərdim. Amma sonra atama iki kisə qızıl verib sənə yolladım, anamı öyrətdim gedib səni oğulluğa götürdü.

Mən gördüm ki, Məmmədin dediklərinin hamısı doğrudu. Onunla daha da yaxınlaşdım. O vaxtdan biz bu şəhərə köçüb burada yaşayırıq. Oğul, indi bil, agah ol ki, bizim dostluğumuzun sirri bu idi.

Məliklə keçəl Məmməd bir də baxıb gördülər xoruzlar banlayır, səhər açılır. Kişidən razılıq eləyib atlarını sürüb başladılar yollarına. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar. Məlikgil öz vətənlərinə

çatmaq üçün yeddi padşahın torpağını keçməli idilər. Bir xeyli gedəndən sonra iki dağın arasından keçməli oldular. Demə bu dağda qırx quldur yaşayırmış. Bunların peşəsi gəlib-gedəni soymaq imiş. Məlikgil burdan keçəndə quldurların gözətçiləri onları gördülər, hər tərəfdən onları mühasirəyə almaq istədilər. Keçəllə Məlik özləri ilə qılınc da götürmüşdülər. Başladılar vuruşmağa. Əvvəlcə quldurlar beş-on nəfər idi. Onlar gördülər ki, keçəllə Məlikə bata bilməyəcəklər, odur ki, quldurbaşıya xəbər göndərdilər ki, nə durubsan, iki nəfər sənin adamlarını az qalır ki, öldürsün. Quldurbaşı o saat əmr elədi ki, quldurların qırxı da atlansın. Yerdə də olsa, göydə də olsa onları tutub gətirsinlər. Məlikgil bir də gördülər ki, üstlərinə o qədər quldur gəlir ki, bunları qırıb qurtarmaq olmaz. Odur ki, atlarına "qoyma" deyib başladılar quş kimi uçmağa. Bunlar qaçmaqda olsun quldurlar qovmaqda. Birdən keçəl Məmmədin atının ayağı büdrədi, at yıxıldı. Ha eləyib ayağa qalxana kimi quldurlar keçəl Məmmədi tutdular. Gətirib saldılar zindana, özünə də dedilər ki, üç gündən sonra boynu vurulacaq. Keçəl Məmməd zindanda qalmaqda olsun, Məlik qaçıb canını qurtardı. Gedib bir çəmənliyə çatdı. Gördü çox yorulub. Atını çəmənə buraxıb özü bir ağacın dibində yatdı. Demə bu çəmənlik padşahın qoruğu imiş. Qoruqçular atı görən kimi gəlib atı tutub Məliklə birlikdə apardılar şahın yanına. Şaha xəbər verdilər ki, bəs bu adam sənin əmrini pozub, atını salıb qoruğa, at qoruğun otunu yeyib qurtarıb.

Padşah o saat əmr elədi ki, aparın onu salın zindana, otuz doqquz gün keçsin, qırxıncı günü dar ağacından asın. Heç Məliki danışmağa da qoymadılar, itələyə-itələyə aparıb saldılar zindana. Məlik zindanda qalmaqda olsun görək keçəl Məmməd nə elədi. Keçəli zindana salanda onun yanında bir cavan adam da var idi. Bu cavan da padşahın qəzəbinə keçib yeddi ildi zindanda əzab çəkirdi. Elə həmən gecə yazıq oğlan öldü. Keçəl fürsətdən istifadə edib öz paltarını çıxarıb ölüyə geydirdi, ölünün paltarını da özü geydi. Ölünü aparıb zindanın bir küncündə divara söykədi. Özünü ölülüyə vurub düz qapının ağzında uzandı. Səhər açıldı. Gözətçilər gəldilər ki, dustaqlara çörək versinlər, gördülər ki, biri ölüb. Tez götürüb onu bir həsirə büküb ölü arabasına qoydular ki, aparıb atsınlar.

Keçəl Məmməd yolda həsirin arasından yavaşca sürüşüb özünü saldı yerə. Arabaçı şəhərdən lap kənara çıxıb bir uçurumun kənarında dayandı. Həsiri arabadan itələyib salmaq istəyəndə gördü ki, həsirin içində heç nə yoxdur. Elə bildi yolda düşüb. Arabanı gəldiyi yolla geri sürdü. Düz gəlib şəhərə çatdı, amma həsirin içindəkindən heç bir iz tapa bilmədi, ancaq qorxusundan bu əhvalatı heç kimə açmadı.

Keçəl arabadan sürüşüb düşəndən sonra gecə-gündüz o qədər yol getdi ki, gəlib Məlikin dustaq olduğu ölkəyə çatdı. Gördü şəhərdə car çəkirlər ki, bu gün meydanda adam asacaqlar. Keçəl də gəldi oraya. Gördü dar ağacının qabağında taxt qurulub, taxtın üstündə padşah, vəzir, vəkil, yerdə cəlladlar hazır dayanıblar. Dar ağacının altında qolu bağlı dayanan da Məlikdir.

Keçəl tez padşahın hüzurunda baş əyib dedi:

– Ey şahım, mən bu adam haqqında sənə çox lazımlı sözlər deyərəm, amma gərək onun asılmağını mənə həvalə eləyəsən.

Padşah dedi:

– Ey cavan, sən onun haqqında mənə nə deyəcəksənsə de, sözdən xoşum gəlsə şərtini yerinə yetirərəm.

Keçəl hiylə işlətdi:

– Ey padşah, bu özü şah oğludur. Bura gəlməkdə məqsədi səni öldürüb şahlığı əlinə almaqdır. İndi sən yaxşı eləyib onu dar ağacından asdırırsan. Onu da deyim ki, həmən adamın bir əhdi var idi ki, səni dar ağacından asdırası olsa at üstündə asdırsın.

Şah dedi:

– O nə deyən şeydir?

Keçəl Məmməd dedi:

– Ey padşah, siz əmr edin bura bir yaxşı at gətirsinlər. At üstündə asılmağın nə olduğunu sizə göstərim, həm də elə onun özünü at üstündə asaq ki, görsün özgəyə quyu qazanın özü quyuya necə düşür.

Bu sözlər şahın xoşuna gəldi:

– Oğlan, icazə verdim, nə istəyirsənsə elə.

Padşah əmr elədi, gedib bir yaxşı at gətirdilər. Demə, bu Məmmədin öz atı imiş.

Keçəl Məmməd işarə elədi, cəlladlar kəndiri Məlikin boynuna keçirib onu hop götürüb atın üstünə qoydular. Keçəl özü də əlinə bir qılınc alıb sıçrayıb mindi atın tərkinə. Atı sürüb düz dar ağacının altında saxladı. Keçəl Məmməd dedi:

– Siz kəndiri möhkəm saxlayın, mən atı geriyə sürəcəyəm. Onda Məlik kəndirdən sallana qalacaq. Bu cür asılmağa at üstündə asılmaq deyirlər. Söz keçəlin ağzından çıxan kimi cəlladlar kəndiri çəkdilər. O dəqiqə keçəl Məmməd qılıncla kəndiri kəsib ata elə bir təpik vurdu ki, at az qaldı göyə qalxsın.

Padşah əhvalatı belə görüb hay-həşir qopardı ki, gərək yerdə də olsa, göydə də olsa onlar tutulub gətirilsin. Bütün qoşun töküldü Məlikgili tutmağa. Qoşun onları o qədər qovdu ki, keçəllə Məlik gəlib çatdılar yenə həmin dənizin kənarına.

Tez keçəl Məmməd atdan düşüb dənizin qırağındakı sehirli qara daşı qaldırdı. Altındakı cilovu çıxardıb atdı suya, o saat üç ayaqlı at dəryadan çıxdı. İkisi də minib sudan keçdilələr. Qoşun özünü o vaxt yetirdi ki, onlar dənizdən keçmişdilər.

Keçəl Məmməd dənizin o tərəfinə çıxandan sonra cilovu yenə aparıb qoydu qara daşın altına. Bir az piyada yol getmişdilər ki, bir də gördülər meşəyə buraxdıqları atlar çəməndə otlayır. Tez hərəsi öz atına minib başladılar getməyə, gəlib çıxdılar həmən dərvişlərin qalaçasına. Elə qalaçanın qapısına yaxınlaşan kimi yenə iki əl gəlib bunların atlarını apardı tövləyə, özlərini də evə. Yemək-içmək gəldi, yeyib qurtarandan sonra

yer salındı, girib yatdılar. Bütün bu işləri iki əl görürdü, adamlar özləri gözə görünmürdülər. Məlik o qədər yorğun idi ki, başını yastığa qoyan kimi yatdı. Keçəl Məmmədi də yaman yuxu tuturdu. Gördü o da yatacaq, tez baş barmağını çərtib içinə duz basdı, Barmağının ağrısından yata bilmədi. Amma gözünü yumub özünü yuxuluğa vurdu. Keçəl bilirdi ki, yenə qocalar gələcək.

Gecədən xeyli keçmiş bir də gördü qapılar taybatay açıldı, əvvəlcə əlində kitab olan qoca, lap axırda əlində qılınc olan qoca içəri girdi.

Bu dəfə də əli qılınclı qoca dedi:

– Gəlsənə bunları öldürüm, gedib sirrimizi açmasınlar.

Əli kitablı qoca dedi:

– Sən insafsızlığdan, deyəsən, əl çəkməyəcəksən. Bu yazıqlar nə zülümlərlə gedib dostluğun sirrini öyrəniblər, sən də deyirsən onları öldürüm.

Keçəl Məmməd ayılıb dedi:

– Ey qoca, biz gedib dostluğun sirrini öyrəndik.

Qoca dedi:

– Oğul, gəl sən heç əziyyət çəkib söyləmə, onsuz da biz onların hamısını bilirik.

Keçəl Məmməd dedi:

– Ey qoca, siz ki, bu sirri bilirdiniz, bəs bizi niyə uzaqlara göndərirdiniz?

Qoca dedi:

– Oğul, siz əgər özünüz zəhmət çəkib o çətinliklərə düşməsəydiniz bizim dediklərimizin xeyri olmazdı. Odur ki, sizi ora göndərdik.

Məliklə keçəl Məmməd qocalardan razılıq eləyib gəldilər öz vətənlərinə. Məlikin atası oğlunun gəldiyini eşidib onu qarşılamağa çıxdı. Yeddi gün-yeddi gecə şadlıq elədilər. Padşah kasıbların, şikəstlərin qarnını doydurdu, bəxşiş payladı. Məlik də keçəl Məmmədi yanına aparıb ona gözəl bir imarət verdi, onunla dost, qardaş oldu.

Uçan xalça

Biri vardı, biri yoxdu, keçmiş zamanlarda bir qarının Əhməd adlı nəvəsi vardı. Onlar çox kasıb dolanırdılar. Qarı hər gün bir corab toxuyub satar, qazandığı pulu nəvəsinə verərdi ki, gedib yemək alsın. Yenə bir gün bir cüt corab satıb, pulunu nəvəsinə verdi ki, çörək alsın. Əhməd bazara gedəndə adamların bir iti bərk döydüklərini gördü, yazıq it gah ora qaçır, gah bura, heç kimin ona rəhmi gəlmirdi.

Əhməd irəli durub dedi:

– Ay camaat, bu yazıq heyvan sizə neyləyib ki, onu döyürsünüz? Alın çörək pulumu verim sizə, iti verin mənə.

Adamlar Əhmədin pulunu alıb iti verdilər ona. Əhməd iti götürüb qayıtdı evlərinə. Qapıdan içəri girəndə nənəsi gördü, nəvəsi əliboş gəlir, yanında da bir it küçüyü var. Odur ki, dedi:

– Ay bala, bəs çörək almadın?

Əhməd dedi:

– Ay nənə, yolda gördüm bu iti döyüb öldürürlər. Çörək pulunu verib iti aldım.

Arvad gördü deyinməklə heç nə çıxmayacaq, əlacı kəsilib bir söz demədi. Bir az acığı soyuyandan sonra, yenə bir cüt corab satıb pulunu verdi nəvəsinə, bərk-bərk tapşırdı ki, bu dəfə çörəksiz qayıtsan, vay halına. Əhməd dinməz-söyləməz pulu alıb getdi bazara. İndi də gördü ki, bazarda bir pişiyi döyürlər, irəli durub adamlardan soruşdu ki, bu yazıq pişiyin təqsiri nədir ki, onu döyürlər?

Dedilər:

– Qəssab dükanından ət aparıb.

Əhməd dedi:

– Ay insanlar, ac olsanız, siz də elə eləyərsiniz, alın çörək pulumu verim sizə, pişiyi verin mənə.

Adamlar pulu alıb, pişiyi verdilər Əhmədə. Əhməd indi də pişiyi götürüb gəldi evlərinə. Qarı gördü nəvəsi gəlir, amma qucağında çörək əvəzinə pişik gətirir, odur ki, Əhmədi möhkəm danlayıb dedi:

– Görürsən yeməyə çörək tapmırıq, hələ gedib, it-pişiyi də gətirirsən. Əhməd gördü nənəsi düz deyir, and içdi ki, bu dəfə daha heç nə almayacaq.

Qarı deyinə-deyinə satdığı corabın pulunu verdi nəvəsinə, özünə də tapşırdı ki, əgər bu dəfə əliboş qayıtsan, vay halına. Əhməd pulu alıb getdi bazara, çörəkdən, ətdən alıb, qayıtdı evlərinə. Axşam çörəklərini yeyib, bir az da it-pişiyə verib, yatdılar. Əhməd gecə fikirləşdi ki, yaxşı, mən bu heyvanları gətirmişəm, özümüz yeməyə çörək tapmırıq, onlara nə verəcəyəm? Birdən ağlına gəldi ki, sabah itlə pişiyi götürüb meşəyə apararam, bəlkə qurtdan-quşdan bir şey tapıb yedilər. Əhməd bu fikirlə yatdı, səhər nənəsinə deyib, itlə-pişiyi özüylə meşəyə apardı. Bunlar o qədər yol getdilər ki, axırda gəlib çıxdılar bir hündür dağın başına. Əhməd gördü ki, dağın təpəsində üç div bir-biri ilə dava eləyir. Əhməd bunları görən kimi istədi qaçsın, birdən it hürdü, divlər səs eşidib onu tutdular. Əhməd qorxusundan bilmədi neynəsin, divlərin böyüyü dedi:

– Ey oğlan, qorxma, bizim şərtimizi kəs, sənin lə işimiz olmasın.

Əhməd dedi:

– Nə üstə dava eləyirsiniz?

Div dedi:

– Biz üç div iki qiymətli şey tapmışıq, biri sehrli xalça, biri də sehrli üzükdür. Xalçanın üstündə durub desən "ey sehrli xalça, məni filan yerə apar", o saat uça-uça aparacaq. Üzükdən də nə dilək istəsən, hazır olacaq. Bu iki şeyi üç divin arasında bölə bilmirik.

Əhməd fikirləşdi ki, bu divlərin əlindən qurtarmaq üçün bir yaxşı fənd işlətsin.

Dedi:

– Ay div qardaşlar, siz o şeyləri qoyun mənim yanımda. Mən bu dağın başından bir daş atım, siz üçünüz də gedin onun dalınca, kim daşı tez gə-

tirso, xalça onun, üzük ikinci gələnin. Kim lap axırda gəlsə daha öz bəxtindən küssün.

Divlər razı oldular.

Əhməd bir yekə daşı dağ aşağı yuvarladı, daş təpəsi aşağı elə gedirdi ki, ildırım kimi. Divlər daşın dalınca qaçırdılar. Elə divlər bir az aralanan kimi Əhməd üzüyü barmağına taxıb, iti-pişiyi xalçanın üstündə oturdub dedi:

– Ey sehrli xalça, bizi bu saat apar evimizə.

O saat xalça göyə qalxıb, onları gətirdi evlərinə. Əhməd evlərinə çatan kimi üzünü barmağındakı üzüyə tutub dedi:

– Ey sehrli üzük, səndən bir imarət istəyirəm ki, bir kərpici qızıldan, bir kərpici gümüşdən olsun. Özü də o qədər hündür olsun ki, başı buluddan nəm çəksin.

O saat bir də gördü ki, onun istədiyindən də qəşəng bir imarət hazır oldu. Əhmədin nənəsi bu işə məəttəl qaldı. Evin tərifi hər yerə yayıldı, xəbər gedib padşaha da çatdı.

Padşah vəzirini çağırıb dedi:

– Vəzir, deyirlər ki, Əhməd adlı oğlanın bir imarəti var ki, mənim sarayım onun yanında tövləyə oxşayır. Bu düzdürmü?

Vəzir dedi:

– Bəli, mən də eşitmişəm.

Padşah dedi:

– Nə edək ki, bu evi onun əlindən çıxaraq.

Vəzir dedi:

– Ey padşah, bu sirri öyrənmək üçün gərək bir küpəgirən qarı tapaq. Əvvəlcə işi ona həvalə edək, görək nə çıxır.

Padşah əmr elədi, o saat bir küpəgirən qarı tapıb gətirdilər. Padşah baxıb gördü bu elə bir qarıdır ki, üzünə baxanda adamın zəhləsi gedir. Gözləri çəp, ağzı əyri, qıçları topal, beli donqar, qaş-qabağından da zəhrimar tökülür.

Padşah dedi:

– Vəzir, bu ki, şil-kütün biridir, düz yerdə yeriyə bilmir. Ağlım kəsmir ki, bunun əlindən iş gələ.

Qarı dedi:

– Ey padşah, sən mənim sir-sifətimə baxma, gördüyüm işə bax, de görüm məni nə üçün çağırıbsan?

Padşah dedi:

– Qarı, deyirlər ki, mənim torpağımdan uzaqlarda elə bir imarət var ki, sarayım onun yanında tövləyə oxşayır. Səni çağırmaqda məqsədim odur ki, əvvəlcə oranı tap. Sonra da onun sirrini öyrən görək o evi nə ilə tikdiriblər. Özü də elə bir tədbir tök ki, evi onun əlindən çıxardaq.

Qarı dedi:

– Sağ olmuş, belə işlər mənim əlimdə su içimi kimi bir şeydir. Günü bu gün taparam.

Qarı şahın yanından çıxıb, düz evinə gəldi. Girdi küpün içinə, puçunu burdu, nərilti-gurultu ilə qalxdı göyə. Qarı küpün içində hər yeri dövran eləyirdi, bir də gördü uzaqdan bir ev görünür. Elə bil gün çıxıb hər yerə işıq salır. Küpü sürdü o tərəfə. Gəlib şəhərin kənarında bir xarabalıqda endi yerə. Küpdən çıxıb, özünə yetmiş yerdən sığal verdi. Bir əlinə əsa, bir əlinə təsbeh alıb, gəldi həmin imarətin qabağına. Gördü Əhmədin nənəsi pəncərədən eşiyə baxır. Qarı pəncərənin qabağından keçəndə bir ayağını boş qoyub tappıltı ilə yıxıldı yerə. Başladı yalandan ahu-zar eləməyə. Əhmədin nənəsinin qarıya yazığı gəldi, gəlib qarını yerdən qaldırıb evinə apardı. Elə qarı da bunu istəyirdi.

Əhmədin nənəsi dedi:

– Ay bacı, hara gedirdin?

Qarı şirin dilini işə salıb dedi:

– Mən kasıb arvadam, heç kəsim yoxdur, elə sənin kimi insaflı adamların süfrələrindən artıq qalan qırıntıları verirlər bir təhər dolanıram. Acından qılçalarımda taqət qalmamışdır deyə, başım hərləndi yıxıldım.

Əhmədin nənəsinin qarıya yazığı gəldi, gətirib ona yemək verdi. Qarı doyunca yeyib doyandan sonra yağlı dilini işə salıb, şirin-şirin elə söhbətlər elədi ki, arvadın xoşuna gəldi. Küp qarısı gördü fürsətdi, odur ki, dedi:

– Ay bacı, görürəm ürəyiaçıq adama oxşayırsan, soruşmaq eyib olmasın. Görəsən bu cahi-cəlalı sənin nəvən necə düzəldib?

Əhmədin nənəsi dedi:

– Ay bacı, söz öz aramızda qalsın, görürəm ağzı bütöv adama oxşayırsan, odur ki, sirrimizi bircə sənə deyirəm. Nəvəmin barmağındakı üzük sehrlidir. Ondan hər nə istəsən o saat hazır olur. Bu yerə saldığımız yaşıl xalçanın üstə çıxıb desən ki, ey sehrli xalça, məni filan yerə apar, xalça o saat quş kimi uçub adamı ora aparar. Bütün bu cah-cəlalı həmin xalça ilə üzüyün sayəsində düzəltmişik.

Qarı istədiyinə çatmışdı deyə, daha şirin-şirin söhbət elədi. Axşam oldu, Əhməd gəldi, amma qarı getmək istəmədi. Yalandan başını tutub dedi:

– Yaman başım ağrıyır, bu gecə vaxtı mən necə gedəcəyəm?

Əhmədin nənəsi dedi:

– Ay bacı, nə çoxdu yerimiz, bu gecə bizdə yatarsan, sabah yaxşı olub gedərsən.

Elə qarı da bunu istəyirdi. O saat arvadı qucaqlayıb o üzündən, bu üzündən öpüb dedi:

– Bacı, görüm səni xoşbəxt olasan, qalmışdım fikirdə ki, bu baş ağrısı ilə gecə vaxtı hara gedim.

Gecə yatmaq vaxtı gələndə qarı yerini qapının ağzında saldırdı. Əhməd ilə nənəsi də hərəsi evin bir tərəfində yatdılar. Gecənin bir vaxtı küp qarısı durub onların burnuna bihuşdarı iylətdi. Oğlanın barmağından üzüyü çıxartdı, sehrli xalça evin yuxarı başında yerə salınmışdı. Qarı çıxdı xalçanın üstünə üzüyə dedi:

– Ey sehrli üzük, küpümü gətir yanıma, Əhmədlə nənəsi qalsın burda, bu imarətlə bərabər məni apar öz padşahımızın torpağına.

Qarının ağzından söz çıxan kimi bir də gördü ki, qalxdı göyün üzünə, bir göz qırpımında çatdı öz padşahlarının torpağına. Üzüklə xalçanı götürüb, getdi padşahın yanına, bunların sehrli olduğunu, həmin evin də bu sehrli üzüklə tikildiyini söylədi.

Padşah vəziri də götürüb, getdi imarətə baxmağa, gördü, doğrudan da belə bir imarət heç bir padşahın torpağında yoxdur.

Bunlar burda qalsınlar, görək Əhmədin başına nə gəldi, Əhməd yuxudan ayılıb bir də gördü lələ köçüb, yurdu qalıb. Qoca nənəsi ilə öz köhnə evlərində cırıq həsirin üstündə uzanıblar. O saat başa düşdü ki, bütün bu işləri eləyən gecəki qarıdır. Əhmədlə nənəsi yenə əvvəlki kimi corab toxuyub satmaqla bir qarnı ac, bir qarnı tox dolandılar.

Qarı imarəti aparanda itlə pişik həyətdə olduğuna görə onları aparmamışdı. Bir gün itlə pişik bir-birinə dedilər:

– Heç insaf deyil ki, Əhməd bizi ölümdən qurtardı, amma biz ona dar gündə kömək etmədik. Gərək necə olur-olsun, sehrli üzüyü, xalçanı tapıb gətirək. İtlə pişik elə həmin gün başladılar yol getməyə. İtlə pişik bu getməklə düz qırx gün yol getdilər. Çaylar keçdilər, dağlar aşdılar, axırda gəlib, çatdılar bir kərpici qızıldan, bir kərpici gümüşdən olan sarayın olduğu ölkəyə.

İtlə pişik düz getdilər padşahın evinin qabağına. Aynadan, qapıdan nə qədər boylandılarsa, içəri girməyə yer tapmadılar. Gördülər padşah yatıb, uçan xalça da taxtın qabağında yerə salınıb, amma üzük onun barmağında yoxdur. Üzüyün bir nişanəsi var idi ki, həmişə gün kimi işıq verərdi. Pişik gördü ki, padşah nəfəs aldıqca ağzından işıq çıxır, o saat bildilər ki, üzük dilinin altındadır.

Pişik o tərəf bu tərəfə boylanırdı, bir də gördü ki, bir siçan qapının altından çıxıb qaçdı. Tez atılıb siçanı tutdu. Siçan gözünün yaşını axıdıb yalvara-yalvara dedi:

– Səni and verirəm ananın südünə, məni yemə, balalarım var, acdılar, onlara yemək aparıram.

Pişik dedi:

– Səninlə bir şərtim var, onu eləsən səni yemərəm. Gərək sən qapının altından bir deşik açasan, ikimiz də ordan girək içəri. Padşahın dilinin altında bir üzük var, onu çıxarıb verəsən mənə, sonra səninlə işim olmaz. Siçan əlini gözünün üstünə qoyub dedi:

– Baş üstə.

Siçan o saat dişi ilə qapının taxtasını kəsib bir deşik açdı, pişiklə girdilər içəri. Pişik düz dırmaşıb cəfdəni yuxarıdan açdı, qapının arasını açıq qoydu. Gördülər padşah taxtın üstə fısafısla yatır. Pişik tez yerdən xalçanı qatlayıb verdi itə. Siçan taxtın üstə o tərəf, bu tərəfə hoppanıb çıxdı padşahın sinəsinin üstünə, yavaşca quyruğunun ucunu padşahın burnunun deşiyinə saldı, padşah asqırdı, üzük ağzından sıçrayıb yerə düşdü. Pişik üzüyü

götürüb siçana razılıq eləyib çıxdı eşiyə. İt xalçanı, pişik də üzüyü götürüb, gəldilər Əhmədin yanına, üzüyü verdilər ona. Əhməd itlə pişikdən çox razı qaldı, onların başını sığalladı, sonra sehrli üzüyü barmağına taxıb dedi:

– Ey sehrli üzük, qızıl kərpicli imarəti səndən istəyirəm.

Söz Əhmədin ağzından çıxan kimi bir də gördü nənəsi ilə həmin imarətin içindədir.

O gündən itlə pişik imarətin dörd tərəfini gözləyib, həndəvərinə heç kəsi buraxmadılar.

Əhməd nənəsinə dedi:

– Nənə, gördünmü yaxşılıq itməz. Mən vaxtilə itlə pişiyə yaxşılıq eləmişəm, indi də onlar əvəzini çıxdılar.

Ağıllı qızın nağılı

Biri var idi, biri yox idi, bir padşahla vəzir var idi. Bir gün bunlar ovdan qayıdanda yolda bir qarıya rast gəldilər.

Padşah atın başını saxlayıb dedi:

– Ay qarı, buralarda nə gəzirsən, işin-peşən nədir?

Qarı dedi:

– Mənim peşəm ev tikmək, ev yıxmaqdır.

Padşah dedi:

– Sən nəsən ki, ev tikib, ev yıxasan?

Qarı dedi:

– Ey padşah, sən hələ bilmirsən ki, arvad yıxmayan ev min il tikili qalar?

Padşah qarının bu sözündən narazı qaldı.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, qarı düz deyir.

Padşah razı olmadı ki, olmadı. Evə gələn kimi hər ikisi mübahisə elədilər.

Padşahın üç qızı var idi. O, evinə gələn kimi qızlarını yanına çağırıb dedi:

– Qızlarım, deyin görüm evi arvad tikər, ya kişi?

Böyük qız dedi:

– Evi əlbəttə kişi tikər.

Padşah dedi:

– Sağ ol, qızım, düz deyirsən.

Sonra padşah üzünü ortancıl qızına tutub dedi:

– Qızım, sən nə deyirsən?

Ortancıl qız dedi:

– Atayi-mehriban, arvad nədir ki, onun tikdiyi ev nə olar?! Əlbəttə, evi kişi tikər.

Padşah bu dəfə də kiçik qızından soruşdu:

– Qızım, bəs sən nə deyirsən?

Kiçik qız dedi:

– Ata, evi arvad tikər.

Bu söz padşahı qəzəbləndirdi. O, qızına dedi:

– İndi ki, belə oldu, səni evsiz-eşiksiz adama verərəm, sonra görək necə ev tikəcəksən.

Padşahın qızları burda qalsın, sizə xəbər verək Fatı qarıdan.

Şəhərin kənarında qazma daxmada Fatı qarı adında bir qoca arvad olurdu. Bunun Əhməd adlı tənbəl bir nəvəsi vardı.

Əhməd o qədər aciz idi ki, yerindən tərpənməyə də tənbəllik çəkirdi.

Padşah həmin qarını yanına çağırtdırıb dedi:

– Qarı, mən kiçik qızımı sənin nəvənə verirəm. Görürəm kasıb adamsan, odur ki, gedəndə toysuz-nağarasız onu da özünlə apar.

Qarı dedi:

– Ey padşah, sənin qızın hara, mənim nəvəm hara? Nəvəmin əynində bir paltarı var ki, cındırından cin hürkür. Yeməyə bir tikə çörəyi yoxdur. O, şah qızını necə saxlaya bilər, gəl sən bu fikrindən əl çək!

Padşah dedi:

– Qarı, sənin işin yoxdur. Apar, qızı verdim nəvənə.

Qarının əlacı kəsildi, qızı yanına salıb gətirdi evlərinə. Əhvalatı nəvəsinə söylədi. Əhməd bu işə lap məəttəl qalmışdı, bilmirdi nə desin.

Qız evə gələndən sonra gördü ki, Əhməd o qədər tənbəldir ki, heç yerindən tərpənmək istəmir, çörəyini də yatdığı yerdə yeyir. Qız çox ağıllı idi. Evə gələn gündən başladı Əhmədi dilə tutmağa. Birinci dəfə süfrəni evin yuxarı başında saldı. Əhmədi çağırdı ki, gəl çörəyini ye. Əhməd nə qədər yalvardı ki, mənim payımı gətir yerimdə yeyim, qız razı olmadı. Əhməd gördü ki, acından öləcək, əlacı kəsildi, sürünə-sürünə süfrənin qırağına gəldi. Çörək yeyib qurtaran kimi yenə gedib yerinə girdi. Belə-belə qız hər gün süfrəni başqa bir yerdə salıb, Əhmədi oraya çağırırdı. Bir neçə gündən sonra Əhməd daha özü durub süfrənin qırağına gəlirdi. Qız gördü ki, Əhməd bir az qoçaqlaşıb, ona görə bu dəfə süfrəni həyətdə, göy otların üstündə saldı. Əhməd çörəyini yeyib qurtaran kimi yenə gedib girdi yerinə, başladı yatmağa.

Aradan bir neçə gün keçəndən sonra padşah qızı Əhmədi indi də küçəyə çıxartmaq fikrinə düşdü. Qız öyrənmişdi ki, Əhməd qoz-fındığı xoşlayır. Odur ki, bazardan bir-iki girvənkə qoz, fındıq aldı, onu evdən küçə qapısının ağzına kimi töküb dedi:

– Əhməd, daha bəsdir evdə xorhaxor yatdığın. Dur, heç olmasa bu fındıqları, qozları yığ, gətir yeyək.

Əhməd sürünə-sürünə bir təhər qozları, fındıqları yığa-yığa küçə qapısından çıxdı, bir az o tərəfə-bu tərəfə baxıb, yenə qayıtdı evə, girdi yerinə. Qız gördü Əhməd küçəyə çıxmağı öyrəndi. Başladı ki, nə olur-olsun gərək gedib işləyəsən.

Əhməd dedi:

– Mənim sənətim yoxdur, nə iş görə bilərəm?

Qız dedi:

– Sən çıx küçəyə səslə ki, ay iş gördürən, ay iş gördürən! Kim yaxınlaşıb bir söz desə, ucuzuna-bahasına baxma. Get, o sənə iş gördürəcək.

Qız Əhmədi bir təhər küçəyə çıxartdı. Əhməd yolun ortasında dayanıb, hey deyirdi:

– Ay iş gördürən! Ay iş gördürən!

Birdən bir kişi gəlib dedi:

– Oğul, mənim bir bağım var, gəl onu bellə, sənə bir manat pul verim.

Əhməd istədi razı olmasın. Qızın sözü yadına düşdü, dinməz-söyləməz kişinin yanına düşüb getdi. Axşama kimi yer bellədi, axşam bir manatı alıb, gəldi. Yolda gördü ki, bir pişik satırlar, bir manatı verib, pişiyi aldı. Əhməd evə gələn kimi padşah qızı dedi:

– Əhməd nə iş gördün, nə qazandın?

Əhməd dedi:

– Bir manat qazanmışdım, onu da verib bu pişiyi aldım.

Qız dedi:

– Əhməd, sabahdan sən gərək bir uzaq yerə səfərə çıxasan, gedib hər yeri görəsən.

Əhməd dedi:

– Mən səfərə necə çıxa bilərəm, pulum yox, atım yox, yolu tanımıram.

Qız dedi:

– Sabah gedərsən bazara, yolun kənarında dayanıb gözlərsən. Görəcəksən ki, dəvə karvanları gedir. Karvanbaşıya deyərsən ki, məni də özünüzlə aparın, sizə kömək edim. O, razı olsa, onlara qoşulub gedərsən.

Əhməd bilirdi ki, qız dediyini edəcək. Ona görə dinməz-söyləməz razı oldu. Səhər açıldı. Gedib yolun kənarında gözlədi, gördü ki, bir qatar dəvə gəlir. Əhməd karvanbaşıya yaxınlaşıb dedi:

– Məni də özünüzlə apararsınızmı?

Karvanbaşı dedi:

– Elə apararam! Belə adamı göydə axtarırdım, yerdə əlimə düşdü.

Demə karvanbaşı karvanın qabağında belə bir adam aparır, yolda bir səhralıq var, oradan keçəndə suları tamam qurtarır, həmin səhrada bir su quyusu varmış, karvanbaşı özü ilə götürdüyü adamı həmin quyuya sallayıb oradan su çıxardardı. Quyuya sallanan adam bir də geri qayıtmaz, qalıb orada ölərmiş.

Karvanbaşı Əhmədi özü ilə götürüb yola düşdülər, az getdilər, çox dayandılar, çox getdilər,az dayandılar. Gəlib həmin quru səhraya çatdılar. Suları tamam qurtarmışdı. Karvanbaşı dedi:

– Bala, gəl səni sallayaq quyuya, bir az su çıxart.

Əhmədin heç nədən xəbəri yox idi deyə razı oldu: belinə ip bağlayıb salladılar quyuya. Əhməd quyunun dibinə düşüb belindən kəndiri açdı. Gördü bura elə yekə yerdir ki, ucu-bucağı görünmür. Bir xeyli yol gedib axan bir çaya rast gəldi. Tuluqları doldurub hayladı ki, çəksinlər. Birdən bir nərilti, gurultu qopdu ki, az qaldı bağrı çatlasın. Bir də gördü bir bəd-

heybət div budur kəsdi başının üstünü. Əhməd istədi qaça, gördü mümkün deyil, qaçmağa yer yoxdur.

Div dedi:

– Ey bəni-adəm, görürəm qaçmaq istəyirsən. Onu bil ki, əlimdən heç yerə qaça bilməzsən. Bura quş gəlsə, qanad salar qatır gəlsə dırnaq salar. Sən nə cürətlə gəlib bu məkana çıxıbsan? İndi bil, agah ol, səndən bir söz xəbər alacağam, əgər düzünü dedin, canın qurtardı, deyə bilməsən, səni tikə-tikə edəcəyəm.

Div onu yanına salıb apardı öz sarayına.

Əhməd gördü ki, bura elə gözəl bir qəsrdir ki, adam baxanda heyran qalır. Qəsr nə qəsr, hər yeri zər-ziba. Otaqlar qaş-daş, ləl-cəvahiratla dolu, bir cah-cəlal var ki, baxanda adamın ağzı açıla qalır. Div otaqdan-otağa keçib otuz doqquz qapı açdı, qırxıncı otaqda qızıl məcməyinin içində bir qurbağa gördü. Div qurbağanın yanında dayanıb dedi:

– Ey bəni-adəm, indi de görüm, dünyada ən gözəl nədir?

Əhməd dedi:

– Dünyada ən gözəl şey könül sevəndir.

Bu söz divin çox xoşuna gəldi, çünki özü həmin qurbağanı sevirdi.

Div Əhmədi öldürmək fikrindən əl çəkdi, özünə də bir nar ilə bir qoz bağışlayıb azad elədi. Əhməd divdən ayrılıb gəldi quyunun dibinə, nə qədər səslədi, harayına çatan olmadı. Çünki karvan çoxdan getmişdi. Əhməd gələndə bazardan aldığı pişiyi də özü ilə gətirmişdi. Elə ki, karvan yola düşdü, pişik quyunun başından əl çəkmədi. Başını quyuya salıb hey miyovldadı. Pişik gecə səhərə kimi quyunun yanında miyovldadı.

Səhər tezdən ayrı bir karvan gəlib quyunun yanından keçəndə gördülər ki, bir pişik quyunun başında bir miyo-miyo salıb ki, adamın yazığı gəlir. Karvanbaşı öz-özünə dedi: "Burda nəsə bir sirr var". Quyuya yaxınlaşdı. Gördü səs gəlir.

– Ey yoldan keçənlər, məni quyudan çıxardın!

Karvanbaşı yoldaşlarını çağırdı, kəndir sallayıb Əhmədi quyudan çıxartdılar. Əhməd başına gələn əhvalatı danışıb, bunlarla yoladüşdü. Gəlib qayışbaldırların torpağına çatdılar. Karvançılar işlərini yerbəyer eləyib bir evdə qonaq qaldılar. Axşam oldu, süfrə salındı, ortalığa yemək gətiriləndə, ev sahibi arvadlı-uşaqlı hərəsi əlinə bir toxmaq alıb qonaqların başının üstündə dayandılar. Qonaqlar bu işə məəttəl qalmışdılar. Elə bilirdilər, ev sahibləri bunları öldürmək istəyirlər. Karvanbaşı dedi:

– Ay qardaşlar, əgər bizi öldürmək fikriniz varsa, elə çörək yeməmişdən öldürün, canımız qurtarsın. Daha bu nə adətdir, əvvəlcə çörək verib, sonra öldürürsünüz?

Ev sahibi dedi:

– Biz sizi öldürmək fikrində deyilik. Qoyun ortalığa çörək gəlsin, onda görərsiniz ki, nəyi gözləyirik.

Bəli, ortalığa çörək gəldi, o saat hər tərəfdən o qədər siçan, siçovul töküldü ki, qablarda dişə çəkməyə bir sümük də qalmadı. Əli toxmaqlılar

demə bu siçanları gözləyirmişlər. Bunlar başladılar toxmaqla siçanları vurmağa, cəmisi beş-on siçan öldürə bildilər: qalanları tamam xörəkləri yeyib yuvalarına qaçdılar. Qonaqlar bu əhvalata mat qalmışdılar. Əhməd ev sahibinə yanaşıb dedi:

– Qardaş, sizdə bir-iki pişik olmazmı ki, gətirib evə buraxasınız, bu siçanların kökünü kəsə?

Ev sahibi dedi:

– Pişik nə olan şeydir? Bizim yerlərdə pişik tapılmaz.

Əhməd gördü buralarda pişik olmur, gedib öz pişiyini gətirdi. Təzədən xörək gətirdilər. Əhməd pişiyi evə buraxdı. Siçanlar çıxan kimi pişik bunu burda, onu orda boğub hamısını öldürdü. Ev sahibi bu işə heyran qaldı. Odur ki, Əhmədlə sövdələşib pişiyi çoxlu qızıla dəyişdi. Əhməd qızılları, divin bağışladığı narı, qozu bir adama verib evlərinə göndərdi, özü karvanbaşı ilə şəhərbəşəhər, kəndbəkənd gəzib alver elədi. Bunlar burada qalsınlar, görək Əhmədin arvadı necə oldu?

Qız Əhmədin göndərdiyi qızılları alan kimi bazardan bənna-fəhlə çağırıb yeddi mərtəbəli bir imarət tikdirdi. Bu elə bir imarət oldu ki, padşahın sarayı onun yanında tövləyə oxşayırdı. Qız, Əhmədin göndərdiyi narı kəsib yemək istədi, gördü narın içi ləl-cəvahiratla doludur: bu cəvahiratı xırdalayıb evin içini tamam zər-zibayla doldurdu.

Aradan bir xeyli müddət keçdi, Əhməd səfərdən qayıdıb gəldi. Evlərinin yerində yeddi mərtəbəli imarət görüb evlərini tanımadı. Qapıdakı gözətçidən evlərinin yerini xəbər aldı. Gözətçi dedi:

– Sən dediyin ev elə bu imarətin özüdür.

Əhməd elə bildi ki, gözətçi onu ələ salır. Odur ki, dedi:

– Ay qardaş, niyə məni aldadırsan?

Bu vaxt səsə Əhmədin nənəsi çıxıb onu çağırdı. Dedi:

– Ay bala, yoxsa evimizi tanımırsan? Sən gedəndən sonra arvadın tikdirib.

Əhməd evə girib cah-cəlalı görüb heyran qaldı. Arvadı evi necə tikdirdiyini Əhmədə söylədi. Sonra Əhmədin göndərdiyi qozu sındırdı, içindən bir dəst padşahyana ipək paltar çıxdı, həmin paltarı ərinə geyindirib dedi:

– Əhməd, indi hazırlıq görüb, atamı qonaq çağıracağam, o səndən nə xəbər alsa düzünü deyərsən.

Bəli, səhər açıldı, qız atasını bütün yaxın adamları ilə birlikdə qonaq çağırdı. Padşah qızının evinə girəndə gördü burada bir cah-cəlal var ki, heç onun xəzinəsində də belə şeylər yoxdur. Qız atasını hörmətlə qəbul edəndən sonra ortalığa xörək gətirildi. Süfrəyə dünyanın bütün nazneməti düzülmüşdü. Ləzzətli xörəklərdən yeyib, doyandan sonra padşah Əhməddən soruşdu:

– Oğul, bu cah-cəlalı kim düzəldib, bu imarəti kim tikdirib?

Əhməd bütün əhvalatı başdan-ayağa kimi padşaha söyləyib dedi:

– Padşah sağ olsun, bu dəm-dəsgahın hamısını sənin qızın düzəldib, evi də o tiktirib, məni də ağ günə o çıxardıb.

Qız bu sözləri eşidən kimi üzünü atasına tutub dedi:
– Ata, indi gördün ki, evi arvad tikər?
Padşah qızın doğru dediyini görüb başını aşağı saldı, dedi:
– Qızım, sən haqlı imişsən.
Padşah təzədən qızına yeddi gün, yeddi gecə toy elədi.

Vəfalı at

Keçmiş zamanlarda bir padşah var idi. Bu padşahın üç oğlu var idi. Çarx hərləndi, əcəl onu boğazladı. Padşah can verən zaman oğlanlarını başına cəm eləyib dedi:

– Oğlanlarım, mənim sizə üç vəsiyyətim var. Bu vəsiyyətlərə əməl etməsəniz, başınız çox bəlalar çəkəcək. Vəsiyyətimin biri budu: "Şikara gedəndə üçünüz də bir yerdə gedin. İkinci vəsiyyətim, ayrı-ayrı səfərə getməyin. Üçüncü vəsiyyətim, ağac dibində, divar dibində və meşə arasında olan çəməndə yatmayın".

Padşah sözünü tamam eləyib, canını oğlanlarına tapşırdı. Oğlanlar atalarını kəfn-dəfn elədilər. Qırx gün, qırx gecə el adəti ilə ona yas saxladılar. Gözlərinin yaşı quruyandan sonra böyük qardaş dedi:

– Gəlin şikara çıxaq, qəmimiz bir az dağılsın.

Hər üçü nizə, ox, kəmənd, əmud götürüb atlara süvar oldular, ova çıxdılar. Axşama kimi ovlayıb quşladılar.

Böyük qardaş dedi:

– Bu gecə burada qalaq.

Kiçik qardaş Məlik Məhəmməd dedi:

– Yox, gedək. Atamız vəsiyyət eləyib ki, meşə arasında çəmənlikdə qalmayın.

Onun sözünə fikir vermədilər, atlardan aşırılıb çəmənlikdə qalası oldular. Qardaşlar yatan zaman Məlik Məhəmməd öz-özünə dedi: "Atam nahaq yerə vəsiyyət eləməyib. Mən yatmayıb bu gecə qarovul çəkəcəyəm. Görüm burda nə var, nə hadisə olacaq".

Oğlan o gecə yatmayıb qarovul çəkdi. Gecədən xeyli keçmişdi. Bir də gördü, budu bir div gəlir, buynuzlarının hər biri bir çinar. Məlik Məhəmməd gözlədi. Div lap yaxına gələndə onun təpəsinə elə bir qılınc vurdu ki, beyni xaş-xaş kimi ovulub yerə töküldü.

Bəli, sabah açıldı, qardaşlar bir qədər də yol getdilər. Bir yerdə qaranlıq düşdü. Qardaşlar ha yatmağa yer axtardılar, münasib yer tapmadılar ki, tapmadılar. Bir divar dibində dayandılar. Böyük qardaş dedi:

– Bura daldadı, burda qalaq.

Məlik Məhəmməd dedi:

– Atamız vəsiyyət eləyib ki, divar dibində qalmayın.

Bir qardaş dedi:

– Hər vəsiyyətə inanmazlar. Divar dibində nə olacaq.

Kiçik qardaşın sözünə baxmadılar, orada qalası oldular. Qardaşlar yıxılıb yatdılar. Təkcə Məlik Məhəmməd oyaq qaldı. Məlik Məhəmməd yenə fikirləşdi: "Atam nahaq yerə vəsiyyət eləməyib. Yəqin burda bir iş var. Yatmayım, görüm nə olacaq". Məlik Məhəmməd yatmayıb keşik çəkdi. Gecənin bir aləmində bir də gördü, budu bir div yeddi dəyirman daşını başına keçirib, onlara tərəf gəlir. Məlik Məhəmməd gizləndi. O, divarın dibindən keçmək istəyəndə onun başına bir qılınc vurub öldürdü. Bundan da salamat qurtardılar. Səhəri eləyib, yola düşdülər. Üçüncü gün bir meşəyə çatdılar. Meşədə qaranlıq düşdü, bir yana çıxa bilmədilər.

Böyük qardaş dedi:

– Burda qalaq.

Kiçik qardaş dedi:

– Atamız vəsiyyət eləyib ki, meşə arasında qalmayın.

Böyük qardaş dedi:

– İki yerdə qaldıq, bizə heç bir zad olmadı, burda da olmayacaq. Yıxılın yatın.

Qardaşlar yıxılıb yatdılar, amma Məlik Məhəmməd barmağını yarıb içinə duz doldurdu, yatmayıb qarovul çəkdi. Gördü, budu bir nəhəng div gəlir, ömründə belə eybəcər div görməyib. Məlik Məhəmməd özünə ürək-dirək verib dayandı. Div Məlik Məhəmmədə çatmamış dedi:

– Ey Məlik Məhəmməd, hardasansa çıx. Mənim iki qardaşımı öldürüb ürəyimə dağ çəkmisən. Səni tikə-tikə eləməsəm anamın südü mənə haram olsun.

Məlik Məhəmməd gizlindən çıxıb dedi:

– Ey məlun div, əlindən gələni iki qaba çək. Bu meydan, bu şeytan.

Div əmuda əl atmaq istəyəndə, Məlik Məhəmməd fürsəti əldən vermədi, cəld qılıncı çəkdi, onun başına elə çırpdı ki, qılınc iki qarış onun başına işlədi, div ağır yaralandı. Əli boşaldı, qaça-qaça Məlik Məhəmmədə dedi:

– Ey Məlik Məhəmməd, bil, agah ol, filan dağda bir quyu var. O quyuda çoxlu ləl-cəvahirat var. Get götür, halalın olsun.

Səhər açıldı, qulağınız şad xəbərlər eşitsin. Məlik Məhəmməd divləri öldürdüyünü qardaşlarına söyləyib dedi:

– Divin üçüncü qardaşını da yaraladım. O dedi, filan dağda bir quyu var. O quyuda çoxlu ləl-cəvahirat var.

İndi gəlin o dağa gedək, doğru olar – ləl-cəvahiratı apararıq. Olmaz – qayıdıb evimizə gedərik.

Qardaşlar atalarına rəhmət oxudular. Bir-birinə qoşulub düz dağa getdilər. Gəzib-dolanıb quyunu tapdılar. Quyuya kim düşsün. Məlik Məhəmməd dedi:

– Məni sallayın.

Məlik Məhəmmədi quyuya salladılar. O, quyuya düşüb gördü bu quyuda o qədər ləl-cəvahir, almaz və başqa var-dövlət var ki, dərə-təpələrdə, çınqılların sayı var, onların sayı yoxdu. Bu ləl-cəvahiri, almazı və baş-

qa nə varsa iplə bayıra çəkdirdi. Quyunun dibini gəzəndə gördü, burada üç nazənin sənəmi saçından asıblar. Məlik Məhəmməd qızları açıb yerə qoydu. Xırda qızla əhdü-peyman eləyəndən sonra onu da iplə kənara çəkdirdi. Quyunun dibində tək özü qaldı. Qardaşlar bir-birinə dedilər:

– Məlik Məhəmməd kənara çıxsa, bütün bu var-dövlətə, ləl-cəvahirə sahib duracaq. Yaxşısı budu ki, onu quyuda qoyaq, ölüb başımızdan rədd olsun, var-dövlətə də özümüz sahib olaq. Belə də elədilər, Məlik Məhəmmədi quyuda qoyub yuxarı çəkmədilər. Qırx dəvə gətirdilər. Qəniməti dəvələrə yüklədilər, qızları da götürüb saraylarına getdilər.

Məlik Məhəmməd bildi ki, qardaşları onu quyunun dibində qoyub gediblər. O başladı quyunun dibi ilə getməyə. Qırx gün, qırx gecə yol getdi, axırda bir şəhərə gəlib çıxdı. Gəzə-gəzə bir tacirin dükanının qabağına gəldi. Tacirə dedi:

– Məni nökər saxlarsanmı?

Tacir dedi:

– Əlindən nə iş gəlir?

Məlik Məhəmməd dedi:

– Mehtərlik.

Tacirin bir yaxşı atı var idi, amma mehtəri yox idi. O elə çoxdan mehtər axtarırdı. Çox şad oldu. Məlik Məhəmməd tacirin atına çox yaxşı baxırdı. Vaxtlı-vaxtında yeməyini, arpasını verirdi, tumarlayırdı, suya aparırdı. Bir gün atı suya aparanda tacirin arvadı ona diqqətlə baxdı. Gördü, doğrudan da eyibsiz oğlandır. Bir könüldən min könülə ona aşiq oldu. Bir gün Məlik Məhəmmədi yanına çağırıb dedi:

– Oğlan, könlümün quşu uçub sənə qonub.

Məlik Məhəmməd onun istəyi ilə razı olmadı. Tacirin arvadının acığı tutdu. Öz-özünə dedi: "Yaxşı, Məlik Məhəmməd, sənnən mənimki qalsın. Sən dünyada yaşasan öyünərsən". Arvad axtarıb bir küp qarısı tapdı.

Qarının ovcuna bir çəngə qızıl basıb dedi:

– Qarı nənə, imanına qurban olum, bizim bu nökəri öldür.

Qarı dedi:

– Qarı nənən qadanı alsın, öldürmək asandı. Onu elə yerə göndərmək lazımdır, hər tikəsi bir quşun ağzında getsin.

Tacirin arvadı dedi:

– Qarı nənə, mən onu hara göndərim ki, gözümün qabağından rədd olub getsin, ölüb qurd-quşa yem olsun.

Qarı dedi:

– Ərinə deyərsən, elə bir otaq tikdirər ki, divarları min bir rəngə çalar. İçinə girəndə elə bilərsən cənnətə girmisən. Məlik Məhəmmədi göndərər, ustasını tapmağa. Tapa bilməyəcək, ölüb qurd-quşa yem olacaq.

Tacirin arvadı qarıya bir çəngə də qızıl verib yola saldı, ərinin yanına gəlib dedi:

– A kişi, gərək elə bir otaq tikdirəsən ki, divarları min bir rəngə çala, içinə girəndə elə biləsən, cənnətə girirsən. Belə otaq tikdirməsən, səndə oturmayacağam.

Tacir arvadından bərk qorxurdu. Əvvəldən cilovu vermişdi əlinə.

Arvadına dedi:

– Ay arvad, mən elə ustanı hardan tapım ki, sən deyən otağı tiksin? Elə söz danış ki, ağıl kəsən olsun.

Arvad dedi:

– Uzun danışma. Ustanın yerini Məlik Məhəmməd bilir, göndərərsən gətirər.

Tacir Məlik Məhəmmədi yanına çağırıb dedi:

– Məlik Məhəmməd, elə bir ev tikdirmək istəyirəm, divarları min bir rəngə çalsın. İçinə girən elə bilsin cənnətə girir. Deyirlər, bunun ustasını ancaq sən tapıb gətirə bilərsən. Gərək gedib tapasan.

Məlik Məhəmməd barmağını dişlədi, bildi ki, bunun arğacı arvaddan keçib, dedi:

– Tacir ağa, insafsızlıq eləmə. Mən qərib adamam. Sən dediyin evi tikən ustanı hardan tapa bilərəm? İkincisinə qalan yerdə, elə bir evi tikən olmaz.

Tacir dedi:

– Uzun danışma, get tap gətir. Yoxsa səni tikə-tikə doğraram.

Məlik Məhəmməd bir söz demədi. Bikef-məlul, atının yanına gəldi. Kefi pəjmürdə olduğundan atına yem, arpa vermək yadından çıxdı. Axurun böyründə onu yuxu tutdu. At onu bu halətdə görüb insan kimi dil açıb dedi:

– Ey Məlik Məhəmməd, bu gün mənə niyə yem vermirsən? Mən səndə bu sifəti heç görməmişdim.

Məlik Məhəmməd yuxudan ayılan kimi yerdən dik sıçrayıb dedi:

– Ey at, məni bağışla, fikrim dağınıq olduğundan yem yadımdan çıxıb.

Yem gətirib atın qabağına tökdü. At dilini də yemə vurmayıb dedi:

– Ey Məlik Məhəmməd, indi de görüm niyə kefsizsən? Niyə fikrin dağınıqdı?

Məlik Məhmməd dedi:

– Bir az xəstələnmişəm. Ayrı iş yoxdu.

At dedi:

– Ey Məlik Məhəmməd, kefsizliyinin səbəbini mənə deməsən, and olsun anamın südünə, yemə dilimi də vurmayacağam. Özü də baş götürüb gedəcəyəm.

Məlik Məhəmməd dedi:

– Ey at, ürəyini xarab eləmək istəmirəm. Tacir mənə deyir ki, gərək elə bir usta tapasan, mənə bir ev tiksin, divarları hər rəngə çalsın, içəri girən elə bilsin cənnətə girib.

At dedi:

– Ey Məlik Məhəmməd, onun çarəsini mən sənə deyərəm, gedib elə usta gətirərsən. Heç qəm yemə. Sən tacirə deyərsən ki, atı ver minim, gedim ustanı tapım gətirim.

Məlik Məhəmməd tacirin yanına gedib dedi:

– Usta uzaq yerdədi, atı ver minim, gedim gətirim.

Tacir dedi:

– Verdim, min get.

Məlik Məhəmməd düz atın yanına gəldi. At onu görən kimi dedi:

– Nə oldu?

Məlik Məhəmməd dedi:

– Verdi.

At dedi:

– Yolçu yolda gərək.

Məlik Məhəmməd atı bayıra çəkib süvar oldu. At yelə dönüb, onu bir xaraba qəbiristanlığa çıxartdı, yeddi qəbir keçdi, səkkizinci qəbirdə dayanıb dedi:

– Məlik Məhəmməd, bu qəbrə bir qamçı vur.

Məlik Məhəmməd qəbrə bir qamçı vurdu. O saat qəbir açıldı. At onu öyrətdi. Məlik Məhəmməd atın öyrətdiyi kimi dedi:

– Məlik Cümşüd, Məlik Məhəmməd deyir ki, alətlərini götürüb gəlsin, bizim evi tiksin.

Qəbirdən səs gəldi:

– Alətlərim içəridədi, gəl götür gedək.

At bunu eşidəndə dedi:

– Məlik Məhəmməd, qorxma qəbrə gir. Qabağına iki örtülü xalça, iki də açıq xalça çıxacaq. Örtülü xalçaları aç, açıq xalçaları ört. Qabağına iki qapı çıxacaq, biri örtülü, biri açıq. Örtülü qapını açarsan, açıq qapını örtərsən. Qabağına bir at və bir it çıxacaq. Atın qabağında sümük, itin qabağında ot olacaq. Otu götürüb atın qabağına, sümüyü götürüb itin qabağına qoyarsan. Sonra bir qarıya rast gələcəksən. Qarını görəndə deyərsən:

– Qarı nənə, oğlun deyir ki, alətlərimi versin. Qarı dişlərini itiləyəcək səni yesin. Onun yanında bir dolu xurcun görəcəksən. Alətlər o xurcundadı. Sən cəld xurcunu götürüb qaçarsan. Səni heç kəs tutmayacaq, qorxma.

Məlik Məhəmməd atı kənarda qoyub qəbrə girdi. Qəbirin içi ilə bir qədər getdikdən sonra, qabağına iki örtülü xalça, iki də açıq xalça çıxdı. Örtülü xalçaları açdı, açıq xalçaları örtdü. Bir az da gedəndən sonra qabağına bir örtülü qapı, bir açıq qapı çıxdı, örtülü qapını açdı, açıq qapını örtdü. Sonra qabağına bir at, bir it çıxdı. Atın qabağında sümük, itin qabağında ot var idi. Sümüyü götürüb itin qabağına, otu da götürüb atın qabağına qoydu. Axırda gedib bir qarıya rast oldu.

– Qarı nənə, oğlun deyir alətləri versin.

Qarı onu görəndə çox sevindi, dişlərini itilədi, onu yesin. Məlik Məhəmməd onun gözündən oğurlanıb alət olan xurcunu götürüb qaçdı. Qarı qışqırdı:

– At, tut.

At dedi:

– Niyə tutum? Sən mənim qabağıma sümük qoymuşdun. O, sümüyü götürüb itin qabağına, otu da götürüb mənim qabağıma qoydu. Bu mənə yaxşılıq eləyib, yamanlıq ki eləməyib.

Qarı dedi:

– İt, tut.

İt dedi:

– Özünü ələ salmısan, yoxsa məni? Bu, mənə yaxşılıqdan başqa nə eləyib ki, tutam. Mənim qabağıma ot qoymuşdun. Bu, otu götürüb atın qabağına qoydu, sümüyü də mənim qabağıma. İndi xırda-xırda yeyib ona dua eləyirəm.

Qarı dedi:

– Örtülü qapı, tut.

Örtülü qapı dedi:

– Niyə tutum? Mənə ki yamanlıq eləməyib. Nə vaxtidi örtülü qalmışdım, bu açdı.

Qarı dedi:

– Açıq qapı, tut.

Açıq qapı dedi:

– Niyə tutum? O ki mənə yaxşılıq eləyib. Bacarsam əvəzini çıxaram. Nə vaxt idi açıq qalmışdım. O məni örtdü, dincəldim.

Qarı dedi:

– Açıq xalça, tut.

Açıq xalça dedi:

– Ay imansız küp qarısı, niyə tuturam? Nə vaxt idi, açıq qalmışdım, canıma toz dolurdu. Sənin ayağının altında canım çıxırdı. Bu qatladı, dincəldim.

Qarı dedi:

– Örtülü xalça, tut.

Örtülü xalça dedi:

– Niyə tutum? Nə vaxt idi, örtülü qalmışdım. Güvə-zad daraşıb canımı didirdi. Bu açdı dincəldim.

Heç biri Məlik Məhəmmədi tutmadı. O, qəbirdən düz kənara çıxdı. Alət olan xurcunu atın qabağına qoydu. At dedi:

– İndi Məlik Cümşüdə xəbər ver ki, alətləri gətirdim.

Məlik Məhəmməd qəbrə dedi:

– Ay Məlik Cümşüd, alətləri gətirdim.

Məlik Məhəmməd qəbrə dedi:

– Ay Məlik Cümşüd, alətləri gətirdim.

Qəbirdən səs gəldi:

– Gedək!

At dedi:

– Məlik Məhəmməd, qəbirdə olan sümükləri kənara çıxart, yerbəyer quraşdır.

Məlik Məhəmməd qəbirdə olan sümükləri kənara çıxartdı, yerbəyer quraşdırdı.

At dedi:

– Məlik Məhəmməd, bir balaca məni gözlə. Mən gedim dirilik suyu gətirim, ona can verim.

At yelə dönüb yox oldu. Aradan yarım saat keçməmiş geri qayıtdı. At ağzı su ilə dolu gəlmişdi. O, suyu Məlik Cümşüdün ağzına tökdü. Məli Cümşüd asqırıb ayağa qalxdı, dedi:

– Xoş gəlmisiniz, gedək!

Məlik Məhəmmədlə Məlik Cümşüd ata mindilər. At onları tacirin qapısına gətirdi. Məlik Məhəmməd atı tövlədə bağladı, rahatlayıb Məlik Cümşüdlə tacirin yanına getdi, dedi:

– Ustanı gətirmişəm.

Tacir dedi:

– Evi tikdir. Ancaq dediyim kimi olsun.

Məlik Cümşüd dedi:

– Mən evin divarlarını tikib gedəcəyəm. Üstünü özünüz döşərsiniz.

Tacir dedi:

– Yaxşı, divarlarını sən düzəlt. Üstü asandı.

Məlik Cümşüd işə başladı. Bir ay içərisində elə bir ev tikdi, min bir rəng verirdi. İçinə girən elə bilirdi cənnətə girir. Tacirin ağzı lap açıq qalmışdı.

Bəli, Məlik Cümşüd işini qurtardı, haqqını alıb getdi. Evin üstü açıq idi. Tacir nə qədər ağac gətirdisə evə çatmadı. Bütün dünyaya xəbər verdi. Bu ev uzunluqda ağac tapılmadı ki, tapılmadı. O biri tərəfdən tacir arvadı yenə də Məlik Məhəmməddən əl çəkmirdi. Arvad qarını çağırıb dedi:

– Qarı nənə, Məlik Məhəmməd gedib usta gətirdi. Sən dediyindən də yaxşı ev tikdirdi. Axı mənim bağrım çatladı. Nə təhər edək ki, o ölüb rədd olsun, mənim gözüm onu görməsin.

Qarı dedi:

– Ay başı küllü, evinizin üstünə ağac tapmırsınız. Ona deyin, evi tikdirdiyin kimi, ağac da tapmalısan. Haradan tapacaq? Gedib gəzəcək, meşələrdə canavarlara yem olacaq. Sənin də gözün onu görməyəcək.

Tacir arvadı qarıya bir çəngə qızıl verib yola saldıqdan sonra ərini çağırıb dedi:

– A başı batmış kişi, ağac axtarırsan, tapmırsan. Evi tikdirən ağacı da tapa bilər. Məlik Məhəmmədi göndər, gedib tapsın.

Tacir, arvadının sözünü bəyəndi. O saat məlik Məhəmmədi yanına çağırıb dedi:

– Gərək evin üstünə ağac tapasan.

Məlik Məhəmməd dedi:

– Ay insafsız, sən bütün dünyanı gəzmisən, tapmamısan. Bəs mən hardan tapım?

Tacir dedi:

– Uzun danışma, sənə yeddi gün möhlət verirəm.

Məlik Məhəmməd bikef atın yanına gəldi. At onu qəmli görüb dedi:

– Ay vəfalı dostum, niyə bikefsən? Tacir yenə səni hara göndərmək istəyir?

Məlik Məhəmməd dedi:

– Bəs, mənə deyir ki, evin üstünə çatan ağac tapmalısan. Mən elə ağacı hardan tapım?

At dedi:

– Qəm yemə, taparıq. Qırx çubuq götür, məni min. Mən göyə qalxacağam. Hərdən çubuğun biri ilə məni vurub, çubuğu yerə burax.

Məlik Məhəmməd qırx çubuq götürüb ata mindi. At o saat göyə qalxdı. Məlik Məhəmməd hər dəfə çubuqların biri ilə atı vurub çubuğu yerə atdı. Çubuq dönüb uzun tir oldu. Belə-belə çubuqların hamısını ata vurub yerə atdı. Çubuqların hamısı dönüb tir oldu. At aşağı endi, Məlik Məhəmmədə dedi:

– Get tacirə xəbər ver, tirləri aparsınlar.

Məlik Məhəmməd gedib tacirə xəbər verdi. Tacir tirləri gətirtdi. Evin üstünü örtdürdü.

Tacirin arvadı yenə Məlik Məhəmməddən əl çəkmədi. Məlik Məhəmməd onun gözünə görünəndə elə bil ürəyinə ox dəyirdi. Onu öldürmək üçün fəndi-felə keçdi. At bunu Məlik Məhəmmədə xəbər verdi. Məlik Məhəmməd dedi:

– Bəs mən nə eləyim?

At dedi:

– Sən tacirdən icazə al, çıx get. Tacir sənə deyəcək ki, sən mənə çox yaxşılıq eləmisən, məndən nə istəyirsən? Onda deyərsən, səndən bir at istəyirəm. Verər, mən səni bu qaranlıq dünyadan işıqlı dünyaya çıxardaram.

Məlik Məhəmməd tacirin yanına gəlib dedi:

– Mən çoxdandır ki, sənin yanında mehtərlik eləyirəm. İndi ata-anamın yanına getmək istəyirəm. İzin ver gedim.

Tacir dedi:

– Ay Məlik Məhəmməd, sən mənə çox yaxşılıq eləmisən. Məndən nə istəyirsən?

Məlik Məhəmməd dedi:

– Səndən heç zad istəmirəm. Bircə atını mənə bağışla. Ayağımı yerdən qaldırsın.

Tacir dedi:

– Atı sənə verdim, min get. Allah amanatında olasan. Məlik Məhəmməd tacirlə salamatlaşdı, atın yanına gəlib dedi:

– Bəs, tacir səni mənə bağışladı.

At dedi:

– Məlik Məhəmməd, o evi tikən, qəbir adamı Məlik Cümşüdə qaytardığım qəfəsi də əlinə al, belimə min, bu qaranlıq dünyadan işıqlı dünyaya çıxaq.

Məlik Məhəmməd dedi:

– Qəfəssiz çıxa bilmərikmi?

At dedi:

– O qəfəs sənin əlində olmasa, səni vurub yerə salarlar. Qəfəs ki əlindədi, heç kəs bizə səmt gəlməz.

Məlik Məhəmməd ata minib qəfəsi əlinə aldı. At qanad açıb havaya qalxdı. Yetmiş bir gün yol gedib, işıqlı dünyaya çıxdı. İşıqlı dünyada atı sürhasür bir dəyirmanın qabağına gəldilər. Baxdılar ki, şeytan papağını əyri qoyub burada dayanıb. Şeytanın əlində bir tutuquşu var idi. Şeytan Məlik Məhəmmədi görən kimi sevinib dedi:

– Ey, əlində olan qəfəsi mənə ver, bu quşu içinə qoyacağam.

Məlik Məhəmməd dedi:

– Niyə verirəm, məgər dəliyəm? Yaxşı adamsansa sən quşu mənə ver, qoyum qəfəsin içinə.

Şeytan dedi:

– Onda qoymayacağam gedəsən. Gərək qəfəsi mənə verəsən.

At onların şərtini kəsmək üçün dedi:

– Dava-dalaş eləməyin. Hərəniz üç dəfə başqa dona düşün. Əgər Məlik Məhəmməd səni tapa bilməsə, qəfəsi versin sənə, sən Məlik Məhəmmədi tapa bilməsən tutuquşunu verərsən ona.

Şeytan bu şərtə razı oldu. Əvvəl-əvvəl Məlik Məhəmməd gözlərini yumdu. Şeytan çöp olub tutuquşunun qanadının arasına girdi. Məlik Məhəmməd gözlərini açdı. O tərəf-bu tərəfə baxanda, at ona dedi:

– Məlik Məhəmməd, gözlə ha, birdən quş qanadlanıb qaçar.

Məlik Məhəmməd o saat başa düşdü ki, şeytan quşun qanadının altında gizlənib dedi:

– Ay keçəpapaq şeytan, tutuquşunun qanadının altından kənara çıx.

Şeytan kənara çıxıb dedi:

– Yaxşı, birincisini tapdın. İndi ikincisini tap görüm.

Məlik Məhəmməd gözlərini yumdu, şeytan dən olub tutuquşunun qabağına töküldü. Məlik Məhəmməd gözlərini açanda at dedi:

– Məlik Məhəmməd, tez ol, tap, tutuquşunun dən yemək vaxtıdı, acdı.

Məlik Məhəmməd o saat başa düşdü ki, şeytan dən olub, tutuquşunun qabağına tökülüb dedi:

– Ay şeytan, tutuquşunun qabağından qalx. Birdən elə bilər dənsən, səni yeyər.

Şeytan dedi:

– Yaxşı, bunu da tapdın. İndi üçüncüsünü tap.

Məlik Məhəmməd gözlərini yumdu.

Şeytan bir quş olub quşun tükünə qarışdı. Məlik Məhəmməd gözlərini açanda at dedi:

– Məlik Məhəmməd, qoçağım, tüklü qutuya sahib olacaqsan, tez tap.

Məlik Məhəmməd bildi ki. şeytan tük olub quşun tükünə qarışıb, dedi:

– Şeytan qardaş, gözlərinə tük dolar. Tutuquşunun tüklərinin içindən kənara çıx.

Növbə şeytana çatdı. Şeytan gözlərini yumdu. Məlik Məhəmməd hiyləyə keçdi, başladı atılıb-düşməyə. Tutuquşunun fikri buna cəlb olundu, başladı gülməyə. Onun başı gülməyə qarışanda Məlik Məhəmməd onun gözlərindən oğurlandı, bir nal olub atın ayağına vuruldu. Şeytan gözlərini açıb quşun üzünə baxdı ki, Məlik Məhəmmədin yerini ona bildirsin. Quş başını buladı. Şeytan o yana-bu yana baxıb dedi:

– Məlik Məhəmməd, səni tapa bilmədim, hardasan, çıx.

Məlik Məhəmməd atın ayağının altından kənara çıxdı.

Yenə şeytan gözlərini yumdu. Bu dəfə Məlik Məhəmməd başladı meymun kimi mayallaq aşmağa. Tutuquşu gülməyə başlayanda Məlik Məhəmməd onun gözlərindən oğurlanıb bir tük oldu, atının belinə yapışdı. Onu quş görmədi. Şeytan gözlərini açıb quşa baxdı ki, Məlik Məhəmmədin yerini öyrənsin. Quş başını buladı. Şeytan bərkdən dedi:

– Məlik Məhəmməd, səni tapa bilmədim, hardasan çıx. Məlik Məhəmməd atın belindən yerə düşdü. Şeytan yenə gözlərini yumdu. Bu dəfə Məlik Məhəmməd ağız-gözünü əydi, gülməli oyun çıxartdı. Quş bərk gülüb qarnını qucaqlayanda Məlik Məhəmməd onun gözlərindən oğurlanıb, bir tel oldu, atın qabağına düşdü, quş onu görmədi. Şeytan gözlərini açıb quşun üzünə baxdı. Quş başını buladı. Şeytan başını qaşıyıb dedi:

– Məlik Məhəmməd, qoçağım, hardasan, çıx, tutuquşunu sənə verdim. Mən sözümün üstündə duran adamam.

Məlik Məhəmməd atın yanına gəlib qabağında durdu. Şeytan tutuquşunu ona verib dedi:

– Bu quş bütün sehrləri bilir. Sənə qismət imiş. Apar, ürəyinin yağını buna yedir. Sənə kömək eləyəcək, səni ölümdən qurtaracaq.

Məlik Məhəmməd quşu ondan alıb qəfəsə saldı. Şeytanla salamatlaşıb yola düşdü. Gecəni gündüzə qatdı, gəlib öz şəhərinə çatdı. Qardaşları onun gəldiyini bildilər, xəcalətlərindən üzünə çıxa bilmədilər. Böyük qardaş padşah idi, ortancıl qardaş da vəzir. Padşah ortancıl qardaşa dedi:

– Məlik Məhəmməd ölməyib gəlib. Bizə əngəl olacaq. Bir keçi su bulandırması eləyib, onu lap tez öldürmək lazımdı.

Bunların fikirlərini at Məlik Məhəmmədə xəbər verdi. Məlik Məhəmməd dedi:

– Mənim vəfalı dostum, bəs mən neyləyim? Padşahlıq onların əlində, qoşun onların əlində. Əlacım ona qalıb ki, sizi götürəm, ölkədən çıxam.

At dedi:

– Onlar səni qonaq çağıracaq. Sən çalış onların qonaqlığına getmə. Əgər getsən tutuquşunu da özünlə apar. Tutuquşu hardan getsə, sən də ordan get. Hər nə yesə ondan ye, yemədiyi şeyləri yemə.

Günlərin bir günü qardaşlar Məlik Məhəmmədi yanlarına çağırıb dedilər:

– Qardaş, xoş gəlibsən. Biz sənə yamanlıq eləməmişik. Şeyləri quyudan çəkib qurtaranda qaranlıq düşdü. Quyu birdən yox oldu. İşıqlananda nə qədər axtardıq quyunu tapmadıq. Quyu qeyb olmuşdu. Ona görə də kor-peşman çıxıb gəldik. Sabah bizə qonaqsan. Gətirdiyimiz kiçik bacı səni gözləyir. Toy eləyəcəyik, onu da, quyudan çıxan şeyləri də sənə verəcəyik.

Məlik Məhəmməd dedi:

– Mənə heç bir şey lazım deyil.

Məlik Məhəmməd geri qayıdıb əhvalatı ata və quşa nağıl elədi. Quş dedi:

– Ay Məlik Məhəmməd, qorxma, məni də götür gedək. Onlar səni öldürmək istəyirlər. Mən onların başına oyun açacağam.

At dedi:

– Dediklərimi yadından çıxartmazsan.

Bəli, sabah açıldı, bir nəfər gəlib Məlik Məhəmmədə dedi:

– Bəs, padşah səni qonaq çağırır.

Məlik Məhəmməd quşu da götürüb, qardaşlarının qonaqlığına getdi. Tutuquşu qabaqca, Məlik Məhəmməd onun dalınca gedib padşahın sarayına çıxdılar. Quş Məlik Məhəmmədi qabaq qapıdan aparmadı, dal qapıdan apardı. Məlik Məhəmmədi qardaşları nəvazişlə qəbul eləyib yuxarı başda əyləşdirdilər. Qabağa yemək gəldi. Məlik Məhəmmədin qabağına qızıl boşqabda yemək qoydular. Məlik Məhəmməd quşa baxırdı. Quş boynunu qatlayıb sakitcə dayanmışdı, yeməyə səmt gəlmirdi. Padşah Məlik Məhəmmədə dedi:

– Qardaş, Məlik Məhəmməd, niyə yemirsən?

Məlik Məhəmməd dedi:

– Mən əhd eləmişəm, bu quşla şərt bağlamışam. Bu yemədiyi xörəkləri mən də yeməyim.

Dedilər:

– Adam da quşun sözünə baxarmı? Canım, yeməyini ye. Bu xərci biz səndən ötrü çəkmişik.

Məlik Məhəmmədə çox üz vurdular. Onu üzdən-gözdən saldılar. Əlini yeməyə uzadanda quş onun əlinə bir dimdik vurdu, gözlərini ağartdı. Məlik Məhəmməd tez əlini kənara çəkib dedi:

– Tutuquşu yemədiyi xörəyi yesəm, daş olaram. Onun üçün mənə üz vurmayın.

Padşah əmr elədi. Xörəyi aparıb ayrısını gətirdilər. Quş bunu da yemədi. Padşah pərt oldu. Əlacı olsaydı, quşun boğazını üzərdi. Tutuquşu

qabı dimdiyi ilə vəzirin qabağına itələdi, vəzirin qabını da öz qabaqlarına çəkdi. Məlik Məhəmməd dedi:

– Quşdu, ağlı kəsmir, bunu bəyənir. Eybi yoxdur, qardaş, biz bu xörəyi yeyərik, sən də bizim xörəyimizi ye.

Məlik Məhəmmədlə quş vəzirin qabağından gələn xörəyi başladılar şirin-şirin yeməyə. Vəzir də padşahın üzünə baxdı: "Bəs mən nə təhər eləyim?".

Padşah ona işarə elədi ki, özünü naxoşluğa vur, çıx get. Vəzir xörəyi yeməyib dedi:

– Qardaşlar, mən bərk naxoşlamışam, icazə verin gedim.

Bəli, vəzir çıxıb getdi. Qonaqlıq qurtarandan sonra Məlik Məhəmmədlə quş evə qayıtdılar. Sabah açıldı, padşah qırmızı geyinib taxta çıxdı, vəziri yanına çağırıb dedi:

– Vəzir, nə qədər ki tutuquşu var, Məlik Məhəmmədə heç zad eləmək olmaz. Tutuquşunu onun əlindən almaq lazımdı.

Vəzir dedi:

– Şah, çağır deginən, gərək tutuquşunu verəsən mənə.

Bu söz padşahın ağlına batdı. O saat Məlik Məhəmmədi yanına çağırtdırıb dedi:

– Gərək tutuquşunu verəsən mənə.

Məlik Məhəmməd dedi:

– Qardaş, ədalətinə güc eləmə. Mən elə o quş ilə günümü keçirirəm. Bəs onu versəm sənə, nə eləyərəm?

Padşah dedi:

– Mən ədalət-mədalət tanımıram. Verməsən mənə, boynunu vurduracağam.

Məlik Məhəmməd gördü: xeyr a, qardaşı ağacın o biri başını çevirib. Bir söz desə, boynunu vurduracaq, keçi su bulandırmasını eləyir. Tez evə qayıdıb əhvalatı atla tutuquşuya danışdı. Quş dedi:

– Məlik Məhəmməd, qorxma, məni apar padşaha ver. Dalısı ilə işin yoxdu.

Məlik Məhəmməd tutuquşunu aparıb verdi padşaha. Quş padşahın xidmətində dayandı. Məlik Məhəmməd də çıxıb evlərinə getdi. Quş bir sehr oxudu, padşah taxta yapışdı. Çölə çıxmaq istəyəndə gördü taxta yapışıb. Çağırıb vəzirə dedi:

– Vəzir, deyəsən taxta yapışmışam. Bu nə təhər əhvalatdı? – Vəzir yaxın gedəndə quş sehr oxudu, vəzir də padşaha yapışdı. Səs-küyə padşahın bütün əyanları, hərəmləri gəldi. Quş sehr oxudu, onlar da bir-birinə yapışdılar. Quş gedib Məlik Məhəmmədə, ata xəbər verdi. Məlik Məhəmməd gəldi. Padşah onu görən kimi dedi:

– Qardaş, bir qələtdi eləmişəm. Padşahlığı da, var-yoxu da sənə verdim, məni bu bəladan qurtar.

Məlik Məhəmməd dedi:

– İxtiyar tutuquşudadır. Bir söz deyərəm, məni də sizə yapışdırar.

At da gəlib çıxdı. Bu adamların bir tərəfindən quş, bir tərəfindən də at tutdu, göyün yeddinci qatına qaldırdılar. Oradan buraxdılar, hər biri bir ölkəyə düşüb, parça-parça oldu.

Camaat yığıldı. Məlik Məhəmmədi özlərinə padşah, atı vəzir, tutuquşunu da vəkil seçdilər. Quyudan çıxarılan kiçik qız Məlik Məhəmmədi gözləyirdi. Qızı gətirdilər. Qırx gün, qırx gecə onunla Məlik Məhəmmədə toy elədilər. Məlik Məhəmməd ədalətli bir padşah oldu, rəiyyətin hər dərdinə çarə elədi. Onlar yedilər, yerə keçdilər. Xeyirə rəhmət, şərə lənət.

Ağ quş

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın arvadının boynuna nə qədər uşaq düşürdüsə, hamısı ana bətnindən gələndə ölürdü. Nə qədər təbib, tilsim, cadu elətdirirdilərsə, heç bir fayda vermirdi.

Günlərin bir günündə yenə də padşahın zənəni həmli olur. Doğmağına bir qədər qalmış, padşah zənənini öz qaynatasının yanına göndərir ki, bəlkə orda yaxşı baxalar. Gün keçir, ay dolanır, padşahın bir oğlu olur. Bəli, müjdə-müjdə üstündən gəlir. Padşah zənəninə sifariş göndərir ki, hələ bir neçə vaxt qalsın orda, uşağın bir az sümüyü bərkisin, gələr, yenə bir qəzavü-qədər üz verər.

Bunlar burda qalmaqda olsunlar, sənə kimdən xəbər verim, padşahın vəzirindən.

Padşahın bir xəbis vəziri var idi. Çoxdan fürsət axtarırdı ki, onu öldürüb özü padşahlığa keçsin. Bu tərəfdən gördü ki, yox, padşahın oğlu da oldu, ta padşah ölsə də, buna bir şey çatmayacaq, qət elədi ki, gərək padşahı öldürüb onun nəslini yer üzündən kəsə. Bəli, bir gecə öz adamların götürüb hücum elədi padşahın sarayına. Padşahı öldürüb özü keçdi onun yerinə, əyləşdi taxtda.

Sabahısı gün öz adamlarından bir dəstə göndərdi padşahın zənəninin yanına. Bir namə də yalandan padşahın dilindən yazdı ki, bəs naxoşam, gərək durmayıb gələsən. Padşahın külfəti kəcavəyə minib bu qasidlərlə yola düşdü. Gəlib bunlar bir dağın damənində düşərgə elədilər. Elə ki, gecə yarıya gəldi, bu qasidlərin başçısı durub gəldi padşahın arvadının çadırına. Vəzir ona tapşırmışdı ki, arvadı da, uşağı da orda öldürsün. Gəlib girdi içəriyə, tutdu arvadın qolundan. Arvad gördü ki, bu məlunun fikri pisdi, üzün ona tutub dedi:

– Sən nə kimsənəsən ki, öz padşahının arvadına sataşmaq istəyirsən.

Qasidbaşı gülüb dedi:

– Nə padşah, nə padşah arvadı? Sənin ərin çoxdan o dünyaya təşrif aparıb. İndi padşah sənin ərinin vəziridir. Biz də onun əmrilə gəlmişik ki, səni də, uşağını da göndərək atasının yanına.

Arvad bunu eşitcək uşağı qarmalayıb özün atdı bayıra. Qasidbaşı bir səs vurdu, keşikçilər oyandılar, düşdülər arvadın dalına. Arvad gördü, yox, az qalır ki, çatsınlar, bir yerə, bir göyə baxıb uşağı atdı dərəyə. Keşikçilər çatıb arvadı öldürdülər, tay uşağın dalınca dərəyə enmədilər, bildilər ki, o da hökmən orda daşlara dəyib ölüb.

Bunlar padşahın yanına getməkdə olsunlar, sənə kimdən xəbər verim, köhnə padşahın qardaşından.

Köhnə padşahın bir qardaşı var idi. Bu vaxtlarda səyahətə getmişdi. Səyahətdən qayıdıb işi belə görəndə baxdı ki, onu da öldürəcəklər, başına bir az adam yığıb çəkildi dağa. Padşah bu əhvalatı eşidib onun dalınca qoşun göndərdi. Ancaq qoşun onu tuta bilmədi. Padşahla onun arası nə düzəldi, nə də onu yox eləyə bildi. Vəzir hər nə tədbir gördüsə vecə gəlmədi ki, gəlmədi.

Köhnə padşahın qardaşı ketdikcə qüvvətləndi. Bunlar bir gün gəlib həmin dağa çıxdılar. Əsgərlərin biri burda dərədə, şir yuvasının qabağında oynayan bir uşaq tapdı; gətirdi padşahın qardaşının yanına. Padşahın qardaşı baxdı ki, bu uşağın qolunda bir bazubənd var. Bazubəndi oxuyub gördü öz qardaşının uşağıdı. Demə, bu həmin uşaqmış ki, arvad bunu dərəyə atmışdı. Uşaq şir südü ilə bəsləndiyinə görə adın qoydular Şirzad. Amma Şirzad, elə doğrudan da, şir kimi gümrah bir uşaqdı. Qərəz, bu uşaq elə xırdalığından at belində gəzdi. Ox atdı, qılınc-qəmə oynatdı. On dörd-on beş yaşına çatanda əməlli-başlı bir pəhləvan oldu.

Bu xəbər ki, yayıldı ətrafa, padşahın oğlu tapılıb, özəmisinin yanındadı, bunların gücü bir az da artdı. Vəzir gördü yox, iş xarabdı. Tədbir, tədbir, axırda günlərin birində böyük bir qala tikdirdi, gözəl, həm də hiyləgərlikdə şeytana papaq tikən qızını da aparıb qoydu ora.

Şirzad bir gün təkbaşına gəştə çıxmışdı. Gəzə-gəzə gəlib həmin bu yerə çıxdı. Yaman acmışdı. Bir ox qoydu çiləyə atıb bir quş vurdu. Quş gedib düşdü həmin bu qızın qalaçasına. Şirzad bir kəmənd atıb qalxdı bura. Baxdı ki, küləfirəngidə bir qız oturub, bir qız oturub ki, suya deyir axma, aya deyir baxma.

Qız Şirzadı görcək gəlib pələti açıb onu dəvət etdi evə. Özü də tez atasına qasid göndərdi ki, durmasın gəlsin, Şirzadı salmışam çəngə. Şirzad eyş-işrətə məşğul idi, bir də pəncərəyə baxdı, gördü nə, dəryayi-ləşkərdi ki, gəlir. İşi başa düşdü. Qalxdı ayağa. Elə birinci dəfə qızın başın kəsib onu cəhənnəmə vasil elədi. Sonra tez özün məhləyə salıb mindi ata. Dalın bayıra tərəf verib başladı cəngə. Sən olasan bir, düşmən ola dəryayi-ümman. Şirzadın hər tərəfin aldılar. Şirzad baxdı ki, daha lap gücdən düşür. Elə az qalmışdı ki, onun işin bitirələr, bir də bir səs gəldi ki:

– Qardaş oğlu, qorxma gəldim.

Şirzad əmisinin səsin tanıdı, elə bildi ki, gözləri işıqlandı, qollarına qüvvət gəldi. Özünü vurdu dəryayi-ləşkərə. Bir cəngi-məğlubə oldu ki, ruzigarın gözü belə şey görməmişdi. Qoşundan qırılan qırıldı, təslim olan

oldu, padşahı öldürüb şəhəri aldılar. Şirzad padşahlığı əmisinə verib, özü başladı keyf eləyib, gün keçirməyə.

– Padşahın, yəni Şirzadın əmisinin iki oğlu var idi. Ancaq padşah Şirzadı onlardan çox istəyirdi. Bu oğlanların ürəyinə vəsvəsə düşdü. Gözləri bunu götürmədi. Padşah bunu sezib, bir gün onların üçünü də çağırtdırdı hüzuruna, dedi:

– Balalarım, siz üçünüz də mənim balamsız. Mən o adamı çox istərəm ki, o igid olsun. Sizin hansınız igidsiniz?

Hərə üzün bir tərəfə çevirdi. Padşah bunu görüb dedi:

– Demək, hamınız özünüzü igid hesab eləyirsiniz. Onda mən bir şərt qoyuram. Kim mənim atımın ayağının dəymədiyi yerdən mənə görmədiyim bir şey gətirsə, o igiddi. Böyük oğlan qabağa yeridi, zəmini-ədəb öpdü, padşah da ona yol xərci verib mürəxxəs buyurdu.

Oğlan ata minib yola düşdü. Gecəni gündüzə saldı, gündüzü gecəyə saldı, düz iki ay yol getdi. İki ayın tamamında bir yerdən keçirdi, birdən onun atı xorradı. Atı dayandırıb gördü ki, bir ağacın dibində böyük bir ləl var. Atdan düşdü, fikirləşdi ki, əgər atam bu yerlərə gəlmiş olsaydı, yəqin ki, bunu burda qoymazdı. Ləli götürüb atın başın qaytardı. Şəhərdə xəbər çıxdı ki, padşahın böyük oğlu gəlir. Bəli, padşah əmr elədi, onu pişvaz elədilər. Sabahı hamı geyindi, gecindi, hərə öz yerin tutdu, divan quruldu, oğlan gətirdiyi ləli bir xonçaya qoyub gətirdi padşahın hüzuruna. Padşah oğlunun alnından öpdü, bir açar verib dedi:

– Şəhərin qırağında dağın altında bir kaha var. Kahada mənim qırx otağım var. Apar bu ləli qoy on birinci otağa.

Oğlan gedib on birinci otağı açıb gördü bura o cür ləllərlə doludu.

– Növbə gəldi ortancıl oğula. Bu da üç ay yol gedəndən sonra çatdı bir meşəyə, gördü ki, burda yaxşı meyvələr var. Dedi bir-ikisin dərim yeyim, yaxınlaşdı, gördü bunlar hamısı qızıldı. Bir heybə bunlardan doldurub yola düşdü. Bəli, gəlib çatdı. Padşah bunun da alnından öpüb dedi:

– Get apar qoy iyirmi birinci otağa!

Oğlan gedib gördü ki, o otaq da doludu elə qızıl meyvələrlə.

Növbə gəldi Şirzada.

Şirzad zəmini-ədəb öpüb dedi:

– Əmi, mən sənin atınla gedəcəyəm.

Padşah əmr verdi, öz atını verdilər Şirzada. Şirzad atı minib düşdü yola, atın başın buraxdı. At birbaş yola düşdü, ətrafına heç fikir verməyib gedirdi. Beləliklə düz altı ay yol getdi, yeddinci aya dönəndə birdən at dayandı, bir fınxırıb ayağın yerə döydü, bir də ki, dönüb dala baxıb kişnədi, özün cəmləşdirdi. Bəli, Şirzad bildi ki, at bundan o yana getməyib. Atın dəhnə yüyənindən dartıb başladı yavaş-yavaş sürməyə. Bir qədər getmişdi, bir də gördü yerdə bir şey yanır. Atı saxladı, düşüb baxdı, gördü bu, özü-özündən yanan bir çıraqdı. Çırağın ora-burasına baxanda gördü bunun bir yerində yazılıb ki, "ay bunu tapan adam, bu çıraqdan dünyada iki dənədi". Şirzad fikirləşdi. Ola bilər ki, bunun birini də əmim tapmış

ola, ürəyində qət elədi ki, ikincisini də tapmamış evə dönəsi deyil. Atın qarınaltısın bərkidib yola başladı.

Çox gəzdi, az gəzdi, orda deyildim, hesablayaydım, axirüləmr gəlib çıxdı bir şəhərə. Karvansarada düşüb bir mənzil kirələdi ki, bir neçə gün qalıb bir az istirahətçilik eləsin. Gecə bunun mənzilinə bir dənə də adam gəldi. Şirzad bir də baxdı ki, bu qonaq xurcundan bir dənə çıraq çıxarıb yandırdı.Baxdı ki, adə, elə həmin çırağın tayı.

– Şirzad qonaq ilə tanış oldu. Öz əhvalatın ona danışıb həmin çırağı ondan istədi. Qonaq dedi:

– Mən çırağı sənə verrəm, ancaq sən də əvəzində mənə bir şey verəsən.

Şirzad dedi ki:

– Hər nə istəsən, hazıram verməyə.

Onda qonaq dedi ki:

– Burdan bir aylıq yolda divlər olurlar. Onların yaxşı göyərçinləri var. Əgər o göyərçinlərdən bir cüt erkək, dişi mənə gətirə bilsən, mən bu çırağı sənə verərəm.

Şirzad razı oldu. Yolu ondan soruşub sabah tezdən "ağamı allah saxlasın" – deyib yola düşdü. Az getdi, üz getdi, dərə, təpə düz getdi, gəlib həmin yerə çatdı. Bir dağın ətəyindən keçəndə bir də bir səs eşitdi. Dönüb gördü ki, dağın üstündə bir ağ quş oturub onu çağırır. Şirzad dayandı. Quş dedi:

– Şirzad, o adam səni ölümə göndərir. Bu divlər o göyərçinləri atalarından çox istəyirlər. Sən gərək gecəni yarıya verib, onları yuxuladıb sonra gedəsən.

Şirzad atdan düşdü, gözlədi, gecə özün verdi barıya tərəf. Barının yanına çatmışdı ki, bir də gördü quş deyir:

– Şirzad, tamah sənə güc eləməsin! Bir cütdən artıq tutmayasan ha...

Şirzad barıdan aşıb girdi məhləyə. İməkləyə-iməkləyə gəlib çatdı göyərçinlərin yanına. Baxdı, vallah bunlar elə göyərçinlərdi ki, elə bir cüt göz lazımdı ki, bunlara tamaşa eləsin. Bunlardan bir cüt tutdu. İstədi qayıtsın, hər nə qədər elədi, ayaqları getmədi, gözü qalmışdı göyərçinlərdə. Axırda özün saxlaya bilməyib, bir cüt də tutdu. Elə bil ki, elə göyərçinlər buna bəndmişlər. Bir səs-küy qaldırdılar ki, tay nə bilim necə. Divlər oyanıb Şirzadı tutdular.

Şirzad əhvalatın düzünü onlara danışdı. Onlar dedilər ki:

– Biz bunlardan bir cüt verərik sənə, amma bu şərtlə ki, bu yaxınlarda divlər var, onlardan yaxşı üzüm var, o üzümdən bir səbət bizə gətirəsən.

Şirzad atını minib üz qoydu o tərəfə. Az getdi, çox getdi, gəlib çıxdı həmin divlərin vilayətinə. Elə atdan düşüb təzəcə çəkilmişdi bir kolun dibinə ki, həmin səsi yenə də eşidib başın qaldıranda ağ quşu başının üstündə gördü.

– Şirzad, mənim məsləhətimə qulaq asmadın. Ona görə də müsibətə düşdün. Aç qulaqlarını, yaxşı eşit! Bax, sənə deyirəm, tamah eləyib, ikinci səbəti götürməyəsən ha...

Şirzad gözlədi, gecəni yarıya verib kəməndi atdı barıya, kəmənddən sallana-sallana dırmaşıb düşdü o tərəfə. Sürünə-sürünə gəldi anbara. Gördü, budu ha, üzüm səbətləri düzülüb burdan ora. Fikirləşdi ki, qoy bir az qabaqca özüm yeyim, sonra da bir səbət aparım. Əyləşdi səbətin başında. Şirzad kimi bir pəhləvana bir səbət üzüm nə edəcək? Onun harasında qalacaq? Bir,iki, üç, beş səbət qurtardı. Elə səbətdəki axırıncı salxımı götürmüşdü ki, bir də gördü səbət yenə doldu üzümlə. Şirzad gözlərinə inanmadı. Bir səbət də çəkdi qabağına, yenə yedi. Elə ki, üzüm qurtardı, səbət yenə qeybdən doldu. Şirzad qaldı məəttəl. Səbətin birin götürdü, fikirləşdi ki, ay dili-qafil, heç insaf deyil ki, mən bu səbətlərin birin də əmimə aparmayam. Tamah ona güc elədi, ikinci səbəti də götürdü. Elə əlin ikinci səbətə vurmuşdu ki, bütün səbətlər qışqırdılar. Divlər tökülüb onu tutdular. Şirzad bütün qəziyyəsini bunlara danışdı. Divlərin böyüyü bir qəviheykəl şeydi, üzün tutdu Şirzada dedi:

– Bu yaxınlarda ağ divin məskənidi. Onun bir qızı var ki, mən ona aşiqəm. Əgər onu mənə gətirsən, sənə bir səbət üzüm verərəm.

Şirzad atı mindi. Kor-peşiman özun söyə-söyə üz qoydu indi də ağ divin vilayətinə. Bəli, gəlib çata-çatdaydı ki, yenə ağ quş kəsdi onun başının üstünü, dedi:

– Ey, tamahkar insan, sən bu dəfə hökmən ölümə gedirsən. Qulaq ver mənə. Ağ divin qızı bu saat yeddi günlük yuxudadı. O, ayda bir dəfə belə yatır. Yeddi günlük yuxu yatanda o qırx saçı ilə çarmıxa çəkili olur. Onu açmaq sənə mümkün olmaz. Məgərinki ağ divin sərtövlədə qırx çarmıxlı bir atı var. Onun yanına quş quşluğu ilə düşə bilməz. Sən gərək o atı minəsən, sonra qızı yerdən qaldırasan. Birinci dəfə qaldırdın, qaldırmısan, qaldırmadın dizəcən daş olacaqsan, ikinci dəfə qaldırmasan qurşağa kimi, üçüncü dəfə qaldırmasan bütün daş olub qalacaqsan orda.

Şirzad yetişdi məhəlli-məxsuda. Özün verdi sərtövləyə. Gördü bəli, ağ quşun dediyi kimi burada bir at var ki, elə bil əjdahadı. Özün cəmləşdirdi, bir qoşa təpik vurub atıldı, tərlan turaca qonan kimi qondu atın belinə. Özün atın belində rahatlayandan sonra, elə ki, dəhnə-yüyəni əlində möhkəmlətdi, ondan sonra qılıncın çəkib bir-bir ipləri üstdən yuxarı kəsməyə başladı. At çarmıxdan azad olandan sonra istədi bir güc eləsin, gördü yox, üstündəki can o candan deyil. Şirzad onun başın döndərdi qızın yanına. Gəldi çatdı qızın bərabərinə. Gördü qız, nə qız. Doğrudan elə bil Muğan durnasıdı. Əyildi, əlin saldı qızın belinin altından, bir dəfə güc verdi, heç bir şey çıxmadı. Baxdı ki, bəli, dizə qədər oldu daş. Bir də əlin saldı, yenə güc verdi, qız yerindən tərpəndi, amma qaldıra bilmədi. Qurşağa kimi oldu daş. Şirzad atın yüyənini bərk tutub dedi:

– Vallah, bu dəfə ya səni qaldıracağam, ya atın belin sındıracağam.

– Əlin yenə də saldı qızın belinə. Bir "ya mədəd" deyib qızı dik qaldırdı. Baxdı ki, daşdan silkindi. Birbaş atı vurdu. Daldan min cür səs eşidilirdi ki, ay tut, ay qoyma. Şirzad dala baxmayıb atı çapdı.Bir qədər ke-

çəndən sonra səs-səmir kəsildi. Şirzad atı möhkəm vururdu, bir də yenə ağ quş zahir oldu.

– Şirzad, mənə qulaq as! Bu qızın yuxudan oyanmağına bir saat qalıb. Bu yuxudan duranda elə qışqıracaq ki, bütün dağ, daş zəlzələyə gələcək. Sənin qulaqların o səsə tab gətirməyib partlar. Atdan düş, bu saat bir arşın eni, üç arşın dərini bir xəndək qaz, gir içinə gizlən! Bax sənə deyirəm, o vaxta qədər çıxmazsan ki, o anasının südünə and içməyə.

– Şirzad atdan düşdü. Ağ quşun dediyi kimi bir xəndək qazıb girdi içinə. Doğrudan da, yarım saatdan sonra qız elə qışqırdı ki, üç arşın dərinlikdə Şirzadın tükləri dik-dik durdu.

Şirzad öz-özünə dedi:

– Əcəb almalı zənəndi. Hər yuxudan duranda belə qışqırsa, şəhərdə qulaqlı adam qalmaz.

Qız bir o yana baxdı, bir bu yana baxdı, özündən başqa heç kəsi görmədi. Orasın da deyim ki, Şirzad onu möhkəm-möhkəm bir ağaca sərimişdi.

Qız başladı yalvarmağa ki:

– Kimsən, hər nəyə deyirsən and içim, çıx məni aç, mən tay oldum sənin.

Şirzad o vaxta qədər çıxmadı ki, qız anasının südünə and içdi. Şirzad çıxdı, qızı açdı, aldı yəhər qaşına, düşdü yola. Az getmişdilər, çox getmişdilər, bir külək qopdu, bir səm əsdi ki, dedi atdan düşüb bir yerdə dalda-lanmasaz, əhədinizi kəsəcəyəm.

Şirzad gördü daha əlac yoxdu. Gördü bir qalaça var, atı vurdu qalaçanın pələtinə tərəf ki, atdan düşə. Ağ quş caynağında bir qırmanc, alıcı quş kimi şığıdı Şirzadın üstünə. Hər tərəfdən düşmək istədisə qoymadı. At qaçır, ağ quş vurur, at qaçır, ağ quş vurur. Yazıq Şirzad belə bir halda bəlkə yalan olmasın, iki saat bu küləkdə, qiyamətdə at çapdı. Bir saatdan sonra külək kəsildi, ağ quş da qalxdı göyə.

Elə bir az getmişdilər bir də gördülər bir gözəl at, belində bir qızıl yəhər otlayır. At elədi ki, elədi ki, elə bil belinin üstü bir yumurtadı.

Qız dedi:

– Şirzad, bu atı tuta bilsəydik mən minərdim, həm sən rahat olardın, həm də mən.

Elə bu sözdəydi at bir kişnəyib başladı bunlara yaxınlaşmağa. At lap yaxınlaşanda Şirzad əlin uzatdı ki, onu tuta, ağ quş ildırım kimi şığıyıb Şirzadın əlinin üstündən vurdu, atı da vurub qaçırtdı. Şirzad ağ quşun bu hərəkətlərindən çox pərt oldusa da, ancaq bağırsağın dişinə tutub bir söz demədi. Bu minvalla gəldilər. Bəli, birinci divlərin qalaçası göründü, ağ quş dedi:

– Dayan, Şirzad, mən görürəm ki, sən bu qızı istəyirsən, bu qız da səni. Bunu aparıb divlərə vermək kişilikdən deyil.

Nə elədi, nə eləmədi. Düşdü həmin qızın surətinə, dedi:

– Qız qoy burda gözləsin, apar məni divlərə təhvil ver.

Şirzad qızı çöldə qoydu, ağ quşu qız əvəzinə aparıb divlərə təhvil verib, bir səbət üzüm aldı. Qayıtdı qızı da götürüb yola düzəldi. Gəlib çatdılar üzüm istəyən divlərin vilayətinə. Elə qalaçaya çatmamışdılar ki, ağ quş özün yetirdi.

– Dayan, Şirzad, məni apar üzüm əvəzinə təhvil ver!

Şirzad qaldı mat-məəttəl ki, bu necə işdi. Qərəz, aparıb bu dəfə də onu üzüm əvəzinə təhvil verib bir cüt göyərçin aldı. Gedib bu minval ilə çatdılar haman çıraq olan şəxsin yanına. Qərəz, burda da göyərçin adına ağ quşu təhvil verib çırağı alıb düzəldi yola, öz əmisinin vilayətinə getməyə. Gedib şəhərə çatanda, gördü bir qoca kişi dayanıb. Kişi bunları görcək dedi:

– Hardasız? Di gəlin çıxın da!

Şirzad baxdı ki, bu, ağ quşdu.

Bəli, əmisi əhvalatı bildi, bunları pişvaz elədilər. Əmisi şeylərə baxıb Şirzadın alnından öpüb dedi:

– Bala, sən gətirdin.

Qırx gün, qırx gecə toy eləyib qızı aldılar Şirzada.

Gəlinlə bəy gərdəyə girən gecə Şirzad gəlinin yanına girəndə, ağ quş da onunla bərabər girdi. Şirzad nə qədər elədisə, ağ quş dedi:

– Olmaz ki, olmaz. Mən də bu gecə burda yatacağam.

Şirzad çox dedi, ağ quş az eşitdi. Üzünə salıb gecəni onlarla bir otaqda yatdı. Səhər tezdən Şirzad əmisinin yanına gedib ağ quşun gecəki işini ona dedi, özü də xahiş elədi ki, ağ quşu məmləkətdən çıxarsın. Əmisi bilirdi ki, ağ quş ona çox kömək eləyib. Nə qədər dəlil-dəlayil elədi, olmadı ki, olmadı. Axırda ağ quşu çağırtdırıb əhvalatı ona bildirdi.

Ağ quş ona dedi:

– Ondan sorışun görək, mən ona nə pislik eləmişəm?

Şirzad qaşqabaqla dedi:

– Məni çovğunda, qiyamətdə qoymadı atdan düşüb, özümü qoruyam, qızıl yəhərli atı qoymadı tutam, bu gecə də ki, belə.

Ağ quş bir ah çəkib dedi:

– Çovğunda ondan ötrü qoymadım sən düşəsən ki, o çovğun qızın atasıydı. Sən ki, nə qədər o atın üstündəydin, o sənə bata bilmirdi. İstəyirdi səni atdan yerə salıb öldürsün. Belədi, ya belə deyil, qız? –deyib üzün tutdu qıza.

Qız dedi:

– Bəli, belədi.

– O qızıl yəhərli atı qoymadım tutasan, ona görə ki, o qızın əmisi idi. Sənin əlin ona dəycək o səni çəkib atdan vuracaqdı yerə. Belədi, ya belə deyil, qız?

Qız dedi:

– Bəli,belədi.

– Bu gecə sənin yanında ona görə yatdım ki, qızın qardaşı qara ilan olub gəlmişdi səni həlak eləsin. Gecə sən yuxuda ikən mən onu öldürmüşəm, bu da cəmdəyi. Belədi, ya belə deyil, qız?

Bunu deyib bir yekə ilan cəmdəyi atdı ortalığa.

Qız dedi:

– Bəli düzdü.

Sonra ağ quş bir ah çəkib dedi:

– Mənim alnımda yazılmışdı ki, mən gərək bir adama kömək eləyəm. Əgər o adam mərd çıxsa, ona gedəm, əgər nankor çıxsa, öləm. İndi mənim vaxtım tamamdı, mən ölürəm.

Bunu deyib ağ quş daş oldu. Hamı ağladı. Amma ki, ağlamaqdan nə çıxacaq?.. Şirzadın namərdliyi onu daşa döndərdi.

Yeddi qardaş, bir bacı

Biri var idi, biri yox idi, bir kişinin yeddi oğlu var idi. Günlərin bir günü yeddi qardaş yaraqlanıb ova gedəsi oldular. Analarını çağırıb dedilər:

– Ana, biz ova gedirik. Düz bir ildən sonra qayıdacağıq, bax, bu qabaqdakı dağda olacağıq. Bu müddətdə əgər qızın olsa, qapıya ələk asarsan, yox, oğlun olsa, ox-yay asarsan. Oğlan olsa, biz baş götürüb gedəcəyik, qızın olsa, qayıdıb gələcəyik. Heç insaf deyil ki, yeddi qardaşın bir bacısı olmasın.

Yeddi qardaş dağa ova getdi. Gün keçdi, ay keçdi, ananın bir qızı oldu. Adını Nardanxatun qoydular.

Ata-ana sevinib qapıdan ələk asdılar. Bunların bir paxıl qonşuları var idi.Oğlanların qayıtmasını istəməyib gecə ələyi götürdü, yerinə bir yay asdı. Yeddi qardaş səhər baxdılar ki, qapılarından yay asılıb. Baş götürüb çıxıb getdilər. Az getdilər, çox getdilər, neçə gündən sonra bir dağa çatdılar.

Bu dağda yeddi qardaşdan başqa bəni-adəm yox idi. Dağın ətəyi meşəlik, göy çəmənlik idi. Yaxşı ov yeri idi. Yeddi qardaş bu dağda bir mağara tapıb orada qaldılar. Ov ovlayıb, dolanmağa başladılar.

Ay keçdi, il dolandı. Nardanxatun böyüyüb gözəl bir qız oldu. Amma tək idi. Nə bacısı var idi, nə qardaşı. Odur ki, mehrini salmışdı danalarına, səhərdən axşama kimi dana otarırdı, suvarırdı, bütün gününü onunla keçirirdi.

Günlərin bir günündə dana azarladı. Ata baxdı ki, dana öləcək, tez başını kəsdi. Nardanxatun ağlaya-ağlaya dananın qarnını yumağa apardı. Birdən bir qarğa gəlib suyun qırağındakı ağaca qondu. Bir dəfə qarıldayıb dedi:

– Nardanxatun, niyə ağlayırsan?

Nardanxatun dedi:

– Bu kənddə bütün qızların bacısı var, qardaşı var. Amma mən təkəm. Var-yox bir ala danam var idi, o da öldü. İndi ona ağlayıram.

Qarğa dedi:

– Ay Nardanxatun, sənin yeddi qardaşın var. Sənə nə olub ki, dana üçün ağlayırsan?

Nardanxatun qardaşlarının olduğunu bilmirdi.

Ata-anası ürəyi sıxılmasın deyə, bu işi ondan gizlətmişdilər.

Qarğa dedi:

– Paxıl qonşu sənin qardaşlarını itgin salıb. Mənim yeddi gündür ki, balalarım acdır. Sən o qarnı mənə ver, aparım balalarımı doydurum, səni qardaşlarına yetirərəm.

Nardanxatun dananın qarnını qarğaya verdi. Qarğa dananın qarnını balalarına verdi. Nardanxatunun yanına gəlib dedi:

– Bir torba dən götür, gəl səni aparım qardaşlarına çatdırım.

Nardanxatun getdi, bir torba dən götürüb qarğanın yanına qayıtdı.

Qarğa dedi:

– Nardanxatun, torbanı mənim ayağıma keçir, altını da dəl. Mən göynən uçaram, torbadan dən tökülər, sən də dənin izi ilə gələrsən.

Nardanxatun torbanı quşun ayağına keçirdi. Altını da dəldi. Quş göy ilə uçurdu. Dən bir-bir torbadan yerə düşürdü. Nardanxatun da dən düşən yerlə yeriyirdi.

Qarğa göylə, Nardanxatun yerlə o qədər getdilər ki, axırda qardaşları olan dağa çatdılar. Qarğa dedi:

– Qardaşların bu dağdadı. Salamat qal, mən gedirəm.

Qarğa uçub geri qayıtdı. Nardanxatun dağda gəzə-gəzə gəldi, qardaşlarının mağarasına çatdı. Gördü qapıda bir oğlan yatıb. Nardanxatun oğlanı oyatmadı. İçəri girib gördü burada ət, çörək, hər şey var. Çörəkdən yedi. Evi, eşiyi sildi, süpürdü, əti də doğradı, xörək bişirdi. Hazır qoydu. Sonra çıxdı, bir yanda gizləndi.

Axşam oldu. Çöldəki qardaşlar gəldilər. Gördülər xörək bişib, ev-eşik silinib-süpürülüb. Çöldən gələn qardaşlar evdə qalan qardaşa dedilər:

– Bu işi sən görmüsən?

Qardaş utanıb dedi:

– Bəli, mən görmüşəm.

Qardaşlar yeyib-içib yatdılar. Sabah açıldı, qalxdılar. İndi də qardaşların bir ayrısı evdə qaldı. Qalanı ova getdi.

Evdə qalan qardaş tək olduğundan bir az oturdu, durub uzandı, yatdı.

Bu yatan kimi yenə Nardanxatun gəldi evi-eşiyi sildi, süpürdü, xörək bişirdi, özü də bir az yedi, getdi yerində gizləndi.

Yatan qardaş oyandı, gördü ev-eşik silinib-süpürülüb, xörək bişirilib, hazır qoyulub.

Axşam oldu. Çöldən qardaşlar gəldilər. Gördülər ev-eşik süpürülüb, xörək hazırdı. Dedilər:

– Ay qardaşlar, bu işləri sən gördün?

Qardaş dedi:

– Bəli, mən gördüm.

Qardaşlar yenə də yeyib-içib yatdılar.

Sabah açıldı, qalxdılar. Bu dəfə də evdə qardaşların o birisi qaldı. Qalanı çıxdı, ova getdi.

Evdə qalan qardaş da bir az oturub, tək olduğudan durub yatdı. Yenə Nardanxatun çıxdı, evə gəldi, sildi, süpürdü, xörək bişirdi, bir az da özü

yedi, gəldi yerində gizləndi. Evdə qalan qardaş yuxudan oyanıb gördü ev süpürülüb, xörək bişirilibdi.

Axşam oldu, çöldən qardaşlar gəldilər. Gördülər ev-eşik süpürülüb, xörək bişib hazırdı. Dedilər:

– Ay qardaş, bu işləri sən gördün?

Qardaş dedi:

– Bəli, mən gördüm.

Qardaşlar yeyib-içib yatdılar. Sabah açıldı, yenə qalxıb ova getdilər. Bu dəfə lap böyük qardaş evdə qaldı. Bu da tək olduğundan uzanıb yatdı. Yenə Nardanxatun çıxıb evi süpürdü, xörəyi bişirdi, getdi yerinə girdi. Axşam oldu, qardaşlar gəldilər. Böyük qardaşa dedilər:

– Bu işləri sən gördün?

O dedi:

– Yox, mən görmədim. Mən yatmışdım, oyandım, baxdım ki, ev süpürülüb, xörək bişibdi.

Bu sözü eşidəndə o biri qardaşlar da dedilər:

– Biz də evdə qalanda belə gördük.

Dedilər:

– Yəqin bura adam dadanıb, durun gəzək.

Qardaşlar durub hər yanı gəzdilər, amma heç bir şey tapa bilmədilər.

Sabah açıldı, qardaşların altısı ova getdi. Bu dəfə kiçik qardaş evdə qaldı. Kiçik qardaş qapının ağzında uzandı, ancaq yatmadı. Nardanxatun bunu yatmış bilib gəldi. Evi süpürüb, xörəyi bişirdi, istədi ki, getsin, kiçik qardaş yay-oxu çəkib dedi:

– Getmə, vurdum! De görüm kimsən?

Nardanxatun dedi:

– Vurma, düzünü deyim.

Kiçik qardaş dedi:

– Vurmaram, de!

Nardanxatun dedi:

– Mən yeddi qardaş bacısı Nardanxatunam. Paxıl qonşu mənim qardaşlarımı itgin salıb. Onda mən uşaq idim. Böyüdüm, yeddi qardaşım olduğunu bilib axtarmağa çıxdım.

Nardanxatun əhvalatı ətraflı danışdı.

Qardaş baxdı ki, bu öz bacılarıdı. Onu qucaqlayıb dedi:

– Bacı, sənin qardaşların bizik.

Nardanxatun qardaşı ilə öpüşüb görüşdü. Axşam oldu, altı qardaş da gəldi. Əhvalatı eşidib onlar da bacıları Nardanxatunla görüşdülər, öpüşdülər, yeyib-içib yatdılar.

Sabah açıldı, yeddi qardaş ova gedəsi oldu. Dedilər:

– Bacı, sən evdə qalırsan. Buralarda od tapılmaz, gözlə, ocağın odunu keçirmə. Bizim bir qonur pişiyimiz var, sən hər nə tapsan, hər nə yesən, onunla yarı böl. O sənin qulaq yoldaşın olacaq.

Qardaşlar ova getdilər. Nardanxatun evdə qaldı, sildi süpürdü, xörək bişirdi. Axşam oldu, qardaşlar gəldilər, yedilər-içdilər, yatdılar. Sabah oldu yenə ova getdilər.

Nardanxatun hər gün xörək bişirib, qardaşları ilə yeyib dolanırdı.

Bir gün yenə Nardanxatunun qardaşları ova getmişdi. Qız yerləri yığırdı, birdən kiçik qardaşının yerindən bir dənə kişmiş tapdı. Kişmişi ağzına atıb yedi. Pişik bunu gördü, acıqlandı. Nardanxatun eşiyə çıxanda ocağı keçirtdi. Nardanxatun içəri girdi, gördü ocaq keçib. Bildi ki, qonur pişiyin işidi. Qardaşların gəlmək vaxtına az qalmışdı, xörək isə hazır deyildi, gördü uzaqdan tüstü görünür. Tez tüstü gələn tərəfə yüyürdü. Xeyli getdi, gördü tüstü gələn yer bir imarətdi. İmarətə çatdı, içəri girdi, otaqları gəzməyə başladı. Bir otağa girdi, baxdı, burda bir qız saçından asılıb. Qız Nardanxatunu görüb dedi:

– Ay bacı, sən buraya niyə gəlibsən?

Nardanxatun dedi:

– Od aparmağa gəlmişəm. Bəs səni kim saçından asıb?

Qız dedi:

– Bura div məkanıdı. Məni buraya gətirib saçımdan asan da odur. İndi gəlib səni də öldürər, tez çıx get.

Nardanxatun dedi:

– Mən necə od aparım?

Qız dedi:

– Odlara dəymək olmaz, div bilər. Orada qayçı var, götür, oddan bir balaca kəs, əski arasına qoy, apar.

Nardanxatun qızın dediyi kimi elədi. Qayçı ilə oddan kəsib götürdü, əski arasına qoydu. Amma yadından çıxdı, qayçı ocağın qırağında qaldı. Qaça-qaça imarətdən çıxıb gedəndə cibindəki yumaqdan sapın ucu açıldı. Sap açıla-açıla Nardanxatun evlərinə gəldi. Ocağı qaladı, xörəyi bişirməyə başladı.

O tərəfdən div gəldi, imarətə girən kimi, adam iyi aldı, dedi:

– Qız, düzünü de görüm, sənin yanına kim gəlmişdi?

Qız dedi:

– Sənin qorxundan kim buraya ayaq basa bilər?

Div bir də baxdı, ocağın qırağında qayçını görüb dedi:

– Bu qayçı niyə burdadı? Od kəsib aparıblar?

Qız dedi:

– Mənim yanıma heç kim gəlməyib.

Div eşiyə çıxdı, o tərəf, bu tərəfə boylandı. Birdən sapı gördü. Bildi ki, buraya bəni-adəm gəlib. Sapın ucundan tutub yığa-yığa getdi. Gəlib mağaraya çıxdı. Gördü qapı kilidlidi. Div qapının deşiyindən baxıb içəridə Nardanxatunu gördü, dedi:

– Ay qız, ağzım çox acıdır, nə olar, barmağını qapının arasından çıxart, sorum, ağzımın acılığı kəsilsin.

Nardanxatun dedi:

– Ağzına zəhər tökülsün, barmağımı niyə sənin ağzına verirəm ki, çeynəyəsən?

Div dedi:

– Çeynəmərəm. Ya barmağını ver, sorum, ya da gedib qardaşlarını tutub yeyəcəyəm.

Nardanxatun qardaşlarını çox istəyirdi. Odur ki, əlacsız qalıb barmağını qapının deşiyindən çıxartdı. Div bir sordu, iki soranda qızın barmağından qan axmağa başladı. Div o qədər sordu ki, qız yarımcan düşdü. Div çıxıb getdi. Qız haçandan-haçana ayıldı.

Axşam oldu, qardaşları gəldilər. Baxdılar ki, bacılarının rəngi elə solub ki, yüz ilin xəstəsinə oxşayır. Qardaşları Nardanxatundan bunun səbəbini soruşdular. Nardanxatun əvvəl dandı, amma sonra boynuna aldı, əhvalatı qardaşlarına söylədi. Qardaşlar qapılarında dərin bir quyu qazdılar. Quyunun üstünü örtdülər. Dedilər:

– Bacı, biz gizlənirik. Sən yenə evə gir. Mağaranın qapısını özün tərəfdən bağla. Div qapıya gələndə qoy bu quyuya düşsün, oxla vurub öldürək.

Yeddi qardaş əllərində yay-ox hərə bir yanda gizləndi. Nardanxatun içəri girdi, qapını bağladı. O tərəfdən div gəldi. Qapıya çatan kimi quyuya düşdü. Yeddi qardaş hər tərəfdən onu oxa tutdular. Div öldü. Yeddi qardaş divin üstünü daşla, ağacla, torpaqla təpə kimi qaladılar.

Qardaşlar yenə də gündə ova gedirdilər. Ceyran, əlik vurub gətirirdilər, bacıları bişirirdi, yeyib dolanırdılar.

Div basdırılan yerdən yaxşı pencər çıxmışdı. Bir gün Nardanxatun o pencərdən yığıb bişirdi. Qardaşlar axşam evə gəldilər. Nardanxatun pencəri çəkib onların qabağına qoydu. Qardaşlar pencəri yeyib qoyun oldular.

Nardanxatun onları qabağına qatıb ağlaya-ağlaya çölləri gəzirdi. Bir qoca buna rast oldu.

Qoca dedi:

– Ay qızım, niyə ağlayırsan?

Nardanxatun dedi:

– Bu qoyunlar mənim qardaşlarımdı. Bunlar bir div öldürüb qapımızda basdırmışdılar. Divin üstündən pencər çıxmışdı, mən pencərləri dərib bişirdim, qardaşlarıma verdim. Qardaşlarım yeyib qoyun oldular. İndi qabağıma qatıb ağlaya-ağlaya çölləri gəzdirirəm.

Qoca dedi:

– Ay qız, mən sənin qardaşlarını adam eləyərəm, ancaq hər nə eləsəm, uf deməyəsən.

Nardanxatun dedi:

– Demərəm.

Qocanın əlində bir ağac vardı. O ağacla qardaşları bir-bir vurmağa başladı. Nardanxatun heç uf da demədi. Qardaşların altısı adam oldu. Qoca kiçik qardaşı vuranda Nardanxatun dözə bilməyib "uf, bacın ölsün ay qardaş" dedi. Bu sözdən kiçik qardaş qurşaqdan aşağı qoyun, qurşaqdan yuxarı adam oldu.

Qoca dedi:

– Ay qız, uf deməsəydin, bu da bütün adam olardı. İndi istəsən ki, bu da bütün adam olsun, onda qardaşlarınla həmin öldürülmüş divin imarətinə get. Orda saçından asılmış bir qız var. O qızı aç, yerə düşürt. Divin canını ondan istə. O divin canını sənə verər. Divin canı şüşədə bir göyərçindi. Şüşəni qır, göyərçin çıxanda tut, öldür.

Nardanxatun qocaya sağ ol deyib qardaşları ilə öldürülmüş divin imarətinə getdi. İçəri girdi, qızı açdı, yerə düşürtdü. Ondan divin canını istədi. O gedib bir şüşə gətirdi. Nardanxatun şüşəni daşa vurdu, şüşə qırıldı, içindən bir göyərçin çıxdı. Nardanxatun göyərçini tutub öldürdü. O saat kiçik qardaş da adam oldu. Nardanxatun və qardaşları sevindilər, qızdan razılıq edib dedilər:

– Bu yaxşılığın əvəzində bizdən nə istəyirsən?

Qız dedi:

– Sizdən heç nə istəmirəm, məni ata-anama yetirin.

Qardaşlar razı oldular. Divin var-dövlətini də götürüb yola düşdülər. Getdilər, qabaqca o qızı ata-anasına çatdırdılar. Sonra oradan yola düşüb, yeddi gün, yeddi gecə yol getdilər. Gəlib öz evlərinə yetişdilər.

Ağ atlı oğlan

Biri var idi, biri yox idi. Döşgüvar adlı zülmkar bir padşah var idi. Dünya görmüş qocaların dediyinə görə bu padşah elə cavanlıqdan əzazil adam imiş. Padşahlığı ələ almaq üçün qoca atasını da özü zəhərləyib öldürmüş imiş.

Bu padşah taxt-taca çıxan gündən camaatın günü lap qara olmuşdu. O, istəyinə çatmaq üçün yüzlərcə adamı öldürər, bircə dəfə də olsun uf deməzdi. Qonşu padşahlarla da yola getməzdi. İldə bir yerə hücum edərdi. Savaşardı, vuruşardı, qanı su yerinə axıdardı. Belə ki, hamının gözünü qorxutmuşdu. Bu padşahın uşağı yox idi. Nə qədər evlənirdisə, uşağı olmurdu.

Padşah ildə üç arvad alardı. Elə ki, gördü uşaq olmadı, arvadın üçünü də ya öldürərdi, ya zindana saldırardı, ya da qovub ayrı üç arvad alardı.

Günlərin bir günündə bir dərviş bu padşahın yanına gəldi, dedi:

– Padşah sağ olsun, mən sənə bir dərman verərəm, hər arvaddan bir oğlun olar. Amma bir şərtim var.

Padşah soruşdu:

– Nə şərt?

Dərviş dedi:

– Uşaqlar on beş yaşına çatanda birini mənə verməlisən.

Padşah razılaşdı. Dərviş padşaha bir dərman verdi. Sonra dedi:

– Bu dərmanı dörd yerə bölərsən. Bir payını özün yeyərsən, üç payını da arvadlarına verərsən.

Padşah dərmanı aldı. Dərviş çıxıb getdi. Padşah dərvişin dediyi kimi elədi. Gün keçdi, ay dolandı, padşahın hər arvadından bir oğlu oldu. Padşahın arvadlarından biri xan qızı idi. Odur ki, ondan olan oğlanın adını Xanbala qoydular. İkinci arvad bəy qızı idi. Onun da oğlunun adını Bəybala qoydular. Üçüncü arvad bir yoxsul dəvəçinin qızı idi. Padşah onu gözəl olduğuna görə almışdı. Ondan olan oğlanın adını da Nərbala qoydular.

Aylar keçdi, illər dolandı, uşaqlar on dörd yaşı qurtarıb, on beş yaşa ayaq qoydular. Nərbalanı sarayda həmişə ələ salardılar. O biri qardaşlar onu gah nər balası, gah dəvə balası, gah da köşək deyə çağırardılar. Nərbalanın anasına da hamı aşağı nəzərlə baxırdı. O biri arvadlar onu qulluqçu kimi işlədirdilər. Padşah özü də Nərbalanı saymırdı. Həmişə o biri oğlanlarını "Mənim Bəybalam", "Mənim Xanbalam" deyə sevib oxşayırdı. Buna gələndə gülüb deyirdi:

– Pəh, pəh.. Bir adamın ki, babası dəvəçi ola... Gör onun axırı nə olar da...

Nərbala neçə dəfə istəmişdi ki, qaçıb getsin, amma anası qoymamışdı, demişdi:

– Bala, atan çox hirslidi, haraya qaçsan səni tapıb öldürər.

Əslində isə Nərbala o biri qardaşlarından həm güclü, həm də ağıllı idi.

Gün o gün oldu ki, uşaqların on beş yaşı tamam oldu. Axşama bir az qalmış dərviş gəlib çıxdı. Padşah dedi:

– Dərviş, bilirəm niyə gəlibsən. Ancaq sən gəl məndən uşaq istəmə. Mal, dövlət nə qədər istəyirsən sənə verim, çıx get.

Dərviş dedi:

– Yox, mənə heç nə lazım deyil. Ya uşaqlardan birini ver, ya da bu saat elə bir şey elərəm ki, üçü də ölər.

Padşah dedi:

– İndi ki, belədi, onda qoy Nərbala qurban olsun Xanbala ilə Bəybalaya. Apar nə eləyirsən, elə.

Padşah əmr elədi, cəlladlar Nərbalanı tutub qollarını bağladılar, verdilər dərvişə. Nərbalanın anası işi bilib özünü atdı padşahın ayaqlarına dedi:

– Aman günüdü, mənim oğlumu bədbəxt eləmə.

Padşah qəzəblənib əmr elədi, arvadı da saldılar zindana. Dərviş Nərbalanı götürüb yola düşdü. Amma Nərbala anasının zindana salınmasından xəbər tutmadı.

Nərbala ilə dərviş az getdilər, çox getdilər, səhərə az qalmış çatdılar iki dağın arasına. Dərviş qabaqda, Nərbala da qolları bağlı onun dalınca gedirdi. Birdən bir səs eşitdi. Baxdı ki, bir quru kəllə onun yanınca dığırlana-dığırlana gedir. Özü də danışır. Nərbala diqqətlə qulaq verdi, gördü kəllə deyir:

– Nərbala, eşit, bil! Bu dərviş adam yeyəndi. Mən də sənin kimi cavan bir oğlan idim. Dərviş məni atamdan, anamdan alıb gətirdi, təndirə salıb bişirdi, yedi. Özünü qoru. Bizim qanımızı ondan al!

Kəllə bu sözləri deyib yox oldu. Nərbala getdi fikrə, bilmədi ki, nə eləsin. Qayıdıb qaça bilməzdi, çünki əlləri bağlı idi. Nə qədər qaçsaydı da, axırda dərviş onu tutacaqdı.

Nərbala başı aşağı belə fikirlərlə gedirdi, birdən dərviş dedi:

– Çatdıq.

Nərbala başını qaldırıb gördü ki, dərənin lap qurtaracağında, heç kəsin ağlına gəlməyən bir yerdə, böyük bir binanın qabağındadırlar. Dərviş cibindən bir dəstə açar çıxardı. Bu açarlardan biri ilə qapını açdı. Qabaqca Nərbalanı içəriyə saldı, sonra da özü girib; yenə də qapını bağladı. Onlar dar, qaranlıq bir yerdən keçib, bir otağa girdilər. Otaq da qaranlıq idi. Dərviş onu salınmış bir dəst yorğan-döşəyin yanına gətirib dedi:

– Həm gecdi. Həm də yorulmuşuq. Yataq, sabah danışarıq. Mənim heç kəsim yoxdu. Səni özümə oğul edəcəyəm.

Bunu deib dərviş otaqdan çıxdı, qapını da daldan bağlayıb getdi. Nərbala, doğrudan da, yorulmuşdu. Elə qolları bağlı uzanıb yatdı. Amma səhərə qədər rahat yata bilmədi. Tez-tez diksinib yuxudan oyanırdı. Ətrafa qulaq asıb yenə də yatırdı. Səhər dərvişin ayaq səsləri onu oyatdı. Qulaq verib gördü ki, dərviş qapını açır. Tez sıçrayıb ayağa qalxdı. Dərviş içəriyə girdi. Onun qollarını açıb dedi:

– Bu mal, bu dövlət hamısı sənindi. Biz burada ata-bala kimi dolanacağıq. Ancaq çörəyimiz yoxdu. Gəl qabaqca təndiri yandırıb çörək bişirək, sonra gör sənə nələr göstərəcəyəm.

Təndir deyəndə kəllənin dedikləri Nərbalanın yadına düşdü. Ancaq o, indi qorxmurdu. Əlləri açıq idi. Dərvişin ona gücü çatmazdı. Ancaq belə şirin-şirin danışmağından başa düşmüşdü ki, dərviş çox hiyləgər adamdı. Ona görə də dərvişin bütün sözlərinə, hərəkətinə çox diqqətlə fikir verirdi.

Dərviş Nərbalanı yan otağa apardı. Nərbala baxdı ki, bura təndir damıdır. Dərviş dedi:

– Oğul, həm xəmir yoğurmalıyıq, həm də təndiri yandırmalıyıq. Hansını sən eləyirsən?

Nərbala dedi:

– Baba dərviş, biz ki, ata-bala oluruq, daha yaramaz ki, mən duran yerdə sən iş görəsən. Bundan sonra bu işlərin hamısını mən görəcəyəm. Ancaq hələ heç birini bacarmıram. Bu günlüyə sən elə, mən baxım, öyrənim.

Dərviş dedi:

– Doğru deyirsən, bala. Bax, öyrən!

Bunu deyib dərviş təndiri yandırdı. Sonra un gətirib xəmir yoğurmağa başladı. Elə ki, xəmir hazır oldu, təndir də tüstüdən düşüb közərdi, dərviş ayağa durub yekə, qara bir tiyan gətirdi, təndirin içinə saldı. Nərbala baxdı ki, bu tiyan elə bu təndir üçün düzəldilib. Tiyanın qulpları təndirin qırağına dayanmışdı, onu çox aşığı düşməyə qoymurdu. Tiyanın dibi təndirdəki oddan bir az yuxarıda dayanırdı. Nərbala soruşdu:

– Baba dərviş, bəs bu tiyan nə üçündü?

Dərviş dedi:

– Oğlum, çörəyi təndirə yox, bu tiyanın divarlarına yapacağıq. Bu onun üçündü ki, çörək küt düşəndə də təndirə düşüb xarab olmasın.

Nərbala başa düşdü ki, dərviş yalan deyir. O saat kəllənin sözləri onun yadına düşdü. Dərvişin məqsədi aydın idi. O, istəyirdi ki, Nərbalanı həmin tiyanın içinə basıb bişirsin. Nərbala heç bir söz deməyib, gözlədi ki, görsün işin axırı nə olur.

Dərviş əyləşib xəmiri kündələdi, sonra kündələri yastıladı. Nərbala da ona kömək edirdi. Amma Nərbala açıq görürdü ki, dərviş qəsdən yavaş tərpənir. Dərviş o qədər gözlədi ki, təndirdəki tiyan od kimi qızardı. Ayağa qalxıb təndirin qırağında oturdu, tiyanın istiliyini yoxladı. Sonra Nərbalaya dedi:

– İndi gəl otur, çörəkləri yap.

Nərbala bu dəfə də heç bir söz deməyib təndirin başında oturdu. Dərviş çörəklərdn birini ona verdi, dedi:

– Amma təndirin içinə elə sallan ki, çörəyi oda yaxın yapa biləsən, yoxsa bişməz.

Nərbala:

– Baş üstə, – deyib özünü elə göstərdi ki, guya çörək yapmağa hazırlaşır. Amma əslində bir balaca əyilib qoltuğunun altından dərvişə baxmağa başladı. Gördü ki, dərviş səs olmasın deyə barmaqlarının ucunda divara yaxınlaşdı, oradan tiyanın qapağını götürdü. Bir əlinə balaca bir balta alıb ona tərəf gəlməyə başladı. Nərbala gördü ki, kəllənin dedikləri düz imiş. Dərviş istəyir ki, onu balta ilə vurub tiyanın içinə salsın, sonra da qapağını örtüb bişirsin.

Dərviş yaxınlaşanda Nərbala cəld bir hərəkətlə sıçrayıb ayağa qalxdı, dedi:

– Baba dərviş, mən heç vaxt təndirə çörək yapmamışam. Əlimdə xəmir təndirə əyilsəm, özüm də yıxılaram, çörəyi də salaram. Al, birini sən yap, baxım, öyrənim, o birilərini mən yaparam.

Dərviş acıqlanmışdı. Amma qəsdən üzə vurmayıb, tez əlindəki şeyləri yerə qoydu, çörəyi Nərbalanın əlindən aldı, özü təndirin başında əyləşdi.

Nərbala o qədər gözlədi ki, dərviş əlindəki çörəyi yapmaq üçün başıaşağı təndirə sallandı. Nərbala "başqası üçün quyu qazanın özünü quyuya salmaq lazımdı" deyib dərvişə bir təpik vurdu. Dərviş başı üstə təndirə yıxıldı. Nərbala tez qapağı tiyanın ağzına basdı. Özü də çıxıb üstündə oturdu. Dərviş nə qədər qışqırdısa, Nərbala qapağın üstündən qalxmadı. Bir az keçdikdən sonra dərvişin səsi kəsildi.

Dərviş öləndən sonra Nərbala dərvişin sarayını gəzməyə başladı. Sarayda qırx otaq var idi, hamısı bir-birindən gözəl idi. Dünyada nə istəsən, burdan tapmaq mümkün idi.

Nərbala otuz doqquz otaq gəzib qurtardıqdan sonra, qırxıncı otağın otağın qapısını açdı. Baxdı ki, bura təmiz, səliqəli bir tövlədi. Tövlədə bir at, bir aslan bağlanıb, böyük bir qəfəsdə də gözəl bir quş var. Nərbalanı gör-

cək at kişnədi, aslan nərildədi. Quş adam kimi danışıb Nərbalaya dedi:

– Xoş gəlmisən! Biz neçə müddətdi ki, burada əsirik. Amma bilirdik ki, dərviş nə qədər hiyləgər olsa da, axırda elə bir igid tapılacaq ki, ona qalib gələcək.

Nərbala baxdı ki, dərviş atın qabağına ət qoyub, aslanın qabağına dən töküb, quşun da qabağına ot qoyub. Tez götürüb dəyişdirdi, əti aslana, otu ata, dəni də quşa verdi. Heyvanların üçü də səslənib Nərbalaya "sağ ol" dedilər. Sonra quş dedi:

– Nərbala, sən bizim yemlərimizi dəyişdin, hər kəsə öz yemin verdin, görünür ki, sən haqsızlığı sevməyən, insaflı bir adamsan. Biz belə bir adamın yolunda ölümə də gedərik. Hər nə çətin işin olsa, bizə de. Biz sənə kömək eləməyə hazırıq.

Nərbala dedi:

– Mənim insafım qəbul eləməz ki, siz burda, bu qaranlıq tövlədə, qəfəsdə, zəncirlə bağlı qalasız. Mən sizi açıb buraxıram. Sonrasını özünüz bilərsiniz. Gedərsiz xoş gəldiz, yox, əgər qalarsız, mən də ölənə qədər sizinlə dostluq eləməyə hazıram.

Bunu deyib, Nərbala onların üçünü də açıb buraxdı. Heyvanlar qaçmaq əvəzinə, üzlərini Nərbalanın əllərinə, ayaqlarına sürtməyə, onu yalamağa başladılar.

Quş dedi:

– Biz gündüzləri gedib gəzəcəyik, dolanacağıq, özümüzə yem tapacağıq, axşamları həmişə buraya gələcəyik.

Quş sözünü qurtarıb uçdu. Atla aslan da çıxıb bir dəqiqədə yox oldular.

Nərbala dərvişin bağçasını gəzməyə başladı. Bağça elə bir bağça idi ki, necə deyərlər, gül bülbülü, bülbül gülü çağırırdı. Burada elə gözəl meyvələr, güllər, çiçəklər var idi ki, Nərbala bunları öz atasının ən məşhur bağlarında da görməmişdi. Nərbala o qədər gəzdi ki, lap yorulub əldən düşdü. Axırda yığdığı meyvələri yedi, bulağın başında uzanıb yatdı. Az yatdı, çox yatdı, bilmədi, bir vaxt gözlərini açanda gördü ki, at bir tərəfində, aslan da o biri tərəfində durub, quş da başının üstündəki daşda oturub. Heyvanlar Nərbalaya yemək də gətirmişdilər. Aslan bir ceyran ovlayıb gətirmişdi. Quş isə bir kəklik tutub gətirmişdi. Nərbala özünə xörək hazırladı, yedi, içdi, yatdı.

Bu gündən Nərbala heyvanlarla dost oldu. Günlər keçdi, həftələr dolandı. Nərbala darıxmağa başladı. Heyvanlar bunu başa düşdülər. Bir axşam quş dedi:

– Əgər çox darıxırsansa, biz səni şəhərə aparaq.

Nərbala öyrənib bildi ki, bu şəhər atasının çox incitdiyi bir padşahın paytaxtıdı. Qorxdu ki, şəhərdə tanınıb ələ keçə bilər. Axı, onlar nə bilirlər ki, atası onun özünün də düşməni olub, bilə-bilə qəsdən ölümə göndərib. Quş Nərbalanı fikirli görüb dedi:

– Biz bilirik, sən nə fikir eləyirsən. Ancaq qorxma. Paltarını dəyiş. Köhnə bir paltar gey. Biz səni səhər tezdən, hələ işıqlanmamış şəhərə

çatdıraq. Gəzərsən, dolanarsan, axşam qaranlıq düşəndən sonra da gəlib səni gətirərik.

Nərbala razılaşdı. Gecəni yatdılar. Səhər hələ işıqlanmamış Nərbala qalxdı, bir dəst köhnə paltar geyindi, başına da bir köhnə dəsmal bağladı, atı mindi. At altında, aslan yanında, quş da başının üstündə hələ səhər açılmamış şəhərə çatdı. At şəhərin kənarında uca bir hasarın yanında dayandı.

Nərbala düşdü. Quş hasarı göstərib dedi:

– Bura padşahın gül bağıdı. Yaz, yay, bir də payız fəsillərində padşahın qızları bu bağdakı sarayda yaşayırlar.

Sonra tükündən bir dənə də çəkib Nərbalaya verdi:

– Gəzib dolanarsan, axşam isə bizi burda gözləyərsən, ancaq işdi, birdən biz gələnə qədər başına bir qəza gəlsə, bu tükü yandırarsan, biz harda olsaq, sənin köməyinə gələrik.

Heyvanlar getdilər. Nərbala da yavaş-yavaq şəhərə tərəf gəldi. Şəhər böyük idi, tanış da yoxudu. Nərbala təkbaşına o qədər gəzdi ki, lap yorulub əldən düşdü. Axşama bir qədər qalmış, həmin bağın yanına gəldi, hasarın yanında dayandı, gözləməyə başladı. Birdən bağın qapısı açıldı, içəridən ağsaqqal bir qoca çıxdı. Nərbala ədəblə salam verdi. Qoca salamı alıb dedi:

– Oğlum, qərib adama oxşayırsan. Kimsən? Burada niyə dayanıbsan? Bəlkə yatmağa yerin yoxdu?

Nərbala indiyə qədər heç kəsdən belə şirin söz eşitməmişdi. Gördüyü kişilər – atası, qardaşları, saraydakı adamlar olmuşdu ki, onların hamısı da onu ələ salıb gülərdi. Bunlardan başqa Nərbala bir də dərvişi görmüşdü ki, o da onu öldürmək istəmişdi. Nərbalanın qocadan çox xoşu gəldi, dedi:

– Bəli, qəribəm. Birinci dəfədi ki, şəhərə gəlmişəm. İndi yoldaşlarımı gözləyirəm ki, onlara qoşulub kəndimizə gedim.

Qoca dedi:

– Oğlum, mən bu bağın bağbanıyam. Buranı mən salmışam. Bu ağacları mən yetişdirmişəm. Bir neçə dəfə bizim qonşuluqda olan padşah qoşun çəkib bizim üstümüzə gəlib, şəhərimizi talayıb, adamlarımızı qırıb, amma duruş gətirə bilməyib, qaçıb gedib. Hər dəfə gedəndə bizim bağı da viranə qoyub, sonradan yenə də düzəltmişəm. Mən görürəm ki, sən bir yaxşı uşaqsan. Mənim də heç kəsim yoxdu. O padşah axırıncı dəfə bizim üstümüzə gələndə mənim də evimi talan elədi, var-yox bircə oğlum var idi, onu da öldürdü. İndi səni gördüm, yaman ürəyimə yatdın. Əgər ayrı bir işin, peşən yoxdursa, gəl mənə şagird ol, birlikdə işləyək, mənim ömrümə çox qalmayıb. İstəmirəm ki, məndən sonra bağ naşı adam əlinə düşüb xarab ola.

Nərbala dedi:

– Gələrəm, əmi, ancaq bu gün gərək kəndimizə gedib anamdan icazə alam, sonra gələm.

Qoca öz evini Nərbalaya göstərdi, dedi:

– Əgər gəlsən, qapını döyüb məni çağırarsan.

Nərbala dedi:

– Baş üstə.

Bağban evinə girdi. Nərbala da hasarın yanına qayıtdı. Amma Nərbalanı fikir götürmüşdü ki, görəsən bağban hansı qonşu padşahdan danışır. Bəlkə elə onun atasından danışır. Nərbala bu fikirdə idi ki, at, aslan və quş gəldi. Nərbala yenə də atı mindi, aslan yanında, quş da başının üstündə evə gəldi. Evdə Nərbala dostlarına dedi:

– Mən burda adamsızlıqdan, bir də işsizlikdən darıxıram. Gedib bağbana şagird olacağam.

Səhər tezdən heyvanlar onu yenə də həmin bağın yanına gətirdilər.

Quş tükündən bir neçə dənə çəkdi, ona verib dedi:

– Biz orda qalacağıq, nə zaman sənə lazım olsaq, tükü yandırıb bizi çağırarsan.

Nərbala dostları ilə görüşdü. Onlar getdilər. Nərbala da bağbana şagird olub bağda işləməyə başladı.

Bu, şəhərin ən gözəl bağı hesab olunurdu. Özü də padşahın idi. Padşahın üç qızı var idi. Qızlar hər gün axşam bağı gəzərdilər. Nərbalanın bağa gəldiyi günün axşamı qızlar adətləri üzrə bağa gəzməyə çıxmışdılar. Nərbala da bağın bir tərəfində bağbanla işləyirdi. Qızlar bir qədər gəzdikdən sonra bağbanın yanına gəldilər. Böyük qız dedi:

– Bağban, bağdakı güllər açılıb, bunlardan niyə dəstə tutub səhərlər bizə gətirmirsən?

– Xanım, mən qəsdən dəstə tutub gətirmirəm ki, özünüz gəlib dərəsiniz.

Ortancıl qız ağzını büzüb dedi:

– Yaxşıdı... gülü biz özümüz gəlib dərəcəyiksə, bəs səni niyə saxlayırıq?

Bağban dedi:

– Xanım, mən elə demədim. Axı gül dərməyin özünün başqa ləzzəti var. Mən elə bildim ki, bu sizə də lazımi ləzzət verir. İndi ki, belədi, baş üstə, səhər dəstə tutub Nərbala ilə göndərərəm.

Böyük qız soruşdu:

– Kimlə göndərərsən?

Bağban Nərbalanı göstərib dedi:

– Nərbalaynan.

Böyük qız Nərbalaya baxıb, başladı gülməyə.

– Nərbala... Nərbala... Ada bax ha... Nərbala...

Ortancıl qız dedi:

– Yaxşı addı... nər, yəni dəvə... Nərbala, yəni dəvə balası.

Böyük qız dedi:

– Yəni köşək... elə özü də lap dəvə balasına oxşayır.

Ortancıl qız dedi:

– Mənə gülü özün gətirərsən. Mən onun paltarından iyrənirəm.

Kiçik qız hirslənib bacılarına dedi:

– Siz elə həmişə beləsiz. Niyə, ona nə olub ki? Nə olsun ki, paltarı bir az köhnədi, siz onun gözlərinə baxın. Görün nə ağıllı gözləri var.

Böyük qız dedi:

– Hə... Yekə... Qara...

Ortancıl qız dedi:

– Elə lap dəvə gözünə oxşayır.

Kiçik qız üzünü Nərbalaya tutub dedi:

– Sən bunlara fikir vermə, ay oğlan. Səhər mənə gülü özün gətirərsən.

Bacılar gülüşüb dedilər:

– Səhər tezdən sənə bir dəstə dəvə gülü gətirəcək.

Nərbala dedi:

– Xanımlar, varın verən utanmaz. Hər kəs öz qabiliyyətinə, öz qanacağına görə iş görər. Mən elə gül gətirərəm ki, balaca xanımın başı aşağı olmaz.

Qızlar gülüşə-gülüşə dedilər:

– Səhər baxarıq.

Qızların Nərbalanı ələ saldıqlarını görən bağban çox qəmgin olub dedi:

– Darıxma, oğlum. Onların sözləri sənə toxunmasın.

Nərbala dedi:

– Yox, əmi. Bu sözlər mənim üçün təzə deyil. Belə sözləri çox eşitmişəm.

Bağban Nərbalanı da götürüb evə gəldi. Bir az çörək yeyib yatdılar. Elə ki, bağban yuxuya getdi, Nərbala qalxıb çölə çıxdı. Quş verən tükün birini yandırdı. Beş dəqiqə keçməmiş quş hazır oldu. O dedi:

– Nə olub, Nərbala?

Nərbala dedi:

– Gərək səhər açılmamış mənə bir dəstə gül gətirəsən. Amma elə gül tapmalısan ki, bu padşahın məmləkətində olmasın.

Quş cavab verdi:

– Baş üstə. Mən sənə bir dəstə gül gətirərəm ki, gələn il bu vaxta qədər qalsın, heç solmasın.

Quş uçub getdi. Nərbala da gəlib yatdı. Səhər tezdən bağban Nərbalanı oyatdı ki:

– Dur, bala. Mən böyük xanımlar üçün gül yığmağa gedirəm. Dur sən də gedək. O balaca xanım böyüklərin ikisindən ağıllı, yaxşı qızdı. Sən gərək ona elə dəstə tutasan ki, başı aşağı olmasın.

Nərbala dedi:

– Sən get. Mən də bu saat gəlirəm.

Bağban bağa getdi, iki dəstə gül yığıb, qızlara apardı. Qızlar baxdılar ki, bağban gülü gətirdi, amma Nərbala yoxdu. Yenə də gülüb, kiçik qızı ələ salmağa başladılar. Elə bu vaxt Nərbala gəldi. Ədəblə salam verib, əlindəki gül dəstəsini kiçik qızın qabağına qoydu, dedi:

– Xanım, bu elə güldü ki, gələn il bu vaxta qədər qalacaq, solmayacaq.

Güllər o qədər gözəl idi ki, qızlar heç bir söz deyə bilmədilər. Hərə öz gülünü otağına apardı. Gecəni yatdılar. Səhər durub gördülər ki, bağbanın gətirdiyi güllər yavaş-yavaş solur. Amma kiçik qızın gülü elədi ki, elə bil, bu saat dərilib.

Bir gün, iki gün, üç gün, bir həftə keçdi. Nərbalanın gətirdiyi güllər solmadı ki, solmadı. Bacılar kiçik qızdan gizli bütün bağı gəzdilər. Başa düşdülər ki, Nərbala bu gülləri ayrı yerdən gətirib. Bacılar paxıllıqdan azarladılar. Xəbər gedib padşaha çatdı ki, bəs bağbanın şagirdi onun kiçik qızına bir dəstə solmayan gül gətirib, o biri qızlar da buna dözə bilməyiblər, azarlayıblar. Padşah dedi:

– Burda nə çətin iş var ki? Sabah çağırıb deyərəm, gedib onlar üçün də gətirər.

Sabahısı gün padşah Nərbalanı yanına çağırdı, dedi:

– A gədə, o gülü sən gətiribsən?

Nərbala cavab verdi:

– Bəli.

Padşah dedi:

– Bu gün gedib ondan iki dəstə də gətirərsən.

Padşah bu sözləri dediyi vaxt vəzirin, vəkilin oğlanları da burada idilər.

Vəzirin oğlu durub dedi:

– Padşah sağ olsun, bunun özü nədi ki, gətirdiyi gül nə ola?

Vəkilin oğlu dedi:

– Sən icazə ver, biz gedib ondan da yaxşı gül tapaq.

Nərbala çox sakit dedi:

– Siz ondan yaxşı gül tapa bilməzsiniz. O elə güldü ki, dərildikdən sonra bir il solmur. Çalışın, onun özündən tapın.

Padşah dedi:

– Sən onu hardan dərmisən?

Nərbala dedi:

– O gülləri mən dərməmişəm. O gülləri ağ atlı, ağ çuxalı, ağ papaqlı bir oğlan bazara aparırdı, mən ondan aldım, aparıb xanıma verdim.

Padşah dedi:

– Bəs bilmədin o, gülü hardan gətirirdi?

Nərbala dedi:

– Soruşdum, dedi ki, bax, o dağın dalından yığmışam.

Padşah dedi:

– Yaxşı, get, yığ gətir.

Nərbala dedi:

– Padşah sağ olsun, mən burda qərib bir oğlanam. Özümün də atım yox, ulağım yox, nə ilə gedim?

Vəzirin oğlu ilə vəkilin oğlu qalxdılar ki:

– Padşah sağ olsun, biz duran yerdə o kimdi ki, şah qızlarına gül gətirə. İzin verin biz gedək.

Padşah icazə verdi. Oğlanlar hazırlaşmağa getdilər. Nərbala da bağa gəldi. Gün keçdi, axşam oldu. Nərbala ilə bağban yatmağa hazırlaşırdılar ki, qapı yavaşca döyüldü. Bağban durub qapını açdı. Padşahın kiçik qızı içəriyə girdi. Nərbala ədəblə ayağa qalxıb salam verdi. Qız soruşdu:

– Sən gülün yerini onlara dedinmi?

– Bəli, xanım. Dedim.

– Sabah onlar o güldən tapıb gətirə biləcəklərmi?

Nərbala duruxdu. Qız bir də soruşdu.

– Demək ki, sabah onlar o güldən gətirəcəklər.

Nərbala dedi:

– Mən sizə yalan demək istəmirəm, xanım. Ona görə də sizin xoşunuza gəlsə də, gəlməsə də düzünü deyəcəyəm.

Qız baxdı ki, Nərbala çox ciddi oğlandı, dedi:

– Elə mən də istəyirəm ki, düzünü deyəsən.

Nərbala dedi:

– Çünki onlar o gülü tapa bilməzlər.

Qız dedi:

– Demək ki, sən gülün yerini onlara düz deməmişsən. Halbuki bu saat deyirdin sən yalançı deyilsən.

Nərbala dedi:

– Mən yalan deməmişəm. Mən demişəm ki, o gülü ağ atlı, ağ çuxalı, ağ papaqlı bir oğlan gətirib. Bu da düzdü.

Qız dedi:

– Bəs o oğlan kimdi?

Nərbala dedi:

– Xanım, bayaq dedim ki. mən sizə yalan danışa bilmərəm. Düzünü də hələlik demirəm. Odu ki, xahiş edirəm bu sualı mənə verməyəsiniz.

Qız baxdı ki, xeyr, Nərbala çox ağıllı adamdı. Fikrə getdi, dedi:

– Nərbala, mən istəyirəm ki, sabah onlar o güldən tapıb gətirsinlər.

Nərbala soruşdu:

– Niyə?

Qız dedi:

– Mənim bacılarım çox hiyləgər insafsızdırlar. Mən bu saat onların söhbətini eşitmişəm. Onlar bu iş üçün səndən, bir də bağbandan intiqam almaq istəyirlər. Əgər sabah gül tapılmasa, onlar vəzirin oğlu ilə vəkilin oğlunu öyrədəcəklər ki, gülün yerini deyənə qədər sənə cəza versinlər, sonra da öldürsünlər.

Nərbala gülüb dedi:

– Xanım, sən mənim bağban oğlu olduğuma baxma. Onlar heç yel olub yanımdan da ötə bilməzlər.

Qız baxdı ki. yox, Nərbala həm də igid oğlandı. Ürəyində lap sevindi, dedi:

– Nərbala, onlar atamı da yoldan çıxaracaqlar ki, bağbana cəza versin.

Nərbala soruşdu:

– Ona niyə?

Qız dedi:

– Birinci, ona görə ki, o səni haradan tapıb gətirib?

Nərbala dedi:

– Bu barədə ona heç kim bir söz deyə bilməz. Çünki mən onun nəvəsiyəm. Mənim anam onun qızı idi. Biz kənddə yaşayırdıq. İndi anam ölüb babamın yanına gəlmişəm.

Qız bağbana baxdı. Bağban gördü ki. oğlan çox ağıllıdı. Dedi:

– Bəli, xanım. O mənim nəvəmdi.

Qız Nərbalaya dedi:

– İndi ki, belədi, sən gərək razı olmayasan ki, atam sənin babana cəza verə. Onlar istəyirlər, atam ona cəza versin ki, niyə indiyə kimi o güldən tapıb bu bağda əkməyib.

Bunu eşədən Nərbala fikrə getdi.

– Xanım, xahiş eləyirəm beşcə dəqiqə burda dayanasan. Mən bu saat gəlirəm.

Nərbala çölə çıxıb tükü yandırdı. Quş o saat özünü yetirdi. Nərbala quşdan soruşdu:

– De görüm, o gülün tumundan tapıb gətirə bilərsənmi?

Quş dedi:

– Taparam.

Nərbala dedi:

– Səhər açılmamış atı mənə çatdırarsan. Üstündə də atın öz rəngində bir dəst ağ paltar, ağ papaq olsun.

Quş dedi:

– Baş üstə.

Nərbala dedi:

– Bir də mənə iki dəstə solmayan güldən gətirərsən.

Quş dedi:

– Baş üstə.

Quş uçub getdi. Nərbala içəriyə qayıdıb qıza dedi:

– Xanım, siz ki, bacılarınız kimi dikbaş, başqalarını ələ salan, özünü hamıdan uca tutan deyilsiniz, mən ömrümün axırına qədər sizinlə dost olacağam. Arxayın ola bilərsiz. Sabah onlar gül tapacaq.

Qız bağbana baxdı, bağban qıza, amma heç biri bir söz demədi. Qız çıxıb getdi. Nərbala ilə bağban da yerlərinə girib yatdılar.

Səhərə yaxın quş iki dəstə gül, bir də atı gətirdi. Nərbala ağ paltarı geyindi. Ağ papağı qoydu, atı mindi, gülləri də götürüb birbaş padşaha dediyi dağın dalına getdi. Səhər açıldı. Nərbala baxdı ki, budu vəzirin oğlu ilə vəkilin oğlu gəlirlər. Tez üzünü ağ bir dəsmalla örtdü ki, tanımasınlar. Atı minib yavaş-yavaş onlara tərəf sürməyə başladı. Oğlanlar baxdılar ki, Nərbalanın dediyi kimi, ağ paltarlı, ağ atlı adam gəlir. Özü də həmin güldən əlində iki dəstə gətirir. Bir istədilər hücum eləyib onu vurub öldür-

sünlər, atı da, gülü də alsınlar. Amma bir ata, bir oğlana baxıb qorxdular. Salam verib soruşdular ki:

– O gülü hardan alıbsan?

Nərbala səsini dəyişib dedi:

– Bu gül mənim bağımda bitir.

Dedilər:

– Neçəyə deyirsən, sat alaq.

Nərbala dedi:

– Satmıram.

Dedilər:

– Onda elə-belə ver, xəstəmiz var. Həkimlər bu gülü dərman deyiblər.

Nərbala dedi:

– İndi ki, xəstəniz var, verərəm. Amma əvəzində hərənizin qoluna bir damğa basmalıyam.

Oğlanlar gördülər ki, ayrı yolla gülü ala bilməyəcəklər fikirdəşdilər ki, paltarın altında bizim qolumuzda damğa olduğunu kim görəcək. Razılaşdılar. Nərbala hərəsinin sağ qoluna bir damğa basıb, gülləri onlara verdi, özü də atı vurub bir dəqiqədə gözdən itdi. Elə ki, təpənin dalına yetişdi, atdan düşdü, paltarını dəyişib atı yola saldı, evə gəldi. Bir-iki saatdan sonra bütün şəhərə səs yayıldı ki, vəzirlə vəkilin oğlu böyük igidlik göstəriblər. Amma qollarındakı damğadan heç kəsin xəbəri olmadı. Elə həmin gün vəzirlə vəkil padşahın yanına gəldilər. Vəzir baş əyib dedi:

– Padşah sağ olsun, mənim oğlum çox böyük igidlik göstərdi. Sənin böyük qızının istədiyi gülü tapıb gətirdi. İndi mən elçiliyə gəlmişəm. Əgər icazə versən, böyük qızını oğluma istərəm.

Vəzirdən sonra vəkil baş əyib dedi:

– Padşah sağ olsun, razılıq ver, ortancıl qızını da mənim oğluma nişanlayaq.

Padşah dedi:

– Sizin oğlanlarınız igid olduqlarını sübut elədilər. Mənim sözüm yoxdu, ancaq gərək mənim qızlarımın üçünün də toyu birdən ola. Bir də gərək qızlar özləri deyələr ki, kimə ərə getmək istəyirlər.

Padşah əmr elədi, sabahısı gün bütün əhali sarayın qabağına yığışdı. Qızların üçü də eyvanda oturdu. Hərəsinin də əlinə bir alma verdilər. Tapşırdılar ki, kim hansı oğlana istəyirsə, almanı ona atsın. Sonra oğlanlar bir-bir gəlib eyvanın qabağından keçməyə başladı. Kiçik qız almanı atmadı ki, atmadı. Bütün oğlanlar keçib qurtardı. Padşah axırda adam göndərdi ki:

– Qız niyə almanı atmır?

Qız cavab verdi ki:

– Mənim gözlədiyim hələ gəlməyib.

Ha fikirləşdilər kim qalıb, tapa bilmədilər. Çünki şəhərin oğlanlarının hamısı gəlib keçmişdi. Axırda adamlardan biri dedi:

– Bağbanın nəvəsə Nərbala qalıb.

Adam göndərdilər, o da gəldi. Onu əslində elə-belə çağırmışdılar. Heç kəs inanmırdı ki, padşahın qızı ona alma ata. Amma iş başqa cür oldu. Nərbala gəlib eyvanin qabağından keçəndə, kiçik qız əlindəki almanı ona atdı. Bunu görən padşah cin atına mindi, dedi:

– O ki, bu gədəyə alma atdı, daha mənim qızım deyil. Özünü də elə güclə gədəyə verəcəyəm. Qoy hamı ona gülsün.

Padşah böyük qızı ilə ortancıl qızına çoxlu cehiz verdi, yaxşı toy elədi, kiçik qıza isə heç bir şey verməyib bağbanın evinə göndərdi. Bağban, Nərbala, bir də kiçik qız bir evdə yaşamağa başladılar. Amma qız igid qız idi. Özü heç fikir eləmirdi, bağbanı, Nərbalanı da fikir eləməyə qoymurdu.

Bu işin üstündən bir müddət keçdi.

Bir gün padşah bərk azarladı. Boğazı elə şişdi ki, heç bir şey keçmədi. Nə qədər dərman verdilər, kömək eləmədi. Axırda məşhur bir həkim tapıb gətirdilər. Həkim dedi:

– Sən gərək bir neçə gün ov ətinin suyunu içəsən.

Kürəkənlər bunu eşitdilər. Atlarını minib ov axtarmağa getdilər. Bu əhvalatı Nərbala da eşitdi. Quşun tükünü yandırdı. Ağ paltarı geydi, atı mindi, aslan yanında, quş da başının üstündə özünü yetirdi bir bulağın başına atdan düşdü, heyvanlara dedi:

– Nə qədər bu ətrafda ov varsa, hamısını yığın buraya.

Bir saatın içində bulağın başı doldu ovla. Bir tərəfdən at, bir tərəfdən aslan, bir tərəfdən quş, bir tərəfdən də oğlan özü dörd tərəfi kəsdilər.

Kürəkənlər hər yeri axtarıb, əldən-ayaqdan düşdülər, ov tapa bilmədilər. Geri qayıdanbaş baxdılar ki, bulağın başı doludu ovla. Oxlarını düzəldib vurmaq istəyəndə Nərbala bu tərəfdən çıxdı, dedi:

– Nə eləyirsiniz! Görmürsünüz onların sahibi burdadı!

Kürəkənlər baxdılar ki, həmin ağ atlı oğlandı, dedilər:

– Ovun nə sahibi.

Nərbala dedi:

– Onda bir balaca dayanın, bu saat görərsiniz ki, ovların sahibi var, ya yoxdu.

Bunu deyib Nərbala kəmənd atdı, ovlardan birini tutdu. Sonra bir fit verdi. Bir tərəfdən quş, bir tərəfdən at, bir tərəfdən də aslan onun yanına gəldilər. Ovlar hamısı qaçıb getdilər. Kürəkənlər işi belə görəndə lap məəttəl qaldılar. Nərbala gülüb dedi:

– Mən bilirəm ki, sizin qayınatanız bərk xəstədi. Həkimlər də ona ov ətinin suyunu dərman deyiblər. Bax, bu ovu mən sizin üçün tutmuşam. Amma şərtim var. İndi də hərənizin sol qoluna bir damğa basacağam.

Kürəkənlər baxdılar ki, ayrı çarə yoxdu. Razı oldular. Nərbala onlrın qollarına damğa basdı, sonra dedi:

– Ancaq ovun başını kəsib götürəcəyəm.

Kürəkənlər buna da razı oldular. Nərbala ovun başını kəsdi. Kəsə-kəsə deyirdi:

– Adı başına, dadı başına.

Nərbala elə ki, işini qurtardı, ovun kəlləsini götürdü, atı mindi, aslan yanında, quş da başının üstündə beş dəqiqənin içində gözdən itdi.

Kürəkənlər ovu gətirib gəldilər. Arvadları tez ovu bişirdilər, suyunu padşaha verdilər. Amma bu dərman padşaha heç bir kömək eləmədi. Ona görə kömək eləmədi ki, Nərbala ovun başını kəsəndə demişdi: "Adı başına, dadı başına". Ovun da bütün dadı başına keçmişdi.

Nərbala elə ki, təpənin dalına çatdı, yenə də heyvanları buraxdı, paltarını dəyişdi, ovun kəlləsini də götürüb evə gəldi. Bağbanla qız kəlləni görüb soruşdu:

– Bu nədi?

Nərbala dedi:

– Padşahın kürəkənləri ov vurdular, başını kəsib atdılar, mən də götürüb gətirdim, bişirəsiniz.

Bağban qıza baxdı, qız bağbana baxdı, şübhələndilər, amma bir söz demədilər. Oğlan qıza dedi:

– Əgər istəyirsənsən ki, atan yaxşı olsun, o kəlləni bişir, suyundan bir qab ona ver.

Qız kəlləni bişirmək istəmədi. Çünki atası onun üzünə də heç baxmaq istəmirdi. Onun gətirdiyi xörəyi yeyərdimi? Özü də ki, xörək də bir xörək ola. O biri kürəkənlərin vurduqları ovun kəlləsinin suyu. Bağban dedi:

– Qızım, o nə deyir, eləcə də elə, o bir şeyi bilməsə deməz.

Qız kəlləni bişirdi, suyundan bir qab atasına apardı. Amma qorxudan özü onun yanına girə bilmədi. Bir qoca dayəsi var idi. Ona verib göndərdi. Padşah kəllənin suyundan bir qaşıq içdi, gözləri işıqlandı. Bir qaşıq da içdi, elə bil boğazı açılmağa başladı. Qabı ikiəlli tutub başına çəkdi, qurtarandan sonra qışqırdı ki:

– Bundan yenə də verin.

Dayə qaçıb kiçik qızın xörək qazanını götürüb gətirdi. Axşama qədər padşah kəllənin suyunu içib qurtardı. Səhər sapsağlam olub ayağa durdu. Bütün şəhərə səs yayldı ki, kürəkənlərin vurub gətirdiyi ovun suyu padşahı sağaldıb. Padşah elə ki, sağaldı, dayəni yanına çağırdı:

– Sən o xörəyi hardan almışdın? Onun dadı başqa idi. Kürəkənlərimin vurduğu ovdan deyildi.

Dayə açıb əhvalatı danışdı. Padşah bircə kəlmə də olsun danışmadı. Əhvalat gizli qaldı. Kürəkənlər də ki, onsuz da lovğa idilər. Bu işdən sonra bir az da lovğalanmağa başladılar. Özlərini elə çəkirdilər ki, daha yerə-göyə sığışmırdılar.

Bu işin üstündən bir müddət keçdi. Bir gün qasidlər xəbər gətirdilər ki, Döşgüvar padşah yenə də qoşun çəkib onların üstünə gəlir. Bütün əhali bir-birinə dəydi. Çünki bu yerin əhalisi Döşgüvar padşahın davasını, zülmünü görmüşdü.

Padşah əmr eləyib vəzir, vəkili yığdı. Qoşun hazırlamağa başladılar. Üç gündən sonra Döşgüvar padşah qoşunu ilə gəlib şəhərin ətrafını tutdu, padşaha da belə bir məktub göndərdi:

– "Ey padşah, gəlib şəhərinin ətrafını tutmuşam. Bircə dəfə qoşuna əmr versəm, şəhərində daş daş üstündə qalmaz. Sənə üç gün möhlət verirəm. Mənim iki oğlum var, sənin iki kürəkənin. Birinci gün mənim Xanbala oğlum sənin böyük kürəkəninlə vuruşacaq. İkinci gün Bəybala oğlum o biri kürəkəninlə vuruşacaq. Üçüncü gün sənin özüm vuruşacağam. Hansı tərəf basıldı, o tərəf təslim olmalıdı. Ya şərti qəbul elə, ya da şəhəri xarabaya çevirib yerində turp əkəcəyəm".

Padşah şəhər adamlarını çağırıb məktubu oxudu. Çarələri kəsilib şərti qəbul elədilər. Kürəkənlər hazırlaşmağa başladılar.

Səhər qoşunlar üz-üzə dayandı. Kürəkənlər geyinib getdilər. Nərbala kiçik qıza dedi:

– Get, atana de, mənə də bir at, bir qılınc versin. Düzdü, mən gücsüzəm, dava-zad görməmişəm, amma heç olmazsa qoşunun içində dayanıb qaraltı elərəm ki...

Qız getmək istəmədi. Çünki sarayda hamı ona, bir də Nərbalaya çox pis nəzərlə baxırdı. Həmişə ələ salıb gülürdü. Bacıları ilə yeznələri də ki, Nərbalanın adını dəvə balası qoymuşdular. Bilirdi ki, indi də gedib at istəsə, hamı ona güləcək. Odur ki, getmək istəmirdi. Amma Nərbala əl çəkmədi. Qız axırda durub atasının yanına getdi.

– Ata, əmr elə, bir qılınc da bizə versinlər.

Padşah gülüb dedi:

– Nə var? Yoxsa dəvə balası qeyrətə gəlib.

Qız hirslənib dedi:

– Ata, niyə bizi ələ salırsan?

Padşah da hirslənib cavab verdi:

– Sən gərək elə oğlana ərə gedəydin ki, indi qoşunun qabağında dayana idi. Amma kimə getdin, bir gədənin birisinə. Bacılarını görürsən?

Qız dedi:

– Nə olar. Bütün bacılar ağıllı olmaz, bütün kürəkənlər də igid olmaz.

Padşahın ürəyi kövrəldi. Bir də onun gətirdiyi xörək yadına düşdü. Dedi:

– Bir mənə de görüm, sən onda xörəyi haradan alıb mənə gətirmişdin?

Qız əhvalatı danışdı:

– O biri kürəkənlər ov vurmuşdular, başını kəsib atmışdılar. Nərbala götürüb evə gətirmişdi. Mən xörəyi həmin o kəllədən bişirmişdim.

Padşah fikrə getdi, dedi:

– Yaxşı, bəs sənin hardan ağlına gəldi ki, ondan mənə göndərdin?

Qız dedi:

– Nərbala mənə dedi ki, əgər atanın sağalmasını istəyirsənsə, o xörəkdən ona göndər.

Padşah daha heç bir söz demədi. Çağırıb tapşırdı ki, Nərbalaya bir at, bir də qılınc versinlər.

Qoşunun böyüyü gülmək üçün Nərbalaya bir axsaq yabı, bir də yarısı qırılmış bir qılınc göndərdi.

Bağban yabı ilə qılıncı görüb elə ucadan güldü ki, oğlan da, qız da qorxdular. Bağban dedi:

– Ay bala, ürəyini sıxma.

Nərbala cavab verdi:

– Ürəyimi niyə sıxıram? Gəl, görək.

Nərbala qabaqda, bağban da dalda yabının ipindən tutub meydana gəldilər.

Süpürgəçilər meydanı süpürürdülər, təbil vuruldu. Döşgüvar padşahın tərəfindən Xanbala meydana çıxıb pəhlivan istədi. Bu tərəfdən də böyük kürəkən meydana çıxdı. Elə birinci vuruşda bildi ki, Xanbala kürəkəni basacaq, odur ki, bağbana dedi:

– Sən burda dayan, mən bu saat gəlirəm.

Nərbala meydandan çıxdı, bir dalda yerə çəkilib tükü yandırdı. Quş hazır olub dedi:

– Nə olub, Nərbala?

Nərbala cavab verdi ki:

– Bu saat atı, bir də paltarlarımı mənə çatdır.

Beş dəqiqə keçməmiş hamısı hazır oldu. Nərbala atı mindi, təpənin üstünə qalxıb baxdı ki, Xanbala kürəkənin qollarını bağlayır.

Xanbalanın adamları böyük kürəkəni əsir eləyib apardılar. Döşgüvar padşahın adamları şadlıq təbili çaldı. Xanbala lovğa-lovğa meydanı gəzib, pəhlivan istəməyə başladı.

Nərbala atı vurdu. Bir də baxdılar ki, ağ atlı adam budu ildırım kimi gəlir.

Nərbala meydanı bir dəfə dolanıb Xanbalaya dedi:

– Xanbala, lovğalanma. Padşahın kürəkəni mənəm. Sənin indi tutub əsir elədiyin mənim qullarımdan biridi. İnanmırsan, əmr elə onun qollarındakı damğalara baxsınlar.

Nərbalanın sözlərini hər iki tərəf eşitdi. Bu tərəfdə də hamı məəttəl qaldı ki, görəsən bu kimdi?

Döşgüvar padşah isə o saat əmr elədi. Əsir tutulmuş böyük kürəkənin qollarına baxdılar. Gördülər ki, hər iki qolunda damğa var. Elə zənn elədilər ki, əsil kürəkən doğrudan da, meydandakı oğlandı, bu da onun quludu.

Təzədən dava təbili vuruldu. Xanbala ilə Nərbala vuruşmağa başladılar. Amma bu vuruşma çox çəkmədi. Nərbala elə birinci zərbədə Xanbalanı vurub atdan saldı, düşüb qollarını bağladı, padşahın qabağına gətirdi. Padşah Nərbalanı tanıya bilmədi, çünki onun üzü örtülü idi. Nərbala Xanbalanı təhvil verib dedi:

– Padşah, ona heç bir şey eləməyib zindanda saxlarsan. Sabah keçər, ikinci gün keçər, üçüncü gün onu səndən istəyəcəyəm.

Sonra Nərbala atını Döşgüvar padşahın qabağına sürüb dedi:

– Padşah dava qurtarana qədər mənim nökərim sizdə qalacaq. Başına bir iş gəlsə, özündən küs.

Bunu deyib Nərbala atını vurdu, getmək istədi. Elə bu vaxt Xanbalanın qardaşı Bəybala ona bir ox atdı. Ox Nərbalanın qoluna dəydi. Nərbala dönüb dedi:

– Mən bilirəm, bu vaxt oxu atan Bəybaladı. Mən də beləcə oxla onu vura bilərdim. Amma mən namərd deyiləm. Sabah meydanda görüşərik.

Nərbala geri qayıdıb bu biri tərəfə gəldi. Üzünü camaata tutub dedi:

– Qorxmayın, sabah bu vaxt mən yenə gələcəyəm.

Padşah baxdı ki, Nərbalanın qolundan qan axır. Tez öz dəsmalını çıxarıb onun yarasını bağladı. Nərbala atı vurdu. Bir dəqiqənin içində gözdən itdi. Elə ki, təpənin dalına keçdi, piyada bağbanın yanına qayıtdı.

Bağban dedi:

– Oğlum, gördün nə oldu?

Nərbala dedi:

– Hamısını gördüm. O həmin oğlandı ki, solmayan gülü mənə vermişdi.

Camaat geri qayıtdı. Bağbanla Nərbala da qayıdıb evə gəldilər. Əhvalat bütün şəhərə yayıldı. Ancaq heç kim bilmədi ki, ağ atlı kim imiş.

Gecə yatdılar. Nərbalanın yarası onu incitməyə başladı. Bağbanla qız yuxudan oyandılar. Baxdılar ki, Nərbala yuxuda zarıldayır. Qız yorğanı qaldıranda baxdı ki, Nərbalanın qolu bir dəsmalla bağlıdı, dəsmal da qanlıdı. Əhvalatı bağbana dedi. Bağban Nərbalanı oyatdı. Nərbala baxdı ki, işin üstü açılıb dedi:

– Səhər meydanda bir əsgərin nizəsi qoluma batdı.

Nərbalanın yarasını açdılar. Dərman qoyub təzədən bağladılar. Nərbala yatdı. Qız dəsmalı da yuyub həyətdəki ağacın budağına sərdi.

Səhər açıldı. Hamı durdu. Bağbanla Nərbala da çolaq yabını götürüb meydana getdilər.

Padşah həyətdən keçəndə gördü ki, dünən meydanda vuruşan oğlanın qoluna bağladığı dəsmal kiçik qızgilin qapısında ağaca sərilib. Qızı çağırıb soruşdu:

– Bu nə dəsmaldı?

Qız dedi:

– Dünən meydanda bir əsgərin nizəsi Nərbalanın qolunu yaralayıb. Bilmirəm, hardansa bu dəsmalı tapıb qoluna bağlamışdı.

Padşah fikrə getdi. Amma bir qərara gələ bilmədi. Meydanda döyüş təbili vuruldu. Padşah meydana yollandı.

Bu gün də Bəybala ilə ikinci kürəkən meydana çıxdılar. Yenə də Nərbala bir bəhanə ilə bağbanı orada qoyub özü təpənin dalına keçdi. Baxdı ki, heyvanlar onu orada gözləyirlər. Geyinib atı mindi, hazır dayandı. Yarım saat keçməmiş Bəybala ikinci kürəkəni atdan vurub yıxdı, qollarını bağladı.

Nərbala atı mahmızladı. Yenə də baxdılar ki, ağ atlı oğlan budu yel kimi gəlir.

Nərbala özünü meydana yetirib dedi:

– Mən bu gün də sizi aldatdım. O tutduğunuz da mənim qulumdu. İnanmırsınız, qollarındakı damğalara baxın.

Baxıb gördülər ki, bu oğlanın da qolları damğalıdı. Yenidən döyüş təbili vuruldu. Nərbala Bəybalanı da tutub qollarını bağladı, gətirib padşaha təhvil verdi. Amma bu dəfə Nərbala alnından yaralanmışdı. Dəsmal əhvalatı padşahın yadına düşdü. Tez cibindən təzə bir dəsmal çıxarıb onun alnını bağladı. Nərbalagil evlərinə gəldidər.

Nərbala alnının qanını yuyub təmizlədi, dərman vurdu, dəsmalı bir tərəfə atıb yatdı. Səhər qız bunu da yuyub ağacın budağına sərdi. Padşah gedəndə qəsdən yolunu bu tərəfdən saldı. Baxdı ki, həmin dünənki dəsmal yenə də yuyulub kiçik qızgilin qapısındakı ağaca sərilib. Qızdan soruşdu:

– Bu nə dəsmaldı?

Qız Nərbalanın dediyi kimi cavab verdi:

– Əsgərlərdən birinin nizəsi Nərbalanın alnını cızmışdı. O da alnını bu dəsmalla bağlamışdı. O dəsmaldı yumuşam.

Padşah qaldı məəttəl ki, görəsən bu necə sirdi. Ancaq yenə də məsələni aydınlaşdırmağa vaxt tapa bilmədi. Çünki bu gün onun öz növbəsi idi. Döşgüvar padşahla vuruşmalı idi.

Döyüş təbili vuruldu. Döşgüvar padşah meydana gəlib padşahı döyüşə çağırdı. Padşah elə atına minmək istəyirdi ki, ağ atlı oğlan yenə də göründü. Özünü Döşgüvar padşaha yetirib dedi:

– Sənin tərəfindən hələ mənə üstün gələn adam olmayıb. Qanuna görə sən qabaqca məni basmalısan. Buyur.

Döşgüvar onsuz da onun əlindən yanıqlı idi. Elə qəzəblənmişdi ki, ağzından köpük dalanırdı. Qılıncını çəkib Nərbalaya hücum etdi. Nərbala kəməndi atıb yarı yolda onun boğazına keçirdi, çəkib atdan saldı. Hər iki tərəfin adamları əl vurub "sağ ol" dedilər, səs göyə ucaldı. Nərbala onu yerdən qaldırdı, əllərini bağladı. Sonra ata minib uca səslə hər iki tərəfə dedi:

– Dava qurtardı. Sabah bu vaxt, bax elə buradaca danışıq aparacağıq. Özü də danışığı mən aparacam.

Hər yerdən əl vurdular. Nərbala üzünü Döşgüvar padşaha tutub dedi:

– Əmr elə ki, sabah tutduğunuz iki nəfəri buraya gətirsinlər. Bir də mən eşitmişəm ki, sənin bir dəvəçi qızı arvadın var imiş. O da gərək sabah burda olsun.

Döşgüvar dedi:

– Mən nə bilim indi o hardadı?

Nərbala dedi:

– Bilmirəm, sabah o burda olmasa, sənin də, oğlanlarının da başını öz əllərimlə kəsəcəyəm.

Sonra Nərbala üzünü o biri padşaha tutub ded:

– Sənin tərəfindən də sabah sən özün, vəzirin, vəkilin, üç qızın, bir qoca bağbanın burda olmalıdırlar. Əmr elərsən, bu padşahın əsir düşmüş oğlanlarını gətirərlər.

Nərbala sözlərini qurtarıb atı çapdı. At bir dəqiqənin içində gözdən itdi.

Hər iki tərəf sabahın açılmasını gözlədilər. Nərbala da evlərinə gəldi. Bağban dedi:

– Ay bala, o oğlan kimdisə, çox böyük igidlik elədi, qırğının qabağını aldı. Özü də sabah bizi meydana çağırtdırıb.

Nərbala dedi:

– Yaxşı-yaxşı qulaq asarsınız, sonra gəlib mənə də danışarsınız.

Gecəni yatdılar. Səhər meydan süpürüldü. Hər iki tərəfin adamları meydana toplaşdılar, ağ atlı igidi gözləməyə başladılar.

Düz dünənki vaxt çatanda Nərbala ağ geyimdə, ağ atın üstündə meydanın ortasına gəldi. İşarə elədi. Qolları bağlı Xanbalanı, Bəybalanı və Döşgüvar padşahı gətirib bir tərəfdə oturtdular. Bu tərəfdən də qolları bağlı kürəkənləri gətirib oturtdular. Sonra padşah, vəzir, vəkil, qızlar və bağban gəldi. Nərbalanın anasını da gətirtdilər. Nərbala gözaltı anasına baxıb gördü ki, arvad qocalıb, arıqlayıb, bir dəri, bir sümük qalıb.

Nərbala atını meydanın ortasına sürdü ki, hamı onu görsün, səsini eşitsin. O, uca səslə dedi:

– Mən bilirəm ki, hamı mənim kim olduğumu bilmək istəyir.

Hər yerdən dedilər:

– Düzdü, bilmək istəyirik.

Nərbala dedi:

– Burda oturanlardan ikisi məni elə bu geyimdə tanıyır. Onlar kimdilərsə, dursunlar ayağa.

Heç kəs durmadı. Nərbala dedi:

– Utanmaqdan keçib. Əgər durmasalar, mən özüm boğazlarından yapışıb qaldıracağam. Nərbala üzünü padşaha tutub dedi:

– Bunlar sənin kürəkənlərindi. Sən ona görə qızlarını bunlara verdin ki, bunlar qəhrəmanlıq göstərib solmayan gülü tapıb gətirmişdilər. Qoy hamı eşitsin ki, o gülü onlara mən vermişdim. Əvəzində isə hərəsinin sağ qoluna bir damğa vurmuşdum. İnanmırsız baxın!

Açıb gördülər ki, doğrudu. Nərbala padşaha dedi:

– Sən azarlayanda bunlar ikinci dəfə qəhrəmanlıq göstərdilər. Gedib sənin üçün ov tutb gətirdilər. O ovu da bunlara mən vermişdim. Əvəzində də sol qollarına damğa vurmuşdum. İnanmırsız, baxın!

Açıb gördülər ki, bu da doğrudu. Nərbala dedi: – Hamı gördü. Əgər mən olmasaydım, onlar da əsir getmişdi, sən də.

Hamı dedi:

– Düzdü.

Nərbala dedi:

– Qoy hamı görsün ki, mən kiməm.

Bunu deyib Nərbala üzünü açdı, üstündən geymiş olduğu ağ paltarı çıxartdı. Hamı baxdı ki, Nərbaladı. Bütün meydandakılar əl çaldılar. Kiçik qızla bağban bir-birini qucaqlayıb sevindiklərindən uşaq kimi ağladılar. Nərbala dönüb Döşgüvargilə tərəf gəldi, dedi:

– Məni tanıyırsınızmı?

Nə Döşgüvar, nə Xanbala, nə də Bəybala Nərbalanı tanıya bildilər. Nərbala anasının qabağına gedib dedi:

– Sən necə? Məni tanıya bilirsənmi?

Arvad ona baxdı, gözlərini yumdu. Sonra yenidən gözlərini açıb bir də baxdı.

– Nərbala! Oğlum!.. – deyib özünü onun üstünə atdı. Onlar qucaqlaşdılar, öpüşdülər, sonra yenidən gözlərini açıb Nərbala soruşdu:

– Ana, de görüm sən bu müddətdə harda idin?

Anası dedi:

– Döşgüvar padşah səni dərvişə verdikdən sonra, məni də zindana saldı. Dünən axşam məni ordan çıxarıb gətiriblər.

Döşgüvar padşah onun Nərbala olduğunu bilən kimi durub yüyürdü, dedi:

– Nərbala! Oğlum!

Nərbala onun yaxasından tutub yerində oturtdu, dedi:

– Mən sənin oğlun olsaydım, məni qurban verməzdin.

Sonra üzünü camaata tutub dedi:

– Bunlar da, bu birilər də, – o, Döşgüvargili və o biri padşah tərəfi göstərdi, – məni həmişə ələ salardılar. Adıma dəvə balası deyərdilər. Ona görə ki, mənim bu anam xan qızı, bəy qızı deyildi, yoxsul bir dəvəçinin qızı idi. Buna görə də Döşgüvar o biri oğlanlarını məndən üstün tutdu, məni dərvişə verdi, anamı da zindana saldı. Bu biri padşah isə öz kiçik qızını evindən qovdu. Nədi, nədi, qızı məni sevirdi. Məni oğulluğa götürdüyünə görə qoca bağbanı çox incitdilər. İndi bunların hamısı mənim əlimdə əsirdi. Mənim bunları öldürməyə haqqım var. Amma öldürməyəcəyəm. Bunların hərəsinin alnına bir damğa vuracağam. Qoy bütün aləm bilsin ki, bu damğaları kim vurub və nə üçün vurub.

Sonra üzünü bağbana tutub dedi:

– Baba, dur, bunların hərəsinin alnına bir damğa vur.

Bağban durdu. İki padşahın, iki vəzir, vəkilin, iki şah oğlunun, iki şah qızının, iki kürəkənin alnına qara damğa vurdu. Sonra Nərbala hər iki tərəfə dedi:

– Camaat, mən, bax, o iki dağın arasındakı qalaçada yaşayacağam, kim sizə zülm eləsə, mənə deyərsiz.

Nərbala sözünü qurtarıb anasını, bağbanı, bir də kiçik qızı götürüb qalaçaya getdi.

Deyirlər ki, nə qədər Nərbala sağ idi, qorxudan heç kim yoxsullara zülm eləyə bilmirdi.

MƏİŞƏT NAĞILLARI

Üç şahzadə

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşah çox pul xərcləyib oğlanlarını oxutmuşdu. Oğlanlar öz zamanlarının dərslərini rəvan eləyib elm dəryası olmuşdular. Günlərin bir günündə xəbər çıxdı ki, oğlanlar dərslərini qurtarıb gəlirlər. Di şəhər bəzəndi, dəsgah... Oğlanlar gəldilər. Bir neçə gün keçəndən sonra, padşah bir gecə böyük oğlunu yanına çağırıb dedi:

– Oğul, daha oxuyub dərsinizi qurtardınız, elə mən də qocalmışam, istəyirəm sabahdan padşahlığı verəm sənə, ortancıl qardaşını sənə vəzir, kiçik qardaşını da vəkil təyin eləyirəm.

Oğlan doğrudan da, çox ağıllı idi, dedi ki:

– Dədə, mən təzə gəlmişəm. Bütün ömrümü qürbətdə keçirmişəm. Ona görə də camaatı, vilayəti necə dolandırmaq lazımdı, hələ bacarmaram.

Padşah oğlundan heç belə cavab gözləmirdi. Elə ki, bunu eşitdi, dedi:

– Get, ancaq qardaşlarına bu barədə heç bir söz demə!

Belə deyib oğlunu mürəxxəs elədi. Sabahı gecə ortancıl oğlunu çağırıb dedi ki:

– Oğul, istəyirəm padşahlığı verəm sənə, böyük qardaşını vəzir, kiçiyi vəkil təyin eləyəm.

Oğlan dedi:

– Yox, bunu mən qəbul elmərəm. Məndən böyük qardaşım var, padşahlıq ona verilməlidi. O, dura-dura mən padşah olmaram.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bir söz deməsin.

Üçüncü gecə kiçik oğlunu çağırıb ona da haman sözləri dedi, o da cavab verdi ki:

– Böyük qardaşım dura-dura mən padşahlığı qəbul eləmərəm.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bu barədə heç bir söz deməsin. Qardaşlar üçü də bu işdən pəjmürdə olmuşdular. Axırda ki, özlərini saxlaya bilməyib məsələni açdılar. Baxdılar ki, padşah üçünə də haman sözləri deyib. Fikirləşdilər ki, biz onun sözünü rədd eləmişik, bizə bundan sonra pis nəzərnən baxacaq. Yaxşısı budu ki, biz də hələlik hirsi soyuyanacan çıxaq səyahətə.

Di padşaha adam göndərdilər, padşah razılıq verdi. Tədarük görüldü, lazım olan şeylər hazırlandı, oğlanlar üçü də dədələrinin görüşünə gəldilər. Padşah böüyk oğlunun alnından öpüb dedi:

– Get, oğul, ancaq yadında qalsın, qabağına çıxan qisməti təpikləmə...

Ortancıl oğlunun alnından öpüb dedi:

– Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!

Kiçik oğlunun alnından öpüb dedi:

– Həmişə dara düşəndə qocaların məsləhətinə qulaq as!

Oğlanların üçü də görüşüb, atları minib yola düşdülər. Gəlib yetişdilər bir özgə padşahın vilayətinə. Bir neçə vaxt qaldılar burda, bunların kamalları şəhərdə hamını heyran elədi. Bu şöhrət axırda gedib bu məmləkətin padşahına çatdı. Padşah bunların üçünü də qonaq çağırdı. Di bir az söhbət edəndən sonra yemək gəldi. Padşah ayağa qalxıb dedi:

– Mən ac deyiləm, siz özünüz necə ki, kefinizdi yeyin, məni bağışlayın!

Padşah bunu deyib o biri otağa keçdi. Onun məqsədi ayrı idi. O, istəyirdi ki, onları tək qoyub, özü onlara tamaşa edib görsün ki, doğrudan necə adamlardı. Odu ki, qapının dalında əyləşib onları seyr eləməyə başladı. Böyük oğlan ortadakı qızarmış quzudan bir az kəsib elə ağzına qoycaq tüpürdü yerə. O biriləri soruşdular ki:

– Nə olub?

Böyük qardaş üzünü turşudub dedi:

– Bu quzu əti deyil, it ətidi.

Padşah bunu eşidib hirsləndi ki, onlar necə cəsarət eləyib onun ətini it ətinə oxşadırlar. Elə istəyirdi ki, girib onları tutdursun, bu halda ortancıl qardaş əlini uzatdı şəraba. Şərabdan bir stəkan töküb ağzına yaxınlaşdırcaq, tüpürdü yerə.

Soruşdular:

– Nə oldu?

Dedi:

– Bu şərab deyil, insan qanıdı.

Kiçik oğlan dedi:

– Yaxşı, aşpazdan əmələ gəlmiş bicdən daha bundan artıq nə gözləmək olar ki?

Padşah bunu eşidəndə dəli oldu. Vaxt elədi ki, hirsindən bağrı çatlasın. Bir istədi ki, üçünün də boynunu vurdura. Ancaq bir az fikir eləyib öz-özünə dedi:

– Yaxşısı budu, çağırım bir aşpazdan, şərabçıdan soruşum, sonra.

Çağırdı aşpazı:

– De görüm, bu gün bişirdiyin quzunu haradan almışdın?

Aşpaz dedi:

– Şah sağ olsun, çoban sürüdən gətirmişdi.

Padşah əmr elədi, çoban gəldi.

– Bu quzunu hardan gətirmişdin?

– Şah sağ olsun, sürüdən.

– Çoban, bu quzudan it əti tamı gəlir, bir əməlli fikirləş!

Çoban bu sözü eşidəndə başladı yarpaq kimi tir-tir titrəməyə.

Padşah dedi:

– Qorxma, de görüm, bu nə işdi?

Çoban dedi:

– Padşah sağ olsun, həmin quzu anadan olandan iki gün sonra anasını qurd parçalamışdı. Biz fikirləşdik ki, ta bu böyüyüb bizə qoyun olmayacaq. Odu ki, ötürdük başına. Elə çəpindən həmin otlaqda bizim, üzdən iraq, itimiz də küçükləmişdi. Bir gün mən gəlib gördüm ki, həmin quzu iti əmir, ta buna heç fikir vermədim. Siz indi it ətinin tamı deyəndə yadıma düşdü ki, o yəqin bu quzu olacaq.

Padşah baxdı ki, böyük oğlan dediyi doğru çıxdı. Onu mürəxxəs eləyib çağırdı şərabçını. Soruşdu ki:

– Bugünkü şərabı hardan gətirmişdin?

– Meyxanadan, qibleyi-aləm sağ olsun!

– Bu şərab haranın üzümündəndi?

– Güllü bağın.

– Bu bağı kim saldırıb?

– Sənin rəhmətlik atan.

– Bilmirsən o bağın yeri qabaqca nə imiş?

– Şah sağ olsun, o bağın yeri qabaqlar qəbiristanlıq idi.

Sənin rəhmətlik atan oranı sökdürüb üzüm bağı elədi.

Padşah baxdı ki, ortancıl oğlanın dediyi də doğru çıxdı. Öz-özünə fikirləşdi, yaxşı, bunlar doğru oldu. Amma xırdanın hökmən boynunu vurduracağam. Çünki ta mən heç vəchlə aşpazdan əmələ gəlmiş bic deyiləm. Atam bəlli, anam bəlli. İstədi cəlladı çağıra, sonra fikirləşdi, yaxşı, bunların ikisinin də sözü düz çıxdı. Bəlkə elə bu da düzdü, oldu-oldu da... Qoy bir anamdan soruşum.

Qılıncı çəkib girdi anasının yanına ki:

– Ana, düzün de görüm, mənim atam kimdi?

Arvad dedi:

– Buy, ay bala, bu nə sözdü? Sənin atan bu vilayətin padşahı Aslan şah. Bu nə sözdü soruşursan?

– Yox ana, düzün deməsən, bax bu qılıncdı, sənin canın. Mənə deyiblər ki, mən padşah oğlu deyiləm, aşpaz oğluyam.

Arvad gördü ki, iş xarabdı, kimsə əhvalatı bilib, ona xəbər verib. Ona görə də çar-naçar əhvalatın düzünü açıb deməyə vadar oldu. Dedi:

– Bala, indi ki, bilirsən, bil, ta allahdan gizlin deyil, səndən nə gizlin. Mənim həmişə qızım olurdu, heç oğlum olmurdu, Aslan şah da oğlan istəyirdi. Bir gün yenə allahın məsləhəti ilə mənim vədəm keçdi. Sancım başalayan günü şah mənə dedi:

– Əgər bu dəfə də qız olsa səni öldürəcəyəm.

İşin çəpindən uşaq yenə qız oldu. Mən düşdüm qarın ağrısına. Mənim bir yaxşı dayəm var idi. Gəlib gizlincə mənə dedi ki, bu gecə aşpazın bir oğlu olub, gəl uşaqları onunla dəyişdirək. Sən həmin o uşaqsan.

Padşahın gözləri heyrətindən bərəlib lap dörd oldu.

– Bəs mənim əsil atam, anam necə oldu?

– Sənin əsil atan, anan da, mənim əsil qızım da o böyük taunda öldülər.

Padşah daha heç bir söz deməyib çıxdı. Lap mat qalmışdı. Oğlanların dediklərinin hamısı doğru olmuşdu. Birbaş gəldi oğlanların yanına, oyləşdi, başladı söhbətə:

– Mən buna lap mat qalmışam. Siz çörək yeyəndə mən qapının dəşiyindən qulaq asırdım. Sizin sözlərinizin hamısını eşitdim.

Oğlanlar qızardı.

Padşah dedi:

– Yox, qızarmayın! Məsələ burasındadır ki, dediklərniz lap düz çıxdı. İndi mən bir şeyə mat qalmışam ki, siz bunları hardan bilirsiniz?

Böyük oğlan dedi:

– Şah sağ olsun, mən quzunun ətindən yeyəndə dedim ki, bu, it ətidi. Çünki gördüm ki, qoyun əti tamı vermir. Demək bu başqa heyvan olacaq. Sürüdə də itdən başqa heyvan olmaz. Odu ki, dedim bu yəqin it əti olacaq.

Padşah ortancıla dedi:

– Yaxşı, hələ sən hardan bidin ki, şərab insan qanıdı?

– Şah sağ olsun, mən şərabı ağzıma alcaq məni bir cür iy basdı. Mən ondan bildim ki, bu insan qanı olacaq.

Padşah üzünü tutdu kiçik oğalana ki:

– Yaxşı, bəs sən niyə elə başından yekə qələt elədin?

Oğlan dedi:

– Şah sağ olsun, düzdü, mənim dediyim yaxşı söz deyil. Ancaq məsələ burasındadı ki, elə deyəsən elədi ki, var. Axır hərçənd ki, biz sənə demişik ki, biz tacir oğluyuq, amma yalan demişik. Biz səndən də böyük bir padşahın oğluyuq. Bizim atamız gələn qonaqlarla oturar, durar, söhbət edər, amma heç xörək haqqında danışmaz. Amma sənin söhbətin elə bu barədə oldu ki, ay nə bilim küftəbozbaşı belə bişirirlər, dolmanı belə bişirirlər, plovun yağını nə vaxt tökərlər, qayğanağın şirəsini nə vaxt vurarlar. Mnə gördüm ki, sən xörəkdən başqa heç bir söhbət eləmirsən, fikirləşdim ki, yəqin bunun aşpazla bir qarışığı var.

Gecə padşah böyük oğlanı çağırıb dedi:

– Oğlan, görürəm sən bir ağıllı, kamallı oğlansan. Mən də ta qocalmışam. Övlad qismindən yaxşı bir qızım var. Gəl elə onun kəbinini kəsdirim sənə, padşahlığı da verim sənə, mən bu qoca vaxtımda bir az rahatlanım.

Oğlan məsələni qardaşlarına açdı, onlar razı olmadılar.

Böyük oğlan dedi:

– Yox, dədəm mənə deyib ki, qabağına çıxan qismәti təpikləmə! Bu bir qismətdi ki, mənim qabağıma çıxıb. Mən qalacağam.

Atalarının sözü onların da yadlarına düşdü. Hamısı razılaşdılar. Qırx gün, qırx gecə toy elədilər, padşah qızı da, tacı verdi oğlana. Qardaşları bununla görüşüb ola düşdülər. Bir neçə gün gedəndən sonra gəlib iki yolun ayrıcına çatdılar. Öpüşdülər, görüşdülər, ortancıl oğlan bir yolnan, kiçik oğlan da bir yolnan getməyə başladılar. Kiçik oğlan getməkdə olsun, biz görək ortancıl oğlanın başına nə gəldi.

Ortancıl oğlan gedib, gedib bir şəhərə çatdı. Şəhərin meydançasına çatanda gördü ki, camaat yığışıb divara vurulmuş şəklə baxırlar. Yaxınlaşdı, baxdı ki, bir qız şəklidi. Amma qız nə qız... Elə bir qızdı, elə bir qızdı ki, yemə, içmə xətti-xalına, gül Camalına tamaşa elə! Orada duranlardan birinə yanaşıb soruşdu:

– Qardaş, bu nə şəkildi?

– Yəqin ki, sən bu şəhərə təzə gəlmisən?

– Bəli.

– Bu bizim padşahın qızının şəklidi.

– Bəs bura niyə vurublar?

– Ərə vermək üçün.

Oğlan bir könüldən min könülə vuruldu bu qıza. Soruşdu ki:

– Bəs yaxşı, axı mən anlamıram, bunu bura niyə vurublar? Niyə alan yoxdu ki, belə müştəri axtarırlar?

– Yox, istəyən çoxdu. İndiyə kimi bir çox pəhləvanlar, bir çox şahzadələr gəlib bu qızı istəyiblər. Ancaq burda gizlin bir sirr var ki, o qızı istəmək üçün saraya girənlərin biri də qayıdıb eşiyə çıxmır. Bu saat bütün bü şəhər camaatı bu qıza aşiqdi. Ancaq bu işin qorxusundan bir adam cəsarət eləyib içəri gedə bilmir.

Oğlan dedi:

– Bu qızı mən alacağam.

Kişi gülümsünüb dedi:

– Yazıqsan, oğlan! Sən yaxşı bir cavansan, özünə hayıfın gəlsin, bu sevdadan vaz keç!

Oğlan dedi:

– Yox, hər nə təhər olsa, mən gərək bu qızı alam.

Kim ona nə dedisə, beyninə girdi. Sabahısı günü düz birbaş getdi padşahın yanına.

– Padşah sağ olsun, mən gəlmişəm sənin qızını almağa.

Padşah çox razılıqla onu qəbul elədi. Ancaq dedi ki:

– Doğrudu, axırda bir oğlan bir qızın, bir qız bir oğanındı. O da doğrudu ki, mənim qızım mənim sözümdən çıxmaz. Ancaq mən onun sonrakı bədbaxtlığına bais olmaq istəmirəm. Sən çox da mənim xoşuma gəlirsən. Bəlkə heç qızın xoşuna gəlməyəcəksən. Ya elə qız özü sənin xoşuna gəlməyəcək. Mənim şərtim budu. Səni sabah qızımnan ötürərəm bir otağa. Orda bir-iki saat bir-birinizlə söhbət edərsiz. Əgər ikiniz də bir-birinizi bəyənsəniz, ondan sonra baş üstə!

Oğlan bü təklifə lap ürəkdən razı oldu. Özü də çox şad oldu. Daha bundan yaxşı nə ola bilər ki?

Sabahısı oğlanı gətirdilər qızın otağına. Qız, nə qız. Huri, mələk. Şəkildəkindən beş qat gözəl, şəhla gözlü, şirin sözlü, hilal qaşlı, narınc döşlü, fındıq burunlu, açıq alınlı, güləbətin ətəyi, dili bal pətəyi, dişləri siçan dişi kimi, ta nə deyim, gəl məni gör, dərdimdən öl...

Oğlan huş-bihuş yerində dayandı. Nazənin məxmər döşəyin üstündən qalxıb süd kimi ayaqlarını fərşin üstünə basa-basa oğlana tərəf gəlməyə başladı. Oğlan ta lap özünü itirdi. Elə handa-handaydı ki, yıxılsın, şümşad qollar Hindistan ilanı kimi dolandı oğlanın boynuna. Oğlan ayıldı, tez dala çəkildi, qız irəlilədi. Qız güclə onu qucaqlamaq istəyirdi. Oğlanın gözləri kəlləsinə çıxmışdı. Elə az qalırdı ki, qucaqlayıb o gülab süzülən dodaqlardan doyunca özünü sirab eləsin, birdən atasının sözü yadına düşdü:

"Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!.."

Oğlan elə bil ki, yuxudan ayıldı. İlan vurmuş adamlar kimi yerindən tullanıb, dala qaçdı. Qız qovdu, oğlan qaçdı, qız qovdu, oğlan qaçdı, axırda oğlan gördü ki, yox, bunun əlindən qurtarmayacaq, özün vurdu qapıya, qapı da bağlı... Çəkildi dala, qız hən-hün eləyib bunu tutuncan oğlan qapıya bir təpik çəkdi, qapı sındı. Oğlan bayıra tullandı. Baxdı ki, əlində yalın qılınc bir adam hazır durub. Bayaq ha yıxılıb özündən getdi.

Bu əhvalatdan üç gün keçmiş oğlan yıxudan ayılıb özünü ipək yorğan-döşəkdə gördü. Yanında da bir çox dava-dərman var idi. Baxdı ki, başı yaman ağrıyır. Əlini atdı başına, gördü ki, başını səritdiyib bağlayıblar. Lap məəttəl qaldı. Bu vaxtı bir də nə gördü. Qız barmaqlarının ucunda yavaş-yavaş girdi evə. Daha bu halı necə ki, lazımdı deyə bilmirəm. Həftə keçdi, gün keçdi, oğlan yaxşı oldu. Ta bir adama ki, öz məşuqəsi dava-dərman verə, bir naxoş ki, öz yari-nazəninin əlindən dərman içə, əlbət ki, sağalar. İndi yavaş-yavaş oğlan başlamışdı gəzməyə.

Bir gün yenə oğlan qızla oturmuşdular bağda, padşah gəldi bunların yanına. Oğlan ondan soruşdu:

– Şah sağ olsun, mən axı bir şeyə məəttəl qalmışam. Mən yıxılan günü, əlində qılınc qapıda durub məni qorxudan kim idi?

Padşah gülüb dedi:

– Mən qızımı bir halal süd əmmiş namuslu adama ərə vermək istəyirdim. Ona görə də belə bir qənir götürdüm. Kim mənim qızımı gəlib istəyirdisə, mən onu salırdım qızımın yanına. Özüm də əlimdə qılınc qapının deşiyindən baxırdım. Qıza da tapşırmışdım ki, oğlanla mazaq eləyib onu dingildətsin, necə ki, sən özün də bunu gördün. Elə ki, qız belə eləyirdi, oğlanın əlbəhəl halı dəyişib ayrı fikirlərə düşürdü. Əlbəhəl namussuz adam olduğunu bilirdim. Mən də əlimdəki qılıncla başını bədənindən ayırıb, yer üzünü beləncik nakəslərdən təmizləyirdim. Amma sən, doğrudan da, halal süd əmmiş adamsan. Çünki qız sənə nə qədər soxuldusa, sən qaçdın.

Oğlan dedi:

– Çünki mənim atam mənə vəsiyyət eləyib ki, "elə ki, gördün bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə".

Padşah toy cləyib qızı verdi ona, padşahlığı da ona tapşırıb qoca günlərində hərəmxanasına çəkildi. Bu da burda öz keyfində olsun, biz görək kiçik oğlan nə oldu.

Kiçik oğlan gedib-gedib bir şəhərə yetişdi. Bir gün şəhəri gəzə-gəzə lap çıxdı qırağa. Qabağına bir gözəl damdaş çıxdı. Evin pəncərəsindən bir qız baxırdı, bir qız baxırdı ki, getmə gözümdən, gedərəm özümdən. Oğlan bir ürəkdən min ürəyə qıza vuruldu ki, heç Məcnun da bu boyda vurulmamışdı. Axşamacan qaldı orda. Gecə çıraqlar yanandan sonra gəldi şəhərə, amma elə fikri oradaydı. Gecə düşdüyü hücrədəki yoldaşına dərdini açdı. O adam əhvalatı buna danışdı.

Deməginən bu qız padşahın qızı imiş. Padşah onu kimə vermək istəyibsə, qız getməyib, ona görə də padşah onu dədə malından məhrum eləyib, evindən qovub. O da həmən l dam-daşı tikdirib özün də tilsimbənd eləyib oturub orda. İndi tilsimi açmağa nə qədər pəhləvanlar gəlibsə, düşüb qalıblar orada.

Oğlan dedi:

– Mən o qızı alacağam.

Səhər getdi padşahın yanına. Padşah onu lap yaxşı, ürəyi istəyən kimi qəbul edib dərdini soruşdu, oğlan öz fikrini dedi:

Padşah dedi:

– Mən lap ürəkdən buna şadam. Ancaq vallah onun ixtiyarı mənim əlimdə deyil. O olub bir çəpəl sehrkun.

Oğlan dedi:

– Mən onun tilsimini sındıraram. Ancaq necə ki, sən onun atası, başının sahibi, əvvəl sənin yanına gəlmişəm.

Oğlan ordan çıxıb soraqlaşdı, öyrəndi, bu şəhərdə lap qoca bir adam tapıb onun yanına getdi. Qoca ona dedi:

– Bala, o tilsimi sındırmaq üçün bircə yol var. O da budu ki, qızın iki qarabaşı var. Bunlar həftədə bir gün gəlib bazardan lazım olan şey-şüy alıb aparırlar. O qarabaşlardan birini gərək pul gücünə aldadıb tilsimin sirrini öyrənəsən.

Oğlan gedib kəsdi bazar yolunun üstünü. Qızları axır ki, aldadıb, tilsimin sirrini öyrəndi. Sabahısı gedib padşaha məlum elədi ki, mən bu gün tilsimi sındıracağam.

Bunu deyib üz qoydu şəhərin qırağına, qızın dam-daşına tərəf. Şəhərin əhalisi əhvalatı eşidib yığışdılar bura. Oğlan altdan geyinib üstdən qıfıllandı, iki şaqqa ət götürüb girdi evə. Baxdı ki, qarabaşların dediyi kimi pilləkanın qabağında bir aslan, bir də bir qaplan bağlanıb. Qızların öyrətdiyi kimi ətin bir parçasını aslana, o birini qaplana atdı, ayaq qoydu pilləkana. Qapıdan keçəndə göydən asılmış sehirli qılınc aşağı endi. Tez yanındakı divarda duran düyməni basdı. Qılınc sındı, düşdü yerə. Girdi evə. Baxdı ki, hər tərəf od alıb yanır. Odun içindən də bir əjdaha buna həmlə eləyir. Qızların öyrətdiyi kimi özün atdı əjdahanın üstünə. Yapışıb boğazından onu boğdu. Hər tərəfi tüstü bürüdü. Tilsim sındı. Camaat çöldə durub oğlana heyfsələnirdilər. Bir də gördülər ki, oğlan budu qız qucağında çıxdı eyvana. Camaatdan bir gurultu qopdu ki, ta nə təhər. Qız düşdü, gəldi atasının bərabərinə. Onun əlindən öpüb dedi:

– Ata, sən məni hər yoldan keçənə vermək istəyirdin, mən də buna razı deyildim. İndi bu oğlan, deyəsən, elə mən axtardığımdı. Sən uruşqat versən, mən bu oğlana üç sual verərəm, Cavablarını qaytara bilsə, gedərəm buna.

Padşah razı oldu. Qız oğlana dedi:

– İndi get, mənim sorğularımı gözlə!

Sabahısı gün qız oğlana bir zümrüd göndərdi. Oğlan getdi bazara, bir dənə zəbərcəd alıb qoydu bunun yanına, qaytardı dala. O biri gün qız oğlana bir dənə almaz göndərdi. Oğlan almazı bir daş altdan, bir daş üstdən qoyub əzdi, bir dəsmala bağlayıb qaytardı dala. Üçüncü gün qız oğlana bir brilyant göndərdi. Oğlan gedib bazara, ondan da qiymətli brilyant aldı, iki dənə də yaqut, hamısını bir yerdə göndərdi qıza.

Qız atasına xəbər göndərdi ki, oğlan suallara cavab verib. Kəbin kəsildi, toy oldu. Elə ki, toy qurtardı, padşah oğlanı da, qızı da yanına çağırıb soruşdu:

– Yaxşı, iş qurtardı, indi sən mənə de görüm, bu tilsimi necə sındırdın?

Oğlan dedi:

– Mənə atam tapşırmışdı ki, çətinliyə düşəndə qoca adamların məsləhətinə qulaq as! Odu ki, mən də bir qoca tapıb onun məsləhətiynən tilsimi sındırdım.

Padşah üzünü qızına tutub dedi:

– Bəs sən nə sual verdin, o sənə nə cavab verdi?

Qız dedi:

– Mən birinci dəfə ona bir dənə zümrüd göndərdim ki, mən atam-anam üçün zümrüd kimi bahalıyam, sən məni ala bilməzsən.

Oğlan dedi:

– Mən sənin fikrini anladım. Odu ki, bir dənə zəbərcəd alıb göndərdim ki, çox da qoltuqların şişməsin. Elə mən də ata-anam üçün zəbərcəd kimi qiymətliyəm.

Qız dedi:

– Mən ikinci dəfə bir almaz göndərib dedim ki, mən almaz kimi bərkəm, sən mənim arzularımı yerinə yetirə bilməzsən.

Oğlan dedi:

– Mən başa düşdüm, ona görə də almazı əzib sənə göndərdim ki, əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm.

Qız dedi:

– Sonra mən bir dənə brilyant göndərdim ki, mən brilyant kimi gözələm.

Oğlan dedi:

– Mən başa düşdüm. Odu ki, ondan da qiymətli bir brilyant alıb sənə göndərdim ki, elə mən də gözələm. Ancaq yanına da iki yaqut qoydum ki, indi gör bizim kimi gözəldən iki dənə də yaqut kimi oğlan dünyaya gəlsə, nə qiyamət olar...

Padşah bunların ağıl-dərrakəsini görüb yavaşca durdu ayağa, tacı götürüb qoydu oğlanın başına.

Qardaşlar bir neçə ildən sonra birləşib getdilər atalarının yanına. Ataları böyük dəsgahla onların qabağına gedib gətirdi evə. Əhvalatı biləndən sonra onların alnından öpüb dedi:

– Mən onda qəsdən elə elədim ki, siz çıxıb, gedib özünüzə çörək axtarasınız. Çünki öz əli ilə qazanmayıb ata malına göz dikənlər bədbəxt olarlar.

İlyasın nağılı

Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik edər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı sındı. Hamamçının tası yox, baltaçının baltası yox, orda bir tazı gördüm, onun da xaltası yox. Günlərin bir günündə, Məmməd Nəsir tinində. Çoxlu şilaşı yemişəm, belə yalan deməmişəm. Biri var idi, biri yox idi, allahdan başqa heç kim yox idi. Bir tacir var idi. Bu tacirin İlyas adlı bir qulu var idi. Tacir İlyası öz oğlu kimi istəyirdi. İlyas da taciri öz dədəsi kimi.

Bir gün tacir əlində olan var-yox mayasını batırdı. Tacir çox fikirli-fikirli oturmuşdu. İlyas bunu qüssəli görüb yanına gəldi, dedi:

– Ağa, nə fikir eləyirsən? Dərdini de, bəlkə çarə elədim.

Tacir gülüb dedi:

– Ay İlyas, sən bir qul adamsan, mənim dərdimə nə çarə eləyə bilərsən?

İlyas dedi:

– Ay ağa, sən özün bilirsən ki, mən səni nə qədər istəyirəm. Bəlkə ikimiz bir yerdə dərdüvə dərman elədik.

Tacirin çarəsi kəsildi, dedi:

– İlyas, mən var-yox mayamı batırmışam. İndi əlimdə bir qəpik mayam yoxdu. Onun fikrini eləyirəm ki, indi mən nə eləyəcəyəm.

İlyas dedi:

– Ağa, bunnan hasan şey yoxdu, apar məni sat, həmin pulu əlində maya elə!

Tacir gülüb dedi:

– İlyas əvvəl, mən səni çox istəyirəm. Necə səni aparım satım? Bir də ki, sənə nə pul verəcəklər ki, mən onu əlimdə maya eləyim?

İlyas dedi:

– Ağa, mən qiymətli qulam. Mən dünyada üç şeyi yaxşı tanıyıram. Atı, daş-qaşı, adamı. Odu ki, apar məni bazara, beş yüz tümənnən aşağı satma. Həmin pulu gətir, əlində maya elə!

Tacir bir az fikir elədi, gördü başqa çarə yoxdu. İlyası qul meydanına apardı. Kim gəlib qiymət soruşurdu, tacir beş yüz tümən deyib, özü də üç şey bildiyini xəbər verirdi.

Bu vaxt padşahın vəziri buradan keçirdi. Bu səsi eşidib tacirin yanına gəldi, dedi:

– Qulu neçə deyirsən?

– Beş yüz tümənə deyirəm. Özü də üç şeyi yaxşı tanıyır: adamı, atı, daş-qaşı.

Vəzir dedi:

– Sən dəli olmusan nədi? Heç padşahın bütün qulları beş yüz tümənə dəyməz. Sən bu qulu beş yüz tümənə deyirsən?

Tacir dedi:

– Bu qulun qiyməti hələ beş yüzdən də yuxarıdı. Keyfin çəkir al, keyfin çəkmir alma.

Vəzir gedib padşaha əhvalatı danışdı. Padşah dedi:

– Get, həmin qulu al!

Vəzir beş yüz tümən gətirib tacirə verdi, İlyası aldı, gətirib padşahın qullarının içinə ötürdü.

Tacir də həmin pulu əlində maya eləyib alış-verişinə başladı.

Tacir alış-verişində olsun, İlyas da qulların içində olsun, sənə kimdən deyim, bizim bu şəhərin cavan padşahından. Bir gün padşaha bir gözəl at gətirdilər. Hamı ata baxıb bəh-bəh dedi, heç kim bir eyib tapmadı. Birdən padşahın yadına düşdü ki. axı mənim bir qulum var, atı çox yaxşı tanıyır. Tez əmr elədi İlyası gətirdilər. Padşah dedi:

– İlyas, bu at necə atdı?

İlyas baş əyib dedi:

– Qibleyi-aləm sağ olsun, bu ata heç bir söz yoxdu. At birinci atdı. Amma bunun bir eybi var ki, suya girsə yatar.

Hamı dedi:

– Heç elə şey olmaz.

İlyas dedi:

– Padşah sağ olsun, mənim dövlətim yoxdu, ancaq başımı girov qoyaram. Atı salaq suya, əgər yatmasa mənim boynumu vurun!

Bəli, atı mindilər, suya vurdular. At suya girən kimi yatdı. Hamı məəttəl qaldı.

Padşah İlyasdan soruşdu:

– İlyas, bu at niyə suya girən kimi yatdı?

İlyas dedi:

– Padşah sağ olsun, bu ata camış südü veriblər, odu ki, camış kimi suya girən kimi yatdı.

Padşah İlyasın bu sözünü yoxlamaq üçün atı satandan soruşdu:

– Sən bu ata camış südü vermisən?

At satan baş əyib dedi:

– Padşah sağ olsun, bu at anadan olandan sonra anası öldü, mən də onu camışımıza əmizdirdim.

Padşahın İlyasdan çox-çox xoşu gəldi, dedi:

– Bu atı alın, ilxıya qatın! Çapışmada lazım olar.

Özü də əmr elədi ki, bundan sonra mən yeyən xörəkdən İlyasa da verin!

Bəli, İlyas hər gün padşah yeyən xörəkdən yeyirdi. Bunlar burada yeməkdə olsunlar, sənə kimdən deyim bizim padşahın qonaqlarından.

Bir neçə şəhərlərin padşahları bizim padşaha qonaq gəlmişdilər. Bir nəfər də padşaha yumurta boyda almaz gətirmişdi. Hamı almaza baxıb bəh-bəh cləyib deyirdi: bu almazın heç qiyməti yoxdu. Bu qiymətdə şey ola bilməz.

Birdən padşahın yadına düşdü ki, axı mənim İlyas adında qulum var, daş-qaşı yaxşı tanıyır. Tez əmr cylədi İlyası çağırtdırdı. İlyas gəldi baş əydi, dayandı.

Padşah dedi:

– Iyas, oğul, bu almaza qiymət qoy!

İlyas almazı aldı əlinə, bir o tərəfinə baxdı, bir bu tərəfinə baxdı, dedi:

– Padşah sağ olsun, bu almaz otuz tümənnən yuxarı dəyməz, çünki bunun üzü almazdı, içi torpaqdı.

Hamı dedi:

– Heç elə şey ola bilməz.

İlyas dedi:

– Padşah sağ olsun, əmr eləyin almazı sındırsınlar, içindən torpaq çıxmasa boynumu vurdurun.

Bəli, padşah əmr clədi, almazı sındırdılar. Almaz sınana kimi içindən torpaq töküldü. Həmin almaza qiymət qoyanlar ki, deyirdilər bu almazın qiyməti yoxdu, hamı utandı, başını aşağı saldı. Padşah fərəhləndi ki, belə bir qulu var. Qonaqların yanında qoltuğu şişdi. Bəli, padşah əmr elədi ki, bundan sonra İlyas mənim özümlə çörək yeyəcək. Bəli, bu gündən İlyasnan padşah həmişə bir yerdə çörək yeyirdilər.

Bunlar burda yeməkdə olsun, içməkdə olsun, sənə kimdən deyim, bu şəhərdə gözəllikcə misli-bərabəri olmayan bir qız vardı. Bu qızın gözəlliyi bütün şəhərdə məşhurdu. Anıma bu qızı heç kim görməmişdi, ancaq adını eşitmişdi. Bir gün padşah fikirləşdi ki, bir özünü bu qızın yanına versin. Çox fkirləşdi, axırda belə tapdı ki, əmr eləsin heç kim şəhərə çıxmasın, özü xəlvətcə qızın yanına getsin. Bəli, bir gün padşah əmr elədi ki, axşam saat səkkizdən sonra bir adam eşikdə qalmasın, bir adamın haqışqaları açıq olmasın. Əmrinə tabe olmayanların başını bədənindən ayıracam.

Bəli, elə ki, axşam səkkiz oldu, məmə yeyəndən pəpə yeyənə kimi hamı qorxudan gizləndi. Elə ki, bir az da keçdi, padşah yavaş-yavaş evdən çıxıb həmin gözəlgilə tərəf getməyə başladı. Bəli, padşah gəlib qızın qapısını döydü, qulluqçu gəldi.

Padşah dedi:

– Get, xanıma de ki, padşah gəlib.

Qulluqçu gəlib xanıma dedi.

Xanım dedi:

– Get, padşaha de ki, bir inəyim var, nə arıqdı, nə kök, öldürsən nə qədər piyi çıxar?

Qulluqçu gəlib xanımın dediyini padşaha dedi.

Padşah bir az fikirləşdi, axırda dedi:

– Get, xanıma de ki, dörd pud.

Qulluqçu gedib xanıma dedi.

Xanım dedi:

– Get, denən xoş gəldi, gedə bilər.

Elə padşah istəyirdi qayıtsın, gördü ki, bir qaraltı gəlir. Özü-özünə dedi: bu kimdi mənim əmrimdən çıxıb şəhərdə gəzir. Yaxşı, mən sabah atasını yandıraram, qoy yaxınlaşsın görüm kimdi.

Qaraltı yaxınlaşdı. Padşah gördü ki, öz vəziridir. Tez gizləndi orada olan ağacların dalında. Dedi, qoy görüm vəzir nə qayıracaq. Vəzir padşahı görmürdü, amma padşah onu görürdü. Vəzir qızın qapısına yetişdi, qapını döydü, qulluqçu gəldi, vəzir dedi:

– Get, xanıma de ki, vəzir gəlib.

Qulluqçu getdi xanıma dedi... Qayıdıb gəldi ki:

– Xanım deyir ki, bir inəyim var, nə arıqdı, nə kök, öldürsəm nə qədər piyi çıxar?

Vəzir fikirləşdi nə desin. Neçə pud desin. Axırda dedi:

– Yeddi pud.

Qulluqçu gedib xanıma xəbər verdi, gəlib dedi:

– Xanım deyir ki, gedə bilər, xoş gəldi.

Vəzir istəyirdi qayıtsın, bir də gördü ki, aha budu, bir qaraltı gəlir. Özözünə dedi: ədə, bu kimdi eşiyə çıxıb. Səhər padşaha deyəcəyəm bunun başını bədinindən ayırsın. Tez ağacların dalına girdi ki, gizlənsin, gördü padşah da buradadır. Vəzir istədi səs eləsin, padşah dedi:

– Dinmə, görək bu gələn kimdi. Görək bu nə deyəcək.

Bunlar burada mısdılar. Qaraltı yaxınlaşdı, gördülər ki, bu gələn İlyasdı. İlyas qızın qapısını döydü, qulluqçu gəldi, İlyas dedi:

– Get, xanıma de ki, padşahın qulu İlyas gəlib.

Qulluqçu gedib xanıma xəbər verdi, gəlib İlyasa dedi:

– Xanım deyir ki, bir inəyim var, nə arıqdı, nə kök; öldürsəm nə qədər piyi çıxar?

Padşahnan vəzir dedilər, dayan görək indi bu nə deyəcək.

İlyas dedi:

– Get, xanıma de ki, qəbuldu.

Padşahnan vəzir lap məəttəl qaldılar, dedilər nə olsun ki, bunu biz də deyərdik də.

Bəli, qulluqçu gəlib qapını açdı. İlyas içəri girdi. Padşahnan vəzir işi belə görüb tez bir təhər özlərini qızın bağçasına saldılar, ağacların altında gizləndilər. Gördülər ki, İlyas gəlib eyvanda əyləşib.

Bəli, qulluqçu əlində bir podnos, üstündə ağ örtük, gətirib İlyasın qabağına qoydu. İlyas podnosdan örtüyü götürdü, gördü ki, podnosda bir qayçı, bir varaq kağız, bir Quran, bir top iynə, bir də bir nar var. Padşahnan vəzir dedilər, hələ qoyaq ki biz də demişik "qəbuldu", yaxşı, bəs bu nə olsun. Nar, Quran, iynə, qayçı, indi ki, bu sirri bilməyəcəkdik. Qoy görək İlyas neyləyəcək.

İlyas iynələri götürüb hamısını bir-bir narın üstünə taxdı. Sonra kağızı götürüb qayçı ilə cıqqılı-cıqqılı doğradı. Sonra Quranı öpüb yerə qoydu. Padşahla vəzir bir-birinə dedilər:

– Yaxşı, bu nə olsun?

Bu halda qulluqçu gəldi, podnosu apardı. Bəli, elə ki, qulluqçu podnosu apardı, xanım eyvana gəldi. Qolunu İlyasın qoluna saldı. Xanım nə xanım... Aya, günə deyir sən çıxma, mən çıxacağam. Adam deyir yeməyim, içməyim, bu xanımın xətti-xalına, gül camalına tamaşa eləyim. Padşahla vəzirin ağzının suyu axırdı. Xanımla İlyas öpüşdülər, görüşdülər, sonra girdilər evə. Vəzirlə padşahın az qalırdı paxıllıqdan bağırları çatlasın.

Bəli, padşahgil gördülər ki, az qalıb sübh açılsın, tez durub evlərinə getdilər.

İlyas səhər çox bivaxt evə gəldi. Padşah dedi:

– İlyas, gecə haradaydın?

İlyas dedi:

– Padşah sağ olsun, məni sənə satan tacirin anasını mən özümə ana kimi bilərdim. O da məni çox istəyirdi. O ölübdü, getmişdim onun qəbrinin üstünə. Qəbrin üstündə ağladım, ağladım, yuxu tutdu, qaldım qəbrin üstündə. Bir də gördüm ki, səhərdi.

Padşah bilirdi ki, gecə İlyas haradaydı, çünki özü öz gözü ilə görmüşdür. Odu ki, bildi ki, İlyas yalan deyir, yenə dedi:

– İlyas, düzün de, gecə haradaydın?

İlyas dedi:

– Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Padşah hirsləndi, dedi:

– İlyas, düzünü de, gecə haradaydın? Yoxsa başuvu bədənindən ayıraram.

İlyas yenə dedi:

– Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Əlqərəz, padşah nə qədər dedisə elə İlyas dedi:

– Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Padşah əmr elədi ki:

– Aparın, bu məlunu oxlayın.

Amma ox atanları öyrətdi ki, oxu elə atsınlar İlyasa dəyməsin. Çünki bu sirrləri öyrənmək istəyirdi.

Bəli, İlyası oxa basdılar. Amma ox İlyasa dəymirdi, boynunun, qoltuğunun altından keçirdi. Padşah gəldi, dedi:

– İlyas, düzün de görüm, gecə haradaydın? Yoxsa bu saat səni asdıraram.

İlyas yenə dedi:

– Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Padşahın qəzəbi artdı. Hirs boynınə vurdu, gördü ki, bu dediyin deyir, əmr elədi:

– Bu saat bunu asın!

Bəli, İlyası dar ağacının altına gətirdilər. Kəndiri boğazına saldılar. Elə ki, istədilər kəndiri çəksinlər, bir də gördülər ki, bir atlı çapa-çapa gəlir. Atlı elə yeyin gəlirdi ki, atın üstündəkini görmək mümkün deyildi.

Elə ki, dar ağacının altına yetişdi, çapa-çapa yerə bir nar vurub getdi. Nar dağıldı.

İlyas dedi:

– Dayanın deyim.

Bəli, İlyasın boynundan kəndiri açdılar.

İlyas dedi:

– Padşah sağ olsun, gedək otağa, bu sirri tək sənə deyəcəyəm.

Padşahla İlyas getdilər otağa. İlyas dedi:

– Padşah sağ olsun, gecə mən filan gözəl qızın yanında idim.

Padşah dedi:

– Yaxşı, o piy məsələsi nə idi ki, sən dedin qəbuldu.

İlyas dedi:

– Padşah sağ olsun, xanım o sualnan demək istəyirdi ki, sən məni görməmisən, bilmirsən arığam, kökəm, gözələm, çirkinəm. Onda mən dedim ki, qəbuldu. Yəni hər necə olsan, gözəl də, çirkin də, kök də mənə qəbulsan. Onda qapını açdılar, məni içəri buraxdılar.

Padşah dedi:

– Yaxşı, o podnos məsələsi nə idi?

İlyas dedi:

– Podnosdakı iynələri narın üstünə vurdum ki, yəni bədənimi belə oxlasalar, yenə bu sirri heç kimə deməyəcəyəm. Sonra kağızı qayçıynan doğradım ki, bədənimi bu kağız kimi doğrasalar da, heç kimə bu sirri açmaram. Sonra Quranı öpdüm, yerə qoydum ki, and olsun bu Qurana, heç kimə heç nə deməræm. Odu ki, demirəm də.

Padşah dedi:

– Yaxşı, bəs niyə sirri açıb indi deyirsən?

İlyas dedi:

– Padşah sağ olsun, o atlı ki, keçdi, narı vurdu yerə, nar dağıldı, həmin qızdı. Narı yerə vurdu, dedi ki, bu sirr mənim deyil qoy dağılsın, sən ölmə. Odu ki, mən də dedim.

Padşah İlyasa pəh-pəh deyib öz yanında oturtdu, dedi:

– İlyas, axı sən adamı da tanıyrsan. İndi de, görüm mən necə adamam?

İlyas dedi:

– Padşah sağ olsun, sən çörəkçi oğlusan.

Padşah dedi:

– Sən nə danışırsan, mən padşah oğluyam. Mənim atam da bu şəhərin padşahı olub, babam da.

İlyas dedi:

– Padşah sağ olsun, əmr elə anan gəlsin, soruş, elə olmasa boynumu vurdur!

Padşah anasını çağırdı, dedi:

– Ana, düzünü de, mən kimin oğluyam? Mənim atam kim olub?

Anası dedi:

– Bala, mən sənə həmlə olanda atan dedi ki, əgər qız doğsan, səni öldürəcəyəm, oğlan doğsan, nə desən gözüm üstə. Mən doğan gecəsi qonşuda çörəkçinin arvadı da doğdu. Mənim qızım, onun oğlu oldu. İşi belə görəndə mamaya pul verdik, çörəkçiyə də pul verdik, uşaqları dəyişdirdik. İndi sən, doğrudan da, çörəkçi oğlusan.

Padşah İlyasa afərin deyib soruşdu:

– İlyas, sən nə bildin ki, mən çörəkçi oğluyam?

İlyas dedi:

– Padşah sağ olsun, mən ondan bildim ki, sən əvvəl dəfə əmr elədin ki, sənin çörəyindən versinlər. Sonra da bir yerdə çörək yedik. Ta sən mənə nə pul, nə başqa şey bağışlamadın. Odu ki, mən bildim sən çörəkçi oğlusan.

Padşah dedi:

– Yaxşı, İlyas, bəs o qız kimdi?

İlyas dedi:

– Padşah sağ olsun, o qız padşah qızıdı.

Padşah anasından soruşdu, gördü, doğrudan da, həmin qız bunun yerinə dəyişilən qızdı. Padşah soruşdu:

– İlyas, bəs sən kimsən?

İlyas dedi:

– Padşah sağ olsun, mən bir bağban oğluyam. Mən uşaq olanda bizim şəhərə hücum eləyib basırlar, məni əsir eləyirlər, sonra da gətirib qul yerinə satırlar.

Padşah İlyasın bütün xasiyyətinə fərəhləndi. Həmin qızı İlyasa aldı, qırx gün, qırx gecə toy elədi, öz tacını başından götürüb İlyasın başına qoydu, dedi:

– Padşahlığa sən yararsan. Sənin biliyin mənimkindən çoxdu. Bundan sonra bu şəhərin padşahı İlyas oldu.

Yedilər, içdilər, mətləbə yetişdilər. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də özümün. Sən yüz yaşa, mən iki əlli. Hansı çoxdu sən götür! Sən sağ, mən salamat.

Zəmanənin hökmü

Biri vardı, biri yoxdu, Kür qırağında bir Əlmərdan kişi vardı. Bu yazığın əli xəmirdə, qarnı ac. Ha işlərdi, şumlardı, əkərdi, malalardı, becərib məhsulu başa gələndə bəy bir yandan, borclu bir yandan, elə xırmanda əlindən alardılar. Payız gələndə bu kişi təzədən düşərdi qapı-qapı borc dilənməyə.

Günlərin bir günündə Əlmərdan kişi arvadıynan sözü bir yerə qoydular ki, ta bundan sonra şəhərlərə düşüb, ruzilərini qazansınlar. Bəlkə Əl-

mərdanın bir yandan bəxti açıldı. Səhər oldu, Əlmərdan düşdü yolun düzünə. Az getdi, üz getdi, gəldi bir dərənin qırağına çatdı.

Bu dərə vilayətdə Cinni dərə adıynan məşhur idi. Bura girən sağ-salamat evinə qayıtmazdı. Sağdan-soldan bulutlar içində gizlənmiş dağları aşıb şəhərə getmək, dərədən də qorxuluydu. Adam çənə, dumana düşür, yolunu azıb, axırda genə də bu dərəyə gəlib çıxırdı, ya da qurd-quşa yem olurdu. Əlmərdan kişi dedi:

– Cinni dərəyə girərəm, hər nə olursa-olsun, təfavütü yoxdu, acından ölməkdənsə, canavara yem olmaq daha yaxşıdı.

Kişinin üstündə karastıdan-zaddan bir tiyəsi də yoxdu. Çörəyini yoxladı, ancaq ki, sabahına çatardı. Koroğlu özünü düşmənə toxuyan kimi, bu da soxuldu dərəyə. Bir xeyli getdi. Yolu çox əyriş-üyrüş, daşlı idi. Dərənin ensiz bir yerindən açıq bir yerinə çıxmışdı ki, gördü daldan çağırırlar:

– Əlmərdan, Əlmərdan, dayan!

Əlmərdən kişi bir az da yeyin tərpəndi. Gördü daldan yenə səs gəldi:

– Əlmərdan, dayan, Əlmərdan sənnənəm, dayan!

Qoca kişi özünə ürək verdi. Dönüb dala baxdı. Heç kimi görmədi, dedi:

– Bax, yəqin ki, Cinni dərədə belə səslər gəlir. Adam özünü gərək itirməsin. Nə olacaq olsun.

Qoca daha da yeyinlədi. Baxdı ki, yox, bu dəfə səs lap qulağının dibindən gəlir. Dişlərini basıb bir-birinin üstə yenə dönüb dala baxdı, gördü bir ağ ilandı, quyruğu üstə qalxıb elə gəlir ki, dəyəsən bu saat bunu puç eləyəcək. Gördü ilan deyir:

– Əlmərdan, axı mən sənnənəm, ayaq saxla!

Əlmərdan boğazı qurumuşdusa da, yenə özünə toxtaq verirdi. Ağ ilan gəldi yetişdi, dedi:

– Əlmərdan, xoş gördük. Hara belə yeyin gedirsən?

Əlmərdan dedi:

– Başına dönüm, aclıqdan şəhərə gedirəm, görüm hardan bir az çörək pulu çıxardaram.

İlan dedi:

– Əlmərdan, bu dərədən qorxmadın, gəldin?

Qoca dedi:

– Ay balam, ac özünü qılınca toxuyar. Mənə nə təfavütü var. Ya kənddə ölüm, ya burda ilan-çayana yem olum.

İlan dedi:

– Əlmərdan, mən görürəm ki, sən çox comərdsən, özün də əhl-əyal sahibisən. Gəl qardaş olaq.

Əlmərdan dedi:

– Nə deyirəm ki, olaq.

İlan dedi:

– Bu gündən qardaş olduq. İndi sözümə qulaq as. Bax burdan düz şəhərə gedərsən. Görəcəksən, camaat dükan-bazarı bağlayıb, padşah məy-

dançasına qaçır. Sən də qoşularsan camaata. Şəhərin padşahı bir yuxu görüb. O, deyəcək ki, ay camaaat, kim mənim yuxumu yoza bilər? Yuxusunu danışıb deyəcək ki, mən bu gecə yuxumda gördüm ki, göydən canavar yağır. Vahimə ilə yerimdən qalxdım. Bir adam gəlsin mənim yuxumu yozsun.

Camaat kiriyəcək, heç kəs bir söz deməyəcək. Onda sən səslən ki, mən yozaram. Səni apararlar padşahın bağına. Yeyərsən, içərsən, sonra çıxarsan bağın ortasındakı gölün qırağında otararsan. Padşah səndən xəbər alacaq ki, ey mənim şəhərimin dünya görmüşü, mənim bu yuxumun mənası nədir? Sən də bir az fikirdən sonra, bir gölə baxarsan, bir göydəki aya, ulduza baxarsan, deyərsən: – Padşah sağ olsun, böyük adamın yuxusunun mənası da böyük olar. Sənin gördüyün yuxunun mənası budu ki, bir zaman gələcək ki, dünya qarışdırma dünyası olacaq. Dünyanın adamları canavara dönəcək. Güclü gücsüzün başını əzib əlindəkini alacaq.

Sən bunun yuxusunu yozandan sonra sənə bolluca xələt, qızıl verəcəklər. Hər nə versələr sənin, ancaq qızılın yarısı qardaşlıqda mənə çatır.

Əlmərdan gedib şəhərə çatdı. Çayçı dükanına girmək istəyirdi, gördü camaat çölə çıxır. Bu içəri girə bilmədi. Axırda çayçı da çıxdı.

Əlmərdan soruşdu:

– Ay bala, çayçı, bu vaxt dükanı bağlamağından, dəyəsən bir yana tələsirsən?

Çayçı dedi:

– Hə, əmi, şəhərin padşahı camaatı çağırıb. Hamımız ora tələsirik. Sən də ora gəl.

Əlmərdan da bunlara qoşuldu, gəldi gördü paho, burda papaq atsan yerə düşməz. Adam o qədər çoxdu ki, sayı-hesabı yoxdu. Bu da özünü verdi bir tərəfə, qısıldı durdu.

Padşah çıxdı. Camaat baş əydi.

Padşah dedi:

– Camaat, mən bu gecə bir yuxu görmüşəm. Yatmışdım, yuxuda gördüm ki, göydən canavar yağır. Vahimə ilə yuxudan ayıldım. İndi mənim bu yuxumu kim yoza bilər?

Əlmərdan baxdı ki, ağ ilanın dedikləri düz çıxdı, dedi:

– Hə, indi bildim ki, ağ ilan bir şey bilirmiş. Yoxsa, bunu mən cinşəyətin dağdağası sayırdım. Qoy görüm, nə olur.

Padşah bir də soruşdu:

– Camaat, mənim yuxumu kim yoza bilər, çıxsın yuxarı.

Aləm kiridi, kimsə dinmədi. Əlmərdan kişi papağını qaldırdı. Padşahın sağında-solunda dayananlar bunu gördülər. Qocanı yuxarı apardılar. Yedi, içdi, kefi duruldu. Axşam çağı padşah vəzir, vəkiliynən su qırağına seyrana çıxdı. Gölün qırağında oturdu. Əlmərdandan soruşdu:

– Yaxşı, mənim bu yuxumu yoz görək. Sən gələn kimi xəbər almaq istəyirdim, ancaq yuxunun vahiməsi məni elə basmışdı ki, indi ancaq özümə gəlmişəm. De görək, başımıza nə gələcək?

Əlmərdan kişi saqqalını əlləşdirdi. Yerə baxdı, suya baxdı, ucalmış ağaclara baxdı, ağ ilanın sözlərini yadına salıb dedi:

– Padşah sağ olsun, böyük adamların yuxusunun mənası da böyük olar. Sənin gördüyün yuxudan bu məna çıxır ki, dünya çox qarışacaq, insanlar canavar kimi bir-birini gəmirməyə çalışacaq, bir-birinin əlindəkini qamarlayacaq.

Əlmərdanın sözləri padşahın xoşuna gəldi. Vəzir-vəkilə əmr elədi ki, məni istəyən Əlmərdana xələt versin. Gətirdilər qoca kişini başdan-ayağa geyindirdilər. Bir neçə kisə qızıl da verib yola saldılar.

Qoca genə Cinni dərəyə gəldi. İlanın yuvasının ağzınnan keçdi. Ağ ilan görünmədi. Əlmərdan fikir elədi ki: "a kişi, bu qızılın yarısını ilan neyləyəcək? Götürüb bunu apar evinə, balaların acdır yesin." Əlmərdan evinə gəldi, yedi, içdi, kefi gögəldi. Bundan bir qədər keçdi. Gənə bir gün padşah xəbər göndərdi ki, gəlsin.

Əlmərdan arvadıynan halal-himmət eləyib yola düşdü. Gəlib Cinni dərədən keçirdi, öz-özünə xəyal eləyirdi ki, padşahnan dost olanın başı ya ucalar, ya da kəsilər. Bu dəfə məni yəqin öldürəcək. İndi ilan di bir yandan çıxıb çalsaydı, heç "uf" deməzdim. El içində də rüsvay olmazdım.

Bu hində qulağına ilanın səsi gəldi. Boğazı lap qurudu. Öz-özünə dedi: "ürəyimə gələn başıma da gələcək".

İlan yaxınlaşdı, dedi:

– Ay kişi, hara gedirsən?

Əlmərdan kəmal-ədəbnən salam verdi, dedi:

– Ağa, padşah hökmüdü, məni çağırtdırıb, ora gedirəm. Bu dəfə yəqin məni öldürəcək.

İlan dedi:

– Qorxma, bu dəfə sən ona deyərsən ki, padşah, sən yuxuda görmüsən ki, göydən qılınc yağır. Padşah bunu eşidəndə səndən mənasını xəbər alacaq.Deyərsən ki, bir zaman gələcək, dünya bir-birini qıracaq. Padşahlar arasında çoxlu davalar olacaq. Sən də özünü gözlə. Qan su yerinə axacaq.

Əlmərdan padşahın yanına gəldi. Padşah ağzını açmamış dedi:

– Padşah sağ olsun, məni niyə çağırdığını bilirəm. Sən yuxuda görmüsən ki, göydən qılınc yağır.

Padşah sevindi, Əlmərdanın kəramətinə lap inandı. Yuxunun mənasını soruşdu. Əlmərdan kişi dedi:

– Padşah sağ olsun, dünya çox qarma-qarışıq olacaq. Padşahlar bir-biriynən dava eləyəcəklər. Qan su yerinə axacaq. Sən də özünü gözlə.

Padşah çox razı olub dedi:

– Məni istəyən, buna xələt!..

Əlmərdan çoxlu xələt, qızıl, gümüş aldı. Padşah əmr elədi ki, Əlmərdana lap yaxşı atlardan birini versinlər, xəzinəsindən də daş-qaşlı qılınc.

Əlmərdan atın üstündə on beş yaşında bir oğlana dönmüşdü.Cinni dərədən gələndə uzaqdan ağ ilanı gördü. Qılıncı sivirdi, atı çapdı ağ ilanın yuvasına tərəf. Onda yetirdi ki, ağ ilan özünü deşikdən içəri soxurdu.

Əlmərdan dedi:

– Ta bundan sonra nə padşah yuxu görəcək, nə də məni çağırıcıq. Səni də öldürərəm, canım qurtarar. Sənnən qızıl bölən kimdi.

– Qılıncı endirdi ağ ilanın quyruğunu çapdı, atı sürdü evə gəldi, keflə dolanmağa başladı.

Günlərin bir günündə genə Əlmardanın kefi kök, damağı çağ oturmuşdu evində. Padşahdan hökm çıxdı ki, Əlmərdan buraya gəlsin.Əlmərdanın dizləri qırıldı, dedi:

– Ta bu dəfə ölməkdi. Ya ilan məni öldürəcək, ya padşah. Mən ki, heç bir şey bilmirəm. Padşaha nə deyəcəm... İlanı da yaralamışam, qardaşlığımız pozulub.

Arvad-uşaqlarıynan halal-himmət elədi. Genə gəlib, ilanın yuvasının qabağından keçəndə ağ ilan bunu çağırdı dedi:

– Bax, padşah yuxuda görüb ki, göydən qoyun yağır. Sənnən xəbər alsa, deyərsən ki, dünya düzələcək. Yaxşı zamana olacaq. Heç kəs bir-birinə dəyməyəcək. Fağır-füqəra ağ günə çıxacaq. Nə dava olacaq, nə də qılınc.

Əlmərdan gəldi. Ağ ilan dediyi kimi padşaha dedi. Padşahın kefi duruldu. Gətirib Əlmərdana o qədər xələt, qızıl, daş-qaş verdi ki, nəsilbənəsil yesin, dolansın.

Əlmərdan fikirləşə-fikirləşə gəlirdi ki: "yaxşı bu ilan mənə bu qədər yaxşılıq elədi, mən hər dəfə ona pislikdən başqa bir şey eləmədim. Bu ağ ilanın sayəsində vara-dövlətə çatmışam. Bu dəfəki xələt və qızılların heç birinə ehtiyacım yoxdu. Gəlsənə, bu qızılların hamısın kisələrilə aparım, qoyum ilanın yuvasının ağzına. Ona vurduğum yaradan ötrü, yalvarım, bəlkə qanımdan keçə, istəsə də çalsın öldürsün, daha balalarım məndən sonra farağat yaşaya bilər".

Əlmərdan elə də elədi. Qızılları gətirdi qoydu ilanın yuvasının ağzına. Çağırdı, ilan çıxdı.

Əlmərdan ilana yalvardı. İlan dedi:

– Əlmərdan kişi, mənə qızıl da, xələt də lazım deyil. Gəl bunların hamısını apar balalarına. Sən mənə heç yalvarma. Mən səni taqsırlandırmıram. Taqsır zəmanədədi. Onda ki, canavar zamanı idi, hər kəs bir-birinin əlindəkini qamarlayırdı, sən də mənim payımı yedin. Ondan sonra qılınc-qalxan zəmanəsi gəldi, adamlar bir-birinin ətini didirdi, sən də qılınc-bazlıq eləyib, məni yaraladın. İndi insanlıq zəmanəsi gəlib, heç kəsin heç kəsnən işi yoxdu, sən də zəmanənin hökmüynən xasiyyətini dəyişibsən. Get, qızılların hamısı ananın südü kimi halalın olsun.

Bunu deyib ilan yuvasına çəkildi. Əlmərdan kişi də gəldi evinə, arvadı, uşağı, qonşusuynan dövran sürdü, ağ günə çıxdı.

Onlar yedi, içdi, yerə keçdi, siz də yeyin, için, dövrə keçin.

Loğman

Bir padşahın qarnında xərçəng peyda olmuşdu. Dünyada nə qədər həkim-təbib var idi, hamısı gəlib baxmışdı, amma heç biri yaxşı eləyə bilməmişdi. Padşah gələn həkimlərin hamısıynan şərt bağlamışdı ki, əgər onu yaxşı eləsələr, çoxlu ənam alacaqlar, yaxşı eləyə bilməsələr, boyunları vurulacaq. Nə qədər həkim gəlirdisə, padşahın dərdinə əlac eləyə bilmirdi. Cəlladlar o saat həmin həkimlərin boynunu vururdular. Padşah o qədər həkim öldürmüşdü ki, yekə bir qəbiristanlıq düzəlmişdi. Axırda xəbər gedib Loğmana çatdı ki, nə durubsan, dünyada həkim qalmadı, padşah hamısını qırıb tərk elədi. Loğman soraqlaşa-soraqlaşa gəldi padşahın yanına. Onunla şərt bağlayıb işə başladı. Loğman dedi.

– Şah sağ olsun, mən səni sağaldaram, amma gərək oğlunun öldürülməsinə icazə verəsən. Sənin dərmanın oğlunun qanıdı.

Padşah bu sözü eşidən kimi az qaldı dəli olsun, gözləri çıxdı kəlləsinə. Dedi:

– Gözümün ağı-qarası bircə oğlum var, mən bu işə necə razı ola bilərəm?

Loğman dedi:

– Özün bil, razı olmazsan çıxıb gedərəm.

Padşah razı olmadı. Loğman vəziri, vəkili bir tərəfə çəkib dedi:

– Mən yalandan belə deyirəm. Oğlanın başını kəsməyəcəyəm, onun əvəzinə bir qoyun başı kəsəcəm. Bu haqda nəbadə padşaha bir söz deyəsiniz, desəniz, onu sağaltmaq olmaz. İndi siz gedin padşahı bu işə razı salın ki, oğlunun başını kəsməyə icazə versin.

Loğmanın bu sözündən sonra vəzir, vəkil padşaha yalvar-yapış elədilər:

– Qibleyi-aləm sağ olsun, sən gəl taxtı-tacı buraxıb camaatı başsız qoyma. Bir oğul nədi ki, bu cahi-cəlalı ona verirsən. Evlənərsən, təzədən övladın olar. Sən gəl razı ol.

Hərə bir tərəfdən yalvar-yapış eləyib padşahı razı saldılar. Loğman oğlanı gətirib atasının gözünün qabağında əl-ayağını bağladıb yıxdı yerə, əlinə bıçağı alıb oğlana sarı getdi ki, guya başını kəssin. Padşah qışqırıb dedi:

– Heç olmasa oğlumun başını gözümün qabağında kəsməyin.

Loğman dedi:

– Padşah sağ olsun, ayrı cür əlac yoxdur, gərək belə ola. İndi ki, görmək istəmirsən, onda aralığa bir pərdə tutaq.

Gətirib padşahnan oğlunun arasına pərdə tutdular. Loğman bilirdi ki, iş belə olacaq, odur ki, oğlana göz vurub dedi:

– Dostum, indi tez bura bir qoyun gətirt, mən qoyunun başını kəsdikcə sən başla səs-küy salıb xırıldamağa, qoy atan elə bilsin ki, sənin başını kəsirəm.

O saat qoyun hazır oldu. Loğman başladı pərdənin dalında qoyunun başını kəsməyə, oğlan da xırhaxır salmışdı. Vəzir, vəkil şahı bir təhər sa-

kit eləyirdilər. Loğman kəsdiyi qoyunun qanından bir kasa doldurub padşahın hüzuruna apardı, dedi:

– Əgər sağalmaq istəyirsənsə, al bu qanı iç.

Padşah nə qədər elədi içə bilmədi. Axırda Loğman barmaqlarını qana batırıb padşahın üzünə çilədi. Padşah o saat diskinib qusdu. Ağzından bir yekə xərçəng düşdü. Loğman dedi:

– Ey padşah, daha canın qurtardı, bu gündən sən oldun sapbasağ.

Sonra Loğman pərdəni açıb padşahın oğlunu özünə görsətdi. Padşah gördü oğlu gülür, başa düşdü ki, kəsilən qoyunun başı imiş.

Padşah dedi:

– Loğman, bu nə sirr idi sən elədin?

Loğman dedi:

– Sənin dərmanın təkcə bu idi, əgər belə eləməsəm, səni sağalda bilməzdim.

Hamı Loğmana afərin deyib dua elədi. Padşah ona çoxlu xələt verdi. Vəzirnən vəkil də Loğmanın ayağına düşüb dedilər:

– Ey həkimi-Loğman, bizim də dərdimizə əlac elə.

Loğman dedi:

– Sizin dərdiniz nədi?

Vəzir dedi:

– Mənim başımda qurd var, həmişə ağrıyır.

Vəkil də dedi:

– Mənim də beynimdə qurbağa var, elə hey quruldayır.

Loğman dedi:

– Vəzir, sən düz deyirsən, başında qurd var. Amma vəkil yalan deyir, fikrinə gətirir ki, beynində qurbağa var-elə bilir ki, doğrudan da var. Beyində qurbağa olmaz.

Qərəz, Loğman bunların hər ikisini hamama aparıb dedi:

– Mən sizi burada müalicə edəcəm.

Əvvəlcə vəkilə bir az bihuşdarı verib onu yuxulatdı. Sonra başının dərisini bir balaca çərtib qan çıxartdı. Bir boşqabda da bir qurbağa ölüsü qoyub üstünü qana batırdı. Sonra vəkilin başını bərk-bərk sarıyıb ayıltdı. Vəkil baxıb gördü, başı sarıqlı, qabağında da qanlı bir qurbağa balası. Elə bildi onu başından çıxardıblar. Dedi:

– Ay Loğman, sənin əlinə qurban olum, nə yaxşı eləyib qurbağanı başımdan çıxartdın, indi tamam rahatlandım.

Vəzir bu əhvalatların hamısını görürdü. Elə bilirdi onunku da belə asanlıqla keçəcək.

Loğman vəziri qabağında oturdub bihuşdarı verəndə vəzir dedi:

– Həkim, neyləyirsən bihuşdarı verirsən, burda nə var ki, mən elə-belə də dözərəm.

Loğman başa düşdü ki, vəzir yuxarıdan baxırmış, odur ki, dedi:

– Hə, elə sən düz deyirsən, burda nə çətin iş var ki, sənə bihuşdarı verim.

Loğman vəzirin kəlləsini çəkic-kəlbətinlə tamam iki yerə ayırdı, gördü beynində yekə bir qurd var. İstədi maqqaşla qurdu götürsün. Birdən hamamın bacasından Loğmanın şagirdi qışqırıb dedi:

– Usta, maqqaşı isit, sonra qurdu götür.

Loğman gördü şagirdi yuxarıdan xəlvətcə baxır, tez maqqaşı qaynar suda bərk qızdırdı, qurdun başından tutub kənara atdı. Sonra xəstənin başını bitişdirib bərk sarıdı. O gündən vəzirin də başının ağrısı kəsdi. Loğman hamamdan çıxanda şagirdini çağırıb, dedi:

– Bala, de görüm sən niyə dedin usta maqqaşı qızdır

Şagird dedi:

– Usta, mən gördüm, qurdun çoxlu əl-ayağı var. Sən soyuq maqqaşla qurdu götürəndə o əl ayağı ilə beyindən yapışacaqdı. Beyin də zərif şey olduğundan zədələnə bilərdi. Amma isti maqqaş qurda dəyən kimi onun bədənini yandıracaqdı, o saat qurdun əl-ayağı boşalıb heç yerdən tuta bilməyəcəkdi, sən də asanlıqla onu götürəcəkdin.

Loğman dedi:

– Əhsən oğlum, mən bilirəm ki, sən çox ağıllı həkim olacaqsan.

Bu işdən sonra Loğmanın şücaəti hər yerə yayılmışdı.

Odur ki, canı-başı ağrıyan qaçıb gəlirdi onun yanına. Loğman bütün xəstələri düzürdü, bir-bir üzlərinə baxıb hamısının dərdini deyirdi. Bir gün Loğman otuz doqquz xəstənin hamısının dərdinin dərmanını tapdı, amma birinin üzünə baxıb dedi:

– Oğul, sənin dərmanın məndə yoxdu, get özünə çarə tap.

Kişi kor-peşman qayıdıb arvadına dedi.

– Arvad, mənim dərdim gör necədi ki, Loğman da çarə eləyə bilmədi, baş götürüb gedirəm, harada ölərəm, ölərəm.

Arvadı nə qədər yalvar-yapış elədi ki, getmə, kişi razı olmadı. Baş götürüb getdi. Az getdi, çox getdi, dağlar aşdı, təpələr keçdi, gəlib bir düzəngaha çıxdı. Gördü acından qılçalarında taqət yoxdu ki, getsin. Göydən yağış elə tökürdü sel kimi. Göy guruldadı, ildırım çaxdı, birdən-birə şaqqıltı qopdu, yekə bir qoz ağacının başına ildırım düşdü. Ağac o saat yanıb külə döndü. Ağacın başından yerə ildırım vurmuş bir göy qarğa düşdü. Taqətdən düşmüş xəstə dayana bilməyib ölü qarğanı yedi. Qarğanı yeyəndən sonra kişi gördü gözünə bir az işıq gəldi. Başladı yenə getməyə, yolda bir çobana rast gəldi. Aclıq kişini əldən salmışdı. Çobandan bir az süd istədi. Çoban südü sağmağa qab tapmadı. Gördü yerdə bir qırıq kəllə sümüyü var, südü ona sağıb verdi. Xəstə canını dişinə tutub bir təhər südün yarısını içdi. Qabın içində bir az süd qalmışdı, qırağa qoydu.ki, əlacsız qalsa onu da içsin. Elə yenicə kəlləni yerə qoymuşdu, bir də gördü bir qara ilan gəlib südün qalanını içdi, sonra da hamısını təzədən kəllənin içinə qaytardı. İlan südnən bərabər yam-yaşıl zəhərini də tökmüşdü. Kişi bu əhvalatı gözüynən görmüşdü. Öz-özünə dedi: "Mənim ki, dərdimə dərman yoxdu, ölüb gedəcəyəm, qoy elə bu zəhərli südü içim bir yolluq canım qurtarsın". Bu fikirnən südü çəkdi başına. Ha gözlədi, gördü ölmür.

Ayağa qalxıb gördü xəstəliyi tamam gedib, lap anadangəlmə olub. Düz gəldi Loğmanın yanına, dedi:

– Loğman, sən deyirdin mənim dərdimin dərmanı yoxdur, bəs necə oldu sağaldım?

Loğman dedi:

– Qardaş, mən haradan alaydım ildırım vurmuş göy qarğanın ətiylə qara qulun kəlləsindəki südün içinə qusmuş ilan zəhərini ki, sənə verə idim? Bunlar sənin dərmanın idi.

Kişi bu sözləri Loğmandan eşidəndə lap mat qaldı, doğrudan da, onun böyük həkim olduğunu gördü. Kişi Loğmanla qardaş olub onun yanında qaldı.

Loğman çox qocalmışdı, daha tez-tez xəstələrin evinə gedə bilmirdi. Kimin xəstəsi olsaydı gəlməyə də qoymurdu ki, birdən yolda soyuq dəyər. Odu ki, evdəki xəstənin nəbzinə bir ip bağladıb bir ucunu öz olduğu yerə gətirdərdi. Əvvəlcə ipi qulağına tutub, sonra da bir o yana, bir bu yana oynadıb xəstənin dərmanını deyərdi.

Bu şəhərdə bir ayrı da həkim var idi. Bu həkim Loğmanı yoxlamaqdan ötəri camaatı öyrətdi ki, mən bir kələk işlədəcəm, əgər Loğman onu başa düşsə, doğrudan da çox böyük həkimdi, başa düşməsə, onu şəhərdən qovub biabır eləyərik. Camaat sözbir olub küçədən yenicə beş bala doğmuş taqətsiz, arıq bir pişik tutdular. Pişiyin ayağına bir ip bağlayıb ipin o biri ucunu da apardılar Loğmana.

– Həkim, de görək bizim xəstəmizin dərmanı nədi?

Loğman kəndiri qulağına tutub, bir az o yana, bu yana tərpədib dedi:

– Bu xəstə yenicə beş bala doğub, özü də acından taqətdən düşüb, ona bir neçə siçan tutub yedirtmək lazımdı.

Camaat bu sözü eşitcək Loğmanın ağlına heyran qaldı, onun həkimlər həkimi olduğunu bir daha təsdiq etdilər.

Camaatla gələn həkim gördü ki, Loğmanın hörməti bir idisə, indi on qat artdı. Paxıllıq ona güc elədi. Həkim dedi:

– Loğman, mən də sənin kimi həkiməm, özü də elə dərmanlarım var ki, onların səndə heç biri yoxdu, amma camaat hamısı bir balaca başı ağrıyanda qaçıb sənin yanına gəlir. İndən belə heç mənim adımı da çəkən olmayacaq. Bir şəhərdə iki həkim olmaz. Bir də ki, iki qoçun başı bir qazanda qaynamaz. Ya bu şəhərdə sən qal, ya da mən.

Loğman buna bir altdan-yuxarı baxıb dedi:

– Ey həkim,fikrini bir azca açıq de, görüm nə istəyirsən?

Həkim dedi:

– Loğman, gəl şərtləşək, ikimiz də zəhərli dərman hazırlayaq. Mənim dərmanımı sən iç, səninkini də mən. Kimin dərmanı güclü olsa, biri öləcək. İkimizdən birimiz qalarıq.

Loğman bu şərtə razı oldu, hər ikisi çəkilib evlərinə getdilər. Həkim kişi evinə gedən kimi yeddi-səkkiz dərmanı bir-birinə qatıb elə bir zəhər hazırladı ki, daşın üstünə tökəndə, daş yeddi yerdən parçalandı.

Həkimi qoyaq evdə, görək Loğman neylədi? Loğman davacat otağına gedib, bir həvəngdəstə götürdü, içinə bir parça keçə qırığı salıb başladı döyməyə. Loğman həvəngdəstədə keçə qırığını o qədər döyəclədi ki, bir də gördü sabah açıldı. Bu tərəfdən də həkimin ürəyi dayanmadı ki, gedim görüm Loğman nə elədi. Həkim yavaş-yavaş qapıya yaxınlaşıb başladı qulaq asmağa. Gördü elə Loğman həvəngdəstədə dərman döyəcləyir. Öz-özünə fikirləşdi ki, ey dili-qafil, mənim dərmanım bir saatın içində düzəldi. Amma Loğman dünəndən çalışır hələ qurtarmayıb. Gör bunun dərmanı nə qədər güclü olacaq. Həkimin qorxudan ürəyi partladı, tappıltıynan yerə yıxılıb öldü. Səsə Loğman eşiyə çıxdı, gördü həkim ölüb. Əhvalatı başa düşdü. Dedi:

– Ey həkim, mən hələ sənə dərman verməmişdən öldün. Həvəngdəstədə döydüyüm bir tikə kcçə qırığı səni bu günə salanda, gör mənim hazırladığım zəhər neyləyərdi.

Bu əhvalatı hamı bildi. Loğmanın ağlına heyran qaldılar.

Padşahla dəmirçi

Biri var idi, biri yox idi, bir padşah var idi. Bunun var-dövləti həddini aşmışdı. Özgə padşahlar onun adını eşidəndə tir-tir əsirdilər. Qorxudan heç kim onun sözündən çıxa bilməzdi. Bununla belə padşahın fikirdən başı ayılmırdı. Həmişə dərd-qəm içində olurdu. Bir gün padşah vəzirini yanına çağırıb dedi:

– Vəzir, cah-cəlal desən məndə, yeddi iqlimə mənim hökmüm keçir, hansı padşahla dava eləsəm, onun torpağını at torbasinda daşımağa gücüm çatar, amma bununla belə həmişə dərd-qəm içindəyəm. Gündüzlər gülürəm, danışıram, gecələr səhərə kimi fikirləşirəm ki, yavaş-yavaş saçıma, saqqalıma dən düşür, günlərin birində başımı yastığa qoyub öləcəyəm. Mən öləndən sonra yerimdə oğuldan, qızdan bir övladım yoxdur ki, taxt-tacımı ona tapşırım. Görəsən, dünyada məndən də dərdli adam varmı?

Vəzir dedi:

– Şah sağ olsun, dünyada dərdsiz, fikirsiz adam tapılmaz.

Padşah dedi:

– Yox vəzir, mənim torpağımda dərdli adam yoxdur. Bu barədə padşahla vəzir xeyli mübahisə elədilər. Axırda padşah əmr verdi ki, haradan olursa olsun gərək mənim yanıma dərdsiz bir adam tapıb gətirəsiniz. O gündən şahın adamları şəhərbəşəhər gəzib dərdsiz adam axtarırlar, kimə yaxınlaşıb xəbər alırlarsa, görürlər hərənin bir dərdi var.

Axırda padşaha dedilər ki, hər yeri gəzdik, dərdsiz adam tapa bilmədik. Padşah yenə tərslik eləyib dedi:

– Vəzir, mən inanmıram, gəl təğyiri-libas olub çıxaq vilayəti özümüz axtaraq, onda taparıq.

Bəli, padşahla vəzir paltarlarını dəyişib düşdülər şəhəri gəzməyə.Salam verib bir dükana girdilər. Dükançı əleykəssalam deyib onlara yer göstərdi. Dükançı dedi:

– Ay siz xoş gəlibsiniz, beş gəlibsiniz! Deyin görüm nə istəyirsiniz, bu saat gətirim.

Vəzir dedi:

– Heç bir şey almaq istəmirik, elə-belə şəhəri gəzirik, yorğunluğumuzu almaq üçün dedik bir az sənin dükanında oturub söhbət eləyək, dincimizi alaq:

Dükançı gördü ki,bunlar şey alana oxşamırlar, odur ki qaş-qabağını töküb dedi:

– Qardaşlar, mənim dərdim-çorum var, oturub söhbət eləməyə vaxtım yoxdur. İndi dükanı bağlayıb getmək istəyirəm.

Padşah dedi:

– Ay kişi sənin nə dərdin var?

Dükançı dedi:

– Neçə vaxtdır ki, malım satılmır, elə bil heç kimin pulu yoxdur. Mal alan da nisyə aparır.

– İndi anbar dolu malım var, amma çörək almağa pulum yoxdur.

Padşah gördü ki, kişinin dərdi var, odur ki, yavaşca durub onun yanından getdilər. Yolda bir bağbana rast gəldilər, onun kefini xəbər aldılar. Bağban ah-zarla dedi:

– Ay qardaşlar, nə kefim olacaq, var-yox bir bağım var idi. Padşahın cüvarları suyumu kəsib bağı susuz qoyublar, ağaclarım quruyub tələf olub, indi onun fikrini çəkirəm ki, neyləyim?

Padşahla vəzir buradan da ötüb getdilər. Yolları bir yas yerinə düşdü. İçəri girib bir az o yandan, bu yandan söhbət saldılar. Kimə yanaşdılarsa, dərdsiz adam tapa bilmədilər, biri dedi:

– Gözümün ağı-qarası bircə oğlumu padşah dar ağacından asdırdı.

Xülasə, hərə öz dərdini deməyə başladı . Padşah vəzirə dedi:

– Vəzir, bura yas yeridi, burada hamı dərdli olar. Gəl bir toy məclisinə gedək.

Hər ikisi yas yerindən çıxıb, bir toy məclisinə getdilər. Qapıdan girən kimi gördülər bəli, çalan kim, oxuyan kim, oynayan kim, yeyib-içən kim. Bir gülhagül, bir şaxaşax var ki, gəl görəsən.

Padşah dedi:

– Vəzir, biz axtardığımızı deyəsən, burada tapacağıq.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, təki siz deyən olsun, amma bu adamların ürəyini burda bilmək olmaz, toydan sonra görərik nə olar.

Birdən padşahin gözü bir adama sataşdı, gördü ki, məclisin başında bığburma bir kişi oturub, üzünə baxan kimi başlayır gülməyə, ayağa duranda qolları özündən qabağa gedir. Az qalır göyə uçsun. Özünə də daha nə qədər yalvar-yapış eləyirlərsə heç nə yemir, deyir:

– Gündə evimizdə toydur, elə indicə yeyib gəlirəm.

Padşahla vəzir o qədər gözlədilər ki, toy məclisi dağıldı. Həmin kişi evinə gedəndə qarabaqara onun dalınca getdilər. Kişi evinə girəndən sonra vəzir qapını döydü.

Gəlib qapını açdılar, vəzir dedi:

– Qardaş, qərib adamıq, bu gecəliyə bizə yatmağa yer verərsinizmi?

O saat həmən kişi həyətdən səs verdi ki, qardaş gecə vaxtı qonağı qapıdan qaytarmazlar, buyurun içəri, gözüm üstə yeriniz var. Hər ikisi girdilər evə, gördülər burada bir cah-cəlal var ki, heç padşahın evində belə şeylər yoxdur. Başladılar o yan-bu yandan söhbətə.

Bir də gördülər ortalığa çay-çörək gəldi. Vəzir dedi:

– Qardaş, əvvəlcə sən gərək əlini süfrəyə uzadasan ki, biz də sənə baxıb yeyək. Bəs nə üçün sən çörək yemirsən? Bu sözdən sonra kişi dərindən ah çəkdi.

Padşah dedi:

– Qardaş niyə ah çəkdin?

Kişi dedi:

– Heç elə-belə.

Padşah nə qədər elədisə, kişi ah çəkməyinin səbəbini demədi. Axırda vəzir dedi:

– Əgər sən dərdini deməsən,əlimizi süfrəyə uzatmayacağıq.

Kişi gördü ki, qonaqlar əl çəkmir, əlacsız qalıb dedi:

– Allahdan gizlin deyil, bəndədən nə gizlin? Mənim qollarım yoxdur.

Vəzir dedi:

– Qardaş, axı niyə belə danışırsan? Biz sənin qollarını görürük.

Kişi dedi:

– O gördüyünüz mənim qolum deyil, paltarımın qoluna saman doldurmuşam.

Çuxanı əynindən çıxarıb gördülər ki, doğrudan da, qolları yox imiş. Padşah bu əhvalatı görən kimi dedi:

– Sənin qolunu bu günə kim salıb?

Kişi dedi:

– Bizim zalım, ağılsız, hər yalan sözə inanan padşahımız.

Padşah bu sözü eşidən kimi qəzəbləndi, amma dinmədi ki, birdən onu tanıyarlar.

Padşah dedi:

– Axı bir de görüm padşah sənin qolunu niyə kəsdirib? Neyləyibsən?

Kişi dedi:

– Mən dəmirçilik eləyirdim, özü də ustalıqda adım çıxmışdı. Hamı məni tanıyırdı. Bir gün darğa gəldi ki, padşah deyir mənə elə qılınc düzəltsin ki, daşa vuranda iki parça eləsin, ağzı bir tük qədər də əyilməsin. Mən də onun sözü ilə padşaha layiq gözəl bir qılınc qayırdım. Sabahı günü darğa gəlib qılıncı apardı. Aradan bir gün keçdi, bir də gördüm ki, əlləri qılınclı iki cəllad gəldi. Onlar qılınclarını siyirdilər, hərəsi bir

qoluma vurub yerə saldılar. Ha dad-fəryad elədim, heç kim harayıma çatmadı.

Qanım axa-axa dedim:

– Ey zalımlar, deyin görüm, təqsirim nə idi ki, məni bu günə saldınız?

Cəlladlardan biri dedi:

– Padşahı aldadıb ona sınıq qılınc qayıranın qollarını bax belə kəsərlər.

Mən dedim:

– Ey zalımlar, gedin padşaha deyin ki, onu aldadıblar, mənim qayırdığım qılınc daşı, dəmiri iki bölür. O, qırılası şey deyil.

Cəlladlar mənim sözümə fikir vermədilər, çıxıb getdilər. O vaxtdan padşahın mənə etdiyi zülmü hər yerdə söyləyib, ona lənət oxuyuram.

Bu yerdə padşah özünü saxlaya bilməyib dedi:

– A kişi, sənin ki, bu qədər böyuk dərdin var idi, bəs niyə hər kəs üzünə baxanda hırıldayıb gülürdün?

Kişi dedi:

– Qonaq qardaş, elə ki, padşaha lənət oxumağa başladım, bu söz gedib ona çatdı.

Bu dəfə padşah vəzirini yanıma göndərdi ki, əgər bir də mənim pisliyimi danışsa, ağlayıb fəryad eləsə, onu dar ağacından asdıracağam, əgər məni tərifləsə, həmişə gülüb danışsa, onda onunla işim olmayacaq. Vəzir padşahın sözünü mənə deyən gündən başladım üzdə həmişə gülüb-danışmağa, amma ürəyimdə ikiqat qarğış tökməyə.

Vəzir dedi:

– Bu, darğanın kələyi olacaq.

Bu yerdə padşah bir də soruşdu:

– Qardaş, bəlkə padşahı aldadıblar, onda nə təqsir var?

Kişi dedi:

– Qonaq qardaş, əsil təqsir padşahdadır. Bəlkə biri gəlib deyəcək ki, mənim xoruzum on beş yumurta yumurtlayıb, onda gərək padşah bu sözə inansın? Belə padşaha ağılsız deyərlər. Mən dəmirçi adamam, amma bilirəm ki, padşahın gərək ağıllı, tədbirli, dünyagörmüş adamları ola. Hətta onların sözlərini də eşidəndən sonra bir özü də yoxluya, bəlkə elə onu aldadırlar. Nə olardı ki, ya padşah, ya da onun adamları məni yanlarına çağıraydılar?

Padşahla vəzir bir-birinə baxıb gördülər ki, bu kişinin dərdi hamıdan çoxdur.

O gecə onlar səhərəcən yata bilmədilər. Elə bil bədənlərinə qor dolmuşdu. Vəzirlə padşahın yeri yan-yana salınmışdı. Vəzir padşaha yavaşca dedi:

– Qibleyi-aləm, yadınıza gəlirmi, bu kişinin qollarının kəsilməsinə siz əmr vermişdiniz.

Padşah dedi:

– Vəzir, yaxşi yadımdadır. Mən indi başa düşürəm ki, elə bütün əmrləri belə vermişəm. Öz adamlarıma inanıb, özgələrinin sözünə qulaq as-

mamışam. Bir də mənim torpağımdakı adamların dərdli-qəmli olmalarının da səbəbi mən olmuşam. Çünkü biz rast gəldiyimiz adamların hamısı padşahın zülmündən danışırdılar. Mən bu gündən zalımlığımdan əl çəkəcəyəm. Hər kim şikayətə gəlsə, çuğulluq eləsə, onların ikisini də əvvəlcə ayrılıqda sonra da üzbəüz danışdıracağam. Özü də lap atam da olsa hamıya bir gözlə baxacağam. Kasıblara, əlsiz-ayaqsızlara, qocalara, yetimlərə əl tutacağam. Amma, vəzir, buradan gedən kimi darğanı yoxlayaq, görək bu əhvalat doğrudurmu?

Vəzir dedi:

– Şahım, bu işi mən özüm yoxlaram, sən də görərsən.

Padşah dedi:

– Vəzir nə yoxlamaq, gedən kimi çağırıb deyərəm, gətir qılıncı, o da gətirər, sonra boynunu vurduraram.

Vəzir dedi:

– Qibleyi-aləm, elə sənin səhvin ondadır ki, kələkbazdan doğruluq gözləyirsən. Axı o bilir ki, qılıncı gətirsə, işin üstü açılacaq, heç onu gətirərmi? Bu işdə bir qədər tədbir lazımdır. İndi o tədbiri mən görüm, sən də bax.

Bəli, səhər açıldı, qonaqlar ev sahibi ilə xudahafizləşib gəldilər evlərinə.

Padşah dedi:

– Vəzir indi tədbirini gör görək.

Vəzir dedi:

– Şahım, əmr et ki, sabah meydanda at oynatmaq, qılınc vurmaq günüdür. Kimin atı ötsə, qılıncı yaxşı kəssə, ona bəxşiş veriləcəkdir. Onda darğa qılıncını çıxardar, biz də tanıyarıq.

Padşah o saat əmr verdi. Səhər tezdən meydan doldu adamla. Bütün saray adamları, əyyan-əşrəf səf çəkib əyləşdilər. Şeypurlar çalındı, igidlər meydana girdi. Kimi at çapır, kimi qılınc vurur, kimi də qalxan tuturdu. Padşahla, vəzirin gözü darğada idi. Baxıb gördülər ki, doğrudan da, darğanın əlində bir qılınc var ki, baxanda adamın gözünü qamaşdırır, özü də kimin qalxanına vurursa, iki bölür, bir qarış da başına yeriyir.

Padşah əmr elədi darğanı gətirdilər. Padşah qılıncı alıb baxdı ki, əsil ona qayrılan qılıncdır, hələ üstə adı da yazılıb. Şah o saat əmr elədi həmin qılıncla darğanın boynunu vurdular.

Padşahla pinəçi

Bir padşah baş vəzirini öz yerində qoyub, o biri vəziri ilə təğyiri-libas olub ölkəni gəzməyə çıxır. İkisi də dərviş paltarı geyinirlər ki, onları tanıyan olmasın.

Şah vəziri ilə az gedir, çox gedir, yolda bir kişiyə rast gəlir. Kişi ilə salamlaşıb başlayırlar getməyə, şah görür ki, kişi də onlarla gedir. Odur ki, deyir:

– Kişi, indi ki, bir yerdə gedirik, gəl yola nərdivan salaq.

Kişi deyir:

– Dərviş baba, bu yekəlikdə yola da nərdivan salmaq olarmı?

Şah görür ki, kişi onun sözünü başa düşmədi, daha üstünü vurmur. Bunlar gedib bir şəhərə çatırlar. Kişi deyir:

– Dərviş baba, bura bizim şəhərimizdir, indi mən gedirəm evimizə.

Şah deyir:

– Qardaş, bizi bir gecəliyə allah qonağı saxlarsanmı?

Kişi məscidi göstərir ki, allah qonağı ora gedir.

Kişi onlardan ayrılıb gəlir evinə, yoldakı əhvalatı qızına söyləyir.

Qız deyir:

– Ata, get o dərvişləri qonaq gətir, onlar ağıllı adama oxşayırlar.

Kişi deyir:

– Sən ki, onları görməyibsən, nə bilirsən ki, ağıllı adama oxşayırlar?

Qız deyir:

– O sənə deyəndə gəl, bu yola nərdivan salaq, demək istəyirmiş ki, gəl yolu söhbət edə-edə gedək, sən onun sözünü başa düşməyibsən.

Qız nə qədər eləyir, atası onları evinə çağırmaq istəmir.

Odur ki, qız deyir:

– Ata, qərib adamdırlar, heç olmasa bir az xörək hazırlayım apar ver, yesinlər.

Qız bir təhər atasını razı salır; bir boşqab dolma, bir bütöv təndir çörəyi, bir qab da süd verir ki, apar ver, qonaqlara mənim adımdan deyərsən ki, qızım deyir ay bütövdür, ulduzlar çoxdur saya bilmədim, dərya da ağzınacan doludur. Sonra onlar nə desələr gəlib mənə deyərsən.

Kişi xörəyi aparanda yolda açıb dolma ilə çörəyin yarısını yeyir, südü də tamam içir, qab boş qalır. Sonra xörəyin qalanını aparıb dərvişlərə verir. Qızın sözlərini onlara deyir. Dərviş görür ki, boşqabın içində on-on beş dolma var, para çörək, bir də bir boş qab. Dərvişlər dolma ilə çörəyi yeyirlər, qabları kişiyə qaytaranda, dərviş deyir:

– Get, qızına de ki, ay para idi, ulduzlar çox deyildi, on-on beş olardı, dərya da tamam qurumuşdu.

Kişi gəlib həmin sözləri qızına deyən kimi, qız dedi:

– Ata, ayıb deyilmi, sən niyə qonağa apardığın xörəyi yeyibsən, südü də içibsən.

Kişi deyir:

– Qızım, dolmanı yolda yediyimi sən hardan bildin?

Qız deyir:

– Bunu dərvişlər sənin dilinlə mənə xəbər verdilər. Mən sənə deyəndə ki, ay bütövdür, ulduzlar çoxdur, dərya doludur. Demək istəyirdim ki, çörək bütövdür, dolmalar çoxdur, süd də qabla birdi. Dərvişlər mənə xəbər göndərdələr ki, ay paraydı, ulduzlar çox deyil, dərya quruyub, yəni çörəyin yarısını, dolmanın çoxunu yeyiblər, südü də tamam içiblər.

Qız atasına çox yalvardı ki, o dərvişləri heç olmasa bir günlüyə evimizə qonaq gətir. Kişi çar-naçar gedib dərvişləri evinə gətirdi.

Kişinin qızının gözü balaca çəp idi. Odur ki, ev şeylərini düzəndə bir az əyri qoymuşdu. Dərvişlər içəri girən kimi evə diqqətlə baxdılar. Xoş gəldindən sonra ev sahibi dedi:

– Dərviş qardaşlar, evimiz necədir, xoşunuza gəlirmi ?

Dərviş qızın gözünün çəpliyinə işarə vurmaq üçün dedi:

– Eviniz çox qəşəngdir, amma bircə eybi var, bacası bir balaca əyridir.

Tez qız cavab verdi ki, bacanın əyri olmağına baxma, tüstü düz çıxır.

Dərvişlər bir az oturandan sonra qız onlardan xəbər aldı ki, ürəyiniz nə istəyirsə, yeməyə hazırlayım.

Şah gördü ki, kişinin həyətində bir at, xeyli də toyuqları var.

Odur ki, dedi:

– Bir elə şey al ki, içini özümüz yiyək, ortasını toyuqlarınız, qırağını da atınız.

Qız o saat gətirib ortalığa bir yemiş qoyub, dedi:

– İçini özünüz yeyin, çərdəklərini toyuqlara verin, qabığını da atımız yeyər.

Padşah qızın ağlına təəccüb eləyib, "afərin" dedi.

Şahla vəzir qızdan çox razılıq eləyib qayıtdılar; yolda qabaqlarına bir pinəçi çıxdı. Şah eşitmişdi ki, bu pinəçi də çox ağıllı kişidir. Odur ki, onun yanına çatanda şah əlini başına qoydu, pinəçi çavab olaraq əlini dilinə vurdu.

Sonra şah dedi:

– Pinəçi qardaş, doqquzu üçə vura bilibsənmi?

Pinəçi dedi:

– Vurdum, tutmadı, həm də otuz ikilər qoymadı.

Şah dedi:

– Uzaqdasan, yaxında?

Pinəçi dedi:

– Uzağı yaxın eləmişəm.

Şah yenə soruşdu ki, ikidəsən, üçdə ?

Pinəçi cavab verdi ki, ikini üç eləmişəm.Şah axırda dedi:

– Qaz göndərsəm yola bilərsənmi?

Pinəçi dedi:

– Elə yolaram.

Şahla vəzir pinəçidən ayrılıb gəldilər.Şah paltarlarını dəyişib taxta çıxandan sonra dedi:

– Vəzir, sənin üçün ayıbdır ki, pinəçinin yolda danışdığı sözlərin mənasını bilməyəsən. Odur ki, get öyrən. Amma nəbadə kişini incidəsən.

Vəzir xeyli qızıldan, puldan göturub atını minib qayıtdı pinəçinin yanına. Kişini tapıb dedi:

– Şahla danışdığın sözlərin mənasını mənə deyərsənmi?

Pinəçi dedi:

– Sözün hərəsinə bir qızıl versən deyərəm.

Vəzir razılaşdı.

Pinəçi dedi:

– Şah əlini başına qoymaqla soruşurdu ki, başın salamat olmaq üçün nə etmək lazımdır. Mən əlimi dilimə vurdum ki, dilini sakit qoyasan, başın salamat olar. Sonra o dedi:

– Doqquzu üçə vurdunmu, yəni yazı, yayı, payızı-doqquz ayı işləyib üç ay qışda dolanmaq üçün ruzi toplaya bilibsənmi?

Dedim:

– İşlədim, bir şey çıxmadı, həm də otuz iki dişimdən artmadı.

Sonra şah dedi:

– Uzaqdasan, yaxında: yəni uzağı görursən, yoxsa yaxını. Mən cavab verdim ki, yaxını görürəm. İkidəsən üçdə, yəni ayaqların sözünə baxırmı? Dedim ki, ikini üç eləmişəm, yəni iki ayağımla yeriməyə çətinlik çəkirəm, əlimə ağac da almışam.

Axırda şah dedi:

– Qaz göndərsəm yolarsanmı, dedim ki, yolaram. Qaz də sən idin, pullarını əlindən aldım.

Vəzir pinəçiyə çoxlu qızıl verdiyinə peşman oldu. Atı sürüb getmək istəyəndə fikirləşdi ki, qoy mən də ona sual verim, cavab verə bilməsə dəbbələyim pullarımı geri alım.

Vəzir dedi:

– A kişi, indi sən də de görüm bu saat padşah nə eləyir?

Pinəçi bir altdan yuxarı baxıb dedi:

– Sən bilirsən ki, padşah böyük adamdı, elə adamların haqqında danışanda gərək bir az hörmətli olaq. İndi mən oturmuşam quru yerdə, qabağımda da cırıq-cındır ayaqqabılar, burdan şahın haqqında danışmaq olar? Gəl sən atı ver minim, o zərli əbanı da sal çiynimə, qamçını da ver əlimə sonra deyim.

Vəzir razı oldu, atdan düşdü. O saat pinəçi sıçrayıb mindi ata, vəzirin zərli əbasını çiyninə salıb dedi:

– Vəzir, bil və agah ol, bu saat padşah sənin kimi atlıları eləyir piyada, mənim kimi piyadaları da eləyir atlı, di xudahafiz.

Pinəçi ata bir qamçı vurub gözdən itdi. Vəzir ha gözlədi, pinəçi gəlib çıxmadı. Axırda suyu süzülə-süzülə gəldi padşahın yanına.

Padşah dedi:

– Vəzir, görürsənmi dünyada necə adamlar var?! İndi de görüm, vəzirliyə o layiqdir, yoxsa sən?

Vəzir pinəçinin ondan ağıllı olduğunu boynunu aldı.

Şah pinəçini tapıb onu vəzir təyin elədi.

Pinəçi

Biri var idi, biri yox idi, bir padşah var idi, ömründə öz sarayından başqa heç yerə çıxmamışdı. Günlərin birində padşah kitabların birində oxuyur ki, bəs, qədimlərdə bəzi padşahlar, hərdən bir təğyiri-libas olub

öz ölkəsini şəhərbəşəhər, kəndbəkənd gəzərmiş, bazarda, dükanda adamlarla dərdləşərmiş,kasıb-kusub evinə gedib dərdlərin öyrənərmiş.

Padşah kitabı oxuyandan sonra vəzirini yanına çağırıb deyir:

– Vəzir, istəyirəm bir şəhərimi gəzəm, görüm nə var, nə yox?

Sən nə məsləhət görürsən?

Vəzir dedi:

– Padşah sağ olsun, yaxşı fikirdi, sən gərək bu işi çoxdan görəyidin, amma...

Padşah deyir:

– Vəzir, nə amma, səndə söz var, de görüm nə demək istəyirsən?

Vəzir padşahın ağlına bələd idi, odur ki, dedi:

– Ey padşah, deyərdim, amma qorxuram qəzəbin keçə.

Padşah dedi:

– Qorxma, ürəyindəkini de.

Vəzir gördü padşah əl çəkməyəcək, əlacı kəsildi, dedi:

– Ey şahım, mən demək istəyirəm ki, səyahət eləmək, camaatın dərdin-azarın öyrənmək yaxşı işdir, amma onların dərdinə əlac eləmək hər adamın hünəri deyil. Mən istəyirdim ki, sən camaatın arzusunu öyrənəndən sonra onlara bir tədbir tökəsən, hamı səndən razı qala, yoxsa quru boş gəzməgdən nə çıxar?

Padşah dedi:

– Vəzir, görürəm sən ədalətimə inanmırsan, onda baxarsan mən nə eləyərəm.

Vəzir dedi:

– Kaş sən deyən olaydı.

Bəli, padşah vəzirin sözündən inciyib bir dəst dərviş paltarı geyib düşdü yola, az getdi,çox getdi, gəlib şəhərin kənarında bir pinəçiyə rast oldu. Gördü, pinəçi başmaq yamaya-yamaya gah oxuyur, gah gülür, kefi kök, damağı çağdır. Padşah salam verir bir bəhənə ilə pinəçinin yanında oturdu bir az ordan-burdan söhbət eləyəndən sonra dedi:

– Pinəçi qardaş, soruşmaq ayıb olmasın, sən nə qazanırsan ki, belə kefi köksən?

Pinəçi dedi:

– Ay dərviş baba, sağlığına hər gün pinəçilikdən qazandığım pulu yağa, düyüyə, ətə verib plov qazanını dəmə qoydururam. Nə qədər ki, əllərim, ayaqlarım salamatdır, elə hər gün işləyib, qazanıb plov yeyəcəyəm.

Padşah xeyli söhbət elədi, axşam oldu, pinəçi onu evinə qonaq apardı, padşah gördü ki, doğrudan da, plov qazanı asılıb. Padşah bir az oturandan sonra qayıdıb gəldi saraya, fikirləşdi ki, sən bir pinəçi olasan, özü də belə yekə-yekə danışasan, gör, səṇin plov qazanını necə boş qoyuram!

Səhər tezdən padşah taxta çıxıb əmr verdi ki, mənim torpağımda bü gündən pinəçilik eləmək qadağan edilir, kim əmrimi pozsa, dar ağaçından asılacaq. Sübh tezdən padşahın adamları düşüb hər yerə car çəkdilər ki, bəs pinəçilik qadağan edilib.

Pinəçi bu xəbəri eşidən kimi bir çatıynan bir balta götürüb getdi meşəyə. Qurumuş ağaclardan odun şələsi düzəldib aldı dalına, gətirib bazarda satdı, yenə ət, düyü alıb gəldi evinə.

Axşam padşah dərviş paltarında bir şeyə bəhanə eləyib gəldi pinəçinin evinə, gördü yenə plov qazanı ocağın üstündə dəm alır.

Padşah dedi:

– Qardaş, deyirlər ki, pinəçilik qadağan edilib, bəs sən nə eləyəcəksən?

Pinəçi dedi:

– Dərviş baba, bir adam ki, zəhmət çəkməkdən qorxmadı, müftəxorluğa, tənbəlliyə öyrənmədi, o ac qalmaz. Gördüm pinəçiliyi qadağan eladilər, gedib odunçuluq elədim.

Padşah pinəçinin sirrini öyrənəndən sonra qayıdıb gəldi.

Səhər əmr verdi ki, bəs kim meşədən odun qırsa, cəza veriləcək. Pinəçi bu xəbəri eşidən kimi bir tor götürüb getdi dərya kənarına, tor atıb on-on beş balıq tutdu, aparıb satdı, axşam yenə evində plov bişirtdirdi. Padşah bu axşam da pinəçini yoxlamağa getdi, gördü evdə plov bişir.

Padşah pinəçini dilə tutub dedi:

– Qardaş, bəs sən bu gün pulu hardan aldın?

Pinəçi dedi:

– Gördüm odunçuluq qadağan olub, gedib balıqçılıq elədim.

Padşah ürəyində dedi: "Sən öləsən, indi elə eləyəçəyəm ki, heç bir iş görə bilməyəsən, görüm onda plovu haradan alacaqsan".

Padşah çıxıb gəldi sarayına. Səhərisi adam göndərib pinəçini öz hüzuruna çağırtdırdı. Pinəçi təəccüb qaldı ki, "görəsən, padşah məni neyləyir?"

Kişi fərraşların qabağına düşüb gəldi saraya. Padşahı görən kimi tanıdı, başa düşdü ki, dərviş libasında gələn padşah özü imiş.

Pinəçi salam-kəlamdən sonra dedi:

– Qibleyi-aləm sağ olsun, mənə görə nə qulluq?

Padşah dedi:

– Pinnəçi qardaş, sən çox qoçaq adama oxşayırsan, odur ki, səni sarayda cəlladlığa götürmək istəyirəm.

Pinəçi dedi:

– Padşah sağ olsun, pinəçi hara, cəllad hara? Məndən cəllad olmaz.

Kişi nə qədər yalvar-yapış elədisə padşah razı olmadı. Zorla gətirib kişiyə cəllad paltarı geyindirib, belinə də qiymətli bir qılınc bağladılar. Padşah xidmətçilərinə tapşırdı ki, kişini saraydan heç yerə buraxmasınlar.

Pinəçi gördü, burda qalsa, evində axşam plov bişməyəcək, ona görə aralıq qapıların birindən küçəyə çıxdı, yaxında bir dəmirçi dükanı var idi, özünü verdi ora. Qılıncını çıxardıb dedi:

– Dəmirçi qardaş, görürsənmi mənim bu qılıncım nə qədər qiymətlidir. Al bunu satım sənə, tiyəsin çıxart, özündə qalsın, sapını taxtadan bir tiyə qayır, ver özümə.

Dəmirçi dedi:

– Qardaş, sənin tiyənə neçə verəcəyəm?

Pinəçi dedi:

– Heç nə, səndən bircə xahişim var, onu yerinə yetirsən elə qılıncı pulsuz-parasız verəcəyəm.

Dəmirçi dedi:

– De görüm, xahişin nədir?

Pinəçi dedi:

– Qılıncın əvəzində bazardan bir girvənkə yağ, bir girvənkə düyü al, apar filan yerdə ver bizim evə.

Dəmirçi belə asan şərtə o saat razı oldu. Tez taxtadan bir qılınc tiyəsi qayırıb köhnə qılıncın sapına taxdı, pinəçinin tapşırdığı şeyləri də alıb apardı onun evinə.

Axşam oldu, padşah yenə özün verdi pinəçinin evinə, gördü plov qazanı yenə dəmə qoyulub.

Padşah qayıdıb gəldi saraya, onu fikir götürdü ki, görəsən bu nə əhvalatdır, mən pinəçini burada saxladım ki, görüm indi necə qazanıb plov bişirtdirəcək, amma bir şey çıxmadı. Qaldı intizarda ki, bu sirri necə öyrənsin.

Səhər padşah cəllada əmr verdi ki, hazırlaş bu gün adam başı vuracaqsan. Bütün saray əyanları, vəzir, vəkil, hamısı yığıldı meydana, padşahın xidmətçiləri bir cavan pəhlivanı gətirib əl-qolu bağlı yıxdılar pinəçinin qabağına. Padşah əmr elədi ki, cəllad, bu adam yatıb, atını buraxıb mənim qoruğuma, at qoruğu korlayıb, odur ki, bunun boynunu vurmalısan! Pinəçi baxıb gördü, bu bir gözəl oğlandır ki, adam baxanda heyran qalır. Özü də güclü bir pəhlivana oxşayır.

Odur ki, dedi:

– Ey padşah, özün deyirsən ki, oğlan yatıb yuxuya qalıb, atı girib sənin qoruğuna. Bu oğlanın təqsiri yoxdur, sən gəl ədalətinə güc eləmə.

Padşah qışqırıb dedi:

– Artıq-əskik danışma, sənə nə deyirəm onu da elə.

Pinəçi əlini qılıncın qəbzəsinə aparıb dedi:

– Ey mənim qılıncım, əgər bu oğlanın günahı varsa, onun boynunu elə vurarsan başı yeddi arşın geriyə düşər, yox təqsiri yoxdursa, onda görüm mənim qılıncım əlimdə taxtaya dönsün.

Pinəçi qılıncı sivirib göyə qaldırdı ki, oğlanın boynunu vursun, gördülər qılınc dönüb taxta olub.

Pinəçi tez fürsəti fövtə verməyib dedi:

– Ey padşah,mən sənə deyəndə inanmırdın,gördünmü oğlanın heç bir günahı yoxdur, qılınc dönüb taxta oldu.

Hamı bu işə məəttəl qaldı. Padşah əlacsız qalıb oğlanı buraxdı.

Demə bu oğlan özgə bir padşahın oğlu imiş. Oğlan pinəçinin kələyini başa düşmüşdü, ona görə ondan çox razılıq eləyib getdi.

Oğlan evlərinə çatan kimi başına gələn əhvalatları atasına söylədi. Oğlanın atası qəzəblənib dedi:

– O hansı padşahdır ki, mənim oğlumun boynunu vurdurmaq istəyib, məgər o bilmir ki, mənim yetmiş yeddi ölkəyə hökmüm çatır, bütün padşahlar mənə bac-xərac verir, indi mən onun ölkəsini viran qoyum, o da baxsın.

Padşah qoşun böyüyün çağırıb əmr verdi ki, bəs filan padşahın torpağın alt-üst eləyərsən. Qoşun böyüyü, pəhlivanlar, altdan geyib üstdən qıfıllandılar, üstdən geyinib altdan qıfıllandılar, çox adam götürüb, dərələrdən yel kimi, təpələrdən sel kimi, ayaq üzəngidə gəlib həmən padşahın torpağına çatdılar.

Bu tərəfdən də padşaha xəbər getdi ki, evi yıxılmış, nə durmusan qoşun şəhəri üzük qaşı kimi mühasirəyə alıb. Padşah o saat əmr verdi bu tərəfdən də bunun qoşunu çıxdı düşmənin qabağına.

Dava təbili çalındı, pəhlivanlar bir-bir meydana çıxıb nərə çəkib, güştü, qalxan tutub, qılınc vurdular. Bunlardan bir şey çıxmadı, axırda qoşun bir-birini elə qırdı ki, qan su yerinə axdı. Yeddi gün yeddi gecə elə dava oldu ki, heç ruzigarın gözü belə dava görməmişdi. Axırda oğlanın qoşunu üstün gəlib qırdığın qırdı, qalanı da, qaçıb dağıldı. Şahzadə oğlan bir dəstə pəhlivanla saraya girib padşahın otağına keçdi, qılıncı sivirib, padşahı öldürmək istəyəndə şah dedi:

– Ey şahzadə, sən kimsən, məni niyə öldürürsən?

Şahzadə dedi:

– Sən ədalətsiz, qaniçən adamsan, nə əkibsənsə onu da biçirsən, – deyib əmr elədi ki, hələ aparıb onu zindana salsınlar.

Sonra üzün pinəçiyə tutub dedi:

– Kişi, sən də cəlladlıq eləyəndə yəqin ki, çox başları bədənindən ayırıbsan, indi sən də əkdiyini biçərsən.

Pinəçi dedi:

– Ey şahzadə, mən ölümdən qorxmuram, amma düzünü deyim ki, bu vaxtacan heç kimin başını kəsməmişəm.

Şahzadə dedi:

– Onda mən qılıncımı çəkib sənin boynundan vuracam. Əgər doğrudan da, heç kimin başını kəsməyibsənsə, bu qılınc da sənin başını kəsməyəcək.

Şahzadənin iki qılıncı var idi. Birinin tiyəsini əvvəlcədən taxtadan hazırlatmışdı. Əl atıb həmən qılıncı sıvırdı. Göyə qaldırıb vurmaq istəyəndə dedi:

– Kişi, bu nə işdi, qılıncım dönüb taxta oldu, deyəsən sənin günahın yoxdur.

Pinəçi çox ağıllı adam idi, bu əhvalatı görəndə oğlana diqqətlə baxıb barmağını dişlədi, başa düşdü ki, bu həmən ölümdən qurtardığı oğlandı.

Oğlan padşahı zindanda saxlatdı, onun tacını köhnə vəzirin başına qoydu, pinəçini də ona vəzir təyin elədi. Təzə padşahla vəzir camaatı razı salıb ədalətlə iş gördülər.

Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri də nağıla qulaq asanların.

Faydalı məsləhət

Bir kənddə Əhməd adında bir cavan oğlan var idi. Əhmədin atası koldan-kosdan qırıb satmaqla bir təhər ailəsini dolandırardı.

Aylar dolanır, illər keçir, Əhməd on səkkiz yaşına çatır. Ata-anası onu qonşularında olan oxumuş bir qızla evləndirir.

Günlərin birində Əhmədlə arvadının sözü çəp gəlir. Qız ərinə deyir:

– Mən səndən üstünəm, çünki oxuyub yazmağı bacarıram. Bu söz Əhmədə toxunur.

Odur ki, hazırlıq görüb uzaq bir şəhərə oxumağa gedir.

Əhməd getdiyi şəhərdə həm işləyir, həm də oxuyur. Qazandığı pulun yarısını evlərinə göndərir. Bir neçə il oxuduqdan sonra qayıdıb evlərinə gəlir. Əhməd yolda bir kişiyə rast olur, onunla söhbət eləyə-eləyə bir xeyli gəlib, böyük bir kəndə çatır.

Kişi Əhmədə deyir:

– Oğul, indi sən oxuyub savadlı adam olubsan. De görüm, qeyzlə bir iş görmək istəsən, əvvəlcə nə etmək lazımdır?

Əhməd kişinin sualına cavab vermək üçun nə qədər söz deyirsə, heç biri düz olmur. Axırda yalvarır ki, nə istəyirsən verim, o sözü de.

Kişi deyir:

– Bir il mənim yanimda qal, əkinimə, bağ-bağçama kömək elə, gedəndə zəhmət haqqı min manat pul verim. Sonra da baxarıq mümkün olsa bəlkə o sözü də dedim.

Əhməd fikirləşir ki, onsuz da evə əliboş gedirəm. Elə yaxşısı budur qalım bir il işləyim, min manatı da alıb evə apararam.

Bəli, Əhməd burada işləməkdə olsun,kişinin gəliri həmin il iki-üç artır. İlin axırı gələndə Əhməd deyir:

– Təklifin nədir?

Kişi dedi:

– Oğul, sənin işlədiyin müddətdə mənim gəlirim günü-gündən artdı. Odur ki, mən istəyirəm bir il də yanımda işləyəsən, bu dəfə gedəndə iki min manat verim.

Əhməd götür-qoy eləyir ki, clə az pulla gedincə, qalım əlavə iki min manatı da alım.

Odur ki, razı olub qalır. Aradan xeyli keçir, vaxt tamam olur.Əhməd haqq-hesabını çəkib getməli olur.

Kişi deyir:

– Oğul, mən sənə üç min manat verəcəyəm. İstəsən, sənə iki qiymətli söz öyrədərəm. Həmən sözlərdən biri sən oxumaqdan qayıdıb gələndə, verdiyim sualın cavabı, biri də ayrı bir məsləhətli sözdür.

Əhməd deyir:

– Mən istəyirəm o sözləri deyəsən.

Kişi deyir:

– Bala, birinci sözün qiyməti min manatdı, istəyirsən deyim.

Əhməd razı olur.

Kişi deyir:

– Qeyzlə bir iş görmək istəsən əvvəlcə bir az səbr elə, sonra gör.

Əhməd deyir:

– Elə bu?

Kişi deyir:

– Bala, əgər, bu sənə min manatdan artıq xeyir verməsə, qayıt gəl pulunu geri qaytarım.

Kişi deyir:

– Oğul, ikinci sözün qiyməti iki min manatdı. İstəsən, onu da deyərəm. Yenə həmin söz iki min manatdan çox xeyir verməsə gəl, pulunu apar.

Əhməd oxumuşdu deyə, istəyirdi ki, hər şeyi bilsin. Ona görə, razı oldu.

Kişi dedi:

– Bala, tanımadığın adamla yol getsən, nəbadə karvan yolundan kənara çıxasan!

Əhməd bu sözə lap pərt oldu, öz-özunə dedi: – Burada nə var ki, mən iki min manatımı verdim.

Kişi gətirib Əhmədə iki yağlı çörək verdi. Birini yaylıqla bağlayıb cibinə qoydu, o birini açıq verdi. Özünə də tapşırır ki, yolda acıb-eləsən əlindəki çörəyi yeyərsən, yaylığa bağladığımı evdə kəsib arvadınla yarı bölərsən. Əhməd kişidən razılıq eləyib başladı evinə qayıtmağa. Yolda iki nəbələd adama rast gəldı. Bunlardan biri dərviş, o biri isə piyada zəvvar idi. Əhməd bu adamlarla xeyli söhbət eləyə-eləyə getdi. Gəlib bir yerdə iki yolun ayrıcına çatdılır. Yolun biri karvan yolu idi, adamlar hey gedib gəlirdilər. O birisi meşənin içinə gedən sərin kölgəli yol idi.

Dərviş dedi:

– Gəlsəniz bu sərin yol ilə gedək.

Kişinin sözü Əhmədin yadına düşdü, odur ki,onlardan ayrılıb karvan yolu ilə getdi.

Səhər açıldı. Əhməd gördü karvan yolunun kənarında bir daşın üstündə dünən gördüyü zəvvar ayaqyalın, başıaçıq oturub ağlayır. Əhməd kişidən ağlamağının səbəbini soruşdu.

Zəvvar dedi:

– Dünənki dərviş meşədə məni soydu, pulumu, paltarımı əlimdən aldı, özümü də bərk döydü.

Əhməd o saat barmağını dişləyib öz-özünə dedi:

– Əgər iki min manatı verib o sözü öyrənməsəydim, indi mən də zəvvarın gününə düşərdim.

Əhməd üç gün-üç gecə yol gedib çatdı evlərinə. Pəncərədən boylanıb gördü ki, arvadının dizinin üstə bir cavan oğlan uzanıb. Əhməd xəncərini sivirib istədi arvadını öldürsün. Birdən kişinin sözü yadına düşdü, bir az səbr eyləyib, içəri girdi.

Arvadına dedi:

– De görüm, bu oğlan kimdir?

Arvadı dedi:

– Oğlundur.

Əhməd gedib ata-anası ilə görüşüb onlardan da xəbər alır ki, oğlan kimdir?

Ata-anası deyir:

– Əhməd, deyəsən, oğlunu tanıya bilmirsən?

Əhməd diqqətlə baxıb gördü, oğlu tamam özünə oxşayır. Tez kişinin sözü yadına düşdü, öz-özünə dedi:

– Əgər, kişi mənə "səbr clə" sözünü öyrətməsəydi, əlimdən xəta çıxardı.

Əhməd kişinin verdiyi çörəyi cibindən çıxarıb kəsdı ki, yesinlər, çörəyin içindən çoxlu pul töküldü. Sayıb gördü üç min manatdır. Başa düşdü ki, kişi onun zəhmət haqqını da veribmiş. Pulun yanında yazılı bir kağız da tapdı. Kağızı oxudu. Gördü kişi yazıb ki, "Oğul, Əhməd, nəsihətlərimi yadından çıxartma". Əhməd kişidən çox razı qalıb, gətirdiyi pullarla ailəsini, ata-anasını dolandırıb xoş gün keçirdi.

Ağıllı uşaq

Biri var idi. biri yox idi, keçmiş zamanlarda bir xan var idi. Xan hər dəfə bir bəhanə eləyib, yan-yörədəki kəndləri, şəhərləri işğal eləyirdi, əhalinin var-yoxunu əlindən alırdı. Xanın şəhərinə bitişik bir kənd var idi. Oranı tutmaq çox çətin idi, çünki kənddə dünyagörmüş ağıllı qocalar xanın hiylələrinə hər dəfə cavab verir, onu məğlub edirdilər.

Günlərin birində xan öz adamlarını başına yığıb həmin kəndi tutmaq üçün tədbir istədi.Xanın baş məsləhətçisi dedi:

– Nə qədər ki, o kənddə ağıllı, dünyagörmüş adamlar var, oranı tutmaq çətin olacaq. Yaxşısı odur ki, əvvəlcə onları bir bəhənə ilə aradan götürək, sonrası asandır.

Xan bu təklifi bəyəndi, elə həmən günü öz adamlarını yanına çağırtdırıb tapşırıq verdi ki, nə təhər olur-olsun gedib o kəndin başbilən adamlarını, qocalarını aldadıb bura gətirərsiniz.

Xanın adamları hamısı eyni vaxtda kəndə dolub hərəsi bir qocanın evinə getdilər. Onlar hiyləyə əl atıb dedilər:

– Bizim xanımız bir məsələdə bərk çətinliyə düşüb. O, ümidini sizə bağlayıb kömək istəyir. Deyir ki, bircə günlüyə mənə məsləhət vermək üçün yanıma gəlsinlər.

Qocalar yarı xoş, yarı narazı əlacsız qalıb xanın adamları ilə getdilər.

Xan qocaların gətirildiyini görüb, əmr elədi hamısını zindana saldılar. Bu tərəfdən xan həmin kəndə getmək üçün atlı çağırdı, üç alma verib dedi:

– Bu almaların biri bir illik, o biri iki illik üçüncü isə üç illikdir, almaları apararsan həmən kəndə, camaatı meydana yığıb deyərsən ki, xan əmr eləyib ki, bunların neçə illik olduğunu tapsınlar. Onlara üç gün vaxt veri-

rəm, tapa bilməsələr onda kəndi işğal edəcəyəm. Əgər bu sirri tapan olsa, həmin adam yanıma, mənim xoşladığım heyvanla gəlməlidir, həm də o elə adam olmalıdır ki, boyca məndən hündür olsun, mən ona aşağıdan yuxarı baxım.

Çapar atlanıb xanın tapşırığını xəbər vermək üçün həmən kəndə gəldi. Camaatı bazar meydanına yığıb əhvalatı söylədi.

Çapar almaları verib geri qayıtdı. Kəndin camaatı nə qədər fikirləşdi, almaların sirrini tapa bilmədilər.

Bu kənddə qoca bir qarının Əhməd adlı balaca nəvəsi var idi. O, çox ağıllı və qoçaq uşaq idi. Həmin gecə Əhməd səhərə kimi yata bilmədi, çox fikirləşdi, suallara cavab tapa bilmədi axırda yadına düşdü ki, bu işdə böyüklərdən məsləhət almaq lazımdır.

Nənəsindən xəbər aldı ki, kəndimizdə heç qoca, ağıllı kişilərdən qalan varmı? Qarı dedi:

– Bala, kəndin kənarında bircə nəfər yaşı yüzdən ötmüş bir qoca qalıb, şikəst olduğu üçün xanın adamları onu aparmayıblar.

Əhməd səhər tezdən durub həmin qocanın yanına getdi. Gördü bir nurani kişidir. Saçı-saqqalı ağappaq qar kimi, gözləri tutulub, qıçları şikəst olub, yerindən tərpənə bilmir.

Əhməd ədəb-ərkanla qocaya salam verdi, onun yanına məsləhətə gəldiyini söylədi .

Qoca dedi:

– Oğlum, məndən nə məsləhət istəyirsən ?

Əhməd xanın şərtlərini qocaya söyləyib ondan kömək istədi.

Qoca əlini alnına qoyub, bir qədər fikirləşdi. Sonra sualların cavabını necə tapmağı Əhmədə öyrətdi. Axırda dedi:

– Oğul, bircə sirri mən bilmirəm, gərək onu özün tapasan. O da xanın hansı heyvanı xoşlamasıdır. Bunun üçün bircə çarə var, gərək bir yolla xanın şəhərinə keçəsən, çox ehtiyatla, tədbirlə bu sirri öyrənəsən. Əhməd dedi:

– Elə bu saat gedirəm həmən sirri öyrənməyə.

Əhməd qocadan çox razı qaldı.Evdən çıxıb getmək istəyəndə həyətdə bir qoca arvadın ocaq qalamaq üçün çör-çöp yığdığını gördü. Bu, qocanın bacısı idi. Qocanın bacısından başqa heç kimsəsi yox idi.Əhməd dedi:

– Ay qarı, bu çör-çöpü neynəyirsən ?

Qarı dedi:

– Oğul, odunumuz qurtarıb meşəyə gedənimiz yoxdur, odur ki, çör-çöp yığıram.

Əhməd qarıdan balta, bir də çatı istədi. Qarı gətirib verdi. Əhməd gedib meşədən bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə töküb getdi.

Əhməd gedə-gedə ürəyində tökürdü görsün nə yolla xanın sirrini öyrənsin. Elə ki, xanın şəhərinin kənarına çatdı, gördü hər yüz addımdan bir əli qılınclı gözətçilər dayanıb, onların yanından keçmək mümkün deyil.

Amma kəndin lap kənarında xanın qoyun sürüsü göy çəməlikdə otlayır, qoyunlar gah bu tərəfə, gah o tərəfə keçirlər. Əhməd bunu görən kimi özünü verdi kəndlərindəki çobanın yanına, əhvalatı ona söyləyib xahiş elədi ki, qoyunun birini kəssin dərisini bütöv çıxarıb versin ona.

Çoban beş dəqiqənin içində bir yekə qoçu kəsib dərisini bütöv çıxartdı. Əhməd dərini bir dəsmala büküb düz gəldi xanın sürüsü otlayan yerə, o bir, ağacın altında qoyunun dərisinin içinə girib başladı imələyə-imələyə sürüyə tərəf getməyə, cəld özünü verdi qoyunların arasına, gedib bir xeyli aralı dəridən çıxdı, dərini qatlayıb bükdü yenə dəsmala. Əhməd baxıb gördü uzaqda sürünün çobanı göy otun üstündə uzanıb, çoban bayatası çalır, yanında da bir keçi var. Keçinin buynuzları, üstü-başı par-par parıldayır, bir qədər yaxına gedib gördü keçinin buynuzlarını qızıla tutublar, boynuna qızıldan zınqırov taxıblar, üstünə tirmədən şal salıblar. Daha nə başınızı ağrıdım, keçini elə bəzəyiblər ki, adam baxanda məəttəl qalır. Əhməd başladı keçiyə baxmağa, çoban onu görüb dedi:

– Ay bala, nə çox baxırsan?

Əhməd dedi:

– Ay çoban qardaş, mən belə keçi görməmişəm, ona görə baxıram.

Çoban dedi:

– Sən bu şəhərin adamı deyilsən? Bu keçini görməyən adam yoxdur.

Əhməd gördü çoban onu tanısa işlər pis keçər, odur ki, dedi:

– Mən heç yerdən gəlməmişəm, elə bu şəhərdə oluram, amma nənəm məni bu vaxta kimi evdən heç yerə buraxmayıb, odur ki, həmin keçini də görməmişəm.

Çoban dedi:

– Bala, onda bil və agah ol ki, bu bizim xanın keçisidir. O, uşaqlıqdan keçini çox xoşlayarmış. Həmin keçini şahın əmri ilə belə bəzəyiblər.

Əhməd bu xəbəri eşidəndə sevindiyindən bilmədi neyləsin, tez qayıtdı geri, bir az çobandan aralanandan sonra qoyun dərisini dəsmaldan açıb girdi içinə, özünü vurdu qoyunların arasına, sürünə-sürünə keçib gəldi öz kəndlərinə, gördü adamlar qalıblar əlləri qoyunlarında, bilmirlər nə eləsinlər. Həmin gün xanın suallarına cavab verməsələr, kəndləri əldən çıxacaq.

Əhməd irəli yeriyib dedi:

– Camaat, mənə bir hündür dəvə, bir də bir keçi verin, gedəcəyəm xanın şəhərinə, onun suallarına cavab verib kəndimizi xatadan qurtaracağam. Əhmədin sözünə hamı gülüşdü, dedilər:

– Bala, yəqin sənin ölümün yetib. Bəs qorxmursan ki,xanın qəzəbinə gələrsən?

Əhməd dedi:

– Mən xandan qorxmuram.

Adamlar dedilər:

– Bala, xan səni görən kimi deyəcək ki, yəqin məni elə salıblar, bu kənddə bir adam tapmadılar ki,mənim yanıma uşaq-muşağı göndərdilər.

Əhməd dedi:

– İstədiyim heyvanları verin, dalısıynan işiniz yoxdur. Camaat gördü ki, başqa əlac yoxdur, bir hündür boylu dəvə tapıb Əhmədi mindirdilər üstünə, bir keçinin də boğazına kəndir bağlayıb ucunu verdilər Əhmədə. Əhməd almaları da götürüb başladı xanın şəhərinə tərəf yol getməyə. Xanın adamları Əhmədi apardılar saraya. Xan Əhmədi görən kimi qəzəbləndi, istədi onu zindana saldırsın, amma keçini görüb fikirləşdi ki, suallarımın birini tapıblar, görək o birilərinə necə cavab verəcəklər. Odur ki, dedi:

– Bala, mən demişdim ki, yanıma göndərdiyiniz adam məndən hündür olmalıdır. Mən gərək onunla danışanda aşağıdan yuxarı baxım.Bəs buna niyə əməl eləmədiniz?

Əhməd dedi:

– Xan sağ olsun, məgər görmürsünüz ki,mən dəvənin üstündə sizdən çox hündürdəyəm, özü də aşağıdan yuxarıya mənə baxıb danışırsınız, elə siz deyəndir də.

Xan dedi:

– Axı sən dəvədən düşsən, mənim dizimdən də aşağıda dayanarsan.

Əhməd dedi:

– Mən niyə dəvədən düşürəm ki, səndən də aşağıda duram.

Xan gördü uşaq çox hazırcavabdır. Odur ki, dedi:

– Bala, di almaların sirrini de görək.

Əhməd dedi:

– Xan sağ olsun, sizin şərtiniz olan kimi mənim də şərtim var.

Əmr eləyin camaatı yığsınlar şəhər meydanına, orada almaların sirrini açıb deyim.

Xan nə qədər elədi ki, burada de, oğlan razı olmadı, xan dedi:

– Sən ki, belə tərslik eləyirsən almaların sirrini düz deyə bilməsən, boynunu vurduracağam.

Əhməd dedi:

– Mən razıyam.

Bəli, xan əmr verdi şəhər meydanında taxt quruldu, camaat hamısı ora yığışdı Xan da bir dəstə adamla meydana getdilər.

Əhməd irəli yeriyib dedi:

– Xan sağ olsun, mən sualların cavabını düz tapsam bizim kəndimizə toxunmamalısan, bir də zindana saldığın qocalarımızı azad eləməlisən, tapa bilməsəm nə istəyirsən elə.

Xan söz verdi ki, şərtlərə razıdır. Əhməd bir qab su istədi, o saat gətirdilər. O almaların üçünü də suya saldı. Almaların biri çökdü suyun dibinə, ikincisi qaldı suyun ortasında, üçüncüsü isə lap suyun üzündə üzdü.

Əhməd dedi:

– Birinci bu ilki təzə alma olduğu üçün canı şirəlidir ağırdır,odur ki, çökdü qabın dibinə.İkinci alma keçən ilkidir bir qədər suyunu çəkib, quruyub deyə suyun ortasında qalıb, üçüncü alma isə üç il bundan əvvəlkidir. O, tamam suyunu çəkib, yüngülləşib ona görə də suyun üzündə üzür.

Xanın adamları gördülər Əhməd düz dedi. Odur ki, qaldılar məəttəl, xan fikrini dəyişmək istədi, amma gördü ki, onda camaatın arasında hörmətdən düşəcək, əlacı kəsildi, qocaları zindandan azad elədi. Kəndə toxunmayacağına söz verdi.

Əhməd qocaları da götürüb öz kəndlərinə qayıtdı. Kənd camaatı bu şad xəbəri eşidib Əhmədin qabağına çıxdıl. Ona "afərin" deyib, alqış elədilər.

Balaca Əhməd öz ağılı, bacarığı və tədbiri ilə kəndi xilas elədi.

Göydən üç alma düşdü. Biri nağıl söyləyənin, biri məsləhət verən qocanın, biri də Əhmədin.

Üç sənətkar

Bir şəhərdə üç sənətkar yaşayırdı.Onlar çox dost idilər.Bunların biri bənna,biri dülgər, biri isə zərgər idi.

Günlərin birində bu üç dostun mübahisəsi düşdü. Hərə öz sənəti ilə öyünməyə başladı.

– Mən elə bir ev tikərəm ki, kərpicinin hərəsi bir rəngə çalar. Gündə üç dəfə – səhər, günorta, axşam rəngdən-rəngə düşər. Külək hansı tərəfə əssə, ev o tərəfə fırlanar.

Dülgər dedi:

– Taxtadan elə bir at qayıraram ki, üstündə oturub hara desən adamı aparar.

Zərgər dedi:

– Mən də qızıldan, gümüşdən elə bir xoruz düzəldərəm ki, qanadlarının hər biri tovuz quşu kimi yüz rəngə çalar. Özü də evə, eşiyə, şəhərə yad adam gələn kimi banlayıb xəbər verər.

Bu söhbətdən sonra da hərə öz sənətini tərifləməyə başladı, o qədər cəhl çəkdilər, az qaldı dalaşalar. Demə elə bu vaxt ölkənin padşahı öz vəziri ilə dərviş paltarı geyib şəhəri gəzirlərmiş. Yolları həmən üç yoldaşın qapısından düşdü, bunların mübahisələrini eşidib, bir az ayaq saxladılar. padşah ilə vəzir məsləhətləşdilər ki, biz nə eliyək ki, bu evə gedək.

Bu məqsədlə vəzir başladı qapının ağzında oxumağa, dostlar dərviş səsi eşidib dedilər:

– Nə yaxşı oldu, dərvişləri çağırarıq, gəlib şərtimizi kəsərlər.

Gedib dərvişləri evə gətirdilər, onları yuxarı başda əyləşdirib qabaqlarına çaydan, çörəkdən qoydular. Bir qədər söhbətdən sonra aralarında olan mübahisəni açıb onlara söylədilər. Özlərindən də xahiş etdilər ki, desinlər görək hansımızın düzəltdiyimiz şey daha yaxşıdır?

Dərviş paltari geymiş padşah dedi:

– Üçünüz də düzəltdiyiniz qəşəngdir. Yaxşı olar ki, bu şeyləri sabah aparıb şəhərimizin padşahına göstərəsiniz, düzünü sizə o deyə bilər.

Bu sözdən dostların üçü də razı qaldılar. Bir qədər söhbət elədikdən sonra hər kəs dağılıb öz evinə getdi. Səhər açıldı. Padşah qırmızı geyinib taxta çıxdı. Əmr elədi bənnanı, dülgəri, zərgəri onun hüzuruna gətirdilər.

Şah dedi:

– Hərənizdən öz sənətinizə görə elə şey istəyirəm ki, dünyada misli-bərabəri olmasın.

Dostlar o saat mətləbi başa düşdülər ki, gecə dərviş paltarında gələn padşahla vəzir imiş. Bir birinə baxıb özlərini elə göstərdilər ki, heç nədən xəbərləri yoxdur.

Bənna dedi:

– Mən elə bir ev tikərəm ki, gündə min bir rəng verər, vaxta görə rənglər dəyişər. Səhər bir rəngdə, axşam da başqa rəngdə görünər. Özü də külək əsəndə ev hər tərəfə hərlənə bilər.

Dülgər dedi:

– Mən elə bir at düzəldərəm ki, üstünə minib qantarğasını hansı tərəfə tərpətsən, quş kimi o tərəfə uçar. Həm suda, həm quruda, həm də göydə gedə bilər.

Zərgər dedi:

– Mən elə bir xoruz düzəldərəm ki, evə yad adam gələn kimi xəbər verər, ölkəyə düşmən qoşunu girsə, uzaqdan görüb banlayar.

Şahın bu işə çox xoşu gəldi dedi:

– O şeyləri hazırlamaq üçün sizə nə lazımdır?

Dedilər:

– Bir xurcun qızılnan gümüş lazımdır.

Padşah əmr eləyib dedi:

– Bunları aparın xəzinəyə, nə qədər istəyirlər qızıl-gümüş götürsünlər.

Xəzinədar ustaların üçünü də apardı xəzinəyə, hərəsi bir xurcun qızıl doldurdular. Sonra evlərinə qayıdıb başladılar verdikləri vədi yerinə yetirməyə.

Nağıl dili yüyürək olar, qırx günə ev, at, xoruz hazır oldu. Padşaha muştuluğçu getdi ki, ustalar verdikləri vədi yerinə yetiriblər. Padşah qohum-əqrəbasını götürüb təzə evə getdi, gördü bu elə evdir ki, ömründə belə şey görməyib, hər dəqiqə bir rəng verir. Xoruz da bunları görən kimi qapıya çıxıb banlayır. At evin qabağında hazır dayanıb.

Padşah ustalara mərhəba söyləyib dülgərə dedi:

– Atı min baxaq görək necə gedir? Dülgər atın belinə minib qantarğanı tərpətdi, o saat at kişnəyib havaya qalxdı. Dülgər bir saatın içində ulduzların, ayın yanını gəzib geri qayıtdı.

Padşah dedi:

– Məni istəyən ustalara bəxşeyiş versin.

Onlara o qədər xələt verdilər ki, yığıb yığışdıra bilmədilər.

Padşah həmin gündən təzə evə köçdü. Onun evinin yan-yörəsinə getmək olmurdu. Xoruz banlayib xəbər verirdi. Aradan xeyli müddət keçdi, bir gün başqa bir ölkənin padşahı bu şahın torpağına qəfildən hücüm

elədi, güclü qoşunla şəhərə girdi. Gecə vaxtı idi. Hamı yatmışdı. Xoruz başladı dalbadal banlamağa. Padşah yuxudan oyandı, xoruz acığı tutdu ki, niyə məni qoymursan yatmağa. Onu yerə çırpıb əzdi. Elə bu zaman vəzir özünü şaha yetirib dedi:

– Qibleyi-aləm nə durubsan, düşmən qoşunu hər tərəfdən hücüm eləyib şəhərə dolub.

Padşah başa düşdü ki, xoruz bu əhvalatı xəbər vermək üçün banlayırmış. Xoruzu əzdiyinə çox peşman oldu, əmr elədi, qoşun atlandı, çıxdılar düşmən qabağına.

Bir pəhlivan da taxta atın içinə çoxlu daş doldurub qalxdı göyə. Atlı qoşun yerdə düşmənə qılınc çalırdı, taxta at da göydən başlarına daş yağdırırdı. Düz yeddi gün, yeddi gecə elə bir döyüş oldu ki. ruzigarın gözü belə döyüş görməmişdi. Axırda düşmən qoşununu şil-küt eləyib bir təhər şəhərdən çıxartdılar. Padşah xoruzu əzdiyinə o qədər peşman oldu ki, ömründə belə peşmançılıq görməmişdi. Atalar yaxşı deyib son peşmançılıq fayda verməz. Xoruzu təzədən düzəltmək olmazdı. Çünki onu düzəldən usta şahın bu hərəkətindən acıq eləyib onun ölkəsindən getmişdi.

Loğmanla şəyirdi

Günlərin bir günü Loğman ilə şəyirdi səyahət eləyə-eləyə bir şəhərə gəldilər. Onlar mənzil tutub rahatlanandan sonra, Loğman şəyirdini bazara göndərdi ki, çörək, yağ, şor alıb gətirsin. Şəyirdi bazara gedib yağın qiymətini xəbər aldı.

Ona dedilər:

– Batmanı yüz dinardı.

Soruşdu:

– Çörək neçəyədi?

Dedilər:

– Onun da batmanı yüz dinar.

Soruşdu:

– Bəs şoru neçəyə verirsiniz?

Dedilər:

– Batmanı yüz dinara.

Şəyird bazarda nəyin qiymətini soruşdu, "yüz dinardır" – dedilər. O sevinə-sevinə ustanın yanına gəlib dedi:

– Nə yaxşı şəhərə gəlmişik. Yüz dinardan baha qiymət yoxdu.

Loğman diqqətlə şəyirdə qulaq asıb dedi:

– Elə isə, burda qalmaq olmaz, tez çıxıb getməliyik.

Şəyirdi dedi:

– Nə üçün?

Loğman dedi:

– Bir yerdə ki, yağla şora fərq qoyulmadı, orda yaşamaq məsləhət deyil.

Şəyird ustasına e'tiraz elədi. Loğman öz sözünün üstündə dayandı, ancaq hələlik bu şəhərdə qalmağa razılıq verdi. Bir neçə gündən sonra, car çəkildiyini eşitdilər. Məlum oldu ki, bu gün bir nəfəri padşahın əmri ilə asacaqlar. Loğman şəyirdi ilə dar ağacı qurulmuş meydana gəldi. Adamlar toplaşandan sonra, padşah vəzirləri ilə gedib bir tərəfdə oturdu, üzünü müqəssirə tutub dedi:

– Bu saat təqsirlərini bir-bir de, kəndiri öz əlinlə boğazına keçirt ki, səni assınlar.

Müqəssir dedi:

– Padşah sağ olsun, mən bağbanam. Bir gün bağda işlədiyim zaman oğruya rast gəldim. Qaçıb onu tutmaq istəyəndə, dırmaşıb divara çıxdı, küçəyə atılanda yıxılıb qıçı sındı. Məni dustaq edib dedilər: "Günah səndədi ki, bağın hasarını uca eləmisən. Divar alçaq olsaydı, oğru hoppanan-da yıxılıb qıçı sınmazdı, buna görə səni cəzalandırmaq lazımdı".

Padşah:

– Doğrudur, lap doğrudu, – deyə cəzanın düzgün olduğunu təsdiq elədi.

Bağban dedi:

– Padşah sağ olsun, divarı mən hörməmişəm.

Padşah dedi:

– Bəs kim hörüb?

Kişi dedi:

– Bənna.

Padşah dedi:

– Elə isə bağbanı azad eləyib, bənnanı gətirin.

Bağbanı buraxdılar, bənnanı tapıb dar ağacının altına gətirdilər. Cəllad kəndiri hazırlayanda bənna dedi:

– Padşah sağ olsun, günah məndə də deyil.

Padşah dedi:

– Bəs kimdədi?

Banna dedi:

– Şəyirdimdə. Əgər o, kərpici çox verməsəydi, mən divarı hündürə qaldıra bilməzdim.

Padşah əmr verdi, şəyirdi tapıb hüzura gətirdilər.

Şəyird yalvardı:

– Kərpic çox verməkdə mənim təqsirim yoxdu, – dedi.

Padşah soruşdu:

– Bəs kim təqsirkardı?

Şəyird dedi:

– Padşah sağ olsun, mən ustama kərpic verəndə yoldan bir arvad keçirdi. Onun qolunda çox qəribə bir qolbaq varıdı. Gözüm qolbağa sataşanda, heyran qalıb başımı itirdim. Bir də ayılıb gördüm ki, usta divarı hörüb ucaldıbdı.

Padşah əmr elədi:

– Bu saat o arvad tapılıb dar ağacının dibinə gətirilsin.

Məmurlar axtarıb arvadı tapdılar, meydana gətirdilər. Padşah ondan soruşdu:

– Bu şəyirdin ağlını başından alan sənin qolbağın olubmu?

Arvad dedi:

– Bəli.

Padşah dedi:

– Elə isə kəndir sənin boynuna salınacaq. Cəllad, çək bu arvadı dara!

Arvad dedi:

– Padşah sağ olsun, bu işdə mən müqəssir deyiləm.

Padşah dedi:

– Bəs kimdi?

Arvad dedi:

– Müqəssir zərgərdi ki, elə qəşəng qolbaq qayırıb.

Padşah bir qədər fikirləşib, onun sözlərini təsdiq elədi, dedi:

– Doğru deyirsən, yerdə də olsa, göydə də bu saat zərgəri dar ağacının dibində hazır eləyin!

Məmurlar arvadı buraxıb zərgərin dalınca getdilər, bir azdan sonra onu çəkə-çəkə padşahın hüzuruna gətirdilər.

Padşah ondan soruşdu:

– Qolbağını sən qayırmısanmı?

Zərgər dedi:

– Bəli, padşahım.

– Bəs sən fikirləşməmişsən ki, o, çox gözəl olsa, baxanın gözləri qamaşar, əlindəki işləri çaşdırar?

Zərgər padşahın sualına cavab verməyə söz tapmadı. Cəllad kəndiri halqalayıb onun boynuna saldı. Ancaq zərgərin boynu yoğun, başı balaca olduğundan kəndiri saxlamadı. Ha elədilər, başı halqadan çıxdı. Cəllad gəlib təzim elədi:

– Padşah sağ olsun, zərgərin başı kiçik, boynu yoğundu, kəndir dayanmır, bilmirəm nə eləyim?

Padşah dedi:

– Bundan asan nə var ki, bir nəfər başı böyük, boynu nazik adam tapıb kəndiri keçir onun boynuna, qurtarsın getsin!

Cəllad padşahın əmrini yerinə yetirmək üçün adamların içərisinə girdi, gözləri Loğmanın şəyirdinə sataşanda sevinə-sevinə qışqırdı:

– Padşah sağ olsun, başı böyük, boynu nazik adamı tapmışam.

Padşah dedi:

– Keçir halqanı onun boynuna.

Şəyird yalvarıb-yaxarıb müqəssir olmadığını dedikdə, padşah onun sözünü kəsdi:

– Boş danışma, müqəssir olub-olmamağının bizim üçün əhəmiyyəti yoxdu. Bizə yekəbaş, nazik boyun lazımdı. Cəllad, nə dayanmısan, assana bunu!

Loğman bu haqsızlığa dözə bilməyib irəli gəlib dedi:

– Padşah sağ olsun, sizin əmriniz doğrudu. Bunun boynu kəndirə keçirilməlidi. Ancaq o, mənim şəyirdimdi. Özümüz də sizin şəhərinizə qonaq gəlmişik. Hələ paytaxtın gözəlliyini doyunca seyr etməmişik. Bunu mənə bağışla. Qoy sizin sağlığınıza gəzib məmləkətinizə tamaşa eləsin.

Padşah Loğmanaın sözlərini bəyənib dedi:

– Doğru deyirsən, qoca, afərin, onu sənə bağışlayıram. Cəllad, burax, müqəssiri, qoy getsin.

Cəllad kəndiri şəyirdin boğazından çıxarıb azad elədi. Onlar qayıdıb mənzillərinə gəldikdə, Loğman dedi:

– Bu nə yaxşı şəhərdi. Qalıb burda yaşamaq lazımdı.

Şəyird utana-utana başını aşağı salıb dedi:

– Yox, usta, bir şəhərdə ki, yağla şorun fərqi olmadı, orda yaşamaq qorxuludu. Başımızı bədənimizin üstündə salamat saxlamaq üçün burdan getməyimiz məsləhətdi. Loğman güldü. O saat şəhərdən çıxıb getdilər.

HEYVANLAR HAQQINDA NAĞILLAR

Tülkü, tülkü tünbəki

Biri var idi, biri yox idi, bir tülkü var idi. Günlərin birində tülkü baba quyruğunu belinə qoyub çöldə gəzirdi ki, görsün quşdan, cəmdəkdən bir şey tapırmı, yesin. Çox gəzdi, çox dolandı, axırda gəlib çıxdı bir quyunun başına. Boynunu uzadıb əyildi, quyuya baxdı. Gördü quyunun dibinə bir parça ağappaq quyruq düşüb. Tülkü sevindiyindən oynamağa başladı. Uzun quyruğunu yerlə sürüyə-sürüyə bir xeylək oynadı. Sonra öz-özünə dedi: "Yaxşıca əlimə quyruq düşüb, onu yeməsəm, heç hara getməyəcəyəm". Tülkünün ağzının suyu axmağa başladı. Elə bil quyruq çağırıb ona deyirdi: "Tülkü baba, gəl məni ye, tülkü baba, gəl məni ye".

Tülkü baba özünü saxlaya bilməyib quyuya tullandı, guppultu ilə quyunun dibinə düşdü. Yazıq tülkünün əzilməmiş bir yeri qalmadı. Ufuldaya-ufuldaya ayağa qalxdı, quyruğun yanına getdi. Ağzını açdı ki, quyruğu yesin, donub yerində qaldı. Demə, bu quyruq deyilmiş, bir parça ağ daş imiş. Tülkü baba çox fikir elədi, tədbir tökdü, istədi quyudan çıxsın, çıxa bilmədi. Çünki quyu çox dərin idi. Tülkü baba quyruğunu yanına qısıb, bir küncdə çömbəldi. Aranı dağa apardı, dağı arana gətirdi, fikirləşdi ki, buradan nə cür çıxsın. Bir də gördü bir ilanla, bir tısbağa onun yanına gəlir.

Tülkü baba sevinib dedi:

– A ilan, a tısbağa qardaş, siz burda nə gəzirsiniz?

Tısbağa cavab verdi:

– Tülkü baba, biz də sənin kimi öz tamahımızın ucundan buraya düşmüşük. Kənara çıxa bilmirik.

Elə bu vaxt quyunun başından səs gəldi:

Tülkü dedi:

– Gizlənək, görək bu kimdi?

Hər üçü bir küncdə gizləndilər. Bir az keçmişdi, bir də gördülər bir şey tappıltı ilə quyuya düşdü. Baxdılar quyuya düşən çaqqaldı. Tülkü ona baxıb güldü. Bu da tülkü babagil kimi aldanmışdı. Tamahının ucundan özünü quyuya salmışdı. Tülkü bərkdən dedi:

– Çaqqal qardaş, xoş gəlmisən, beş gətirmisən?

Çaqqal tülkü babanı görüb bağırdı:

– Axmaq-axmaq danışma, çəkil o yana görüm. Quyruq özümündü.

Tülkü baba cavab verdi:

– Ay axmaq çaqqal, heç acıqlanma. O quyruq deyil, bir parça ağ daşdı. Səni aldadan kimi, məni də aldadıb bura salıb. İndi hamımız burda acın-

dan qırılacağıq. Çaqqal dodaqlarını büzüb ağlamağa başladı. Bu zaman quyunun başından bir gurultu eşidildi. Tülkü baba çaqqala dedi:

– Axmaq-axmaq ağlayıb baş-gözümüzü aparma. Quyunun başında səs-küy var. Gəl gizlənək, görək indi qonağımız kim olacaq.

Çəkilib bir küncdə gizləndilər.

Bir az keçmişdi, bir zorba qurd quyudakı daşı quyruq hesab eləyib atıldı, şappıltı ilə quyunun dibinə düşdü. Qol-qabırğası əzilmiş halda yerdən qalxıb quyruğun üstünə cumdu. Baxdı ki, quyruq nə gəzir. Bu, bir ağ daş imiş. Acıqlı-acıqlı o tərəfə, bu tərəfə baxmağa başladı, ucqarı küncə qısılmış tülkünü, çaqqalı, tısbağanı, bir də ilanı gördü. Qurd bağırdı:

– Yoxsa burdakı quyruğu siz yemisiniz?

Çaqqal qorxusundan tülkünün böyrünə qısıldı. Tülkü quyruğunu yerə sallayıb qulaqlarını irəli uzatdı. Qurda cavab verdi:

– Qurd ağa, heç acıqlanma. Bura sən deyən yer deyil. Hamımız acından öləcəyik. Sən görən quyruq deyil, bir parça ağ daşdı. O daş bizi aldadan kimi, səni də aldadıbdı. Ax tamah, tamah...

Qurdun qulağı büzüşdü, istədi tülkü babaya cavab versin, quyunun başından bir səs gəldi. Bunlar hamısı qaçıb gizləndi. Bir yekə donuz tappıltı ilə quyuya düşdü. Donuzun ayağı o qədər ağrımışdı ki, ayağa qalxa bilmirdi. Quyudakılar buna baxıb gülüşdülər. Donuz ağlaya-ağlaya dedi:

– Qardaşlar, bəs siz burda nə qayırırsınız?

Tülkü baba cavab verdi:

– Heç soruşma, donuz qardaş, sənin başına gələn bizim də başımıza gəlib. Gəl bəri görək bu bir parça ağ daş daha hansı axmağı bu tora salacaq?

Bu zaman quyunun başından bir donquldanma eşidildi. Bunlar altısı da qaçıb gizləndi. Bir böyük ayı gurultu ilə quyunun dibinə düşdü. Ayı yumşaq idi, heç yeri əzilmədi, tez ayağa durdu, tüklərini qabartdı, acıqlı-acıqlı hər tərəfə göz gəzdirdi. Quyudakıları görüb dal ayaqları üstə qalxdı, gözlərini bərəldib qışqırdı:

– Deyin görüm burdakı quyruğu hansınız yediniz?

Quyudakıların dili tutuldu. Tülkü baba irəli yeriyib qorxa-qorxa dedi:

– A ayı lələ, biz quyruq yeməmişik. Sən gördüyün quyruq deyil, bir ağ daşdı. Səni aldadan kimi, bizi də aldadıb bura salıb. Heç acıqlanma. Burdan nə sən çıxa biləcəksən, nə də biz.

Ayı tülkü babanın sözünə gülüb, sıçradı ki, quyudan çıxsın, amma bacarmadı. Çünki quyu çox dərin idi. Əlacsız qalıb tülküyə dedi:

– Tülkü baba, bəs nə eləyək ki, burdan çıxaq?

Tülkü baba cavab verdi:

– Mən də bilmirəm. Gəlin hamımız bir yerdə yaxşıca fikirləşək, görək bir yol tapa bilərikmi?

Hərə bir tərəfdə oturub fikirləşməyə başladı. Amma nə qədər fikirləşdilərsə, bir yol tapa bilmədilər. Axırda hamısı yoruldu. Hərə bir tərəfdə uzanıb yatdı. Ancaq tülkü baba yatmadı, fikir eləyirdi ki, bir kələk tapsın, bunların hamısını ayı qırsın, özü də onun əlindən qurtarsın.

O günü onlar ac qaldılar, sabahı da ac qaldılar. Üçüncü gün tülkü gördü daha dura bilmir, acından öləcək. Yoldaşlarını başına topladı. Üzünü onlara tutub dedi:

– Qardaşlar, görürsünüz hamımız acından ölürük. Hamımızın ölməyimizdənsə, yenə də birimizin ölməyi yaxşıdı. Qoyun mən bir mahnı oxuyum, hər kimin adı axıra düşsə, onu yeyək.

Yoldaşlarının hamısı buna razı oldu. Tülkü ayağa qalxıb oxumağa başladı. Görək nə cür oxuyur?

Tülkü, tülkü tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
İlan qamçı,
Tısbağa çanaq,
Biz ona qonaq.

Hamı bir-birinin üzünə baxdı. Tülkü üzünü ayıya tutub dedi:

– A ayı lələ, sən bilirsən ki, biz burda nə su tapacağıq içək, nə arpa, buğda tapacağıq ölçək. Ona görə də bizə çanaq saxlamaq lazım deyil. Mən nəğməni oxudum. Məndən demək, sizdən yemək.

Onlar tökülüb tısbağanı yedilər.

Ayı dedi:

– Tülkü baba, bundan bir şey olmadı. Bir də oxu.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
İlan qamçı,
Bircə damcı.

Yenə hamı bir-birinin üzünə baxdı. Tülkü dedi:

– A ayı lələ, de görüm, bizim burda atımız, ulağımız yox, qamçı nəyimizə lazımdı? Mən nəğməni oxudum. Məndən demək, sizdən yemək.

Tökülüb ilanı da yedilər.

Ayı dedi:

– Tülkü baba, bundan da bir şey olmadı. Bir də oxu görək kimə düşür.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
Bizdən sovuş.

Hamı tülkünün üzünə baxdı:

Tülkü dedi:

– Qardaşlar, çanaqla qamçını yedik. Qaldı indi bizim çavuşumuz. Çavuş nəyimizə lazımdır? Dava eləməyəcəyik ki, təlim verə, məclisə getməyəcəyik ki, əzan deyə. Məndən demək, sizdən yemək.

Tökülüb çaqqalı da yedilər. O günü belə keçirdilər. Gecə yatdılar. Səhər tezdən yenidən bir-birinin üzünə baxdılar. Ayı dedi:

– Tülkü baba, acından ölürəm, oxu görək indi kimə düşür.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki.
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Səsi bayquş.

Yenə də hamı bir-birinin üzünə baxdı. Tülkü dedi:

– Ayı lələ, ulavuş bizim nəyimizə lazımdı? Elə əslinə baxsan, o uladı ki, biz bu günə qaldıq. İndi acından qırılırıq. Mən nəğməni oxudum. Məndən demək, sizdən yemək,.

Ayı o saat qurdu qarmaladı. Basıb onu da yedilər. O günü də belə keçirib sabahı elədilər. Ayı üzünü tülküyə tutub dedi:

– Tülkü baba, acından ölürəm. Durma oxu, bir nahar eləyək.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq...

Yenə də hamı bir-birinin üzünə baxdı. Tülkü dedi:

– Ayı lələ, de görüm toxmaq bizim nəyimizə lazımdı. Məndən demək, sizdən yemək.

Ayı o saat pəncəsilə basıb donuzun belini qırdı. Hərəsi bir tərəfdən onun ətini parçalayıb yeməyə başladılar.

Bir neçə gün də donuzun əti ilə dolandılar. Tülkü donuzun ətindən bir qədər qoltuğunda gizləmişdi. Burnunu qoltuğunun altına salıb onu yeyirdi. Ayı onu görüb dedi:

– Tülkü baba, əti hardan alıb yeyirsən? Mənə də ver.

Tülkü baba cavab verdi:

– Heç haradan almıram. Öz qoltuğumun ətidi, söküb yeyirəm. Sən də öz qoltuğunun ətini sök, ye. Ayının ağlına batdı, öz qoltuğunu dişi ilə sökdü. Qan başladı sel kimi axmağa. O qədər qan axdı ki, axırda ayı taqətdən düşdü, yerə uzanıb öldü. Tülkü, "Mən deyəndə ayı axmaq, mənə gülürlər", – deyib gülə-gülə ayının ətindən parçalayıb yeməyə başladı. Bir müddət də ayının əti ilə dolandı. Sonra yenə aclıq başladı. Tülkü aclığa davam gətirə bilməyib, bərkdən vaqqıldamağa başladı. Tülkü vaqqıldaya-vaqqıldaya deyirdi:

– Ax tamah, ax tamah!.. Sən nə pis şeysən. Əgər tamahımı yığsaydım, bura düşməzdim!

Bir ovçu ordan keçirdi. Tülkünün səsini eşidib, quyunun başına gəldi. İp sallayıb tülkünü quyudan kənara çıxartdı, dedi:

– Ay tülkü, camaatda toyuq qoymadın, çöllərdə quş qoymadın, yazıqların hamısını boğub yedin. İndi də mən səni boğub öldürəcəm, dərini soyub boğazından çıxardacağam.

Ovçu tülkünü boğub, kənara atdı. O, elə bilirdi ki, tülkü ölüb. Bıçağını itiləyirdi ki, onun dərisini soysun. Birdən tülkü yerdən sıçrayıb götürüldü. Ovçu səsə qanrılıb baxdı ki, tülkü odu təpənin başında. Səs də onun səsidi, deyir:

– Ovçu qardaş, adam işin birini qurtarmamış, o birinə başlamaz. Hələ bir bax, gör boğub öldürübsən, ya yox, sonra dərisini soymağa hazırlaş.

Ovçu bir söz demədi. Gördü ki, tülkü düz deyir. Kor-peşman evinə qayıtdı.

Tülkü və hacıleylək

Keçmiş zamanlarda bir tülkü, bir də bir hacıleylək var idi. Bunlar qardaş olmuşdular. Bir gün tülkü hacıleyləyi qonaq çağırdı. Bir qazan ayranla şorba bişirdi, bir siniyə tökdü, gətirib süfrəyə qoydu. Yeməyə başladılar. Qab dayaz idi. Hacıleyləyin dimdiyinə bir düyü də gəlmirdi. Amma tülkü hər dəfə dilini uzadanda şorbanın bir tərəfini yalayıb qurtarırdı. Belə-belə hacıleylək bir neçə düyü götürənə qədər tülkü ayranla şorbanı yalayıb qurtardı. Hacıleylək tamam ac qaldı. Hacıleylək deyinə-deyinə evinə getdi. O gecə səhərə kimi qarnı curuldaya-curuldaya ac yatdı. Bir neçə gün keçdi, tülkü yenə də hacıleyləyi qonaq çağırdı. Hacıleylək üzüyumşaq bir quş idi. Ürəyində nə var idi, hamısını unutdu, yenə də tülküyə qonaq getdi. Tülkü bu dəfə də şorba bişirdi, siniyə tökdü, gətirib süfrəyə qoydu. Yenə hacıleylək dimdiyilə iki düyü götürməmiş, tülkü şorbanı yalayıb qurtardı. Hacıleylək yenə də ac qaldı, ürəyində dedi: "Yaxşı, tülkü, sənlə mənimki qalsın. Bu hayıfi yerdə qoymaram". Hacıleylək özünü şad göstərdi, tülküyə dedi:

– Qardaş, çox sağ ol, mənə xəcalət verdin. Xəcalətindən çıxaram. Gəl bir seyrə çıxaq könlümüz açılsın.

Tülkü dedi:

– Elə mənim könlüm seyrə çıxmaq istəyirdi. Ay sağ ol. Ürəyimdən xəbər verdin.

Hacıleylək dedi:

– Onda mənim qanadlarımın üstünə min, göydə seyr eləyək.

Tülkü hacıleyləyin qanadının üstünə mindi. Hacıleylək göyə qalxdı. Bir az gəzəndən sonra Hacıleylək tülküyə dedi:

– Qardaş, bax, gör yer nə təhər görünür?

Tülkü dedi:

– Bir xırman boyda görünür.

Hacıleylək bir az da yuxarı qalxıb dedi:

– Qardaş, indi bax, gör nə təhər görünür?

Tülkü baxıb dedi:

– Yer, heç görünmür.

Hacıleylək bir az da yuxarı uçub dedi:

– Qardaş, tay qanadım ağrıyır, yorulmuşam. Bir az düş, qanadımın dincini alım.

Tülkü dedi:

– Ay qardaş, başına dönüm, qurban olum, mən bu göyün üzündə haraya düşüm? Nə təhər düşüm? Məni aşağı endir.

Hacıleylək dedi:

– Yox, qanadlarım ağrıyır, düşməsən yerə salacağam. Özün bil.

Tülkü hacılcyləyin toruna düşdüyünü bilib, hiylə gəlməyə, yalvarmağa başladı:

– Qardaş, bir qələtdi eləmişəm, yamanlığa yaxşılıq deyiblər. Gəl bu dəfə günahımdan keç, ölüncə sənə xidmət edərəm.

Hacıleylək onun sözünü qəbul eləməyib dedi:

– Yox, yaxşılığa yaxşılıq yamanlığa yamanlıq deyiblər. Nə əkərsən, onu biçərsən, mən sənə borclu idim, borcumu verirəm. Hacıleyləyin tülküyə yazığı gəldi, göyün qatından aşağı endi, beş-on arşın hündürlükdən, – al gəldi – deyib tülkünü qanadının üstündən havaya tulladı. Yel tülkünü hərləyə-hərləyə gətirib bir dəstə məktəb uşağının yanında yerə saldı. Uşaqlar yüyürüşəndə birinin kitabı yerə düşdü. Tülkü o saat kitabı götürdü. Qaçıb bir dağın döşündə bir mağaraya girdi. Onun sol qabırğası əzilmişdi deyə uzağa gctmirdi. Mağaranın ağzına çıxıb, kitabı açdı və mızıldamağa başladı:

Bir ayı burdan keçirdi, gördü tülkü əlinə bir kitab alıb oxuyur. Ayı soruşdu:

– Ay tülkü baba, əlindəki nədi?

Tülkü dedi:

– Utanmırsan, mənə tülkü baba deyirsən? Görmürsən ki, mən mollayam uşaq oxuduram?

Ayı dedi:

– Bilməmişəm, bağışla, ay molla əmi, mənim iki oğlum var, gətirsəm onlara dərs verərsənmi? Əti sənin, sümüyü mənim.

Tülkü dedi:

– Niyə vermirəm? Çox yaxşı dərs verərəm. İki ayda onlara bütün elmləri öyrədərəm.

Ayı evinə getdi, uşaqlarını gətirib tülküyə verdi. Tülkü dedi:

– Get, arxayın ol, bunları lap yaxşı oxudacağam.

Tülkünün bir mənzili var idi; mənzilin qabağı enli, gerisi dar idi. Ayının balalarını aparıb o dar yerdə parçaladı, bir neçə gün yedi. Sümüklərini də torbaya yığıb ağzını bərk-bərk bağladı. Ayı bir neçə aydan sonra gəlib dedi:

– Uşaqları gətir görüm, nə təhər oxuyurlar.

Tülkü dedi:

– Hələ uşaqları sənə göstərmək olmaz. Göstərsəm, gözləri yayınar, huşları dağılar. Get, sonra gələrsən.

Ayı qayıdıb getdi. Bir neçə aydan sonra ayı öz-özünə dedi: "Gedim, uşaqları görüm". Gəldi, tülkünün yanına, dedi:

– Uşaqları könlüm istəyir, Gətir görüm.

Tülkü dedi:

– Göstərə bilmərəm. Huşları dağılar.

Ayı yenə qayıdıb getdi. Bir aydan sonra yenə gəlib dedi:

– Uşaqları gətir görüm, könlüm istəyir.

Tülkü ayının balalarının sümüklərini gətirib ayının qabağına atdı. Ayı dedi:

– Bu nədir?

Tülkü dedi:

– Bəs deməmişdin balalarımın əti sənin, sümüyü mənim?! Mən də elə elədim. Ətlərini yedim, sümüyü də budur.

Ayı tülkünün üstünə yüyürdü ki, onu parçalasın. Tülkü yuvasının dar yerinə girdi. Ayı ora sığışmadı, başını soxanda tülkü dal deşikdən çıxıb qaçdı. Ayı birtəhərlə geri qayıtdı. Bir cütçünün yanına gəlib dedi:

– Ay cütçü baba, allah qüvvət versin!

Cütçü dedi:

– Sağ ol, ayı qardaş.

Ayı dedi:

– Tülkünün mənim balalarımı yediyini bilirsənmi?

Cütçü dedi:

– Bilirəm.

Ayı dedi:

– Bu sözü heç kəsə demə, sənə gündə bir qoyun verəcəyəm.

Cütçü dedi:

– Yaxşı, deməərəm.

Hər gün ayı bu cütçüyə bir qoyun verirdi. Kişi qoyunu aparanda arvadı soruşurdu:

– Bu qoyunu hardan alırsan?

Kişi deyirdi:

– Sənə borc deyil, sən ye. Neyləyirsən soruşursan.

Bir gün kişi qoyunu gətirəndə arvadı dedi:

– Qoyunu hardan aldığını dəməsən, səndə oturmayacağam.

Kişi əhvalatı ona nağıl edib dedi:

– Ayıdan alıram.

Kişinin sözlərini ayı bayırdan eşidirdi, bərkdən qışqırıb dedi:

– Yaxşı, səhər gör sənin başına nə oyun gətirəcəyəm.

Kişi arvadına dedi:

– Qoyun qarnını dəlirdi? İndi, məni yaxşı ölümə verdin.

Kişi ayının qorxusundan cütə də getmədi. Qohum-qardaş yığışıb kişini töhmətlədilər.

– A kişi, yerini boş qoyma, getək.

Kişi el töhmətinə boğuldu, səhər qorxa-qorxa əkin yerinə gəldi. Bu zaman tülkü onun yanına gəlib dedi:

– Ay cütçü baba, neçə gündür niyə cüt əkmirsən?

Kişi əhvalatı tülküyə nağıl edib dedi:

– Tülkü baba, bir ayı mənim başıma bu oyunu gətirdi. Onun qorxusundan gələ bilmirəm.

Tülkü dedi:

– Nə verərsən onu öldürüm?

Cütçü dedi:

– Sənə iki toyuq, bir xoruz verərəm.

Tülkü sevindi, cütün bir o başına tullandı, bir bu başına tullandı, oynadı dedi:

– Sabah mən quyruğuma bir süpürgə bağlayacağam, sonra o dağın başına çıxacağam, o yana-bu yana yüyürüb toz eləyəcəyəm. Ayı sənin yanına gəlib deyəcək "o nə tozdur?" Onda deyərsən, "padşahın oğlu azarlıdı, həkimlər ona ayı əti dərman deyiblər. O toz eləyən padşahın qoşunudu, ayı axtarır". Onda ayı deyəcək, "mən harda gizlənim?" Onda sən deyərsən ki, "gəl bu çuvala gir, elə bilsinlər ki, buğdadı". Sonrası ilə işin yoxdu.

Səhər tezdən tülkü quyruğuna bir süpürgə bağladı, həmin dağın başına çıxdı. Gözlədi, ayı cütçünün yanına gələndə, o yana-bu yana yüyürüb toz elədi. Ayı baxdı ki, təpənin başında bir toz qalxıb, göyün üzünü tutub. Ayı cütçüdən soruşdu:

– O nə tozdu?

Cütçü dedi:

– Hələ bilmirsən? Tez ol gizlən!

Ayı dedi:

– Nə var?

Cütçü dedi:

– Padşahın oğlu azarlayıbdı, həkimlər ona ayı əti dərman deyiblər. O, padşahın qoşunudu, ayı axtarır.

Ayının canına qorxu düşüb dedi:

– Bəs harda gizlənim?

Cütçü dedi:

– Gəl, gir bu çuvala, ağzını bağlayım. Elə biləcəklər toxumdu.

Ayı çuvala girdi. Cütçü ağzını bərk-bərk bağladı.

Kişi yavaşca tülküyə əl elədi. Tülkü də gəldi. Hərəsi bir ağac götürdülər, ayını döyməyə başladılar. O qədər döydülər ki, ayı öldü.

Cütçü dedi:

– Sabah toyuqları, xoruzu gətirəcəyəm.

Səhər cütçü cütə çıxmışdı. Tülkü onun yanına gəlib dedi:

– Bəs toyuqlar necə oldu?

Cütçü dedi:

– Bay, yadımdan çıxıb. Səhər gətirərəm.

Sabah yenə tülkü cütçünün yanına gəldi. Cütçü ayran yemişdi, qarnı quruldayırdı. Tülkü ondan soruşdu:

– Cütçü baba, o səs edən nədi?

Cütçü dedi:

– Nə bilim, bir neçə il bundan qabaq bərk aclıq oldu, onda bir tazı küçüyü yedim. İndi sənin səsini eşidib, istəyir çıxsın.

Tülkü dedi:

– Ay cütçü baba, qurbanın olum, qoyma çıxsın, mən qaçım.

Cütçü dedi:

– Qorxma, qoymaram çıxsın, tez qaç!

Tülkü qaçıb gözdən itdi, cütçü də sevinə-sevinə evinə gəldi.

Şirlə tülkü

Bir şir meşədə gəzirdi, gördü bir tülkü o qədər arıqlayıb ki, yeriməyə taqəti yoxdur.

Şir dedi:

– Ay tülkü, sənə nə olub bu günə düşübsən?

Tülkü dedi:

– Bir həftədir acam, yeməyə heç nə tapa bilmirəm.

Şirin tülküyə yazığı gəldi, gedib bir heyvan parçaladı, gətirib tülküyə verib dedi:

– Tülkü qardaş, gəl doyunca ye, qıçlarına qüvvət gəlsin.

Tülkü dedi:

Mənim hünərim deyil ki, sənin kimi qüvvətli heyvanın qabağından ət yeyəm.

Şir dedi:

– Ay tülkü, qorxma, görmürsən mən özüm gətirmişəm sən yeyəsən.

Şir nə qədər dedisə, tülkü inad göstərib ətə yaxın durmadı.

Axırda şir dedi:

– Bəs neyləyim ki, sən yeyəsən?

Tülkü dedi:

– Onda gətir əl-ayağını bağlayım, sonra arxayın yeyim.

Şir razı oldu. Tülkü ölmüş heyvanın bağırsaqlarını çıxartıb şirin əl-ayağını möhkəm bağladı, özünü də günün qabağına uzadıb dedi:

– Şir qardaş, sən bir az yat yuxula, mən tamam arxayın olum.

Şir başladı yatmağa, amma tülkü yenə də yemədi. Şir hələ yuxuya getməmişdi, odur ki, dedi:

– Bəs indi niyə yemirsən?

Tülkü dedi:

– Sən rahat olmayınca yeməyəcəyəm.

Tülkü gözləyirdi ki, bağırsag qurusun, çünkü o quruduqca bərkiyirdi. Tülkü o qədər gözlədi ki, bağırsaq günün altında quruyub dəmir kimi möhkəm oldu. Həm də şir yuxuya getdi.

Tülkü ətdən doyunca yedi. Şir səhərə qədər yatdı, ayılmadı. Səhər gözün açıb gördü, əl-ayağı hələ də bağlıdı,dedi:

– Tülkü lələ, gəl əl-ayağımı aç.

Tülkü dedi:

– Hara açıram, ətin hamısını yeməmiş açmayacağam.

Şir bir-iki gün də gözlədi, tülkü o qədər yemişdi ki, porsuğa dönmüşdü. Şir nə qədər dedisə, tülkü onun əllərini açmadı.

Axırda şir bağırsağı qırmaq istədi. Hər dəfə güc verib əllərini tərpətdikcə qurumuş bağırsaq məftil kimi ətini kəsib, sümükdə dayandı. Şir çox çalışdı, çapaladı əlini aça bilmədi. Axırda cin vurdu beyninə, üzünü tülküyə tutub dedi:

– Ay namərd, mən səni aclıqdan qurtardım, sən gör mənə neylədin. Əgər əlimi aça bilsəm gör sənə nə eləyəcəyəm.

Şir o qədər qəzəblənmişdi ki, nərəsi meşəni götürmüşdü.

Elə bu vaxt yaxından bir çaqqal keçirdi. O, şirə yaxınlaşıb əhvalatı öyrəndi. Şir başına gələnləri ona söylədi. Çaqqal dedi:

– Şir qardaş, heç darıxma, mən bu saat sənin əl-ayağını açaram.

Çaqqal bir xeyli əlləşib dişi ilə bağırsağı kəsdi. Şir ayağa qalxdı, ətrafa göz gəzdirdi, tülkünü görmədi. O, qaçıb gözdən itmişdi. Tülkünün şirə xəyanət edib hiylə ilə onun əl-qolunu bağlaması, çaqqalın isə onu xilas etməsi şirə çox əsər elədi.

Öz-özünə dedi:

– Mən bütün heyvanların ən güclüsü olduğum halda bir tülkü gör başıma nə oyun gətirdi?

Odur ki, gecə-gündüz axtarıb tülkünü tapdı, elə bir nərə çəkdi ki, tülkünün qorxudan ürəyi partladı. Şir dedi:

Namərdlərin axırı bax belə olar.

Əliyarla dovşan

Biri var idi, biri yox idi, bir kəndli var idi. Bu kəndlinin bircə parça bostan yeri var idi. Kəndli bu yerdə qovun əkmişdi. Vaxt gəldi, vədə çatdı, qovunlar yetişdi. Bostan çox yaxşı məhsul gətirmişdi. Qovunlar şəkər kimi şirin idi. Qovunların içində bir sarı qovun var idi ki, ətri yetmiş ağaclıqdan adamın huşunu aparırdı. Kəndli bu qovunu qırmırdı, saxlayırdı ki, xana aparsın. Bəlkə ondan bir xələt ala. Amma qəza işi tərsinə çevirdi.

Bir gün xan şikara çıxmışdı. Yolu kəndlinin bostanının yanına düşdü. Xan bostana gedib sarı qovunu gördü. Qovuna xeyli tamaşa elədi. Qovun onu lap heyran eləmişdi. İstədi sarı qovunu qırsın. Gördü qovunun dərilməsinə hələ bir-iki gün qalıb. Xan kəndlini yanına çağırıb dedi:

– Üç gün keçər, dördüncü günü bu qovunu mənə gətirərsən.

Kəndli baş əyib dedi:

– Xan sağ olsun, clə mən bu qovunu sənə gətirəcəkdim. Baş üstə, gətirərəm.

Xan atına minib getdi. Kəndli də evinə gəldi, oğlu Əliyarı çağırıb dedi:

– Oğul, üç gün gərək gecələri sən bostanda qalasan, gündüzləri də mən qalam.

Oğlu dedi:

– Nə olub ki?

Kəndli dedi:

– Xan bostanımıza gəlmişdi. Sarı qovun xoşuna gəldi. Gərək onu qoruyub üç gündən sonra xana aparaq.

Əliyar sarı qovunu özünə saxlamışdı. Atası xan adını çəkəndə Əliyar başını aşağı salıb başladı fikirləşməyə. Elə ki, gün batdı Əliyarın atası qoltuğuna bir parça çörək vurub, bostana keşik çəkməyə getdi.

Əliyar o gecə səhərə kimi yatmadı. Səhər atası evə qayıdıb, Əliyarı bostana göndərdi. İki gün belə keşik çəkdilər. Axırıncı gün də keşik çəkib, qovunu xana aparacaqdılar.

Bunlar burda qalsın, sizə xəbər verim dovşandan. Dovşan bərk acmışdı. Özünü haman bostana yetirdi. Sarı qovunun yanına getdi, yaralayıb yeməyə başladı. Əliyar keşik çəkirdi. Dovşanı gördü, tez qovlayıb bostandan çıxartdı. Əliyar gedib gördü, sarı qovunu dovşan yaralayıb. Bir xeyli fikirləşdi. Öz-özünə dedi: "Sarı qovun xana qismət olmadı, qalanını da özüm yeyəcəyəm". Əliyar qovunun qalanını da yeyəndən sonra özünü atasına çatdırıb dedi:

– Ata, dovşan bostana girib sarı qovunu yeyibdi.

Kişi başına döyə-döyə bostana getdi. Gördü ki, sarı qovun yoxdu. Tez xanın yanına gedib dedi:

– Xan, başına dönüm, dovşan bostana girib sarı qovunu yeyibdi. Oğlum fərasətsizlik eləyib, dovşanı görməyib. Gərək günahımızdan keçəsən.

Xan bu sözü eşidəndə çox qəzəbləndi. Əmr elədi:

– Əliyarın boynunu bu saat vurarsınız.

Kəndli çox yalvardı, xan onun sözünü eşitmədi. Əmr elədi, kişini döyüb bayıra atdılar. Yazıq kəndli baş-gözü yarılmış evinə gəldi. Arvadı onun qabağına çıxdı, qonum-qonşu yığıldı.

Kəndli xanın əmrini bunlara söylədi. Əliyarın kefi pozuldu, rəngi qaçdı. Evdən çıxıb yavaş-yavaş bostana getdi, oturub ağlamağa başladı. Əliyar baxdı ki, budu dovşan gəlir. İstədi onu vura. Amma dovşan qaçmadı. Əliyar təəccübləndi. Dovşan adam kimi dil açıb dedi:

– Əliyar, niyə ağlayırsan?

Əliyar dedi:

– Atam sarı qovunu xana saxlatdırmışdı. Sən gəlib yemisən. Xanın acığı tutub, əmr eləyib ki, mənim boynumu vursunlar. Onun üçün ağlayıram.

Dovşan dedi:

– Gəl, ikimiz birləşək, xanı öldürək.

Əliyar dedi:

– Sən zəif bir dovşan. Mən də balaca bir uşaq. Biz o böyüklükdə xanı necə öldürə bilərik?

Dovşan dedi:

– Öldürə bilərik. Sən mən deyənə qulaq as. Mən bu gecə xanın üzümlüyünə girib, üzümləri korlaram. Xanın başı qarışar, sən də yaddan çıxarsan. Sonra işin dalısına baxarıq.

Əliyar dovşandan razı qaldı. Dovşan gecə özünü xanın üzümlüyünə saldı. Yaxşı üzümləri yedi, yemədiyini də qırıb yerə tökdü, ayaqlayıb əzdi. Səhər tezdən bağban bağa gedib gördü bağda üzüm qalmayıb, hamısı əzilib yerə tökülübdü. Baxdı, dovşanın rəddi qalıb. Bağban başını yola-yola gedib xana xəbər verdi. Xan bağa gəlib gördü ki, doğrudan da, bağın üzümləri tamam korlanıb. Xan dovşanın rəddini gördü. Xan bərk qəzəblənib əmr elədi:

– Ovçular hazır olsunlar, dünyada nə qədər dovşan var, hamısını qırsınlar.

Ovçular çölə çıxdılar, nə qədər axtardılar, dovşanı tapmadılar. Xan qəzəblənib dedi:

– Gərək özüm gedəm, dovşanı tapıb öldürəm.

Xan at mindi, çölə çıxdı. İki gün çölü dolandı. Amma dovşanı tapa bilmədi. Bərk yoruldu. Özünü bir kölgəliyə yetirdi, atdan düşdü. Atını yançidar eləyib otlağa buraxdı. Özü də uzanıb yatdı.

Xan burda yatmaqda olsun, eşit dovşandan. Dovşan xanı yatmış gördü, tez özünü Əliyara yetirib dedi:

– Xan yatıb. Gəl tez gedək. Mən onun gözlərini cırmaqlaram, sən də narın torpaq götürüb, gözlərinə tökərsən. Qoy kor olsun, bizim canımız qurtarsın.

Əliyar razı olub dovşana qoşuldu. Hər ikisi gəlib xan yatan yerə çatdı.

Dovşan Əliyara dedi:

– İki ovuc torpaq götür.

Əliyar torpağı hazırladı. Dovşan xanın başı üstündə durdu. Var gücü ilə xanın gözünü cırmaqladı. Xan gözünü açmaq istəyəndə Əliyar da tor-

pağı onun gözünə tökdü. Xanın çığırtısı çölü götürdü. Əliyarla dovşan qaçıb gözdən itdilər. Xan iki gözdən kor olub gecəni çöldə qaldı. Qurd-quş xana hücum eləyib onu parçaladılar. Əliyarla dovşan da xanın zülmündən xilas oldudar. Kəndə xəbər yayıldı ki, xan ölüb. Camaat meyidini gətirməyə getdi. Dovşan Əliyarı tapıb dedi:

– Əliyar, gördün, öldürərik. Birliyin qabağında zülm dayana bilməz.

Arıların qəzəbi

Biri var idi, biri yox idi, bir fil var idi. Bu fil hələ balacalığdan çox dəcəl idi. Hər dəfə bir heyvanla dava-dalaş edərdi. Günlərin birində fil meşədə xortumunu bir ağaca dolayıb o tərəf bu tərəfə silkələyirdi. Ağac az qalırdı kötüyündən qopsun. Demə bu kötüyün dibində bal arılarının yuvaları varmış. Fil ağacı tərpətdikcə arıların yuvaları dağılırdı, odur ki, arılar dedilər:

– Fil qardaş, səndən xahiş edirik ki, yuvalarımızı dağıtmayasan.

Fil dedi:

– Mən yuva-muva bilmirəm, kefim gəlib oynayıram.

Arılar dedilər:

– Ay fil qardaş, biz sənə demirik ki, oynama, get bir az o biri ağacın dibində oyna.

Fil dedi:

– Mən heç yerə gedəsi deyiləm, bir bunların boy-buxunlarına bax, bapbalaca boyları var, gör mənə nə deyirlər.

Arılar dedilər:

– Fil qardaş, əgər sən bizim yuvalarımızı dağıtsan, biz də səni sancıb öldürərik.

Fil dedi:

– Gəlin, nə kefiniz istəyir eləyin, sizdən qorxan yoxdur.

Arılar yuvalarına qayıdıb böyükləri ilə məsləhətləşdilər, belə qərara gəldilər ki, axırıncı dəfə bir də fildən xahiş etsinlər, əgər razı olmasa, onu sancıb öldürsünlər. Bu dəfə də arılar filə çoxlu nəsihət elədilər, fil onların sözünə baxmadı, odur ki, bütün arılar hücüm çəkib filin başına, gözünə, qulaqlarına, burnuna, ağzına, bədəninə yapışıb onu sancdılar.Bir dəqiqənin içində filin bədəni şişib dama döndü. Ağrısından qışqırtısı aləmi götürdü, başladı qaçmağa, fil qaçdıqca arılar da onu sancırdılar.

Fil o qədər qaçdı ki, axırda taqətdən düşüb yerə yıxıldı.

Arılar onu dörd dövrəyə alıb dedilər:

– Fil qardaş, çox tərslik eləyib bizə meydan oxuyurdun, indi de görək halın necədir?

Fil utandığından başını qaldırmadı.

Arılar dedilər:

– Fil qardaş, sən öz gücünə arxalanıb bizi əzirdin. Özündən zəifləri əzənlərin axırı bax belə olar.

Siçanla pişik

Biri var idi, biri yox idi, bir siçanla bir pişik var idi. Günlərin birində siçan yuvasından başını çıxardıb pişiyə dedi:

– Gəlsənə sənlə qardaş olaq?

Pişik dedi:

– Səndən mənə qardaş olmaz.

Siçan dedi

– Niyə?

Pişik cavab verdi ki, sən qorxaq, oğru, həm də ziyankarsan.

Siçan dedi:

– Doğrudan, bir az qorxağam, amma oğru, ziyankar deyiləm.

Pişik gülüb dedi:

– Bəs un, buğda çuvallarını yırtıb dağıdan, sən deyilsənmi?

Siçan kinayə ilə cavab verdi ki, ay pişik qardaş, bəs sən heç nə yemirsən, hava ilə dolanırsan?

Pişik dedi:

– Mən əvvəlcə miyoldayıb yemək istəyirəm, ev sahibi də ətdən, çörəkdən atır yeyirəm. Amma sən heç kimə demədən oğurlayıb yeyirsən.

Çox uzun söhbətdən sonra pişik dedi:

Yaxşı nə deyirəm, gəl dost olaq, amma mənə xəyanət eləsən, onda özündən küs.

Siçan razılaşdı,hər ikisi dostlaşıb bir yerdə yaşadılar. Günlərin birində siçan dedi:

– Pişik qardaş, indi payız fəslidir, havalar yaxşıdır, nə istəsək tapıb yeyə bilərik. Bir azdan sonra qış girəcək, hər yeri qar örtəcək yeməyə heç nə tapmayacayıq, gəl indidən özümüzə azuqə yığaq.

Pişik dedi:

– Yığaq.

Siçan dedi:

– Məni kim görsə döyüb baş gözümü əzəcək. Yaxşısı budur sən gündə bir evə get, kim nehrə çalxasa, yanında miyolda, yağ istə, sənə versinlər, yığıb qışa saxlayaq.

Pişik bu təkliflə razılaşdı. Gündə bir evə gedib xeyli yağ yığdı. Siçanla pişik bir küpə tapıb yağı doldurdular içinə, aparıb bir ağacın dibində yer qazıb basdırdılar, sonra qayıdıb gəldilər evlərinə. Aradan bir müddət keçdi, qış yaxınlaşdı, tamah siçana güc elədi, pişiyə yalan satıb dedi:

– Pişik qardaş, bu gün əmim oğlunun ad qoydusudur, məni də qonaq çağırıblar, icazə ver ora gedim.

Pişik dedi:

– Get, amma tez gəl.

Siçan pişiyə sağ ol deyib evdən çıxdı. Düz getdi yağı basdırdıqları yerə, torpağı eşib küpənin ağzını açdı, yağdan bir az yedi, küpənin üstünə torpaq töküb qayıtdı evə.

Pişik dedi:

– Siçan qardaş, əmin oğlunun adını nə qoydular?

Siçan dedi:

– Bir azacıq.

Pişik dedi:

– Qayım-qədim olsun, yaxşı addır, amma bu adın mənasını başa düşmədim.

Siçan dedi:

– Pişik qardaş, bu adın mənası hələ mənə də aydın deyil. Bundan başqa, mənim dayım oğlunun və xalam oğlunun da ad qoydusu olacaq, ora gedib qayıdanda hamısını birdən öyrənib deyərəm.

Aradan bir neçə gün keçmişdi, siçanın könlünə yenə yağ düşdü. Odur ki, dedi:

– Pişik qardaş, indidə xalam oğlunun ad qoydusudur. İzn ver gedim.

Pişik bu dəfə də icazə verdi. Siçan sevinə-sevinə qaçıb gəldi həmin həmin ağacın dibinə, torpağı eşib küpəni tapdı, ağzını açıb yağın yarısını yedi. sonra yenə küpənin üstünü torpaqla örtüb evə qayıtdı.

Pişik siçanın qayıtdığını görub dedi:

– Siçan qardaş, xalan oğlunun adını nə qoydular?

– Yarısınacan, – deyə siçan cavab verdi.

Pişik dedi:

– Çox qəribə adlardır.

Siçanla pişik bir neçə gün də bir yerdə yaşadılar. Siçan gördü ki, havalar bərk soyuyur, bir-iki gündən sonra qar yağsa gedib yağı tapa bilməz, odur ki, dedi:

– Pişik qardaş, indi də bibim oğlunun ad qoydusudur. Bibim məni qonaq çağırıb, getməsəm yaxşı düşməz, küsərlər ki, siçan bəy,əmisi oğlunun, xalası oğlunun ad qoydusuna getdi,amma bizə gəlmədi. Xahiş edirəm, mənə icazə ver axırıncı dəfə gedim.

Pişik dedi:

– Siçan qardaş, mən bir söz demirəm ki, get, amma tez gəl darıxıram.

Siçan baş üstə deyib yola düşdü. Gəlib küpəni çıxartdı, içindəki yağın hamısın yeyib boş küpəni basdırdı. Siçan tələsik evə qayıtdı. Pişik soruşdu ki, bu dəfə bibin oğlunun adını nə qoydular?

Siçan cavab verdi ki, axırınacan. Pişik başını bulayıb güldü.

Siçan dedi:

– Pişik qardaş, niyə güldün, olmaya adlar xoşuna gəlmədi?

Pişik dedi:

– Mən eşitmişəm ki, hər adın bir mənası olar. Amma bu adların mənasın başa düşə bilmədim.

Siçan dedi:

– Bu adların mənasını qışda küpəyə baxanda bilərsən.

Pişik dedi:

– Ay siçan, nə danışırsan, yoxsa başın xarab olub, küpə hara, ad hara.

Elə bu vaxt birdən yağ küpəsi yadına düşdü.

Pişik dedi;

– Siçan qardaş, yaxşı ki, küpə sözünü dedin, axı bizim yağ küpəmiz yaddan çıxıb, gedək bir baş çəkək görək dururmu?

Siçan dedi:

– Pişik qardaş, indicə yoldan gəlirəm, bərk yorulmuşam sabah gedərik. Pişik razı oldu. O gecə yatdılar, səhər pişik dedi:

– Siçan qardaş, dur gedək küpəyə baxaq. Siçan istədi bu dəfə də getməsin, pişik əl çəkmədi. İkisi də durub getdilər ağacın altındakı küpəni qazıb çıxartdılar. Gördülər içi bomboşdur.

Pişik siçana dedi:

– Ay kələkbaz, yağı sən yeyibsən.

Siçan da ona dedi ki, yox, özün yeyibsən.Yağın üstündə siçanla pişik başladılar dalaşmağa.

Pişik dedi:

– Ay siçan, mən bu gədər jağı necə jejə bilərəm?

Siçan dedi:

– Əvvəlcə bir az, sonra yarısınacan, axırda axırınacan. Pişik bu sözləri eşidən kimi barmağını dişləyib dedi:

– Bu sözlər mənə tanışdı. Demək sən qohumlarının ad qoymasına gələndə yağı xırda-xırda yeyirmişsən. İndi mən də səni yeyərəm əvəzi çıxar.

Siçan dedi:

– Pişik qardaş, axı biz dostuq. Dost dostu yeməz.

Pişik dedi:

– Doğrudur, dost dostu yeməz. Yadındadırmı mən sənlə şərt gəsmişdim ki, əgər məni aldatsan, oğurluq eləsən, səni yeyəcəyəm. İndi görürəm sən öz xəyanətindən əl çəkməyibsən, ona görə əlimdən qurtara bilməyəcəksən. Sən mənim yağımı oğurlayıb yedin, mən də səni yeyirəm.

Pişik atılıb siçanı yedi.

Ayının yuxusu

Biri var idi, biri yox idi, meşədə bir ayı var idi. Qış düşmüşdü, hər yerə qar yağmışdı, bütün quşlar, heyvanlar hamısı qaçıb yuvalarına dolmuşdular. Ayı yeməyə heç nə tapa bilmirdi, az qalırdı acından ölsün. Ac toyuq yuxusunda darı görən kimi, ayı da yuxuda bir şaqqa ət gördü, başladı damağını şartlada-şartlada əti yeməyə. Ayı öz səsinə oyanıb başladı yuxuda gördüyü əti axtarmağa, bir xeyli yol gedib, dağlar aşdı, dərələr keçdi, gəlib bir dağın ətəyinə çatdı.

Bu dağın ətəyində bir çoban qoyun otarırdı. Sürünün qabağını çəkən keçilərdən biri sürüdən bir az aralı qayanın başına çıxıb, kol-kosa dırmaşırdı.Birdən ayağının altından daş sürüşdü, keçi yumalanıb yerə düşdü. Demə ac ayı qayanın dibində keçini güdürmüş, o saat keçinin başının üstünü alıb dedi:

– Aha, keçi qardaş, demək yuxum düz imiş, indi səni bu saat elə yeyərəm ki, heç ruhun da inciməz.

Keçi istədi qaça, gördü həm qayadan uçub qol-qılçası əzilib, həm də ayı başının üstünü kəsib. Odur ki, özünü toxdadıb hiyləgərliklə dedi:

– Ayı lələ, onsuz da bir gün məni kəsib yeyəcəklər. Elə sən yesən hamısından yaxşıdı, çünkü sən insaflısan, heç olmasa mənim xahişimi yerinə yetirib sonra yeyərsən.

Ayı dedi:

– Keçi qardaş, nədir sənin xahişin?

Keçi dedi:

– Ayı lələ, sən bilirsən ki, mənim yaxşı səsim var, qoy arzum ürəyimdə qalmasın, bir-iki ağız oxuyum, sonra nə istəyirsən elə.

Ayı aldanıb razılıq verdi.

Keçi o qədər öyrənmişdi ki, sürüyə qurddan, ayıdan gələndə o saat dilin əsdirə-əsdirə mələyirdi . Çoban keçinin səsini eşidən kimi bilirdi ki, sürüyə düşmən girib. İndi də keçi başladı yenə dilini əzə-əzə bərkdən mələməyə. Çoban keçinin səsini eşidən kimi çomağı çiyninə alıb, itləri də çağırıb səs gələn tərəfə yüyürdü. Çoban o vaxtı yetişdi ki, ayı keçini yemək istəyir. Tez çomağa qoyma deyib başladı ayını şil-küt eləməyə, bu tərəfdən də Alaşla Bozdar ayını dişlək-dişlək eləyib qovdular. Ayı anqıra-anqıra canını bir təhər qurtarıb qaçdı.

Ayı özünü meşənin qalın yerinə vurub gizləndi. Aradan bir az keçmiş bədəninin ağrıları getdi, gördü ki, yenə acından ölür, başladı yuxuda gördüyü əti təzədən axtarmağa, az getdi, çox dayandı, çox getdi az dayandı, iki qara qoça rast gəldi.

Qoçlar istədilər qaçalar, gördülər yox, yaman yerdə yaxalanıblar.

Odur ki, ayıya ədəb-ərkanla salam verib dedilər:

– Ayı lələ, kefin necədi nə var, nə yox?

Ayı dedi:

– Kefim necə olacaq, bir həftədir acından ölürəm, yaxşı oldu sizi tutdum. İndi ikinizi də yeyərəm kefim kökələr.

Qoçlar göz-göz eləyib ayıya kələk gəldilər. Qoçun biri o birinə dedi:

– Ayı lələ, gərək əvvəl məni yeyə.

İkinçi qoç o birinə dedi:

– Yox, gərək qabaqca məni yeyə.

Ayı gördü ki, qoçlar əl çəkmirlər, odur ki, dedi:

– Gəlin belə bir şərt kəsək . Hərəniz bir tərəfə çəkilin, kəllə-kəlləyə döyüşün, kimin buynuzu qırılsa onu qabaqca yeyəcəyəm.

Qoçlar belə fürsəti çoxdan axtarırdılar. Odur ki, hərəsi ayının bir tərəfnə keçib geri çəkildilər. Hər iki tərəfdən ayının başına elə bir kəllə vurdular ki, ayı gicəllənib yıxıldı ycrə. Ayı özünə gələnə kimi qoçlar qaçıb getdilər.

Qoçlar gedəndən sonra ayı hannan-hana özünə gəldi. Donquldana-donquldana başladı getməyə. Yolun bir dar yerində, iki qayanın arasında bir ata rast gəldi. Ayı öz-özünə dedi: "Nə yaxşı oldu, bir keçidən, iki qoç-

dansa yenə bir at yaxşıdır. Elə onu yeyərəm, gözümün qurdu ölər". Bu məqsədlə ayı atın qabağına yüyürdü. Yol çox dar idi deyə at geri dönüb qaçmağa fürsət tapmadı. Gördü ki, ayı onun yamanca yerdə tutub. At ayının axmaqlığını bilirdi. At dedi:

– Ayı qardaş, səndən bir xahişim var, indi ki, məni yeyəcəksən, gözüm baxa-baxa yemə, keç dal tərəfimə özü də heç əziyyət çəkmə, ağzını açıq qoy, mən dal ayağımı uzadım ağzına, rahatca ye, mənim də gözüm görməsin.

Ayı atın sözünə inanıb keçdi onun arxasına, elə yenicə ağzını açırdı ki, at dal ayağı ilə onun ağzından elə bir təpik vurdu ki, bütün dişləri getdi qarnına. Başı-gözü tamam əzildi. Tirtap yıxılıb ürəyi getdi. At o saat dördnala çaparaq qaçıb gözdən itdi.

Ayı özünə gələndən sonra donquldana-donquldana başladı getməyə. Yolda bir tülküyə rast gəldi. Tülkü gördü ki, ayı yaman gündədi, odur ki, dedi:

– Ayı lələ, sənə nə olub bu günə düşübsən?

Ayı başına gələn əhvalatları bir-bir tülküyə söylədi.

Tülkü birdən gülüb dedi:

– Ayı lələ, get bir də yuxuda ət görmə.

Tülkü ilə canavar

Bir acgöz canavar, qoyun sürüsünə dadanıb gündə iki-üç qoyun-quzunu tələf edirdi. O qədər qudurmuşdu ki, toyuq-cücələri də yeməyə başlamışdı.

Kəndin ətrafında çoxbilmiş bir hiyləgər tülkü var idi. Bu tülkü toyuq-cücə yeməklə dolanırdı. Canavar kəndin toyuqlarını yediyi üçün tülkü ac qalırdı. Odur ki, bir gün tülkü canavarın qabağını kəsib dedi:

– Ay canavar lələ, kəndin bütün qoyun sürüləri sənin qarnına gedir, gündə iki qoyun yeyirsən, onlar səni doydurmur ki, bizim payımıza düşən toyuq-cücələri də yeyirsən?

Canavar dedi:

– Tülkü baba, deyəsən qurd ürəyi yemisən, nə cürətlə mənə belə deyirsən? Kefim nə istəyir yeyirəm, sənə nə? Artıq əskik danışsan, səni də yeyərəm.

Tülkü dedi:

– Canavar lələ, sən məndən güclüsən, məni yeyə bilərsən, amma mənə də tülkü deyərlər, sənin dilini divara mıxlaram. Özünə də nə istəsəm eləyə bilərəm.

Canavar qəzəblənib dedi:

– Tülkü, səni yeyərdim, indi toxam deyə dəymirəm. Amma yoxlamaq istəyirəm görüm sənin kimi gücsüz bir heyvan mənə nə eləyə bilər?

Tülkü dedi:

– Canavar lələ, təkcə güclü olmaq şərt deyil. Gərək ağıl, bacarıq da olsun. O da ki, səndə yoxdur.

Canavar tülkünün sözünə kinayə ilə gülüb dedi:

– Tülkü baba, nə bacarırsan elə.

Tülkü dedi:

– Bu gün işim var. Sabah buradan keçəndə danışarıq.

Canavarla tülkü ayrılıb hərəsi öz yerinə getdi. Tülkü gecə səhərə qədər yatmayıb çoxlu hiylə qurdu. Səhər tezdən gəlib yolun ayrıcında oturdu. Əlinə biz, iynə alıb çarıq tikməyə başladı. Canavar gəlib yoldan geçəndə dedi:

– Tülkü baba, nə qayırırsan?

Tülkü dedi:

– Görmürsən, çarıq tikirəm.

Canavar dedi:

– Mənə də öyrədərsənmi?

Tülkü dedi:

– Öyrədərəm, amma bir az əzabı var, gərək dözəsən.

Canavar dedi:

– Dözərəm, öyrət.

Tülkü dedi:

Sən gəl dilini çıxart qoy ağacın kötüyünün üstə, mən bizi batırım dilinə. Bir az ağrıya döz. Sonra çarıq tikməyi öyrənəcəksən.

Canavar inanıb dilini kötüyün üstünə qoydu. Tülkü bizi onun dilinin ortasından elə vurdu ki, deşib batdı kötüyə. Canavar başladı çığırmağa, tülkü tez aradan çıxıb qaçdı. Canavar səhərdən axşama qədər çapalıyıb bir təhər bizi dilindən çıxartdı: dili tamam parça-parça olmuşdu. O gecə canavar dilinin ağrısından yata bilmədi. Səhər axtara-axtara gəlib tülkünü bir dəyirmanın su novdanının başında tapdı.

Canavar dedi:

– Tülkü baba, dünən mənim başıma bu oyunu gətirdin, de görüm indi çarıq tikməyi öyrəndim, ya yox?

Tülkü dedi:

– Bəli, öyrəndin.

Canavar dedi:

– Bəs burada nə qayırırsan?

Tülkü dedi:

– Bir dərim var idi, çarıq tikmək istəyirdim, su axıdıb saldı dəyirmanın novdanına. Onu axtarıram.

Canavar dedi:

– Tülkü baba, onu ver mənə, görüm çarıq tikə bilirəmmi?

Tülkü fürsəti əldən vermeyib dedi:

– Canavar lələ, indi ki, belə oldu, düş çıxart, dəri də sənin olsun.

Canavar özünü dəyirmanın altına atdı ki, dərini çıxartsın, çarxa ilişib qol-qabırğası sındı.

Tülkü buradan qaçıb gəldi meşəyə, bir qom çubuq qırdı, yolun kənarında oturub başladı səbət hörməyə. Canavar çox çətinliklə dəyirmanın altından çıxıb axsaya-axsaya gəlirdi. Gördü tülkü oturub səbət hörür.

Tülkü tez qabağa yeriyib dedi:

– Canavar lələ, niyə axsayırsan?

O dedi:

– Dəyirmanın çarxına ilişdim, əzik-əzik oldum, elə günə düşdüm ki, dəri yadımdan çıxdı, özümü bir təhər ölümdən qurtardım. Qol-qabırğam elə qırılıb ki, yerimdən tərpənə bilmirəm.

Canavar göz gəzdirib dedi:

– Tülkü lələ, nə yaxşı səbət hörürsən?

Tülkü dedi:

– İstəyirsən, sənə də öyrədim?

Canavar dedi:

– Elə istəyirəm!

Tülkü dedi:

– Onda gəl gir səbətin içinə, mən hördükcə sən də bax öyrən.

Canavar razı oldu, girdi səbətin içinə. Tülkü səbəti o qədər hördü ki, tamam ağzını da bağladı, canavar qaldı içində. İstədi çıxa, gördü heç cür mümkün deyil. Odur ki, dedi:

– Tülkü lələ, axı mən içəridə qaldım. Səbətin ağzını aç, çıxım.

Tülkü dedi:

– Canavar lələ, sən narahat olma. Görürəm bərk əzilibsən, yeriyə bilmirsən. Odur ki, səbəti yumbalaya-yumbalaya aparacağam, sən də içəridə rahat gedərsən.

Canavar bərk əzilmişdi deyə razı oldu. Tülkü səbəti itələyə-itələyə bir çobanın yanına gətirdi. Çoban ondan soruşdu:

– Ay tülkü, bu nədir?

Tülkü dedi:

– İçində canavar var, aparıram dağdan yumbalayam.

Çoban dedi:

– Ay tülkü, niyə zəhmət çəkib uzaqlara gedirsən, gətir onun cəzasını özüm verim. Onsuz da canavardan mən çox yanıqlıyam. O gün də sürüdən bir qoyun apardı.

Tülkü dedi:

– Onda qarnımı doydur, bağışlayım sənə.

Çoban o saat səhər kəsdiyi qoyunun ətindən bir şaqqasını gətirdi. Tülkü əti alıb səbəti verdi. Çoban tütəyini çalıb yoldaşlarını çağırdı. Onlar səbətin ağzını bir xeyli sökdülər, gördülər içində bir yekə canavar var. Hərə bir çomaq götürüb o qədər vurdular ki, canı çıxdı. Səhər bu xəbər kəndə yayıldı. Tülkü eşidib öz-özünə dedi:

– Axmaq canavar, gördünmü tülkü sənin başına nə oyun açdı?

Bülbülün nağılı

Günlərin birində bir tacir meşədən bir bülbül tutur, onu evinə gətirir. Gözəl qəfəs düzəltdirdi. Qəfəsi qızıl-gümüşlə, daş-qaşla elə bəzədir ki, baxan heyran qalır. Tacir bülbülü həmin qəfəsə salır. Ona baxmaq üçün bir xidmətçi tutur.

Tacirin gözəl bağçası hər cür əlvan gül-çiçəklə dolu idi. Rəngbərəng güllərin, çiçəklərin ətri adamı heyran eləyirdi. Bağçanın ortasında yeddi yerdən fəvvarə vuran ağ mərmərdən qəşəng bir çarhovuz var idi. Tacir bülbülün qızıl qəfəsini həmin çarhovuzun yanında səfalı bir yerdən asdırmışdı, hər gün səhər axşam gedib ona tamaşa eləyirdi.

Bülbül həmişə yanıqlı havalar oxuyub, qəm çəkirdi.

Tacir quş dilini bilən bir adam tapıb, bülbülün nə üçün ah-fəğan elədiyini öyrənmək istəyirdi. Quş dili bilən adam deyir:

– Tacir ağa, bülbül ah-fəğan cləyib oxuyur ki, mənim əziz vətənim, yurdum-yuvam! Kaş azad olaydım, yuvamda yaşayaydım.

Mən aşiqəm dilən gəz,
Bağda gülə dilən gəz,
Qürbətdə xan olunca,
Vətənində dilən gəz.

Tacir görür ki, ah-fəğan eləməkdən bülbül gündən-günə üzülür. Odur ki, onu açıb buraxır. Quş dili bilən adamla birlikdə hərəsi bir ata minib bülbülü izləyirlər. Bülbül dağlar aşıb, dərələr keçir, çaylarda çimib, bulaqlardan su içir, az gedir, çox gedir, dərə-təpə düz gedir, gəlib meşədəki ağac ovuğundakı yuvaya girib deyir:

– Ah vətən, sən nə gözəlsən !

O gündən bülbül şən havalar oxuyur, azad gün keçirməyə başlayır.

Tacir dedi:

– Çox qəribədir, mən onu qızıl qəfəsdə, gülün, çiçəyin içində bəsləyirdim, oranı bəyənmirdi,indi bir ağacın ovuğunu ondan üstün tutur.

Quş dili bilən adam deyir:

– Tacir ağa, sən buna təəccüblənmə, hər kəsin vətəni, evi-eşiyi özünə xoşdur. Bülbül burada azaddır. Azadlıq hər şeydən üstündür

ƏFSANƏLƏR

DAĞ, DAŞ VƏ QAYALAR

Gəlin daşı

Bir gəlin körpəsi qucağında Murov dağından keçib atası evinə gedirmiş. Birdən bərk külək qopur. Gəlin görür ki, külək uşağı onun əlindən alacaq. Odur ki, yalvarmağa başlayır:

– Ey göylər, küləyi yavaşıt, bizi xilas elə !

Külək daha da şiddətlənir. Gəlin yenə də yalvarıb deyir:

– Ey fələk, qoyma külək balamı əlimdən alsın, bizi bir-birimizdən ayırsın. Bizi bir yerdə daş elə.

Gəlin uşağı bərk-bərk bağrına basır və eləcə də daşa dönür. Bu daş indi "Gəlin daşı" adlanır.

Laçın qayası

Laçın məşhur ovçu imiş. Onun Ülkər adlı bir qıza gözü düşür. Elin adətinə görə elçi göndərir.

Qızın atası Şahmar kişi elçilərə deyir:

– Eşitmişəm ki, sizin oğlan ovçuluğu ilə çox öyünür. Söz düşəndə : "Atdığım oxdan heç nə yayına bilməz!" deyir. Əgər belədirsə, qoy sübut eləsin. Sıldırım qayada yaşayan dağkeçisini ovlayıb mənə gətirsə, qız onunkudur.

Elçilər bu xəbəri Laçına aparır. Laçın həm sevinir, həm də qəmlənir. Səhər erkən fikirli-fikirli Sıldırım qayaya doğru yollanır. Çatan kimi də dağkeçisini görür. Keçi qayadan qayaya tullanır. Laçın da onun arxasınca düşür, fürsət tapıb oxla dağkeçisini yaralayır. Keçini qayanın üstündə tutur, amma saxlaya bilmir. Keçi ilə birlikdə iki qayanın arasına düşür. Nə qədər çalışıb-çabalayırsa da, oradan çıxa bilmir. Laçın üç gecə qayanın arasında qalır, tamam taqətdən düşür.

Xəbər obaya çatır, ancaq heç kim ona kömək edə bilmir.

Elin ağsaqqalı Elbəyi kişi deyir:

– Qaçın kənddən Ülkəri gətirin, o gəlməsə, oğlan öləcək.

Belə də edirlər. Elbəyi kişi deyir:

– Qızım, Ülkər! Qayanın başına çıx, Laçını ucadan çağır, sənin səsini eşidən kimi onun qollarına qüvvət, dizlərinə taqət gələcək.

Ülkər qayanın başına çıxıb ucadan çağırır:

– Laçın hey!..

Elə bil oğlan bu səsə bənd imiş. Sevgilisinin səsi ona qol-qanad verir. Keçini çiyninə alıb üzüyuxarı qayaya dırmaşır. Ülkərin yanına çıxır və onunla qayanın başında qoşa dayanır.

Bu qaya indi "Laçın qayası" adlanır.

Qanlı qaya

Polad kəndində Əli adlı bir bəy yaşayırmış. Əli bəyin gözünün ağı-qarası Telli adlı bir qızı varmış. Telli çox gözəl imiş. Əli bəyin öz çobanı Hilal bir könüldən min könülə Telliyə aşiq olur. Telli özü də könlünü Hilala verir, onu ürəkdən sevir.

Əli bəy bu işdən xəbər tutur. Hilalı qapısından qovur. Hilal çöllərə düşür, hündür bir qayanın başında yaşamağa başlayır. Əli bəy qızı başqa bir oğlana vermək istəyir. Qız bu xəbəri eşidir. Göz yaşı axıtmağa başlayır. Qız atasından xəbərsiz Hilalla görüşür. Əhvalatı ona danışır. Hər ikisi ələ-ələ verib, həmin uca qayanın başına qaçırlar. Əli bəy işdən xəbər tutan kimi, qoşun toplayıb qayanın dibinə yaxınlaşır. Qoşun həmləyə keçməmiş Əli bəy özu qayanın başına bir xəbərdarlıq oxu atır. Ox süzüb çobanın sinəsinə keçir. Çobanın sinəsindən qan axıb qayanın üstunə tökülür. Çoban ölür. Telli bu haqsızlığa dözmür. Qayanın başına çıxıb, yanıqlı bir bayatı çəkir:

Əzizim qanlı qaya,
Daşları qanlı qaya.
Əlim xına tutmadı,
Yasa bat, qanlı qaya.

Bu sözləri deyib qız özünü qayadan atır.

Elə həmin vaxtdan xalq o qayanı "Qanlı qaya" adlandırır.

Qum-qum daş

Laçın rayonunun Ağoğlan kəndi yaxınlığında, Həkəri çayının Minəkənddən gələn qolunun sahilində böyük bir daş var. Bu daş dağın döşündəki böyük qayadan qopub gəlmişdi. İndi də onun qopduğu yer bilinir. Deyirlər ki, el dağa köçən zaman gəlib o qayanın dibinə düşmüşlər. Qayınana ilə gəlin sac asıb çörək bişirən zaman möhkəm göy guruldayır. Bu zaman dağdakı böyük daşdan belə bir səs eşidilir:

Qum-qum daş,
Gəldim qaş.

Bu zaman möhkəm yağış başlayır. O nəhəng daş isə qoparaq çaya yuvarlanır. Bir neçə adamı, heyvanı məhv edir. Deyirlər, bu daşdan səs gələn zaman bunu ancaq gəlin eşidir, gəlinə inanmırlar. Ona görə də vaxtında qaçmadığına görə kənd camaatı bu nəhəng daşdan xeyli ziyanlıq çəkir. Həmin daş indi də "Qum-qum" daş adlanır.

Çoban və daşa dönən sürü

Topbağ kəndində bir çoban yaşayırdı. Həmin çoban qoyunları ilə birlikdə yaylağa köçməli olur. Yolda bir ziyarətgahın yanında gecələyir. Çoban burada ocaq qalayır və öz-özünə deyir:

– Əgər bura doğrudan da ziyarətgah isə, mən yaylaqdan qayıdana kimi bu ocaq burda yana-yana qalsın. Qayıdarkən görsəm ki, burda ocaq qoyduğum kimi yanır, yeddi qurban kəsəcəyəm.

Səhər tezdən çoban qoyunları qabağına qatıb yoluna davam edir. Aradan xeyli müddət keçir, yaylaq vaxtı sona çatır. Çoban yaylaqdan enərkən yolunu həmin ziyarətgahın yanından salır. Görür ki, yaylağa çıxarkən yandırdığı ocaq necə yandırmışdısa, elə də yana-yana durur. Bunu görən çoban təəccüb edir. Lakin, verdiyi sözə əməl etmir. Yoluna davam etmək istəyir. Bu zaman çobanın özü də, sürüsü də daşa dönür.

Həmin yer hal-hazırda da Topbağda durur.

Qaraçənli və Dəlidağ

Varlı bir ailə Gözələ elçi gəlir, onu oğluna istəyir. Qızın atası bundan çox xoşhal olur, razılıq verir.

İşi belə görən Gözəl sevdiyi Buta adlı çobana qoşulub dağlara qaçır.

Varlı oğlan dəstə bağlayıb, Gözəllə Butanı tutmağa gedir. Biri deyir:

– Onları tutan kimi çoban Butanı qızın gözünün qabağında qayadan atacam.

O biri deyir:

– Onu qızın gözünün qabağında bu xəncərlə iki şaqqalayacam.

Onlar xeyli yol gedib, oğlanla qıza çatırlar. Bu dəm araya elə bir qara çən çökür ki, göz gözü görmür. Onlar cavanları itirirlər. Çən çəkiləndə görürlər ki, Gözəllə Buta bir dağın başında oturub şirin-şirin söhbət edir. Onlara yaxınlaşmaq istəyəndə dağ silkələnir, göy şaqqıldayıb dolu tökür. Gözəllə Buta qayaların altına girib gizlənirlər. Onları izləyən dəstəni isə dolu qırıb tələf edir. Ölən ölür, qalan qayıdıb geri qaçır.

"Nə oldu, tapdınızmı?" deyib soruşanlara salamat qalanlar cavab verirlər:

– Tapdıq, amma Qaraçənli təpə, Dəlidağ onların tərəfində oldu. Bizi gah çənə basdırdılar, gah da doluya döydürdülər.

Dağların ayrılığı

Alvız ana sac asıb yuxa bişirmək istəyirmiş. Xəmiri kündələyib yığır, yuxanı bir-bir yayıb süfrəyə sərir, sacın qızmağına gözləyirmiş. Böyük oğlu Qoşqar, ortancıl oğlu Murov, kiçik oğlu Kəpəz də ocağın qırağında oturublarmış. Qabaqlarında da dələmə, ovma, yuxa bişdikcə bölüşdürüb isti-isti yeyəcəkmişlər.

Alvız ana ilk yuxanı sacın üstünə salan kimi Kəpəzin tərsliyi tutur:

– Bu yuxa təkcə mənimdir, – deyir, – heç birinizə verməyəcəyəm.

Murov:

– Yox mənimdir, – deyir, – hər şeyin ilkini həmişə sən götürürsən, indi də mən.

Qoşqar onlara acıqlanır:

– İndi ki, belə oldu, heç biriniz ona əlinizi vura bilməzsiniz. Gözləyərik, üç yuxa bişər, Hərəmiz birini götürərik.

Qardaşlar höcətləşirlər, yuxa bişməmişdən bir-birinin yaxasını cırası olurlar. Alvız ana onlara nə qədər təpinirsə, kirimirlər. Kəpəzlə Murov dalaşmağa başlayır. Qoşqar onların arasında oturub onları sakitləşdirmək istəyir. Ancaq Murov bir kösöv götürüb Kəpəzin peysərinə endirir. Kəpəz bar-bar bağırır. Boynunu tuta-tuta qaçır.

Qoşqar kəpəzi çox istəyirmiş, kiçik qardaşının şivəninə dözmür, qızmar sacı qaldırıb Murovun başına çırpır. Murov da çığıra-çığıra başqa səmtə üz tutur.

Alvızın üzü bozarır. Qoşqar döyüləcəyindən qorxub günbatana yüyürür.

Üç qardaşın hərəsi ayrılıb bir yanda qərar tutur. Alvız ana tək qalır. O vaxtdan bəri qardaşlar öz analarına, ana da öz oğullarına bax-baxa qocalmışlar. Hər bulaq, hər çay onların bir göz yaşıdır, onların bu həsrətləri, bu intizarları dənizlərdə, dəryalarda görüşür.

Beşikli dağ

Uca bir dağın başında kiçik bir qəbilə yaşayırdı.

Aylı bir axşam idi. Çoban öz çomağına söykənib qarşısında otlayan sürüsünə baxır. Bozdar onun ayaqları altında xoşallanır. Beli yəhərli kəhər at isə çəmənlikdə otlayırdı.

Qəbilə üzvlərinin hamısı yatmışdı. Təkcə bunlar, bir də beşik başında bir ana oyaq qalmışdı.

Ana ayın işığında çoxlu qaraltı görür. Diksinir. Diqqətlə baxdıqda görür ki, qəbiləyə düşmən qoşunu gəlir. Ana həyəcanlanır. O, qorxur ki,

qanlı müharibə, döyüş-dava onu öz körpəsindən ayıra. Ana əlçatmaz göylərdən kömək diləyir:

– Ayırıb öldürməkdənsə bizi bir yerdə daş elə!

Qəbilə yatmış vəziyyətdə, çoban sürüsüylə, kəhər at yəhərli otladığı yerdə, ana beşik başında daşa dönür. Uzaqdan uşağın beşiyi daha aydın göründüyü üçün bu dağa "Beşikli dağ" deyirlər.

Kürsəngi dağı

Deyilənə görə, qədim zamanlarda Kür adlı bir oğlan anası ilə birgə yaşayırmış.

Onların yeri o qədər susuzluq imiş ki, burda zəhərli ilanlardan başqa heyvan, yovşandan, qara tikandan başqa ot bitmirmiş. Kür hər gün gündüzlər işləyir, əkdiyi bir parça yeri öz alın təri ilə sulayırmış. Hər gecə, sərin düşəndə isə gəlib uzaqdan axan bir çaydan anası üçün su aparırmış.

Bir gün Kürün anası xəstələnir. Evdə nə bir qaşıq su olur, nə də yeməyə bir tikə çörək. Kür səhəngi götürüb yola düzəlir. İlan mələyən düzlərdən keçir, susuz kolluqlardan ötür, gəlir, kənarları qayalıq olan bir çaya çatır. O, ancaq indi yadına salır ki, anası üç gündür susuzdur. Axı o, üç gün yol gəlmişdir. Kür tez suya tərəf cumur. Özünü qayadan çaya atır. Sən demə, çay çox dərin, özü də iti axan bir çay imiş. Kürün səhəngini su aparır. Özü də güclə dayanır. Amma o necə olur-olsun anasına su aparmalı idi.

Coşqun çayda Kür yorulur. Deyirlər, dalğalar səhəngi və Kürü daşlara çırpır, hər ikisi sahilə düşür. Amma artıq gec idi. Kürün nəfəsi kəsilmişdi. Onun üzündə bir kədər oxunurdu.

Sanki o, anasına su apara bilmədiyi üçün xəcalət çəkirdi. Çay tutduğu işdən peşman olub tələtümə gəlir, çağlayıb sahilini aşır, hətta Kürün xəstə anasının da daxmasına gəlir. Qarı sudan içib şəfa tapır.

Külək də Kürə olan məhəbbətinin izharı kimi, bütün külək nəslini başına yığır. İgid Kürün məzarını qumla, torpaqla örtür.

Kürün üstündə bir təpə ucalır. Təpənin kənarları da su. Düzənlərin yeganə heyvanı olan ilanlar isə suyun içindəki təpənin üstünə pənah gətirirlər, təpə ilanların məskəninə çevrilir. İllər keçir. Kür ilə səhənginin üstündə üca təpə böyüyür, bir dağa çevrilir – Kürsəngi dağına. Sonralar buralara adamlar köçür. Yurd-məskən salırlar.

Belə deyirlər ki, ilan bir adamı vuran kimi, tez həmin dağa qaçır. Əgər ilan vuran adam həmin dağa ilandan gec gələrsə, onda xəstə sağalmaz. Əgər xəstə tez çatsa, mütləq sağalmalıdır. Bu da onunla əlaqədardır ki, guya şəfanı onlara Kür verir. Kürün məzarına kim daha tez çatıb ziyarət etsə, Kür ona şəfa verər.

BULAQ, ÇAY VƏ GÖLLƏR

Qara at bulağı

Şimşatın əhalisi su sarıdan bərk korluq çəkirdi. Hər yan susuziuqdan qovrulub xəzələ dönmüşdü. Yayın qızmar çağında daha dəhşətli olurdu.

Yaxındakı dağın döşündən car olan zəmzəm kimi bulağın suyu kəsilmişdi. Camaat üçün bəlaya çevrilən bir qara, nəhəng ilan qıvrılıb bulağın gözünü tutmuşdu. Şimşatlılar nə tədbir tökdülərsə, qara ilanı insafa gətirə bilmədilər. Xeyli itki verəndən sonra başqa çıxış yolu axtardılar.

Su üçün camaat dərin-dərin quyular qazıdılar. Quyulardan suyu əvvəlcə kəllər çıxartdı. Kəllər gecə-gündüz işlədi, amma adamların təşnəsi sönmədi. Kəllər tələf olandan sonra özüklər meydana gəldi. Özüklərin də çıxardığı bir ovuç su vəziyyəti yüngülləşdirmədi. Özüklər də sıradan çıxdı.Axırda əlac atlara qaldı.

Kəllərə və öküzlərə nisbətən zərif heyvan olan atlar qızmar günəş altında ağır işə dözmür, tezliklə üzülüb əldən düşür, tələf olurdular. Çox keçmədi minik atları, çapar atları, döyüş atları – ən yaxşı cins atlar seyrəlib yoxa çıxdılar. Növbə qulunlara, dayçalara gəldi.

Atların içində hələ ana qoxusu burnunda, ata əzəməti yerişində olan bir Qara at da vardı. Ağzı cilov, beli yəhər görməmiş Qara atın yerişinə, duruşuna, oynaqlarına, çapmına hamı heyran idi. Elə bil təbiət Qara atı cıdırda çapmağa, döyüşdə düşmən qabağına çıxmağa yaratmışdı.

Nəhayət, növbə Qara ata çatdı. Onu quyudan su çıxarmaq üçün qoşquya apardılar. Boynuna ağır kündə qoyub quyunun başına dolandırdılar. Qara ilan dəhşətli qara günə çevrilmişdi.Bir az da belə getsə, Şimşatda hənirti qalmayacaqdı. Qara at qara ilanı görən kimi gözlərindən od çıxdı, yalını oynadıb şahə qalxdı. Elə bir kişnərti qopardı ki, dağ-daş titrədi, sonra qoşa ayaqlarını zərb ilə qara ilanın başına vurdu. Başı əzilən ilan öldü.

Bulaq yenidən cana gəldi. Onun həyat verən seli-suyu hər yana car oldu. Hamı əzab-əziyyətdən qurtardı. Qara at qara ilanı öldürməklə Şimşat camaatına ağ gün gətirdi. O vaxtdan bəri bu bulaq "Qara at bulağı" adlanır.

Qanlı göl

Bir kasıb kişi əkinçiliklə dolanırdı. Dağın başındakı gölün yanında əkin yeri vardı.

Kişi üzünü arvadına tutub dedi:

– Arvad, istəyirəm oğlumu da özümlə iş üstünə aparım. Mən məcgəlçi olum, oğlum da hodaxçı.

Kişi uşağı öz əli ilə boyunduruğa mindirir, öz əli ilə də yerə düşürürdü. Ata buna da çox sevinirdi: "Köməkdir, hayandır" – deyirdi.

Birdən özüklərdən birinin samıbağı qırıldı. Kişi oturub samıbağı hörməyə başladı. Bir də başını qaldıranda gördü ki, özüklər gölə çathaçatdadı, uşaq da boyunduruqdan yapışıqlı qalıb. Kişi çatanacan özüklər özlərini suya vururlar. Elə bil bu düzdə nə öküz varmış, nə də cüt. Kişinin başına hava gəlir, göllə danışır:

Əzizinəm, qanlı göl,
Qanlı dərya,qanlı göl:
Qaytar mənii oğlumu,
Olma mənnən qanlı, göl!

O vaxtdan bu göl "Qanlı göl" adlanır.

Qanlı gölün maralları

Bir ana maralın bir cüt balası vardı. O, balalarını Ağ gölün sahilində qoyub otlamağa getdi. Çəməndə xeyli otladı. Birdən maral yad nəfəsi duyub diksindi, ovçunu gördü. İnsafsız ovçunun atdığı ox maralın sinəsinə sancıldı. Maral bir başa ac qoyub gəldiyi balalarına tərəf qaçdı. O, al qan içində idi. Balaları heç nə başa düşməyib al qan içərisində olan analarını son dəfə doyunca əmdilər. Yaralı maral can verə-verə balalarını süzürdü, yavaş-yavaş göz qapaqları endi. Ağ göl maralın qanından qıpqırmızı oldu. O gündən gölün adı dəyişib "Qanlı göl" oldu.

Deyirlər ki, o vaxtdan həmin maralın nəsli "Qanlı göl" ü unutmur, onun sahilinə gəlir, çəməndə otlayır, gölün suyundan içirlər.

Göyçə gölü

Rəvayətə görə indiki Göyçə gölünün yerində, dağlar qoynunda böyük düzənlik və bu düzənlikdə xırdaca daşlı təpəliklər və mənzərəli bir yer varmış.

Burada maldar tayfalar arasında tez-tez basqınlar və dalaşmalar olardı. Bu səbəbdən bir ailənin bir gün cavan bir oğlu dalaşmalarda itkin düşür və tapılmır. Ailənin itkin düşmüş oğlunun çox gözəl bir bacısı qardaşının həsrəti ilə evlərində qəmgin halda yaşayırdı. Oğlan isə haradansa bir gün öz vətəninə – Göyçəyə qayıtmağı qət edir.

Göyçə düzənliyindəki xalqın yaşayış kəndlərindən birinin ortasında böyük bir yeraltı bulaq var idi.

Bu bulağın bir sirri var idi ki, suyu götürəndən sonra bulağın daşmaq adəti çox qorxulu idi. Ona görə də bu bulağın ağzına qapaq hazırlanmışdı. Hər kəs suyu götürdükdən sonra qapağı möhkəm örtərdi. Qardaşı itin

düşmüş qız həmin bulaqdan su götürərkən bir uşaq qaça-qaça gəlib onun qardaşının gəldiyini xəbər verir. Çox sevincək olan qız suyu götürüb, bulağın ağzını örtmədən çıxıb gedir. Quyu isə gecə daşıb çölə axmağa başlayır və gur su həmin mahalı alır və Göyçə gölünü əmələ gətirir.

Göy göl

Şəhri-zərrin şəhərinin hər tərəfi sıldırım dağlar və qayalarla əhatə olunmuşdu.

Buranı Salsal adlı bir padşah idarə edirdi. Onun hökmü yerə-göyə sığmazdı. Bir gün padşahın qulluqçuları gördülər ki, elçi daşının üstə üç ərəb oturub. Qulluqçular tez padşaha xəbər verdilər. Padşah elçilərin onun yanına buraxılmasını əmr etdi.

Ərəblər ədəb-ərkannan baş əyib gətirdikləri naməni padşahın qabağına qoyurlar. Padşah naməni oxumağı əmr edir:

Orada yazılmışdı: – Ey Salsal, gəl müsəlmanlığı qəbul et, əgər qəbul etməsən hazırlaş, sənlə dava eləyəcəm.

Bu sözlər Salsalı elə götürür ki, az qalır hirsindən başı partlasın.

İstəyir ərəblərin başını vurdursun. Amma vəzir ağıllıydı, qoymayıb deyir:

– Qibleyi-aləm sağ olsun, elçiyə zaval yoxdur, bunların nə təqsiri var?

Padşah bu sözdən sonra ərəblərə bir məktub yazıb verir və yola saldırır.

Ərəblər bir neçə gündən sonra gəlib öz ölkələrinə çıxırlar və məktubu xəlifəyə verirlər.

Xəlifə məsələni biləndən sonra yol alıb Salsalın ölkəsinə gəlir. Salsal sərhəddə o qədər qoşun yığmışdı ki, otun-quşun sayı varıydı, amma qoşunun sayı yoxuydu.

Ərəb qoşunlarını görəndə Salsalın bir qədər rəngi qaçır. Xeyli fikir edir.

Salsalın Zərəngiz adlı gözəl-göyçək bir qızı var idi. Onun 17 yaşı yenicə tamam olmuşdu. Rəmmallığı da çox yaxşı bilirdi.

Padşah qızı yanına çağırtdırıb dedi ki, ey mənim mehriban qızım, bir rəml at, görək bu işin axırı necə olacaq?

Qız bir rəml atır, amma rəngi saralır.

Atası soruşur:

– Hə, mehriban qızım, de görək rəngin niyə saraldı?

Zərəngiz cavab verir ki, atayi-mehriban, deyəsən ərəblər bizə qalib gələsidir.

Elə bil Salsalı ildırım vurur. "Ey çəpəl, sən də ərəblərin sehrinə uydun", – deyib qıza bir şillə çəkir. Qız bihuş olub yıxılır.

Padşah əmr edir ki, bu çəpəlin boynunu vurun.

Vəzir qabağa yeriyib deyir: şah sağ olsun, hələlik əlini saxla, qoy görək bu işin axırı necə olur.

Salsal qızı zindana saldırır. Ertəsi gün Salsalın qoşunu ilə ərəblərin qoşunu qabaqlaşır. Qızğın dava başlanır. Salsalın qoşunu artıq davam gətirə bilmir. Onlar şəhri-zərrinə tərəf çəkilirlər. Axırda ərəblər lap qalaya yaxınlaşır. Salsal qoşunla bərabər qalaya girib qapını bağlayır.

Bir gün padşah əmr edir ki, qızı gətirin.

Zərəngizi gətirirlər. Bu dəfə Salsal üzünü qıza tutub deyir ki, bir rəml at, görək iş nə yerdədi.

Qız bir rəml atdıqdan sonra atasına deyir:

– Ata, istəyirsən məni tikə-tikə doğra yenə sözün düzünü deyəcəyəm. Ərəblər sənə qalib gələcək və üç günə kimi şəhəri alacaqlar.

Şah qıza heç nə deməyərək fikrə gedir. Sonra başını qaldırıb soruşur.

– Ey mənim mehriban qızım, bəs indi tədbirin nədi?

Zərəngiz bir qədər fikirləşdikdən sonra deyir:

– Ata, sən bilirsən ki, mən həm rəmdar, həm də sehrkaram. İndi əmr et, üç günə kimi bir neçə böyük gəmi qayırılsın. Bütün lazım olan şeyləri o gəmiyə yığdır. Mən də bir sehr duası oxuyaram, qalanın içindəki tilsim qırılar. Orada böyük bir bulaq əmələ gələr.

Elə də edir. Bu bulağın suyu yavaş-yavaş qalxaraq şəhəri basır. Elə bu vaxt qala qapısı ərəblər tərəfindən qırılır.

Qalaya daxil olan xəlifə nə görsə yaxşıdı? Görür ki, su yavaş-yavaş qalxıb şəhəri basır. Salsal isə böyük bir gəmidə əyləşib, günbatan tərəfə gedir.

Bir müddətdən sonra su çoxalıb bir dərya əmələ gətirir.

İndi o dərya Göy göl adlanır. Bax, Göy göl bu cür əmələ gəlib.

Qırxqız gölü və Şahbulaq

Gözəl yay günlərinin birində qoca bir çoban qoyun sürüsünü arandan yaylağa aparırdı. Sürü otlaya-otlaya güllü-çiçəkli bir yamaca qalxdı. Qoyunlar yaman susamışdı. Çoban yaxınlıqda qayaların arasında suyu göz yaşı kimi şəffaf, buz kimi sərin olan bir göl tanıyırdı.

Bu göl Qırxqız gölü adlanırdı. Sürü göldən su içməyə yönəldi. Qoyunlar sudan doyunca içib, otlağa daraşdılar. Çoban suda əl-üzünü yuyanda əlindən çomağı gölə düşdü. O nə qədər çalışdısa, çomağı göldən çıxara bilmədi.Çoban kor-peşman oradan uzaqlaşdı.

Bu əhvalatdan iki il keçmişdi. Bir gün qoyunlar dağdan arana enəndə çoban öz çomağını başqa bir çobanın əlində gördü. Yaxınlaşıb dedi ki, əlindəki çomaq mənimkidir. Çoban dedi ki, bu çomaq heç vaxt sənin ola bilməz. Mən sürünü Şahbulaqda sulayıb otlağa ötürdüm. Sonra bulaqda əl-üzümü yuyanda suyun üzündə bir çomaq üzdüyünü gördüm. Özümü tez suya vurub çomağı götürdüm. Çoban dedi sənin çomağın hara, Şahbulağı hara. İkinci çoban dedi ki, mən bu çomağı Qırxqız gölündə əl-üzümü yuyanda gölə salmışam.

Bu əhvalat hər yerə yayıldı. Sonradan məlum oldu ki,Qırxqız gölü ilə Şahbulağın arasında yeraltı çay olubdur.

Mincivan bulağı və Tərtər çayı

Belə deyirlər ki, dədə-babalarımız qədim zamanlardan at belində dəstə-dəstə gəzərmişlər. Əksər hissəsi cavanlardan olan bu dəstələr vətəni düşmənlərdən qoruyar, lazım gələndə həmvətənləri üçün xeyirli iş tutarmışlar. Belə igidlərimiz harada olunmuşlarsa yaxşı işləri ilə nəsillər üçün yadigər bir ad qoyarlarmış.

Hələ çox qədim zamanlarda vətənimizin ərazisində min igid cavandan ibarət bir dəstə çox məşhur imiş. Həmin cavanların yolu bir vaxt Şatırlıdan düşür. İçməli suyu çox uzaqdan gətirirmişlər. Min igid cavan kəndin kənarında, münasib yer seçib böyük dərə qazır. Dərənin dibində bir neçə gur sulu bulaq çıxır. Deyirlər ki, camaatın hamısı gəlib buraya yaxın yerdə yaşayır. Xalq bulağı qazanın adı ilə yeri Mincivan, bulağı isə Mincivan bulağı adlandırır. Həmin bulaq indi də Mincuan bulağı adı ilə qalmaqdadır.

Min cavandan ibarət olan igidlər sonra başqa bir yerə getməli olurlar. Bu zaman da içməli su onlardan bir qədər uzaqda olub. Suyu qaldıqları yerə gətirənə qədər dadı dəyişirmiş, cavanların başçısı bir dəfə özü suyun ilk dəfə götürüldüyü yerə gəlib su içir. Su bu dəfə ona çox xoş gəlir. Ona görə də bulağın gözündən götürüb içdiyi suyu tərtər (təzə-təzə) adlandırır. Sonralar həmin suyu beləcə tərtər içərmişlər. Çayın da adı dəyişdirilib Tərtər adlandırılıb.

Pəri bulağı

Qarabağ elatında maldarlıqla məşğul olan, köçəri həyat keçirən bir kişi və onun Pəri adlı gözəl-göyçək bir qızı varmış.

Ağır gün ağır xəstəlik gətirir, elatda tutar qoymurmuş. Çox cavanlar murazı gözündə vaxtsız-vədəsiz həyata göz yumurmuş. Kəsilən qurbanlar, oxunan dualar, verilən nəzir-niyazlar ölümün məşum kölgəsini qapılardan çəkindirə bilmirmiş. Pəridən də bu xəstəlik yan sovuşmur.

Atası Pərini çox təbibə, çox loğmana göstərir, qızın dərdinə əlac tapa bilmir. Qız günü-gündən saralıb solur. Ata-ana ona qulluq göstərməkdən yorulub əldən düşürlər, ancaq qızın halına heç təfavüt eləmir. Pəri ata-anasını əldən-dildən saldığı kimi, özü də öz canından bezib cana doyur. Ölümü tez arzulayır. Hamını əzabdan qurtarmaq istəyir. Ancaq ölüm nə arzuya, nə də hədə-qorxuya baxır, o öz vaxtında gəlir.

Havalar düzəlir, elat yaylağa köçməyə başlayır. Pərinin atası da xəstə qızının arabasını köçdən ayırmır. Yaylaqda da Pərinin vəziyyəti dəyişmir. Onun ölümə acığı tutur, özü-öz halına əncam çəkməyi qərara alır. Dumanlı-çiskinli günlərin birində Pəri elatdan aralanır. Xeyli müddət yol

gedir. Gözəl mənzərəli yerlərdən keçir, yorulur. Yorğuğu çıxandan sonra yenidən yoluna davam edir. Pəri çox gəzib, dolandıqdan sonra gözəl bir guşəyə gəlib çıxır. Burada hər şey Pəriyə xoş gəlir, turaclar, kəkliklər ondan qaçmır. Pəri hiss edir ki, aclıq onu əldən salır. Məcbur olub yabanı bitkilərdən yeməyə başlayır. Yəni baldırğan, şehlik otu, quzuqulağı və yemlik yedikcə iştahı artır. Hətta su da içmək istəyir. Ha boylanır, su tapmır. Bir az aşağı endikdə gözəl bir bulağın axdığını görür. Olduqca şəffaf. Bulağın daşları cağam bağlamışdı. Ətrafında gözəl çiçəklər, baldırğanlar, qantəpərlər, şehlik otları, yemliklər bu bulağa olduqca gözəllik verirdi. Pəri bülbülün nəğməsinə qulaq asıb deyir:

Nə fəqan edirsən, biçarə bülbül!
Bir gülüm ayrılıb gülşəndən ayrı.
Ağlımı başımdan təqayil etdin,
Şəqayin açılmaz çəməndən ayrı.
Sirr sözün açmağa sirdaşların var,
Sənin ağır elin, qardaşların var,
Mənim üzüm gülməz yar səndən ayrı.

Pəri bulağa yaxınlaşıb şəffaf sudan doyunca içir. Birdən-birə özündə yüngüllük hiss edir. Bir neçə müddət Pəri bu sudan içir və ətrafındakı bitgilərdən yeyir. Artıq Pəri tam sağalır. Əvvəlki xəstəlikdən əsər-əlamət qalmır. Pəri bulağın üstə yatır.

Bu zaman nurani bir qocanın yolu burdan düşür. Hələ uzaqdan bulağın başında bir qaraltı görür və yaxınlaşır. Əvvəl gözlərinə inanmır. Yaxınlaşanda görür ki, bir qız bulağın üstə yatıb. Qoca qızı yuxudan oyadır və soruşur ki, qızım, tək-tənha burada nə gəzirsən? Pəri başına gələni nurani qocaya söyləyir. Qoca:

– Qızım, bütün elatın xəstəlikdən, ölüm-itimdən həyatı pozulub. Deyib-gülmək yoxa çəkilib. Qəm-kədər meydanda at oynadır.

Yuxuda görmüşəm ki, bu torpağın gülü-çiçəyi, dərman otları, sərin bulağın suyu xəstələrə həyat verir. Xeyli vaxtdır ki, çöllərə, meşələrə düşüb həmin yeri axtarıram. Tez ol, səni həyata qaytaranları, sənə şəfa verənləri mənə göstər.

Pəri yediyi dərman bitkilərinin adını, içdiyi suyu ona göstərdi. Qoca bundan çox sevindi. Sonra qoca soruşur:

– Qızım kimlərdənsən?

Pəri ata və anasının adını qocaya söylədi.

– Qızım, mən səni düz evinizə apararam

Pərini axtaran ata-anası uzaqdan iki qaraltının onlara tərəf gəldiyini görürlər. Ata-ana gözlərinə inanmırlar. Gələn onların qızı Pəri idi. Qucaqlaşıb öpüşürlər. Sevinclərindən yerə-göyə sığmayan valideynlər nurani qocaya dönə-dönə minnətdarlıqlarını bildirirlər. Şad-xürrəm qızlarını götürüb obalarına qayıdırlar. Pərinin sağalıb gəldiyini eşidən elat camaatı onlara gözaydınlığı verirlər. Elə o vaxtdan həmin bulağın adı "Pəri bulağı" qalır.

ÇİÇƏKLƏR VƏ GÜLLƏR

Qızılgül

Uzaq keçmişlərdə bir varlı kişi yaşayırmış. Amma bu kişinin övladı olmurmuş. Bu səbəbdən o həmişə dərdli gəzib dolanarmış. Dünyanı yorub yola salmış nurani bir el ağsaqqalı ona məsləhət görür ki, insanları arzusuna qovuşduran Arzu dağına çıxsın, ona yalvarsın. Dağ-daş olsa da qəlbi var, bəlkə arzusunu yerinə yetirdi.

Kişi arvadını da götürüb Arzu dağına çıxır. Dağa ağız açır, ondan nicat diləyir. Aradan xeyli keçir, ay parçası kimi bir qızları olur. Adını Qızıl qoyurlar.

Qızıl gündən-günə böyüyür, gözəlləşir, boylu-buxunlu bir qız olur.

Qızılgilin qonşuluğundakı kənddə mərdliyi, əliaçıqlığı ilə tanınan kasıb bir kişi yaşayırdı. Onun da gözünün ağı-qarası bircə oğlu var idi. Oğlanın adı Bülbül idi. Gözəl qamətli igid Bülbülün dedikcə məlahətli səsi vardı.

Oğlanla qız görüşür, aralarında məhəbbət yaranır. Bülbülün səsində, sözündə yanğı artır.

Məhəbbətin alovuna tab gətirə bilməyən oğlan atasını elçi getməyə məcbur edir. Qızılın atası oğlanın sənəti, var-dövləti ilə maraqlanır.

Bülbülün atası:

– Aşiqdir! Sehirli mahnılarıyla daş ürəklərə həyat verir.

Elçinin sözlərinə Qızılın atası gülür:

– Mahnı çörək deyil!.. Mən kasıba qız vermərəm. Əgər oğlun çalışıb var-dövlət qazansa, bu sevdaya razı olaram.

Bülbülü ayrılıq həsrəti kədərləndirsə də, o, bu şərti qəbul edir. Qızılla vidalaşıb uzaq səfərə getməli olur. Qızıl and içir ki, ölənəcən məhəbbətinə sadiq qalacaq, oğlanın yolunu gözləyəcək.

Aradan xeyli müddət keçir. Bülbüldən xəbər-ətər çıxmır. Qızılı zorla bir varlı oğlana nişanlayırlar. Toya hazırlıq görürlər. Qızılın ağ əllərinə zorla xına yaxırlar.

Əlacı kəsilən Qızıl, əlləri xınalı Arzu dağına çıxır, üzünü ona tutub yalvarır:

– Ey arzusundan yarandığım Arzu dağı! Mən yanıram, sən də yan. Bu insafsızların, qəlbidaşların başına daş yağdır.

Dağ Qızılın dərdini başa düşür, onun halına yanır, tüstülü-dumanlı başı ağzını açıb od püskürür, zalımların, ürəyidaşların başına od ələyir.

Qızıl gözlərindən yaş axa-axa indi dağdan başqa rica edir:

– Bir sözümü də eşit. İndi mənim nə elim var, nə obam. Ata-anamı da itirdim. Bundan sonra mən insan kimi yaşamaq istəmirəm. And verirəm

o sönməyən oduna-alovuna, məni məhəbbət qoxulu bir gül ağacına döndər. Bülbülün həyətində bitir.

Qızıl bir topa qızılgül koluna çevrilir. Bülbülün həyətində bitir. O, sevgilisi Bülbülün eşqilə hər bahar gözəl ağ çiçəklər açır, ətrafdakıları hicran qoxulu məhəbbətilə yandırıb-yaxır.

Vaxt olur, bir gün Bülbül gəlib çıxır. O, kədərli, yanıqlı nəğmələrilə Qızılı axtarır, amma tapa bilmir. Həyətlərindəki məhəbbət qoxulu qızılgülün ətri onu şübhələndirir. Qızılgül Qızılın ətrini verir. Tanıyıb bilənlər əhvalatı başdan-ayağa ona danışırlar.

Bülbül bundan çox qüssələnir. Bir neçə dəfə gül kolunun başına dolanır, sonra da xəncəri öz sinəsinə sancır, onun qanı gülün təzəcə açmış ağ ləçəklərini qırmızı rəngə boyayır. Ancaq Bülbülü özünü öldürməyə qoymurlar.

Bülbül də başı alovlalan Arzu dağının görüşünə gəlməli olur:

– Ey Arzu dağı, daha nə qaldı, sən də yanıb Yanardağ oldun! Bundan sonra mənim üçün insan kimi yaşamaq artıqdır. Məni bir quşa döndər, qoy daim sevgilimin başına dolanım, ona nakam məhəbbət haqqında mahnılar oxuyum.

Bülbülün arzusu yerinə yetir. O, incə səsi, incə nəğməsi ilə cəh-cəh vuran quşa çevrilir. O vaxtdan bəri qızılgül kolu qırmızı rəngdə çiçəklər açır.

Bənövşə

Bənövşə gözəl-göyçək bir qız idi. Mahaldakı cavanlar onun gözəlliyinə vurulmuşdular. Qış adlı soyuqqanlı, baxışında şaxta, gülüşündə sazaq oynayan bir oğlan ona sahib olmaq üçün dəridən çıxırdı. Qız isə heç kəsə məhəl qoymurdu, heç kimə öz qəlbini vermirdi. O, Bahar adlı bir gənci sevirdi. Bahar da onu. Onlar hər səhər günəşi birgə qarşılayırdılar. Ayın batmasına birgə tamaşa edirdilər.

Bənövşə bəy qızı idi. Bahar isə yoxsul bir ailədə böyümüşdü. Baharla Bənövşənin sevgisi səsə düşdü. Ay gecənin qulağına, Günəşin şəfəqləri səhərə onların məhəbbətindən danışdı. Çiçəklər çəməndə, bülbüllər güllərə onların məhəbbətindən söz açdı. Cavanlar tay-tuşuna, qarılar qocalara, onların məhəbbətindən danışdı. Bənövşənin qardaşları bunu eşidib onların məhəbbətinə mane olurlar. Qızı zorla Qışa nişanlayırlar və Qışın təkidilə Baharı bu mahaldan didərgin salırlar. Hər iki goncin məhəbbəti payız gülləri kimi saralıb solur. Qarlı-boranlı günlər isə onların görüşlərinə mane olur. O gündən Baharın ayrılığına dözməyən Bənövşənin boynu bükülür.

Deyirlər ki, hər il bənövşə öz sevgilisi Baharın görüşünə hamıdan pünhan gəlir. Bahar isə öz gözlərindən leysan yağışı axıdaraq sevgilisini isladır. Zalım Qış nə qədər onların görüşünə manççilik törətsə də, heç vaxt Bənövşəni görə bilmir.

Çobanyastığı çiçəyi

Keçmiş zamanlarda bir varlı ağanın gözəl bir qızı olur. Ona hər yerdən elçilər gəlir, amma heç birinə getmir. Ağanın buna acığı tutur. Sən demə qız bir çobanı sevirmiş. Onlar əhd-peyman ediblər. Sevgililər gizlincə görüşürlərmiş. Ata bir gün bundan xəbər tutub bərk qəzəblənir. Qızı yanına çağırıb deyir:

– Qızım, bu nə işdir? Mən dediyimə getmirsən, çoban hara, sən hara?

Qız isə atasına deyir:

– Xeyr, ata, getsəm ancaq o çobana gedəcəyəm!

Ata qəzəblənir. Çobanı qovdurur. Qızı da heç yana buraxmır, bağlı yerdə saxlayır.

Çoban sevgilisindən uzaq diyarda ahu-fəğan içində gün keçirir. Nə rahatlıq, nə də yuxu bilməyən çoban getdikcə üzülüb əldən düşür. Onun əhvalına yananlar, halına acıyanlar nə qədər dava-dərman edirsə, çoban yata bilmir. Onun bu niskili dildən-dilə düşüb sevgilisinə də çatır. Neyləsin, qız uzaqda olan sevgilisinə necə kömək əli uzatsın? Yalnız bir çarə qalır. İki diyarı birləşdirən çay onun köməyinə çata bilərdi. Qız özünün sevdiyi, ilk dəfə dəmət bağlayıb çobana bağışladığı çiçəkdən gündə bir dəstə bağlayıb axar suya buraxır.

Çobanı havasını dəyişmək üçün çayın kənarına çıxarıblarmış. Birdən o dirçəlir. Gözlərinə işıq gəlir. Çayla axıb gələn ətri-sevgilisinin ətri onu cana gətirir. Çobanın xahişi ilə çiçək dəstəsini tutub ona verirlər. Çoban aşiq çiçəkləri sevgilisi əvəzi bağrına basıb o ki var qoxlayır. Sonra onu başının altına qoyub dərin yuxuya gedir. Günlər keçir, sevgilisi tərəfdən yola salınan çiçək dəstələrini gündüzlər iyləyir, gecələr yastıq əvəzinə başının altına qoyub yatır. O, tamamilə sağalıb ayağa qalxır.

Bir gün çoban çay kənarına gəlir. Gözləyir, gözləyir, görür çiçək dəstəsi gəlmədi. İki gün keçir, çiçək dəstəsi gəlmir. Çoban bilir ki, sevgilisinin başında qəza-qədər var. Yol alıb doğma obalarına qayıdır. Sevgilisinin hicrana dözməyib tələf olduğunu görür. Çoban bu ağır dərdə dözə bilmir.

Deyirlər ki, o vaxtdan güllər solduqca çoban təzəsini dərib başı altına qoyar, yatarmış. Həmin vaxtdan o çiçək Çobanyastığı adlanır.

Lalə

Deyirlər ki, Lalə gözəl, boylu-buxunlu, tayı-bərabəri olmayan bir qız imiş. Dərd, kədər, nə olduğunu bilməzmiş.

Günlər keçdikcə Lalə böyüyüb boya-başa çatır. Onların da qapısını tez-tez elçilər döyür. Nəhayət, Laləni ürəkdən sevdiyi bir oğlana nişanlayırlar.

Vaxt çatır. Laləyə toy edirlər. Günlər ötdükcə Lalə daha şən, daha gözəl, daha qəşəng olur.

Bir gün Laləgilin yaşadığı şəhərin hökmdarı adamları müharibəyə aparır. Hökmdar carçılarla hər yana bəyan edir:

– Xoşbəxtlik, səadət, var, dövlət müharibədədir. Kim böyük sərvət sahibi olmaq istəyirsə, ömrünün axırına kimi firavan yaşamaq istəyirsə, hökmən qılınc götürüb qan tökməlidir.

Minlərlə Lalələr irəli durub ərlərini, sevgililərini vermək istəmir:

– Müharibə ancaq fəlakət, səfalət gətirir, ananı oğulsuz, arvadları ərsiz qoyur. Bizə yazığınız gəlsin, rəhminiz olsun, gözümüzü yaşlı, bağrımızı qanlı qoymayın.

Hökmdar xalqın səsini eşitmir. Laləni sevgilisindən ayırırlar. Son anda Lalə deyir:

– Mən baharın qızıyam. Geri qayıdanda məni tapmasan əlini üzmə, baharda, çəməndə axtar məni.

– Hökmən baharda qayıdacağam!

Ladə həsrətlə baharı gözləyir, sevgilisini gözləyir. Nəhayət, güllü-çiçəkli bahar gəlir. Lalə sevgilisini düzənliklərdə, yolların kənarında qarşılamaq üçün qıpqırmızı donunu geyinib həsrətlə gözlərini uzaqlara dikir.

Lalə çox gözləyir, göz yaşları axıdır. Lakin sevgilisini gördüm deyən olmur. Dərd əlindən Lalənin bağrı qapqara qaralır. O, ayrılığa dözmür göylərə yalvarır. Lalə qıpqırmızı donundaca çiçəyə dönür.

Bir gün bahar vaxtı Lalənin sevgilisi miskin və yaralı halda qayıdır. Müharibə onu ömürlük bədbəxt, şikəst etmişdir. Oğlan Laləni nə qədər axtarırsa tapmır. Görür başqaları da onun kimi öz lalələrini axtarır. Əlacsız qalıb çəmənə gəlir. Dizləri qatlanır, gözlərindən yaş axır. Görür ki, çəməndə minlərlə bağrı qapqara yanmış lalə ona baxır.

Bahar gələndə Lalə düzənliklərdə, yol kənarında, dağların döşündə bitərək həsrətlə sevgilisinin yolunu gözləyir

Qızboyu çiçəyi

Qızboyu sarı rəngli gözəl bir çiçəkdir. Bu çiçək haqqında deyirlər ki, guya Qızboyunu öz əmisi oğluna nişanlayırlar. Qızboyu isə atasının çobanına könül verir. Ancaq valideynləri buna heç cür razı olmur. Çobanın eşqi Qızboyunu divanə eyləyir.

Qızboyu yaxşı duyur ki, onun saf məhəbbətini heç kim başa düşməyəcək. O, çox fikirləşir, çox götür-qoy edir, amma çobanla qovuşmağın yolunu tapa bilmir. Əlacsız qalıb özünü öldürmək istəyir. Birdən yadına düşür ki, çoban daim dağda, daşda, güllərin, çiçəklərin qoynundadır. Sevgilisi əlvan çiçəklərlə həmişə təmasdadır.

Qızboyu baş götürüb evdən-zülmün əlindən qaçır. Gözəl bir çəmənzarda oturub göylərə yalvarır ki, onu bir ətirli, rayihəli, əlvan çiçək eyləyib çəmənlikdə bitirsin, bəlkə bu yolla çobanla qovuşa.

Gözəl Qızboyu çiçək olub o vaxtdan çəmənlikdə bitir. Ətrindən sevgilisi olduğunu bilən çoban hər gün bu çiçəyin boyunu sevib, ətrini qoxlayır.

QUŞ, HEYVANLAR

Səmsəndər quşu

Səməndər guya qarlı-buzlu ölkələrdə yaşayan qar quşudur. Özü də gödək ömürlü quşdur Bu quşun dimdiyi polad, caynaqları çaxmaqdaşı, tükü isə qovdur.

Səməndər quşunun iki balası olur. Balalar bir ilə pərvazlanır. Səməndər quşu balaları uçan gün sevincindən hər şeyi unudur, dimdiyini caynağına vurub od saçır, onun qov tükü həmin oddan alışır. Səməndər quşu yanıb kül olur.

Şanapipik quşu

Şanapipik əvvəllər gəlin imiş. Bir dəfə başını yuyurmuş. Bu vaxt qayınatası içəri girir. Gəlin utanır. Allaha yalvarıb deyir:

– Ay allah, qayınatam saçlarımı gördü, mən xəcalətdən onun üzünə baxa bilmirəm; məni ya daş elə, ya da quş.

Gəlin quşa çevrilir. Darağı başında qalır, şanapipik olur. Şanapipik çöldə yaşasa da, abadlıqdan çox uzağa getmir, axı onun gözü istəkli ərindədə, doğma evində qalıb..

Göyərçin

Keçmiş əyyamda Şərq ölkələrinin iki qüdrətli şahı arasında düşmənçilik münasibətləri daha da gərginləşir. Gündə bir-birinə hədə-qorxu gəlirlər. Nəhayət, şahın biri o biri ölkənin şahına muharibə elan edib onu təkbətək meydana çağırır. Elçilər müharibənin başlanacağı günü dəqiq müəyyənləşdirirlər. Təcili son hərbi hazırlıq işləri görülür.

Döyüşə çağırılan şah 15 il idi ki, müharibə etmirdi. Odur ki, döyüş papağını əl-ayaqdan uzaq köhnə otaqlardan birinə qoymuşdu. Vuruşmaya bir gün qalmış şah anasından döyüş papağını gətirməsini xahiş etdi. Anası gedir, lakin çox çəkmir ki, əliboş qayıdır. Oğlu anasından soruşur:

– Nə üçün papağımı gətirmədin?

Anası oğluna müəmmalı cavab verir:

– Papağı gətirə bilmədim..

– Ana, mən səni başa düşmürəm. Meydanda ölüm-itim olar. Yaxşısı budur ki, döyüş papağımı gətirib qələbə xeyir-duası verəsən.

– Yanılırsan, bala, igid meydanda ölər. Ancaq döyüş papağın o qədər ağır, sirli-schirli idi ki, onu yerindən tərpətməyə gücüm çatmadı.

– Mənim gücüm çatar.

Ana şah oğlunun ayaqlarına döşənir:

– Səni aid verirəm halal südümə, papağa dəymə!

– Anacan, mən şaham! Şah meydanına papaqsız, dəbilqəsiz necə çıxım?

Ana oğlunu inadından döndərmək üçün gördüklərini açmalı olur:

– Bala, sənin döyüş papağının içində indiyədək heç kimə ziyan vurmayan, dünyada ən dinc heyvan olan ağ göyərçin yuva bağlayıb. Özünün də üç dənə ətcə balası var. Biaram özünü çölə vurub balalarını yemləyir. Onları təhlükəsiz bir yerdə boya-başa çatdırmaq istəyir. Mən bu günahsız balalara toxunsam, ağ göyərçin bizdən küsüb gedər, yetim balaların ahnaləsi ölkəmizə bəlalar gətirər. Gəl bu dəfə papağını qoyma.

Bu sözləri eşidən oğlu heç nə demir. Şahlıq tacını ağ göyərçinə tapşırıb başıaçıq düşmənin meydanına çıxır. Döyüşə gələn şah rəqibinin döyüş papağı olmadan döyüşə gəldiyinə təəccüblənir. Bu sirli oyunun səbəbini soruşur. Dəbilqəsiz şah deyir:

– Mənim papağımda ağ göyərçin üç bala çıxardıb. Anam südünə and verdi ki, balalara toxunmayım, insanları yersiz bəlalara düçar etməyim.

Rəqib şah sözə inanmır. Vəzirini göndərir ki, gedib bunun düzgünlüyünü yoxlasın. Bir azdan vəzir qayıdır. Hər şeyin doğru olduğunu söyləyir. Bunu eşidən şah dərin fikirlərə dalır. Əlini düşməninə uzadıb deyir:

– Gəl, barışaq, sülh bağlayaq! Sənin anan bir quşun-ağ göyərçinin evini dağıtmaq istəmir. Biz niyə nahaq qan töküb minlərlə insanların evini dağıdaq?

Onlar sülh bağlayırlar. O gündən ağ göyərçin sülh quşu hesab olunur.

Kəklik

Deyirlər ki,qədimlərdə çox gözəl, ağıllı və qeyrətli bir qız varmış. Bu qız öz əmisi oğluna adaxlı imiş.

Qızın toy günü çatır. Onun əl-ayağına xına qoyurlar, bir azdan oğlan evinə aparacaqlarmış.

Hamının başı həyət-bacada toy işlərinə qarışır. Qız təkcə yenicə ilə evdə oturubmuş. Elə bu zaman çoxdan bəri qızı izləyən, onu ələ keçirməyə can atan dövlətli oğlu öz başının dəstəsi ilə içəri soxulur. Onlar yengənin əl-ayağını, ağzını bağlayıb yerə yıxırlar. Qızı da götürüb dağlara qaçırlar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır ona qulaq asan olmur. Hər yerdən əlacı kəsilən, əli üzülən köməksiz qız üzünü göyə tutub deyir:

Tanrı məni quş elə.
Qanadı gümüş elə.

Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə.
Daşlara yoldaş elə.

Qız bunu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub qayalığa düşür. Qızın əl-ayağı xınalı olduğu üçün kəkliyin də ayağı xınalı olur.

Turac quşu

Bir gün qulluqçu qız xanımın darağını alıb başını darayır. Darağı boxçada, paltarın arasında taxçaya qoyur.

Aradan xeyli keçir. Xanım başını yuyurmuş, darağı istəyir. Qulluqçu qız darağın yerini unudubmuş.

Nə qədər çalışırsa darağın yerini yadına sala bilmir.

– Xanım, vallah darağın yerini unutmuşam.

Xanım qulluqçu qızdan şübhələnir.

– Darağı oğurlamısan! – deyir.

Qız xəcalətindən tər tökür.

– Xanım, mənim əlim əyri deyil, daraq buralardadır. Hara qoyduğumu yadıma sala bilmirəm.

Xanım hirslənir:

– Onda qonşuya, ya qohuma vermisən.

Qız görür xanımı inandıra bilmir. Əliəyri qulluqçu kimi bu evdə yaşamaq, ya da qovulmaq ona ağır gəlir. Deyir:

– İlahi, xəcalət məni öldürər, ya məni daş elə, ya da quş.

Qız quş olur, Turac quşu.

Qız quş olandan sonra darağın yeri yadına düşür. Bağçaya qonub oxuyur, darağın yerini xanıma bildirir:

Taxçadadır,
boxçadadır.
Boxçadadır,
taxçadadır.

Xarı-bülbül

Azərbaycanın qədim şəhərlərindən biri olan Şuşada belə bir gül var ki, hamı onun adına xarı-bülbül deyir.

Rəvayətə görə bir gün bülbül öz sevgilisi gülün görüşünə getmək istədiyi vaxt bərk külək əsir. Küləyin məqsədi gülü bülbülün gözləri qarşısında alçaltmaq imiş.

Külək öz gücünə, qüvvəsinə həddindən artıq inanırmış. O əsəndə, hərəkətə gələndə, aləmi tozanağa bürüyəndə bütün canlılar onun qarşısın-

da əyilərmiş. Müqavimət göstərmək istəyənləri neçə yerə şaxbudaq eləyib yerlə-yeksan edərmiş.

Bir gün külək var qüvvəsilə əsirmiş, nəhəng çinarlar, uca sərvlər, salxım söyüdlər onun qarşısında dönə-dönə əyilirdilər. Yalnız zərif, gözəl, ətirli gül küləyin azğınlığına, yekəxanalığına tabe olmurdu. Bunu görən külək heyrətə gəldi:

– Ay zərif, ay zəif gül, sən hansı cəsarətlə mənə baş əymirsən? Sən bu gücü hardan alırsan?

Gül inamla cavab verdi:

– Məhəbbətdən! Məhəbbətin gücü yenilməz olur. Sevən vüqarlı olur, o heç kəsə baş əymək istəmir. Mən bülbülü sevirəm. Onun saf məhəbbəti məni baş əyməyə qoymaz.

Baxarıq!.. Sən məhəbbətini sına, mən də gücümü...

Külək bu sözləri deyib kükrədi. Elə bu vaxt bülbül sevgilisi gülün görüşünə gedirdi. Küləyin qəzəbi yerə, göyə sığmırdı. Zərif otlardan tutmuş fil gövdəli ağaclara qədər ona baş əyirdi. Gül isə onun zorakılığı qarşısında əyilmir. Artıq gül son qüvvəsini toplayırdı. Onun müqaviməti tükənməyə başlayırdı. Çunki o tək qalmışdı. Əgər bülbül yanında olsaydı.

Gül bir yarpaq əyildi. Külək qələbəsindən sevinərək daha bərkdən uğuldadı. Bir az da keçəcək, külək gülü öz gücü qarşısında iki qat edəcəkdi. Bülbül özünü vaxtında gülün harayına çatdırır. O, sinəsini yavaş-yavaş əyilən gülün köksünə söykəyir. Külək daha da hiddətlənir. Bülbül gülün azacaq əyilən qamətini düzəldir. Ancaq gülün xarı-tikanı onun sinəsinə sancılır. Bülbül məhv olursa da, bir addım geri çəkilib gülü əyilməyə qoymur. Elə həmin vaxtdan özünü məhəbbəti uğrunda fəda edən bülbülün canı gülün ləçəyinə hopur. Gülün adı xarı-bülbül qalır.Gül xarı-bülbül görkəmində güllər açır. Gülün bir ləçəyi üstə elə bil bülbül yatıb.

Bülbül və qaratikan kolu

Bir xan qəfəsdə bir bülbül saxlayırmış. Bülbül üçün hər cür şərait yaradılmışdı. Hər cür güldən onun qəfəsinin ətrafında varmış. Ancaq o, bahar fəslinin gəlməsinə baxmayaraq, bir dəfə də səsi ilə oxumurmuş. Elə məyus-məyus durub baxırmış.

Xan deyir mən ki, onu o cür bəsləyirəm, yenə oxumur. Buraxın onu, çıxıb getsin. Ancaq onu izləyin, görün hara gedir. Xanın adamları görürlər ki, bülbül uça-uça bir qaratikan kolunun üstündə qurulmuş bir bülbül yuvasının yanına qonur və "vətənə gəldim, imana gəldim" deyərək cəhcəh vurmağa başlayır.

Bütün bunları xana çatdırırlar. Xan öz-özünə fikirləşir:

Hər kəsin öz yurdu, öz vətəni. Vətən şirindir. Onun qədri bilinməli, qorunmalıdır.

Keçi südü və ilan zəhəri

Çox keçmiş zamanlarda bir kişi möhkəm xəstələnir. Onun xəstəliyi gündən-günə artır. Bütün tanınmış loğmanlara müraciət edirlər. Dərdinə əlac tapılmır.

Nəhayət, onu çox məşhur bir loğmanın yanına aparırlar. Loğman onun xəstəliyinin əlacı olmadığını söyləyir. Ümidsiz xəstə artıq öləcəyini yəqin edib, yaşadığı yerdən baş götürüb gedir. Gəlib bir xarabalığa çatır. Yerə uzanıb inildəyirmiş.

Görür ki, bir qara keçi peyda oldu. Haradansa bir arvad gəlib keçini sağdı və südü əlində gətirdiyi qaba töküb, oradaca qoyub getdi. Azacıq sonra bir ilan gəlib həmin südü içdi və həmin südü zəhəri ilə birgə ağzından qaba tökdü.

Əziyyət çəkən xəstə həmin ilanın zəhər qarışıq qusduğu südü içib bu əziyyətdən birdəfəlik qurtarmaq istəyir. Bu niyyətlə sürünüb qaba yaxınlaşır. Gözünü yumaraq həmin zəhəri başına çəkib içir. Uzanır, öləcəyi anı gözləyir. Günlər keçir. Vəziyyətinin yaxşılaşdığını görən xəstə yavaş-yavaş qalxıb evlərinə tərəf üz qoyur. Gəlib evlərinə çatır. Çox keçmir ki, tamamilə sağalır. Xəstənin ilan zəhərinin köməyi ilə sağaldığı hər tərəfə yayılır. Belə söyləyir ki, ilan zəhərinin dərman kimi istifadə edilməsi təbabət aləminə elə o vaxtdan məlum olmuşdur.

Ağ ilan

Keçmiş zamanlarda Ərəş mahalında Dərgah adlı bir kişi olur. O, mahir bir ovçu imiş. Quş ovlamaq məqsədi ilə bir gün Arçan dağına gedir. Çoxlu quş ovlayır, ancaq qaranlıq qovuşduğundan geri qayıtmır və dağda gecələyir. Səhər tezdən yuxudan durarkən, bir ağ ilanın onun başı üstündə duraraq dilini çıxartdığını görür. Ovçu əvvəlcə qorxur, sonra fikirləşir ki, bu ilan məndən kömək istəyir. İlan onun fikrini anladığından çevrilir. Bu zaman ovçu görür ki, ağ ilanın bədəni tamamilə yaradır. Bundan sonra ilan getməyə başlayır. Tez-tez dönüb geri baxır. Bu zaman ovçu tüfəngini də götürüb ilanın arxasınca gedir.

Bir qədər getdikdən sonra ilan bir quyunun yanına gəlir və bərkdən səs çıxardır. Bu zaman quyudan qara bir ilan çıxaraq ağ ilana hücüm edir. Bunu görən ovçu qara ilanı tüfənglə öldürür. Ağ ilan bunu görcək sürətlə quyuya girib bir muncuq gətirir və ovçuya verir. Ovçu muncuğu da götürüb evə gəlir. Rəvayətə görə, bundan sonra muncuq daim evi və həyəti işıqlandırarmış.

Simurq quşu və ilan

Bir gün Simurq quşu səhrada gəzirdi. Gördü ki, bir ilan sürünür. Dedi: – Ey ilan, mən çox yer gəzmişəm, amma sənin kimi ilan görməmişəm. İlan

dedi: – Mən şahmaram – ilanların şahıyam. Simurq quşu soruşdu: – Ey ilan, sənin ləyaqətin nədir? – İlan dedi:

– Mən qara daşa nəfəs salsam daş alışıb yanar.

İlan soruşdu ki, bəs sən kimsən?

Quş dedi ki, mən Simurqam.

İlan dedi ki, bəs sənin ləyaqətin nədir?

Simurq quşu dedi ki, mənim çox iti görən gözüm var. Göyün yeddi qatından bassam tükü tükdən seçərəm.

İlan dedi ki, mən yeri deyirəm, sən bilirsən ki, mən ora qalxa bilmirəm.

Simurq quşu dedi ki, mən səni qanadımın üstünə alıb ora qalxaram.

Simurq quşu ilanı qanadının üstünə alıb göyə qalxdı. Bir qədər qalxandan sonra ilan dedi: – Ya Simurq, mənim nəfəsim çdtmır, bəsdi.

Simurq quşu bir qədər də qalxdı.

İlan dedi: – Ya Simurq, sən mənim həyatımın məhvinə bais olmaq istəyirsən?

Simurq quşu dedi ki, indi bu tuşdan yenəcəyik ki, aşağıda bir nəş var. Vəhşi heyvanlar onun ətrafına yığılıb. Amma heç biri gedib o nəşdən yemir.

Simurq quşu ilanla birlikdə aşağı endi və həmin nəşin yanında ilanı yerə qoydu. Dedi ki, ya şahmar, mən gedim, o nəşdən yeyim.

Simurq quşu getdi, nəşə çatar-çatmaz bir şahə çəkdi. İlan gördü ki, Simurq quşu tora büşüb.

İlan dedi ki, ay evin yıxılsın, göyün yeddi qatından bu nəşi gördün, burdan-bura bu toru görmədin? Simurq quşu dedi:

– Ya şahmar, bu qəza torudur, bunu görmək olmaz.

İlan və qaranquş

İlanla arı qonşu idi. Arı çiçəkdən-çiçəyə qonur, şirə sorur, şan düzəldir, qışda da yuvasına çəkilib baldan şirin-şirin yeyir, təzə yaza kefi kök, damağı çağ çıxırdı. İlan isə aylarla ov dalınca sürünür, girinə keçəndən də bir həzz, bir ləzzət duymur, çox zaman ağzının acısını almağa heç bir şey tapa bilmirdi.

Bir gün arıya dedi:

– A qonşu, boş-boşuna sürünməkdən canım yerdə, daşlarda, qayalarla qalır, tapdığım da heç bir əmələ yaramır. Məni bu əzab-əziyyətdən qurtar.

– Nə kömək istəsən, mən hazır!

İlan dedi:

– Bircə günündən mənə görə keç. Gör hansı canlının qanı şirindir.

Arı şən-şən güldü:

– A qonşu, elə bildim məni müşkül işə buyuracaqsan. Bundan asan nə var ki!..

Qaranquş öz yuvasını hörürdü. Bu qonşuların söhbətini eşitmişdi. İlandan zəhləsi gedirdi, çünki bu ilan neçə dəfə onun da balalarını yemişdi.

Qaranquş arının dalınca düşdü.

Arı gah qoyunun, gah keçinin, gah cüyürün, gah da maralın boynuna qondu. Vızıldayıb uçdu. Axırda yol gedən bir qoca kişinin alnına yapışdı. Geriyə doğru uçanda qaranquş bildi ki, arı xəbərə qaçır. İlana deyəcək ki, ən şirin qan insanın qanıdır. Bundan sonra ilanlar yer üzündə salamat insan qoymayacaq, hamısını çalacaq. Qaranquş insanlardan razı idi, çünki insanlar onun yuvasını dağıtmırdılar, balalarına toxunmurdular.

Qaranquş arını qabaqlayıb onu dilə tudu:

– Xoş gördük, a ellər yaraşığı, neçə vaxtdır səni görmürəm, necəsən, necə dolanırsan?

Arı:

– Çox sağ ol, – dedi, – yaxşıyam, yaxşı dolanıram.

Qaranquş onun ağlını oğurlamağa başladı:

– O gün qarğa yaman öyünürdü ki, hamı mənim səsimi tərifləyir. Deyirəm, səsim yox, dilim şirindir.

Mən də ona dedim, heç öyünmə, mənim qonşum arının dilinin şirinliyinə şirinlik çatmaz. Dilini çıxaran kimi yerə bal damır. Qarğa gəlməmiş dilini göstər görüm düzmü demişəm, yalanım çıxmasın.

Arı dilini çıxaran kimi Qaranquş onun dilini dimdiyi ilə kökündən qopardı, qaçdı.

Arı lal oldu, vızıldaya-aızıldaya qaldı. İlana heç bir şey başa sala bilmədi.

İlan işin niyə belə olduğunu duydu. Qaranquşu tutmaq istədi, ancaq dişi onun quyruğundan bircə lələk qopardı. Qaranquşun quyruğu o vaxtdan haça qaldı. İnsanlar bu işdən xəbər tutdular. Qaranquşun yuvasını öz evlərinə köçürdülər.

Maralın göz yaşları

Ovçunun atdığı ox ana maralın balasını yaralayır. Dağı o biri üzə aşan kimi körpə maral yerə yıxılıb can verir. Ana maral balasının başı üstündə durub göz yaşları axıdır. Bunu görən yolçunun ürəyindən qanlar axır, insafsız ovçuya lənətlər yağdıra-yağdıra yanıqlı bir bayatı çəkir:

Maral durduğu yerdə,
Boynun burduğu yerdə;
Ovçunun qolu sınsın,
Maral vurduğu yerdə.

Səhər tezdən həmin ovçu yenə də ova getməyə hazırlaşır. Onun aman-zaman bircə oğlu var imiş. Uşaq atasından əl çəkmir. "Mən də səninlə ova gedəcəyəm", – deyib durur. Ata başqa bir bəhanə ilə evdən çıxıb gedir. Oğlu da onun dalınca yollanır. Ovçunun bundan xəbəri olmur. Uşaq xeyli yol gedəndən sonra yorulur, bir dağdağan ağacının dibində xəzəlin içinə girib yatır.

Ovçu indi də ana maralı qova-qova gətirir. Maral dağdağan ağacına çatanda ovçu ox atır. Ox marala deyil, xəzəlin arasında yatmış oğluna dəyir. Uşaq bircə dəfə "Uf, ata!.." – deyib qışqırır, canını tapşırır.

Dünən həmin yolla keçən yolçu qayıdan baş görür ki, ovçu bu gün də oxla öz oğlunu öldürüb. Maral o tayda balasının başı üstündə, ovçu da bu tayda oğlunun başı üstündə göz yaşı tökür.

Yolçu uşağın göllənmiş qanını görəndə qəlbi od tutub yanır, elə bir bayatı çəkir ki, dağlara, dərələrə səs salır:

Əzizim dağda qanı,
Qan gördüm dağdağanı.
Ovçu vurdu balasın,
Göl oldu dağda qanı.

Ovçu Pirim və üç ceyran

Ovçu Pirim kəmənd atıb bir ceyran tutur. Ceyran ağlayıb deyir:

– İnsaf elə, Piri baba, biz üç gün olar ki, evlənmişik.

Ovçu Pirim ceyranı buraxır.

Ovçu Pirim dağın o biri üzündə kəmənd atıb başqa bir ceyran tutur. Bu ceyran da ağlayıb deyir:

– Piri baba, mən də o tutub apardığın ceyranın yoldaşıyam. Muradımız gözümzdə qaldı. Biz bir qayanın dibində durmuşduq. Səni görüb hərəmiz bir tərəfə qaçdıq. Əvvəl kəmənd atıb onu tutdun. İndi də ki, mən ilişdim.

Ovçu Pirim ceyranı buraxıb deyir:

– O biri yoldaşını da azad etmişəm, gedin xoşbəxt yaşayın.

Ovçu Pirim başqa ovlağa gedir. Örüşdə başqa bir ceyrana rast gəlir və bunu da kəməndə salır. Ceyran zülüm-zülüm ağlayıb deyir:

– Mən ölməyim üçün deyiləm. Bir cüt bala qoyub gəlmişəm. Bax yelinim südlə doludur. Otlayıb onların yanına qayıdırdım. Ah, yazıq balalarım!

Ovçu Pirim bu ceyranı da buraxır, evə əliboş qayıdır. Arvadı boş gəlməyinin səbəbini soruşduqda deyir:

– Mən əvvəllər heyvanların dilini bilmirdim, istədiyim kimi ov eləyirdim. İndi onların dilini bilirəm, anlayıram ki, heyvanların dərdi bizimkindən də çoxdur. Mən daha onları ovlaya bilmərəm.

ALDƏDƏ VƏ DƏDƏGÜNƏŞ ƏFSANƏLƏRİ

Aldədə

Bağdadda ərəb xəlifəsinə belə bir xəbər çatır ki, Odlar ölkəsində Aldədə adlı bir şəxs peyda olub. Bu şəxs möcüzələr icad edir, özü də odda yanmır.

Xəbər xəlifəni bərk maraqlandırır, deyilənlərin doğruluğunu yəqin etmək üçün yanına üç ərəb çağırır:

– Elə bu gün Odlar ölkəsinə yola düşün. Orda Aldədə adlı bir şəxs peyda olub. Gedib yoxlayın. Əgər, doğrudan da, möcüzələr çıxarırsa, ona toxunmayın. Yox, elə olmasa, onu məhv edin, yurdunda heç bir nəfər də salamat qoymayın.

Ərəblər Aldədəni haça qaya deyilən yerin yaxınlığında ilxı ilə birlikdə tapırlar. Görürlər ki, geniş çöldə yalmanları qız hörükləri kimi hörülmüş at ilxısı otlayır, ilxıda iki dayçanın yalmanı hörülməyib. Onlar bunun sirrini hündür daş üstündə oturmuş Aldədədən soruşurlar. O deyir:

– Bu dayçalar Göysudan çıxıb, ilxıya özləri qarışıblar. Xeyli söhbətdən sonra ərəblər hiss edirlər ki, qoca çox hikmətli adama oxşayır. Dünyanın əvvəlindən-axırından xəbər verir. Aldədəni yoxlamaq istəyirlər.

– Bəlkə bir ocaq çatasan, yaman acmışıq.

Aldədə o saat qonaqların niyyətini başa düşür.

– Bilirəm nəyə gəlmisiniz, marağınız nədir, istəyiniz nədir, hamısını bilirəm.

Ərəblər təəccüblənirlər.

– Biz ki sənə hələ bir söz deməmişik.

– Bir kabab bişirim yeyək, sonra danışarıq.

Aldədə ayağa qalxıb ocaq çatır. Yaxındakı sürüdən bir quzu ayırıb kəsir. Quzunun qolunu, budunu, qabırğalarını çılpaq əlində közə tutub qızardır. Kabab bişir. Aldədənin əlinin tükü də qarsalanmır.

– Bu nə möcüzədir? – deyə, ərəblər heyrətlə dillənirlər.

– Möcüzə yoxdur. Mən Odlar diyarının övladıyam – od oğluyam. Od odu yandırmaz.

– Sən öz qaladığın oda yanmazsan, ancaq biz qaladığımızda əməlli-başlı bişərsən, heç külün də qalmaz, – deyə ərəblər onun möcüzəsinə şəkk edirlər.

Onlar bir qaragöz quzunu Aldədənin qucağına verirlər. Sonra da yurd yerindəki təndiri qalayırlar. Aldədəni alovu göyə dilimlənən təndirə salırlar, təndirin ağzını iri sal daşlarla örtürlər.

Ərəblər elə düşünürlər ki, Aldədə bu gecə təndirdə yanıb kül olacaq. Səhər onlar təndirin ağzını açanda gözlərinə inanmırlar. Aldədənin başı-

nın tükləri, bığları qarlı-qırovlu idi, saqqalından buz salxımları sallanırdı, qucağındakı qaragöz quzu isə qıpqırmızı bişmişdi.

Ərəblər dedilər:

– Bu əsl möcüzədir. Ey Aldədə, bizdən istəyin nədir?

Aldədə zəhmli xəlifənin elçilərinə cəsarətlə cavab verdi:

– Sizdən heç nə istəməyəcəyəm, amma məndən də istəməyin, qoyun hərəninki özünün olsun.

– Başa düşmədik.

Aldədə yanındakı dörd ağac çubuğunu göstərib dedi:

– Bu ağacları dörd cəhətə atacağam, hara düşsə, o torpağa toxunmayın.

Ərəblər sevindilər ki, bir qocanın atdağı ağac o qədər də uzağa düşməz. Odur ki, dedilər olsun.

Aldədə birinci ağacı atdı, ağac göydə süzdü, görünməz oldu.

Ərəblər soruşdular:

– Ağac hara düşdü?

– Savalan dağına, – deyə, Aldədə cavab verdi.

Aldədənin ikinci ağacı Şah dağına, üçüncü ağacı Alvız dağına, dördüncüsü Ağrı dağına düşdü.

Ərəblər dedilər:

– Bu ki, Odlar ölkəsi oldu.

Aldədə gülümsündü:

– Xeyr, Odlar ölkəsinin heç parası da deyil.

Ərəblər Odlar ölkəsində elə bil oda düşdülər, alışıb yanmağa başladılar. Tələsik Aldədədən ayrılıb birbaş Bağdada üz tutdular.

Mahpeykər

O gecə ki, Aldədə evə qayıtmadı, arvadı Mahpeykər onu çox gözlədi. Sonra körpə uşağını belinə sarıyıb ərini axtarmağa başladı, dağlara ün saldı. Gəzə-gəzə "Göyyurd" deyilən yerə gəlib çıxdı. Aldədənin at ilxısı burda idi. Özü isə yox idi.

Mahpeykər dağlara üz qoydu. Çox gəzdi, çox dolandı. Ancaq Aldədədən soraq tuta bilmədi. Belinə sarıqlı oğlu onun işini lap çətinə salırdı. Belə gətsə elin ağsaqqalı, başbiləni, yol göstərəni əldən gedərdi. El qara geyərdi. Necə olursa-olsun Aldədə tapılmalıydı.

Mahpeykər ona maneçilik edən, əl-qolunu çidarlayan ciyərparasını kürəyindən açıb Qızıl qayanın dibində xəlvət bir yerdə gizlədi. Dilində Aldədə, haçaqaya dağına tərəf getdi. Ağçayın sahillərini gəzdi. Aldədəni dağlardan, daşlardan, çaylardan, otlardan, çiçəklərdən soruşdu, tapa bilmədi. O geri qayıdıb oğlunu dibində qoyduğu Qızıl qayaya gəldi. Artıq səhər idi. Mahpeykər gözlərinə inanmadı. Uşağın sarığı yerdə idi, amma özü yox idi. Mahpeykərin bir dərdi iki oldu. Çox axtarandan sonra korpeşman evə döndü.

Xeyli keçmiş Aldədə evə gəldi. Başına gəlmiş hal qəzyəni danışdı. Mahpeykər də oğlunu itirdiyini, başına gələnləri danışdı.

Həmin gündən Aldədənin, Mehpeykərin dərdi-kədəri artdı. Gözləri dağlarda, daşlarda qaldı.

Mahpeykər övlad həsrətinə dözə bilmirdi. Gecə-gündüz ağlayırdı. Yerə yalvardı, əsər küləklərə, dilimlənən alovlara yalvardı, bir mətləb hasil olmadı, oğlunu ona verən bir qüvvə tapılmadı. Axırda əlacsız qalıb Ağçaya üz tutmalı oldu. Daha dözə bilmirdi. Mahpeykər ya balasına qovuşmalı, ya da həyatla vidalaşmalıydı. Çayın xasiyyəti belə idi: o yeddi ildən bir aşıb-daşırdı. Leysan yağışdan aşıb daşsa, zərər verər, ətrafında nə olsa, silib-süpürüb aparardı. Yox, elə ki, şimşək çaxdı, ildırım şaxıdı, çay o qədər də daşmazdı, süd kimi köpüklənərdi. Kim bu köpüklü sudan içsə dizlərinə, qollarına güc, qəlbinə qürur gələrdi. O bundan xeyir tapar, arzusuna qovuşardı.

Mahpeykər yenə də Ağçayın sahilinə çıxıb, ondan ümid diləyirdi. Leysan yağışlar başladı. Ağçay aşdı-daşdı, sahilləri su aldı. Mahpeykər sellərin qurbanı oldu.

Qurdoğlu

Aldədənin dərdi birə-min artmışdı. Bir tərəfdən yeganə oğlunun itməsi, o biri tərəfdən də Mahpeykərin Ağçayın sellərinin qurbanı olması onu rahat buraxmırdı. O, yeganə oğlunu axtarmağa, soraq etməyə başladı.

Aldədə belə bir xəbər eşitdi ki, Muradbəyli tərəflərdə bir boz qurd dağın başında oğlan uşağı üçün daşdan beşik düzəldib. Boz qurd uşağı nəvazişlə böyüdür. Aldədə bu yerlərə səfər etdi. Çox böyük çətinliklə uşağı tutdu. Uşağın sol dabanındakı xaldan öz oğlu olduğunu öyrənib sevindi. O, uşağı götürüb Haçaqaya dağının ətəklərinə gəldi. Boz qurd onlardan ayrılmadı.

Aldədə gözləyirdi ki, uşaq bir az da böyüsün, hər şeyi ona yerli-yataqlı danışsın. Aldədə onu istəyirdi ki, oğlunu boz qurddan aralasın, bir də fikirləşdi ki, axı boz qurd ona yaxşılıq edib, oğluna döşündən süd verib.

Bir gün Aldədə oğlu ilə söhbətə başladı:

– Oğlum, sənin vətənin Odlar yurdu, anan Mahpeykər olub. Onu Ağçayın suları öz qoynuna alıb. Atan isə mən Aldədəyəm, möcüzəm odda yanmamaqdır. Deməli, sən qor oğlusan.

Uşaq qeyzlə:

– Yox, ata, mən qor oğlu deyiləm, qurd oğluyam. Mənə boz qurd döşündən süd verib.

Aldədə biləklənən, kürəklənən, ürəklənən oğluna nələr danışmadı. Odlar diyarının xoş günlərindən, igidlərindən, nazlı-qəmzəli, vəfalı gö-

zəllərindən, hikmətli, bərəkətli torpağından danışdı. Aldədə oğluna vətənin başına gələn fəlakətlərdən dərdli-dərdli söz açdı, onu eli, obası üçün qeyrətli oğul olmağa çağırdı.

Uşağın gözlərində ildırım çaxdı:

– Tapdalanan torpağımızın, oxlanan, qılınclanan igidlərimizin, al yanaqları solan analarımızın, bacılarımızın, nəğməli bulaqlarımızın, ətri sovulmuş güllərimizin-çiçəklərimizin qisasını düşməndə qoymaram Odlar ölkəsinin atəşinə and içirəm ki, qoymaram.

– Vətəni qorumaq üçün vətəndən güc-qüvvət almalısan, oğul!

– Qollarımızda kifayət qədər güc, qüvvə var. Qılınc vurmaq üçün bəs olar.

– Xeyr, oğul! Öz gücünlə sən düşmənin qabağında çox zəif olarsan. Gücü, dözümü sənə vətən verəcək.

– Necə?

Aldədə sözünə davam edib dedi:

– Mənim ömrüm-günüm Haçaqaya dağının, Qızıl qayanın, Ağçayın yan-yörəsində keçib. Aldədə yurdu, Aldədə çayı heç vaxt unudulmaz. Sənə son vəsiyyətim budur: Mən də qocalmışam, boz qurd da. Bizim dünyadan köçməyimizə az qalıb. Sənə bir sirr deyim: Bu yerlərdə Ağçay çox sirlidir. O, yeddi ildən bir tələtümə gəlir. Elə ki, gördün leysan yağdı, onda şərdir, ona yaxın düşmə. Anan Mahpeykər kimi sellər səni aparar. Yox, gördün şimşək çaxdı, ildırım şaxıyır, onda xeyirdir. Ağçaya yaxınlaş, ağ köpüklü suyundan doyunca iç, bax ilxıdan o Göysu atlarının balalarını da apar, qoy onlar da o sudan içsinlər. Onların da dizi, qolu, ürəyi qüvvətli olsun.

Yeddi il tamam idi. O, Göysu atlarının hərəsini bir qoluna bağlayıb, Ağçayın sahilinə gəldi. Xoşbəxtlikdən şimşək oynadı, ildırım çaxdı. Dünya qaranlıqlaşdı. Hər dəfə ildırım çaxanda Haçaqayanın zirvələri işıqlanırdı. Onun gözünə gah dağın bir tərəfində boz qurd, o biri tərəfində isə at ilxısı yanında Aldədə, gah da ağ suların qoynunda saçları çiyinlərinə dağılmış Mahpeykər görünürdü.

İldırım çaxır, dağlar, daşlar, otlar, çiçəklər, sular sanki dilə gəlib deyirdi:

– Qurdoğlu, bax o Aldədə, boz qurd, ana Mahpeykər bizi sənə tapşırıb. Bizi elə qoru ki, bu çəmənə düşmən ayağı dəyməsin, daşlarımı düşmən atının nalı yaralamasın, ağ köpüklü sularıma düşmən dodağı toxunmasın.

Göysu atlarının biri yuxarı tərəfdə, biri isə aşağıda, bir qədər lillənmiş sudan içdilər. Qurdoğlu Göysu atının birincisini mindi, lilli su içmiş atını da yedəyinə alıb, "Aldədə yurdu" na tərəf üz qoydu. O, hansı dağdan, çaydan keçirdisə qulağına bir səs gəlirdi: – Qurdoğlu, bizi qoru, axı bu yurdu sizə tapşırıblar. Bu vətən səsi, Odlar diyarının səsi idi.

Naltökən

Bağdad xəlifəsi bərk qəzəblənmişdi. Elçiləri göndərdi və dedi:

– Minin ərəb atları. O yerlərdə gedib gizlənin. Aldədəni qəflətən tutub əl-qolunu bağlayın. Nəbadə onun başından bir tük əskik ola. O möcüzəli qocanı mən görməliyəm.

Ərəb elçiləri kor-peşman yenə də Odlar ölkəsinə yola düşürlər.

Onlar neçə gün əzəyyət çəkdilər, qayada-daşda gizləndilər. Elçilər Aldədənin oğlundan – kiminin Qoroğlu, kiminin Qurdoğlu adlandırdığı igiddən bərk ehtiyat edirdilər. Nəhayət, günlərin birində Aldədəni xəlvətcə gecə ikən yatağından oğurladılar. Onlar qocanın əl-ayağını bağlayıb ata sarıdılar. Aldədə ərəblərin fikrini başa düşdü və dedi:

– Məqsədiniz nədir? Məni hara aparırsınız?

Elçibaşı dedi:

– İndi sən bizim əlimizdəsən. Qabaqda görünən aşırımı aşıb asudəyə çıxarıq. Səni xəlifəyə sağ-salamat çatdırsaq, əvəzində böyük ənamlar alacağıq.

Aldədə güldü:

– Qorxuram, zəhmətiniz əlinizdə qala..

– Çətini bu alçaq aşırımı adlamaqdır.

– O aşırım sizə alçaq görünür?

Elçilər qocanın sözünə əhəmiyyət verməyərək atları mahmızladılar. Onlar dan sökülənə kimi aşırımla vidalaşmaq istəyirdilər.

Ərəblər aşırıma çatdılar. Səhər açılana kimi ha yol getdilər, heç aşırımın yarısına qalxa bilmədilər. Gündüz gizləndilər, gecə yenə yol başladılar. Aşırım qurtarmaq bilmirdi. Atlılar neçə gecə ayaq döydülər, bir nəticə hasil olmadı. Aşırım getdikcə uzanırdı. Daşlı yollarda ərəb atlarının nalları töküldü. Aldədənin atının nalına isə heç bir şey olmamışdı. Taqətdən düşən ərəblər əlacsız qalıb niyyətlərindən əl çəkdilər:

– Qoca, bu sirri bizə agah etsən, səni azad edəcəyik. Niyə bu alçaq dağı biz aşa bilmədik, niyə bizim atların nalı töküldü, sənin atının isə yox?

Aldədə dedi:

– Mən buna əvvəlcədən əmin idim ki, siz məni yad ölkəyə apara bilməyəcəksiniz. Bu yerin adı "Naltökən"dir. Vaxtı ilə İsgəndər Zülqərneynin də qoşunu bu dağda ah-nalə çəkib, yunan atları da bu torpağa nallı gəlib nalsız gedib. Bu torpaq doğmaları da, yadları da yaxşı seçir. Aldədəni aparanlara yol versəydi, dağlar xəcalətindən əriyib suya dönərdi. Belə alçaq aşırımlar ucalıb keçilməz zirvələrə çevrilirlər. Bizim torpaq yağıların niyyətini ayaqlarının səsindən də bilir. Yad adamların nalını salır ki, atlıların ağlı başına gəlsin.

Ərəblər torpağı da özü kimi möcüzəli olan Aldədənin əl-ayağını açıb azad etdilər. Onlar məyus halda Bağdada üz tutdular.

İldırım qılınc

Xəlifə qəzəbindən yerə-göyə sığmırdı. O, bu dəfə Odlar ölkəsinə beş-on nəfər elçi deyil, böyük qoşun göndərir. Qoşun başçılarına bərk-bərk tapşırır.

– Aldədənin qüvvət aldığı bir sirr var. Bu sirr onun möcüzələrinə meydan açır. O sirr Qoroğludur. Aldədənin doğmaca balası. Qoroğlunu mühasirəyə salıb əl-ayağını sarıyın, əsir edib qabağınıza qatıb gətirin. Onda Aldədə öz ayaqları ilə hüzuruma gələr.

Xəlifənin qoşunu elə həmlə etdi ki, hər tərəf kəsildi, təkcə qarşıda əlçatmaz bir qaya dayanırdı.

Qəfil həmlə Qoroğlunu mühasirəyə salmışdı. Qoroğlunun üç tərəfi qoşun, bir tərəfi isə sıldırım qayalıq idi.

Qoşun başçıları sevinirdilər ki, Odlar ölkəsinin yenilməz, basılmaz oğlunu keçilməz səddə salıblar. Tək adam böyük bir qoşuna neyləyə bilər. İndi onu doyunca ələ salıb güləcəklər, rahatca əl-ayağını sarıyıb xəlifəyə hədiyyə aparacaqlar.

Qoroğlu da sevinirdi. Sevinirdi ki, Göysu atının belindədir. Sevinirdi ki, ildırım qılınc əlindədir, sevinirdi ki, onun qabağını kəsməli olan mühasirənin dördüncü tərəfi doğma torpağ, doğma qayadır.

Qoroğlu ildırım qılıncı qınından çıxardı, qoşun geri çəkildi, elə bildilər ki, özünü qoşuna təpəcək. Lakin gözlənilməz, qeyri-adi bir hadisə baş verdi. Qoroğlu öz qılıncını sal qayaya endirdi.

Hamı heyrətdə qaldı. Bilən olmadı: Qoroğlu qayanı çapdı, yoxsa, qayamı aralanıb ona yol açdı?!

Qoroğlunun Göysu atı çapılmış qayanın arasından atılıb quş kimi çıxdı.

Ərəblər geri dönüb gördükləri bu yeni möcüzəli xəbəri xəlifəyə çatdırmağa tələsdilər.

Nəqşi-Nigar

Xəlifə yanına üç ərəb çağırıb dedi:

– Aldədə dünyadan köçdü. Yurdunda Qoroğlu qaldı. Aldədə işığı oğlundan alırdı. Qoroğlu isə işığı Nəqşi-Nigardan alır.

Qoroğlunu sarsıtmaq üçün Odlar yurdunun gözəlini – Nəqşi-Nigarı onun əlindən alıb Bağdada gətirmək lazımdır.

Bir dəstə ərəb silahlanıb Odlar yurduna yola düşdü. Onlar Nəqşi-Nigarı kənddə tapmadılar. Öyrənirlər ki, Nəqşi-Nigar dağlara gül-çiçək yığmağa, Qoroğlunu görməyə gedib.

Ərəb atlıları vaxt itirməmək üçün tez yola düşdülər. Məqsədləri Nəqşi-Nigarı ayrı yolda, Qoroğluna çatmamış yaxalamaq idi. Elə də oldu. Onlar Nəqşi-Nigara Haçaqayanın yanında çatdılar. Nəqşi-Nigar onları görən kimi qayanın sərt yerinə çəkildi.

Ərəbin biri pusquda idi. O, qəflətən Nəqşi-Nigarın qoşa hörüklərini tutub biləyinə doladı. Nəqşi-Nigar özünü qayadan atdı. Ərəb gördü ki, Nəqşi-Nigarın ağırlığı hörükləri onun əlindən çıxarır, qılıncla qoşa hörükləri kəsdi. Nəqşi-Nigar o yerə düşdü ki, qayadan onun üzünə iki damcı düşürdü. Biri qan, biri su.

Vaxtı ilə Qoroğlu bu qayanı çapanda atının ayağı yaralanıb qanı torpağa sızmış, bunu görən Qoroğlunun gözündən iki yaş damlası düşmüşdü. Həmin yerdən hey bir cüt damcı düşürdü: biri su, biri qan.

Bu bir cüt qan və su damlaları dərdlərin dərmanı, məlhəmi idi. Nəqşi-Nigarı da bu qan və su damlaları ölümün pəncəsindən aldı, ona həyat verdi.

Qayanın başında isə möcüzə baş verdi. Qoşa hörüklər dönüb iki əfi ilan oldu. İlanlar ərəbləri məhv etməyə başladı. Biri burda çaldı, biri orda. Bir-iki nəfər qaçıb canını zorla xilas edə bildi. Onlar bu möcüzəni xəlifəyə çatdırmaq üçün Bağdada yola düşdülər.

Atanın od nəfəsi

Üç ərəb yenə Odlar ölkəsində – Pirqulu dağında – sözü-söhbəti günəş, od olan bir şəxsin – Dədə Günəşin peyda olduğunu eşidib onun möcüzələri ilə tanış olmağa gəlmişdi. Qışın qarlı-boranlı bir günü idi. Onların yolu meşəli, qarlı dağdan keçirdi. Qar o qədər yağmışdı ki, addım atmaq mümkün deyildi. Amma necə olursa-olsun, ərəblər özlərini Dədə Günəşin evinə çatdırmalıydılar. Yoxsa, gecə hamısı dağın şaxtasında donub məhv olardı. Ərəblər kəndirlə bir-birinə çataqlanıb böyük ehtiyatla hərəkət edirdilər. Bir də eşitdilər ki, yaxındakı yarğandan zəif səs gəlir:

– Ay yolçular, mən Qoroğluyam! Ova çıxmışdım, qar uçqununa düşdüm. Darda qalanın hayına yetmək mərd işidir. Köməyinizi əsirgəməyin. Dədə Günəşin gözlərini yaşlı qoymayın..

Ərəblər qar altından gələn iniltinin Qoroğlu olmasına çox sevindilər:
– Elə yaxşı oldu! Qoy qarın altında qalıb soyuqdan ölsün. Xəlifəyə müjdə xəbəri aparıb qiymətli ənam alarıq. Bir də ki, doğrudan da, Dədə Günəşin möcüzələri varsa, qoy oğlunu xilas etsin, – dedilər.

Ərəblər çox çətinliklə, əzab-əziyyətlə, birtəhər ağacların budaqlarından tuta-tuta qorxulu dağı aşdılar.

Axşam ərəblər Dədə Günəşə qonaq oldular. Qoca çox həyəcanlı idi. Qonaqlar əvvəlcə bunun səbəbini bilmədilər. Axşamdan xeyli keçmiş, şaxtanın bərkiyən vaxtı Dədə Günəş dedi:

– Mənim döşəyimi taxtın üstündən yerə endirin.

Ərəblər heyrətləndilər: "Deyəsən qocaya nəsə bəlli olub, yəqin ki, bu saat möcüzə baş verəcək".

Dədə Günəş ağzını yerə dayayıb var gücü ilə nəfəs verdi. Qocanın ağzından rəngarəng od saçırdı. Gördüklərinə heyranlıqla, təəccüblə tamaşa edən ərəblər soruşdular:

– Ey Dədə Günəş, bu nə hikmətdir, bizi agah elə?

Dədə Günəş odlu nəfəsinə aram verdi, qonaqların sualını cavabsız qoymadı:

– Oğlum ova getmişdi. Başı ova qarışıb, uzaqlaşıb. Qar-boran üstünü alıb. Uçqunla üzləşib yarğana düşüb. Quşbaşı yağan qar da bir tərəfdən döşəyib. Oğlum son nəfəsdədir. Odlu nəfəsimlə mən yeri isindirdim ki, Qoroğlu soyuqdan donmasın.

Qocanın dedikləri ilə ərəblərin gördükləri düz çıxırdı. Ancaq hələ də Qoroğlunun salamat qalmasına inanmırdılar.

Ərəblər səhərin açılmasını səbirsizləklə gözləyirdilər. Səhər erkən Dədə Günəş yatağından duran kimi, qonaqlar da yola düzəldilər. Gəlib dağa çatdılar. Dədə Günəş gülə-gülə qənşərdəki yarğanı göstərib dedi:

– Baxın, o qar tayasının başı necə tüstülənir?! Oğlum o qar tayasının altındadır. Nəfəsimlə yeri qızdırmışam. Oğlum donmayıb, salamatdır.

Elə bu vaxt Qoroğlu qılıncı ilə qarı bölüb üzə çıxdı. Sanki günəş gecəni parçaladı.

Ərəblər bu son möcüzəni görüb məyus halda Bağdada, xəlifənin yanına qayıtdılar.

Odlu məzar

Dədə Günəşin ölüm xəbəri ərəbləri çox sevindirmişdi. Onlar təkcə Qoroğlunu aradan götürmək, ondan sonra Odlar ölkəsində öz məqsədlərinə tam nail olmaq istəyirdilər.

Ərəblərdən biri dedi:

– Qoroğlunun üstünə ərəb xilafətində şan-şöhrət qazanmış Qara pəhləvanı göndərmək lazımdır.

Qara pəhləvanı çağırdılar. Xəlifə dedi:

– Yaxşı fikirləş, Odlar ölkəsinə gedən pəhləvan gərək təkcə gücünə arxalanmasın, ağlı ondan da qüvvətli olmalıdır. Bir də ki, bu günə qədər Odlar ölkəsində Dədə Günəşi, Qoroğlunu yenən sındıran olmayıb. Bu möcüzəli ölkənin möcüzələri ata ilə oğlun əlində olub. Doğrudur, Dədə Günəş dünyadan köçüb, təkcə Qoroğlu qalıb. Mən Dədə Günəşin ölümünə yenə də inana bilmirəm. Bir də ki, Odlar ölkəsində dağ da, daş da, çay da, su da, torpaq da, meşə da Qoroğlunun köməyidir. Unutma ki, qırx pəhləvanla güləşə getmirsən, Qoroğlu köklü bir dağdır, alınmaz qaladır, o bir ölkədir.

Yoldaşları yolda Qara pəhləvana dedilər:

– Öyünmək yeri deyil, sən Qoroğlunu tək-tənha, silahsız, qəflətən yaxalamalısan. Üz-üzə döyüşdə sən ona bata bilməzsən.

Odlar ölkəsini çox axtardılar. Qoroğlunu tapa bilmədilər. Qoroğlunu Baba dağının həndəvərindən tapdılar. Qoroğlu da ərəbləri, onların öz yanları ilə gətirdikləri bədheybət Qara pəhləvanı gördü.

Ancaq Qara pəhləvan vaxt itirmədi. Aman vermədən qılıncı çəkib Qoroğlunun üstünə cumdu. Əli yalın, silahsız Qoroğlu qaçmaqdan başqa çarə tapmadı. Qara pəhləvan onu çox qovdu. Qoroğlu bir dağın zirvəsinə çıxıb dayandı.

Bir möcüzə baş verəcəyindən qorxan Qara pəhləvan aralıda dayanıb dedi:

– Ey Qoroğlu, necə oldu ki, hər yandan qaçdın, burda dayandın?

Qoroğlu əli ilə göstərib dedi:

– Bu qarşıdakı atam Dədə Günəşin məzarıdır, mən onu tapdayıb keçə bilməzdim.

Qara pəhləvan hiylə ilə: – Qoy mən də gəlim o müqəddəs məzarı ziyarət edim – dedi.

Qoroğlu dilləndi:

– Məzar yadları yaxına buraxmaz. Uzan, məhv olarsan.

Qara pəhləvan bir-iki addım atmamış məzardan od qalxdı, məzar alovlandı.

Qara pəhləvan dəhşətə gəldi, heyrətdən gözləri böyümüşdü.

Qara pəhləvan təkcə bir söz deyə bildi:

– Ey Qoroğlu, gedim xəlifəyə nə deyim?

Qoroğlu:

– Ancaq gördüklərini...

RƏVAYƏTLƏR

COĞRAFİ YER ADLARIYLA BAĞLI RƏVAYƏTLƏR

Ağrıdağ
(Türkiyə ərazisində)

Nuh nəbi yer üzünü su basacağını qabaqcadan bildiyi üçün böyük bir gəmi qayıtdırmışdı. O, hər cins heyvandan, insandan bir cüt götürüb gəmiyə yığmışdı. Yer üzünü su alanda gəmi suyun üzünə qalxır. Nuh nəbi yetmiş beş günlük azuqə də götürmüşdü. Gəmi yetmiş beş gün suyun üzündə qalır. Bir gün Nuh nəbi görür ki, bir dağın başı qaralır, gəmisini həmin dağa tərəf sürür.

Dağın başı darısqallıq imiş, gəmidəki insanları, heyvanları tutmur. Bu dağa o zaman Qasırdağ deyirmişlər. Onun övladı olmur, qısır qalırmış. Qısırdağ Nuhun yanında xəcalət çəkir ki, gəmidə olan canlıları zirvəsində yerləşdirə bilmir. Nuh nəbi onun xəcalət çəkdiyini görüb deyir:

– Ey Qısırdağ, sən qısır olmayacaqsan, sənin övladın olacaq.

Həmin gün Qısırdağ hamilə qalır, az sonra ağrı çəkir, bir oğlu olur. O ağrı çəkdiyi üçün adını Nuh nəbi Ağrıdağ qoyur. Oğlunun adını Bala Ağrı qoyurlar. Bala Ağrı da anasının yanında baş qaldırır. Gəmidə olanlara yer verirlər, onlara hörmət eləyirlər. O zamandan Ağrıdağ oğlu Bala Ağrı ilə yan-yana durub göylərə baş qaldırır.

Qırxqız
(Kəlbəcərdə)

İstisuyun yanındakı qayalığa indi də Qırx qız deyirlər. Rəvayətə görə, Zar şəhərində zalım bir hökmdar var imiş. Bu hökmdar gözəl qızları zorla öz hərəmxanasına aparırmış. Qırx gözəl qız hərəmxanaya getməyib qaçır. Zalım hökmdar qoşun göndərir ki, onları tutub hərəmxnaya gətirsinlər. Qızlar qoşunu görəndə allaha yalvarıb dua edirlər ki, onları daşa döndərsin. Allah da onları daşa döndərir.

Axsadin baba
(Bərdədə)

Rəvayətə görə, ərəblər Bərdəyə gəlməmişdən qabaq Bərdənin padşahı Şamama adlı bir arvad imiş. Şamama, Bərdəni mühafizə etmək üçün yerin altında barılar, istehkamlar, tilsimlər düzəldir və adını Axsadin baba qoyur.

Şamama şah və vəziri çox ağıllı və tədbirli adamlar idi. Bunların tədbirləri sayəsində Bərdəyə heç bir düşmən padşah girə bilməzmiş. Bu yer indi də elə Axsadin baba adlanır.

Bibiheybət
(Bakıda)

Deyildiyinə görə, İrandan iki qız Heybət adlı bir adamın gəmisi ilə Şıx kəndinə gəlir. Heybət bu qızlara bibi deyərmiş. Az sonra Heybətin gəmisi ilə İrandan bibilərin yanına qırx qız gəlir. Bu qızlara hamı hörmət edir, onları ziyarətə gəlirlərmiş.

Bir müddət keçir, qızların hamısı ölür. Heybət bunların qəbirlərinin üstündə gümbəz tikdirir.

Heybət öləndə də qızların qəbirlərinin yanında dəfn edilir. Beləliklə, bura Bibiheybət adlanır.

Əshabi-kəhf
(Naxçıvanda)

Keçmişlərdə Dağyanus adlı bir adam Ölən şəhərdə çoban imiş, başqalarına qoyun otarırmış. Günlərin bir günü onun qulağına bir milçək qonur. Dağyanus milçəyi qovur. Milçək gedib bir oyuğa düşür. Dağyanus oyuğu qurdalayır ki, milçəyi tapıb öldürsün. Görür ki, oyuqda bir yastı daş var. Bu daşın üstündə yazılıb:

– Bu daşın altı xəzinədi. Hər kəs daşı qaldırıb xəzinəyə girərsə ölər.

Dağyanus qorxusundan daşı qaldırmır. Ölən şəhərə gedib, Molla Əhmədəli adlı bir nəfərə deyir:

– Filan yerdə bir yastı daş var, dalı xəzinədi. Gedək daşı qaldır, xəzinənin yarısı sənin olsun. Mənim qolum ağrıyır, qaldıra bilmirəm.

Molla Əhmədəli sevinə-sevinə onun dalınca düşür, oyuğa gedir. Daşın üstünü oxuyur, görür ki, doğrudan da daşın dalında xəzinə var. Amma yazılıb ki, kim bu daşı qaldırsa ölər.

Dağyanus çox bic adam idi. Onu dilə tutub dedi:

– Əşi, bu yazılana inanmaq olmaz. Daşı qaldır, xəzinəyə sahib dur.

Molla Əhmədəli əvvəl qorxur. Dünya malı şirin olar. Xəzinə onu şirnikləndirir. Qolunu çırmayıb daşı qaldırır. Nə görür: bura böyük xəzinədi, içi ləl, cəvahir və qızılla doludu. Dağyanus da onunla birlikdə xəzinə-

yə girir. Görür ki, bir qılınc var, üstündə yazılıb "Xəzinəyə ilk girəni bu qılıncla öldürsən, xəzinəyə sahib ola bilərsən. Dağyanus tez qılıncı götürüb Molla Əhmədəlini öldürür. Gecə ikən xəzinəni yığır, varlı adam olur. Az zaman içərisində Naxçıvanda padşahlığı öz əlinə keçirir, zalım bir padşah olur.

Dağyanus hər yerə elan edir:

– Allah mən özüməm. Sizin tanıdığınız allahı tanımıram.

Dağyanus şahın zülmü ərşə dayanır. Günlərin bir günü Dağyanusun qulağına yenə bir milçək girir. Şah nə qədər çalışır, milçəyi çıxara bilmir. Vəzirə, vəkilə deyir:

– Başıma döyün milçək çıxsın.

Vəzir ona deyir:

– Şah, sənin ki bir milçəyə gücün çatmır qulağından çıxarasan, bəs niyə özünü allah adlandırmısan?

Dağyanusun acığı tutur, hamısının boynunu vurmaq əmrini verir. Vəzirlərdən Təmirxan, Müslüm, bir də bir nəfər qaçırlar. Bunların qabağına bir çoban çıxır. Çoban onlardan soruşur:

– Hara gedirsiniz?

Ona deyirlər:

– Zalım Dağyanusun zülmündən baş götürüb qaçırıq.

Çoban deyir:

– Mən də o padşahın zülmündən cana gəlmişəm. Sizlə qaçacağam, ona rəiyyət olmaq istəmirəm.

Çobanın Qıtmir adlı bir iti var imiş. İt də bunların dalına düşür. Nə qədər eləyirlər, it onlardan əl çəkmir. Vurub bir qıçını, iki qıçını, sonra da üç qıçını sındırırlar, yenə də əl çəkmir. Dağa çatanda görürlər ki, itin qıçları sapsağdı. Onu qovmaq istəyəndə dilə gəlib deyir:

– Niyə məni qovursunuz? Mən də Dağyanusun zülmündən qaçıram.

Gethaget bir kahaya çıxırlar. Gecə olduğundan bu kahada qalmalı olurlar. Hərə başını bir daşın üstünə qoyub yuxuya gedir. Bir vaxt yuxudan oyanırlar. Bir-birlərinə deyirlər:

– Ədə, qalxın, günorta olmuşdur. Gör nə qədər yatmışıq, aclıq bizi əldən salır.

Təmirxanı başqa dona salıb göndərirlər ki, gedib şəhərdən çörək alıb gətirsin. Təmirxan şəhərə gedir. Baxır ki, heç bu gördüyü şəhərə oxşamır. Hər şeyin yeri dəyişmişdir. Gəzib bir çörəkxana tapır. Çörək alıb pulunu vermək istəyəndə çörəkçi onun yaxasından tutub deyir:

– Yəqin sən xəzinə tapmısan. Səni padşahın yanına aparacağam.

Çörəkçi onun yaxasından əl çəkmir. Səs-küyə adamlar tökülür. Təmirxanı padşahın yanına aparırlar. Təmirxan bütün əhvalatı padşaha söyləyir. Padşah deyir:

– Sən evinizi tanıyırsanmı?

Təmirxan deyir:

– Əlbəttə, tanıyıram.

Təmirxan bunlarla gedir, öz evlərinə çıxır. Bu evdə bir qoca kişi olurmuş. Ondan kim olduğunu soruşurlar. O cavab verir:

– Mənim babamın cəddi babasının adı Təmirxan olmuşdur.

Hesablayırlar ki, Əshabi-kəhf adamları kahada üç yüz əlli il yatmışlar. Hamı bu işə təəccüb edir. Padşah, vəzir, vəkil, camaat Təmirxanın başına toplaşıb yola düşürlər ki, gedib onları dəbdəbə ilə şəhərə gətirsinlər.

Kahanın yaxınlığına çatanda Təmirxan deyir:

– Siz burada dayanın, mən gedim yoldaşlarıma xəbər verim, yoxsa qorxarlar.

Təmirxan gedib bütün əhvalatı yoldaşlarına nağıl eləyir.

– Evi yıxılmışlar, möcüzədir. Üç yüz əlli il yatmışıq. İndi ayrı qərinədi, ayrı zamanadı, hər şey dəyişib.

Bunu eşidəndə hamısı əl duaya götürüb deyirlər:

– İlahi, bizi həmişəlik yuxuya apar!

Ağızlarının sözü qurtaran kimi iki qaya gəlib ağız-ağıza qovuşur, adamlar içəridə qalırlar.

O gündən bu dağ Əshabi-kəhf adlanır.

Löküm qalası
(Kəlbəcərdə)

Deyildiyinə görə, Kəlbəcərin Löküm qalasında Lök adlı bir adam yaşayırmış. Lök allahı tanımazmış. Özü allah qayırıb, ona biət edərmiş. Özü də çoxlu qoşunu var imiş. Heç bir padşah ona qalib gələ bilməzmiş. Bunun əlindən Əmirə şikayətə gedirlər. Həzrət Əmir onunla davaya gəlir.

Əmir onun qoşununu qırıb, Löküm qalasına girir.

Lök çox tilsimkar imiş. O hər dona düşməyi bacarırmış. Bu qalanın da bircə yolu var imiş. Əmir burada keşikçi qoyur. Əmir qalanın içinə girəndə Lök itə dönüb, ağzında bir çarıq keşikçinin yanından çıxıb gedir. Əmir qalanın içini varaq-varaq eləyib axtarır, amma Lökü tapmır. Keşikçidən soruşur. O deyir:

– Bu yoldan bircə it çıxıb. Adam-zad çıxmayıb.

Əmir durbinlə baxır, görür ki, Lök it donunda yeddi ağaclıqdan gedir. Əmir şir kimi qəzəblənir, bir qaya götürüb tullayır, qaya gedib Seyidlər kəndinin yanındakı gədikdə Lökün yanında yerə düşür. Lök yarıya qədər torpaq altında qalır.

Əmir düldül atı minib Lökə çatır, torpaqdan çıxhaçıxda onu yaxalayır. Lök Əmirə yalvarır:

– Məni öldürmə.

Əmir onun qaşının ətindən dartıb yerə qədər uzadaraq deyir:

– Ölmə, ölüncə əzab çək!

Rəvayətə görə Lök ölmür, heç ölməyəcək, həmişə əzab çəkəcəkdir. Yenə belə rəvayət edirlər ki, guya göydən qanadlı adamlar enib Löküm qalasını tikmişlər.

Qız qalası
(Bakıda)

Rəvayətə görə, bir zaman ərəblər atəşpərəstlərin məbədgahını dağıdıb, ocaqlarını söndürüb, onlara islam dinini qəbul etdirirlər. O vaxtlar atəşpərəstlər ərəblərin əlindən qaçıb başqa ölkələrə gedirlərmiş.

Atəşpərəstlər ocaq axtara-axtara gəlib gözəl bir yerə çıxırlar. Görürlər ki, bu yerin ab-havası çox yaxşıdır. Özü də burada yerdən od çıxır. Bunu görən atəşpərəstlər gedib öz xanlarına xəbər verirlər.

Xan bu yeri bəyənir. Dəniz qırağında yeddi mərtəbə hündürlüyündə iki qapılı üstü də açıq bir qala tikdirir. Bunların adətlərinə görə, varlı adamlar yeddi ilin azuqəsini götürüb gələrmiş həmin qalaya, alt mərtəbədən başlayıb, ildə qalanın bir mərtəbəsində oturub, ibadət edərmiş. Yeddi mərtəbəni qurtarandan sonra moltanı adını alarmış.

Bir müddətdən sonra ərəblər gəlib bura çıxır. Atəşpərəstlərlə ərəblərin arasında dava düşür. Atəşpərəstlərin bir hissəsi başqa ölkələrə, bir hissəsi isə Şüvalana gedib orda yaşamağa başlayır. Burada özlərinə məbədgah tikirlər.

İllər, aylar keçir. Səməd adında xan peyda olur. Səməd xanın Sona adında gözəl bir qızı varmış. Səməd xan bu gözəlliyi öz qızında görəndə min könüldən bir könülə öz qızı Sonaya aşaq olur. Sonanın Həsən adında bir sevgilisi var imiş, hər gün onunla görüşürmüş.

Bir gün Səməd xan qızını yanına çağırtdırıb, ürəyindəkini ona söyləyir. Sona atasının bu təklifini rədd eləyib ağlaya-ağlaya anasının yanına gəlir, əhvalatı ona danışır. Sonanın anası Ceyran xanım gözünün yaşını tökə-tökə əri Səməd xana deyir:

– Gəl sən bizi el içində biabır eləmə, ata da öz qızını alarmı?

– Ay arvad, heç elə şey olar? Qızımı sınayırdım?

Ceyran xanım ərinin sözünə inanır, gedib qızını da başa salır.

Bir müddət keçir. Bir gün Səməd xan arvadını öldürür. Yenə bir müddət keçir. Səməd xan qızının yanına gəlib fikrini ona deyir.

Sonanın əlacı kəsilir, atasından yeddi gün möhlət istəyir. Atası razılıq verir. Sona sevgilisinin yanına gedir, əhvalatı ona söyləyir.

Sevgilisi Həsən deyir:

– İndi ki, belədi, get atana deginən ki, filan yerdə atəşpərəstlərdən qalma bir qala var, yeddi mərtəbəyə kimi tikilibdi, amma üstü örtülməyib. Bir mərtəbə də onun üstündə tikdirib səkkiz mərtəbə elə, ondan sonra sənə gəlim. O vaxtacan atanın başı qarışar, mən də səni götürüb qaçaram.

Sona razı olur. Atasının yanına gəlib necə ki, Həsən demişdi, onun təklifini atasına söyləyir. Ata qızının təklifini qəbul eləyib həmin gün moltanların yeddimərtəbə qalasının üstündən bir mərtəbə də tikdirməyə başlayır. Bir neçə gündən sonra qalanın səkkizinci mərtəbəsi hazır olur.

Sona qalanı görüb ağlaya-ağlaya Həsənin yanına gəlir:

– Bu gün axşam atam məni qalanın səkkizinci mərtəbəsinə aparır. Sən də əlinə bir xəncər alıb dayanarsan pilləkənlərin birində, atam gələn kimi onu öldürərsən.

Həsən əlinə xəncər alıb qalanın üst pilləkənində dayanır. Səməd xan gələn kimi ona bir xəncər vurub cəhənnəmə vasil eləyir. Bu hadisəyə Sona xanım yuxarıdan baxırmış. O, sevindiyindən nə edəcəyini bilmir. Qalanın üstündən boylanıb Həsəni səsləmək istədikdə ayağı büdrəyir, qaladan aşağı yuvarlanır.

Bu mənzərəni görən Həsən Sonanın meyidi üstünə gəlir, əlindəki xəncəri ürəyinə soxub, sevgilisinin yanına yıxılır.

Camaat yığılır, Sona ilə Həsənin meyidini qalada dəfn edir. O vaxtdan qalanın adı Qız qalası olur.

Bayandur
(Zəngəzurda)

Keçmiş zamanlarda İbili adlı bir qaçaq yaşayırmış. Bu qaçaq padşahın adamlarına divan tuturmuş. Padşah onunla davaya nə qədər qoşun göndərirmişsə, onu nə tuta, nə də öldürə bilmirmişlər. Axırda hökmdar İbiliyə sifariş göndərir ki, haranı istəyirsən bəyən dur, oranı sənə verim, imarət tikdir, orada yaşa.

İbili padşahın təklifinə razı olur. Çox yer gəzir, axırda gəlib bəyəndiyi bir yerə çıxır, orada durur. İbili burada imarət tikdirib ölüncə yaşayır. Onun üçün də buranın adına "Bəyəndur" demişlər ki, sonralar Bayandur olmuşdur.

Dadmələk dağı
(Zəngəzurda)

Rəvayətə görə, Sisyanda Mələk adlı böyük bir mülkədar yaşayırmış. Mələk əhalini çox incidirmiş. Bir gün onun ağlına gəlir ki, gərək burada elə bir dağ düzəltdirəm ki, Pənahabad qalasından yüksək olsun, Pənah xan çıxıb oradan baxanda inansın ki, ondan da zor adam var.

Əhalini yığır, yüksək dağ düzəldir. Bu dağdan Pənahabad qalası, Pənahabad qalasından da bura açıq görünür.

Zülm ilə düzələn bu tökmə dağa əhali indi də Dadmələk dağı deyirlər.

Əjdaha qayası
(Kəlbəcərdə)

Rəvayətə görə, Əjdaha qayasının dalı böyük mağaradır. Qədim zamanlarda bir pəhləvan bu mağaraya gedib, bir əjdaha öldürmüşdür. Guya qayadan damla-damla axan da su deyil, əjdahanın yağıdır.

Qayanın ətrafından da guya bir gil tapılır ki, adına padi-zəhər deyirlər. Qədim insanlardan kim əjdahanın yağından zəhərlənirmişsə, padi-zəhərdən yeyib sağalırmış. Padi-zəhəri də pəhləvan tökmüşdür ki, hər kəs əjdahanın yağından zəhərlənərsə, yeyib yaxşı olsun. Bu qaya indi də "Əjdaha qayası" adlanır.

Zar
(Kəlbəcərdə)

Bir qarı var imiş. Onun Zaza adlı oğlundan başqa kimsəsi yox imiş. Zaza qonşu kənddən Nazı adlı bir qız sevirmiş. Ancaq kasıb olduğundan qızı ona vermirlərmiş.

Oğlan qapıda qarpız tağı əkir. Tağın bir qanadını saxsı bardağın içinə salır. Bardağ içində olan qanad çiçək açır, kürə düşür. Kürə böyüyüb qarpız olur. Zaza içində qarpız olan saxsı bardağı Nadirə aparır. Nadir bardaqda qarpıza baxıb, oğlanın fərasətinə afərin deyir. O, Nazının ata-anasına əmr edir ki, qızı Zazaya versinlər.

Əmr verən gün Nadir şah səfərə çıxır. Qızın adamları fürsətdən istifadə edib, gecə Zazanı tikə-tikə doğrayıb quyuya tökürlər.

Zazanın bir sehirli tütəyi var imiş. Həmişə öz-özünə çalıb, Zazanın başına gələn əhvalatı söyləyərimş. Nadir səfərdən qayıdanda görür ki, quyudan səs gəlir. Qulaq asır, görür tütək deyir:

Zazanı öldürdülər,
Quyuya saldırdılar.

Nadir o saat hökm edir, Zazanı öldürənlərin, Nazının atasının boynunu vurdurur. Zazanın anası hər gün ağlayır, zarıyır. Onun zarımasından kəndin adı Zar qalır.

Nuhdabanı
(Naxçıvanda)

Rəvayətə görə, yerdə olan insanlar allahı tanımadığı üçün hər yeri su basır. Nuh öz ailəsi ilə hər heyvandan bir cüt götürüb gəmiyə minir. Nuh gəmiyə minəndən sonra təzədən qırx gün, qırx gecə yağış yağır, hər yerdən su qalxaraq dünyanı basır. Nuhun gəmisi isə Diri dağının başında quruya çıxır. Nuh ayağını gəmidən yerə atanda dabanı quruya çıxır. Onun üçün də həmin yerə Nuhdabanı deyirlər.

Qarıkörpüsü
(Tərtərdə)

Bir qarı körpü salır. Az sonra onun saldığı körpünü su aparır. Qarı gəlib körpünün yanında başına döyüb ağlayır. Bu zaman nurani kişi onun yanına gəlib deyir:

– Qarı, ağlama. Körpünü pis yerdən saldırıbsan, bünövrəsi möhkəm olmayıb.

Nurani kişi çayın hər tərəfinə bir ovuc torpaq tökür. Bu torpaq böyük təpə olur, çayı daraldır.

Kişi:

– Bunların üstündən körpü sala bilərsən, – deyib gedir.

Torpaq təpələri dönüb göy daş olur. Qarı bu göy daşların üstündən təzə körpü salır. Elə onun sağlığında körpüyə Qarıkörpüsü deyirlərmiş.

TARİXİ ŞƏXSLƏRLƏ BAĞLI RƏVAYƏTLƏR

Astiaq

Midiyalılar arasında Deioka adlı bir ağıllı adam var idi.O, hökumət başına keçmək üçün çox bərk əlləşirdi. Məqsədinə çatmaq üçün belə bir tədbir gördü: o vaxt midiyalılar ayrı-ayrı kəndlərdə yaşayırdılar. Deiokanın lap əvvəldən öz doğma kəndində böyük hörməti var idi, bütün Midiyada heç bir qayda-qanun olmadığı halda, o, öz kəndində daha da artıq ədalət göstərirdi. Deioka ədalətsizlərin həmişə ədalətli adamlara düşmən olduğunu da yaxşı bilirdi. Deiokanın yaşadığı kəndin əhalisi onun xoş xasiyyətlərini nəzərdə tutaraq Deiokanı özlərinə hakim seçdilər. Deioka kənddə hökumət başına keçincə vicdan və ədalətlə hökmranlıq etməyə başladı. Beləliklə, Deioka öz yerlilərinin tərifini qazandı. Qalan kəndlərin əhalisi də onu yeganə ədalətli hakim kimi tanımığa başladılar. Hakimlərdən ədalətsiz hökmlər alan adamlar Deiokanın ədalətindən xəbər tutunca çox həvəslə onun yanına gəlir və işlərinə baxmağı ondan rica edirdilər. Beləliklə, adamlar hakimlərin içərisində bircə ona inanmağa başladılar.

Deiokanın ədalətlə hökm etməsi xəbəri hər tərəfə yayıldığından ona müraciət edənlərin sayı gündən-günə artdı. Deioka adamların ondan əl çəkmədiyini görüncə daha əvvəlki kimi camaatın gözü qabağında oturub məhkəmə qurmağı boynundan atdı və bir az sonra hakimlikdən tamamilə əl çəkdi. Deyirdi ki, bütün günü öz işini buraxıb qonşularının işinə baxır. Bu vaxt kəndlərdə soyğunçuluq və qanunsuzluq əvvəlkindən daha da artdı. Buna görə də midiyalılar bir yerə yığışıb vəziyyəti müzakirə etdilər. Deiokanın dostları öz aralarında belə danışdılar:

– İndiki vəziyyət davam etsə, biz öz ölkəmizdə çox yaşaya bilməyəcəyik. Gəlin özümüzə padşah seçək. Ölkədə qanun bərpa olunandan sonra biz işlərimizi düzəltməyə başlarıq, qanunsuzluq bizi sıxışdırıb vətənimizdən çıxara bilər.

Bu məsələdən sonra kimi padşah seçmək məsələsini müzakirəyə başlayınca hamı Deiokanın padşah olmasını təklif etdi. Deiokanı çox tərifləyib və axırda onu özlərinə padşah seçdilər. Bu vaxt Deioka özünə padşaha layiq bir ev tikilməsini və öz hökmüranlığını mühafizə üçün nizə ilə silahlanmış keşikçilər ayrılmasını əmr etdi. Midiyalılar onun bu əmrlərini yerinə yetirdilər. Onlar Deioka üçün onun özünün göstərdiyi yerdə böyük bir saray tikdilər və ona bütün midiyalılar arasından keşikçilər seçdilər. Deioka padşahlığı ələ alandan sonra midiyalıları bir şəhər tikdirməyə, bütün diqqətlərini bu şəhərə verməyə məcbur etdi. Midiyalıları bu işə

məcbur etdikudən sonra, onlara indi Ağbatam adı ilə tanınan möhkəm hasar çəkməyi əmr etdi. Bu hasar halqa şəklində bir-biri içərisində yerləşmiş bir çox divarlardan ibarət idi. Bu divarlar elə tikilmişdi ki, kənardan baxarkən bir-birinin dalında onların ancaq yuxarı hissələri – dişləri görünürdü. Divarların bu quruluşu bir tərəfdən şəhər ətrafının təpəlik olması, ikinci tərəfdən də ustaların böyük sənətkarlıq işlətməsi nəticəsində əldə edilmişdi. Divarları yeddi halqa yaratmışdılar, padşahın sarayı və xəzinələr yeddinci halqanın içərisində yerləşmişdi...

...Tikinti işləri qurtarandan sonra Deioka belə bir qayda qoydu: heç kəs padşahın yanına gəlməsin, hər məsələ ancaq qasidlər vasitəsilə padşaha yetirilsin, padşah heç kəsin gözünə görsənməsin, padşahın hüzurunda gülmək və yerə tüpürmək kimi qəbih işlərə yol verilməsin. Deioka bu tədbirlə özünü ona görə yüksəltdi ki, onunla bir yerdə böyüyən, nəsillərinə və şəxsi ləyaqətinə görə ondan heç də əskik olmayan yaşıdları onu görəndə sıxılmasınlar və ona qarşı üsyan qaldırmasınlar. Deioka belə düşünürdü ki, bu adamlar onu görməsələr, onun özlərindən ayrı bir məxluq olduğunu düşünəcək və ona hörmət edəcəklər.

...Deioka Midiya xalqını birləşdirib onlara padşahlıq edirdi. Midiyalılar altı qəbilədən ibarətdir: buslar, parepakenlər, struxotlar, arezantlar, budilər, maqlar. Midiya xalqı bu qədər qəbilədən əmələ gəlmişdi.

Deiokanın Fraorta adlı bir oğlu var idi. Deioka əlli üç il padşahlıq etdikdən sonra taxt və tac Fraortaya çatdı. Fraorta taxta əyləşincə təkcə midiyalıların padşahı olmaqla kifayətlənməyib iranlıların da üstünə hücum edib onları özünə tabe etdi. Fraorta bu iki güclü xalqı öz hakimiyyəti altına aldıqdan sonra Midiyanın başqa xalqlarını bir-birinin ardınca özünə tabe etməyə başladı və nəhayət, qoşun çəkib asorilərin üzərinə yeridi. Bunlar həmin asorilər idi ki, Nində yaşayırdılar və qabaqlarda hamıya ağalıq edirdilər. Asorilərin bütün müttəfiqləri onlardan ayrılmış olsalar da, yenə onların vəziyyəti pis deyildi. Fraorta asorilərlə etdiyi bu müharibədə məhv oldu. Cəmisi 22 il padşahlıq etdi. Onun özü ilə bərabər qoşununun da çox hissəsi məhv oldu.

Fraorta öləndən sonra padşahlıq Deiokanın nəvəsi Kiyaksaraya çatdı. Deyildiyinə görə, o, öz atasından və babasından daha döyüşkən bir adam idi. O, birinci dəfə olaraq Asiyada ona tabe olan xalqları silahlarına görə xüsusi hərbi dəstələrə böldü: nizəçilər, oxatanlar və süvarilər; ondan əvvəl bunlar hamısı bir-birinə qarışmışdı. O, midiyalılar ilə də vuruşdu, bu döyüş zamanı gündüz birdən dönüb gecə oldu. O, xeyli zamanda yuxarı Asiyanın Qalis çayının o tərəfindəki qisminin xalqlarını yığıb Nin üzərinə yeridi, atasının intiqamını almaq və bu şəhəri tutmaq istəyirdi. Kiyaksara asorilərə qalib gəlib şəhəri mühasirə edərkən birdən oraya skif qoşunu gəlib çıxdı. Bu qoşuna Protlofin oğlu padşah Madi başçılıq edirdi. Skiflər Avropadan qovduqları kimmeryanların dalınca Asiyaya soxulmuşdular. Onlar qaçmaqda olan kimmeryanları qova-qova Midiya torpağına da daxil oldular.

Meotitd gölü, Fasid çayı və Kolxidiya arasında sağlam bir piyadanın otuz gündə gedə biləcəyi yol qədər bir məsafə var idi. Kolxidiya ilə Midiya arasındakı məsafə bir o qədər də böyük deyildi. Bu iki ölkə arasında ancaq saspeyri xalqı yaşayırdı. Onların ölkəsindən ötüncə birbaş Midiyaya daxil olursan. Ancaq skiflər Midiyaya bu yolla gəlməmişdilər. Düz yoldan kənara çıxıb yuxarıdan, Qafqaz dağlarını sağ tərəfdə buraxmaqla, daha çox uzun olan bir yolla gəlmişdilər. Burda midiyalılar skiflərlə müharibəyə girişmişdilərsə də, məğlub olmuşdular, bununla da onların Asiya üzərindəki hökmranlığı itmiş və Asiya skiflərin əlinə keçmişdi.

Skiflər Asiyada 28 il hökmranlıq etdilər. Öz soyğunçuluqları və qudurğanlıqları ilə bütün Asiyanı talayıb dağıtdılar. Hər xalqdan özlərinə təyin etdikləri xəracı almaqdan başqa özgə xalqların üzərinə basqın edib var-yoxlarının hamısını soyurdular. Kiyaksara və midiyalılar bir dəfə onların qonaqlığa çağırıb içirir və hamısını qırırlar. Midiyalılar, beləliklə, padşahlığı onların əlindən qurtarır və qabaqkı ölkələrin hamısını ələ keçirirlər. Bundan başqa, onlar Nin şəhərini alıb asoriləri özlərinə tabe edirlər. Bircə Babil vilayəti onların ixtiyarına keçməmişdi.

Kiyaksara skiflərin hökmranlıq etdiyi vaxt da daxil olmaqla 40 il padşahlıq etdi. O, öldükdən sonra Kiyaksaranın oğlu Astiaq padşah oldu. Astiaqın bir qızı oldu. Astiaq bu qızın adını Mandana qoydu. Bir dəfə Astiaq belə bir yuxu gördü ki, qızının döşündən su axıb baş şəhəri tamamilə doldurub və bir sel kimi bütün Asiyanı basıb. Astiaq öz yuxusunu yuxu yozan kahinlərə nəql etdi, onlar yuxunun mənasını ətraflı danışarkən Astiaqın canını qorxu aldı. Mandananın ərə getmək vaxtı çatdıqda Astiaq gördüyü yuxudan qorxaraq, onu özünə bərabər bir adama ərə vermək istəmədi. O, qızı Kambis adlı bir iranlıya verdi. Bu iranlı məşhur ailədən olaraq çox yumşaqxasiyyətli bir adam idi. Astiaq bu adamın nüfuzunu hər hansı bir midiyalının nüfuzunun yarısından da aşağı hesab edirdi.

Mandananın Kambisə ərə getdiyinin birinci ili Astiaq ikinci bir yuxu gördü. Bu yuxunun məzmunu belə idi ki, guya qızının uşağının ağzından bir üzüm kolu (meynə) bitib bütün Asiyanı bürümüşdür. O, bu yuxusunu da yuxu yozanlara nağıl etdikdən sonra, qızı doğmasına bir az qalmış İrandan gətirdib qapısı bağlı bir yerə saldı. Yuxu yozanların dediklərinə görə, qızından doğulan uşaq onun yerində padşahlıq edəcəkdir. Buna görə də Astiaq uşağı doğulan kimi məhv etmək qərarına gəlmişdi. Keyxosrov doğularkən Astiaq qorxaraq öz qohumu, inanılmış və bel bağlamalı bir adam olan Qarpağı yanına çağırıb dedi:

– Qarpağ, sənə bir iş tapşıracağam, bu işi əhəmiyyətsiz sayma, mənim yaxamı başqalarının əlinə vermə, gələcəkdə öz bədbəxtliyinə də səbəb olma. Mandanın doğduğu uşağı apar evinizə, öldür, harda istəyirsənsə orada basdır.

– Mənim padşahım, sən indiyə qədər heç vaxt mənim işlərimdən narazı qalmamısan. Mən bundan sonra da sənin qarşında qüsursuz olmağa çalışacağam. Sənin iradən belə buyurursa, yerinə yetirmək borcumdur.

Qarpaq padşaha belə cavab vermişdi. Əyninə ölüm paltarı geydirilmiş uşağı ona verdilər. O isə uşağı ağlaya-ağlaya evlərinə apardı. Qarpaq arvadının yanına gəlib Astiaqla olan söhbətini ona nağıl etdi. Arvad soruşdu:

– İndi sən nə edəcəksən?

Qarpaq:

– Astiaqın əmrini yerinə yetirməyəcəyəm, – deyə cavab verdi. – Qoy qəzəbindən çatlasın, indikindən də artıq od tutub yansın. Mən onun dediyi kimi edə bilmərəm, bu cür bir pis işi öz boynüma götürmərəm. Uşağı bir neçə səbəbə görə öldürə bilmərəm: birincisi, ona görə ki, uşaq mənə qohumdur, ikincisi, ona görə ki, Astiaq qocalıb, oğlu da yoxdur. İndi o, bu oğlanı mənim əlimlə öldürtdürür, özü öləndə isə padşahlıq qızına çatmalıdır. Məgər bu mənim üçün böyük bir bədbaxtlıq olmazmı? Əyər uşağı təhlükədən qurtarmaq üçün öldürürsə, qoy qatil Astiaqın adamlarından biri olsun, nəinki mənim adamlarımdan.

Qarpaq dərhal padşahın çobanlarından birinin dalınca adam göndərir. Bu çobanın sürüsü dağda otlayırdı. Bu dağın hər tərəfi vəhşi heyvanlarla dolu idi ki, bu vəziyyət də Qarpağın planına uyğun gəlirdi. Çobanın adı Mitradat idi. Bu çoban Astiaqın kənizlərindən biri ilə evlənmişdi. Kənizin adı ellin dilində Kino, midiya dilində isə Spako idi. Spako midiyaca it deməkdi. Çoban öz sürüsünü Ağbatanın şimal tərəfindəki dağın döşündə – Pont tərəfdə otarırdı. Midiyanın saspeirlərin ölkəsinə tərəf olan qismi çox yüksək idi. Hər tərəfi dağlar və meşələr bürümüşdü. Midiyanın qalan hissəsi isə düz yerlərdən ibarət idi. Çoban çağırılan kimi gəlib çıxdı. Qarpaq çobana dedi:

– Astiaq əmr etmişdir ki, sən bu uşağı aparıb ən sərt dağların birinə atasan. Uşaq mümkün qədər tez məhv olmalıdır. O, bu tapşırığı verərkən belə də demişdir: uşağı məhv etməsən, hər hansı bir vasitə ilə onu diri saxlasan, sənə çox ağır cəza verəcəkdir. Mən padşahın əmrinə görə uşağın dağa atılmasını öz gözlərimlə görməliyəm.

Çoban bu sözləri eşidərək uşağı götürüb öz yerinə qayıtdı komasına girdi.

Bu vaxt onun arvadı Kino doğmaq üçün çox ağır sancı çəkirdi. Çoban şəhərə gedəndən sonra allahın izini ilə arvad doğmuşdu. Ərlə-arvad birbirindən nigaran idilər; çoban arvadının doğmasının dərdini çəkirdi, arvad isə kişisinin Qarpaq tərəfindən çağırılmasından qorxurdu. Çoban qayıdıb arvadının yatağının yanına gəlincə, onun arvadı ərinin gözlənilməz halda tez qayıtmasına təəccüb edərək Qarpağın bu cür tələsik çağırılmasının səbəbini soruşdu. Çoban isə arvadının sualına belə cavab verdi:

– Şəhərə çatarkən mən görülməli eşitməli olmayan bir şey gördüm, öz ağalarım üçün heç vaxt belə bir şey arzulamazdım. Mən qorxa-qorxa Qarpağın evinə girərkən evdəkilərin hamısı ağlayırdı. İçəri girib gördüm ki, yerdə üstü açıq körpə vardır. Körpə çapalayır və bərk ağlayırdı. Əyninə

qızıldan üstü naxışlanmış paltarlar geydirilmişdi. Qarpaq məni görüncə dərhal uşağı götürməyimi və aparıb sərt dağlara atmağımı əmr etdi, əlavə dedi ki, bu, Astiaqın əmridir, əyər mən bu əmri yerinə yetirməsəm padşahdan ağır cəza alacağam. Mən uşağı götürüb çıxdım. Bu uşağın Astiaqın qulluqçularından birinin olduğunu güman edirdim, mən onun ata-anasının kim olduğunu hardan biləydim! Ancaq uşağın əynindəki gözəl qızıl paltarlar və Qarpağın evindəki ağlaşma məni çox təəccübləndirmişdi. Yola çıxan kimi bir qulluqçudan işin həqiqətini öyrənə bildim. Bu Astiaqın qızı Mandananın və Kirin oğlu Kambisin uşağı imiş. Astiaqın əmri ilə öldürülməli idi. Bax uşaq budur, gətirmişəm. Çoban bu sözləri deyərək uşağı açıb arvadına göstərdi.

Arvad kişinin gözəl və sağlam bir uşağı gətirdiyini görüncə gözünün yaşını axıdaraq onun dizlərini qucaqladı, yalvarıb uşağı atmamasını xahiş etdi. Kişi isə cavab verdi ki, başqa cür ola bilməz. Çünki Qarpağın adamları gəlib uşağın atılmasına baxacaqlar. Əyər bu əmri yerinə yetirməsə o, özü ağır cəza ilə öldürüləcəkdi. Arvad kişisini razı edə bilmədikdə dedi.

– Sən uşağı atmağa razı olmusan, əgər mütləq uşağın atılmasını görmək lazım isə, gəl belə bir iş elə: mən doğmuşam, ancaq uşağım ölü doğulub. Bu uşağı götür dağdan at. Astiaqın qızının uşağını isə doğma balamız kimi saxlayıb böyüdərik. Beləliklə, əmrə itaət etməmək üstündə səni cəzalandırmazlar. Biz də yaxşı bir iş görmüş olarıq.

Çoban arvadının məsləhətini çox bəyəndi və onun dediyi kimi hərəkət etdi.

Öldürmək üçün gətirdiyi uşağı arvadına verdi və ölü doğulmuş uşağı isə zənbilə qoydu, aparıb sərt dağların birindən atdı. Uşaq dağdan atılandan üç gün sonra çoban öz köməkçilərindən birini uşağın yanında gözətçi qoyub şəhərə gəldi. Qarpağın evinə gəlib çənazəni göstərməyə hazır olduğunu bildirdi. Qarpaq ən inanılmış əsgərlərindən birini dağa göndərib çobanın dediklərinin doğru olduğuna inandı. Çoban oğlunu Keyxosrov adı ilə deyil, başqa bir ad ilə dəfn etdirdi.

Keyxosrov on yaşına çatanda bir hadisə onun hansı nəsildən olması məsələsinin üstünü açdı. Bir dəfə sürülərin otladığı kənddə Keyxosrov küçədə oynayırdı. Uşaqlar özlərinə bir nəfər şah seçmək istədilər. Onlar çoban oğlu adı ilə çağırdıqları Keyxosrovu özlərinə şah seçdilər. O oynayan uşaqları dəstələrə bölərək hər dəstəyə bir iş tapşırdı. Bir dəstəsini silahlı qoşun vəzifəsinə təyin etdi, bir dəstəyə saray tikmək əmri verdi, bir nəfərə işlərə göz yetirmək və bir nəfər də padşaha məlumat yığıb gətirmək vəzifəsini tapşırdı. Oynayan uşaqlardan biri məşhur midiyalı Artembaresin oğlu, Keyxosrovun əmrini yerinə yetirmədi. Keyxosrov qalan uşaqlara onu tutmağı əmr etdi. Uşaqlar ona itaət etdilər. Keyxosrov o uşağı qamçı ilə döydü. Uşaq özünü təhqir olmuş hesab edərək buraxılarkən çox bərk incidiyini bildirdi və şəhərə göz yaşları içində qayıdıb Keyxosrovun onu döydüyünü atasına nağıl etdi. O, Keyxosrovun adını çəkmədi – çünki onu hələ bu adla tanıyan yox idi – uşağa Astiaqın çoba-

nının oğlunun adını verdi. Qəzəblənmiş Artembares dərhal oğlu ilə bir yerdə Astiaqın yanına getdi və oğlunun başına gələni nağıl etdi. "Padişah, sənin qulun çobanın oğlu bizi təhqir etdi" dedi və sonra uşağın kürəklərini açıb göstərdi.

Astiaq bu sözləri eşidib və oğlanı gördükdən sonra Artembaresi təhqir etdiyi üçün Keyxosrova cəza vermək istədi və çobanla oğlunun dalınca adam göndərdi. Onlar gəlincə Astiaq Keyxosrova baxıb dedi:

– Sən çoban oğlu ola-ola necə cəsarət edib məndən sonra birinci adamın oğlunu təhqir edirsən?

Keyxosrov cavab verdi:

– Mən bu işdə çox düzgün hərəkət etmişəm. Çünki uşaqlar oyun oynamaq istədilər və məni də özlərinə padşah seçdilər. Mən onların içərisində bu vəzifəyə layiq idim. Qalan uşaqlar mənim əmrimi yerinə yetirdiyi halda, o uşaq mənim dediklərimi qulaqardına verib mənə heç bir əhəmiyyət vermirdi. Buna görə də öz cəzasını almışdır. Əgər bunun üçün mənə bir cəza vermək lazım isə buyurun, mən qabağınızda dayanmışam.

Uşaq danışarkan Astiaq onu tanıdı. Keyxosrovun üzünün cizgiləri Astiaqın üzünün cizgilərinə oxşayırdı, uşağın cavabı çox sərbəst idi. Uşağın atıldığı müddətlə çobanın oğlunun yaşı bir-birinə uyğun gəlirdi. Astiaq özünü itirərək bir qədər susdu. Özünə gəlincə çobanla təklikdə danışmaq üçün Artembaresi yanından uzaqlaşdırmaq istədi:

– Aretmbares, – dedi, – mən elə hərəkət edərəm ki, nə sən, nə də sənin oğlun məndən narazı qalmasın.

Astiaq bu sözləri deyib Artembaresi hüzurundan azad etdi və öz qulluqçusuna Keyxosrovu içəriyə aparmağı əmr etdi. Çoban tək qalınca bu uşağın haradan onun əlinə gəldiyini və kimin tərəfəindən ona verildiyini soruşdu. Çoban dedi ki, bu onun öz oğludur və bunu doğan arvad indi də onunla yaşayır. Astiaq çobana xatırlatdı ki, yalan deməkdə ağıllı iş görmür və padşahı nahaq yerə onu cəza verməyə məcbur edir. Padşah bu sözləri deyəndən sonra gözətçilərinə çobanı tutmağı əmr etdi. Çoban cəzalanacağından xəbər tutunca bütün əhvalatı olduğu kimi danışdı, padşaha yalvarıb bağışlanmasını xahiş etdi.

Astiaq çobanın əhvalatı düz-doğru danışmasını nəzərə alaraq azad etdi. Qarpağa isə çox bərk acığı tutdu, öz nizəli əsgərlərindən birini onun dalınca göndərdi. Qarpaq gəlincə Astiaq ondan soruşdu:

– Mənim sənə tapşırdığım uşağı de görək hansı yolla öldürmüsən?

Qarpağ çobanın yanında yalan deməyə cürət etmədi, yalanın üstünün açılmasından qorxaraq dedi:

– Padşah, mən uşağı səndən alınca bu əmri yerinə yetirmək barəsində düşünürdüm. Mən, sənin yanında günahkar olmamağa çalışırdım, eyni zamanda uşağı öldürməklə sənin qızının və özünün yanında bir qatil kimi müqəssir olmağı da istəmirdim. Ona görə də belə hərəkət etdim: bu çobanı yanıma çağırıb uşağı ona verdim və dedim ki, padşahın əmri ilə bunu öldürməlisiniz. Mən bu işdə heç bir yalan danışmamışdım, ancaq sənin

əmrini çobana yetirmişdim. Uşağı ona verərək əmr etmişdim ki, uşağı aparıb sərt dağların birinə atsın və ölüncəyə qədər yanında qarovul çəksin. Bu əmri yerinə yetirməsə, ağır cəzalar alacağını ona söyləyib qorxutmuşdum. Əmr yerinə yetirilib uşaq ölüncə, mən də inanılmış əsgərlərindən birini oraya göndərdim və uşağın ölümünə inandıqdan sonra dəfn olunmasını əmr etdim. Mən bu işi belə yerinə yetirmişəm və uşaq belə bir ölümlə ölmüşdür. Qarpaq əhvalatı olduğu kimi düz danışmışdı. Astiaq ona qarşı coşan hiddətini gizlədərək ən əvvəl çobandan eşitdiyi əhvalatı olduğu kimi ona nağıl etdi. Eşitdiklərini təkrar etdikdən sonra dedi:

– Qoy oğlan mənim yanımda qalsın. Mən işin belə olmasına sevinirəm, vicdan əzabı məni çox incidirdi. Sonra əlavə etdi:

– Uşaqla o cür rəftarım və qızımdan gördüyüm məzəmmətlər məni az incitməmişdir. İndi isə uşaqın taleyi yaxşılığa doğru döndüyündən öz oğlunu mənim yenicə gəlmiş nəvəmin yanına göndər və özün də mənə qonaq gəl; nəvəmin ölümdən xilas olmasını mən qurban kəsməklə bayram etməliyəm. Allahın şükrünü yerinə yetirməliyik.

Qarpaq bu sözləri eşidincə padşahın qabağında diz çökdü, əmri yerinə yetirilməməsinin belə bir gözəl nəticə ilə bitməsinə və bu cür xoşbəxt hadisəyə görə qonaq çağrılmasına sevinib evinə qayıtdı. Evə çatınca dərhal oğlunu Astiaqın hüzuruna göndərdi və tapşırdı ki, padşah nə cür əmr etsə yerinə yetirsin. Qarpağın bircə oğlu var idi, bu il uşağın on üç yaşı tamam olurdu. Qarpaq özü isə evdə qalıb bütün əhvalatı sevinclə arvadına danışdı. Qarpağın oğlu saraya gəlincə, Astiaq uşağın başının kəsilməsini və bədəninin doğranmasını əmr etdi. Əmrə görə uşağın ətinin bir hissəsi qaynadılmalı, bir hissəsi qızardılmalı, ədviyyə vurulub hazır saxlanılmalı idi. Qonaqlıq vaxtı Qarpaq və çağrılmış başqa adamlar gəlib çıxdılar. Astiaqın və başqa adamların qabağında qoyun əti ilə dolu süfrə açıldı. Qarpağın qabağına isə oğlunun ətini qoydular. Yalnız uşağın başı, əl və ayaq barmaqları büraya gətirilməmişdi, onlar xüsusi bir zənbildə mühafizə olunurdu. Qarpağın doyduğu anlaşılınca Astiaq ondan soruşdu ki, xörəkdən xoşun gəldimi? Qarpaq xörəkdən çox razı qaldığını söylədi. Bu vaxt qabaqcadan tapşırıq almış qulluqçular içərisində Qarpağın oğlunun başı, əlləri və ayaqları olan zənbili onun yanına gətirdilər, qabağına tutub açmasını və oradan kefi istədiyi şeyi götürməsini təklif etdilər. Qarpaq təklifi qəbul edərək zənbili açdı, balasının bədəninin qalıqlarını gördü, lakin özünü ələ alaraq heç bir dəhşət əlaməti zahirə çıxarmadı. Astiaq ondan hansı ovun ətini yediyini anlamışmı, deyə soruşduqda, Qarpaq anladığını bildirdi və əlavə etdi ki, padşahın tutduğu hər bir iş xoşdur. Sonra o, oğlunun vücudundan qalan əti götürüb basdırmaq məqsədilə öz evlərinə apardı.

Astiaq Qapqara belə bir cəza verdi. Keyxosrovun gəlib çıxması münasibətilə, onun yuxusunu vaxtilə yozmuş olan kahinləri yanına çağırdı. Kahinlərdən haman yuxunu necə yozduqlarını soruşarkən onlar qabaqkı sözlərini təsdiq elib dedilər ki, onun nəvəsinin taleyində padşahlıq vardır.

Əgər ölməyib yaşayarsa, padşah olacaqdır. Bu vaxt Astiaq onlara dedi:

– Haman oğlan diridi. Kənddə böyüyüb və haman kənddən olan uşaqlar onu özünə padşah seçiblər, o həqiqi bir padşah kimi hərəkət edərək bütün işləri öz qaydasında aparmışdır. Özünü mühafizə üçün gözətçilər, qapıçılar, xəbərçilər və sair təyin etmişdir. Sizin fikrinizcə bunlar hamısı nəyi göstərir?

Kahinlər cavab verdilər:

– Uşaq sağdırsa və heç bir məqsəd daşımadan padşah olmuşsa, xatircəm ol, kefini kök elə; o, ikinci dəfə padşahlıq etməyəcək.

Astiaq onların dediklərini təsdiq edərək:

– Mən özüm də bu fikirdəyəm, – dedi. – Oğlan artıq padşah olmuşdursa, demək ki, yuxu doğru çıxıb. Bu uşaq artıq mənim üçün təhlükəli deyil. Ancaq məsələni yaxşıca fəkirləşin, mənim sarayım və sizin özünüz üçün az təhlükəli olan bir tədbir tökün.

Kahinlər cavab verdilər:

– Padşah, sənin hökmranlığının möhkəm olması bizim də xeyrimizədir. Çünki, padşahlıq iranlılar nəslindən olan bir oğlanın əlinə keçsə, biz midialılar köləhalına düşərik, iranlılara yad adamlar tək təqib olunarıq. Sən isə özümüzünküsən, öz qohumumuzsan, sən padşahlıq etdikcə bizə hökmranlıqdan bir pay çatır, sənə görə bizə də böyük hörmət edirlər. İndi bir təhlükə görmüş olsaq əlbəttə səni xəbərdar edərik. Yuxun heç bir pis nəticə ilə bitməmişdir, buna görə bizim ürəyimiz arxayındı və sənə də xatircəm olmağı məsləhət görürük. Oğlanı İrana, öz ata-anasının yanına göndər.

Astiaq bu sözləri sevinclə dinləyərək Keyxosrovu yanına çağırıb dedi:

– Mənim balam, boş bir yuxuya görə mən səni incitdim, lakin talc səni xilas etdi. İndi get iranlıların yanına, mən sənə bələdçilər də qoşaram. Ora çatınca ata və anamı axtar, ancaq Mitridat və arvadı kimi ata-anamı yox, əsl ata-anamı axtar.

Keyxosrov Kambisin evinə gəlib çatınca ata-anası onu qəbul etdilər. Sonra isə kim olduğunu və haradan gəldiyini bilincə çox sevinib onun nəvazişlə oxşadılar. Onlar əvvəlcə oğlanın doğulan kimi öldüyünə inanmışdılar. Oğlan onlara bütün başına gələnlərin nağıl etdi və dedi ki, əvvəlcə o özü də bunları bilmirmiş, hər şeydən tamamilə xəbərsizmiş və belə bir acı macəla keçdiyini yolda öyrənmişdir. Əvvəlcə Astiaqın çobanının onun atası olduğunu güman edirmiş, yolda isə bələdçilərdən həqiqəti öyrənmişdi. Oğlan, çobanın arvadının onu necə saxlayıb böyütdüyünü nağıl etdi. Danışarkan Kinonun adı oğlanın dilindən düşməyirdi. Oğlanın ata-anası isə iki il Keyxosrovun xilas olmasına bir möcüzə şəkli vermək üçün bu addan daha çox istifadə edir və belə xəbər yayırdılar ki, guya sahibsiz atılan uşağı it əmizdirib böyütmüşdür. Keyxosrov haqqında nağıl buradan əmələ gəlmişdi.

Qarpaq Astiaqdan intiqam almaq üçün hədiyyə vermək yolu ilə Keyxosrovu özünə tərəf çəkməyə çalışırdı. Keyxosrov bu vaxt böyüyüb kişi olmuşdu. Öz yaşıdları arasında ağıllı və sevimli olması ilə seçilirdi. Qar-

paq bilirdi ki, o, özü padşah nəslindən olmadığı üçün Astiaqa qalib gələ bilmirdi. Buna görə də o, gənc Keyxosrov ilə əlbir olmaq istəyirdi. Qarpaq Keyxosrovun da onun özü qədər Astiaqdan çox zülümlər gördüyünə inanırdı. O, əvvəlcə belə iş gördü: Astiaq midiyalılar ilə çox amansız rəftar etdiyindən Qarpaq Midiya əyanları ilə ayrı-ayrı danışıb, Astiaqı taxtdan salmaq və Keyxosrovu padşah etmək lazım gəldiyinə onları inandırmışdı. Qarpaq buna müvəffəq olandan sonra, lazımi hazırlıq görüb öz fikrini İranda yaşayan Keyxosrova bildirmək qərarına gəldi. Yollar keşikçilər tərəfindən qorunduğundan Qarpaq belə hiylə işlətdi: O, bu iş üçün bir dovşanın qarnını elə yardırdı ki, tükləri yerindən qopmadı. Öz planını bir məktubla yazıb dovşanın qarnına qoydu və tikdi. Dovşanı torla bərabər öz sadiq qullarından birinə verdi və guya bir ovçu kimi onu İrana yola saldı. Qarpaq qula dedi ki, dovşanı Keyxosrova verərsən və tapşırarsan ki, öz əli ilə kəssin və kəsəndə yanında heç kəs olmasın.

Hər şey deyildiyi kimi yerinə yetirildi. Keyxosrov dovşanı kəsdi. Məktubu tapıb oxudu. Məktub bu məzmunda idi: "Kambisin oğlu, allahlar səni hifz etsin, yoxsa sən bu yüksəkliyə qalxa bilməzdin. Öz qatilin Astiaqdan intiqam al. O səni öldürmək istəyirdi. Sən allahların və mənim səbəbimə sağ qalmısan. Elə bilirəm ki, bütün əhvalat artıq sənə məlumdur, mənim sənin lə necə rəftar etdiyimə, səni öldürməyib çobana verdiyimə görə Astiaqın mənə necə cəza verdiyini bilirsən. Mənə inansan, Astiaqın indi hökmranlıq sürdüyü bütün yerlərin padşahı olacaqsan. İranlıları qiyama hazırla və Midiya üstünə davaya gəl. Əgər Astiaq məni qoşuna sərkərdə təyin edib sənin qabağına göndərsə, işlər lap ürəyin istəyən kimi olacaq, yox, məşhur midiyalılardan başqa bir adam təyin etsə, fərqi yoxdu, çünki Midiya kübarları hər kəsdən əvvəl ondan üz döndərəcək və sənin lə birlikdə Astiaqı taxtdan salmağa çalışacaqlar. Burada hər şey hazırdı sən də tez, mümkün qədər tez hərəkət elə".

Keyxosrov bu məktubu oxuyunca iranlıları qiyama qaldırmaq üçün hansı yolun daha əlverişli olması barədə düşünməyə başladı. Fikirləşərkən o ən əlverişli bir vasitə tapıb belə hərəkət etdi: Düşündüklərini məktuba yazıb iranlıları yığdı və onların gözünün qabağında məktubu açıb oxudu, qurtardıqdan sonra Astiaqın onu iranlılara sərkərdə təyin etdtyini bildirdi və dedi:

– İranlılar, indi hamınıza orağınızı götürüb buraya yığılmağı əmr edirəm.

Bütün iranlılar əllərində oraq gəlincə Keyxosrov tikanlı bir yeri göstərib bir gün müddətində buranı biçib təmizləməyi əmr etdi. Bu yer on səkkiz-iyirmi stad (ölçü) həcmində olan çaqqal gavalısı kolları ilə örtülmüşdü.

Adamlar işi qurtarınca Keyxosrov onların sabah yenə gəlmələrini əmr etdi və tapşırdı ki, gəlməmişdən qabaq mütləq yuyunsular. Bu vaxt o, atasından qalmış keçi, qoyun sürülərini, öküzləri bir yerə yığıb hamısının başını kəsməyi, çoxlu xörək və şərab hazırlamağı əmr etdi. O, bununla

İran xalqına böyük bir qonaqlıq verməyə hazırlaşırdı. Sabahısı gün iranlılar gəlib çıxınca Keyxosrov onları çəməndə əyləşdirib qonaq etməyə başladı. Qonaqlıqdan sonra soruşdu:

– Dünənmi vaxtlarını yaxşı keçiriblər, ya bu gün? Hansını daha çox xoşlayırlar?

Onlar cavab verdilər ki, iki günün arasında böyük fərq var: dünənki gün əziyyət və əzabdan, bu gün isə kef-ləzzətdən ibarətdir.

Keyxosrov bu sözdən yapışaraq bütün işləri anladıb dedi:

– İranlılar, bax, sizin də vəziyyətiniz belədir. Əgər siz mənim dalımca gəlsəniz, bu cür şeylərə və başqa nemətlərə sahib olacaqsınız, özünüzü hörmətli qullar kimi hiss edəcəksiniz. İstəməsəniz, dünənki kimi əzablar çəkəcəksiniz. Buna görə də, dalımca gəlin, azad olun. Mənə elə gəlir ki, allahın iradəsində mən bu işi yerinə yetirmək üçün təyin olunmuşam. Mən sizi heç bir cəhətcə midiyalılardan əskik hesab etmirəm, siz müharibə etməkdə onlardan aciz deyilsiniz. Buna görə də bir dəqiqə itirmədən Astiaqa qarşı qalxın!

İranlılar özlərinə başçı tapınca azadlıq uğrunda çarpışmağa razılıq verdilər. Onlar midiyalıların hakimiyyəti altında çox əzildiklərindən belə bir işi çoxdan arzulayırdılar. Astiaq Keyxosrovun belə bir hazırlıq aparmasından xəbər tutunca qasid göndərib onu yanına çağırdı. Lakin Keyxosrov haman qasid vasitəsi ilə Astiaqa xəbər göndərdi ki, mən özüm Astiaq güman etdiyindən daha tez onun yanına gələcəyəm. Astiaq bu cavabı eşidincə bütün midiyalıları silahlandırdı. Qarpağı sərkərdə təyin etdi. Allah Astiaqın ağlını kütləşdirdi, o da Qarpağa etdiyi zülümü yadından çıxardı. Midiyalıların qoşunu iranlılarla üz-üzə gələrkən ancaq onların bir qismi Astiaqa qarşı qiyamdan xəbərsiz olanlar, müharibəyə girişdi, bir qismi açıqdan-açığa iranlılara tərəf keçdi, çoxu isə döyüşmək istəməyərək qaçdı.

Astiaq Midiya qoşununun biabırcasına basıldığını bilincə qəzəblə qışqırdı:

– "Keyxosrovun üzü qara olsun"!

Sonra vaxtı ilə yuxusunu yozduğları zaman Keyxosrovun buraxılmasını məsləhət görən kahinləri yanına çağırtdırıb hamısının boynunun vurulmasını əmr etdi. Sonra şəhərdə qalan bütün midiyalıları, gəncləri, qocaları silahlandırdı. İranlıların qabağına gedərək onlarla müharibəyə girişdi və məğlub oldu. Özünü əsir götürdülər, onunla gedən midiyalıların hamısı qırıldı.

Astiaq əsir alındıqdan sonra Qarpaq onun yanına gəldi. Acıq və istehza ilə onun üzünə bir çox təhqiredici sözlər dedi və axırda soruşdu:

– Mənə öz oğlumun ətini yedirdiyin qonaqlıq yaxşıdır, ya padşah əvəzinə qul olmaq?

Astiaq Qarpağa bir az baxdıqdan sonra ondan Keyxosrovun bu işində iştirak edib etmədiyini soruşdu. Qarpaq cavab verdi ki, bu barədə ən əvvəl o özü Keyxosrova yazmışdır və bu iş onun öz işidir. Bu vaxt Astiaq

Qarpağa sübut etməyə başladı ki, o ən axmaq və vicdansız adamdır, axmaqdır, ona görə ki, Qarpaq hər işi özü düzəltdiyi halda, özü padşah olmaq istəməyib. Padşahlığı özgəyə verir; vicdansızdır, ona görə ki, öz şəxsi qərəzi xatirinə midiyalıları qul vəziyyətinə salmışdır. Əgər taxtda özü oturmaq istəmirdi və mütləq bir başqasını oturmaq lazım idisə, bu, adamı midiyalılar arasından seçmək daha doğru olardı. İndi midiyalılar heç bir təqsirləri olmadıqları halda, qul oldular, keçmişdə midiyalıların qulu olan iranlılar onların üzərində ağalıq edəcəklər. Astiaqın otuz beş il davam edən padşahlığı belə bitdi. Midiyalılar Astiaqın zalımlığı nəticəsində iranlıların hökmdarlığı altına keçdilər. Midiyalılar Asiyanın Qalis çayından o tərəfdəki hissəsində yüz iyirmi səkkiz il hökmdarlıq etdilər, söz yox ki, skiflərin hökmdarlığı dövrünü buraya daxil etmək lazım gəlmir. Sonra onlar peşman olub Daraya qarşı qiyam etdilərsə, yenə də döyüşdə basılıb qul halına salındılar və bu zamandan iranlılar Asiyada hökmdarlıq etməyə başladılar.

Tomris

...Bu xalq Kirin hökmranlığı altına keçəndən sonra padşah massaqetləri də özünə tabe etmək istədi. Massaqetlər sayca çox və döyüşkən bir xalq hesab olunurdu, şərqdə, Araz çayının o tayında, issedonlarla qarşıqarşıya yaşayırdılar.

Bəziləri deyirlər ki, Araz çayı İstradan böyükdür, bəziləri deyir, yox, kiçikdir. Deyildiyinə görə, Araz çayının ortasında bir çox adalar vardır və bunlar Lesba adası böyüklükdədir. Adaların əhalisi yayda yığdıqları cürbəcür köklərlə dolanırlar, qışda isə bəzi ağacların meyvələrindən xörək üçün istifadə edirlər. Bu meyvələri yayda, dəyən zaman yığıb yanında ocaq qalayır və özləri də ocağın başında dövrə vurub otururlar, sonra bu meyvələri götürüb odun içinə atırlar və odda qızarmış meyvələri iyləməyə başlayırlar. Ellinlər şərabdan sərxoş olan kimi, onlar da bu meyvələrin qoxusundan sərxoş olurlar, oda nə qədər çox meyvə atsalar bir o qədər artıq sərxoş olur, axırda ortalığa düşüb oynayır və nəğmə oxuyurlar. Onların məişəti barədə belə-belə sözlər nəql edirlər.

Araz çayı matienlərin torpağından keçir və Qinda çayı da öz mənbəyini buradan alır. Kir bu çayı üç yüz altmış arxa bölmüşdü. Bu çayın qırx qolu vardı. Bir qolundan başqa bütün qollar bataqlıqların arasında itir. Deyildiyinə görə, burda yaşayan adamlar çiy balıq yeyir və əyinlərinə suiti dərisi geyirlər. Arazın qollarından ancaq biri açıq yerlərdən keçərək Kaspi dənizinə tökülür.

Kaspi dənizi başqalarına qovuşmayan, ayrıca bir dənizdir. Avarlı gəminin on beş gün üzə biləcəyi bir uzundadır. Ən enli olan yeri səkkiz günlük yoldur. Bu dənizin qərb sahili boyunca Qafqaz dağları uzanır, bu dağlar öz həcmi etibarilə ən enli və uca dağlardır. Qafqaz dağlarında bir

çox müxtəlif xalqlar yaşayır, bunların hamısı demək olar ki, vəhşi meşə ağaclarının meyvələri ilə dolanırlar. Deyirlər ki, oradakı ağaclardan bəzisinin qəribə yarpaqları var. Onları ovub adi suya qatır və əldə edilən maye ilə paltarların üzərinə haşiyə çəkirlər. Bu naxışlar yuyulanda solmur və lap əvvəldən parça ilə bir yerdə toxunmuş kimi paltarların yunu yırtılana qədər onun üstündə qalır.

Beləliklə, Kaspi dənizinin qərb tərəfində Qafqaz dağları yüksəlir, şərq tərəfində isə uçsuz-bucaqsız bir düz başlanır. Bu geniş düzün çox hissəsində massaqetlər yaşayırdılar. Kir də bunların üstünə getmək fikrinə düşmüşdü. Onu bu yürüşə təhrik edən bir çox mühüm bəhanə və səbəblər var idi. Bu səbəblərin ən birincisi onun doğulması hadisəsi idi ki, o buna görə özünü başqa adamlardan yüksək sayırdı, ikincisi, müharibədə həmişə bəxtinin gətirməsi idi; qoşunu ilə haraya gedirdisə, heç bir xalq qabağında dayana bilmirdi.

...Bu zaman massaqetlərin taxtında ölən padşahın dul qadını əyləşmişdi; onun adı Tomris idi. Kir elçiləri vasitəsilə zahirdə onu almaq, özünə arvad etmək istəyirdi. Lakin Tomris anladı ki, Kir onu deyil, massaqetlərin padşahğlığını almaq istəyir və ona görə də təklifi rədd etdi. Hiylə baş tutmayınca Kir qoşunu ilə Araz sayı kənarına gəlib massaqetlərlə açıqdan-açığa müharibəyə girişdi. Qoşunu keçirmək üçün çayın üstündən körpülər saldı, gəmilərə isə qüllələr qoyub o taya keçməli olan qoşunlardan üstünə mindirdi.

Kir bu işlə məşğul olarkən Tomris onun yanına elçi göndərib belə bir sifariş yetirdi:

– Midiya padşahı, gəl tutduğun işdən əl çək, sən hardan bilirsən ki, başladığın bu iş axırda sənin xeyrinə qurtaracaq. Bu işləri dayandır, öz adamlarına padşahlıq elə, bizim də öz yerlərimizdə padşahlıq etməyimizə mane olma. Yox, əgər bu məsləhətə qulaq asmaq və hər necə olsa sakit durmaq istəmirsənsə, əksinə olaraq səndə massaqetlərlə müharibə üçün şiddətli bir arzu varsa, buyura bilərsən, ancaq zəhmət çəkib çayın o tayı bu tayını birləşdirmə, biz çaydan üç günlük yol uzağa çəkilək, sən bizim torpağa keç, burda vuruşaq. Yox, əgər bizi öz torpağına buraxmağı üstün tutursansa, sən də bizimki kimi hərəkət et, biz gələk, orada vuruşaq.

Kir bu təklifi eşidincə İran əyanlarını çağırıb bir yerə yığdı və məsələni söyləyib necə hərəkət etmək barəsində rəylərini soruşdu. Hamısı bu rəyə gəldilər ki, Tomrisi və onun qoşunlarını öz torpağlarına buraxsınlar.

Lakin burada iştirak edən Lidiya padşahı Krez bu rəyin ziddinə gedib onların dediklərinin əksinə bir plan təklif etdi. O dedi:

– Padşah, Zevs məni sənin ixtiyarına verdiyindən, mən lap əvvəldən söz vermişəm ki, hər cür bəlanı mümkün qədər sənin evindən uzaqlaşdırım. Başına gələn bədbəxtliklər mənim üçün ağır dərs olmuşdur. Əgər sən özünü və eləcə də qoşununu olməz bilirsənsə, daha onda mənim öz rəyimi deməyimə heç bir ehtiyac yoxdur. Yox, əgər özünün və öz təbəələrinin də adi insan olduğunu etiraf edirsənsə, hər şeydən əvvəl, bil

ki, insanların taleyi bir çarx kimi hərlənir və bu hərlənmə heç vaxt eyni adamların daimi xoşbəxt olmasına yol verməz. Buna görə də mən buradakı adamların dediklərinə şərik deyiləm və onların məsləhətinə zidd bir rəy söyləyəcəyəm. Əgər biz düşməni öz torpağımıza buraxmaq qərarına gəlsək, bu işdən sənə bax belə bir zərər toxuna bilər: məğlub olsan, bütün padşahlığını itirərsən, çünki aydın məsələdir, massaqetlər qalib gəlsələr geriyə qayıtmayacaqdır, sənin torpağına soxulmağa çalışacaqlar. Qalib çıxsan, sən onlara bir o qədər də güc gələ bilməyəcəksən, massaqetlərin torpağına keçən kimi qaçmağa başlayan düşməni hər yerdə zəfərli bir yürüşlə təqib etmək sənin üçün mümkün olmayacaqdır. Mən onların birinci təkliflərini qəbul etmək tərəfdarıyam. Çünki sən düşmənə onun torpağında qalib gəlsən, Tomrisin padşahlığına sahib olacaqsan. Bundan başqa, Kambisin oğlu Kirin bir qadına basılması, öz ölkəsini ona güzəşt etməsi dözülməz bir biabırçılıq olar. Buna görə də mən bu fikirdəyəm ki, biz çayı keçək, düşmən nə qədər dala çəkilsə bir o qədər irəliləyək və ancaq bundan sonra onu əzək. Mənə məlum olduğu üzrə massaqetlər İran həyatının ləzzətini dadmayıblar, böyük həzzlərin nə demək olduğunu bilmirlər. Buna görə də mən belə məsləhət görürəm ki, onlar üçün çoxlu mal kəsilsin, bizim düşərgədə qonaqlıq düzəldilsin, süfrəyə yeməkdən başqa bolluca tünd çaxır və hər cür xuruş qoyulsun. Bütün bu işlər görüləndən sonra mənim məsləhətim budur ki, düşərgədə qoşunun işə yaramayan bir hissəsi saxlanılsın və qalanları çayın qırağına qaytarılsın. Əgər mən zənnimdə yanılmıramsa, düşmən bu qədər neməti görüncə özünü onun üstünə atacaq, biz də böyük şücaət göstərib ad qazanacağıq.

Məsləhətlər bir-birinə zidd idi, Kir birinci məsləhəti rədd edib Krezin rəyini üstün tutdu. Sonra Tomrisə təklif etdi ki, Kir özü onun torpağına girsin. O, geri çəkilsin. Tomris birinci dəfə dediyi sözün üstündə duraraq geriyə çəkildi. Kir öz yerində padşah qoyduğu oğlu Kambisi yanına çağırıb Krezi ona tapşırdı və dedi ki, massaqetlər üzərinə olan yürüş məğlubiyyətlə bitsə belə, yenə də Krezin hörmətini saxlasın, həmişə ona yaxşılıq etsin. Kir belə bir əmr verdikdən sonra qoşunu ilə bərabər çayı keçməyə başladı.

Qoşun Arazı o taya keçəndən sonra Kir gecə massaqetlərin torpağında belə bir yuxu gördü ki, guya Qistaspesin böyük oğlu çiynində qanadları olduğu halda, gəlib onun qabağında dayanıbdır. Bir qanadı ilə Asiyanın üstünə kölgə salır, o biri qanadı ilə Avropanın. Əxəminilər nəslindən olan Arsamesin oğlu Qistaspesin böyük oğlunun adı Dariy idi. O zaman onun iyirmi yaşı olardı. O, İranda qalmışdı, hələ müharibə yaşına dolmadığından çağırıb təklikdə ona dedi:

– Qistaspes, sənin oğlun mənə və mənim hökmranlığıma qarşı suiqəsd hazırlamaqda müqəssirdir. Mən bunu yəqin bilirəm. Ancaq, allahlar mənim qeydimə qalır və məni baş verə biləcək hər işdən qabaqca xəbərdar edirlər. Bu axşam mən yuxuda sənin oğlunu görmüşəm, onun çiynində qanadları var idi, bir qanadı ilə Asiyanın, o biri qanadı ilə Avropanın üstünə kölgə salmışdı. Bu yuxu onun mənə qarşı pis bir

məqsəd daşıdığını göstərir. Buna görə də mümkün qədər tez bir zamanda İrana qayıt, oğlunu məhkəməyə verməyə çalış, o vaxta qədər mən özüm də bu ölkəni fəth edib evə qayıdaram.

Kir belə düşünürdü ki, Dariy ona sui-qəsd hazırlayır, halbuki allahlar Kirə qabaqcadan bildirirlər ki, o özü burda, massaqetlərin torpağında öləcək, onun padşahlığı Dariyin əlinə keçəcəkdir. Qistaspes padşaha belə cavab verdi:

– Sənə qəsd edə bilən iranlının heç doğulmaması doğulmasından daha yaxşıdır, əgər bələsi varsa, qoy elə o saat məhv olsun! İranlıları köləlik halından xilas edib azadlığa çıxaran, tabe vəziyyətdən qurtararaq onları bütün xalqların ağası edən bir adama qarşı sui-qəsd hazırlamaq! Əgər yuxudan belə bir məna çıxır ki, mənim oğlum sənə qarşı qiyam hazırlayır, mən onu sənə vərərəm! Nə istəyirsən elə.

Qistaspes belə cavab verib Arazı keçdi və Kirin arzusunu yerinə yetirmək üçün öz oğlunu dustağa salmaq fikri ilə İrana yola düşdü.

Bu zaman Kir Arazdan səkkiz günlük bir məsafə irəliləyib Krezin dediyi kimi etdi. Bundan sonra Kir qoşunun döyüşgən hissəsini özü ilə götürüb geriyə, Araza doğru qayıtdı. Gedib çatdıqları yerdə isə döyüşə yaramayan iranlılar qaldı. Sonra massaqetlərin qoşunlarının üçdən bir hissəsi Kirin qoyub getdiyi qoşunların üstünə hücum etdi, az müqavimətdən sonra onları dağıtdılar və hazırlanmış yeməkləri görərək düşmənlərin üzərinə qələbə çalmış kimi kefə oturdular, doyunca yedilər, içdilər və uzanıb yatdılar. Bu vaxt iranlılar onların üzərinə hücum etdilər, çoxlu adam qırdılar və daha çoxunu əsir götürdülər, əsirlərin içində Tomrisin oğlu, massaqetlərin sərkərdəsi Sparqapises də vardı.

Tomris öz qoşununun və oğlunun başına nələr gəldiyindən xəbər tutunca Kirin yanına bir qasid göndərib belə sifariş yetirdi:

– "Qandan doymayan, gözü ac Kir, üzüm suyunun köməyilə qalib gəlməyinizlə öyünmə, özünüz üzüm suyu içirsiniz, qudurursunuz, qarnınız çaxırla dolduqca daha da boşboğaz olursunuz. Özünün çox hiyləgər olmağına və oğlumu belə bir vasitə ilə ələ keçirdiyinə öyünmə, onu döyüş və hərbi şücaətlə ələ keçirməmisən. İndi mənə qulaq as, çünki dediklərim sənin xeyrinədir: oğlumu özümə qaytar və qoşunumun üçüncü hissəsi ilə etdiyin bu cür həyasız rəftarın cəzasını almadan bizim ölkədən çıxıb get, əgər dediyimə əməl etməsən, günəşə, massaqetlərin hökmdarına and olsun ki, nə qədər doymaz olsan da, mən səni qanla doyuracağam".

Kir elçinin sözünə heç bir əhəmiyyət vermədi. Tomrisin oğlu Sparqapises sərxoşluqdan ayılaraq, başına nə kimi bir bədbəxtlik gəldiyini anladı və Kirdən rica etdi ki, onu buxovdan azad etsinlər. Azad olub, əllərini sərbəst işlətmək imkanı tapınca dərhal özünü boğdu. Sparqapises belə öldü.

Kir Tomrisin dediyinə əməl etməyincə, Tomris bütün hərbi qüvvəsini yığıb Kirə hücum etdi... Döyüş belə olmuşdu: əvvəlcə hər iki qoşun, uzaq məsafədən bir-birlərinə ox atmışlar, oxlar qurtarınca əlbəyaxa döyüşə keçərək heç bir tərəf qabaqdan qaçmadan bir-birini qalanc və nizə

ilə vurmağa başlamışlar. Nəhayət, massaqetlər qalib gəlmişlər...

Tomris bir tuluğu insan qanı ilə doldurараq Kirin cəsədinin tapılmasını əmr etmiş. Cəsəd tapılınca onun başını tuluğun içinə salıb istehza ilə demişdir:

– Mən səni döyüşdə məğlub etdim, ancaq sən məkr ilə oğlumu əlimdən almaqla ürəyimə dağ çəkmisən. Mən də dediyim kimi, səni qandan doyururam. İç, istədiyin qədər iç, bəlkə doyasan!

İsgəndərin ağlaması

Hər dəfə atası qələbə ilə qayıtdıqca xalq onu gül-çiçəklə qarşılayır, toy-bayram edir, İsgəndər isə oturub ağlayırdı.

Bir gün atası Filipp oğlundan soruşur:

– Oğul, İsgəndər, hamı mənim qələbəmə sevinir, sənsə ağlayırsan, buna səbəb nədir?

İsgəndər göz yaşını silə-silə dedi:

– Axı, sən hər yeri tutursan, bəs mən hökmdar olanda hansı ölkəni ələ keçirəcəyəm, qoymursan mənə də düşmən qala.

Makedoniyalı İsgəndər

İsgəndərin başında buynuz bitmişdi. O, buynuzu saçı ilə örtür, hamıdan gizli saxlayır, başını qırxdıranda isə hər dəfə dəlləyi öldürtdürürdü. Tək bir dəlləyi qalmışdı. O isə and içmişdi ki, bu əhvalatı heç kimə deməyəcək. Dəllək bu yolla özünü ölümdən qurtara bilir. Bir müddətdən sonra dəlləyin qarnı köpməyə başlayır. O, çarəsiz qalıb çölə gedir, bir quyunun başına gəlib deyir:

"İsgəndərin buynuzu var, buynuzu"

Bundan sonra onun ürəyi sakitləşir, get-gedə qarnının köpü çəkilir. Çox keçmədən quyuda bir qamış bitir. Bir çoban onu kəsib tütək düzəldir. Tütək çalınanda açıq-aydın bu sözlər eşidilir: "İsgəndərin buynuzu var, buynuzu".

İsgəndərin yolu burdan düşəndə tütəyin səsini eşidir. Bu sirrin kim tərəfindən açıldığını yadına salıb dərhal dəlləyi yanına çağırtdırır. İsgəndərin hökmü ilə dəlləyi edam edirlər.

İsgəndər dunyada sirri gizlətməyin çox çətin olduğunu başa düşür.

Dirilik suyu

Soğd ilə Xarəzmi fəth edən İsgəndər dünyagörmüş bir qocadan eşidir ki, ölkənin şimalında içində su olan bir mağara var. Günəş bu yerdə udulur, o saat da dünya qaranlığa qərq olur. Həmin zülmatda bir çeşmə var ki, adına dirilik suyu deyirlər. Kim bədənini bu suda yusa, günahları tökü-

lər, kim içsə heç vaxt ölməz. Həmin söhbəti eşidən hökmdar şimala hərəkət edir. O, ortasından dərə boyu çay axan bir düzə gəlib çatır. Bu yerdə günəş çıxmırmış, hər tərəf qatı qaranlıq imiş. İsgəndər ordusu ilə götürdüyü azuqəni zülmatın başlanğıcında qoyur. Qırx nəfər məsləhətçi, yüz nəfər ordu başçısı, min iki yüz əsgər, qırx günlük azuqə ilə zülmata yollanır. İsgəndər əmr verir ki, onunla qoca adam getməsin. Lakin orduda olan bir qoca oğlanlarına deyir ki, onu da özləri ilə aparsınlar. Oğlanları tanınmasın deyə, atalarının üzünü qırxırlar.

Hökmdar zülmatda xeyli yol gedir, ancaq dirilik suyu olan quyuya çata bilmir. O, təcrübəli, dünya görmüş bir qocanın burada olmasını arzulayır. Belə olduqda oğlanlar əhvalatı İsgəndərə açırlar. Qoca hökmdara məsləhət görür ki, qaranlıqda madyan daha yaxşı gördüyü üçün ona minsinlər. Sonra qoca yol yoldaşlarına məsləhət görür ki, bacardıqca yoldakı qumlardan çox götürsünlər. Hökmdar zülmatla on səkkiz gün yol getdikdən sonra bir çeşmənin yanına gəlir. Buranın ətirli, təmiz havası varmış. İsgəndər Aedreas adlı aşpazına nahar hazırlamağı əmr edir. Aşpaz quru balığı götürüb çeşmə suyunda yumağa gətirir. Suya vuran kimi balıq dirilir. O, bu suyun dirilik suyu olduğunu başa düşür. Özü sudan içir. Heç kəsə bildirmir. İsgəndər, yoldaşları nahar etdikdən sonra yola düşürlər. Onlar gəlib işıqlığa çıxır. Zülmatda yol gedərkən adamlar qocanın tövsiyyəsi ilə xurcunlarını qumla doldurmuşdular. Amma ağır zəhmətə dözməyib götürdüklərini boşaltmışdılar. Elə ki, zülmatdan çıxırlar, qumların qızıl olduğunu bilib peşman olurlar. Həmin peşmançılıq hissini xurcunları dolu olanlar da keçirirmiş. Onlar qum az götürdükləri üçün təəssüflənirmişlər.

Bu gün əsl pəhləvan yıxmısan

Rüstəmi-Zal hər axşam evə dönəndə deyirmiş ki, bu gün də döşümə bir əməlli-başlı pəhləvan çıxmadı, üç-dörd aciz-avara yıxdım, bu allahın yazıqları bilmirəm hansı hünərlə gəlirlər. Hansının qolundan yapışıramsa ölü qarğa kimi əlimdə yellənir.

Arvadı ərinin bu öyünmələrinə, özündən deməklərinə məhəl qoymurmuş.

Rüstəmi-Zal səhvini başa düşür, fikirləşir ki, deyəsən, lovğalığım, özümü öyməyim məni arvadımın gözündən salır, heçə endirir.

O, bu dəfə evə girən kimi tir-tap yatağa düşür, ofuldanır, arvadı oraburasına nə qədər keçirsə, qılıqlanırsa əlini, çaya-çörəyə vurmur.

Arvadı soruşur:

– Niyə belə eləyirsən?

Rüstəmi-Zal arvadından böyük bir sirr gizlədirmiş kimi üzünü o yana çevirir:

– Heç, – deyir, – neynəyirəm ki? Həmişəki kimiyəm.

Arvadı əlinin birini onun alnında, meydan sinəsində gəzdirir:

– Deyəsən, qançır olmusan. Belinə küpə salımmı?

Rüstəm-Zal özünü yenə elə tutur ki, guya canında heç bir ağrı-zad yoxdur, onunku ayrı dərddir, arvada danışılası deyil.

– Yox, onnux olsa nə vardı ki...

Rüstəmi-Zal özünü çəkdikcə arvadını qır-saqqıza döndərib özünə suvaşdırır:

– Məndən niyə gizlədirsən? Mən yadam, özgəyəm?

Rüstəmi-Zal:

– Arvad, bu gün bir nəhəngə rast gəlmişdim. Zalım oğlu o qədər zorlu idi ki, güc verdikcə ikimiz də qurşağacan torpağa girdik, tutaşdığımız yeri xış kimi əzdik, orda yeddi il ot bitməz. Canımızın təri dabanlarımızdın sel təki axırdı, biz itələşdikcə, bir-birimizi qarasarmaya saldıqca ayaqlarımızın altı kərpiç palçığına dönürdü. Gün çıxandan gün batanacan əlləşdik, ikimiz də haldan-dildən düşdük, gücüm çatmırdı, axırda onu fəndlə yıxdım. Yıxılanda da elə bil yüz illik bir palıd ağacı kökündən qopdu, o yıxılanda ayaqlarımın altında yer titrədi. Bu gün o dunyanı görüb gəlmişəm, arvad, o məndə can qoymadı, quruca qaraltım qalıb.

Arvadı onun ayaqlarını isti suya salır, başını yuyur, paltarlarını dəyişir, zəncəfilli, darçınlı, hilli çay dəmləyir, aş bişirir, ərini uşaq kimi yedirdib içirtməyə başlayır.

Rüstəmi-Zal qımışıb soruşur:

– Ay arvad, gündə üç-dörd pəhləvan yıxırdım, heç belə qulluq eləmirdin, indi birinin arxasını yerə qoymuşam, əldən-ayaqdan gedirsən, niyə belə?

Arvadı deyir:

– Kişi, onlar aciz-avara idi, bu gün əsl pəhləvan yıxmısan.

Uşağın böyük ağlı

İbn Sina dəmirçixananın qabağından keçirmiş. Bir də görür ki, bir uşaq yüyürə-yüyürə gəlib özünü çardağın altına saldı. Şaigirdi odluğu körükləyəmə başladı. Uşaq tövşüyə-tövşüyə dedi:

– Usta, anam deyir, ocağımız sönüb, köz versin.

Usta yastıladığı soyuyub qaralmış dəmiri kürəyə qoydu, şakirdi körükləməyə başlayanda o da döşlüyü ilə üzünün tərini silib uşağın əlinə baxdı:

– Get bir qab gətir. Ovcunda aparacaqsan?

Uşaq ayaqlarını yerə döydü:

– Aparacam, sən od verməkdə ol.

Usta bu anlamaz uşağın üzünə boylayıb başını buladı:

– Sənin əlin dəmirdi?

Uşaq:

– Yox, – dedi, – yox, sən közünü ver, neynirsən necə aparacam?

Usta baxdı ki, bu tərs uşağı sözlə başa sala bilmir, maşa ilə kürədən çatırtılı iri bir köz götürdü, yönünü bəri çevirəndə gördü uşaq bir ovcuna torpaq yerdən yığıb, həmin əlini də ona sarı uzadıb.

Usta mat qaldı.

İbn Sinanı da heyrət götürdü, uşağın böyük ağlına heyran qaldı. Adını soruşdu. Uşaq: Bəhmənyardır, – dedi.

Belə deyirlər ki, İbn Sina həmin gündən Bəhmənyarın tərbiyəsini öz üzərinə götürdü və onu bir alim kimi yetişdirməyə çalışdı.

Nizami və Gəncə əmiri

Rəvayətə görə, bir gün Nizami ilə Gəncə Əmiri ova çıxırlar. Çox gəzib dolaşdıqdan sonra gəlib bir xarabalığa çatırlar. Onlar burada üç quru kəlləyə baxıb düşüncələrə dalır, nəhayət, Əmir çevrilib Nizamiyə deyir:

– Nizami, əgər sən, həqiqətən, söz qoşununun sərkərdəsi, ariflər məclisinin bəzəyi, şahların xeyirxah məsləhətçisi, sirlərin açarı Nizamisənsə, bu kəllə sahiblərinin necə adam olduqlarını bəyan elə.

Nizami xeyli fikirləşdikdən sonra yerdən bir çubuq götürüb kəllələrin birinə yaxınlaşır. O, çubuğu kəllənin bəri qulaqına toxunduran kimi, çubuq sürüşüb kəllənin o biri qulaqından çıxır. Sonra o biri kəlləyə yaxınlaşıb çubuğu qulağına taxmağa çalışır. Lakin içəri daxil ola bilmir, elə bil daşa dirənir. Növbə üçüncu kəlləyə gəlir. Nizami bəyaqki hərəkətləri təkrar edir. Kəllə çubuğu qəbul edir, amma buraxmır. Hər şey şairə aydın olur. Üzünü Əmirə tutub kəllə sahiblərinin necə adamlar olduğunu izah edir:

– Əmir sağ olsun, çubuq birinci kəllənin bu qulağından girib dərhal o biri qulaqından çıxdı. O kəllə sahibi ömür boyu gördüklərini, eşitdiklərini bu qulağından alıb o biri qulağından öturub. Deməli, bu kəllə sahibi dunyadan bixəbər köçüb. Kördüyünüz kimi, ikinci kəllənin gen qulağına nə qədər çalışdımsa nazik çubuğu sala bilmədim. Bunun beyninə söz girməyib. Bir quru daş parçası kimi atılıb bir küncdə qalıb. Bax, qibleyialəm, üçüncü kəllə adamı heyrətə gətirir. Bənzərindən o saat aqil adamın kəlləsinə oxşayır. Çubuğu tutub saxlayan bu kəllədə həyatın bütün kəşməkəşləri iz salıb, həkk olunub.

Nizaminin həkimanə hərəkətlərini diqqətlə izləyən Əmir mahir sənətkarın təfəkkürünə bir daha heyran oldu.

Xacə Nəsrəddin Tusi ilə bostançı

Belə rəvayət edirlər ki, isti bir yay günündə Xacə Nəsrddin Tusi bir neçə atlı ilə Marağaya gedirmiş. Yolda Xacə bərk susuyur, susuzluğunu yanındakılara da bildirir. Bu yerləri yaxşı tanıyan atlılardan biri Xacəyə deyir:

– Qarşıdakı bu kiçik dağdan o tərəfə, dərə boyunca bostanlıqdır. Bu yerlərin qarpızı çox məşhurdur. Atları bir az sürətləndirsək, oraya tez çatarıq.

Onlar atlarını çaparaq sürüb, dağa dırmaşırlar. Çox keçmədən, bağ-bağatlı dərəyə enirlər. Nəsrəddin Tusi qarpızı çox sevirmiş. Belə bir havada bostan kənarında qarpız yemək, ona hər cür şəhanə qonaqlıqdan ləzzətli olardı. Onlar bostanın qırağına çatdıqda, başına ağ dəsmal bağlamış, üzü günəşdən yansa da, çox nurani görünən bir qoca qabağa gəlib salam verir. Nəsrəddin Tusi salamın cavabını verdikdən sonra deyir:

– Qoca, bizə bir neçə dadlı qarpız gətir. Bir qədər də sərin olarsa daha yaxşı olar.

Qoca bostançı atlıların görkəmindən hörmətli şəxslər olduqlarını bilərək, əlini döşünə qoyub hörmətlə baş əyib deyir:

– Hörmətli ağalar, siz piyada olun, qoy atlarınız da bostanın qırağında bir qədər otlasın. Özünüz də dincəlin. Sizi elə qarpıza qonaq eləcəyəm ki, ləzzəti uzun müddət damağınızda qalsın.

Nəsrəddin Tusi ilə yoldaşları atdan düşürlər. Atların cilovlarını başlarından çıxarıb, bostanın kənarındakı yoncalığa buraxırlar. Özləri isə bostançının komasına yollanırlar. Qoca, tağ altında hələ axşam sərinliyini saxlayan bir neçə qarpız seçib gətirir. O, bu neçə dəqiqədə atlıların hörmətindən duymuşdu ki, onların içərisində yaş etibarilə də ağsaqqal "Xacə" deyə xitab edilən şəxs, rütbə cəhətcə də böyük olmalıdır. Buna görə qarpızları onun qabağında yerə qoyub deyir:

– Hörmətli ağa, bu sarı qarpızdır. Bir o qədər də şirin olmaz. Ancaq susuzluğu tez yatırar. Bu da tünd qırmızı qarpızdır. İçi şərbətdən də şirin olur. Bu isə çəhrayıya çalmalıdır. Bü birisi də sarıdır. Bu da yenə tünd qırmızı.

Xacə Nəsrəddin təəccüblə qocaya baxır, qarpızları bir-bir kəsir. Qocanın dedikləri ilə qarpızları arasında zərrə qədər də fərq olmur.

Xacə Nəsrəddin doyana qədər qarpızlardan yeyir. Sonra da, qocanın əlindən tutub bostana aparır. O, sanki öz peşəsinin kamil ustadı olan bu qocanı sınayır, bir məktəbli kimi imtahan etmək istəyir. Xacə ucu-bucağı görünməyən bostanın bir yerində ayaq saxlayır, bir qarpızı bostançıya göstərib soruşur:

– Qoca, bu qarpızın dadı necədir, nə rəngdədir?

– Qurban, o tünd sarıdır, həm də bayaq yediyimizdən də şirindir.

Xacə dərhal qarpızı ortadan bölüb dadır. Qoca, sanki öz iti baxışları ilə qarpızın içini görmüş, həm də dadmış imiş. Xacə Nəsrəddin deyir:

– Bəs bu qarpız?

– Bu da indi kəsdiyiniz kimidir.

– Bəs bu?

– Bu da ağlı-qırmızılıdır. Hələ yaxşı yetişmədiyindən şirinləşməmişdir.

– Bəs bu, bəs bu?

Xacə Nəsrəddin bir neçə qarpızı kəsdirə-kəsdirə, bostanın ortasına qədər gedir. Sonra isə dayanır, qocanı diqqətlə süzüb deyir:

– Qoca başın yaxşı başdır, heyf ki, qarpıza işləmişdir!

– Qurban, qarpız da allah nemətidir! – deyə qoca cavab verir.

– Burası doğrudur, lakin mən ayrı cəhətdən düşünürəm. Düşünürəm ki, görəsən öz kamalı ilə xarüqələr yaratmaq qüdrətində olan nə qədər adamlar başını bostanda işlədir, ömrü boyu bir qarpızı o birisindən seçə bilməyənlər də saraylarda, müqəddəs məkanlarda mövqe tuturlar!

Xacə fikirli-fikirli pul kisəsini çıxarıb, içərisindəki qızılları öz ovcuna boşaldır. Sonra təvazökar bir əda ilə bostançıya uzadıb deyir:

– Qoca, təcrübə, maraq üzündən az qala bostanının yarısını bıçaqlamışam. Əhli-əyal sahibisən. Bu pulları al, biliyinə layiq olmasa da, zəhmət haqqını birtəhər ödəyər.

Qoca bostançı hörmətlə, lakin qürurla əlini döşünə qoyub puldan qəti imtina edib deyir:

– Qurban, bizlərdə yoldan ötən yolçulardan pul almaq ən pis iş sayılır. Siz isə təkcə adi yolçu olmayıb, hörmətli şəxslərsiniz. Mənim xahişim odur ki, nə məni elin adətini pozmağa məcbur edəsiniz, nə də yaşımın bu vaxtında günaha batmağa.

Xacə Nəsrəddin Tusi bir müddətdən sonra böyük xahişlə həmin qocanı Marağa rəsədxanasına apartdırır. Öz elmi işlərində onun təbiətlə bağlı müşahidələrindən istifadə edir. Həmin qocanın məsləhəti ilə, o yerlərdən seçdiyi bir çox kəndli balalarını da, atalarının razılığı ilə Marağada, habelə Bağdadın "Nizamiyyə" mədrəsəsində oxutdurur, tərbiyə etdirir. Onların içərisindən böyük alimin dünya şöhrəti qazanan bir çox ardıcılları çıxır...

Teymurləng

Uğursuz bir döyüşdən sonra Teymurləng qaçıb bir daşın dalında gizlənir. Ətrafına göz gəzdirir, görür ki, bir qarışqa buğda dənini daş yuxarı qaldırıb öz yuvasına aparmağa çalışır. Dən 69 dəfə aşağı düşür, nəhayət 70-ci dəfə qarışqa dəni apara bilir. Bunu görən Teymurləng utanır, bir dəfə məğlub olmaqla geri çəkilib. O, gizləndiyi yerdən çıxır, qoşunu toplayıb yenidən döyüşə girir, qalib gəlir.

Bəs kişilər hanı

Teymurləng qoşunu ilə gəlib Azərbaycana çatır. O, qarşıdakı kəndə çapar göndərir ki, qızlar, gəlinlər, analar qiymətli şeylərini götürüb kənddən çıxsınlar. Bizim işimiz kişilərlədir. Onlarla vuruşmağa gəlmişik.

Qoşun çöldə gecələyir. Sübh tezdən əsgərlər kəndə girirlər.

Teymurləng kəndi bomboş görüb mat qalır. Əsgərlər ev-ev gəzib bir qoca tapırlar. Onu Teymurləngin hüzuruna gətirirlər. Teymurləng qocadan soruşur:

– Hanı bu kəndin keçiləri?

Qoca deyir:

– Hörmətli hökmdar, siz xəbər göndərdiniz ki, qızlar, gəlinlər, analar ən qiymətli şeylərini götyryb kənddən aralansınlar. Onlar da sizin əmrinizə əməl etdilər.

Teymurləng qocanın sözünün canını başa düşməyib qeyzlə deyir:

– Bəs kişilər hanı?

Qoca aramla deyir:

– Ey böyük hökmdar, dünyada qıza qardaşdan, anaya övladdan, qarıya öz ömür-gün yoldaşından qiymətli nə ola bilər ki?

Qocanın bu cavabından Teymurləng dərin fikrə gedir və sonra qoşunun kənddən çıxmasına əmr verir.

Xətai

Rəvayətə görə, Şah İsmayılın özü kimi çox cəngavər bir qadını var imiş. Adı Bəyim olan bu sədaqətli qadın ona həm də etibarlı arxadaş, dost imiş. O, Şah İsmayılın keçirdiyi döyüşlərdə əri ilə çiyin-çiyinə vuruşur, düşməni vahiməyə salırmış.

Bir dəfə Bəyim xanım Naxçıvanın Şərur düzündə döyüş zamanı mühasirəyə alınır. O, ərindən, yoldaşlarından aralı düşür. Təkbaşına döyüşdə misilsiz ikidlik göstərir. Lakin nə qədər çalışırsa, mühasirədən çıxa bilmir. Bir neçə yerindən ağır yaralanır. Bundan sonra düşmən onu əsir alır.

Bəyim xanımın əsir düşməsi xəbəri Şah İsmayıla gec çatır. O, vaxtında yağının üstünü kəsdirə bilmədiyinə təəssüflənir. Ömründə ilk dəfə düşmənə fürsət verdiyi üçün özünü günahkar sayır. Qəmli-qəmli düşmən gedən yollara baxır, özünü məzəmmət edərək deyir:

– Nə böyük xata elədim, Bəyim düşmən əlinə keçdi!

El-oba böyük şahın kədərinə şərik olur. Ona təskinlik verir. Şah igid xalqına, mərd döyüşçülərinə, özünün şücaətinə arxalanır. Düşməndən amansız intiqam almaq üçün and içir.

Rəvayətə görə, o vaxtdan Şah İsmayıl el arasında Xətai adlanır.

Sən xanım olası gözəlsən

Rəvayətə görə, Gəncə xanının naxırları, sürüləri, ilxıları Ziyadlı kəndində saxlanırmış. Bir gün xan öz mal-qoyununa baş çəkməyə gedir. Hər gedəndə sərkarla görüşməmiş naxırların, sürülərin örüşünə çıxmazmış. Bu dəfə də atını sərkarın qapısına sürür. Sərkar evdə olmur, onun qabağına sərkarın arvadı Qəmər çıxır. Qəmər də bir Qəmər imiş. Ona tay gözəl hardaymış?!.

Gəncə xanı vurğun vurmuş kimi donuxur, öz-özünə deyir, əyə, allahın sərkarına bax, onun arvadına bax. "armudun yaxşısını ayı yeyər" misalı düzmüş. Bu, onun xörəyi deyil, əsl mənim malımdır.

Xana belə gəlir ki, elə bir zığıl-zımrığlı çobanla ömür-gün keçirmək Qəmərin də ürəyindən olmaz, onunla başbirlik eləmək istədiyini bildirsə sevinər. Ona görə də bir yüngül dil bulayıb eyham atdı:

– Sən xanım olası gözəlsən.

Qəmər heç nə deməyib evə girir. Axşam ərinə danışır ki, xan mənə belə dedi, sənin başına pislik gətirəcək, mən də sənsiz bircə gün özümü sağ qoymaram, gəl burdan köçək.

Sərkar Qəməri də bir ata mindirib İrana, Şah İsmayıl Xətainin yanına şikayətə gedir, ona hər şeyi olduğu kimi ərz eləyir.

Şah İsmayıl Xətai sərkara, Qəmərə baxır, deyir:

– Gəncə xanı səhv eləmiyib, Qəmər – xanım olası gəlindir, əri də xanlığa layiq kişidir.

Belə deyirlər ki, Şah İsmayıl Xətai Gəncə xanını hüzuruna gətirdir, Qəmərə Qəmərbanu, ərinə Ziyad xan adı verir, Gəncə xanını isə onların sərkarı qoyur.

Abbasbəyli

Belə deyirlər ki, Şah oğlu Şah Abbas neçə dəfə ki, Tiflisə hücum edirmiş, ancaq məğlub olub geri çəkilirmiş. Şah Abbas bu dəfə də Tiflisə hücum edir. Qoşun şəhərə dolur və mühasirəyə düşür. Şah Abbas aradan çıxır. Dərviş paltarı geyinərək pay-piyada İrana getməyə başlayır. Gəlhagəl gəlib bir kəndə çıxır. Bu kəndə "Tağarbəyli" deyirlərmiş. Kəndin girəcəyindəki daxmada Sübhanverdi adlı bir qarı yaşayırmış.

Şah Abbas daxmanın qapısını döyür. Sübhanverdi qarı eşiyə çıxanda ona deyir:

– Allah qonağı istəmirsənmi, ay qarı?

– Niyə istəmirəm, allaha da qurban, onun qonağına da, – deyə qarı onu içəri dəvət edir.

Şah Abbas keçib bir tərəfdə əyləşir.

Bu qarının naxırçılıq edən bir oğlu, bir inəyi, bir iti, bir də bir qazanı varmış. Həmin qazanda qabaqca yal çalıb itə verər, qazanı yuyar, sonra da inəyi sağıb özlərinə horra bişirərdi. İndi qonağa görə tələsdiyi üçün itin yalını yalağa isti-isti tökür ki, horra bişirsin. İt elə bilir yal yenə da qaynardan düşüb, soyuyub, dilini yala çalan kimi zingildəyib geri çəkilir, qarının üzünə qanlı-qanlı baxır.

– Bıy, başına daş düşsün, Şah oğlu Şah Abbas kimi tələsdiyib özünü niyə məğmun eləyirsən. Yalağın qıraqlarını yalaya-yalaya yesən, içi də ağzını belə bişirməz, – deyə qarı itə acıqlanır.

Şah Abbas öz hesabını götürür.

İrana qayıdıb qoşun toplayır. Bu dəfə qarının dediyi kimi edir: Tiflisi mühasirəyə alır, çarəsiz qalan gürcülər təslim olurlar.

Təslim olmağı adına sığışdırmayvn gürcü hökmdarı Tamara yanına yeddi adam çağırır, onlara əmr edir ki, filan yerdə qəbir qazın, sonra da

bura gəlin, burada bir tabut olacaq, onu aparıb həmin qəbrə qoyun. Sonra yeddi fərraşa tapşırır ki, gecə, filan vaxtı saraya adam daxil olacaq, onları öldürün. Qardaşlarına da deyir ki, bu gecə qaravulda duran yeddi nəfəri öldürərsiniz. Tamara bunları deyib qızıldan qayrılmış tabutun içinə girir və özünü öldürür. Onun bütün tapşırıqları yerinə yetirilir. Səhər açılanda Tamaranı nə qardaşları tapır, nə də Şah Abbasın adamları, onun qeybə çıxması da o vaxtdan naməlum qalır.

Şah Abbas Tiflisi alır və Gəncəyə qayıdır. Oradan Qazağa çapar göndərir və ona tapşırır:

– Gedərsən Qazax mahalına, orda Tağarbəyli kəndi var. O kənddə Sübhanverdi adlı bir qarı yaşayır. Onu oğlu Abbasla mənim yanıma gətirərsən.

Çapar gəlib qarını tapır. Onları Şah Abbasın çağırışı ilə apardığını söyləyir. Qarı qorxur, öz-özünə deyir ki, görəsən, biz nə günahın sahibiyik?

Saraya gəlirlər. Qapıdan içəri girən kimi qarı diz çökür. Şah Abbas yerindən qalxıb onu ayağa qaldırır və deyir:

– Qarı, məni tanıyırsan?

– Yox, – deyə qarı dillənir.

Şah Abbas qarının o vaxtı dediyi sözləri ona xatırladır:

– Mən həmin qonağam, Şah Abbasam.

Qarı titrəyir. Qorxur o sözə görə, özü heç, özü onsuz da gününü görüb dövranını sürüb, şah onun oğlunun boynunu kəndirə keçirə.

Şah Abbas deyir:

– Qarı, o sözdən mən çox şey götürdüm. Bu qələbəm də o sözə görə oldu. Tağarbəyli kəndini sənin oğlunun adı ilə Abbasbəyli kəndi qoyuram, səni isə həmin kəndə bəy təyin edirəm.

Deyirlər ki, Tağarbəyli kəndi həmin vaxtdan Abbasbəyli kəndi adlanır.

Nadir şahın peşmançılığı

Bir gün Nadir şah böyük bir məclisə gedir, məclisdəkilərin hamısı ayağa qalxıb ona baş əyir, yer göstərir. Lakin bir nəfər nə ayağa qalxır, nə şaha təzim edir. Bu, şahın öz doğma oğlu olur. Şahın ona acığı tutur və gözlərini çıxartdırıb, onu dünya işığına həsrət qoyur.

Bir gün şah kor elətdirdiyi oğlunun yanına gəlib ondan soruşur:

– Sən məni tanıyırsanmı?

Oğlu da ondan xəbər alır:

– Sən kimsən, nəçisən, atan, anan nəçidir?

Şah deyir ki, mən sənin atanam.

Oğlu soruşur ki, de görüm, sənin atan nəçi olub?

Nadir şah cavab verir:

– Mənim atam naxırçı olub.

Oğlu ondan soruşur:

– Onda de görüm, şah oğlu da naxırçı oğlunun ayağına qalxarmı?

Nadir şah tutduğu işdən peşman olsa da, artıq gec idi.

Sevinirlər ki...

Nadirin qaş-qabağı tutulmuşdu. Kəndləri talaya-talaya, şəhərləri dağıda-dağıda gedirdi. Ana fəryadları, bala nalələri, ata hönkürtüləri dağların da belini bükmüşdü, dağları da ağladırdı.

Nadir yenə alaçığında qurulmuş səfər taxtında oturub səhərki basqını fikirləşirdi. Onun yan-yörəsini almış vəzirlərin də üzünü qara bulud almışdı, biri də başını qaldırıb Nadirin üzünə baxa bilmirdi, qorxurdular ki, şah onlardan tədbir soruşsun. Şaha cəfənk məsləhət vermək olmazdı, hansının sözü xoşuna gəlməsə, vəzirlikdən salınırdı.

Ömrü davalarda keçmiş bədov atlar kişnəyirdi, elə bil Nadirə deyirdilər ki, biz hazırıq təpələr, dağlar aşmağa, sıldırımlı yoxuşlar dırmaşmağa, düşmənlərin başlarını gəmirməyə. Bu vaxt döyüşçülər qoca bir kişini itələyib içəri saldılar. Nadir dodağını çeynəyə-çeynəyə soruşdu:

– Bu kimdir?

Ərz etdilər ki, sizə sözü var, şahım...

Nadir qalxdı, bir əlini qılıncının qəbzəsinə basdı:

– Nə deyəcəksən, qoca? Minnətə gəlmisən?

Qoca dedi:

– Xeyr, şahım.

Nadir onu kinli-kinli süzdü.

– Bəs nəyə?

Bu məqamda qəfil göy gurultusu kimi qaqqıltılar qopdu, sanki dünyada nə qədər adam varsa, onların hamısı şahın düşərgəsini dövrələmişdi, hamısı da birdən, eyni vaxtda qah-qah çəkirdi.

Nadir qocanın üzünə çaşqınlıqla baxdı.

Qoca dedi:

– Bizim kəndin camaatıdır, şahım. Bilirlər ki, sabah onların axırıdır. Hamısı yığışıb gəlib ki, tapşırasınız, onları qılıncdan keçirsinlər.

Nadirin gözləri qıyılır, ağzı əyilir:

– Qoca, sizin kənddəkilərin içində bircə ağıllısı da yoxdur? Bəs nəyə gülürlər?

– Sevinirlər ki, canları əzabdan bir gün tez qurtaracaq.

Nəbinin ərzə qayası

Kəlbəcərin Qaraçanlı dağlarında bir qaya var. Adına "Ərzə qaydası" deyirlər. Qayanın əsl adı "Nəbinin ərzə qayası" dır.

Qaçaq Nəbi öz Həcəri və başının dəstəsi ilə ara-sıra cümə günləri bu qayanın yanına gəlib ətraf kəndlərin şikayətini qəbul edirmiş. O, camaatın şikayəti əsasında kəndlilərə zülm edən bəyləri, kənxudaları, qoluzorlu quldurları yoluna qoyarmış.

Bir cümə günü Nəbi öz dəstəsi ilə "Ərzə qayası"nda kəndlilərin şikayətlərinə qulaq asırmış. Hamı dərdini deyir, amma irigövdəli, qalınbığlı bir kişi aralıda dayanıb, başını yerə dikib durur. Nəbi deyir:

– A kişi yaxın gəl, sənin dərdin nədir?

Kişi deyir:

– Başına dönüm ay Nəbi, utanıram sözü deməyə. Mənim evim kəndxudanın qonşuluğundadı. Hər gün arvadım kəndxudanın çəpərinin yanından keçib, su gətirməyə gedir. Hər dəfə kəndxuda arvadımı görüb deyir:

– Sən gərək bu gözəlliklə kəndxuda arvadı olaydın.

Çarə ona qalıb ki, kəndxudanı öldürəm.

Nəbi deyir:

– Kişi, get gələn cümə məni sizin Zar kəndinin üstündəki Keyti dağında, "Yazılı qaya"nın yanında gözlə...

Kişi cümə günü "Yazılı qaya"nın yanına gələndə gözlərinə inanmadı. Nəbidən başqa, kəndin mötəbər adamları da, onun arvadı da burada idi.

Nəbi kəndxudaya əmr etdi ki, ortaya çıxsın. Nəbi qəzəblə dedi:

– Sən bu kişinin arvadına deyirsən ki, gərək sən kəndxuda arvadı olaydın. Bu gündən o, sənin yerinə kənxudadır.

Nəbi cəza olaraq köhnə kəndxudanın bığlarını kəsir. Təzə kənxudaya deyir:

– Sən bundan ibrət al, ədalətli ol, camaatla yaxşı dolan, o, bığını bada verdi, sən isə başını itirərsən.

Sən Həcərsən

Şuşa şəhərində bir istəkli ər-arvad yaşayırdı. At çapmaqda, ov qovmaqda, tüfəng atmaqda bir-birindən geri qalmazdılar. Bütün Şuşa əhli Sultan kişinin arvadı Ülkərin qoçaqlığına heyran idi.

Bir gün kişi yaraqlanıb öz atını minib Laçın dağlarına ova gedir. Üç gün keçir, kişi ovdan qayıtmır.

Arvad çox darıxır. Səbri tükənir. O da yaraqlanıb at belində ərini axtarmağa gedir. Yolda çar çinovnikləri ona rast gəlirlər. Tərəddüd etmədən Ülkərin Həcər olduğuna inanırlar.

O vaxt Qaçaq Nəbi və Qaçaq Həcər çar çinovniklərinin zülmündən cana doymuş kəndliləri başına toplayıb divanxana ilə müharibəyə başlamışdılar.

Çar çinovniki:

– Sən Həcərsən!, – deyir.

Ülkər:

– Xeyir, mən Həcər deyiləm.

Çar çinovniki:

– Ancaq Həcər belə yaraqlana bilər, ancaq Həcər bu dağlarda qorxmadan tək, tənha gəzə bilər.

Ülkər:

– İnanın, mən Həcər deyiləm!

Ülkər başına gələn qəziyyəni danışır, lakin ona inanan olmur. Deyirlər ki, indi bu geyimdə, bu hünərdə silahlı qadın ancaq Həcər ola bilər, vəssalam. Qadını gətirib Zəngəzurda qazamata salırlar.

Bir neçə gündən sonra Sultan kişi ovdan dönür. Arvadını evdə görmür. Hal-əhval tutub dağlara qayıdır. Kişi çox axtarır, Ülkəri gördüm deyən olmur. Onun əli hər yerdən üzülür və qayıdır. Aradan üç ay keçir, yenə də arvadın nə qaldısını, nə öldüsünü deyən olmur.

Bir gün xəbər çatır ki, Qaçaq Həcər Arazın qırağında kazaklara yaman divan tutub.

Bu xəbərdən sonra hökümət şübhələnir. Şuşaya adam göndərir.

Həmin adam gəlib Sultan kişidən soruşur:

– A kişi sənin nəyin itib?

Sultan kişi həyacanlı halda:

– A başına dönüm, üç ay bundan əvvəl arvadım Ülkər itib. Kaş ova gedən yerdə qıçım sınaydı.

Gələn nəfər bildirir ki, arvadın Zəngazurda qazamatdadır, onu Qaçaq Nəbinin Həcərinə oxşadıblar.

Ülkər qazamatdan azad olandan sonra ərinə deyir:

– İndi ki məni Həcərə oxşadıblar, qoy səni də Nəbiyə oxşatsınlar. Gəl gedək onların dəstəsinə qoşulaq.

Can, can, a Kərəm

İsrafil ağa Qaçaq Kərəmin atasını öldürmüşdü, qaçaq Kərəmin da bacısı onun qardaşını. Onların arasında tayfa düşmənçiliyi başlanmışdı. Kərəmin atası Zal oğlu İskəndər o kəndə gəlmə, qərib olduğuna görə qayınatasından savayı ona arxa duran olmamaşdı. İsrafil ağanın atası isə sayılıb-seçilən, canişinlikdə sözü keçən, bəylər, xanlar, ağalar yanında dediyi tutulan dağdan ağır bir mülkədar idi, özü də həmişə əyri atıb düz vurmuş, özünü üzdə elə-obaya, camaata canıyanan kimi tanıtmışdı. Onun iç üzünü ilk dəfə Qaçaq Kərəmin atası açdığına görə əyilişmişdilər. İsrafil ağanın atası Qaçaq Kərəmin atasını şərə saldırıb sürkün elətdirmişdi, sonra da oğlunu öldürtmüşdü. Qaçaq Kərəm qisas almaq üçün kənddən baş götürüb getmişdi, öz başının dəstəsi ilə gah İranda, gah da Turanda, amma atasının qanını yerdə qoymayacağına and içmişdi.

Bir il qış çox bərk gəlir, qar üstünə qar yağır, qar qurşağa çıxır, tez-tez də sazaq əsib qarı buza döndərir.

Kərəm gəlib axşamdan İsrafil ağanın boyverməz hasarından aşır, ot çardağının qaranlığında dayanır. Başını qoltuğun altına soxub qıvrımış itlərin, atlını atdan saldıran, göydə uçan quşu da qapmaq istəyən köpəklərin, sərvaxt qancıqların biri də duyuq düşmür.

Kərəm fikirləşir ki, qış gecəsi uzun olur, İsrafil ağa heç olmasa bir dəfə eşiyə çıxacaq, bu da onu bircə gülləyə qurban eləyib gedəcək.

Çox gözləyir, İsrafil ağa səhərə az qalmış başı buxara papaqlı, çiyni yapıncılı halda həyətə enir. Qoyun-qoltuğuna dolan sazaq onu üşüdür, titrədir. O, dərindən bir ah çəkib deyir:

– Can, can, a Kərəm. Mən bircə hovur tab gətirə bilmirəm, sən bu neçə ilin qışını çöllərdə necə keçirirsən?

Düşmənin onun da dərdini çəkdiyini eşidən Qaçaq Kərəm tüfəngi dabanından salır, hasardan aşıb gedir.

Köhnə Naxçıvanı

Aşıq Ələskər Naxçıvan Şəruruna qonaq gəlir. El ağsaqqalları öz aralarında sözləşirlər ki, bu mahalda bir məşhur el havası var, əgər Aşıq Ələsgər o havanı çala bildi, ona böyük dövran yığacağıq, yox, çala bilmədi, ancaq atına arpa saman verəcəyik.

Məclis başlanır. El ağsaqqaları Naxçıvanda məşhur olan el havasından söz salırlar. Ələsgər məclisdən icazə alıb bayıra çıxır. Görür ki, bir çoban hüşkürəyində bir hava çalır, yəqin edir ki, bu həmin hava olacaq.

Məclisə qayıdır. Sazını köynəyindən çıxarır və ağsaqqallara üzünü tutub deyir:

– Qədim adətə görə aşıq əvvəl bir "Divani", bir "Təcnis" və bir də bir "El havası" üstə çalıb oxuyandan sonra söhbətə başlar. Amma görürəm ki, sizin arzunuz əvvəl-əvvəl Naxçıvanda məşhur olan el havanızı eşitməkdir. Elə isə qoyun sazımı sizin havanız üstə kökləyim.

Ələsgər sazı kökləyir. Naxçıvan havasını elə bəzəyə-bəzəyə çalır ki, ağsaqqallar bir ağızdan "afərin Aşıq Ələsgər"deyirlər.

Ələsgər deyir:

– Bu sizin "Köhnə Naxçıvanı" havanız. Amma bu havanın bir balası, bir gülü də var.

Sazın kök və pərdələrinə bələd sənətkar eyni səs qatarında bu havadan bir qol ayırır, bir gül vurur. "Naxçıvan gülü" havasını yaradır.

TƏMSİLLƏR

Bu tülkü imiş

Tülkü axşamdan çox vurnuxdu, əlinə bir şey keçmədi, gəzə-gəzə gəlib bir boyaçı damının üstünə çıxdı. Əyilib bacadan içəri baxanda ayaqlarının altındakı torpaq uçdu, o, boyaq küpünün içinə düşdü. Hoppanıb qırağa çıxdı, güzgüdə özünü tanımadı, gördü xoruzquyruğu çaldı. O biri küplərə atıldı, güzgünün qabağında şöngüdü. Özünə hey göz qoyub sevindi ki, daha hara istəsə gedər, heç kim onu tülküyə bənzədib tüfəng atmaz, itlərə boğdurmaz.

Səhər tezdən usta şagirdi qapını açıb içəri girəndə tülkü onun qıçlarının arasından sürüşüb qaçdı, meşəyə girdi.

Belə deyirlər ki, pələngin dərisi bərli-bəzəkli olduğu üçün heyvanlar onu özlərinə şah seçiblərmiş. Xəbər pələngə çatdı ki, sənin şahlığın öldü, çünki meşədə səndən çox yaraşıqlı xilqət peyda olub.

Pələng onlara dedi:

– Neynək, tapın gətirin, O məndən yaraşıqlı olsa, onu şah seçərsiniz, mən isə ona qulluqçu.

Tülkünü tapıb gətirdilər. Pələng baxıb özü də etiraf etdi ki, belə gözəl xilqətə ilk dəfə rast gəlir.

Tülkü şah oldu, pələng ona qulluqçu.

Aylar ötdü. Yazın leysan yağışları başladı. Sel-su yavaş-yavaş Tülkünün bər-bəzəyini soldurub, onu öz əslinə oxşatdı.

Bir səhər Tülkü şaha qul kimi qulluq eləyən Pələng ona baxıb,baxıb dedi:

– Rəngin getdikcə tülküyə oxşayırsan.

Tülkü gördü danmağın yeri deyil, "yox" desə Pələng onu parça-parça edəcək, düzünü boynuna aldı:

– Bəli,Tülküyəm.

Pələng əllərini dizinə vurdu:

– Lənət mənim zənnimə, rənginə allanıb, mənim kimi pələng sənin kimi boz tülküyə bir il nökərçilik elədim.

Yavaş-yavaş döşə də çatasıyam

Neçə gün idi ki, Ayı da, Tülküdə özünü ora-bura vururdu, aclıq onları haldan salmışdı. Hərəsi bir dəfə yuxarı dırmaşdı ki, bəlkə o yandakı kənddən bir şey qapışdıra bildilər.

Bir qayalığa qalxan dərənin içində onlar üz-üzə gəldidər. Tülkü yaltaqlanmağa başladı:

– Ayı lələ, allah səni yaxşı yetirdi. Neçə gündü acam, sənin səbəbinə qarnım doyacaq. Hamı deyir, Ayı lələ yetim-yesir yiyəsidi, ac-yalavac qeydinə qalandı.

Bu fikir ayının xoşuna gəldi, onu lovğalandırdı. O, Tülküyə dedi:

– Sən yanımca gəl, bu saat bir şey taparam.

Tülkü bilirdi ki, əllərinə başqa ov keçməsə ayı onu parçalayıb yeyəsidir .Odur ki, yalandan hönkür-hönkür ağlamağa başladı.

Ayı soruşdu:

– Axı birdən-birə nə oldu ?

Tülkü içini çəkə-çəkə, gözlərini, burnunu ova-ova zıqqıldadı:

– Heç, yadıma bir şey düşdü.

Ayı hökmlə dindi:

– Nə düşdü, söylə.

Tülkü ağlamsına-ağlamsına dedi:

– Mən balaca idim. Sənin atanla mənim atam bərk dost idilər. Onlar söhbət edə-edə bax bu iki dərənin arasındakı yolla yuxarı gedirdilər. Onlar da bizim kimi ac idilər. Mənim atam səninkinə dedi:

– Qardaş, qılçalarım dalımca yerimir. Gəl bir az oturaq, dincimizi alaq. Sən də mən günlü olarsan.

Sənin atan elə bir nərə çəkdi ki, dağlardan qayalar qopub hellən getdi. Dedi:

– Qardaş, aclıq-zad mənə kar eləməz. İnanmırsan, bax.

Sənin atan dərənin bu üzündən, bax o üzünə, düz şiş qayanın üstünə hoppandı.

Ayı dedi:

– Mən də hoppanaram.

– Tülkü dedi:

– Çətindi, nə səndə, nə də məndə atalarımızda olan o qoçaqlıq hanı...

Elə tülkü bunu demişdi, ayı qeyzə gəlib bu taydan o taya hoppandı, qayaya dəydi, xurd-xəşil olub dərəyə yuvarlandı.

Tülkü ayının yanına endi və onun tərpənə bilmədiyini görüb dilləndi:

– Mən şadam ki, atamın dostunun oğlu özgə yerdə yox, mənim yanımda can verir. Deyirəm, dost, bu fani dünyadan birimiz köçürük, daha ikimiz niyə ölək.

Tülkü ayaq tərəfdən ayını sökməyə başladı.

Ayı indi başa düşdü ki, Tülkünün hiyləsinə uyub,ağılsızlıq eləyib, istədi o da bu son nəfəsdə onun başına corab hörsün, onun axırına çıxsın:

– Qardaş, görürəm yaman acmısan, amma ayaqlarımın əti dadsızdır, nə gözün doyacaq, nə qarnın, döşüm yağlıdır, özünü bərilərimə doğru ver.

Tülkü dedi:

– Hövsələsiz olma,yavaş-yavaş yeyə-yeyə döşünə də gəlib çatasıyam. Arığın nə işi var o qonıqda,vurub qıçını da sındırsınlar.

Ayı gördü Tülkünü aldada, heyf ala bilməyəcək,soruşdu:
– Sən bu dərsi kimdən öyrənmisən?
Tülkü dedi:
– Rəhmətlik atamdan. O, naşılıq eləyib siftə sənin atanın döşündən sökəndə başına dəyən qapazdan gözünün biri kor olmuşdu.

Böyüklərlə gəzirəm

Tülkünün könlündən böyüklərlə gəzmək kcçirdi. O idi ki,öz quyruğunu yatmış dəvənin quyruğuna bağladı.
Dəvə diksinib, ayağa qalxdı, səhrada çox qaçdı, tülkü qopmadı ki, qopmadı. Dəvə özünü bazara verdi ki, qoy tülkü adamları görüb quyruğundan açılsın.
Görənlər qışqırdılar:
– Tülküyə bax, dəvənin quyruğundan asılıb.
Tülkü onlara göz vurdu:
– Mən ölüm, üstünü vurmayın, böyüklərlə gəzirəm.

Dovşanların qərarı

Dovşanlar bir yerə yığışıb danışdılar, mübahisəyə girişdilər, axırda razılaşıb belə qərara gəldilər ki, nə görürüksə səksənirik, ürəyimiz üstümüzdə durmur, hey qaçırıq, bir kol-kosun dalına-daldasına giririk, gizlənirik, yerimizi qızdırmamış bir şıqqıltıya, pırıltıya görə yenə götürülürük, gəlin özümüzü öldürək, canımız bu qəhr-qəzəbdən, bu əzab-əziyyətdən birdəfəlik qurtarsın.
Dovşanlar qıraqları qamışlı bir gölə yaxınlaşırlar, istəyirlər özlərini bura atsınlar,boğulub ölsünlər. Gölün lap kənarına gələndə qurbağalar partapartla suya töküldülər.
Dovşanlar gülüşdülər, dedilər, yox, qardaş, bizdən də qorxan varmış, gəlin yaşayaq.

Dəvə və tülkü

Dəvə ilə tülkü yoldaş olurlar. Ac imişlər, bir kömbə tapırlar.
Tülkü deyir:
– Bu kömbəni bölsək, heç birimiz doymayacağıq. Gəl, əcdadımızdan danışaq, kimin əsli daha qədim olsa, kömbəni o yesin.
Dəvə meydanı tülküyə verir.
Tülkü deyir:
– Rəhmətlik anama nənəm həmişə deyərdi ki, dünya binnət olanda mənim Binnət adlı bir oğlum vardı.

Dəvə görür ki, tülkü çox uzaqdan başladı, nəslinin yaşı dünyanın yaşından da qabağa keçdi. Kömbəni ağzına atır, ayağa qalxır və deyir:

– Sənin dediyindən belə çıxır ki, dəvə uşaqdır.

Şir və qarğa

Şir böyük bir meşənin hökmdarı, qarğa da onun həkimi idi. Bir gün şir qarğaya dedi:

– Nədənsə tez-tez əsəbiləşirəm, başım ağrıyır.

Qarğa dedi:

– Bu meşədə bir bülbül, turac və qırqovul yaşayır. Onlar axşamacan ötürlər, sizi əsəbiləşdirən onların səsidir. Şir əmr verib bülbülü, turacı və qırqovulu meşədən qovdurdu.

Sərçə indi ən böyük padşahdır

Qartal quşların padşahı idi. Qırğıya tapşırdı ki, bütün quşları bura çağır. Quşlar çağırışı eşitdi, qartalın başına yığışdı, lakin boz sərçə gəlmədi, qırğıya dedi:

– Sən də qələt eləyirsən, səni göndərən də başını daşın yekəsinə döyür, mən heç kəsin əmrinə qulaq asan deyiləm.

Sərçənin dediklərini qartala çatdıranda o, pərt olsa da, səbrini basıb dedi:

– Qırğı, sən sərçəni yolmağa, tükünü göyə sovurmağa tələsmə,qoy mən öyrənim görüm sərçəyə qüvvət verən nədir ki, o belə yava-yava danışır.

Qartal qırğı ilə qoşa uçdu, ucadan baxanda gördü ki, sərçə öz dostunu qonaq çağırıb, yeyib içirlər, eyş-işrətdədirlər.

Onları zövq-səfa məqamında görən qartal qırğıya dedi:

– Ona bu gün yaxın düşsən günahdı. Sərçə indi ən böyük padşahdır.

Şir və tülkü

Bir Şir meşədə şahlıq edirdi. Hər tayfanın başçısını çağırıb tapşırmışdı ki, gedin çalın-çapın, başınızı dolandırın, gərək mənim vilayətimdə pis dolanan olmasın.

Heyvanlar dəstələnib uzaqlaşmışdılar, hər bölük meşənin bir ucqarına çəkilmişdi, yeyib yatırdılar.

Bir gün meşəyə arıq bir tülkü gəlib çıxır. Bu tülkü candan elə düşübmüş ki, yeriyəndə bəzən yıxılırmış. Şirə yaxınlaşanda da kəlləmayallaq aşır.

Şir soruşur:

– Bizim məmləkətdənsən?

Tülkü deyir:

– Xeyir, şah sağ olsun, pələngin vilayətindənəm. Pələng təkcə öz nəslinə-kökünə ağ gün verib, bizləri gözdən salıb, bizlərin içinin ən diribaşı, canlısı mənəm ki, sizi deyib gəlmişəm.

Bu zaman ora bir at da gəlib çıxır. Atı görən şirin gözləri irilir, tükləri biz-biz olur, quyruğunu düppədüz düzəldir, sonra şir nərə çəkib atın üzərinə atılır, atı parçalayıb tülküyə deyir:

– Mən toxam, bunu səndən ötrü dağıtdım, ye.

Tülkü doyunca yeyəndən sonra şiri tərifləyir:

– Şah sağ olsun, sən nərə çəkəndə yaman qorxdum, az qaldı ürəyim qopsun, canımda can olsaydı qaçardım, ilim-ilim itərdim. Sənin gözlərin böyüyəndə, tüklərin biz-biz olanda, quyruğun düppədüz düzələndə, az qaldı bağrım yarılsın. Bizim pələngdə belə hünərlik hardaydı... Bir dəfə lovğalandı, dedi, qollarımı zəncirlə bağlayın, onu qırıq-qırıq eləyim.

Ayı dedi:

– Özündən basma, at bağırsağını qıra bilsən, onda inanaram ki, güclüsən.

Pələng razılaşdı, ayı bir atı basdı, qarnını cırıb bağarsaqlarını çıxartdı, Pələngin qollarını bağırsaqla sarıdı.

Ayı ona dedi:

– Qoy qurusun, hələ dəymə. Hünər onun qurumuşunu qırmaqdır.

Bağırsaq iki günə qurudu. Pələng nə qədər güc verdisə onu qıra bilmədi.

Tülkünün bu söhbətini eşidən şir pələngin bivecliyinə güldü, dedi:

– Gətir at bağırsağı ilə qollarımı-qılçalarımı bağla. Pələng iki gün gözləmişdi, mən lap üç gün gözləyərəm, qoy quruyub qaxaca dönsün.

Tülkü onun qollarını-qıçlarını bağırsaqla sarıyır. Atın ətindən yeyib üç gün kef eləyir, heç nədən qorxmur, bilir ki, şahın yanında onun xətrinə dəyən olmayacaq.

Vaxt gəlib çatır. Şir nə qədər çalışırsa, qollarındakı, qılçalarındakı quru bağırsağı qıra bilmir. Nərə çəkdikcə, güc verdikcə bağırsaq dərisini kəsib ətinə, ətini kəsib sümüyündə dayanır.

Şir Tülküyə deyir:

– Gəl aç məni.

Tülkü onun arxa tərəfinə keçir, istəyir şiri parçalasın, amma qorxur ki, qanrılıb, geri dönüb bircə dəfə ağzını açsa, Tülkü Şirin dişlərindən salamat qurtarmaz.

Tülkü deyir:

– Düyün düşüb, məndə hanı o dırnaq?.. Qoy görüm kimi tapıram, gətirim, bizə kömək eləsin.

Tülkü əkilir ki, Şir belə çox qala bilməz, hirsi başına vuracaq, ürəyi partlayacaq, bir müftə yem də mənə qalar, bunu da yeyərəm özümə gələrəm.

Tülkü uzaqlaşan kimi bir kəsəyən gəlir, bağırsaqlrı doğrayıb Şirin qollarını, qılçalarını açır.

Şir dardan qurtaran kimi qaçmağa başlayır. Onu görənlər soruşurlar:

– Hökmdar, hara belə?

Şir onlara cavab verir:

– Bir məmləkətdə ki, şirin əl-qolunu bağlayan tülkü, açanı da siçan ola – oradan qaçmaq lazımdır.

Tülkü və çaqqal

Bir arıq, əldən düşmyş Tülkü meşəni boş-kimsəsiz görüb özünü oranın şahı elan edir. Meşədə gəzməyə başlayır, istəyir məmləkətinə hər həmcinsdən çağırsın, onlara desin, mənim şahlığımda heç nədən çəkinməyin, istədiyiniz kimi yaşayın, ömür sürün.

Bu vaxt bir çaqqalla rastlaşır. Baxır ki, çaqqal da onun buraya gəldiyi gündədir – qılçaları dolaşır, ona deyir:

– O atı bu saat dağıdaram, sən də yeyib kökələrsən. Amma mənə yaxşı fikir ver.

Tülkü belə deyib gözlərini bərəldir, çaqqaldan soruşur:

– Gözlərim irildimi?

Çaqqalda da az yox imiş, bilir ki, Tülkü şir yerişi yerimək istəyir, həm onu tərifə tutub ölümə vermək istəyir, həm də fikirləşir ki, tülkü buranın padşahıdır, xətri məndən niyə qırıq olsun? Deyir:

– Yaman irildi.

Tülkü tüklərini qabartmağa çalışır, lakin tək biri də dik durmur, çaqqaldan yenə soruşur:

– Tüklərim biz-biz oldumu?

Çaqqal cavab verir:

– Oldu, yaman oldu.

Tülkü quyruğunu ox kimi düzəldir, xəbər alır:

– Quyruğum düppədüz düzəldimi?

Çaqqal deyir:

– Yaman düzəldi.

Tülkü çaqqala qabaqcadan ürək-dirək verir:

– Nərəm səni qorxuzmasın, bu saat o atın cırımını çıxardacam, sən də doyunca yeyəcəksən.

Tülkü "nərə" çəkəndə çaqqalın gülməyi tutur, çünki həmişəki kimicə vəkkildəyir, özünü atın üstə atır. At təpiklə vurub onu öldürür.

Çaqqal ona yaxınlaşıb deyir:

– Ay tülkü, sağlığında sadaladıqlarının hamısı indi səndə var: gözlərin bərələ qalıb, tüklərin biz-biz olub, quyruğun da düppədüz düzəlib. Özünü başqasına oxşadanların axırını belə kördüm.

Kəsib sanayırlar

Kirpi gördü ki, dovşanların qaçhaqaçı düşüb. Qaçmaqda olan dovşanların birindən soruşdu:

– Qonşu, bu nə qaçhaqaçdı?

Təzə hökmdar əmr verib, üç qulağı olanların qulaqlarını kəsirlər.

Kirpi:

– Sizin ki, qulağınız üç deyil, ikidir.

Bəla burdadır ki, heyvanların qulaqlarını kəsib, sonra sayırlar.

Mən carçıyam

Xoruzla tula dostlaşmışdı.Onlar hər yerə bir gedib gəlirdilər. Xoruz eşitmişdi ki, meşədə bir tülkü var, hər gecə bir kəndə gəlir, fərə-beçə, toyuq-xoruz boğazlayıb aparır. Xoruz dostu tulaya dedi ki, bir gecə yatmasın, o tülkünün dərsini versin.

Onlar sözləşib kənddən çıxdılar, meşəyə gəldilər.

Xoruz bir hündür ağacın başına qalxdı, tula isə o ağacdan xeyli aralıdakı kolluğa girib gözlədi.

Xoruz dalbadal neçə dəfə banladı.

Onun səsini eşidən tülkü fikirləşdi ki, allahım verib, xoruz öz ayağı ili gəlib meşəyə çıxıb, gedib tutaram, bu da olar mənim axşam yeməyim .

Tülkü səs gələn tərəfə yaxınlaşdı, gördü ki, yekə bir xoruz ağacın lap kəlləsinə qonub, fikirləşdi ki, ora dırmaşa bilməyəcək, odur ki, onu xoş qılıqla dindirdi:

– Xoruz lələ, sənin bizim bu yerlərə basdığın qədəmlərin mübarək. Xeyir ola?

Xoruz dedi:

– Mən burada təzə kənd salacağam.

Tülkü dedi:

– Xoruz lələ, yaxşı niyyətdir, allah xeyir eləsin. Olarmı mən də bu kənddə yaşayım?

Xoruz etiraz etmədi:

– Niyə olmur.

Tülkü gördü söz sözü yaxşı çəkib gətirdi, dilini saxlamadı:

– Onda düş aşağı, mənim məhlə yerimi göstər, yavaş-yavaş özümə bir koma qaraldım, yerimə çəpər çəkim.

Xoruz dedi:

– Mən – carçıyam. Məhlə yeri paylayan o aşağıdakı ağacın dibindədir, zəhmət olmasa, ora, onun yanına get, sənınkini bu saat ölçüb versin ki, basabasa düşməyəsən.

Tülkü düşündü ki, carçılar sağsağan kimi olurlar, hansı budağa desə uçub qonurlar, yer ölçüb paylayan, yəqin ları xoruzdur. O, iki bu yekəlik-

dədir. Bəxtim gətirib qazanmayıb hazıra tuş gəlmişəm, ları xoruzlar uça da bilmirlər, mənim qabağımdan hara qaçacaq?

Tülkü carçı xoruzun göstərdiyi ağacın dibinə çatanda tula kolluqdan çıxdı, tülkünün üstünə atıldı, qulağının birini qopardı, quyruğunun da yarısını. Tülkü tulanın əlindən canını birtəhər qurtarıb qaçdı, hündür bir qayanın başına çıxıb xoruza dedi:

– Sənin yer paylayanın həmişə o tula olacaqsa, burda kənd sala bilməyəcəksən.

Pişikdən də balaca olardım

Pişiyi meşədə görən pələngi heyrət bürüyür: "Bu ki, bizim nəsildəndir, başının yekəliyindən, boynunun nazikliyindən, qarnının sallaqlığından bilinir ki, yaşı çoxdur, qocalıb, bəs niyə balaca qalıb?"

Pələng bunun səbəbini soruşduqda pişik ona deyir ki, mən tək deyiləm, mənim kimiləri çoxdur, bizim hamımızı bu kökə insan salıb.

Pələng xəbər alır:

– İnsan nə olan şeydir? O, kimdirsə bizim, nəslin düşmənidir, onu mənə tanıt, ondan hamımızın heyfini alım.

Pişik pələngi meşədən düzə gətirir. Gəlib görür cütcü kəl-öküzləri açıb otlamağa, sulamağa aparıb.

Xışı yerə sancılmış, boyunduruqları sərili görən Pələng Pişikdən soruşur:

– Bu nədir?

Pişik deyir ki, bu boyunduruqlara kəl-öküz qoşurlar, bu xışla yer əkirlər, hamısı insanındır.

Pələng deyir:

– Bu boyunduruğu mənim boynuma qoy, bunların hamısını meşəyə çəkəcəm, yiyəsi o insan dalımca gələr, onda sizin qisasınızı ondan alaram.

Pələngin yekəliyinə, gücünə arxayın olan pişik boyunduruğun bir tayını onun boynuna qoyur, samıların bağını çənəsinin altında bağlayır.

Pələng ha güc verirsə xışı tərpədə bilmir, elə bu zaman insan gəlib çıxır, Pişik qaçır, Pələngin boynu qalır boyunduruqda.

İnsan ona deyir:

– Kəlimin biri azarlayıb, allah səni yaman yerimdə yetirdi, yoxsa boyunduruğun bir tərəfini götürən olmayacaqdı.

O, bir tay kəli də, öküzləri də qoşur, bir əli ilə xışdan yapışıb pələngi qamçıya tutur. Qamçı bel-buxununda şaqqıldadıqca, pələng özünü boyunduruğa verir, kəllə birləşib xışı irəli dartır.

Vəri bir dəfə başa çıxandan sonra görür yox, gücü tükənir, daha taqəti qalmayıb, yıxılır ki, insanın bəlkə ona yazığı gələ, onu açıb buraxa.

İnsanda harda idi o mərhəmət? Əlinə bir özgə malı düşmüşdü, onun belində bostan əkməsə heç ürəyi soyuyardı?

Pələngi qamçı ilə dağ-dağ eləyir, sonra xış qaşıyanla döyür. Pələng canını dişinə tutur, irəli bir də cumuxur, yenə də heydən kəsilir, tir-tap uzanır. İnsan onu döydükcə qışqırır, "ay öldüm" deyir, "ay yandım" bağırır, harayına heç bir canlı-cinli çatmır. Ölhaöldə necə olursa samıların bağı qırılır. Pələng boyunduruğun altından çıxıb meşəyə sarı götürülür. Meşənin girəcəyində həmin pişiyi görür, tanıyır, lakin pişik onu tanımır, deyir, sən pələng deyilsən, bizim pişiklərin birisən.

Pələng deyir:

– Mən hələ insan əlində bircə saat qalıb bu günə düşmüşəm, o mənə bircə gün yer əkdirsə idi səndən də balaca olardım.

Torağayın intiqamı

Torağay yolun qırağında yuva qurubmuş. Şir də bu yuvanı ayaqlayıb, torağayın ətcə balalarını əzib öldürübmüş.

Bir gün torağay onun qabağını kəsib deyir:

– Səndən balalarımın intiqamını alacam.

Şir torağayın dediklərini vecinə almır, hələ bir lovğalanır da:

– Sən özün nəsən ki, sənin intiqamın nə ola...

Torağay quşlar padşahına şikayətə gedir. Quşlar padşahı bütün quşları yığır və deyir:

– Kim şirin gözlərini dimdiyi ilə vurub kor edə bilər?

Bu işi sağsağan öz öhdəsinə götürür. Yatdığı yerdə şirin gözlərini dimdikləyib deşir.

Şir qalır heç vaxt gündüzü olmayan bir zülmətdə, ciyəri də susuzluqdan yanır, bilmir hara getsin, hansı səmtə üz tutsun.

Bu vədə quşlar padşahı qurbağalardan xahiş edir ki, bir uçurumda, yarğanın başında quruldaşsınlar. Qurbağalar da padşahın bu sözünü tuturlar, başlayırlar ağız-ağıza verməyə. Şir heç bir şübhə etmir ki, qurbağalar quruldaşan tərəfdə su olar, aldanıb səs gələn tərəfə gedir və uçurumdan aşağı yuvarlvnır.

Torağay can verən şirin yaxınına qonub deyir:

– Şir, gördünmü səndən intiqamımı necə aldım? Gördünmü "mənəm" liyin, saymamazlığın axırı necə olur?

Leylək, tülkü və vağ

Ağacın başında leylək, ona yaxın qamışlıqda isə vağ yaşayırdı. Adətən, leylək üç bala çıxarar, bunun birini qurd-quşa, tülküyə, çaqqala qurban verərdi.

Leyləyin balasının birini bir neçə gün əvvəl təzəcə yemiş tülkü bir də gəlir.

Leylək ağacın başında, tülkü isə yerdən ona deyir:

– Balanın birini də verməlisən.

Leylək deyir:

– A tülkü, birini verdim də.

– Yox, o, qurban idi.

Leylək soruşur:

– Tülkü, verməsəm neylərsən?

– Necə neylərəm, balta, mişar gətirib bu ağacı kəsərəm. Yuvan dağılar, balalarını da yeyərəm heç biri də qalmaz. Sənə bir gün möhlət verirəm. Əgər yola gəlməsən, balta, mişar gətirib ağacı kəsəcəyəm.

Leylək ağlaya-ağlaya, yır-yığış edir, başqa bir yerə köçməyə hazırlaşır. Bunu görən qonşusu vağ soruşur:

– Qonşu, xeyir ola, hara köçürsən? Nə olub?

Leylək deyir:

– Vağ, daha nə olacaq. Hər dəfə tülkü məni qorxudub, balalarımı bir-bir alıb yeyir. Mənə möhlət verdi, vədə vaxtı gəlib, balta ilə, mişarla ağacı kəsib balalarımın hamısını yeyəcək.

Vağ qəh-qəhə çəkib güldü.

– Leylək, sən ki, avammışsan, ay evi dağılanın balası, tülkü sənə nə edə bilər,o yerdə, sən göydə, ağacın başında. Avam leylək tülkünün baltası, mişarı hardadı, onun kəsər tutan əlimi var? Bax, Leylək, sənə bir sirr öyrədib gedirəm. Olmaya-olmaya bu sirri tülküyə açasan.

Leylək dedi:

– Vağ, tülküdən sən də qorxursan?

– Elə-belə, mərdi-mərdanə yox. Bu uzun dimdiyimlə vurub, tülkünün iki gözünü çıxararam. Amma tülkünün tülkülüyündən, hiyləsindən ehtiyat edirəm. Bil ki, tülkülərin hiyləsi çoxlarını bada verib. Ağzında tülkü deyirsən.

Leylək dedi:

– Qurban olum, Vağ, mənə balalarımı xilas etməkdən danış.

Vağ dedi:

– Tülkü gələndə əliboş gələcək. Sən onu qabaqla, de ki, tülkü, baltan, mişarın hanı? Deyəcək ki, kolun dalına qoymuşam. De ki, get gətir. Tülkünün acizliyini onda görəcəksən. Sən bu sözlə onun başına bir qazan qaynar su tökmüş olacaqsan.

Bir gün tülkü qaça-qaça Leyləyin yuvası olan ağacın dibinə gəldi və Leyləyə dedi:

– At balanın birini, acam,

Leylək ondan soruşdu:

– Hanı sənin baltan, mişarın, a tülkü?

Tülkü:

– Kolun dibinə qoymuşam, – dedi.

Leylək qanadlarını oynada-oynada dedi:

– Tülkü, sənin baltan, mişarın hardandır, sənin kəsər, tutan əlinmi var? Neçə ildir mən avamı aldadıb balalarımı yemisən. Mən göydə, ağa-

cın başında, sən yerdə, ağacın dibində. Qanadınmı var uçub bura qonasan? Heç o şələ quyruğunu yerdə gəzdirə bilmirsən. Çıx get, daha məni qorxuda bilməzsən.

Tülkü yazıq görkəm alıb Leyləyə yalvarmağa başladı:

– Leylək, sənin müəllimin sənə yaxşı dərs verib, halal olsun. Onda nə olar, onun adını de, qoy mən də bir məsləhət alım, ac qalmayım. Mən də bir ruzi tapım, sənin balalarından gözümü çəkim.

Sirr saxlamaz Leylək o saat yumşaldı.

– Tülkü, kim olacaq, yaxınlıqdakı qamışlıqda yaşayan qonşum Vağ.

Tülkü:

– Halal olsun, uzunboğaz Vağa, səndə bu ağıl? Neynək, sən dururs an, şələquyruq tülkü durur. Salamat qal, leylək, – deyib getdi.

Tülkü intiqam almaq üçün qamışlığın ətrafında Vağı axtarırdı. Vağ birdən qamışlıqdan çıxdı. Vağın uzun boğazını, qılınc kimi dimdiyini görəndə tülkünün qorxudan tükü ürpəşdi, dili tutar-tutmaz:

– Əzizim Vağ, heyran qalmışam sənin uzun boğazına, dimdiyinə. Deyirəm, gecə yatanda bu boyun-boğazı soyuqdan necə qoruyursan?

Vağ cavab verdi:

– Nə gəlib mənim uzun qanadlarıma, hərəsi bir yorğan boydadı, çəkirəm başıma, ləzzətlə yatıram.

Tülkü dedi:

– Düzü, yerişini, duruşunu çox görmüşəm, amma yatışını heç görməmişəm.

Vağ cavab verdi:

– Onu da görərsən.

Tülkü:

– Nə vaxt?

Vağ:

– Elə indi.

Tülkü:

– Qurban olum o uzun boğazına, bir yat, qanadlarının duruşüna da baxım.

Vağ yatdı. Qanadının biri ilə boğazının bir tərəfini örtdü.

Tülkü:

– Bəs bir tərəfi açıq qaldı.

Vağ:

– A tülkü, altıaylıq deyilsən ki, hövsələn olsun, gözlə də.

Vağ o biri qanadını da çəkib, boyun-boğazını, başını tamam örtdü.

Tülkü atılıb dərhal Vağı tutdu.

Vağ:

– Tülkü, bu nə hiylədi?

Tülkü:

– Bəs Leyləyə dərs verib müəllimlik edəndə bilmədin ki, tülkü məktəbi çoxdan bitirib?

Andın iki başı olur

Sürü dağdan arana enir. Qabaq qolunun biri qırılmış qara qoyun arxacda qalır. Elə bilir sahibi sürünü sağına gətirəndə onu burada görəcək, sınıqçı gətirib qolunu sarıtdıracaq.

Qoyun bir də görür, oba köçüb yurdu qalıb. Yurd yerində bir canavar hərlənir. İstəyir birtəhər aradan çıxsın, görür yox, canavar ona sarı gəlir. Canavarın pəncəsindən hara qaça bilərdi, tərpənməyib, deyir, bəlkə mənə belə gəlir, məni heç gözü almayıb, mən qara, arxac qara, bir az sümsünəcək, ötüb keçəcək.

Lakin canavar düz onun üstün gəlir, qoyunun qabağında dayanır, onu məzəmmətə başlayır.

– Mənim yurdumda nə gəzirsən?

Qoyun deyir:

– Bura ata-babadan bizim yurddu.

Canavar deyir:

– Sən məni necə inandıra bilərsən ki, bura sizin yurddu?

Qoyunun dili gödəlir, axı sahibinin heç olmasa bir atı, ya da bir ulağı burda olsaydı, o, qoyunun sözünü təsdiq edərdi. İndi qoyun lap yüz dəfə and içsin, aman eləsin, canavarı inandıra bilərmi?

Qoyun dedi:

– Bəs sən necə inandırarsan ki, bura bizim yox, sizinkidir?

Canavar öyünə-öyünə deyir:

– Bu saat bura yüz şahid yığaram.

Canavar belə deyib dağın dalına aşır, tülküdən, çaqqaldan birini tapıb gətirsin, şahidlik elətdirsin.

Bu zaman qara qoyunu sürüdə görməyən Bozdar geri götürülür, özünü arxaca salır.

Qoyun onu görüb ürəklənib deyir:

– Sən get, o qayanın altında gizlən, mən öskürəndə çıxarsan.

Bozdar həmin yerdə gizlənir. Canavar tülkünü gətirib gəlir. Tülkü çatan kimi qoyunu hədələməyə başlayır:

– Mən gözümü burda açmışam. Rəhmətlik babam buraları mənə göstərib deyərdi ki, gördüyün yerlər canavarın yurdudur, mən bu canavarı həmişə burda görmüşəm.

Qoyun tülküyə deyir:

– İndi ki, belədir, get, çıx o qayanın başına, üzünü göyə tutub and iç. De ki, əgər yalandan and içsəm, bu şirin canımdan xeyir görməyim.

Tülkü gedib həmin qayanın başına qalxır, qabaqca aşağı baxır, görür ki, Bozdar onu boğazlamağa hazırlaşır, amma qoyunun himini gözləyir. Tülkü ondan uzaqlaşmağa başlayır. Canavar soruşur:

– Niyə and içmirsən?

Tülkü ona cavab verir:

– Andın iki başı olur. Düşər-düşməzindən qorxuram. Gəl özün and iç. Qoyun anda inanandır.

Canavar qayanın başına qalxar-qalxmaz qoyun öskürür, Bozdar tez yerindən sıçrayıb canavarın xirtəyindən yapışıb öldürür.

Qaça-qaça gedən tülkü hələ sağ hesab elədiyi canavara eşitdirmək istəyir:

– Sənə demədim andın iki başı olur?!

Siçanla qurbağanın dostluğu

Siçan qurbağanın yanına neçə dəfə gəlmişdi ki, mən də təkəm, darıxıram, gəl dost olaq. Hərdən görüşək, söhbət eləyək, dərdimiz dağılsın. Uzun bir ip gətirim, bir ucunu sənin ayağına bağlayaq, o biri ucunu da mənim. Bir-birimizə nə zaman gərək olsaq, ipi çəkək. Onda mən sənin harayına tez çataram, sən də özünü mənə yetirərsən, bir-birimizə arxalanmasaq, yaşaya bilmərik.

Siçan çox dil tökəndən sonra qurbağanı razı saldı. Uzun bir ip gətirib bir ucunu qurbağanın, o biri ucunu da öz ayağına bağladı. Lakin dostlaşdıqları vaxtdan bircə gün keçməmiş qurbağanın başına bəla gəldi. Qurbağa gölün qırağına çıxmışdı, özünü günə verirdi. Siçan da o yanda sünbül qırırdı. Birdən bir qara quş şığıyıb siçanı göyə qaldırdı. İpin bir ucu da onun ayağına bağlı olduğuna görə göydə süzə-süzə getməyə başladı. Sərçələr, qaranquşlar ondan soruşdular:

– A qurbağa, bu nə haldır, yoxsa yaşamaqdan təngə gəlmisən, indi də göylərin seyrinə çıxmısan?

Qurbağa isə belə cavab verdi:

– Mən ölüm, üstünü vurmayın. Öz tayı ilə dostluq etməyənin günü elə mənim kimi olar. Ağılsızlıq eləyib özümü dost zibilinə salmışam.

Tülkü ilə pələng

Bir dəfə çaqqal ilə tülkü yol gedirdilər. Çaqqal tülküdən soruşdu:

– Bir de görüm, ay tülkü qardaş, elmin nə qədərini tamam eləmisən?

– Yarısını, – deyə tülkü cavab verdi. – Bəs sən?

– Mən iki yarımını, – deyə çaqqal fəxrlə gülümsündü.

– Onda məndən daha çox elmli olduğun üçün qabağa düş, – deyə tülkü kinayə ilə dilləndi.

Bir az getmişdilər ki, birdən qarşılarına bir ac pələng çıxdı. Tülkü çaqqala dedi:

– Di tez ol, bir çarə tap, yoxsa pələng bizi yeyəcək.

Çaqqal yalvarmağa başladı:

– Heç bir çarə tapa bilmirəm, tülkü qardaş. Əgər sən bir çarə tapmasan işimiz bitib.

Tülkü dedi:

– Bəs belə alim imişsən.

Bu sözdən sonra tülkü çaqqalı ötüb irəli keçdi. Pələngə salam verib dedi:

– Ey qüdrətli hakim, ömrün uzun olsun. Bizim bir mübahisəmiz var, xahiş edirəm onu həll edəsən.

Pələng acıqlı-acıqlı:

– Danışın – deyə, pələng heyvanlara baxır, onlardan hansını qabaqca yeyəcəyi barədə fikirləşirdi.

– Əhvalat belədir, – deyə tülkü sözə başladı. Biz çaqqal ilə iki xoruz, bir cücə tutmuşuq. Mübahisəmiz də elə bunların üstündədir. Mən deyirəm ki, xoruzlar mənə çatmalıdır.

Pələng ağzı sulana-sulana soruşdu:

– Bəs onlar, o xoruzlarınız haradadır?

– Burada, bu yaxınlıqdakı mağaradadır.

Pələng dedi:

– Əzizim tülkü, gərək mən xoruzları görəm, yoxsa məsələni doğru həll edə bilmərəm. Gedək bir onları görüm.

Onlar mağaranın qabağına gəldilər. Pələng mağaraya girə bilmədi, çünki mağaranın ağzı balaca idi. O, üzünü çaqqala tutub əmr etdi:

– Ey çaqqal, içəri girib xoruzları mənə gətir.

Çaqqal baş əyib cəld içəri girdi.

Xeyli gözlədilər, lakin o, mağaradan çıxmadı. Bunu görən tülkü dedi:

– Ay şeytan, özü oradan çıxmır ki, xoruzları tək yesin.

Pələng hirsləndi, o saat tülküyə əmr etdi ki, içəri girib o axmağı dərhal bayıra çıxartsın.

Tülkü də mağaraya girdi. O çaqqalın yanında əyləşib dedi:

– Hə, necəsən, ay alim qardaş.

Çaqqal heç bir söz deyə bilmədi. Tər onu basdı. Pələng isə hələ də oturub tülkünü gözləyirdi. Axırda təngə gəlib pələng qışqırdı:

– Ey tülkü, bayıra çıx, gözləməkdən yoruldum.

– Eybi yoxdur, gözlə dostum, – deyə tülkü ona cavab verdi. Artıq biz çaqqal ilə barışmışıq.

Qurd

Qurda dedilər:

– Gəl səni qoyuna yollayaq!

Başladı ağlamağa.

Dedilər:

– Daha niyə ağlayırsan?

Dedi:

– Qorxuram yalan ola.

***

Qurddan soruşdular:
– Aranda qalacaqsan, yoxsa yaylağa gedəcəksən?
Qurd dedi:
– Mənimki el ilədir. El haraya getsə, mən də oraya gedəcəyəm.

Dəvə ilə tikan

Bir dəvə çöldə otlayırdı. Yarpaqlanmış tikan koluna yaxınlaşıb, istədi onun yarpaqlarını yesin. Ağzını kola tərəf uzadanda gördü ki, onun içində bir ilan qıvrılıb yatıb. Dəvə geri qayıtdı.
Kol belə xəyal elədi ki, dəvə onun tikanından qorxub çəkildi.
Dəvə kolun fikrini duyub dedi:
– Mənim qorxum səndən deyil, o gizlənmiş qonaqdandır.

Tülkü və kəklik

Bir gün kəklik uçub qayanın başına qondu. O yana-bu yana baxdı, gördü ovçu yoxdu. Lap arxayın oldu. Bərkdən oxumağa başladı. Bir tülkü də bərk acmışdı, yıxıla-yıxıla yolla gedirdi. Kəkliyi görəndə ağzının suyu axdı. Öz-özünə dedi: "Nə olaydı, o kəklik əlimə düşəydi, yeyəydim, dizlərimə taqət gələydi".
Yavaş-yavaş kəkliyin bir neçə addımlığına gəldi, dedi:
– Ay gözəl kəklik, sən ki, bu qədər çox oxuyursan, məgər səsin batmır?
Kəklik dedi:
– Həmişə oxumuram. Yatıram, dincəlirəm, gəzirəm, kefim gələndə də oxuyuram.
Tülkü dedi:
– Heyif ki, yatırsan, o gözəl tüklərin toz-torpağa bulaşır.
Kəklik dedi:
– Yerə uzanmıram ki, tüklərim toz-torpağa bulaşa.
Tülkü dedi:
– Onda yatan kimi elə, baxım görüm doğru deyirsən?
Kəklik gözlərini bərk-bərk yumdu. Tülkü sıçrayıb kəkliyi tutdu. Kəklik allandığını başa düşdü, odur ki, dedi:
– Ay tülkü baba, sən ki, belə cəld ov tutursan, de görüm onu yeyəndə özünə afərin deyirsənmi?
Tülkü dedi:
– Əlbəttə deyirəm.
Kəklik dedi:
– İndi ki, elədi, onda bir afərin de görüm.

Tülkü ağzını açıb, afərin deyən kimi, kəklik onun ağzından çıxdı, bir uca qayanın başına qondu, dedi:

– Tülkü baba, sənə axmaq deyərlər, mənə afərin.

Tülkü ilə canavar

Günlərin bir günü tülkü bərk acmışdı. Çox gəzdi, çox dolandı, bir bağın yanına çıxdı. Baxdı ki, tələdə bir parça quyruq var. Kənarda oturmuşdu, quyruğa baxırdı, ağzının suyu axırdı. Bu zaman bir canavar gəlib çıxdı. Tülküdən soruşdu:

– Tülkü baba, niyə quyruğu yemirsən?

Tülkü dedi:

– Orucam.

Canavar dedi:

– Mən oruc-zad deyiləm, yeyəcəyəm.

Tülkü dedi:

– Ye.

Canavar quyruğu yemək istəyəndə tələyə düşdü. Quyruq sıçrayıb kənara düşdü. Tülkü quyruğu götürüb yeməyə başladı. Canavar ondan soruşdu:

– Bəs orucdun?

Tülkü dedi:

– Ayı gördüm, odur ki, yeyirəm.

Canavar dedi:

– Bəs, mən nə vaxt ayı görəcəyəm?

Tülkü dedi:

– Tələnin sahibi gələndə.

Tülkü quyruğu təzəcə yeyib qurtarmışdı ki, tələ sahibi gəlib çıxdı. Tülkü:

– Canavar lələ, ay göründü, – deyə götürüldü.

Tələ sahibi canavarı görəndə dedi:

– Aha, mən səni çoxdan axtarırdım, yaxşı əlimə düşmüsən!

Canavar yalvarıb dedi:

– Axı, mənim günahım nədi? Yazığam, burax gedim.

Tələ sahibi dedi:

– Sənin günahın çoxdu, yazıq heyvanları parçalayıb yeyirsən.

Kişi sözünü qurtardı, ağacla canavarı döyüb öldürdü, dərisini soyub evinə apardı.

Tülkü ilə qurd

Qış düşmüşdü. Hər yeri qar örtmüşdü. Qurd payızdan hər tədarükü görüb, azuqəni evinə toplamışdı. Amma tülkü tədarük-zad görməmişdi.

Acından qarnı curuldayırdı. Tülkü qurdun mağarasının qapısına getdi, qapıdan baxdı, gördü qurdun kefi kökdü, ocağın qırağında oturub dəm alır. Tülkü qurda dedi:

– Ay qurd lələ, soyuqdan ölürəm, məni evinə burax isinim.

Qurd dedi:

– Sənlə mənimki tutmaz. Acığım tutar, səni yeyərəm.

Tülkü yalvar-yapış elədi. Qurdun ona rəhmi gəldi, evinə buraxdı. Tülkü ocağın qırağında oturdu. Bir az söhbət elədilər. Qurd yıxılıb yatdı. Tülkü bərk acmışdı. Yerdən durub evi axtarmağa başladı. Gördü evdə bir küpə yağ, bir boşqab da halva var. İstədi yesin. Öz-özünə dedi: "Birdən qurd ayıq olar, məni tikə-tikə elər". Tülkü gedib qapını taqqıldatdı. Qurd yuxudan oyanıb dedi:

– Qapını taqqıldadan kimdi?

Tülkü ona cavab verdi:

– Qonşun çolaq dovşandı, səni qonaq çağırır.

Qurd dedi:

– Mənim bərk yuxum gəlir, getmirəm.

Qurd başını yerə qoyub yatdı. Tülkü baxdı, gördü qurd lap bərk yatıb. Gedib yağnan halvanı yedi, gəlib yatdı. Qurd tezdən yerindən durdu, istədi halvanı gətirib yesin. Gördü halva yoxdu, yağı yemək istədi, gördü o da yoxdu. Tülkünün üstünə qışqırıb dedi:

– Yağı, halvanı sən yemisən. Səni tikə-tikə eləyəcəyəm.

Tülkü and-aman eləyib dedi:

– Mən yeməmişəm.

Qurd onun sözünə inanmadı. Tülkü ona dedi:

– Ocağın qırağında yataq. Hansımız yağı, halvanı yeyibsə, oda tərəf olan yerinin yağı əriyəcək.

Qurd razı oldu. Hər ikisi böyrü oda tərəf uzandılar. Tülkü gözlədi, qurd yuxuya getdi. Tez ayağa qalxdı, küpədə qalan yağı gətirdi, qurdun böyrünə sürtdü, yıxılıb yatdı. Bir şər yatandan sonra yuxudan ayıldılar. Böyürlərinə baxdılar, gördülər qurdun böyrü yağlıdı. Tülkü dedi:

– Yağı, halvanı özün yemisən, mənim üstümə atırsan.

Qurd bir söz demədi. Çox hirsləndi. Hirsindən evdən çıxıb getdi. Ev tülküyə qaldı. Tülkü isti evdə keflə qışı keçirtdi.

Tülkü və ilan

Bir ilan, bir də bir tülkü var idi. Bunların yuvaları bir-birinin yanında idi. Amma bir-birinin evinə getmirdilər. Bir gün tülkü ovdan gəlirdi. İlan da bir qurbağa tutub, keflə yuvasının ağzında yeyirdi. Tülkü onu görəndə qaçıb yuvasına girdi. İlan qurbağanı yeyib qurtarandan sonra tülkünü çağırıb dedi:

– Qonşu, bayıra çıx, sənə sözüm var.

Tülkü əvvəl istədi çıxmasın, sonra fikirləşdi ki, qonşuluqda yaxşı iş deyil, kənarda duraram, məni vurmaq istəsə qaçaram. Qapının ağzından başını çıxardıb dedi:

– İlan lələ, nə deyirsən?

İlan dedi:

– Yaxın gəl, söz deyirəm.

Tülkü dedi:

– Yox lələ, mən gələ bilmərəm. Sözünü oradanca de.

İlan dedi:

– Qorxma, yaxına gəl.

Tülkü dedi:

– Üz vürma, gələ bilmərəm.

İlan dedi:

– Qonşuluqda yaxşı deyil ki, bir-birimizdən aralı gəzək. Gəl əhd-peyman eləyək, bir-birimizə dəyməyək.

Tülkü razı oldu. Onlar and içdilər, əhdi-peyman elədilər ki, bir-birinə dəyməsinlər. Bu gündən bunlar dost oldular. Bir müddət belə keçdi. Bir gün bunlar səfərə gedəsi oldular. Yola düşüb üç gün, üç gecə yol getdilər. Qabaqlarına bir böyük çay çıxdı. Tülkü üzmək bilirdi, amma ilan yox.

İlan yalvarıb dedi:

– Ay qardaş, mən üzmək bilmirəm, qoy boğazına dolanım, məni çaydan keçir.

Tülkü razı olub dedi:

– Dolan, çaydan keçək.

İlan tülkünün boğazına dolandı, çayı o taya keçdilər.

Tülkü dedi:

– Di boynumdan açıl, gedək.

İlan gülüb dedi:

– Hara açılıram? Mən elə bundan ötrü sənlə yoldaş olmuşdum. Acımışam, qanını içəcəyəm.

Tülkü yalvarıb dedi:

– Bəs əhdi-peyman?

İlan dedi:

– Nə əhdi-peyman?.. Bu saat səni elə vuracağam ki, parça-parça olasan.

Tülkü gördü ilan namərdlik eləyir, onu vuracaq. Kefini kök tutub dedi:

– İlan lələ, onsuz da mən dünyadan bezmişəm, ölmək istəyirəm. Elə sənə deyəcəkdim, qardaş, mənə yaxşılıq elə, vur ölüm, dünyanın qayğısından qurtarım. Amma sənlə çörək yemişəm, yoldaşlıq eləmişəm. Ömrümün axır çağında qoy üzündən öpüm, sonra vur.

İlan tülkünün şirin dilinə inandı. Başını onun ağzına tərəf uzatdı ki, üzündən öpsün. Tülkü o saat onun boğazından tutub elə boğdu ki, gözləri kəlləsinə çıxdı. İlan yalvarıb dedi:

– Ay tülkü qardaş, günahımdan keç, ölüncə qulluğunda olaram.

Tülkü dedi:

– Yoldaşına xain olanın axırı bax, budu.

Tülkü ilanın yalvarmağına baxmayıb onu öldürdü.

Aslanla dovşan

Qalın meşədə bir aslan yaşayırdı. Bu aslan çox zalım heyvan idi, əlinə keçən heyvanı parçalayıb yeyirdi. Heyvanlar bunun əlindən lap zinhara gəlmişdilər. Günlərin bir günü heyvanlar bir yerə yığıldılar. Sözü bir yerə qoydular ki, aslana hər gün bir heyvan versinlər yesin, onlara dəyməsin. Dovşanı aslanın yanına göndərdilər. Dovşan heyvanların sözlərini aslana söylədi. Aslan razı oldu. Şərt qoydular, razılaşdılar.

Bəli, heyvanlar hər gün çöp atırdılar, çöp kimə düşsə onu aslana verirdilər, yeyirdi. Belə-belə bir müddət gəlib keçdi, növbə dovşana düşdü. Dovşan orda-burda girləndi, axşama kimi aslanın yanına getmədi. Aslan ac qaldı, çox qəzəbləndi. Axşam dovşan onun yanına getdi. Aslan onu parçalamaq istəyəndə dovşan dedi:

– Acığın tutmasın, məndə günah yoxdu. Sənə yeməyə bir dovşan gətirirdim, bir aslan əlimdən aldı, yedi.

Aslanın ağzı köpükləndi, dedi:

– O hansı aslandı? Nə hədlə mənə gətirilən dovşanı alıb yemişdir. Tez onun yerini mənə de, onu parça-parça eləyəcəyəm.

Dovşan onun qabağına düşüb, bir su quyusunun başına gətirdi, dedi:

– Aslan bu quyunun içinə girdi.

Aslan quyuya baxanda, öz şəklini suda gördü. Elə bildi ki, dovşanı yeyən aslandı. Tullanıb quyuya düşdü, suda boğulub öldü. Heyvanların da canı onun zülmündən qurtardı.

Şir, qurd, tülkü

Günlərin bir günü şir, qurd, bir də tülkü dost oldular. Bunlar şərt qoydular ki, hər nə tapsalar bir yerdə yesinlər. Həm də bir-birinə kömək elәsinlər. Bir gün şir bir öküz, qurd bir qoyun, tülkü də bir toyuq gətirdi. Şir qurda dedi:

– Bunları bölüşdür.

Qurd dedi:

– Şir ağa, öküz sənin, çünki sən böyüksən. Səndən xırda mənəm, qoyun da mənim. Hamımızdan kiçik tülküdü. Toyuq da tülkünün olsun.

Bu bölgü şirin xoşuna gəlmədi, dartıb qurdun dərisini boğazından çıxartdı, qurdu parça-parça elədi. Tülkü bunu görəndə üzünü şirə tutub dedi:

– Şir ağa, qulaq as, gör mən necə bölürəm.

Boz öküz naharın olsun.
Gündüz yeməyin qoyun olsun.
Şam yeməyin toyuq olsun.
Tülkü kənarda qalsın.

Bu bölgü şirin çox xoşuna gəldi. Tülküyə afərin dedi:
– Bu bölgü qaydasını kimdən öyrənmisən?
Tülkü gülə-gülə dedi:
– Sən qurdun dərisini boğazından çıxaranda mən dərsimi aldım.
– Mərhəba, yaxşı dərs almısan, – deyə şir heyvanların üçünü də yedi.

Ac qurd

Biri var idi, biri yox idi, bir qurd var idi. Bu qurd mahalda qoyun, keçi qoymurdu, yeyirdi. Amma yenə də ac idi.

Günlərin bir günü şirlə pələng yol ilə gedirdilər. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, qurdun qazmasına çıxdılar. Qapıdan içəri girəndə gördülər ki, qurd böyrü üstə yatıbdı. Pələng ondan soruşdu:
– A qurd qağa, necəsən?
Qurd dedi:
– Pələng qağa, üç gündü bir şey yemirəm, acam.
Şir dedi:
– Dur, bizimlə gedək, bəlkə qabağımıza bir şey çıxdı.
Qurd dedi:
– Yol getməyə məndə taqət yoxdu.
Pələng dedi:
– İndi ki, belə oldu, sən burda qal, biz gedək. Naharda özümüzü sənə yetirərik.

Şirlə pələng getdilər. Qurd onların getdiyini görən kimi yerindən qalxdı, o biri qazmaya getdi. O, iki quzu parçalayıb gətirmişdi. Quzuların ətini qabağına qoyub iylədi, yenə də öz yerinə getdi.

O biri tərəfdən pələng şirdən ayrılıb, qurd qağası üçün ov axtarmağa başladı. Az getdi, çox getdi, bir çayın qırağına çatdı. Gördü bir balıqçı çayın qırağında yatıbdı, yanında bir neçə yekə balıq var. Pələng bir o yana, bir bu yana baxdı, balıqları götürüb qaçdı, özünü qurd qağasına yetirib dedi:
– Qağa, doğrudu mən də acam, amma baxıb görürəm ki, sən acından lap üzülürsən. Al bu balıqları ye. Görək sonrası necə olur.
Qurd dedi:
– Çox sağ ol, pələng qağa, yoxsa lap acından öləcəkdim.

Pələng balıqları ona verib getdi. Qurd öz-özünə dedi: "Yaxşıca peşə tapdım. Nə əlimi ağa-qaraya vuraram, nə də boz köpəyin üzünü görərəm. Bu sarsaqlar özləri ac qalar, ovladıqlarını mənə verərlər". Qurd tez ayağa

durdu, balıqları aparıb cəmdəklərin yanına atdı. Özü də dovşanın yanına gedib dedi:

– Dovşan qağa, belə olmaz. Bostanların şirin yemişini yeyirsən, mənə vermirsən?

Dovşan dedi:

– Qurd qağa, bu il bostanlarda sən deyən yaxşı yemiş olmayıb ki, sənə də gətirim. Məni bağışla.

Qurd dedi:

– Heç zad bilmirəm, gərək mənim payımı gətirəsən.

Qurd burdan birbaş qızılquşun yanına gedib dedi:

– Qağa, on gün olar ki, mənə çolpa vermirsən, belə iş olar?

Qızılquş dedi:

– Çolpa yoxdu.

Qurd dedi:

– Bilmirəm, gərək mənə çolpa tapıb gətirəsən, yoxsa balalarını əlindən alacağam.

Bunlar burda qalsın, sənə deyim pələngdən. Pələng yol ilə gedirdi, gördü bir tülkü bir parça sümük gəmirir. Pələng ondan soruşdu:

– Tülkü baba, nə yeyirsən?

Tülkü dedi:

– Görmürsən?

Pələng tülkünün yanında yerə çöküb dedi:

– Tülkü baba, bir qurd var, lap qocalıb, özü də acından ölür. Bayaq əlimə bir neçə balıq düşmüşdü, aparıb verdim ona.

Tülkü bərkdən güldü.

Pələng ondan soruşdu:

– Niyə gülürsən?

Tülkü dedi:

– O qurdda olan cəmdəklər məndə olsa idi, düz bir il yeyib yatardım.

Pələngin ona acığı tutub dedi:

– Yalan deyirsən?

Tülkü dedi:

– Gəl mərc çəkişək, gedib yoxlayaq.

Tülkü ilə pələng mərc çəkib yola düşdülər, yolda şirə rast gəldilər. Şir soruşdu:

– Hara gedirsiniz?

Pələng tülkünün sözlərini ona söylədi. Şir də bunlara qoşuldu. Yolda qızılquşa rast gəldilər. Qızılquş qanad saxlayıb dedi:

– Tülkü baba, filan yerdə bir qurd var, lap bizi talayıb, çapıb.

Tülkü gülüb yoldaşlarına dedi:

– Bu bir.

Bir az gedib dovşana rast oldular. O da qurddan şikayətə başladı.

Tülkü dedi:

– Bu iki.

Pələng dedi:

– Tülkü baba, sən doğru deyirmişsən.

Tülkü, pələng, şir, dovşan, bir də qızılquş bir-birinə qoşuldular, düz qurdun yanına gəldilər. Qurd bunları görən kimi qarnını qucaqlayıb yerə oturdu, guya o acından lap ölür. Pələng dedi:

– Qurd qağa necəsən?

Qurd dedi:

– Acından lap ölürəm.

Sözünü qurtaran qurd özünü ölülüyə vurdu ki, çıxıb getsinlər. Tülkü tez irəli çıxıb dedi:

– Qağamız dünyada pis güzəran keçirib. Gəlin onu yaxşıca dəfn eləyək.

Tülkü tez bir qəbir qazıb dedi:

– Daha durmayın, gəlin qurd qağamıza bir az ağlayaq.

Yalandan bir az ağladılar. Qurd gördü ki, xeyr, işlər şuluqdu, bunların əlindən qaçıb qurtara bilməyəcək. Boğazı lap qurudu.

Tülkü pələngə dedi:

– Götürün qurd qağamızın cəmdəyini qəbrə qoyaq.

Tez qurdu götürdülər. Qurd öz-özünə dedi: "bayıra çıxaranda qaçaram". Tülkü işi duymuşdu, çox ayıq tərpənirdi. Qurdu qəbrə qoyan kimi, tülkü üstünü tez torpaqladı, qurd oradaca murdar olub öldü.

Tülkü dedi:

– İndi qurd qağanın qazmasını açın.

Açıb nə gördülər, içi cəmdəklə doludu. Tülkü dedi:

– Xainin özünü sağ basdırıb, malını da yeyərlər. Nə istəyirsiniz yeyin.

Qurdun topladığı cəmdəkləri yeyib üstündən su içdilər, sonra dağılıb getdilər.

LƏTİFƏLƏR

BƏHLUL DANƏNDƏ LƏTİFƏLƏRİ

Bişmiş yumurtadan da cücə çıxarmış

Bir tacir səfər üstəymiş. Axşam dükan-bazar bağlandığına görə yeməyə bir şey tapa bilmir. Bir həyətin qapısını döyüb, bir qarıdan on dənə bişmiş yumurta alır. Elə olur ki, tələsdiyindən yumurtaların pulunu vermir.

Tacir mallarını satmaq üçün bu ölkədən çıxıb özgə bir ölkəyə gedir, bir neçə ay keçir, geri qayıdanda aldığı yumurtaların pulunu vermək istəyir. Tamahkar qarı ona belə deyir:

– Əgər yumurtaların pulunu o vaxt versəydin, sözüm olmazdı. İndi isə aradan gör nə qədər vaxt keçib. Bu müddətdə on yumurtadan on cücə çıxardı, hər biri böyüyüb bir toyuq olardı, hər toyuq da gündə bir yumurta yumurtlardı. Sonra o yumurtaların da hərəsindən yenə bir cücə çıxardı, onlar da böyüyüb toyuq olardılar. Bu toyuqlar da yumurtlayardılar.

Qərəz, qarı bu toyuq-cücə haqq-hesabını o qədər artırır ki, tacir bütün var-dövlətini ona versə, yenə ödəməzmiş. Buna görə tacir onun haqqını verməkdən boyun qaçırdır. Qarı isə gedib xəlifəyə şikayət eləyir. Xəlifə qarının sözünə inanıb tacirin bütün var-dövlətini əlindən aldırıb qarıya verdirir. Tacir əli qoynunda qalıb, bilmir nə eləsin.

Bəhlul Danəndə bu əhvalatı eşidir. Qardaşının yanına gəlib ona belə deyir:

– Qardaş, həyətdə bir az buğda əkmək istəyirəm, icazə verərsənmi?

Xəlifə fikirləşir ki, yəqin Bəhlul ağıllanıb, əkinçiliklə məşğul olmaq istəyir. Odur ki, icazə verir.

Bəhlul elə həmin gün yeri şumlayır, həyətin ortasında yekə biri qara qazan asıb, su qaynadır. Xəlifə külafirənkidən baxıb görür ki, həyətdə qara qazan asılıb, Bəhlul da yeri şumlayıb qurtarıb. Xəlifə vəzir-vəkili ilə birlikdə gəlib Bəhluldan soruşur ki, bu nə əhvalatdır?

Bəhlul deyir:

– İndi bu saat görərsiniz.

Sonra Bəhlul bir torba buğdanı tökür qaynar su qazanına, bişdikdən sonra abgərdənlə çıxarıb şumlanmış yerə səpələməyə başlayır. Xəlifə deyir:

– Bəhlul, mən elə bilirdim, sən ağıllanıbsan, amma görürəm ki, elə həmin Bəhlulsan.

Bəhlul özünü bilməməzliyə vurub deyir:

– Ey ədalətli, ağıllı xəlifə, nə olub ki?

Xəlifə deyir:

– Nə olacaq, bişmiş buğdadan da taxıl bitər?

Bəhlul deyir:

– Yaxşı, bir halda ki, bişmiş buğdadan taxıl bitməz, bəs bişmiş yumurtadan da cücə çıxar ki, sən tacirin bütün mal-dövlətini alıb, yalançı bir qarıya vermisən?!

Xəlifə səhvini başa düşüb tacirin var-dövlətini özünə qaytartdırır.

Torpağın sözü

İki kəndli qonşuluqda yer şumlayırmış. Bir axşam işdən sonra üz-üzə gəlirlər. Kəndlinin biri o birinə deyir:

– Sən mənim torpağımı da öz torpağına qatıbsan!

O biri kəndli deyir:

– Yox, sən mənim torpağımı oğurlayıbsan!

Onlar o qədər mübahisə edirlər ki, axırı vuruşası olurlar. Bu zaman Bəhlul yol ilə keçirmiş, kəndlilərin dalaşdığını görüb, onların yanına gəlir. Məsələdən halı olub deyir:

– Siz iki addım geri çəkilin, mən torpaqdan xəbər alım, görüm onun bu haqda fikri nədir:

Kəndlilər geri çəkilirlər. Bəhlul əyilib qulağını yerə söykəyir. Bir azdan sonra qalxıb deyir:

– Torpaq deyir ki, onlar yalan danışırlar, mən onların deyiləm, onlar ikisi də mənimdir.

Kəndlilər bir ağızdan deyirlər:

– Bu necə olur ki, biz torpağın oluruq?

Bəhlul deyir:

– Torpaq demək istəyir ki, ey insanlar, siz məndən əmələ gəlibsiniz, sonra da ölüb torpğa qarışacaqsınız, iki qarış yer üstündə nahaq bir birinizi qırırsınız.

Daha mənə ehtiyac yoxdur

Bağdad xəlifəsi bir gün Bəhlulu yanına çağırıb deyir:

– Ay qardaş, bəsdir bu qarğı atı minib o tərəf-bu tərəfə çapdığın. Hamı səni dəli-divanə hesab eləyir. Gəl sənə bir vəzifə verim.

Bəhlul deyir:

– Məni elə işə qoy ki, işimi özgəsi görməsin. Öz işimi özüm görüm.

Xəlifə deyir:

– Onda bu gündən səni bazara darğa qoyuram. Hər gün gedərsən bazara, qayda-qanun yaradarsan, qoymazsan bir kimsə bir başqasını aldatsın. Çəkiyə, haqq-hesaba nəzarət elərsən.

Elə həmin gün Bəhlul gəlir bazara. Görür ki, bir uşaq qəssabdan üç girvənkə ət istədi. Qəssab uşağı aldadıb, ətdən yarım girvənkə əskik çəkdi. Uşaq əti alıb gedən kimi, bir it qəssabın qabağından bir bud əti götürüb qaçdı. Bəhlul bu hadisəni görən kimi qayıdır bir baş evinə, düz bir həftə bazara çıxmır.

Xəlifəyə xəbər çatdırırlar ki, bəs sənin təzə təyin elədiyin darğa bazara bir həftədir ayaq basmır.

Xəlifə Bəhlulu çağırtırıb deyir:

– Qardaş, bəs mən sənə vəzifə verdim ki, bazarda qayda-qanun yaradarsan, amma çəkilib oturmusan evdə. Niyə belə?

Bəhlul bazarda gördüyü əhvalatı xəlifəyə danışıb, axırda deyir:

– Orda mənsiz də qayda-qanun yaradan var, daha mənə ehtiyac yoxdur.

Mollanın tamahı

Molla bir qoca qarıdan on tümən borc alır. Aylar keçir, il ötür, borcu qaytarmır. Qarı nə qədər yalvarır ki, pulumu ver, molla müxtəlif bəhanələr gətirir ki, bəs bilmirəm səndən pul almışam, ya almamışam. Qarının əlaçı kəsilir, mollanı da götürüb qazının yanına şikayətə gedir. Yolda Bəhlula rast gəlir. Qarı başına gələn əhvalatı ona söyləyir.

Bəhlul üzünü mollaya tutub deyir:

– Molla əmi, görürsən ki, qarının heç kimi yoxdur, yazıq adamdır, on tümən nədir ki, onu vermirsən? Gəl sənə elə bir xəzinə göstərim ki, ömrünün axırına kimi yesən qurtarmasın.

Molla deyir:

– Hardadır o xəzinə?

Bəhlul əli ilə təpəni göstərib deyir:

– O təpəni görürsənmi? Onun dibində bir mağara var, içində qırx küp qızıl, gir içəri, nə qədər istəyirsən götür.

Molla qızıl adı eşidən kimi qarının on tümənini verib tez təpəyə tərəf qaçır. Bəhlul da qarğı atını mirnib "Ah, tamah, ah, tamah!" deyə-deyə gedir.

Molla təngnəfəs gəlib təpənin dörd tərəfini nə qədər axtarırsa, heç nə tapmır. Özünün aldadıldığını bilib kor-peşman evinə qayıdır.

Dəmir al, kömür al

Günlərin birində bir nəfər Bəhlulun yanına gəlib soruşur:

– Danəndə Bəhlul, mən nə alım, nə satım varlanım?

Bəhlul deyir:

– Get dəmir al, kömür al, vur anbara, üstünə də su səp. Bir il qalsın, sonra çıxart sat.

Kişi Bəhlulun dediyi kimi eləyir. Üstünə su səpilmiş dəmirlə, kömür rütubət çəkir, ağırlaşır. Kişi satıb xeyli qazanır. Bu qədər qazanc kişini qudurdur, heç kimi saymır, hətta Bəhlula salam verməyə istəmir. Aradan bir müddət keçəndən sonra həmin kişi Bəhlulu dayandırlıb yenidən soruşur:

– Ə, Divanə Bəhlul, indi nə alıb-satım ki, yenə xeyli qazanım?

Bəhlul deyir:

– Soğan al, sarımsaq al, vur anbara. Üstünə də su səp. Bir il qalsın, sonra satarsan.

Kişi obaları, kəndləri gəzib nə qədər soğan, sarımsaq var, hamısını alıb doldurur anbara, üstünə də su səpir. Aradan bir il keçir, soğan və sarımsağın hamısı göyərib xarab olur, çürüyür. Kişi böyük ziyana düşür, qəzəblənib başı alovlu, Bəhlulun yanına gedir.

– Bəhlul, birinci dəfə mənə ağıllı məsləhət vermişdin, xeyli qazancım oldu, amma ikinci dəfə ağıllı məsləhət vermədin, sözünə baxdım, xeyli ziyana düşdüm!

Bəhlul deyir:

– Sən birinci dəfə gələndə dedin ki, Bəhlul Danəndə, mən də sənə danəndə kimi ağıllı söz dedim. İkinci dəfə gələndə mənə Bəhlul divanə deyə müraciət elədin. Mən də sənə divanə kimi məsləhət verdim.

Yükün nədir?

Qışın oğlan çağı imiş. Bəhlul evə gəlib arvadına deyir:

– Arvad, dur xurcuna bir az yemiş, qarpız toxumu qoy, gedirəm bostan əkməyə.

Arvadı deyir:

– Ay kişi, bu vaxt da bostan əkilər?

– Sənin nə işin, bitər, bostanım faraş olar, bitməz də bitməsin də.

Arvadı Bəhlulun dediyi toxumları xurcuna qoyur. Bəhlul xurcunu çiyninə aşırıb gəlir bostana, toxumları əkir. İş elə gətirir ki, toxumlar cücərir, hələ heç kimin bostanında yemiş, qarpız yetişməmiş Bəhlulun bostanı aşıb-daşır. Bəhlul bir eşşək yükü yükləyib yola düşür ki, padşaha novbar aparsın. Yolda ona kim rast olursa, xəbər alır ki, Bəhlul, hara gedirsən, yükün nədir? Bəhlul hamıya çavab verir ki, padşahın yanına gedirəm, eşşək də özünüzsünüz.

Adamlar deyirlər:

– A kişi, bu nə sözdür, biz səndən xəbər alırıq yükün nədir, sən deyirsən eşşək özünüzsünüz. Sən padşahadamı belə deyəcəksən?

Bəhlul deyir:

– Bəli, padşah da sizin kimi soruşsa ki, yükün nədir, ona da deyəcəm ki, eşşək özünsən.

Bir çoxları maraqlanıb Bəhlulun yanınca gedirlər saraya, görsünlər padşahadamı belə deyəcək, ya yox?

Bəhlul gəlir padşahın yanına. Salam verib, salam alandan sonra padşah deyir:

– Bəhlul, nə gətiribsən?

Bəhlul deyir:

– Bostanım bu il çox faraş olub, sənə novbar yemiş-qarpız gətirmişəm.

Padşah Bəhlulun sovqatını alıb, əvəzinə ona bəxşiş verir. Camaat bu işə məəttəl qalır, Bəhlulu çəkib deyirlər:

– Bəs sən deyirdin padşaha da bizə dediyini deyəcəksən, bəs niyə demədin?

– Çünki padşah mənə siz deyəni demədi, o soruşdu ki, Bəhlul, nə gətiribsən? Amma siz soruşurdunuz ki, Bəhlul yükün nədir? Mən eşşək deyiləm ki, yüküm olsun.

Bəhlul və şagirdi

Bəhlulun bir şagirdi varmış. Özü nə bilirdisə, şagirdinə də öyrədirmiş. Bir vaxt şagird görür, Bəhlulun bildiklərinin hamısını o da bilir. Bir tərəfdən də Bəlul şöhrətinin hər tərəfə yayıldığını görüb fikirləşir ki, elə yaxşısı budur, ustadımdan ayrılım, gedim özümü Bəhlul kimi qələmə verim. Elə bu fikirlə də Bəhlula deyir:

– Usta, daha mən hər elmi səndən öyrənmişəm, indi istəyirəm ayrılıb gedim öz şəhərimizə.

Bəhlul deyir:

– Oğul, əvvəla, hələ öyrənməyə çox şey var, indi ki gedirsən, nə badə ustadına xor baxasan!

Şagird Bəhlula söz verib çıxıb gedir.

Şagird öz şəhərlərinə çatan kimi pal-paltarını dəyişir, bir qarğı at minib camaata deyir

– Mən Bəhlul Danəndəyəm

Şagirdin, doğrudan da, bəzi elmlərdən xəbəri var idi. Oturub bir kitab yazır. Orda göstərir ki, filan dağın ətəyində bir bulaq var, kim onun suyundan içsə, o saat partlayıb ölər. Doğrudan da, elə bir bulaq var imiş. Şagirdin yazdığı bu sözlər hər yerə yayılır. Bəhlul da eşidir ki, şagirdi belə bir kitab yazıb, həm də özünü Bəhlul Danəndə adlandırıb. Bu səssoraq gedib padşaha da çatır. Padşah vəzir-vəkili də götürüb gedir həmin bulağın başına.

Bəhlul Danəndə paltarını dəyişib kənardan baxır.

Adamlar şagirdə deyirlər:

– Bəhlul Danəndə yalan danışan adam deyil, əgər sən Bəhlulsansa o suyu bizə göstər, görək onu içən necə olur?

Şagird adamlarla bulağın lap başına gəlir ki, suyun təsirini onlara göstərsin.

Padşah deyir:

– Əgər sənin dediklərin düz olmasa, başını bədənindən ayırdacağam.

Camaat kənardan bulağa tamaşa edir. Bir də görürlər bir çoban göy otun üstündə yatdığı yerdən durub getdi bulağın başına, sudan doyunca içdi. Sonra bir xeyli gərnəşib, üstündən də bir sərnic ayran içdi. Başladı qoyunları haylayıb kefi kök, damağı çağ getməyə. Bu əhvalatı görən padşah deyir:

– Ə, səfeh, bu çamaatı niyə ələ salırsan? Deyirdin sudan kim içsə o saat partlayıb ölər, bəs çobana niyə bir şey olmadı?

Şagird qalır məəttləl, bir söz deyə bilmir. Padşah əmr eləyir oğlanın qollarını bağlayıb aparsınlar dar ağacından asmağa. Şagirdin əl-qolu bağlananda Bəhlul irəli yeriyib deyir:

– Ey padşah, dayanın, o düz deyir. Hər kim bulağın suyundan içsə ölər. Çoban ona görə ölmədi ki, suyu içəndən sonra həm möhkəm gərnəşdi, həm də bir sərnic ayran içdi. İnanmırsansa, yoxla.

Padşah əmr eləyir, bir qara qul sudan içir. Heç bir-iki dəqiqə keçmir ki, yıxılıb ölür.

Bəhlul deyir:

– Gördünüzmü!

Bu hadisədən sonra padşah əmr eləyir, şakirdin qollarını açsınlar. Bəhlul üzünü şakirdinə tutub deyir:

– Yadındardırmı, məndən ayrılanda dedim ki, nəbada ustadına xor baxasan. Sözümə qulaq asmadın, özünü Bəhlul kimi qələmə verdin. Sonra sənə demişdim ki, hələ öyrənməli çox şey var, buna da inanmamısan. İndi gördünmü sənin yazdığın kitab hələ tamam deyil? Tamam olsaydı, çobanın niyə ölmədiyinin sirrini də bilərdin.

MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ

Bilənlər bilməyənləri öyrətsin

Molla Nəsrəddin bir gün məscidə gəlir. Camaat yapışır onun yaxasından ki, gərək minbərə çıxıb bizimçün moizə oxuyasan. Molla çox çalışır ki, bu işdən boyun qaçırsın, amma mümkün olmur. Odur ki, minbərə qalxıb deyir:

– Camaat, bilirsiniz nə var?

Yerəbəycrdən cavab verirlər ki, əlhəmdülillah, heç nə bilmirik.

– İndi ki, bilmirsiniz, daha mən sizə nə deyim?

Molla minbərdən düşüb gedir.

Sabahısı gün yenə camaat onu minbərə çıxardır. Bu dəfə də Molla soruşur ki, camaat, bilirsiniz nə var?

– Bəli. bilirik, – deyə adamlar cavab verirlər.

Molla:

– İndi ki, bilirsiniz, daha mən sizə nə danışım? – deyərək minbərdən düşür yerə.

İş elə gətirir ki, adamlar Mollanı üçüncü dəfə minbərə çıxardırlar. Molla isə halını pozmadan yenə soruşur ki, camaat, bilirsiz nə var?

Cavab verirlər ki, Molla yarımız bilirik, yarımız yox. Molla adamların kələyini başa düşür. Odur ki, deyir:

– İndi ki, belədir, bilənlər bilməyənlərə öyrətsin.

Paltar nəyinizə lazımdır?

Mollanın bir kök qoyunu var imiş. Məhəllənin lotuları sözü bir yerə qoyub qoyunu yemək istəyirlər. Odur ki, bir-bir gəlib Mollaya deyirlər:

– Molla, sabah dünyanın axırıdı. Hamımız ölüb o dünyaya gedəcəyik. Daha bu qoyunu niyə saxlayırsan? Gəl ömrümüzün bu axır günündə qoyunu kəs, bir kabab yeyək.

Molla əvvəlcə inanmır. Amma gələnlərin hamısının eyni sözü deməsi Mollanı xoflandırır. Razılaşıb qoyunu kəsir. Başdayır kabab tədarükünə. Qonaqlar da bir az kanarda ağac kölgəsində oturub öz aralarında Mollanı aldatdıqlarından danışıb gülürlər. Molla fikir verib, fəhminən kələyi başa düşür. Odur ki, tez arvadını çağırıb ocağın başında qoyur, özü isə gəlib qonaqların əbalarını, başmaqlarını, qurşaq və papaqlarını yığışdırır:

– Deyəsən, hava qarışır. Sonra yağıb eləyər,paltarlarımız islanar. Yaxşısı budur, bunları aparım içəri.

Qonaqlar heç nədən şübhələnməyib, bir söz demirlər. Molla yığışdırdığı şeylərin hamısını göndərir bazarda satdırır, puluna da bir yekə qoç aldırtdırıb gətirir, bağlatdırır kəsilən qoyunun yerində.

Qonaqlar kababı yeyəndən sonra razılıq edib Molladan paltarlarını istəyirlər ki, geyinib getsinlər. Molla çox ciddi halda deyir:

– Balam, paltarlarınızın hamısı getdilər o dünyaya. Nə qədər dedim ki, dayanın bir yerdə gedərik, dedilər, yox, nə üçün qoyun bu gün getsin, biz sabaha qalaq, məgər biz qoyundan əskiyik?

Qonaqlardan biri soruşur:

– Molla, bəs indi biz neyləyək?

Molla cavab verir:

– Heç nə. Onsuz da sabah dünyanın axırıdı. Hamımız öləcəyik. Daha paltar nəyinizə lazımdır?

Qazan da doğarmı?

Molla qonşularından bir qazan alır. Bir neçə gün keçir, Molla bu qazanın içinə balaca bir qazança da qoyub sahibinə qaytarır. Qazan yiyəsi soruşur:

– Molla, bu qazança nədir belə?

Molla gülə-gülə deyir:

– Qonşu, gözün aydın olsun, qazanın doğdu.

Qonşu bir söz deməyib sevinə-sevinə qazanla qazançanı aparır evə.

Yenə bir gün Molla həmin qonşusundan əmanət iri bir qazan istəyir. Qonşu gətirib Mollaya yenə bir qazan verir. Bir gün, beş gun, on gün... Molla qazanı qaytarmır. Hövsələsi daralan qonşu durub gəlir Mollagilə. Elə bu vaxt qapıya çıxmış Molla qazan sahibini görüncə deyir:

– Başın sağ olsun, qonşu, bilirsən, sənin mənə verdiyin qazan öldü.

Qonşu təəccüblə soruşur:

– Nə danışırsan, a kişi. Qazan da ölərmi?

Molla deyir:

– Bəs qazan da doğarmı?

Bir tük ondan, bir tük bundan

Molla Nəsrəddinin özünü çox bilikli alim kimi tanıtmağa çalışan bir qazı ilə mübahisəsi düşür. Molla bu yalançı alimə bir neçə sual verirsə də, cavab ala bilmir. Mollanın əlində aciz-avara qalan qazı deyir:

– Molla, mən də sənə elə suallar verərəm ki, heç ağzını açıb danışa bilməzsən.

– Buyur görək, o neçə sualdır ki, mən ona cavab verə bilməyim.

– De görüm, dünyanın ortası haradır?

Molla əlindəki əsası ilə ortada bir çevrə çəkib dedi:

– Buyur, bura dünyanın ortasıdı.
– Bu saat sübüt eləməlisən.
– Mənə sübut olunub. Sən inanmırsansa, buyur ölç, bu dünya, bu da sən.
– Göydə nə qədər ulduz var?
– Mənim eşşəyimin tükü qədər.
– Sübut!
– A kişi, daha hirslənmək nə üçün. O göydəki ulduzlar, bu da eşşək. Buyur, say.
– Yaxşı, mənim saqqalımda nə qədər tük var?
– Mənim eşşəyimin quyruğunun tükü qədər.
– Yalan danışırsan.
Molla heç təmkinini pozmadan:
– Mən niyə yalan danışmalıyam? Bu sənin saqqalın, bu da mənim eşşəyimin quyruğu. Bir tük saqqalından çək, bir tük də mənim eşşəyimin quyruğundan. Düz olmasa, onda danış.

Yolum o yana düşdü

Məhəllə uşaqları sözü bir edirlər ki, Mollanı ağaca çıxarıb başmaqlarını oğurlasınlar. Onlar bir ağacın altına yığışıb "heç kəs bu ağaca çıxa bilməz", – deyib mübahisə edirlər. Bu vaxt yoldan ötən Molla bu qızğın məbahisəyə qulaq asır. Sonra irəli yeriyib deyir:
– Ay uşaqlar, niyə mübahisə edirsiniz, lap elə mən özüm bu ağaca çıxa bilərəm.
– Uzaqdan hər adama bu iş asan gəlir. Amma yəqin bil bu ağaca çıxmaq hər igidin işi deyil.
Belə-belə sözlər Mollaqı lap qızışdırır. O, cübbəsinin ətəklərini qatlayıb başmaqlarını da qoltuğuna vurur və başlayır ağaca çıxmağa. İşi belə görən uşaqlar soruşurlar ki:
– Molla, başmaqları niyə özünlə götürürsən?
– Bəlkə ağacdan yolum o yana düşdü, – deyə Molla cavab verir.

Kişinin sözü bir olar

Bir gün məclisdə söhbət əsnasında dostlarından biri soruşur ki:
– Molla, sənin neçə yaşın var?
– Qırx tamamdır, – deyə Molla Nəsrəddin cavab verir.
Bu söhbətdən düz on il keçir. Yenə həmin dostlar bir yerə toplaşıb ordan-burdan danışırlar, söz gəlir çıxır yaş üstünə. Hərə öz yaşını deyir. Molla da qalxır ayağa və deyir:
– Hə, bu il mənim də qırx yaşım tamam olacq.
Mollanın həmin dostu da burada imiş. Odur ki, dözməyib deyir:

– Ay Molla, düz on il bundan qabaq da sən mənə demişdin ki, qırx yaşın var, elə indi də onu deyirsən. Bu necə olan işdir?

– Lap qəşəng olan işdir. Demişəm qırx, vəssalam! Kişinin sözü bir olar.

İşin düzəldiyini görüb gülürsən?

Molla yenə bir dükançıya borclu qalır. Nə qədər çalışırsa pul tapıb borcu qaytara bilmir. Dükançı da Molladan əl çəkmir. Hər gün gəlib pulunu istəyir. Molla da çox fikirləşir ki, bu dükançını necə başdan eləsin. Odur ki, oturub arvadı ilə bir tədbir qurur...

Molla pəncərədən baxanda görür ki, dükançı, budur, yenə düz həmişəki vaxtda deyinə-deyinə, söyə-söyə gəlir. Molla tez arvada deyir ki, çıx qapıya necə demişəm dükançıya elə də cavab ver. Arvad qapını açıb həyətə çıxanda Molla da gəlib gizlənir qapının dalında. Dükançı yetişincə başlayır, nə başlayır:

– Tez ol, kişini çağır, gəlsin borcunu qaytarsın, yoxsa burdan gedən deyiləm. Bütün aləmdə Mollanı biabır eləyəcəyəm.

Arvad Mollanın öyrətdiyi kimi başlayır:

– Dükançı qardaş, bilirəm, hirslənməyə haqqın var, amma nahaq yerə. Kişi evdə deyil. Elə sənin işinlə məşğuldu. Yaxşı pul yeri tapmışıq. Bu yaxınlarda sənin borcunu qaytaracağıq. Biz indiyə kimi heç kəsə borclu qalmamışıq.

Dükançı sevincək:

– Hə, pul tapmısız, indi nə vaxt verəcəksiz?

Arvad:

– Bir qulaq as da. Bax, həyətdə Mollanın işlədiyi o yeri görürsən?

– Hə, işləyib. Yerdi də, bundan nə olsun ki.

– O olsun ki, Molla buraya qaratikan əkəcək. O tikanlar göyərib kollanacaq. Kəndin qoyunu burdan keçəndə yunları ilişib o tikanlarda qalacaq. Mən yunları götürüb ip əyirəcəyəm. Sonra corab toxuyub satacaq, pulun gətirib sənin borcunu ödəyəcəyik.

Arvadın bu sözlərindən pulunu ala bilməyəcəyini başa düşən dükançı ucadan gülməyə başlayır. Elə bunu görüncə Molla tez qapının dalından başını çıxarır deyir:

– Ay lotu, işin düzəldiyini görüb gülürsən?

Pişikdirsə, bəs ət hanı?

Molla bazardakı qəssabdan üç girvənkə qoyun əti alıb göndərir evə ki, arvad axşama yaxşı bir bozbaş bişirsin. Arvad qonşu arvadları yığır başına, Mollanın göndərdiyi üç girvənkə əti də bişirib yeyirlər. Axşam olur, Molla qayıdır evə. Arvad gətirib süfrə açır. Süfrəyə çörək, bir də soğan

qoyur. Molla ha gözləyir, görür yox, bozbaşdan heç əsər-əlamət görünmür. Axır dözməyib soruşur:

– Arvad, ət alıb göndərmişdim ki, bozbaş bişirəsən axı...

– Daha heç danışma, kişi. Başıma qəzavü-qədər gəldi. Əti doğrayıb elə asmaq istəyirdim ki, birdən necə oldu başım qarışdı. Sən demə çor dəymiş pişik də gəlib elə bu vaxt ətin hamısını yeyib.

Molla bir söz deməyib durur ayağa. Pişiyi tutub qoyur tərəziyə. Çəkib görür ki, düz üç girvənkədi. Üzünü arvada tutub:

– Ay səni tünbətün olasan. Bu, aldığım ətdirsə, bəs pişik hanı, yox, pişikdirsə, bəs onda aldığım ət hanı?

Mindiyini saymırsan?

Günlərin birində Molla eşşəyinə minib kəndə getmək istəyir. Bazarın yanından keçəndə həmkəndliləri onu görüb deyirlər:

– Molla, bazara satmağa mal gətirmişik. Olsun ki, yubanıb şəhərdə qaldıq. Bizim bu səkkiz eşşəyi də apar kəndə. Molla bir söz deməyib eşşəkləri qatıb qabağına başlayır kəndə sarı getməyə. O, şəhərdən çıxanda deyir ki, qoy bir eşşəkləri sayım, birdən şəhərdə itirmiş olaram. Sayır görür yox, doqquzdur. Yenə minir öz eşşəyinə. Bir az gedəndən sonra Molla başlayır bir də eşşəkləri saymağa. Baxır, ədə, nə? Eşşəklər səkkiz olub. Tez düşür eşşəkdən, başlayır o tərəf-bu tərəfi axtarmağa. Nə qədər gəzirsə, itirdiyi eşşəyi tapa bilmir. Qayıdır eşşəklərin yanına. Sayır görür ki, eşşəklər doqquz olub. Sevincək minib eşşəyinə, yenə də o birilərini qatır qabağına. Bir xeyli yol gedəndən sonra yenə vəlvələ düşür Mollanın canına. Görəsən eşşəklərdən itirməmişəm ki?! Qoy bir sayım. Yenə də görür ki, eşşəklər səkkizdir. Mollanı qəm bürüyür. Yenə də başlayır itən eşşəyi axtarmağa. Tapa bilmir ki, bilmir. Dərd-qəm içində qayıdır otlayan eşşəklərin yanına. Bir-bir eşşəkləri sayıb görür ki, yenə də doqquzdur. Mollanın sevinci yerə-göyə sığmır. Eşşəyinə minib oxuya-oxuya yola düşür. Gəlib kəndə yetişhayetişdə bir də eşşəkləri sayır görür səkkizdir ki, səkkiz. Molla başlayır ağlamağa ki, indi mən eşşək sahiblərinə nə cavab verəcəyəm. Bu vaxt bir uşaq çıxır Mollanın qabağına. Mollanın hönkür-hönkür ağladığını görüb soruşur:

– Molla əmi, nə olub, niyə ağlayırsan?

– Nə olacaq. Doqquz eşşəyim var idi, indi birini itirmişəm, qalıb səkkiz.

Uşaq eşşəkləri sayır görür ki, doqquzdur. Deyir:

– Molla əmi, eşşəklər doqquzdur ki.

Molla bir də sayıb deyir:

– Hanı, səkkiz dənədir də.

Uşaq məsələnin nə yerdə olduğunu başa düşüb deyir:

– Molla əmi, bəs mindiyin eşşəyi saymırsan?

Molla öz mindiyi eşşəyi da sayanda baxır ki, doğrudan da doqquzdur. Molla öz səhvini başa düşüb deyir:

– Bu uşaqlar yaman zamana uşaqları olublar ha!

Molla və səyyah

Günlərin birində Teymurləngin məmləkətinə özgə ölkədən bir neçə nəfər əcnəbi alim gəlir. Dilmancın köməyi ilə bir qədər söhbət edib yeyib-içdikdən sonra əcnəbi alimlər deyirlər ki, biz buraya sizin məmləkətin alimlərinin xilqət haqqında fikirlərini öyrənməyə gəlmişik.

Əmir Teymur məmləkətinin bütün alimlərini çağırtdırır, məsələni onlara başa salır. Əcnəbi alimlərin yanında xəcil olmamaq üçün kimi onların qabağına çıxarmağı soruşur. Çox məsləhət-məşvərətdən sonra belə qərara gəlirlər ki, bu işin öhdəsindən gəlsə-gəlsə Molla Nəsrəddin gələr. Mollaya deyirlər, o da onlarla mübahisəni öz boynuna götürür.

Bəli, məclis qurulur. Bütün şəhər əhli tamaşaya toplanır ki, Molla Nəsrəddin əcnəbi alimlərin suallarına cavab verəcək.

Öz aralarında razılaşıb əcnəbi alimlərindən biri çıxır meydanın ortasına, Molla Nəsrəddin də gəlir irəli. Səyah alim meydanın ortasında yekə bir dairə çəkib baxır Mollanın üzünə. Molla əsası ilə dairənin ortasından bir xətt çəkir. Baxıb görür ki, səyyah alim dinmir. Tez dairəni dörd yerə bölüb üçünü özünə tərəf çəkir, birini isə əcnəbi alimin qabağına itələyir. Bu işdən razı qalan səyyah alim əlinin arxasını yerə doğru, barmaqlarını isə topa halda göyə sarı tutur. Molla Nəsrəddin isə bunun əksini edir. Əlini üstünü göyə sarı tutur, barmaqlarını isə yerə tuşlayır. Alim Mollanın bu cavabından da çox məmnun olur. Nəhayət, əcnəbi alim özünə işarə edib qarnını və əlləri ilə heyvanların yerişini göstərir. Molla Nəsrəddin də tez cibindən bir yumurta çıxarır, qollarını yuxarı qaldırıb quşların uçmasına işarə edir. Əcnəbi alim Mollanın qarşısında diz çöküb əlini öpür. Molla meydandan çıxıb gedir.

Teymurləng dilmanc vasitəsi ilə alimə müraciət edib soruşur:

– Biz sizin bu sual-cavabınızdan bir şey başa düşmədik. Məsələni bizə də anlatsaz yaxşı olar.

Səyyah alim deyir:

– Xilqət haqqındakı fikirlər cürbəcürdür. Bu barədə sizin alimlərin nə düşündüyünü öyrənmək istəyirdik. Onun üçün mən yerdə bir dairə çəkib dünyanın kürə şəklində olduğunu söylədim. Sizin alim də əvvəl bir xətt çəkib ekvatoru göstərdi. Sonra da dairəni dörd yerə bölüb üç hissəsinin su, bir hissəsinin quru olduğunu bildirdi. Mən ikinci sualımda bütün nəbatətin torpaqdan qidalandığını söylədim. Sizin alim isə məni başa saldı ki, yağış və günəşi də unutmaq olmaz. Sonra mən insanlar və heyvanlar haqqında onun fikrini bilmək istədim. O, quşları da mənim yadıma saldı.

Əcnəbi səyyah alimləri çox razılıqla yola saldıqdan sonra Mollanı çağırıb bu məsələni ondan soruşurlar. Molla deyir:

– Alim, alim. Mən də elə bildim o dərin bilikli bir adamdı. Sən demə qarınqulunun biri imiş. Əvvəl mənə bir məcməi göstərib dedi ki, bunun dolusu paxlava olsaydı mən yeyərdim. Mən də dedim ki, xeyr, elə şey yoxdur. İştahanı bir az saxla, mən də varam. Gördüm yox, hərif razı deyil. Onda mən də paxlavanı dörd yerə bölüb üçünü öz qabağıma çəkdim, bir pay da ona verdim. Gördü bir az o yan bu yan olsa onu da yeyəcəyəm, tez razılaşdı. Sonra da başladı ki, nə bilim, bir qazan plov olsaydı nə yeyərdim. Mən də dedim ki, üstünün qarası olsa mən səndən də çox yeyərəm. Ay canım belə də acgöz alim olar?! Səhərdən fikir vermişəm, hökmdarımızın süfrəsində day yemək qalmadı yedilər, indi də mənə deyir ki, bəs uzaq yoldan gəlmişəm, acam. Gedək sizə bir xörək bişirtdir yeyək. Mən də dedim ki, canınçün evimizdə bişməyə heç zadımız yoxdur. Vur-tut bir dənə yumurta idi, onu da arvad qaynadıb qoyub cibimə ki, özüm yeyəm.

Qulaq asanlar bu məsələnin hər iki tərəfindən razı qalıb güldülər.

İçini bayıra çeviriblər

Molla olan şəhərə başqa yerdən bir qonaq gəlir. Söhbət vaxtında qonaq şəhərin kənarındakı uca bir qayanı göstərib nə olduğunu soruşurdu. Molla Nəsrəddin deyir:

– Bu, bostan quyusudur.

Qonaq:

– Ay balam, biz görmüşük quyu yerin altında olar. Belə hündürlükdə bu necə quyudu?

Molla:

– Siz düz deyirsiz. Elə bu quyu da yerin altındadı. İndi təmizləyiblər, qurumaq üçün içini bayıra çeviriblər.

Bir xətt oxu görək

Bir nəfər uzaq yerdə yaşayan qohumundan məktub alır. Axtarıb Molla Nəsrəddini tapır və xahiş edir ki, bu məktubu oxusun. Molla baxıb görür ki, bu çox qarmaqarışıq bir yazıdır. Heç nə başa düşmək olmur. Odur ki, məktub sahibini başından eləmək üçün deyir:

– Əvvəla, mən farsı bilmirəm. Sonra, bu xətt türkcə də yazılsaydı oxuya bilməzdim.

Məktub sahibi hirslənir:

– Farsca bilmirsən, türkcə də oxuya bilmirsən onda bu yekəlikdə əmmaməni başına niyə qoymusan?

Molla:

– Əgər əmmamə ilədirsə, al qoy başına bir xətt oxu görüm.

Bizim nəslə vergidir

Mollanın paxlavadan çox xoşu gəlirmiş. Bunu bilən dostlarından biri Molla üçün məktəbə dolu qab paxlava göndərir. Paxlavanı elə vaxtda gətirirlər ki, Molla uşaqlara tapşırıq verib bir vacib iş üçün başqa yerə getmək istəyirmiş. Gedəndən sonra uşaqlar paxlavanı yeməsin deyə büküb rəfə qoyur və deyir:

– Uşaqlar, bu paxlavanı mənim düşmənlərimdən biri göndərib. Ona zəhər qatıb ki, mən ölüm. Bax, paxlavaya əl vurmayın ha, yoxsa hamınız qırılarsız.

Belə deyib Molla çəxıb deyir. Mollanın qardaşı oğlu da tələbələrin arasında imiş. O, burada bir hiylənin olduğunu başa düşür. Paxlava qabını rəfdən götürüb uşaqlara deyir ki, gəlin yeyəyin. Amma uşaqlar paxlavanın zəhərli olmasından qorxurlar. Mollanın qardaşı oğlu paxlavanı büsbütün yeyir. Sonra Mollanın ən çox sevdiyi lələkli qələmini sındırır qoyur qabağına. Molla qayıdanda görür ki, qələmi sınıb, qardaşı oğlu da hönkür-hönkür ağlayır. Əvvəl rəfə baxıb paxlava qabını yerində görüb bir az ürəyi sakit olur. Sonra qardaşı oğluna deyir:

– Gözümün işığı, niyə ağlayırsan. Bəs bu qələmi kim sındırıb?

Qardaşoğlu deyir:

– Əmi, səndən sonra qələmi götürdüm yazmağa. Qələm əlimdən düşdü sındı. Mən bilirəm ki, sən o qələmi çox sevirsən. Axı babamızdan sənə yadigar qalıb. Xəcalətimdən özümü öldürmək istədim. Əvvəl getdim ki, özümü quyuya atım. Sonra fikirləşdim ki, camaat bu quyudan su içir, onu murdarlamaq olmaz. Qayıdıb düşmənlərin göndərən paxlavanı yedim ki, həm özüm ölüm qurtarım, həm də sənin canını ölümdən qurtarım. İndi ağlaya-ağlaya ha gözləyirəm ki, ölüm, amma ölmürəm.

Bir yandan paxlavanın yeyilməsi, bir yandan da qələmin sınması Mollaya yaman əsər eləyir. Amma uşağın da fərasətini görüb deyir:

– Bala, səndə günah yoxdur. Bu hiyləgərlik bizim nəslə verilmiş bir vergidir.

Dördayaqlı olardın

Molla bir gün bir qaz bişirib Teymurləng üçün aparır. Yolda nəfsini saxlaya bilməyib qazın bir ayağını yeyir. Hədiyyəni təqdim edəndə Teymurləng baxıb görür ki, qazın bir ayağı yoxdur. Deyir:

– Molla, bu qazın bəs bir ayağı hanı?

– Bizim şəhərdə qazlar birayqlı olur. İnanmırsan pəncərədən bax, odur, qazlar bulaq üstədirlər, hamısı da bir ayaqlı.

Teymurləng görür ki, doğrudan da qazlar hamısı bir ayaq üstə durub özlərini günə verirlər.

Bu vaxt əsgərlərin toplaşması üçün sinc-təbil vurulur. Gurultudan hürkən qazlar qaçmağa başlayır.

Teymurləng:
– Molla, sən yalan danışırsan. Bax, qazlar hamısı iki ayaqlıdır ki...
Molla:
– Qibleyi-aləm, o səsdən sən hürksəydin, lap dördayaqlı olardın.

Mən yerin tapmışam

Bir gün Molla Nəsrəddin bir tar alıb evə gətirir. Yeyib-içməkdən sonra durub tarı götürür və pəncərənin qabağında oturub çalmağa başlayır. Mollanın arvadı görür ki, əri sağ əli mizrab vurur, sol əlinin barmaqlarını elə qoyub bir pərdənin üstünə tərpətmir ki, tərpətmir. Arvad deyir:
– A kişi, görmürsən tarın səsi yaxşı çıxmır. Başqaları sol əlinin barmaqlarını pərdələrin üstündə gəzdirdiklərindən yaxşı da hava alınır. Sən də elə elə.
Molla:
– Arvad, sən bilməzsən. Onlar pərdələrin üstündə ona görə barmaqların gəzdirirlər ki, axtarıb havaların yerin tapsınlar. Mən isə yerin tapmışam. Daha barmaqlarımı gəzdirməyə ehtiyac yoxdur.

"Əst"ləri görmürsünüz?

Bir məclisdə Mollaya deyirlər:
Yaxşı Mollasan, hayıf ki, farsca bilmirsən!
Molla:
– Siz mənim farsca danışmamağımı hardan bilirsiniz?
– İndi ki, bilirsən, farsca bir beyt oxu görək!
Molla:
– O böyüklükdə dəvənin boynu əyriəst,
Acı soğan qat-qat paltar geyərəst!
– Molla, bunun harası farsca oldu?
– Axırdakı "əst"ləri görmürsüz?!

Qələt yağ küpəsindədir

Molla Nəsrəddinin bir qazıya işi düşür. Rüşvətxor qazı Mollanın işini aylarla süründürür. Bu işin rüşvətsiz keçməyəcəyini başa düşən Molla gedib bazardan bir yekə yağ küpəsi alır. Küpəni evə gətirib qulplarına qədər sarı palçıqla doldurur. Sonra da üstünə iki barmaq qalınlığında kərə yağı töküb aparır qazı üçün. Qazı yağı görüncə hayıl-mayıl olur. Tez Mollanın istədiyi kağızı yazıb verir. Mollanı xoş-on beşlə yola salandan sonra qazı gətirib yağ küpəsini boşaltmağa başlayır. Bir barmaq, iki barmaq, bir

də qazı görür nə... küpə sarı palçıqla doldurulub. Hirs vurur kəlləsinə. Tez Mollanın arxasınca adam göndərir. Molla bir söz deməyib asta-asta gəlir qazının yanına. Mollanı görən qazı sir-sifətini bozardır, hirsli-hirsli deyir:

– Molla, o kağızı bəri ver, orada bir qələt olub. Onu düzəldim apar.

Molla deyir:

– Zəhməq çəkmə, mən kağıza baxmışam, lap düpbədüz yazılıb. Deyəsən, qələt yağ küpəsindədir.

İnşallah

Molla bir gün bazara gedir ki, ev üçün ayın-oyun alsın. Yolda tanışlarından birinə rast gəlir. O soruşur:

– Molla, səhər tezdən hara belə?

Molla:

– Bazara gedirəm.

Tanışı:

– Nə var? Xeyir ola...

Molla deyir:

– Gedirəm ev üçün bir az ayın-oyun, yer-yemiş alım.

Tanışı deyir:

– Molla, inşallah de!

Molla:

– Pulum cibimdə, ağlım başımda. Daha buna nə inşallah?

Molla bazara girib bu mala baxır, o mala baxır, əlin cibinə salır ki, pul çıxarsın, görür cibi bomboşdur. Sən demə elə bazarın qapısındaca oğrular Molłanın pulunu oğurlayıblarmış. Molla kor-peşman qayıdır geri. Yenə elə düz həmin ki, yerdə bayaq söhbət etdiyi tanışı ilə qarşılaşır. O, Mollaya deyir:

– Molla, bazarlıq etdinmi?

Molla:

– Edə bilmədim, inşallah! Pullarımı oğurladılar, inşallah! Səhər-səhər sənə rast gələndə mənim qıçım sınaydı, inşallah! Sənin bəd ağzın qurusun, inşallah...

Gör necə möhkəm dişləri var

Molla uşaq olanda atası onu bazara bişmiş kəllə almağa göndərir. Molla gedib kəlləni alır, amma yolda tamahını saxlaya bilməyib kəllənin ətini büsbütün yeyir. Quru sümüyü gətirir evə. Atası kəlləni belə görüb soruşur:

– Ay oğul, bu ki, qupquru sümükdür?

– Hə də, ata, görünür yazıq çox arıq imiş.

– Bəs kəllənin dərisi hanı?
– Əvvəldən keçəl olub da.
– Bəs qulaqları?
– Vay-vay, yazıq dana, sən demə həm də kar olub.
– Bəs gözləri?
– Kor olub da.
– Ağzında da dili yoxdur ki?
– Görünür lal imiş də.

Ata görür ki, oğlu hər suala cavab tapır, daha danışmır. Atasının susduğunu görən Molla deyir:

– Ata, bəs kəllənin dişlərini niyə soruşmursan. Bir bax, gör necə möhkəm dişləri var. Biri də düşməyib.

Sən peyğəmbərliyə də qəbul etmirsən?

Molla Nəsrəddin nə qədər əlləşirsə də, əlinə bir qazanc gəlmir ki, ev üçün ayın-oyun, yer-yemiş alsın. Durub gəlir Əmir Teymurun yanına, deyir:

– Ey mənim hökmdarım, mənə yüz iyirmi dörd min peyğəmbərin adına yüz iyirmi dörd min dinar ver.

Əmir Teymur o saat vəzirinə deyir:

– Mən peyğəmbərlərə həmişə hörmət bəsləmişəm, Molla onların adına pul istəyib. Onların adına açılan əli geri qaytarmaq olmaz, Mollanın istədiyi pulu gətirin verin.

Vəzir:

– Pul çox istənilib. Bu qədər pulu versək xəzinəyə böyük ziyan dəyər.

Əmir Teymur:

– Mən hökm vermişəm. Daha hökmümü dəyişməyəcəyəm ki!

Vəzir:

– Mən bir tədbir tapmışam. Razı olsan elə edərik.

Əmir Teymur:

– De görüm o nə tədbirdir?

Vəzir:

– Molla peyğəmbərlərin adını bir-bir saysın. Sən hər ada bir dinar ver.

Əmir Teymur vəzirin bu tədbirini bəyənib Mollanı çağırır:

– Molla, peyğəmbərlərin adını bir-bir zikr et, hər birinin adına bir dinar verəcəyəm.

Molla o saat başlayır peyğəmbərlərin adıdı saymağa. İyirmisinin adını deyib iyirmi dinar alır. Sonra ha fikirləşirsə bir peyğəmbər adı yadına düşmür. Amma özünü itirməyib davam edir: Nəmrud, Firon, Zöhhak, Şəddad. Bu yerdə Əmir Teymur Mollanı dayandırıb deyir:

– Əstəğfürüllah, Molla, bunlar məlunlardır. Onlara peyğəmbər demək olmaz.

Molla:

– Əstəğfürüllah! Bunlar Allahlıq iddiasında idilər, sən peyğəmbərliyə də qəbul etmirsən?!

Utandığımdan üzümü örtürəm

Molla bir gün görür ki, bir həkim qəbiristanlığın yanından keçəndə üzünü örtür. Ona yanaşıb soruşur:

– Həkim, buradan keçəndə üzünü niyə örtürsən?

Həkim:

– Torpaq altında yatan bu yazıqların halına o qədər acıyıram ki, onlara baxa-baxa keçə bilmirəm. Üzümü örtürəm ki, nə bu qəbirləri görüm, nə də ürəyim ağrısın.

Molla:

– Elə demə, həkim. De ki, bunlar hamısı mənim yanlış dərmanlarım səbəbinə ölüb. İndi də utandığımdan üzümü örtürəm.

Sabah

Molla yenə də bir tacirə borclu olur. Nə qədər əlləşib-vuruşursa, borcu qaytara bilmir. Tacir hər dəfə pulun dalınca gələndə Molla deyir:

– Bu gün yoxumdu, sabah gəl!

Bir gün yenə də tacir pulun dalınca gələndə Molla özü evdə olmur. Tacir Mollanın oğlunu tapıb soruşur:

– Sənin bu atan mənim pulumu verəcək, ya yox?

Mollanın oğlu deyir:

– Niyə vermir? Bütün dünya-aləm bilir ki, mənim atam borc danan deyil. Ancaq iş belə düşüb ki, əli bir az aşağıdır.

Tacir hirslənir ki:

– Verəcək, verəcək!.. Bəs nə vaxt verəcək?

Mollanın oğlu deyir:

– Bax, o qapımızdakı qara daşı görürsən? O daş çiçək açanda zəhmət çək, gəl, pulunu apar!

Tacir Mollanı da, oğlunu da söyə-söyə çıxıb gedir. Bir azdan sonra Molla evə gəlir. Oğlu əhvalatı ona danışıb deyir:

– Daha arxayın ola bilərsən. Çünki nə daş çiçək açacaq, nə də tacir pulun dalınca gələcək.

Molla bir az fikirləşib deyir:

– Nahaq yerə belə aydın vaxt qoymusan. Daşdı, kefi istədi, günün birində çiçək açdı, tacir də buyurub gəldi. Pulu hardan tapıb verəcəyik? Belə işlərdə ən yaxşısı budur ki, deyəsən "sabah gəl!", çünki nə qədər ki, bu dünya var, bir o qədər də sabah var.

Açar deşiyi

Molla Nəsrəddın hələ mədrəsədə oxuduğu günlərin birində müəllim ondan soruşur:

– Dərsini bilirsənmi?

– Bəli, bilirəm.

– De görüm cisim nədir?

– Dünyada olan bütün cisimlərə cisim deyirlər.

Müəllim görür ki, Nəsərddin dərsi bilmir. Ancaq müəllim ona yaxşıca bələd imiş, bilirmiş ki, bilmədiyini onun boynuna qoymaq çətin işdir. Odur ki, qəsdən soruşur:

– Yaxşı, cismin xasiyyəti necə olur?

Nəsrəddin deyir:

– Dünyada olan bütün cisimlər cisim xasiyyətində olur.

Müəllim soruşur:

– Yaxşı... Bəs rəngi necə olur?

Nəsrəddin cavab verir:

– Elə hamısı bir rəngdə olur.

Müəllim:

– Yəni?

Nəsrəddin:

– Yəni cisim rəngində.

Müəllim baxır ki, onu belə tutmaq olmayacaq. Bir sual da verir:

– Yaxşı, bəs şəffaf cisim necə olur?

– Şəffaf olur.

Müəllim dərsi bilmədiyini onun boynuna qoymaq üçün qəsdən kömək edərək deyir:

– Yəni bu tərəfindən baxanda o tərəfindən işıq görünür, eləmi?

Nəsrəddin deyr:

– Bəli... Lap dyz deyirsiniz. Bu tərəfindən baxanda o tərəfindən işıq görünür, özü də lap aydın.

– Yaxşı, bir misal de görüm!

Nəsrəddin deyir:

– Açar deşiyi.

Məsdər

Yenə də mədrəsədə oxuduğu günlərin birində müəllim Molla Nəsrəddindən soruşur:

– De görüm, nəsr kəlmənin hansı halıdır?

Molla deyir:

– Məsdər halı.

Müəllim hirsəlnir ki:

– Niyə dərsini bilmirsən?

Nəsrəddin başlayırn kəkələməyə ki:

– Müəllim, vallah, axtarsan bilirəm, ancaq belə...

Müəllim soruşur:

– Nə ancaq belə?

Nəsrəddin deyir:

– Axır desəm ki, mazidi, işi olacaq uzun. Zəhrimar birdəfəlik qurtarmır ki... Məlumu var, məchulu var, müsbəti var, mənfisi var, müzəkkəri var, müənnisi var, təki var, cəmi var. Məsdərdə bunların heç birisi yoxdur. Ona görə də onu deyirəm ki, məsələni çox uzadıb, başını ağrıtmayım.

DASTANLAR

QƏHRƏMANLIQ DASTANLARI

"KİTABİ-DƏDƏ QORQUD"DAN

Dirsə xan oğlu Buğac xan boyu

Bir gün Qam Ğan oğlu Bayındır xan yerindən durmuşdu. Şanı günlüyünü yer üzündə qurdurmuşdu. Hündür alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalça döşənmişdi...

Xanlar xanı Bayandır xan ildə bir dəfə şadlıq edib, oğuz bəylərini qonaq edərdi. Yenə şadlıq məclisi qurub, atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq qurdurmuşdu. "Kimin oğlu-qızı yoxdursa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasından gətirin. Yeyir – yesin, yemirsə – dursun getsin" demişdi. "Oğlu olanı ağ otağa, qızı olanı qırmızı otağa yerləşdirin. Oğlu qızı olmayanı allah qarğayıb, biz də qarğayarıq; qoy bilsin" demişdi.

Oğuz bəyləri bir-bir gəlib yığılmağa başladılar. Dirsə xan deyilən bir bəyin oğlu-qızı yox idi. Ozan soylamış, görək, xanım, nə soylamışdır:

Salxım-salxım dan yelləri əsdikdə,
Saqqallı, bozac torağay ötdükdə,
Saqqalı uzun tat kişi azan çəkəndə,
Bədəvi atlar yiyəsini görüb kişnədikdə,
Ağlı, qaralı seçilən çağda,
Köksü gözəl qaya dağlara gün dəyəndə,
İgid bəylər, pəhləvanlar bir-birilə güləşəndə

Dirsəxan sübh tezdən qalxıb, yerindən durdu; qırx igidini dəstəsinə qatıb Bayındır xanın məclisinə gəldi.

Bayındır xanın igidləri Dirsə xanı qarşıladılar, gətirib qara otaqda oturtdular, qara keçə altına döşədilər, qara qoyun qovurmasından önünə gətirdilər. "Bayındır, xanın əmri belədir, xanım!" dedilər. Dirsə xan deyir: "Bayındır xan mənim hansı əksikliyimi gördü? Qılıncımdanmı gördü,

süfrəmdənmi gördü? Məndən əksik kişiləri ağ otaqda, qarmızı otaqda oturtdu. Mənim günahım nə oldu ki, qara otağa yerləşdirdi?"

Dedilər: "Xanım, bu gün Bayındır xandan buyruq belədir ki, oğlu-qızı olmayanı allah qarğayıbdır; biz də qarğayırıq".

Dirsə xan yerindən qalxdı: "İgidlərim, qalxıb yerinizdən durun! Bu böyük eyib mənə ya məndən, ya arvaddandır", – dedi.

Dirsə xan evinə gəldi. Çağırıb qadınını soylayır, görək xanım, nə soylayır.

Soylama. Deyir:

Bəri gəl, başımın baxtı, evimin taxtı!
Evdən çıxıb yeriyəndə sərv boylum!
Topuğuna sarmaşanda qara saçlım!
Qurulmuş yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan dar ağızlım!
Payız almasına bənzər al yanaqlım!
Qadınım, dayağım, döl verənim!
Görürsənmi nələr oldu?

Bayındır xan qalxıb yerindən durmuş, bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq tikdirmişdir. "Oğulluları ağ otaqda, qızlını qırmızı otaqda, oğlu-qızı olmayanı qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasını gətirin; yeyir – yesin; yemirsə – dursun getsin. Bir adamın ki, oğlu-qızı olmaya, onu allah qarğayıbdır, biz də qarğayırıq" demişdir.

Gəlib qarşıladılar, qara otaqda oturtdular, qara qoyun ətindən qovurmanı önumə gətirdilər. "Oğlu-qızı olmayanı allah qarğayıbdır, bil ki, biz də qarğayırıq" – dedilər. "Səndənmidir, məndənmidir, nədəndir allah bizə bir yetkin oğul vermir?" – dedi. Soyladı:

Xan qızı, yerimdən durummu?
Yaxandan-boğazından tutummu?
Qaba dizimin altına salımmı
Böyük, iti, polad qılıncımı əlimə alımmı?
Öz gövdəndən başını kəsimmi?
Can şirinliyini sənə bildirimmi?
Alca qanın yer üzünə tökümmü?
Xan qızı, səbəbi nədir, de mənə!
Qatı cəza verərəm indi sənə!– dedi.

Dirsə xanın qadını soylamış, görək nə soylamışdır:

Ay Dirsə xan, mənə qəzəblənmə!
İnciyib acı sözlər söyləmə!
Yerindən qalx, ayağa dur,
Yer üzündə böyük çadır qur!

Ayğır, buğra, qoç qırdır!
İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığ!
Ac körsən, doydur; çılpaq görsən, geyindir!
Borclunu borcundan qurtar!
Təpə kimi ət yığ, göl kimi qımız sağdır!
Böyuk şadlıq məclisi qur, allahdan arzunu dilə!
Bəlkə bir ağzı dualının alqışı ilə
Tanrı bizə bir yetkin övlad verə, – dedi.

Dirsə xan arvadının sözü ilə böyük məclis qurdurdu, alahdan istəyini dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç oğuz, Daş oğuz bəylərini ora topladı. Ac gördüsə, doydurdu. Yalın gördüsə, geyindirdi. Borclunu borcundan qurtardı. Təpə kimi ət yığdı. Göl kimi qımız sağdırdı. Əl götürüb arzularını dilədilər. Allah bir ağzı dualının alqışı ilə övlad verdi. Arvadı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan doğdu. Oğlancığı dayələrə verdi, saxlatdı...

At ayağı iti, ozan dili çevik olur.Yiyəsi olan yekəlir, qabırğalı böyüyür. Oğlan on beş yaşına girdi. Oğlanın atası köçüb Bayındır xanın adamlarına qarışdı.

Deyilənə görə, Bayındır xanın bir buğası və bir də buğrası vardı. O buğa bərk daşa buynuz vursa, un kimi üyüdərdi. Bir yazda, bir də payızda buğa ilə buğranı savaşdırırdılar. Bayındır xan Qalın oğuz bəyləri ilə tamaşa baxır, əylənirdi.

Bir dəfə, sultanım, yenə yazda buğanı saraydan çıxardılar. Dəmir zəncirli buğanı üç kişi sağdan, üç kişi də sol yandan tutmuşdu. Gəlib meydanın ortasında qoyub getdilər. Bu vaxt Dirsə xanın oğlu üç uşaqla meydanda "aşıq-aşıq" oynayırdı. Buğanı qoyub gedəndə oğlanlara "qaç" dedilər. Oğlanların üçü qaçdı, Dirsə xanın oğlu qaçmadı. Hündür meydanın ortasında durdu-baxdı. Buğa da hücum edib oğlana sarı gəldi. İstədi ki, oğlanı həlak etsin. Oğlan buğanın alnına çəpəki bir zərbə vurdu. Buğa dalı-dalı getdi, geri qayıdıb oğlana hücum etdi. Oğlan yenə buğanın alnına möhkəm bir yumruq vurdu; bu dəfə buğanın alnına yumruğunu dayadı, itəliyib meydanın başına çıxardı.

Oğlanla buğa xeyli çəkişdilər. Buğanın iki kürəyi üstündə köpük durdu. Nə oğlan, nə də buğa üstün gəlirdi. Oğlan fikirləşib öz-özünə dedi : "Bir dama dirək vururlar, o dama dayaq olur. Mən niyə bunun alnına dayaq olub dururam?" Yumruğunu buğanın alnından çəkib, yolundan atıldı. Buğa ayaq üstündə dura bilmədi, yıxıldı; təpəsi üstə düşdü. Oğlan bıçağına əl atdı. Buğanın başını kəsdi.

Oğuz bəyləri gəlib, oğlanın başına toplaşdılar, əhsən dedilər. "Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun; özüylə götürüb, atasının yanına getsin. Atasından oğlana bəylik istəsin, təxt alıb versin", – dedilər.

Çağırdılar, Dədə Qorqud gəldi. Oğlanı götürüb atasının yanına getdi. Dədə Qorqud oğlanın atasına soylamış, görək, xanım, nə soylamış – demişdir:

Hey Dirsə xan! Oğlana bəylik ver,
Taxt ver, – güclüdür, ərdəmlidir!
Boynu uzun bədəvi at ver,
Qoy minsin, hünərlidir!
Yaylağından on qoyun ver,
Bu oğlana şişlik olsun, cüssəlidir!
Qaytabandan qızılı dəvə ver bu oğlana,
Qoy yükləsin, hünərlidir!
Qızıl tağlı hündür ev ver bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çiyni quşlu cübbə – don ver sən bu oğlana,
Qoy geynisin, hünərlidir!

Bu oğlan Bayındır xanın uca meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüşdür, qoy adı "Buğac" olsun. Adını mən verdim, yaşını allah versin, – dedi.

Dirsə xan oğlana bəylik verdi, taxt verdi. Oğlan taxta çıxdı, atasının qırx igidini unutdu. O qırx igid həsəd apardı, kin saxladı. Bir-birinə söylədilər "Gəlin, oğlanı atasının gözündən salaq. Bəlkə atası onu öldürə, hörmətimiz onun atası yanında yenə xoş ola, artıq ola", – dedilər.

Bu qırx igidin iyirmisi bir yana, iyirmisi də o biri yana getdi. Əvvəlcə iyirmisi gedib Dirsə xana bu xəbəri gətirdi: " Görürsənmi, Dirsə xan nələr oldu? Yarımasın sənin oğlun, nankor və fərsiz çıxdı. Qırx igidini dəstəsinə qatıb, Qalın Oğuzun üstünə yürüş etdi. Harada gözəl vardısa, çəkib aldı. Ağ saqqallı qocanın ağzına, ağ birçəkli qarının südünə söydü. Axan duru sulardan, çılpaq yatan Ala dağdan söz-sov adlayıb keçər, xanlar xanı Bayındıra xəbər çatar. "Dirsə xanın oğlu belə yaramaz işlər görüb" desələr, yer üzündə gəzməyindən ölməyin yaxşı olar. Bayındır xan səni çağırar, sənə ağır cəza verər. Belə oğul sənin nəyinə gərəkdir? Belə dedikdə, xanım, o namərdlərin iyirmisi də gəlib çıxdı və bir iftira da onlar gətirdilər. Dedilər: "Dirsə xan, sənin oğlun qalxıb yerindən durdu, köksü gözəl böyük dağa ova çıxdı. Sən var ikən ov ovladı, quş vurdu. Anasının yanına götürüb gəldi. Al şərabın tündünü aldı içdi. Anası ilə dilbir olub, atasına qəsd etmək istəyir. Sənin oğlun nankor çıxdı. Çılpaq yatan Ala dağdan ötüb, xanlar xanı Bayındıra xəbər çatar. "Dirsə xanın oğlu belə yaramaz işlər görüb" deyərlər. Səni çağırdarlar, Bayındır xanın yanında sənə cəza verərlər. Belə oğul nəyinə gərəkdir? Öldürsənə!" – dedilər.

Dirsə xan dedi: "Gedin, gətirin öldürüm! Belə oğul mənə gərək deyil!"

Dirsə xanın nökərləri deyir: "Biz sənin oğlunu necə gətirək? Sənin oğlun bizim sözümüzü dinləməz, bizim sözümüzlə gəlməz. Qalxıb yerindən dur. İgidlərini oxşayıb başına yığ; oğlunla görüş, yanına alıb ova çıx. Quş uçurub ov ovlayanda oğlunu oxlayıb öldür! Əgər belə öldürməsən, bil ki, başqa cür öldürə bilməzsən!"

Soylama:

Salxım-salxım dan yelləri əsdikdə,
Saqqallı, bozac torağay ötdükdə,
Bədəvi atlar yiyəsini görüb kişnədikdə,
Saqqalı uzun tat kişi azan çəkəndə,
Ağlı, qaralı seçilən çağda,
Qalın oğuzun gəlini-qızı bəzənən çağda,
Köksü gözəl böyük dağlara gün dəyəndə
İgid bəylər, qəhrəmanlar bir-birilə döyüşəndə...

Dirsə xan sübh tezdən yerindən durdu. Oğlunu yanına salıb, öz qırx igidinin dəstəsinə qoşdu, ova çıxdı. Ov ovladılar, quş vurdular. O qırx namərdin bir neçəsi oğlanın yanına gəlib deyir: "Atan dedi, keyikləri qovub gətirsin, mənim qarşımda toplasın; oğlumun at səyirtməyini, qılınc çalmağını, ox atmağını görüm, sevinim, öyünüm!"

Oğlan cavandır, nə bilsin? Keyiki qovub gətirir, atasının qarşısında qacıqlandırıb-acıqlandırırdı ki, "Atam at çapmağıma baxsın-öyünsün; ox atmağıma baxsın – fərəhlənsin; qılınc çalmağıma baxsın – sevinsin!"

O qırx namərd isə deyir: "Dirsə xan, görürsənmi, oğlanı? Çöldən-düzdən keyiki qovur, sənin qabağına gətirir ki, keyikə atarkən oxla səni vurub öldürsün. Oğlun səni öldürməmiş sən oğlunu öldür!" Oğlan keyiki qovarkən atasının önündən gəlib-gedirdi.Dirsə xan Qorqud sinirli bərk yayını əlinə aldı. Üzəngiyə qalxıb möhkəm çəkdi, sərrast atdı: oğlanı iki kürəyinin arasından vurub yıxdı. Ox yarasından oğlanın qanı şoruldadı, qoynuna doldu. O, bədəvi atının boynunu qucaqlayıb yerə yıxıldı.

Dirsə kövrəlib oğlunun üstünə atılmaq istədi. O qırx namərd qoymadı. Atının cilovun döndərib qərargahına gəldi.

Dirsə xanın arvadı "oğlancığımın ilk ovudur" deyə atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. "Ovu qanlı oğuz bəylərini yedirim-içirim, sevindirim" dedi. Özünü yığışdırıb yerindən cəld durdu. Qırx incə qızı da özü ilə götürdü. Dirsə xana tərəf getdi. Qapaq qaldırdı. Dirsə xanın üzünə baxdı. Sağına-soluna göz gəzdirdi, oğlunu görmədi. Qara bağrı sarsıldı. Ürəyi tamam yerindən oynadı. Qara qıyma gözləri qan yaşla doldu. Çağırıb Dirsə xana soylayır, görək, xanım, nə soylayır:

Başımın baxtı, evimin taxtı, bəri gəl!
Xan atamın kürəkəni
Xanım anamın seviləni
Atam-anam verdiyi,
Göz açaraq gördüyüm,
Könül verib sevdiyim, a Dirsə xan!
Qalxıb yerindən durdun,
Qara yallı gözəl Qazlıq atını mindin.
Köksü gözəl böyük dağa ova çıxdın.

İki getdin, bir gəlirsən, balam hanı?
Qara dövranda tapdığım oğul hanı?
Çıxsın mənim bu kor gözüm, a Dirsə xan, yaman səyriyir.
Kəsilsin oğlun əmən süd damarım, yaman sızlayır.
Sarı ilan sancmadan ağca bədənim qalxıb şişir.
Tək, bircə oğlum görünmür, bağrım yanır.
Quru-quru çaylara suçu saldım.
Qara donlu dərvişlərə nəzirlər verdim.
Ac gördüm, – doyurdum; yalın gördüm, – geyindirdim.
Təpə kimi ət yığdım, göl kimi qımız sağdırdım.
Arzu – diləklə bir oğul güclə tapdım.
Yalnız oğlumun xəbərini, a Dirsə xan, de mənə!
Qarşıdakı Ala dağdan bir oğul uçurdunsa, de mənə!
İti axan coşğun sudan axıtdınsa, de mənə!
Aslana-qaplana oğlumu yedirtdinsə, de mənə!
Qara donlu, azğın dinli kafirlərə tutdurdunsa, de mənə!
Xan atamın yanına mən gedim,
Ağır xəzinə, çoxlu qoşun alım,
Azğın dinli kafir üstünə gedim,
Yaralanıb Qazlıq atımdan enməyincə,
Ətəyimlə al qanımı silməyincə,
Qol-bud olub yer üstünə düşməyincə
Tək oğlumun yolundan mən dönməram.
Yalnız oğul xəbərini, a Dirsə xan, de mənə!
Qara başım qurban olsun bu gün sənə! – dedi,

Zarıldayıb ağladı.

Arvadı belə danışanda Dirsə xan cavab vermədi. O qırx nəmard qabağa gələrək dedi : "Oğlun sağ-salamatdır, ovdadır. Bu gün-sabah harda isə gələr. Qorxma, qayğılanma, bəy sərxoşdur, cavab verə bilmir".

Dirsə xanın arvadı qayıdıb geri döndü. Dözmədi, qırx incə qızı özü ilə götürüb. Bədəvi ata mindi, oğlunu axtarmağa getdi. Qışda-yazda qarı buzu əriməyən Qazlıq dağına gəldi çıxdı. Alçaq yerləri gəzdi, çapıb uca yerlərə çıxdı. Baxdı gördü ki, bir dərənin içində qarğa-quzğun enir-çıxır, qonur-qalxır. Bədəvi atını sürüb, o tərəfə çapdı.

Sən demə, sultanım, oğlan o arada yıxılıbmış. Qarğa-quzğun qan görüb, oğlanın üstünə qonmaq istəyirdi. Oğlanın iki ov iti vardı, qarğa-quzğunu qovurdu, qonmağa qoymurdu. Oğlan orada yıxılanda Boz atlı Xızır oğlanın yanında hazır oldu. Üç dəfə yarasını əliylə sığallayıb: "Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə anının südü sənin yarana məlhəmdir" – deyib yox oldu.

Oğlanın anası çapıb, oğlanı olduğu yerə gəlib çıxdı. Baxdı-gördü oğlu al qanına bulaşıb yatır. Çağıraraq oğlancığını soylayır, görək, xanım, necə soylayır:

Qara qıyma gözlərini yuxu almışdır, aç daha!
O uzanmış qol-qaçını yığışdır daha!
Tanrı verən şirin cana gəldin daha.
Üz-gözündə can qalıbsa, oğul, xəbər ver mənə!
Qara başım qurban olsun, oğul, sənə!...
Niyə axır sənin suların, Qazlıq dağı,
Belə axmaqdansa, heç axmasın!
Niyə bitir sənin otların, Qazlıq dağı,
Belə bitməkdənsə, heç bitməsin!
Keyiklərin qaçar sənin, Qazlıq dağı,
Qaçar ikən qaçmaz olsun, daşa dönsün!
Nə bilim, oğul, aslandan, yoxsa, qaplandan oldu?
Nə bilim, oğul, bu qəza sənə haradan oldu?
Bədənində canın varsa, xəbər ver, oğul,
Qara başım qurban olsun, oğul, sənə!
Ağız-dildən bir neçə söz, xəbər mənə!

Belə dedikdə oğlanın qulağına səs dəydi. O, başını qaldırdı, azacıq gözünü açdı. Anasının üzünə baxdı. Soylamış, görək, xanım, nə soylamışdır:

Bəri gəl, ağ südünü əmdiyim, xanım ana!
Ağ birçəkli, hörmətli, canım ana!
"Axar sular deyib qarğama,
Qazlıq dağının sularının günahı yoxdur.
Qaçan keyiklərini qarğama,
Qazlığ dağının günahı yoxdur.
Aslanını, qaplanını qarğama,
Qazlığ dağının günahı yoxdur.
Qarğayırsan, atamı qarğa,
Bu suç, bu günah atamındır, – dedi

Oğlan yenə dedi: "Ana, ağlama; qorxma, bu yaradan mənə ölüm yoxdur. Boz atlı Xızır yanıma gəldi, üç dəfə yaramı sığadı. "Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi ilə anan südü sənə dərmandır", – dedi".

Oğlan belə dedikdə qırx incə qız yayılıb, dağ çiçəyi topladı. Oğlanın anası əmcəyini bir sıxdı, südü gəlmədi. İki sıxdı, südü gəlmədi. Üçüncüdə özünə bir zərbə vurdu, sıxdı, südlə qan qarışıq gəldi. Dağ çiçəyi ilə südü oğlanın yarasına çəkdilər. Oğlanı ata mindirdilər, götürüb evə gətirdilər. Oğlanı həkimlərə tapşırıb Dirsə xandan gizlətdilər.

At ayağı iti, ozan dili çevik olur, xanım! Oğlanın yarası qırx gündə sağaldı, sap-sağlam oldu. Oğlan ata minir, qılınc qurşanırdı. Ov ovlayır, quş vururdu. Dirsə xanın isə xəbəri yox idi. Oğlunu ölmüş bilirdi.

O qırx namərd bunu duydu. "Nə eyləyək?" deyə düşündülər. "Dirsə xan oğlunu görərsə, oturmaz, hamımızı qırar", – dedilər. "Gəlin, Dirsə xa-

nı tutaq, ağ əllərini ardına bağlayaq, ağ boynuna qıl sicim taxaq, götürüb kafir ellərinə gedək" – deyə Dirsə xanı tutdular, ağ əllərini ardına bağladılar, boynuna qıl sicim taxdılar, ağ ətindən qan çıxınca döydülər. Dirsə xan piyada, bunlar atlı getdilər, qalın kafir ellərinə yönəldilər. Dirsə xan dustaq oldu – getdi. Onun dustaqlığından oğuz bəylərinin xəbəri yox idi.

Sən demə, sultanım, Dirsə xanın arvadı bunu duyubmuş; oğlunun qarşısına gedib soylamış, görək, xanım, nə soylayıb demişdir:

Görürsənmi, ay oğul, nələr oldu?!
Sərt qayalar oynamadı, yer ovuldu.
Eldə düşmən yoxkən atanın üstünə düşmən gəldi.
Atanın o qırx namərd yoldaşı onu tutdu.
Ağ əllərini ardına bağladılar.
Ağ boynuna qıl sicim taxdılar.
Özləri atlı, atanı piyadə yeritdilər.
Alıb uzaq kafir ellərinə yönəldilər.
Xan oğlum! Qalxıb yerindən ayağa dur!
Qırx igidini dəstənə qat!
Atanı o qırx namərddən qurtar!
Yeri, oğul!
Atan sənə qıydısa da, sən atana qıyma! – dedi.

Oğlan anasının sözünü sındırmadı. Buğac bəy yerindən durdu. Böyük, iti polad qılıncını belinə qurşadı. Ağ tozluca bərk yayını əlinə aldı. Qızıl nizəsini əlinə götürdü. Gözəl bədəvi atın tutdurub mindi. Qırx igidini yanına alıb, atasının ardınca çapıb getdi.

O namərdlər də bir yerdə dayanıb dincəlirdilər. Al şərabın tündündən içirdilər. Buğac xan çapıb yetişdi. O qırx namərd onu götürüb dedi : "Gəlin, gedək, o igidi tutaq gətirək. İkisini bir yerdə kafirə yetirək". Dirsə xan dedi: " Qırx yoldaşım, aman verin! Tanrının birliyinə şübhə yoxdur. Mənim əllərimi açın, qolça qopuzumu verin, o igidi geri döndərim. Sonra məni ya öldürün, ya da diri aparın".

Əllərini açdılar, qolça qopuzunu verdilər. Dirsə xan, oğlu olduğunu bilmədi, qarşıya gəlib soylayır, görək, xanım, nə soylayır:

Boynu uzun bədəvi atlar gedirsə, mənimki gedir,
İçində sənin də mindiyin varsa, igid, de mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Yaylaqdan on min qoyun gedirsə, mənimki gedir,
İçində sənin də şişliyin varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alım verim, qayıt geri!
Qaytabandan qızılı dəvə gedirsə, mənimki gedir,
İçində sənin də yüklədiyin varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qıyıt geri!

Qızıl tağlı uca evlər gedirsə, mənimki gedir,
İçində sənin də otağın varsa, igid, söylə mənə.
Savaşmadan-vuruşmadan alıb verim, qıyıt geri!
Ağ üzlü, ala gözlü gəlinlər gedirsə, mənimki gedir,
İçində sənin də nişanlın varsa, igid, söylə mənə.
Savaşmadan-vuruşmadan alıb verim, qıyıt geri!
Ağ saqqallı qocalar gedirsə, mənimki gedir,
İçində sənin də ağ saqqallı atan varsa, de mənə,
Savaşmadan-vuruşmadan xilas edim, qıyıt geri!

Oğlan burada atasına soylamış, görək nə soylamışdır:

Boynu uzun bədəvi atlar gedirsə, səninki gedir;
Mənim də içində mindiyim var
Qırx namərdə qoymaram!
Qaytabandan qızılı dəvə səninki gedir,
Mənim də içində yüklədiyim var,
Qırx namərdə qoymaram!
Yaylaqdan gedən min-min qoyun səninkidir,
Mənim də içində şişliyim var,
Qırx namərdə qoymaram!
Sənin ağ üzlü, ala gözlü gəlinlərin gedirsə,
İçində mənim də nişanlım var,
Qırx namərdə qoymaram!
Qızıl tağlı uca evlərin gedirsə,
İçində mənim də otağım var,
Qırx namərdə qoymaram!
Sənin ağ saqqallı qocaların gedirsə,
İçində mənim də bir ağlı çaşmış,
Başı itmiş qoca atam var,
Qırx namərdə qoymaram! – dedi.

Qırx igidinə çalmasını yellədi, əl eylədi. Qırx igid bədəvi atını oynatdı, oğlanın yanına yığıldı.

Oğlan qırx igidini götürüb, atını irəli sürdü, vuruşdu, döyüşdü. Kiminin boynunu vurdu, kimini dustaq etdi. Atasını xilas edib qayıtdı, geri döndü.

Dirsə xan burada oğlunun sağ olduğunu bildi. Xanlar xanı, oğlana bəylik verdi, taxt verdi. Dədəm Qorqud boy boyladı, soy soyladı, bu oğuznaməni düzdü-qoşdu, belə dedi:

Onlar da bu dunyadan gəldi, keçdi.
Karvan kimi qondu, köçdü.
Onları da yer gizlədi, əcəl aldı.
Fani dünya yenə qaldı...

Qara ölüm gəldikdə keçid versin.
Sağlıqla dövlətini allah artırsın.
O öydüyüm uca tanrı yar olub yardım etsin.
Xeyir-dua verək, xanım:
Yerli böyük dağların yıxılmasın!
Kölgəlicə uca ağacın kəsilməsin!
Coşğun axan gözəl suyun qurumasın!
Qanadlarının ucları qırılmasın!
Çaparkən ağ-boz atın büdrəməsin!
Döyüşəndə böyük, iti polad qılıncın ködəlməsin!
Vuruşarkən uzun nizən əyilməsin!
Ağ birçəkli ananın yeri behişt olsun!
Ağ saqqallı atanın yeri cənnət olsun!
Haq yandıran çırağın daim yansın!
Qadir tanrı səni namərdə möhtac eyləməsin,
Xanım hey!..

Salur Qazanın evinin yağmalandığı boy

Bir gün Tüklü quşun balası, yazıqların ümidi, Amit soyunun aslanı, Qaracığın qaplanı, Qonur atın yiyəsi, Uruz xanın ağası, Bayındır xanın kürəkəni, Qalın oğuzun dayağı, igidlərin arxası Ulaş oğlu Salur Qazan yerindən durmuşdu. Doxsan otaqlı uca evlərini qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək xalı döşətdirmişdi. Səksən yerdə küplər qoyulmuşdu. Qızıl qədəhlər-sürahilər düzülmüşdü. Doqquz qara gözlü, göyçək üzlü, saçı arxada düyünlənmiş, köksü qızıl düyməli, əlləri biləyindən xanalı, barmaqları naxışlı, gözəl kafir qızları Qalın oğuz bəylərinə şərab paylayırdılar.

Ulaş oğlu Salur Qazan içdi-içdi, axırda şərabın təsiri başına vurdu. O, qaba dizləri üstünə çökdü, dedi: "Sözümü dinləyin, səsimə səs verin, bəylər! Yata-yata yanımız ağrıdı. Dura-dura belimiz qurudu. Duraq gedək, a beylər! Ov ovlayaq, quş vuraq, sığın-keyik yıxaq, qayıdıb otağımıza düşək: yeyib-içək, günümüzü xoş keçirək!".

Qıyan Səlcik oğlu Dəli Dondar dedi: "Bəli, xan Qazan, məsləhətdir".

Qaragünə oğlu Qarabudaq dedi: "Ağam, Qazan, məsləhətdir" Onlar belə dedikdə Atağızlı Aruz qoca iki dizi üstünə çöküb dedi: "Ağam Qazan, sası dinli Gürcüstan sərhəddinə gedirsən, qərargahının üstündə kimi qoyursan?".

Qazan dedi: "Oğlum Uruz üç yuz igidlə evimin keşiyində dursun". Qonur atını çəkdirdi, mindi. Dəli Dondar Təpəlqaşqa ayğırını mindi. Qazan bəyin qardaşı Qaragüünə Göy bədəvi atını tutdurub mindi.

Bayındır xanın düşmənini məğlub edən Şir Şəmsəddin Ağ atını çəkdirib mindi.

Parasarın Bayburd hasarından sıçrayıb aşan Beyrək Boz ayğırına mindi.

Qonur atlı Qazana "keşiş" deyən bəy Yeynək Duru ayğırına mindi.

Saymaq istəsəm, tükənən deyil; Qalın Oğuz bəyləri atlandılar. Böyük qoşun Ala dağa ova çıxdı.

Kafirlərin casusu bunu gördü; çuğul gedib, Şöklü Məliyə xəbər verdi. Yeddi min qaftanının arxası cırıq, kəsik qara saçlı, sası dinli, din düşməni, alaca atlı kafir mindi çapdı, gecə yarısı Qazan bəyin düşərgəsinə gəldi. Kafirlər onun qızıl tağlı evlərini çalıb-çapdılar, qaza bənzər qızını-gəlinini çığırışdırdılar. Tövlə-tövlə şahanə atlarını mindilər. Qatar-qatar qızılı dəvələrini yedəkləyib apardılar. Qiymətli xəzinəsini, bol pulunu talan etdilər. Qırx incə belli qız ilə Boyu uzun Burla xatun əsir getdi. Qazan bəyin qarımış anası qara dəvə boynundan asılı getdi.

Qazan xanın oğlu Uruz bəy üç yuz igidlə əli bağlı, boynu bağlı getdi. İlək qoca oğlu Sarı Qalmaş Qazan bəyin evi üstündə döyüşdə həlak oldu.

Qazanın bu işlərdən xəbəri yox idi.

Kafir dedi: "Bəylər, Qazanın tövlə-tövlə şahanə atlarını minmişik, qızıl-gümüşünü talan etmişik, qırx igidlə oğlu Uruzu dustaq etmişik. Qatar-qatar dəvələrini gətirmişik, qırx incə belli qızla Qazanın arvadını tutmuşuq. Biz bu heyfləri Qazana vurmuşuq". Kafirlərdən biri dedi: "Qazan bəydə bir heyfimiz qaldı".

Şöklü Məlik dedi: "Ədə, aznavur, nə heyfimiz qaldı?". Kafir: "Qazanın Qapılı Dərbənddə on min qoyunu vardır. O qoyunları da götürsək, Qazana çox böyük ziyan vurardıq", – dedi. Şöklü Məlik: "Altı yüz kafir getsin, qoyunu gətirsin", – dedi.

Altı yüz kafir atlandı, qoyun üzərinə yürüş etdi.

Gecə yatarkən Qaraca çoban yuxuda qara qayğılı əhvalat gördü. Hövlnak ayağa durdu. Qabangücü və Dəmirgücü adlı iki qardaşını yanına çağırdı. Ağılın qapısını bərkitdi. Üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı.

Qaraca çobanın üstünü qəflətən altı yüz kafir aldı. Onlar dedilər:

Qaranlıq axşam olanda qayğılı çoban!
Qar-yağış yağanda od-ocağlı çoban!
Südü, pendiri bol, qaymaqlı çoban!

Qazan bəyin qızıl tağlı uca evlərini biz yığmışıq. Tövlə-tövlə şahanə atlarını biz minmişik. Qatar-qatar qızıl dəvəsini biz yedəkləmişik. Qarıcıq anasını biz gətirmişik. Qiymətli xəzinəsini, bol pulunu biz talan etmişik. Qaza bənzər qızını-gəlinini biz əsir etmişik. Qırx igidlə Qazanın oğlunu biz tutmuşuq. Qırx incə belli qızla Qazanın arvadını biz gətirmişik. Ay çoban, uzaqdasan-yaxındasan, bəri gəl! Baş endirib təzim et! Bizə salam ver, öldürməyək! Səni Şöklü Məlikin yanına aparaq, bəylik alıb verək. Çoban deyir:

Boş-boş danışma, itim kafir!
İtimlə bir yalaqdan yal içən azğın kafir,
Altındakı alaca atını nə öyürsən?
Ala başlı keçimcə görünməz mənə!
Başındakı dəbilqəni nə öyürsən, ay kafir?
Başımdakı papağımca görünməz mənə!
Altmış tutam nizəni nə öyürsən, murdar kafir?
Qırmızı dəyənəyimcə görünməz mənə!
Qılıncını nə öyürsən, ay kafir?
Əyri başlı çövkanımca görünməz mənə!
Belində doxsan oxunu nə öyürsən, ay kafir?
Ala qollu sapandımca görünməz mənə!
Uzaqdasan-yaxındasan, bəri gəl!
İgidlərinin zərbəsini gör, sonra get!

Kafirlər sakitcə irəli cumub ox atdılar. İgidlər igidi Qaraca çoban sapandının ağzına daş qoydu, atdı. Birini atanda ikisini-üçünü yıxdı. Kafirlərin gözünə qorxu düşdü. Qaraca çoban kafirin üç yüzünü sapand daşı ilə yerə sərdi. İki qardaşı isə oxlandı, həlak oldu.

Çobanın daşı tükəndi; qoyun demir, keçi demir, sapandın ağzına qoyur atır, kafiri yıxırdı.

Kafirin gözü qorxdu, dünya-aləm başına qaranlıq oldu. Dedilər: "Arzusu gözündə qalsın bu çoban birdən bizim hamımızı qırar?!". Daha durmayıb qaçdılar.

Çoban həlak olan qardaşlarını dəfi etdi. Kafirlərin leşindən bir böyük təpə düzəltdi, çaxmaq çaxıb od yandırdı. Yapıncasından kəsib yandırdı, qurumunu yarasına basdı. Yolun əyrisini tutub oturdu. Ağladı, sızladı. Dedi: "Salur Qazan, bəy Qazan! Ölüsənmi, dirisənmi? Bu işlərdən xəbərin yoxdurmu?"

Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayındır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: " Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə göründü? Qara-qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çarpınıb, quşumu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gərdüm. Qara dəvənin ənsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu yuxunu görəndən bəri ağlımı-huşumu yığa bilmirəm. Xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!".

Qaragünə dedi: "Qara bulud dediyin sənin taleyindir. Qar ilə yağmur sənin qoşunundur. Saç qayğıdır, dərdi-sərdir. Qan-qanqaralıqdır. Qalanın yoza bilmirəm, allah yozsun".

Belə dedikdə Qazan dedi: "Mənim ovumu pozma, qoşunumu dağıtma! Mən bu gün Qonur atı çapıb, üç günlük yolu bir gündə gedərəm; evə dəymədən yurduma baş çəkərəm. Əgər salamatlıqdırsa, axşam olmadan yenə sənin yanını gələrəm. Oradakılar sağ-salamat deyilsə, başınıza çarə edin. Mən daha getdim. Qazan bəy Qonur atını mahmızladı, yola düşdü. Gəlib-gəlib yurduna çatdı. Gördü ki, yurdunda bir tazı qalıb, quzğun dolaşır. Qazan bəy burada yurdu ilə soraqlaşıb, görək, xanım, necə soraqlaşıb, nə demişdir:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sağına-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Uca evimin tikilisi, yurdu qalmış,
Qoca anamın oturduğu yer də qalmış.
Oğlum Uruzun ox atdığı nişan qalmış.
Bəylərin at çapdırdığı meydan qalmış.
Qara mətbəxin yerində ocağ qalmış...

Bu halı gördükdə Qazanın qara qıyıq gözləri qan-yaşla doldu. Qanı damarlarında qaynadı. Qara bağrı sarsıldı. Qonur atını dizləri ilə vurub, kafirin keçdiyi yola düşdü, getdi. Qazanın qarşısın da bir su çıxdı. Qazan dedi: "Su, tanrının üzünü görmüşdür. Mən bu su ilə soraqlaşım!" Görək, xanım, necə soraqlaşdı. Qazan dedi:

Çağlayaraq qayalardan çıxan su!
Ağac gəmiləri atıb-tutan su!
Həsən ilə Hüseynin həsrəti su!
Bağ ilə bostanın zinəti su!
Ayişə ilə Fatimənin baxışı su!
Şahanə ilə Fatimənin baxışı su!
Şahanə atların içdiyi su!
Qızıl dəvələrin gəlib keçdiyi su!
Çevrəsində ağ qoyunların yatdığı su!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun! Suyum, sənə!

Su necə xəbər versin?! Sudan keçdi, bu dəfə bir qurda rast gəldi. "Qurd üzü uğurludur, qurdla bir soraqlaşım", – dedi. Görək, xanım, necə soraqlaşdı:

Qaranlıq axşam olanda günü doğulan!
Qarla yağış yağanda ər kimi duran!
Qaracıq atları kişnəşdirən!
Qızıl dəvə gördükdə inləşdirən!

Ağca qoyun görəndə quyruğuyla qamçı çəkən!
Arxasıyla vurub, bərk ağılın ardını sökən!
Burma-axta kök qoçları alıb-tutan!
Qanlı quyruq üzüb şap-şap udan!
Ulaşması köpəkləri təşvişə salan!
Əldə məşəl çobanları gecə vaxtı yüyürdən!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, qurdum, sənə! – dedi.

Qurd necə xəbər versin?! Qurddan də ötüb-keçdi. Qaraca çobanın qara köpəyi Qazanın qarşısında gəldi. Qazan qara göpəklə soraqlaşdı, görək, xanım, necə soraqlaşdı:

Qaranlıq axşam olanda hav-hav hürən!
Turş ayran töküləndə şap-şap içən!
Gələn yadı, oğrunu qorxudan!
Hürməyiylə qorxudaraq hürküdən!
Yurdumun xəbərini bilirsənsə, de mənə!
Dərdli başım sağ olduqca
Yaxşılıqlar edim, köpək, sənə! – dedi.

Köpək necə xəbər versin?! Köpək Qazanın atının ayağına atılıb-düşür, zing-zing zingildəyir. Qazan qamçı ilə köpəyi vurdu. Köpək çəkildi, gəldiyi yolla getdi. Qazan köpəyi qovlayıb, Qaraca çobanın yanına gəldi. Çobanı gördükdə soraqlaşdı, görək, xanım, necə soraqlaşdı.

Qaranlıq axşam olanda qayğılı çoban!
Qarla yağış yağanda od-ocağlı çoban!
Səsimi anla, sözümü dinlə!
Evimin buradan keçdiyini gördünümü, de mənə!
Dərdli başım qurban olsun, çoban, sənə! – dedi

Çoban dedi:

Ölmüşdünmü, itmişdinmi, a Qazan!
Harda gəzirdin, haradayın, a Qazan!
Dünən yox, o biri gün evin buradan keçdi.
Qoca anan qara dəvə boynundan asılı keçdi.
Qırx incə belli qızla arvadın –
Boyu uzun Burla xatun ağlayıb burdan keçdi.
Qırx igidlə oğlun Uruz başı açaq, ayağı yalın
Kafirlərin yanınca dustaq getdi.
Tövlə-təvlə atlarını kafir minmiş.
Qatar-qatar qızıl dəvələrini kafir yedəkləmiş,
Qızıl-gümüş, pul xəzinəni kafir talamış!..

Çoban belə deyərkən Qazan ah çəkdi, ağlı başından çıxdı. Dünya-aləm başında qaranlıq oldu. Dedi: "Ağzın qurusun, çoban! Dilin çürüsün, çoban! Allah sənin alnına bəla yazsın, çoban!". Qazan belə deyəndə çoban söylədi:

Nə danlayırsan məni, ağam Qazan?
Yoxsa heç köksündə yoxmudur iman?

Altı yüz kafir də mənim üstümə gəldi. İki qardaşım həlak oldu. Üç yüz kafiri öldürdüm, cəzasına çatdırdım. Sənin qapından bir kök qoyun, arıq toğlu da kafirlərə vermədim. Üç yerdən yaralandım, dərdli başım dumanlandı, yalqız qaldım. Günahım budurmu? Sonra çoban dedi :

Qonur atını mənə ver!
Altmış tutamlıq nizəni mənə ver!
At o böyük qalxanını, mənə ver!
Böyük, iti, polad qılıncını mənə ver!
Oxqabından səksən oxunu mənə ver!
Ağ tozluca tutacaqlı bərk yayını mənə ver!
Gedim kafirin qolundakı şahinini öldürüm.
Paltarımın qolu ilə alnımın qanını silim.
Ölərsəm, qoy sənin uğrunda mən ölüm!
Allah qoyarsa, evini mən xilas eləyim!

Çoban belə dedikdə Qazan qəhərləndi. Yola düzəlib götürüldü. Çoban da Qazanın ardından yetişdi. Qazan dönüb baxdı, soruşdu: "Oğul, çoban, hara gedirsən?" Çoban dedi "Ağam Qazan, sən evini-ailəni xilas etməyə gedirsən, mən də qardaşımın qanını almağa gedirəm".

Belə dedikdə Qazan soruşdu: "Oğul, çoban, qarnım acdır. Yeməyə bir şeyin vardımı?" Çoban dedi: "Bəli, ağam Qazan, gecədən bir quzu bişirib qoymuşam. Gəl bu ağacın dibində oturaq, yeyək".

Endilər. Çoban dağarcığını çıxardı. Yedilər. Qazan fikirləşdi, dedi: "Əgər çobanla getməli olsam, qalın oğuz bəyləri bunu başıma qaxınc edərlər. Çobanla olmasaydı, Qazan kafiri məğlub etməzdi", deyərlər.

Qazana qeyrət gəldi. Çobanı bir böyük ağaca möhkəmcə sarıdı. Atlandı, getdi. Çobana dedi: "Ədə, çoban! Qarnın acmamış, gözün qaralmamışkən bu ağacı qopar! Yoxsa səni burda qurd-quş yeyər".

Qaraca çoban güc elədi, iri ağacı yeriylə-yurduyla qopardı, arxasına alıb Qazanın ardınca düşdü.

Qazan baxdı gördü, çoban ağacı arxasına alıb gəlir. Qazan soruşdu: " Ədə, çoban, bu ağac nədir?". Çoban dedi : "Ağam Qazan, bu ağac ona görədir ki, sən kafiri basarsan, qarnın acar, mən də sənə bu ağacla yemək bişirərəm".

Bu söz Qazana xoş gəldi. Atından endi, çobanın əllərini açdı. Bir dəfə alnından öpüb dedi: "Allah mənim evimi bəladan qurtarsa, səni bütün ilxılarıma başçı qoyaram". İkisi birlikdə yola düzəldi.

Bu yanda Şöklü Məlik keyfi kök, kafirlərlə yeyib-içib oturmuşdu. Dedi: "Bcylər, bilirsizmi, Qazana necə hcyif vurmaq lazımdır? Boyu uzun Burla xatunu gətirdək, badə paylasın!".

Boyu uzun Burla bunu eşitdi, ürəyinə-canına od düşdü.

Qırx incə belli qızın içinə girib, öyüd-nəsihət verdi, dedi: "Qazan bəyin xatunu hansınızdır?" – deyə hansınıza yapışarlarsa, qırx yerdən səs verərsiz".

Şöklü Məlikdən adam gəldi: "Qazan bəyin xatunu hansınızdır?" deyə soruşdu. Qırx yerdən səs gəldi. Hansıdır, bilmədilər. Kafirə xəbər verdilər: "Birinə yapışdıq, qırx yerdən avaz gəldi. Bilmədik, hansıdır", – dedilər.

Kafir dedi: "Ədə, gedin Qazanın oğlu Uruzu dartıb çəngəldən asın. Ağ ətindən qıyma-qıyma çəkin; qara qovurma bişirib, qırx bəy qızına aparın. Hər kim yedi, o deyil. Her kim yemədi, odur. Götürün-gəlin, şərab paylasın!".

Boyu uzun Burla xatun oğlunun yanına gəldi. Çağırıb oğluna söylər, görək, xanım, nə söylər:

Oğul, oğul, ay oğul!
Bilirsənmi, nələr oldu?
Söyləşdilər xısın-xısın,
Duydum işini kafirin.
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!
Oğul, oğul, ay oğul!
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!
On ay deyəndə dünyaya gətirdiyim oğul!
Bələyini beşikdə bələdiyim oğul!

Kafirlər fikirlərini dəyişiblər; deyiblər ki, Qazan oğlu Uruzu həbsdən çıxarıb, örkənlə boğazından asın. İki kürəyindən çəngələ sancın, qıyma-qıyma ağ ətindən çəkin. Qara qovurma edin, qırx bəy qızına aparın. Hər kim yedi, o deyil. Hər kim yemədi, o Qazanın xatunudur; çəkin gətirin, döşəyimizə salaq, şərab paylatdıraq! Sənin ətindən, ay oğul, yeyimmi? Yoxsa iyrənc dinli kafirin döşəyinə girimmi? Ağan Qazanın namusunu tapdayımmı? Neylim, ay oğul?! – dedi.

Uruz dedi:

"Ağzın qurusun, ana! Dilin çürüsün, ana! "Ana haqqı – tanrı haqqı" deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzından-üzündən qan şoruldayardı. Can şirinliyini sənə göstərərdim. Bu nə sözdür? Saqın, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, xanım ana, çəngələ sancsınlar! Qoy ətimdən çəksinlər, qara qovurma edib, qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə, sən iki dəfə ye! Kafirlər duymasınlar, səni tanımasınlar. Təki

murdar dinli kafirin döşəyinə düşməyəsən. Onlara şərab paylayıb, atam Qazanın namusunu sındırmayasan. Saqın!".

Oğlan belə deyəndə gözünün yaşı gildir-gildir axdı. Boyu uzun, beli incə Burla xatun boyun-qulağını tutdu, yıxıldı. Payız alması kimi al yanağını yırtdı-dağıtdı. Qarğı kimi qara saçını yoldu. "Oğul", "Oğul" deyib, zar-zar ağladı. Uruz dedi:

Xanım ana! Qabağımı kəsib nə inləyirsən?
Niyə zarıyırsan, niyə ağlayırsan?
Bağrımı, ürəyimi nə dağlayırsan?
Keçmiş günlərimi nə andırırsan?
Ay ana! Ərəb atları olan yerdə
Bir qulunu tapılmazmı?
Qızıl dəvələr olan yerdə
Bir quzusu tapılmazmı?
Sən sağ ol, xanım ana! Atam sağ olsun!
Bir mənim kimi oğul tapılmazmı?!

Belə dedikdə anası dözə bilmədi. Ana gedib, qırx incə belli qızın arasında girdi.

Kafirlər Uruzu tutub, qənarə dibinə gətirdilər. Uruz dedi : "Ay kafir, amandır, tanrının birliyinə şübhə yoxdur! Qoyun məni, bu ağacla danışım". Çağırıb ağaca soylamış, görək, xanım, nə soylamışdır:

Sənə "Ağac!" " Ağac!" deyirəmsə, çəkinmə, ağac!
Məkkə ilə Mədinənin qapısı ağac!
Museyi-Kəlimin əsası ağac!
Böyük-böyük suların körpüsü ağac!
Nəhənk-nəhənk dənizlərin gəmisi ağac!
Əlinin Düldülünün yəhəri ağac!
Əlinin qılıncının qınıyla dəstəyi ağac!
İmam Həsənlə Hüseynin beşiyi ağac!
Ərin də, arvadın da, qorxusu ağac!
Başını tutub baxarsam, başsız ağacsan!
Dibini tutub baxarsam, dibsiz ağacsan!
Məni səndən asarlar, götürmə, ağac!
Götürsən, igidliyim səni tutsun, ağac!
Gərək bizim eldə olaydın, ağac!
Qara hindu qullarıma buyuraydım,
Səni para-para doğrayaydılar, ağac!

Sonra dedi:

Tövlə-tövlə bağlanan atlarımdan heyf!
"Qardaş" deyə sızlayan yoldaşlarımdan heyf!

Yumruğumda qanad çalan şahin quşumdan heyf!
Yetər ilə Tutan kimi tazımlarımdan heyf!
Bəylikdən doymadım, özümdən heyf!
İgidlikdən yorulmayan canımdan heyf!

Uruz hönkür-hönkür ağladı, yanıq ciyərini dağladı.

Bu zaman, sultanım, Salur Qazanla Qaraca çoban çaparaq yetdi. Çobanın sapandının daşlığı üçyaşar dana dərisindən, sapandının qolları isə üç keçi tükündən düzəlmişdi. Sapandın çatısı bir keçi tükündən idi. Hər atanda on iki batman daş atardı. Atdığı daş yerə düşməzdi. Yerə düşsə də, toz kimi sovrular, kül kimi ovulardı. Üç ilədək daşının düşdüyü yerin otu bizmədi. Bayırda kök qoyun da, arıq toğlu da qalsaydı, sapandın qorxusundan qurd gəlib yeməzdi.

Sultanım, Qaraca çoban çatan kimi sapandını işə saldı. Dunya-aləm kafirin gözündə qaraldı. Qazan dedi: "Qaraca çoban, qoy anamı kafirdən istəyim, at ayağı altında qalmasın".

At ayağı iti, ozan dili çevik olur. Qazan kafiri çağırıb soylamış, görək, xanım, nə soylamışdır:

Ay Şöklü Məlik!
Qızıl tağlı uca evlərimi götürüb gəlmisən,
Sənə kölgəlik olsun!
Qiymətli xəzinəmi, bol gümüşümü götürmüsən,
Sənə xərclik olsun!
Qırx incə belli qızla Burla xatunu gətirmisən,
Sənə əsir olsun!
Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən,
Sənin qulun olsun!
Tövlə-tövlə şahanə atlarımı gətirib gəlmisən,
Sənin miniyin olsun!
Qatar-qatar dəvələrimi gətirib gəlmisən,
Sənin yükünü daşısın.
Qoca anamı gətirmisən, ay kafir,
Anamı ver mənə!
Savaşmadan-vuruşmadan qayıdım geri,
Dönüb gedim!

Kafirlər dedilər:

Qızıl tağlı uca evini gətirmişik, bizimdir!
Şöklü Məlik qırx incə belli qızla Burla xatunu
Gətirmişdir, bizimdir!
Qırx igidlə oğlun Uruzu gətirmişdir, bizimdir!
Tövlə-təvlə atlarını, qatar-qatar dəvələrini

Gətirmişdir, bizimdir!
Qarıcıq anamı gətirmişiksə, bizimdir,
Sənə vermərik; Yayxan keşiş oğluna verərik,
Yayxan keşiş oğlundan oğlu doğular,
Biz onu sənə əvəz qoyarıq!

Belə dedikdə Qaraca çobanın acığı tutdu, dodaqları səyridi. Çoban dedi:

Ehey, dinsiz, huşsuz kafir!
Ağılsız, başsız kafir!
Qarşıdıkı qarlı dağlar
Qarıyıbdır, otu bilməz.
Qan-qadalı irmaqlar
Quruyıbdur, suyu gəlməz.
Şahanə-şahbaz atlar
Qarıyıbdır, qulun verməz.
Qızıl-qızıl dəvələr də
Qarıyıbdır, köşək verməz.
A kafir, Qazanın anası
Qocalıbdır, oğul verməz.

Şöklü Məlik, cins toxuma meylin varsa, qara gözlü qızını gətir Qazana ver! Ay kafir, sənin qızından oğlu doğulsun, siz onu Qazan bəyin xidmətinə göndərərsiniz!

Bu vaxt Qalın Oğuz bəyləri gəlib yetişdi, xanım, görək, kimlər gəldi:

Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən, bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan, yetdim" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi:

Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutamlıq böyük nizəsinin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondar çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim! – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi.

Amidlə Mərdin qalasını vurub-yıxan, dəmir yaylı Qıpçaq Məlikə qan qusduran, gələrək Qazanın qızını mərdiklə alan, oğuzun ağ saqqallı qocaları görəndə o igidə "əhsən" deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq çaparaq yetişdi: "Çal qılıncını, ağam qazan, yetdim!" – dedi. Bunun ardınca, görək, xanım, kimlər yetişdi:

İcazəsiz Bayındır xanın düşmənini basan, altmış min kafirə qan qusduran, ağ-boz atının yalı üzərində qar yığılan Qəflət qoca oğlu Şir Şəmsəddin çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, xanım, kimlər yetişdi:

Parasarın Bayburd hasarından sıçrayıb aşan, al rəngli gəlin otağına qarşı gələn, yeddi qızın ümidi. Qalın Oğuzun mujdəçisi, Qazan bəyin si-

lahdaşı, Boz ayğırlı Beyrək çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Çalım-çarpaz çalmalı, çal qaraquş ərdəmli, qurama qurşaqlı, qulağı qızıl küpoli, Qalın Oğuz bəylərini bir-bir atından yıxan, Qazlıq qoca oğlu Yeynək bəy çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Altmış təkə dərisindən olan kürkü topuqlarını örtməyən, altı ərkək dərisindən papağı qulağını örtməyən, qolu-budu uzunca, baldırları incə Qazan bəyin dayısı At ağızlı Arız qoca çaparaq yetişdi: "Çal qılıncını, bəyim Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Gedib peyğəmbərin üzünü görən, gələrək oğuzlar içində ona tərəfdar çıxan, acığı tutanda bığlarından qan çıxan, bığı qanlı Bükdüz Əmən çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi:

Kafirləri it ardına qoşub-alçaldan, eldən çıxıb Ayğırgözlü suyunda at üzdürən, əlli yeddi qalanın açarını alan, Ağ Məliyin Çeşmə qızına evlənən Sufi Sandal Məlikə qanı qusduran, qırx cübbə bürünüb otuz yeddi qala bəyinin gözəl qızlarını oğurlayıb bir-bir boynunu qucan, üzündən-dodağından öpən İlək qoca oğlu Alp Ərən çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Sayılmaqla oğuz bəyləri tükənməz. Hamı yetişdi. Təmiz suda yuyundular. Ağ alınlarını yerə qoydular. İki rükət namaz qaldılar. Adı əziz Məhəmmədə salavat gətirdilər. Sakitcə kafirin üstünə at saldılar, qılınc çaldılar. Gumbur-gumbur nağaralar döyüldü. Burması qızıl tunc borular çalındı.

O gün cəsur ər igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. O gün bir qiyamət savaş oldu, meydan dolu baş oldu; başlar top kimi kəsildi. Şahanə atlar qaçanda nalı düşdü. Böyük-uzun nizələr sancılıb süstəldi. Böyük, iti polad qılınclar çalındı, tiyəsi korşaldı. Üç lələkli qayın oxlar atıldı, dəmir ucluğu düşdü. O gün, elə bil, qiyamətin bir günü idi. Bəy nökərindən, nökər bəyindən ayrıldı.

Daş oğuz bəyləri ilə Dəli Dondar sağdan, cəsur igidlərlə Qaragünə oğlu Dəli Budaq sol yandan hücüm etdi. İç Oğuz bəyləri ilə Qazan mərkəzdə düşmənlərin topasına hücüm etdi. Şöklü Məlikə çatdı, böyürdüb atdan yerə saldı, qəfilcə tutub başını kəsdi. Bir zərbə ilə al qanını yer üzünə tökdü. Sağ tərəfdə Qara Tükən Məliklə Qıyan Səlcik oğlu Dəli Dondar qarşılaşdı. Sağ yanını qılınclayıb yerə saldı. Sol tərəfdə Buğacıq Məliklə Qaragünə oğlu Dəli Budaq qarşılışdı. Altı pərli gürz ilə təpəsinə möhkəm zərbə vurdu. Dünya-aləm Buğacıq Məlikin gözündə qaraldı; atın boynunu qucaqlayıb, yerə düşdü.

Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı. Dərələrdə, təpələrdə kafirlərə qırğın düşdü, leşlərinə quzğun toplaşdı. On iki min kafir qılıncdan keçdi. Oğuz igidlərindən beş yüzü həlak oldu. Qazan

bəy qaçanı qovmadı, "aman" deyəni öldürmədi. Qalın Oğuz bəyləri qənimət əldə etdilər.

Qazan bəy öz ordusunu, arvad-uşağını, xəzinəsini geri aldı, qızıl taxtında geri döndü. Yenə evlərini tikdirdi. Qaraca çobanı əmiraxur etdi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qırx nəfər qulu, qırx kənizi oğlu Uruza görə azad elədi. Cəsur qoç igidlərə çoxlu torpaqlar verdi; şalvar, çuxa, arxalıq verdi...

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. Bu oğuznaməni qoşdu, düzdü, belə dedi:

Hanı dediyim bəy ərənlər?
Dunya mənimdir deyənlər?
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dunya,
Son ucu ölümlü dunya!

Xeyir-dua verək, xanım:

Qarlı uca dağların yıxılmasın!
Kölgəlik hündür ağacın kəsilməsin!
Coşqun axan gözəl suyun qurumasın!
Tanrı səni namərdə möhtac etməsin!
Çaparkən ağ-boz atın büdrəməsin!
Vuruşanda iti polad qılıncın gödəlməsin!
Sancılarkən uzun nizən əyilməsin!
Ağ saqqallı atan yeri cənnət olsun!
Ağ birçəkli anan yeri behişt olsun!
Son gündə təmiz imandan ayırmasın!
"Amin!" deyənlərin üzünü görsün!
Ağ alnımızı yerə qoyub, beş kəlmə dua qıldıq,
Qəbul olunsun!
Allah verən ymidin üzülməsin!
Yığışdırsın, saxlasın günahlarını
Adı gözəl Məhəmməd Mustafanın
Üzü suyuna bağışlasın, xanım, hey!..

Basatın Təpəgözü öldürdüyü boy

Xanım, bir gün oğuzlar xəbərsiz otururkən yurdlarına düşmən gəldi. Onlar gecəylə qorxub köçdü. Qaçıb gedərkən Aruz qocanın körpə oğlu düşüb yolda qalır, bir şir tapıb götürür, bəsləyir...

Bir müddətdən sonra oğuz camaatı yenə yurduna qayıtdı. Oğuz xanın ilxıçısı gəlib xəbər gətirdi. Dedi: "Xanım, qımışlıqdan bir şir çıxır, sıçrayıb qaçmağı adam kimidir, atı vurub-basır, qanını sümürür".

Aruz dedi: "Xanım, bu bəlkə yerimizdən qaçanda düşüb itən körpə oğlumdur?" Bəylər atlandılar. Şirin yatağı üzərinə gəldilər. Şiri qıçırıb, oğlanı tutdular. Aruz oğlanı evinə gətirdi. Şadlıq etdilər. Yemək-içmək oldu. Amma oğlanı nə qədər saxlayıb-ovundurdularsa, durmadı, şirin yataq yerinə qaçdı. Yenidən tutub gətirdilər.

Dədəm Qorqud gəldi. Dedi: "Oğlum, sən insansan. Heyvanla hömsöhbət olma. Gəl, yaxşı atlar min, yaxşı igidlərlə birgə çap! Böyük qardaşının adı Qıyan Səlcikdir, sənin adın Basat olsun! Adını mən verdim, yaşını allah versin!"

Oğuz camaatı bir gün yaylağa köçdü. Aruzun bir çobanı vardı. Qonur qoca Sarı çoban deyərdilər adına. Oğuzların önündə bundan əvvəl kimsə köçməzdi. "Uzun bulaq" deyilən məşhur bir bulaq vardı. O bulağa pərilər qonmuşdu. Birdən qoyunlar ürkdü. Çoban qabaqdakı təkəyə hirsləndi, irəli getdi. Gördü ki, pəri qızlar qanad-qanada bağlayıb uçurlar. Çoban öz yapıncısını üzərlərinə atdı. Pəri qızının birini tutdu. Tamah salıb, qucağladı...Qoyun ürkməyə başladı. Çoban qoyunun qabağına qaçdı. Pəri qızı qanad çalıb uçdu. Dedi: "Çoban, il tamam olanda məndəki əmanətini gəl, al! Amma oğuzların başına bəla gətirdin!" Çobanın canına qorxu düşdü. Amma qızın ayrılığından bənizi saraldı.

Zaman gəldi, oğuzlar yenə yaylağa köçdülər. Çoban yenə bu bulağa gəldi. Yenə qoyun ürkdü. Çoban irəli gəldi. Gördü ki, bir ət toplusu yatır, par-par parıldayır. Pəri qızı gəlib dedi: "Çoban, əmanətin budur, gəl götür! Amma oğuzun başına bəla gətirdin!" – dedi. Çoban bu ət topasını görəndə təəccübləndi. Geri dönüb, sapand daşına tutdu. Vurduqca böyüdü; çoban həmin yığnağı qoydu, qaçdı; qoyunların ardınca düşdü.

Sən demə, o zaman Bayındır xan bəylərlə gəzməyə çıxıbmış. Bu bulağın üstünə gəldilər. Gördülər ki, bir təəccüblü şey yatır, başı-ayağı bilinmir. Çevrəyə aldılar. Bir igid atdan düşüb onu tərpətdi-vurdu. Vurduqca böyüdü. Bir neçə igid də düşüb vurdu. Onlar vurduqca böyüdü. Aruz qoca da enib vurdu-silkələdi, birdən mahmızı həmin şeyə toxundu. Bu ət topasının pərdəsi yarıldı, içindən bir oğlan uşağı çıxdı Gövdəsi adam gövdəsi, təpəsində bir gözü vardı. Aruz bu uşağı götürüb ətəyinə sarıdı. Dedi: "Xanım, bunu mənə verin, oğlum Basatla böyüdüm!"

Bayındır xan: "Sənin olsun!" – dedi.

Aruz Təpəgözü götürüb evinə gətirdi. Buyurdu, bir dayə gəldi. Dayə əmcəyini ağzına verdi. Uşaq bir sordu, olan südünü içdi. İkinci dəfə sordu, qanını içdi; üçüncüdə canını aldı. Bir neçə dayə gətirdilər, Təpəgöz onları həlak etdi. Gördülər olmur, "südlə bəsləyək", – dedilər. Gündə bir qazan süd çatmırdı. Bəslədilər, böyüdü, gəzməyə başladı. Oğlan uşaqları ilə oynayırdı. Uşaqların birinin burununu, birinin qulağını yeməyə başladı. Xülasə, camaat bunun əlindən zara gəldi. Aciz qaldılar, Aruza şikayət edib ağlaşdılar. Aruz Təpəgözü döydü-söydü, belə hərəkətləri qadağan etdi; Təpəgöz sözünə baxmadı. Axır ki, Aruz onu evindən qovdu.

Təpəgözün pəri anası gəlib oğlanın barmağına bir üzük keçirdi. "Oğul, sənə ox batmasın, bədənini qılınc kəsməsin!" dedi.

Təpəgöz oğuzların arasından çıxdı, bir yca dağda məskən saldı. Yol kəsdi, adam oğurladı, böyük quldur oldu. Üzərinə bir neçə adam göndərdilər. Ox atdılar, batmadı. Qılınc vurdular, kəsmədi. Süngünü sancdılar, yerimədi. Çoban-çoluq qalmadı Təpəgöz hamısını yedi. Oğuzların içində adam yeməyə başladı. Oğuzlar yığışıb onun üzərinə gəldilər. Təpəgöz görüb qəzəbləndi. Bir ağacı qoparıb yerindən atdı, əlli-altmış adam həlak elədi. İgidlərin başçısı Qazana elə zərbə vurdu, dünya başına daraldı. Qazanın qardaşı Qaragünə Təpəgözün əlində məğlub oldu. Dözən oğlu Alp Rüstəm həlak oldu.

Uşun qoca oğlu kimi pəhləvan onun əlində öldü; onun iki qardaşı da Təpəgözün əlində pak canını tapşırdı.

Dəmir donlu Mamaq onun əlində məhv oldu. Bığı qanlı Bügdüz Əmən də Təpəgöz tərəfindən məğlub edildi. Təpəgöz ağ saqqallı Aruz qocaya qan qusdurdu. Qıyan Səlcikin ödü yarıldı. Oğuzlar Təpəgözə heç nə edə bilmədilər, vahiməyə düşüb qaçdılar. Təpəgözə onların qarşısını aldı, geri qaytardı. Xülasə, oğuzlar yeddi dəfə qaçdı, Təpəgöz onların qarşısını alıb, yeddi dəfə geri oturtdu. Oğuz yurdu Təpəgözün əlində əsir-yesir olub qaldı. Gedib, Dədə Qorqudu çağırdılar. Onunla danışdılar: "Gəlin, pay ayıraq, xərac verək!" – dedilər. Dədə Qorqudu Təpəgözün yanına göndərdilər. Gəldi, salam verdi. Dedi: "Oğul, Təpəgöz, oğuz yurdu əlində əsir olub, viran qaldı. Sənin ayağına məni göndəriblər. Sənə vaxtaşırı pay verək, deyirlər" Təpəgöz dedi : "Gündə altmış adam yığıb verin yeməyə!" Dədə Qorqud dedi: " Bu hesabla sən adam qoymaz, hamını yeyib qurtararsan. Amma gündə iki adamla beş yüz qoyun verə bilərik!"

Dədə Qorqud belə deyəndə Təpəgöz dedi: "Yaxşı elə olsun! Lakin mənə həm də iki adam verin, yeməyimi bişirsin, mən yeyim!"

Dədə Qorqud döndü, oğuz yurduna gəldi. Dedi: "Bunlu qoca ilə Yapaqlı qocanı Təpəgözə verin, körəyini bişirsin! Bir də gündə iki adamla beş yüz qoyun istəyir". Camaat razılaşdı. Dörd oğlu olan birini verdi, üçü qaldı. Üç oğlu olan birini verdi, ikisi qaldı. İki oğlu olan birini verdi, biri qaldı.

Qapaqqan adlı bir kişi vardı. İki oğlu vardı. Bir oğlunu vermiş, biri qalmışdı. İndi növbə dolanıb ona çatmışdı. Anası fəryad edib, zar-zar ağladı. Sən demə, xanım, Aruz oğlu Basat harasa döyüşə gedibmiş; bu zaman gəlib çıxdı. Oğlanın anası dedi: "Basat indi çapqınçılıqdan gəlib. Gedim, bəlkə mənə bir əsir verdi, oğulcuğazımı qurtara bildim".

Basat qızıl naxışlı günlüyünü qurub oturmuşdu ki, gördülər bir qadın gəlir. İçəri, Basatın yanını gəldi, salam verdi, ağladı. Dedi:

Ovuclarına sığmır lələkli oxun,
Yekə təkə buynuzundan bərk yayın var.
İç Oğuzda, Daş Oğuzda bəllidir adın,
Aruz oğlu, igid Basat, kömək et mənə!

Basat dedi: "Nə istəyirsən?" Qadın dedi: "Vəfasız dünyada bir kişi meydana çıxıb. Oğuz elini yaylağa köçməyə qoymadı. Böyük iti polad qılınclar bir tükünü kəsə bilmədi. Qarğı nizə oynadanlar dərisini dələ bilmədi. Qayın ağacından düzəlmiş oxları atanlar ona kar etmədilər. İgidlərin başçısı Qazana bir zərbə vurdu. Qardaşı Qaragünə onun əlində əzildi. Bığı qanlı Bükdüz Əmən onun əlində döyüldü. Ağ saqqallı atan Aruza qan qusdurdu. Meydanda qardaşın Qıyan Səlcikin ödü yarıldı, can verdi. Qalın Oğuz bəylərinin də kimini şikəst etdi, kimini həlak elədi. Yeddi dəfə oğuz elini yerindən qovdu. Xərac istədi, aldı. İndi gündə iki adam, beş yüz qoyun istəyir. Bunlu qoca ilə Yapaqlı qocanı ona xidmətçi veriblər. Dörd oğlu olan birini verdi. Üç olan birini verdi, iki olan birini verdi. İki oğlum vardı, birini verdim, biri qaldı. Növbə firlanıb, mənə çatıb. Onu da istəyirlər. Xanım, mənə kömək et!"

Basatın qaranlıq çökmüş gözləri yaşla doldu. Qardaşından ötrü soylamış, görək xanım, nə soylamışdır:

Qayalıq yerdə tikilmiş otaqlarını
O zalım yıxmışdır yəqin, qardaş!
İti qaçan atlarını tövlədən
O zalım seçmişdir yəqin, qardaş!
Təkhürgüclü dəvələri qatarından
O zalım ayırmışdır yəqin, qardaş!
Şülənlərdə qırdırdığın qoyunları
O zalım qırmışdır yəqin, qardaş!
Fərəhlənib gətirdiyin gəlinini
O zalım səndən ayırmışdır yəqin, qardaş!
Ağ saqqallı atamı
"Oğul" deyə ağlatdın yəqin, qardaş!
Ağca üzlü anamı sızlatdın yəqin, qardaş!
Qarşıdakı uca dağımın zirvəsi qardaş!
İti axan gözəl suyumun daşqını qardaş!
Güclü belimin qüvvəsi,
Qaranlıq çökmüş gözlərimin işığı, qardaş!

"Qardaşımdan ayrıldım!" deyə çox ağladı, zarıldadı. Basat həmin qadına bir əsir verdi. "Get, oğlunu xilas et" – dedi.

Qadın əsiri götürüb gəldi, oğlu yerinə verdi. Həm də Aruzu "oğlun gəldi!" deyə muştuluqladı. Basat atasının əlini öpdü. Ağlaşdılar, hönkürdülər. Anasının evinə gəldi. Anası oğlunu qarşılayıb qucaqladı. Basat anasının əlini öpdü. Görüşüb-ağlaşdılar. Oğuz bəyləri toplaşdı. Yemək-içmək məclisləri oldu. Basat dedi: "Bəylər, qardaşımın qanını almaq üçün Təpəgözlə qarşılışmaq istəyirəm. Nə deyirsiz?"

Qazan bəy burada soylamış, görək, xanım, necə soylamışdır:

Böyük nəhənk oldu Təpəgöz,
Göydə çevirdim, yıxa bilmədim, Basat!
Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa bilmədim, Basat!
Quduz aslana döndü Təpəgöz,
Qalın qamışlıqda yıxa bilmədim, Basat!
İgid olsan, yaxşıdır,
Amma mən Qazandan artıq olmazsan, Basat!
Ağ saqqallı atanı ağlatma!
Ağ birçəkli anamı zarıldatma!

Basat dedi: "mütləq gedəcəyəm!" Qazan dedi: "Özün bilərsən". Atası ağlayıb dedi: "Oğul, ocağımı sahibsiz qoyma, rəhm clə, getmə!" Basat dedi: "Yox, ağ saqqallı əziz ata, gedirəm". Atasını eşitmədi, paltarının qolundan bir tutam ox çıxardı, qurşağına keçirdi. Qılıncını da qurşandı. Yayın qoluna saldı. Ətəklərini yığışdırdı. Atasının-anasının əlini öpdü, halallaşdı, "salamat qalın!" – dedi. Təpəgözün olduğu Salaxana qayasına gəldi. Gördü ki, Təpəgöz arxasını günə verib yatır. Öz belindən çəkib bir ox çıxartdı. Təpəgözün çiyninə bir ox vurdu. Təpəgöz qocalara dedi: "Bu yerin milçəyi bizi dilxor etdi!" Basat bir də atdı. O da parçalandı, bir parçası Təpəgözün qabağına düşdü. Təpəgöz sıçradı, baxdı. Basatı gördü, əlini əlinə çalıb qah-qahla güldü. Qocalara dedi: " Oğuzlardan bizə yenə bir yeməli-yetişmiş quzu gəlib". Basatı qabağına qatıb tutdu. Boğazından yapışıb, yatağına gətirtdi: Çəkməsinin boğazına soxdu. Dedi: "Ay qocalar, günorta üstü bunu mənimçin şiş-kabab cləyin, yeyim". Yenə yuxuya getdi.

Basatın xəncəri vardı. Çəkmənin boğazını yarıb içindən çıxdı. Dedi: "Ay qocalar, bunun ölümü nədəndir?" Dedilər: "Bilmirik. Amma gözündən başqa, ayrı yerdə ət yoxdur". Basat Təpəgözün başı ucuna gəldi. Göz qapağını qaldırdı. Baxdı gördü ki, gözü ətdəndir. Dedi: "Ay qocalar, süngünü ocağa qoyun, qızsın!" Süngünü ocağa saldılar, qızardı.

Basat əlinə aldı. Adı gözəl Məhəmmədə salavat çəkdi. Süngünü Təpəgözün gözünə elə basdı ki, gözü məhv oldu. Təpəgöz elə nərə çəkdi ki, elə hayqırdı ki, dağ-daş əks-səda verdi. Basat sıçradı. Mağaraya qoyunların içinə düşdü. Təpəgöz bildi ki, Basat mağaradadır. Mağaranın qapısında durub, bir ayağını qapının bir yanına, birini digər yanına qoydu. Dedi: "Ay qoyunların başçıları ərkəclər, bir-bir gəlin, keçin!" Bir-bir gəlib keçdilər. Hər birinin başını sığalladı. "Toğlucuqlar, var-dövlətim qaşqa qoç, gəlin, keçin!" – dedi. Bir qoç yerindən qalxdı, buynuzlayıb irəli cumdu. Basat bir anda qoçu basıb kəsdi, dərisini çıxardı, quyruğu ilə başını dəridən ayırmadı; dərinin içinə girdi. Basat Təpəgözün önünə gəldi. Təpəgöz bildi ki, Basat dəri içindədir. Dedi: "Ay qaşqa qoç, mənim həlak olacağımı haradan bildin? Elə vurum səni mağara divarına ki, quyruğun mağaranı yağlasın!" Basat qoçun başını Təpəgözün əlinə uzatdı. Təpəgöz

qoçun buynuzundan bork tutdu. Qaldıranda buynuzla dəri əlində qaldı. Basat Təpəgözün ayaqları arasından sıçrayıb çıxdı. Təpəgöz buynuzu götürüb yerə çırpdı. Dedi: "Oğlan, qurtuldunmu?" Basat dedi: "Tanrım qurtardı". Təpəgöz dedi: "Ay oğlan, al bu barmağımdakı üzüyü barmağına tax, sənə ox və qılınc kar eyləməsin". Basat üzüyü alıb barmağına keçirdi. Təpəgöz dedi: "Oğlan, üzüyü alıb taxdınmı?" Basat dedi: "Taxdım". Təpəgöz Basatın üzərinə atılıb, xəncərlə vurub-kəsdi. Basat sıçrayıb kənarda durdu, gördü ki, üzük yenə Təpəgözün ayağı altına düşüb qalıb.

Təpəgöz dedi: "Qurtuldunmu?" Basat dedi: "Tanrım qurtardı". Təpəgöz dedi: "Oğlan o günbəzi görürsənmi?" Deyir: "Görürəm". Təpəgöz dedi: "Mənim xəzinəm var. Get möhürlə, o qocalar götürməsinlər!" Basat günbəzin içinə girdi. Gördü ki, qızıl gümüş yağılmışdır. Baxanda hər şeyi unutdu. Təpəgöz günbəzin qapısını tutdu: Dedi "Günbəzə girdinmi?" Basat dedi "Girdim". Təpəgöz dedi: "İndi elə vurum ki, günbəzlə bir yerdə darmadağın olasan". Basat "lailahə illallah, Məhəmmədən-rəsulallah!" – dedi. Həmin anda günbəz yarıldı,yeddi yerdən qapı açıldı. Basat qapıların birindən çıxdı.

Təpəgöz əlini günbəzə soxdu. Elə vurdu ki, günbəz alt-üst oldu. Təpəgöz dedi "Oğlan, qurtuldunmu?" Basat dedi: "Tanrım qurtardı". Təpəgöz dedi: "Sənə ölüm yoxmuş! O mağaranı görürsənmi?" Basat dedi: "Görürəm!" Dedi: "Orada iki qılınc var: biri qınlı, biri qınsız. Mənim başımı o qınsız qılınc kəsər. Get, götür, mənim başımı kəs!"

Basat mağara qapısına getdi. Gördü bir qınsız qılınc durmadan enir-qalxır. Basat fikirləşdi: "Bununla ehtiyatlı olmalıyam!" Öz qılıncını çıxardı, qarşısına tutdu. Qılıncı iki para oldu. Getdi, bir ağac gətirdi, qılıncın qabağına tutdu. Onu da iki para eylədi. Sonra yayını əlinə aldı. Oxla o qılınc asılan zənciri vurdu. Qılınc yerə düşüb gömüldü. Öz qılıncını qınına qoydu. Həmin qılıncın dəstəyindən bərk tutdu. Gəlib dedi: "Ay Təpəgöz, neccəsən?" Təpəgöz dedi: "Ay oğlan, yenə ölmədinmi?" Basat dedi: "Tanrım qurtardı". Təpəgöz dedi "Sənə ölüm yoxmuş!"

Təpəgöz çağırıb soylamış, görək nə soylayıb demişdir:

Gözüm, gözüm, yalnız gözüm!
Yalnız gözlə mən oğuz yurdunu əsir etdim!
Ala gözümdən ayırdın, igid, məni!
Şirin candan ayırsın tanrı səni!
Belə ki mən çəkirəm göz dərdini,
Heç igidə verməsin tanrı göz, bu günü!

Təpəgöz yenə dedi:

Hardan gəldin sən igid, yerin nə yerdir?
Qaranlıq gecədə yol azsan, ümidin nəyədir?
Böyük bayraq götürən xanımız kimdir döyüş günü öndə?

Ağ saqqallı atanın adı nədir?
İgid əgər igid ərdən ad gizlətsə, eyibdir.
Adın nədir, igid, söylə mənə!

Basat Təpəgözə soylamış, görək, xanım, nə soylamışdır:

Olduğum yer, yurdum mənim Günortacdır!
Qaranlıq gecədə yol azsam, ümidim allahadır.
Böyük bayraq götürən xanımız Bayındır xan,
Döyüş günü öndə gedən qəhrəmanımız Salur Qazan,
Anamın adını soruşsan, – Qaba ağacdır!
Atamın adını soruşsan, – Qaqan Aslandır!
Mənim adımı soruşsan, – Aruz oğlu Basatdır!

Təpəgöz dedi: "Süd qardaşıyıq, qıyma mənə!"
Basat dedi:

Ay əbləh, ağ saqqallı atamı ağladıbsan,
Ağ birçəkli, qoca anamı inlədibsən.
Doğma qardaşım Qıyan Səlciki öldürmüsən.
Ağca üzlü gəlinimi dul etmisən.
Ala gözlü uşaqlarını yetim qoymusan.
Böyük, iti polad qılıncımı çəkməyincə,
Qafalı-papaqlı başını kəsməyincə.
Al qanını yer üzünə tökməyincə,
Qardaşım Qıyanın qanını almayınca
Qoyarammı sağ qalasan, – qoymaram!

Təpəgöz də burada soylayıb demişdir:

Deyirdim ki, qalxıb yerimdən durum,
Qalın Oğuz bəyləriylə əhdimi pozum,
Qollarında şahinləri öldürüm.
Bircə dəfə adam ətindən doyum.
Qalın Oğuz bəyləri üstümə gəlsə,
Deyirdim ki, qaçıb Salaxana qayasına girim.
Mancanaqla ağır daşlar atım, – deyirdim.
Ala gözdən məhrum etdin, igid, məni!
Şirin candan məhrum etsin allah səni!

Təpəgöz bir daha soylayıb demişdir:

Ağ saqqallı qocaları çox ağlatmışam,
Ağ saqqalın qarğışımı tutdu ola, gözüm səni?
Ağ birçəkli qarıları çox ağlatmışam,
Anaların göz yaşımı tutdu ola, gözüm, səni?

Bığ yeri tərləmiş cavanları çox yemişəm,
Cavanlaqlarımı tutdu ola, gözüm, səni?
Əlləri xınalı qızcığazları çox yemişəm,
Ovucları-qarışları tutdu ola, gözüm, səni?
Belə ki mən çəkirəm gözümün göynəmini!
Heç kimə verməsin allah göz yükü, göz qəmini!
Gözüm, gözüm, ay gözüm! Yalnız gözüm!

Basat hirsləndi, yerindən durub gəldi. Təpəgözü nər dəvə kimi dizi üstünə çökdürdü. Təpəgözün öz qılıncı ilə boynunu vurdu. Başını yayın kirişinə taxdı, sürüya-sürüya mağara qapısına gəldi.

Basat Bunlu qoca ilə Yapaqlı qocanı oğuz elinə muştuluqçu göndərdi. Onlar ağ-boz atlar minib çapdılar. Qalın Oğuz ellərinə xəbər çatdı.

At ağızlı Aruz qocanın evinə çapar gəldi. Ona Basatın sevinc xəbərini verdi: "Muştuluq! Oğlun Təpəgözü öldürdü!"

Qalın Oğuz bəyləri yetişdilər. Salaxana qayasına gəldilər. Təpəgözün başını ortaya gətirdilər.

Dədəm Qorqud gəlib şadlıq havası çaldı. Mərd igidlərin başına nə gəldiyini dedi-danışdı. Eləcə də Basata xeyir-dua verdi:

Qara Dağa yetəndə sən, keçid versin!
Aşqın-daşqın sular keçəsən, keçid versin!

İgidliklə qardaşının qanını aldın! Qalın Oğuz bəylərini fəlakətdən qurtardın. Qadir allah üzünü ağ etsin, Basat! – dedi.

Sizə də xeyir-dua verək, xanım:

Ölüm gəldikdə sizi pak imandan ayırmasın!
Günahınızı adı əziz Məhəmməd Mustafaya
Bağışlasın, xanım, hey!

Bəkil oğlu İmranın boyu

Qam Ğan oğlu Bayındır xan yerindən durmuşdu. Yüksək evini qara yer üzərində ucaltmışdı. Hündür alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalçalar döşətdirmişdi. İç Oğuz və Daş Oğuz bəyləri toplaşmışdılar.

Doqquz tümənlik Gürcüstanın xəracı gəldi: bir at, bir qılınc və bir çomaq gətirdilər.

Bayındır xan bərk dilxor oldu. Dədəm Qorqud gəldi, şadlıq havası çaldı. "Xanım, niyə qanın qaralıb?" – dedi. Dedi: "Necə qaralmasın, hər il qızıl-gümüş gəlirdi, cavanlara-bəylərə verirdik, xatirləri şad olurdu. İndi bunları kimə verək ki, onunçun xoş olsun?"

Dədə Qorqud dedi: "Xanım, bunun üçünü də bir igidə verək, oğuz elinə qarovul çəksin!". Bayındır xan "Kimə verək?" – dedi, sağına-soluna

baxdı. Heç kim razı olmadı. Bəkil deyilən bir igid vardı. Ona baxdı dedi: "Sən nə deyirsən?" Bəkil razı oldu. Qalxdı, yeri öpdü. Dədəm Qorqud gətirilən qılıncı onun belinə bağladı. Çomağı çiyninə saldı, yayı qoluna keçirdi.

Bəkil şahanə ayqırı çəkdirib mindi. Qohum-əqrəbasını ayırdı, ev-eşiyini yığışdırdı, oğuz elindən köçdü. Bərdəyə, Gəncəyə gedib, məskən saldı. Gedib doqquz tümənlik Gürcüstan sərhədində çadır qurdu. Qarovulçuluq elədi. Buralara yad-kafir gəlsə idi, başını Oğuz elinə hədiyyə göndərirdi. İldə bir dəfə Bayındır xanın divanına gedirdi.

Bir dəfə yenə Bayındır xandan adam gəldi ki, tez gəl. Bəkil də gəldi. Hədiyyələrini yerə qoydu. Bayındır xanın əlini öpdü. Xan da Bəkili qonaq etdi. Yaxşı at, yaxşı qaftan, bolluca xərclik verdi.Üç gün tam əzizlədi, hörmət etdi. "Bəkili üç gün də ov əti ilə qonaq eləyək, bəylər!" – dedi.

Ova hazırlıq üçün car çəkildi. Elə ki, ov hazırlığı tamam oldu, kimi atını, kimi qılıncını, kimisi də yay çəkib ox atmağını tərifladı. Salur Qazan nə özünü, nə atını tərifladı. Amma bəylərin hünərindən danışdı.

Üç yüz altmış altı igid ova atlansa, keyik üzərində yürüş olsa, Bəkil yay qurmaz, ox atmazdı. Elə yayı biləyindən çıxarıb, buğanın-sığının boynuna atardı, çəkib durğuzardı. Arıq olsa, qulağını dələrdi ki, ovda bəlli olsun. Amma kök olsa, boğazlayıb kəsərdi.

Bəylər, qulağı deşik keyik ovlayanda: "Bu, Bəkilin nişan etdiyidir" – deyə ona göndərərdilər.

Qazan bəy dedi: "Bu hünər atındır, ya igidindir?" Dedilər: "Xanım, igidindir!" Xan dedi: "Yox, at işləməsə, ər öyünməz. Hünər atındır." Bu söz Bəkilə xoş gəlmədi. Dedi: "İgidlər içində bizi bədnam edib, quşqunumuzadək palçığa batırdın." Bayındır xanın hədiyyəsini önünə tökdü; xandan küsdü,divandan çıxdı. Atını gətirdilər. Ala gözlü igidlərini də götürüb evinə gəldi. Oğlanları qarşısına gəldi, onları oxşamadı. Ağ üzlü xanımı ilə danışmadı. Qadın burada soylamış, görək, xanım, nə soylamışdır:

Qızıl taxtımın yiyəsi, igid bəyim!
Göz açaraq gördüyüm,
Könül verib sevdiyim,
Qalxaraq yerindən durub gəldin.
Ala gözlü igidlərini yanına saldın.
Arqubeldən, Ala Dağdan gecə aşdın.
Coşğun axan gözəl sudan gecə keçdin.
Ağ alınlı Bayındır xanın divanına
gecə getdin, bəylər ilə yedin-içdin.
Hərə öz qohum-qardaşı ilə deyib-güldümü?
Qəriblikdə təklənmək xətrinə dəydimi?
Hanı, xanım, altında yaxşı atın yoxdur!
Alnını örtən qızıl işıqlı zirehin yoxdur!
Ala gözlü bəylərini oxşamırsan,

Ağca üzlü sevgilinlə danışmırsan,
Halın niyə belədir?

Bəkil soylamış, görək, xanım, nə soylamışdır:

Qalxaraq yerimdən durub getdim,
Qarayallı gözəl Qazlıq atı mindim.
Arqubeldən, Ala Dağdan gecə keçdim.
Coşğun axan gözəl sudan ötüb-keçdim.
Ağ alınlı Bayındırın divanına çapar yetdim.
Ala gözlü bəylərlə yedim-içdim.
Hər kəsi öz qohum-qardaşıyla mehriban gördüm.
Bizdən tamam üz döndəribdir xan, gördüm.
Elimi-günümü köçürüb, gəlin,
Doqquz tümənlik Gürcüstana gedək,
Oğuz elindən üz döndərdim, qəti bilin!

Arvadı dedi: "İgidim, bəy igidim! Padşahlar allahın kölgəsidir. Padşahına ağ olanın işi düz gətirməz. Təmiz ürəkdə pas olsa, şərab açar. Sən gedəli, xanım, çılpaq qalan uca dağların ovlanmayıbdır. Ova atlan çıx, könlün açılsın!"

Bəkil gördü ki, arvadın ağlı-başı yaxşıdır. Qazlıq atını çəkdirib mindi. Ova getdi.

Ov ovlayıb gəzərkən qabağına bir yaralı keyik çıxdı. Bəkil onun üstünə at saldı. Buğanın arxasından yetişdi. Yay kirişini boynuna atdı.Buğa acıqlanmışdı. Özünü uca bir yerdən atdı. Bəkil atın cilovunu saxlaya bilməyib, keyiklə bərabər uçundu. Sağ oyluğu qayaya toxunub sındı. Bəkil ayağa durub bağladı. Dedi: "Böyük oğlum, böyük qardaşım da yoxdur!.." Sonra paltarının qolundan bez çıxarıb, atının tərkindəki qayışları dartıb qırdı. Qaftanının altından ayağını ata bərk sarıdı. Var qüvvəsi ilə atının yalına sərildi. Ovçulardan ayrı düşmüş Bəkilin sinəbağısı sürüşüb boğazına keçdi.Yaşadığı sahəyə yaxınlaşdı. Oğlu İmran pəhləvan atasının qarşısına gəldi. Gördü bənizi saralmışdır, sinəbağı boğazına keçmişdir. Oğlan burada Bəkilin yoldaşlarını soruşub soylamış görək, xanım, nə soylamışdır:

Qalxaraq yerindən durub gəldin,
Qara yallı gözəl Qazlıq atını mindin.
Yalçın uca dağlar ətəyinə ova getdin.
Qara donlu kafirlərlə rastlaşdınmı?
Ala gözlü igidlərini qırdırdınmı?
Öz dilinlə bir neçə söz söylə mənə!
Qara başım qurban olsun, ağam, sənə!

Bəkil oğluna soylamış, görək, xanım, nə soylamış, demişdir:

Oğul, ay oğul!
Qalxıb yerimdən durdum, gəldim.
Uca dağların döşünə ova çıxdım.
Qara donlu kafirlərə uğramadım.
Ala gözlü igidlərimi qırdırmadım.
Sağ-salamatdır, igidlərim, qəmlənmə!
Üç gündür ki, əhvalım yox, xəstəyəm!
Oğul, at üzərindən götür məni, yatağa sal! –dedi.

Aslan balası yenə aslandır. Atasını atın üstündən qarmalayıb tutdu, yatağına gətirdi; cübbəsini üzərinə atdı. Qapını örtdü.

Bu yandan igid bəylər gördülər ki, ov pozulmuşdur; hər biri öz evinə gəldi.

Bəkil beş gün öz divanına çıxmadı. Ayağının sındığını kimsəyə demədi.Bir gecə döşək üstündə bərk-bərk inlədi, ah-vay etdi. Arvadı dedi: "İgid bəyim, sürü ilə düşmən gəlsəydi, qorxmazdın. Atına iti ox dəysəydi, əyilməzdin. Adam öz qucağında yatan halal arvadına da sirrini deməzmi? Sənə nə olub?" Bəkil dedi: "Gözəlim,atdan düşdüm, ayağım sındı".

Arvad əlini əlinə vurub, qaravaşa xəbər verdi.Qaravaş da çıxıb qapıçıya söylədi. Otuz iki dişdən çıxan söz bütün camaat arasında yayıldı: "Bəkil atdan yıxılıb, ayağı sınıbdır"...

Deyilənə görə, kafirin casusu vardı. Bu xəbəri eşidib getdi, təkürə xəbər verdi. Təkür dedi: "Qalxıb yerinizdən durun, yatan yerdə Bəkil bəyi tutun! Ağ əllərini qollarından bağlayın. Gecikmədən gözəl başını kəsin. Al qanını yer üzünə tökün. Elini-yurdunu çapıb talayın. Qız-gəlinini əsir edin!"

Bəkilin də orada casusu vardı. Bəkilə xəbər göndərdi. Dedi: "Başınıza çarə eyləyin, üstünüzə düşmən gəlir." Bəkil yuxarı baxdı; "göy uzaq, yer də bərk!" – deyə düşündü. Oğlunu yanına çağırıb soylamış, görək, xanım, nə soylayıb demişdir:

Oğul, oğul, ay oğul!
Qaranlıq çökmüş gözümün işığı oğul!
Güçlü belimin qüvvəsi oğul!
Gör axırda nələr oldu,
Mənim başıma nələr gəldi.
Oğul, qalxaraq yerimdən durub getdim,
Boynu sınsın, o gözəl Al ayğırı mindim.
Ov ovlayıb quş vurarkən yoruldu,
sürüşərək məni yerə vurdu.
Sağ oyluğum sındı.
Gör, bəlalı başıma nələr gəldi.
Uca dağlardan xəbər aşmışdır,
Aşqın-daşqın sulardan xəbər keçmişdir.

Dəmir Qapı Dərbənddən xəbər getmişdir.
Alca atlı Şöklü Məlik bərk pusqu qurmuşdur.
Pusduğu vaxtdan uca dağlara duman düşmüşdür.
"Yatdığı yerdə Bəkil bəyi tutun!" – demişdir,
"Ağ əllərini qollarından bağlayın!" – demişdir.
"Qan töküb yerini-yurdunu çapın!" – demişdir.
"Ağ üzlü qız-gəlinin əsir tutun!" – demişdir.
Oğul, qalxaraq yerindən dur gəl!
Qarayallı gözəl Qazlıq atını min!
Yalçın qayalı Ala dağı gecəylə aşıb,
Ağ alınlı Bayındır xanın divanına get!
Ədəb-ərkanla Bayındır xana salam ver!
Bəylər bəyi olan Qazanın əlin öp!
"Ağ saqqallı atam xəstədir", söylə,
Qazan bəy mütləq mənə yetişsin, – söylə!
Gəlməsən, yurdumuz talandı, – söylə, –
Qız-gəlinim əsir getdi özgə elə!

Bu yerdə oğlan atasına söyləmiş, görək, xanım, nə söyləmiş, demişdir:

Ata, nə söyləyir, nə danışırsan?
Ürəyimi, bağrımı nə dağlayırsan?
Qalxaraq öz yerimdən çox durmuşam,
Qarayallı Qazlıq atıma çox minmişəm.
Arqubeli, Ala dağı ov xətrinə aşmamışam.
Ağ alınlı Bayındırın divanına getməmişəm.
Qazan kimdir? Mən onun əlini öpməmişəm.
Altındaki Al ayğırını mənə ver,
Elə çapım, bassın onu qoy qan-tər!
Əynindəki dəmir donunu mənə ver,
Qolçaq, yaxa tikdirim mən sənincin!
Böyük, iti polad qılıncı mənə ver,
Bircə anda başlar kəsim sənincin!
Qarğı budağından olan süngünü ver mənə,
Sancım onu mən sənincin düşmən köksünə!
Ağ lələkli iti oxunu ver mənə,
Atıb sancım istədiyin düşmənə!
Ala gözlü üç yüz igidi qoş mənə,
Məhəmməd dini yolunda döyüşüm mən.

Bəkil dedi: "Ölüm ağzın üçün, oğul! Bəlkə də mənim keçmiş günlərimi xatırlatmayacaqsan...Aya, geyimimi gətirin, oğlum geysin! Al ayğırımı gətirin, oğlum minsin! El vahiməyə düşməmiş oğlum gedib döyüş meydanına girsin!"

Oğlanı geyindirib-kecindirdilər. Gəlib ata-anası ilə görüşdü. Əllərini öpdü. Üç yüz igidi yanına salıb, döyüş meydanına getdi.

Al ayğır düşmən qoxusu hiss edəndə ayağını yerə döyərdi, tozu göyə çıxardı.

Kafirlər dedi: "Bu at Bəkilindir, biz qaçırıq". Təkür dedi: "Ədə, yaxşı baxın. Bu gələn Bəkilsə, sizdən əvvəl mən qaçıram".

Gözətçi gözlədi. Gördu ki, at Bəkilindir, ancaq Bəkil üstündə deyil. Atın belindəki quş kimi bir oğlandır. Gəlib təkürə xəbər verdi. Dedi: "At, yaraq və işıqlı zireh Bəkilindir, Bəkil içində deyil!" Təkür dedi: "Yüz adam seçin, gurultu qoparıb hay-küy salın, oğlanı qorxudun. Oğlan quş ürəkli olar, meydanı qoyub qaçacaq."

Yüz kafir seçilib oğlanın üzərinə gəldi. Kafir oğlana soylamış, görək, nə soylamışdır:

Oğlan, oğlan, ay oğlan,
Haramzada oğlan!
Altında Al ayğırı arıq oğlan.
Böyük, iti polad qılıncı gödək oğlan!
Əlindəki süngüsü sınıq oğlan!
Dəstəyi ağ tozlu, yayı nazik oğlan!
Biləyində doxsan oxu seyrək oğlan!
Yanındakı yoldaşları çılpaq oğlan!
Qaranlıq çökmüş gözləri çökük oğlan!
Şöklü Məlik səni möhkəm pusmuş,
Meydandakı o oğlanı tutun, demiş,
Əllərini-qollarını bağlayın, demiş.
Bircə anda gözəl başını kəsin, demiş.
Al qanını üzünə axıdın, demiş...
Ağ saqqallı atan varsa, ağlatma!
Ağ birçəkli anan varsa, inlətmə!
Yalqız igid alp olmaz,
Yovşan dibi bərk olmaz.
Əcəli çatmış əbləh oğlu əbləh,
Qayıdıb, dön burdan geri!

Oğlan da burada soylamış, görək, nə soylayıb, demişdir:

Ey itim kafir, hərzə-hərzə danışma!
Altımda Al ayğırımı nə bəyənmirsən?
Səni görüb oynayır.
Əynimdəki dəmir donum çiynimi qısır,
Böyük iti polad qılıncım qınını doğrayır.
Qarğı budağından süngümü nə bəyənmirsən?
Köksünü dələrək göyə fırladar.
Dəstəyi ağ tozlu bərk yayım zar-zar inləyir,

Oxlarım öz qabının kişini dəlir.
Yanımda igidlərim döyüş istəyir.
İgid adama hədə-qorxu gəlmək eyibdir.
Ay kafir,bəri gəl, döyüşək!

Kafir dedi: "Oğuzun arsızı türkmanın dəlisinə bənzəyir, buna bax a!.." Təkür dedi: "Gedin soruşun, oğlan Bəkilin nəyidir?" Kafir gəlib oğlana soylamış, görək, necə soylamışdır:

Bilirik ki, altındakı Al ayğır Bəkilindir,
Bəkil hanı?
Böyük, iti polad qılıncın Bəkilindir,
Bəkil hanı?
Əynindəki dəmir donun Bəkilindir,
Bəkil hanı?
Yanındakı igidlərin Bəkilindir,
Bəkil hanı?
Əgər Bəkil burdadırsa,
gecəyədək biz vuruşaq.
Dəstəyi ağ tozlu olan
bərk yaylar dartışdıraq.
Ağ lələkli kəskin, iti
oxlar ilə biz atışaq.
Sən Bəkilin, de, nəyisən,
tez ol, söylə bizə, oğlan!

Bəkilin oğlu burada söyləmiş, görək, xanım, nə söyləmiş, demişdir: "Ay kafir, sən məni tanımırsanmı? Ağ alınlı Bayındır xanın bəylərbəyisi Salur Qazan, onun qardaşı Qaragünə çaparaq yetişdi. Dönəbilməz Tülək-vuran, Dözən oğlu Alp Rüstəm, Boz atlı Beyrək bəy Bəkilin evində yeyib-içirdilər; casus səndən xəbər gətirdi. Altımdakı al ayğıra Bəkil məni mindirdi. Böyük iti polad qılıncını qüvvət üçün verdi; qarğı budağından olan süngüsünü qeyrət üçün verdi; üç yüz igidini mənə yoldaş kimi qoşdu. Mən Bəkilin oğluyam, ay kafir! Bəri gəl döyüşək!"

Kafir təkür dedi: "Hələ bir döz, əbləh oğlu, mən sənə gəlim çatım!" Altı pərli gürzünü ələ alıb, atını oğlanın üzərinə sürdü. Oğlan qalxanını gürzün qabağına tutdu. Kafir yuxarıdan aşağıya doğru oğlanı bərk vurdu: qalxanını ovdu, dəbilqəsini əzdi, üz-gözünü sıyırdı ancaq oğlanı məğlub edə bilmədi. Gürzlə döyüşdülər; böyük, iti polad qılıncla vuruşdular, atıla-atıla meydanda qılınclaşdılar; çiyiləri doğrandı, qılıncları ovulub töküldü, bir-birinə üstün gələ bilmədilər. Qarğı budağından olan süngülərlə çarpışdılar, meydanda buynuzlarını bir-birinə sancmaq istəyən buğalar kimi döş-döşə gəldilər; süngüləri sındı, bir-birini təslim edə bilmədilər. At üzərindən bir-birilə qapışıb-dartışdılar. Kafirin gücü çox idi, oğlan əldən düşdü. Allah taalaya yalvarıb soylamış, görək, necə soylamışdır:

Ucalardan ucasan, uca tanrı!
Kimsə bilməz necəsən, gözəl tanrı!
Sən Adəmə tac verdin,
Şeytana lənət etdin.
Bir günahdan ötrü qapından qovdun.
İbrahimi tutdurdun,
Xam gönə bürüdün.
Götürüb oda atdırdın.
Odu gülşənə döndərdin
Birliyinə sığındım, əziz allah, mənə kömək et!

Kafir dedi: "Oğlan, məğlub olanda allahınamı yalvarırsan? Sənin bir allahın varsa, mənim yetmiş iki bütxanəm var!"

Oğlan dedi: "Ey lənətə gəlmiş azğın, sən bütlərinə yalvarırsan, mən varlıqları yoxdan var edən allahıma sığınıram".

Allah taala Cəbrayıla buyurardu ki: "Ey Cəbrayıl, get; o quluma qırx kişi qüvvəsi verdim".

Oğlan kafiri götürüb yerə vurdu. Burnundan qanı düdük kimi şoruldadı. İmran sıçrayıb kafirin boğazını şahin kimi ələ keçirdi.

Kafir dedi: "İgid, aman ver, sizin dininiz hansıdır? Qəbul edirəm." Barmaq qaldırıb şəhadətini söylədi, müsəlman oldu. Qalan kafirlər bunu bildilər, meydanı qoyub qaçdılar.

İmranın yoldaşları kafirin yurd-yuvasını dağıtdılar, qızını-gəlinin əsir etdilər.

Oğlan öz atasına muştuluqçu göndərdi ki, döyüşdə qalib çıxdım. Ağ saqqallı atası onu qarşılayıb, boynunu qucaqladı. Dönüb evlərinə gəldilər. Atası uca dağda oğlan üçün yaylaq ayırdı. İti gedən Qaracıq atlar üçün tövlə ayırdı. Ağ üzlü oğluna şülənlik üçün ağca qoyunlar ayırdı. Ala gözlü oğluna al örtüklü gəlin aldı. Ağ alınlı Bayındır xan üçün pay ayırdı; oğlunu götürüb, onun divanına getdi. Əlini öpdü.

Padşah, Qazan oğlu Uruzun sağ yanında ona yer göstərdi. Gözəl naxışlı cübbə-çuxa geyindirdi.

Dədəm Qorqud gəlib şadlıq havası çaldı. Bu oğuznaməni düzdü-qoşdu, "Bəkil oğlu İmranın olsun!" – dedi. İgidlərin başına nə gəldiyini soyladı. Xeyir-dua verək, xanım!

Yerli uca dağların yıxılmasın!
Kölgəlik iri ağacın kəsilməsin!
Allah verən ümidin üzülməsin!
Günahınızı adı gözəl Məhəmmədə
bağışlasın allah, xanım, hey!!!

"KOROĞLU"DAN

Alı kişi

Alı kişi neçə illər idi ki, Həsən xana ilxı otarırdı. Ömrünü, gününü onun qapısında çürüdüb, saçını-saqqalını ilxıçılıqda ağartmışdı.

Hər gün səhər dan yeri ağaranda Alı kişi ilxını çölə aparar, bütün günü otarar, gecədən bir pas keçəndən sonra xalxala gətirərdi. Dağlarda, daşlarda, kövşənlərdə Alı kişinin ayağı dəyməmiş bir qarış da yer qalmamışdı.

Bir gün Alı kişi ilxını sürüb dərya kənarına aparmışdı. Atlar dəryanın kənarında otlayırdı. Alı kişi özü də bir tərəfdə daşa söykənib oturmuşdu. Dan yeri yenicə ağarmışdı, qoca ilxıçı bir də baxdı ki, budur, dəryadan iki ayğır at çıxdı. Atlar gəlib ilxıya qarışdılar. İki madyana yaxınlaşandan sonra yenə qayıdıb dəryaya girdilər. Alı kişi nə qədər ilxıçılıq eləmişdi, belə şey görməmişdi. Tez qalxıb madyanları manşırladı. Amma bu barədə heç kəsə bir söz demədi.

Bu işin üstündən bir neçə vaxt keçdi. Alı kişi ayları, günləri sayıb, madyanları gözdən qoymurdu. Elə ki, vədə başı yaxınlaşdı, Alı kişi madyanların yanından əl çəkmədi, o qədər gözlədi ki, axırda onlar doğdu. Qulunlar böyüyüb day oldular.

Bir gün Toqat paşası Hasan paşa Həsən xana qonaq gəldi. Həsən xan paşanı qonaq elədi. Paşa söhbət arasında xana dedi:

– Həsən xan, eşitmişəm sənin yaxşı cins atların var. Gərək ilxıdan mənə iki ayğırlıq at verəsən.

Həsən xan o saat "bəççşm" deyib, Alı kişini yanına çağırdı və tapşırdı:

– Sabah ilxını çölə aparma, paşa üçün iki ayğırlıq at tutduracağam.

Həsən xan bu sözü deyən kimi daylar Alı kişinin yadına düşdü. O, xanın başını uca etmək üçün səhər tezdən durdu. Dayları tutub xalxalda bağladı, ilxını sürüb çölə ötürdü.

Bir az sonra Həsən xan, paşa da yanında, xalxala gəldi. Paşa baxdı ki, xalxalda iki uzunorta, arıq, çöpüklü day bağlanıb. Bildi ki, bu dayları ona vermək istəyirlər, gülüb dedi:

– Həsən xan, mənə demişdilər ki, sənin yaxşı cins ayğırlıq atların var. Bunlar nədir? İş belə ələngə-üləngəyə qalsa, bunlardan mənim özümdə də çoxdur.

Paşanın sözü Həsən xana ox kimi dəydi. Üzünü Alı kişiyə tutub dedi:

– Axmaq qoca, mən sənə deməmişdimmi at tutduracağam, ilxını saxla; niyə saxlamamısan?

Alı kişi dedi:

– Xan sağ olsun, mən qoca ilxıçıyam. İlxıdakı atların hamısını ovcumun içi kimi tanıyıram. Sən bu dayların bcləliyinə baxma. Əgər başının uca olmağını istəyirsənsə paşaya bunları ver.

Alı kişinin yekə-yekə danışmağından Həsən xan daha da qəzəbləndi. Onun üstünə qışqırıb dedi:

– Mənim ilxımda aləmdə söylənən cins ayğırlıq atlar var. Bu ələngələri qonağa göstərib məni xəcalət eləməkdə məqsədin nədir?

Alı kişi dedi:

– Xan sağ olsun, mənim məqsədim paşanın yanında sənin başını uca cləməkdir. Sən bilirsən ki, mən yaxşı at tanıyanam. Sənin ilxında bunlardan yaxşı at yoxdur. Bütün dünyanı gəzsən, genə də belə at tapa bilməzsən.

Həsən xan qəzəblənib dedi:

– Bilmirəm. Bir saata qədər yerdə də olsa, göydə də olsa, gərək paşaya layiq, mənim adıma layiq iki dənə yaxşı ayğırlıq at seçəsən. Bu saat get, seç, gətir.

Alı kişi dedi:

– Xan, onda izin ver paşa üçün ayğır seçməyə başqa adam getsin. İlxıda bu daylardan yaxşı at yoxdur. Mən özüm başa düşə-düşə yaxşı at qoyub pis at seçə bilmərəm. Bu mənim adıma layiq olmaz.

Bu söz xanı cin atına mindirdi. Cəllad çağırıb əmr elədi ki, Alı kişinin boynunu vursun. Paşa da qəzəblənmişdi. Odur ki, dedi:

– Həsən xan, mən görürəm ki, sənin ilxıçın bu daylara çox böyük qiymət verir. Yəqin ki, elə o haqlıdır. Onda sən belə elə. Bu dayların hər birini onun bir gözünə qiymət elə.

Paşanın sözü Həsən xanın xoşuna gəldi. Əmr etdi, cəllad Alı kişinin gözlərini çıxartdı.

Alı kişi nə dindi, nə də səsini çıxartdı. Bir dəfə uf da eləmədi. Elə ki, cəllad işini qurtardı, Alı kişi ayağa qalxıb dedi:

– Həsən xan, insan üçün dünyada hər naz-nemətdən şirin şey gözdür. Sən məni ondan binəsib elədin. Mən sənin qapında can çürütdüm, ilan kimi qabıq qoydum, saç-saqqal ağartdım, amma sən bunların heç birini bilmədin, qədr-qiymət vermədin. Bir paşanın sözü ilə məni kor elədin. Ancaq eybi yoxdu. Bizimki belə gəlib. İndi ki, mənim gözlərimi bu daylara qiymət elədin, barı heç olmasa sözünün ağası ol. Bu dayları mənə ver.

Həsən xan dayların hərəsini onun bir qoluna bağlatdırıb qapısından qovdu.

Kor Alı, daylar da yedəyində, tapdana-tapdana öz evinə gəldi.

Kəndə xəbər düşdü. Camaat onun başına yığıldı. Xəbər gedib Alı kişinin oğlu Rövşənə çatdı.

Rövşən Rüstəm kimi igid, yeniyetmə, cavan bir oğlan idi. Amma elə güclü, elə qüvvətli idi ki, ağacın budağından yapışsa kökündən çıxardar, öküzün buynuzundan yapışsa yerindən dik qaldırardı.

Rövşən atasını bu halda görüb soruşdu:

– Ata, sənə nə olub? De görüm, səni kim bu hala salıb?

Alı kişi əhvalatı ona danışdı. Rövşən qızmış pələngə döndü. Ayağa qalxıb dedi:

– Oğlun sənin qisasını yerdə qoymaz, ata! İndi Həsən xan mənim qabağımda dayansın, görüm necə dayanır.

Kəndin cavanları da qalxdılar. Alı kişi işi belə görəndə oğlunu çağırıb yanında əyləşdirdi. Əlini onun çiyninə qoyub dedi:

– Hələ qisasın vaxtı deyil, bala! Vaxtında mən özüm deyəcəyəm. İndi diqqətlə qulaq as! Mənim gözlərim bu dayların üstündə çıxarılıb, bu dayların üstündə də gərək mənim qisasım alına. Bu dayları sənə tapşırıram. Bunlar elə-belə atlardan deyil. Bunlar dərya atından əmələ gəliblər. İndi sən gərək böyük bir tövlə tikəsən. Bu tövləyə gərək heç bir yerdən işıq deyilən şey düşməyə. Qırx gün tamam atlar bu tövlədə qalacaq, bayır-bucaq üzü görməyəcəklər. Bir bəni-insan gözü də gərək bu atlara baxmaya.

Rövşən dedi:

– Yaxşı, ata, belə olanda bəs mən onları necə yemləyəcəyəm? Necə suvaracağam?

Alı kişi dedi:

– Sən tövlədə hər day üçün qırx gözlü bir axur qayıracaqsan. Atların qırx günlük arpasını, samanını həmin bu axurlara dolduracaqsan. Kəndin başındakı Zümrüd bulaqdan tövlənin içərisinə bir arx açacaqsan. Hər axurun yanında da balaca bir çarhovuz tikəcəksən. Atlar qırx gün burada yeyib-içib bəslənəcəklər. İndi hələlik tövlə hazır olanacan dayları çək, bir yerdə bağla.

Rövşən qabaqca atasını rahladı, sonra dayların yerini sahmanlayıb tövləni hazırlamağa başladı. Elə ki, tövlə hazır oldu, Alı kişi gəlib əli ilə çarhovuzu, arxı, axurları yoxlayıb dedi:

– Yaxşıdı. İndi sən axurları doldur, suyu da hovuzlara bağla. Ancaq genə də sənə deyirəm: gərək tövləyə nə işıq düşə, nə də atlara bəni-insan gözü baxa.

Rövşən, atasının dediyi kimi, axurları doldurdu, suyu bağladı, atları içəriyə çəkib axurların qabağında həlqəbənd elədi, qapını, bacanı bərkidib çıxdı.

Bu işdən düz otuz səkkiz gün keçdi.

Atalar deyiblər ki, insan səbrsiz olar. Rövşən otuz səkkiz günü başa verdi. Otuz doqquzuncu gün nə qədər elədi, özünü saxlaya bilmədi ki, bilmədi. Elə bil ki, bir adam onun ürəyinə girib hey deyirdi: "qırx günə başa gələ bilən iş otuz doqquz günə də gələr. Get bir atlara bax!". Axır Rövşən gəlib tövlənin üstünə çıxdı, balaca bir deşik açıb içəriyə baxdı.

Rövşən əvvəl gözlərinə inana bilmədi. Sağ axurdakı atın çiyinlərində iki dənə qanad var idi. Qanadlar alov kimi yanır, qızıl kimi parıldayırdı. Rövşən tez sol axurdakı ata baxdı. Gördü yox, bu atın qanadı yoxdu. Gözlərini dolandırıb yenə də sağ tərəfdəki ata baxdı. Gördü qanad yavaş-ya-

vaş sönür. Rövşən tutduğu işdən peşiman oldu. Tez deşiyi örtmək istədi, ancaq iş-işdən keçmişdi. Qanadlar yavaş-yavaş əriyib axırda tamam yox oldular. Rövşənin bir əli oldu, bir başı. Ancaq hara çatacaq? Olan olmuşdu. Kor-peşiman deşiyi örtüb geri qayıtdı. Amma bu barədə atasına heç bir söz demədi.

Bəli, bu bir gün də gəlib keçdi. Qırxıncı gün Alı kişi Rövşəni çağırıb dedi:

– Bala, gəl məni atların yanına apar.

Rövşən atasının əlindən tutub tövləyə apardı. Alı kişi əvvəlcə sağ axurdakı ata yaxınlaşdı. Əlini atın süysünündən qoyub sağrısına qədər çəkdi. Sonra Rövşənə tərəf dönüb dedi:

– Oğlum, bu atlara bəni-insan gözü baxıb.

Rövşən bilmədi nə desin: soruşdu ki:

– Ata, sən nədən deyirsən?

Alı kişi dedi:

– Oğul, məndən gizlətmə. Mən sənə deyirəm ki, bu ata bəni-insan gözü baxıb. Bu atın gərək qanadı olaydı. Düzünü de görüm, bu necə olan işdir?

Rövşən əhvalatı atasına danışdı. Alı kişi dedi:

– Oğul, səbrsizlik adama ziyan verər. İndi sən də öz səbrsizliyinin ziyanını çəkirsən. Ancaq fikir eləməyə gəlməz. Olan olub, keçən keçib

Sonra o, sol axurdakı ata yaxınlaşdı. Bu at uzun caydaq, çəkmə sağrılı, nazik ortalı bir at olmuşdu. Əli ilə atın üzünü, gözünü, yalını, sağrısını tumarladı. Ondan sonra yenə də sağ tərəfdəki atın yanına qayıtdı. Bu at çox gözəlləşmişdi: iri başlı, dolu gözlü, qara birçəkli, uzun boyunlu, tökmə döşlü, yoğun, enli sağrılı... iki göz istəyirdi ki, ona tamaşa eləsin. At fınxırıb iki dal ayaqları üstə göyə qalxdı. Ağzını açıb Alı kişiyə yönəlmək istədi. Qoca ilxıçı atın üstünə qışqırdı. At səsindən onu tanıyıb sakit oldu. Alı bu atın da başını, üzünü, yalını, belini, sağrısını tumarladı. Sonra dedi:

– Oğul, hələ bir neçə gün də atları bayıra çıxarmaq olmaz. Qapını bağlamaq lazım deyil. Özün gündə gəlib yemləyib sulayarsan.

Rövşən atasını evə aparıb, özü tövləyə qayıtdı. Atlardan muğayat olmağa başladı.

Beləliklə, bir neçə gün də keçdi.

Bir gün yenə atası Rövşəndən soruşdu:

– Oğul, atlar necədirlər? Necə yeyirlər?

Rövşən dedi:

– Ata, sağ tərəfdəki at dəyirman kimi üyüdür. Arpa, saman yetirmək olmur. Sol tərəfdəki at da yaxşıdır. Ancaq ondan az yeyir. Özü də dincdir. Amma sağ tərəfdəki at heç durub dincəlmir. Qızmış nər kimi oyur-oyur oynuyur.

Qoca ilxıçı yenədə oğlu ilə bərabər tövləyə gəldi. Atları yoxlayıb dedi:

– Rövşən, oğul, atlar daha böyüyüb, minilmək həddinə çatıblar. İndi onları bir-bir bərkə-boşa salıb sınaqdan çıxartmaq lazımdır. Əzəl bunu,

sonrada o birisini min, təzəcə sulanmış şumda səyirt, qaratikanlığa sür, sonra da sıldırım daşlı dağa çap.

Rövşən, atasının öyrətdiyi kimi, əzəl sağ tərəfdəki atı mindi. Yenicə sulanmış şumda səyirtdi, sonra qoca ilxıçının yanına qaytardı. Təcrübəli qoca atın burnunu tutdu, at öskürmədi. Sonra ürəyinə qulaq asdı, baxdı ki, atın ürəyi heç töyşümür. Ondan sonra dırnaqlarını yoxladı. Bir qırıq da palçıq tapa bilmədi. Rövşən indi də o biri atı mindi, şuma sürdü, səyirdib yenə atasının yanına qaytardı. Alı kişi onun da ürəyini dinlədi, burnunu tutdu sıxdı, dırnağını yoxladı. Bu at öskürmədi, ürəyi töyşümədi, ancaq dırnağının birindən bir qırıq palçıq tapıldı. Rövşən bu dəfə birinci atı minib qaratikanlığa vurdu. At qaratikanlığı yarıb, ildırım kimi süzüb, ilxıçının yanında dayandı. Qoca ilxıçı onun baldırlarını, çeçiklərini yoxladı. Heç bir yerində nə bir tikan izi tapa bildi, nə də bir yara. O biri at da sınaqdan pis çıxmadı. Ancaq dal ayağının birini tikan azacıq cızmışdı.

Rövşən axırıncı sınaq üçün yenə də birinci atı minib sıldırım daşlığa saldı. At güllə kimi sıldırım daşlığa endi, qızılquş kimi uçub, qoca ilxıçının bərabərində dayandı. Qoca Alı atın qabaq ayaqlarının üylərini bərk sıxdı, at nə diksindi, nə də qırpındı.

İndi növbə ikinci atın idi. Rövşən bu atı da minib sıldırım aşağı əldən qoydu. At çeçiklərini daşlara çırpa-çırpa sıldırımı endi.

Qoca Alı dedi:

– Oğul, Rövşən, birinci at sınaqdan çox yaxşı çıxdı, ikinci at da pis çıxmadı, əmək itirmədi. Ancaq birinci ata çata bilməz. Bu atın tayı-bərabəri çarx altında tapılmaz. Birinci atın adını Qırat, ikinci atın adını Dürat qoyuram. Həmişə qorxulu səfərlərə, düşmən üstünə, qalalar almağa gedəndə Qıratı minərsən, Qırat səni çox darlardan, çox ölümlərdən qurtaracaq. Qıratın qədrini yaxşı bil, onu candan əziz saxla!

Sonra Alı kişi dedi:

– Oğul, atlar böyüdü. Sınaqdan çıxdı. İndi Həsən xandan qisas almaq vaxtı çatıb. Çək atları yəhərlə, gedib Həsən xanla haqq-hesabımızı çəkək.

Hələ uşaqlıqda bir gün Rövşən çöldə oynadığı vaxt yerdən bir daş tapmışdı. Daş balaca idi, amma çox ağır, çox da samballı idi. Özü də işımişım işıldayır, par-par parıldayırdı.

Rövşən daşı yerdən götürüb, örüşdə otlayan bir buzova atdı. Daş buzova dəymədi, amma elə yeli buzovu yıxıb öldürdü. Rövşən qayıtdı, əhvalatı atasına danışdı.

Alı kişi Rövşənin sözlərinə qulaq asıb dedi:

– Oğul, Rövşən, get buzov yiyəsini tap, buzovun cəriməsini ver, razı sal. Sonra da haman daşı tap, mənim yanıma gətir.

Rövşən getdi, əzəl buzov yiyəsini razı elədi, sonra da daşı tapıb gətirdi. Alı kişi daşı o üzünə, bu üzünə çevirib yoxladı. Baxdı ki, daş göydən düşmüş ildırım parçasıdır.

Sabahısı gün Alı kişi Rövşəndən xəlvət ildırım parçasını götürüb bir ustanın yanına apardı. Salam-əleykəssalamdan sonra daşın bir balaca tikəsini ustaya verib dedi:

– Usta, bu daşdan mənə bir biz qayır.

Usta bir daşa baxdı, bir də dönüb diqqətlə Alı kişiyə baxdı. Daşı qaytarıb dedi:

– Alı kişi, sən bir dünya görmüş kişisən, heç daşdan da biz olar?

Çox çənə-boğazdan sonra axırı Alı kişi ustanı razı elədi ki, daşı bir zindanın üstünə qoyub döysün, görsün döyülür, ya yox. Usta baxdı ki, doğrudan da, bu daş mum kimi bir şeydir. Alı kişiyə dediyi sözlərə peşman oldu. Daşdan bir biz qayırıb ona qaytardı. Alı kişi ustanın haqqını verdi, bizi cibində gizlətdi. Daşın qalanını bir misri qılınc qayıranın yanına aparıb dedi:

– Usta, bundan mənə bir qılınc çək!

Bu usta əvvəlkindən də uzunçu idi. Qərəz, uzun çək-çevirdən sonra Alı kişi bu ustanı da razı elədi.

Usta yeddi günə daşdan bir qılınc qayırdı. Elə ki, qılınc hazır oldu, usta baxdı ki, qılınc... nə qılınc. Vallah, bu elə bir qılıncdır ki, gün kimi yanır, ay kimi nur saçır.

Ustanın qılınca gözü düşdü.

Elə ki, vədə tamamında Alı kişi qılınc üçün gəldi, usta ona öz qılıncını verməyib, əvəzində ayrı bir qılınc verdi. Ancaq alı kişi işin əvvəldən möhkəm tutmuşdu. Dinməz, söyləməz cibindən bizi çıxarıb, qılıncın tiyəsinə basdı. Biz qılıncı dəlib, o biri tərəfinə keçdi.

Usta baxdı ki, Alı kişini aldada bilməyəcək, naçar qalıb, onun öz qılıncını özünə verdi. Alı kişi qılıncı götürüb evlərinə gəldi. Amma bu barədə oğlu Rövşənə heç bir söz demədi.

Elə ki, Rövşən Qıratı, Düratı ifçin yəhərləyib, atasının bərabərinə çəkdi, Alı kişi hər şeyi hazır görəndə evə girdi, haman qılıncı gizlətdiyi yerdən götürüb, oğlu Rövşənə verib dedi:

– Rövşən, al bu qılıncı belinə bağla. Bu qılınc sən gördüyün qılınclara bənzəməz. Bu qılınca ildırım qılınc deyərlər. Bu elə bir qılıncdır ki, qabağında heç bir şey dayanmaz. Hər nəyə vursan kəsər, tökər. Bu qılınc ilə sən xanlara, bəylərə, paşalara qan udduracaqsan. Bu qılınc ilə müxənnətlər, namərdlər sənin əlindən dad çəkəcəklər. Bu qılınc ilə sən qalalar sındıracaqsan, səddlər dağıdcaqsan. Ancaq bunun ildırım qılınc olduğunu heç kəsə bildirmə. Bundan sonra bunun adına misri qılınc deyərsən. Nə qədər ki, sən Qıratın belindəsən, bu qılınc da sənin belindədir, heç bir düşmən sənə bata bilməyəcək.

Rövşən qılıncı atasından alıb belinə bağladı. Alı kişi Dürata, Rövşən də Qırata minib yola düşdülər.

Az getdilər, çox getdilər, axırda gəlib Həsən xanın imarətinə çatdılar. Rövşən bir tərəfdə dayandı. Qoca Alı kişi Düratı imarətin qabağına sürüb Həsən xanı çağırdı. Həsən xan çıxıb qoca Alı kişini yalmanına əl çatma-

yan, uzun yallı bir atın üstündə gördü. Xan o tərəfə baxanda gördü, Alının oğlu da burdadı. Özü də bir ata minib, bir ata minib ki, ruzigarın gözü hələ belə at görməyib.

Alı kişi dedi:

– Həsən xan, bu atlar sənin bəyənmədiyin o çöpüklü qulunlardır. Sən bunların üstündə mənim gözlərimi çıxartdırdın. Bax, gör necə atlar olublar?

Alı kişi sonra dedi:

– Həsən xan, mən sənə yaxşılıq eləmək istədim, sən anlamadın. Mənim yaxşılığımın əvəzində məni dünya işığına həsrət qoydun. İndi səndən qisasımı almağa gəlmişəm. Əlindən gələni əsirgəsən, kişi deyilsən.

Həsən xanı Alının bu sözündən acıqlandı, qılınc çəkib kişinin üstünə cumdu. Rövşən Qıratı onun üstünə sürdü. İldırımdan qayrılmış misri qılıncın göydə parıldamağı ilə xanın başının yerə dığırlanmağı bir oldu. Səs-küy qopdu. Qoşun onların üstünə yeridi. Rövşən özünü qoşuna vurdu. Bir yandan Qırat, bir yandan Dürat, bir yandan da Rövşən misri qılıncla qoşunun qabaq dəstəsini qırıb dağıtdılar.

Ancaq qoşunun dalı kəsilmirdi. Dəstə dəstənin dalınca gəlirdi. Qarışqanın sayı var idi, qoşunun sayı yoxdu. Alı kişi bunu başa düşüb dedi:

– Oğul, bu qədər qoşuna sən tək cavab verə bilməzsən. Axırda ya öldürərlər, ya da diri tutarlar. Sür atları, özümüzü bu qoşundan salamat qurtaraq!

Rövşən əzəl atasının sözünə baxmadı. Yenə də özünü qoşuna vurdu. Başlar kəsdi, qollar qırdı, mərd-mərdana dava elədi. Ancaq kor atasının ələ keçəcəyindən qorxub, əlacsız davadan əl çəkdi. Atası ilə bərabər atları sürüb çölə tərəf üz qoydular.

Qoşun da əl çəkməyib, onların dalına düşdü. Bir xeyli getmişdilər ki, bir də Rövşən Qıratın başını çəkdi. Dönüb geri baxanda gördü ki, bir dəstə kəhər atlı ildırım kimi gəlir; dedi:

– Ata, bir dəstə kəhər atlı yetirhayetirdədilər.

Alı kişi dedi:

– Oğul, Rövşən, ağızlarını sulanmış şuma sal!

Rövşən atları şuma saldı. Kəhər atların heç biri şumdan çıxa bilmədi. Hamısı batıb qaldı. Qırat ilə Dürat ildırım kimi şumdan çıxıb yola düşdülər. Bir az da getmişdilər ki, yenə Rövşən Qıratın yüyənini çəkib geri baxdı. Gördü bu dəfə də bir dəstə qara atlı, budur, ley kimi gəlir; dedi:

– Ata, bir dəstə qara atlı yetirhayetirdədir.

Alı kişi dedi:

– Bala, ağızlarını qaratikanlığa sal!

Rövşən atları qaratikanlığa sürdü. Qara atlılar da özlərini tikanlığa vurdular. Amma, heç biri kənara çıxa bilmədi. Hamısının baldırları qızıl qana boyanıb qaldı.

Rövşən bir az da getmişdi, bir də atın cilovunu dartdı, qanrılıb geri baxanda gördü indi də bir dəstə ağ atlı çathaçatdadı; dedi:

– Ata, bir dəstə ağ atlı yetirhayctirdədir.

Atası dedi:

– Oğul, qorxma, ağızlarını daşlığa sal!

Rövşən atları daşlığa dırmaşdırdı. Ağ atlar sıldırım daşlıqlara çıxa bilməyib yarı yolda qaldılar. Qırat ilə Dürat qızılquş kimi süzüb, sıldırım qayaların dalında gözdən itdilər.

Ata-oğul axşama qədər yol gedib. Axşam üstü bir çayın qırağına çatdılar. Alı kişi buranın neçə yer olduğunu oğlundan xəbər aldı:

– Ata, bura ağaclı, otlu bir yerdir. Ortadan da bir çay axır.

Alı kişi dedi:

– Oğul, burada yurd salmaq olmaz. İlxının, mal-qaranın əlindən dincələ bilmərik. Bir də ki, xanlar, paşalar xəbər tutar, bizə namərdlik eləyər.

Ata-oğul o gecə çay qırağında qaldılar. Sabah açıldı, yenə qalxıb yola düşdülər. Az getdilər, çox getdilər, axşam bir düzəngaha çatdılar. Alı oranın da nə cür yer olduğunu Rövşəndən soruşdu. Rövşən cavab verdi ki:

– Ata, bura ucu-bucağı görünməyən bir düzəngahdır.

Alı kişi dedi:

– Burada da qalmaq olmaz, orada atlanan burada düşər. Karvanların ayaqları altında qalarıq.

Bu gecəni də burada gecələyib, sabah yenə yola düşdülər. Getdilər, getdilər, bir uca dağın belinə çatdılar. Alı kişi soruşdu:

– Oğlum, bura necə yerdir?

Rövşən dedi:

– Ata, bura hər tərəfi sıldırım qayalıq, çənli, çiskinli bir dağ belidir.

Alı kişi soruşdu:

– Oğul, bax gör, bu bel ki, deyirsən, bunun hər tərəfində bir uca qaya görünmür ki?

Rövşən dedi:

– Ata, görünür. Biri sağında, biri də solunda. Özü də başları qardır.

Alı dedi:

– Oğul, mənim axtardığım yer elə buradır. Mən buranı çox yaxşı tanıyıram. Cavan vaxtlarda burada çox at oynatmışam. Çox ceyranlara ox atmışam, çox cüyürlər ovlamışam. Bura mənim köhnə oylağımdır. Buraya Çənlibel deyirlər. Biz burada yurd salmalıyıq. İndi özümüzə bir olacaq, atlarımıza da bir tövlə tik.

Rövşən özləri üçün bir olacaq, atlar üçün də bir tövlə tikdi. Ata-oğul Çənlibeldə yurd saldılar, yaşamağa başladılar.

Günlərin bir günü Alı kişi Rövşəni yanına çağırıb dedi:

– Oğul, buradakı dağların birində bir cüt bulaq var, adına Qoşabulaq deyərlər. Yeddi ildən yeddi ilə cümə axşamı məşriq tərəfdən bir ulduz, məğrib tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib göyün ortasında toqquşarlar. Onlar toqquşanda Qoşabulağa nur tökülər, köpüklənib daşar. Hər kim Qoşabulağın o köpüyündə çimsə elə qüvvətli bir igid olar ki,

dünyada misli-bərabəri tapılmaz. Hər kim Qoşabulağın suyundan içsə, aşıq olar. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, quşlar qanad salar, atlar, qatırlar dırnaq tökər. Çox igidlər, şahzadələr bu su üçün gəliblər, ancaq heç birinin baxtı yar olmayıb. İndi yeddi il tamam olhaoldur. Vədə çatıb. Get, axtar. Qoşabulağı tap, ancaq köpüyündən bir qab da doldurub mənə gətir!

Rövşən getdi, dağları, daşları əndər-döndər elədi. Axırda bir dağa çatdı. Gördü dağın bir tərəfində uca, sıldırım, əl çatmaz, ün yetməz bir qaya var. Qaya elə bir qayadır ki, igid istəyir üstünə çıxsın. Rövşən qayanın dörd tərəfini dolandı, göz gəzdirdi, əl tutan bir yer tapa bilmədi. Axırda belindəki kəməndini açıb, qayaya atdı. Min ənvai-müsibətlə qayaya dırmaşdı. Baxdı ki, bura elə çəməzar, laləzar bir yerdir, daha nə deyim. Gül gülü çağırır, bülbül bülbülü. Elə bil ki, bu sıldırım qayanın üstündə bir bağça şəkli çəkilib, yetmiş iki qələmlə yetmiş iki rəng vurulub. Ortalıqda qoca bir ağac, altında da Qoşabulaq durna gözü kimi qaynayır, göz yaşı kimi axıb ətrafı süd gölünə döndərir. Rövşn o qədər gözlədi ki, axşam oldu. Gecədən bir xeyli keçdi. Bir də gördü ki, məşriqdən bir ulduz, məğribdən də bir ulduz doğdu. Ulduzlar gəlib düz Qoşabulağın üstündə toqquşdular. Ulduzların toqquşmasından Qoşabulaq daşdı. Ağ köpük adam boyu qalxdı. Rövşən köpükdən bir qab doldurub içdi. Təzədən bir qab da doldurmaq istəyəndə baxdı ki, ey dadi-bidad... köpük hayanda idi. Bulaqlar yenə də elə durulub, elə durulub ki, elə bil göz yaşıdır axır. Rövşən bir başına, bir dizinə vurdu. Ancaq hara çatacaq... Qabı da götürüb kor-peşman geri döndü, əhvalatı atasına danışdı.

Alı kişi bir ah çəkib dedi:

– Mənim gözlərimin dərmanı o köpükdə idi. O da ki, ələ gəlmədi.

Rövşənin dərdi bir idi, min oldu. Başına, gözünə döyməyə başladı ki, mən niyə qabaqca özüm içdim. Alı kişi dedi:

– Oğul, cəza-fəzə eləməkdən bir şey çıxmaz. Keçənə güzəşt deyərlər. Görünür, bir də səni görmək mənə qismət deyilmiş. Day mənim əcəlim tamamdır. İndi qulaq as, sənə bir-iki sözüm var.

Rövşən atasının yanında əyləşdi. Alı kişi dedi:

– Bala, ay keçər, il dolanar, sənin adın məğribdən məşriqətən bütün dünyada məşhur olar. O köpükdən sənin qollarına qüvvət, özünə də şairlik verildi. Bir də sənin səsinə, nərənə elə bir qüvvət gələcək ki, İsrafilin suri onun yanında milçək vızıltısı olacıq. Bəylər, xanlar, paşalar sənin adın gələndə qorxudan diz çökəcəklər. Nə qədər ki, misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən, sənə heç kəs dov gələ bilməyəcək. Ancaq bu həndəvərdə məşhur bir qaçaq var, adına Dəli Həsən deyərlər. Özünü bircə ondan gözlə. Get, sənin adını Koroğlu qoydum!

Alı kişi vəsiyyətini eləyib ömrünü öz oğluna bağışladı.

Koroğlu atasını Qoşabulağın yanında dəfn eləyib, o gündən Çənlibeldə yurd-yuva saldı.

Durna teli

Eyvaz Çənlibelə gələndən bəri Nigar xanımın ürəyi yerinə gəlmişdi. Qoç Koroğlu kimi ər bir yanında, Eyvaz kimi oğul bir yanında, dəlilər də ki, gözünün qabağında, day dünyada bir kef var idi, o da Nigar xanımda idi. Amma Koroğlunun kefi ondan da saz idi. O özünə həm oğul gətirmişdi, həm də arxa, kömək gətirmişdi. Eyvaz igidlikdə, mərdlikdə dəlilərin arasında ad qazanmışdı, canlara dəyən bir oğlan olmuşdu.

Koroğlunun bir xasiyyəti vardı ki, boş vaxtlarda həmişə dəlilərlə məşq eləyərdi. At minmək, nizə oynatmaq, qılınc vurmaq, qalxan tutmaq, ox atmaq onların səhər-axşam peşələri idi.

Yenə belə günlərin biri idi. Dəlilər bölük-bölük olub məşq eləyərdilər. Eyvaz da yaraqlanıb, yasaqlanıb bir dəstə atlı ilə dava məşqinə çıxmışdı.

Koroğlu, Dəmirçioğlu da yanında bir uca yerdə durub məşqə baxırdı. Xanımlar da onların yanında idilər. Bir də baxdılar ki, budu, bir dəstə atlı çapa-çapa gəlir, qabaqlarında da Eyvaz, nə Eyvaz... Ərəb atın belində, misri qılınc dəstində, tülək-tərlan şəstində, min bir canın qəsdində, elə süzür, elə süzür ki, elə bil oxdu yayından qopub. Durna telini də ki, sancıb başına, elə bil qeysər balasıdır başına cıqqa qoyub.

Nigar xanım baxdı, özünü saxlaya bilmədi, üzün Koroğluya tutub dedi:

– Koroğlu, bir bu yana bax, gör o gələn kimdi?

Sən demə elə Koroğlu da ona baxırmış. Nigar deyəndə Koroğlu sazı basdı döşünə dedi:

Nigar xanım, sənə deyim,
Bu gələn Eyvaz, bu gələn.
Əynində var polad geyim,
Bu gələn Eyvaz, bu gələn.

Eyvazım on beş yaşında,
Qüdrət qələmi qaşında,
Durna teli var başında,
Bu gələn Eyvaz, bu gələn.

Meydanda igidlər mərdi,
Qabaqda ər oğlu ordi,
Dava günü qızmış nərdi,
Bu gələn Eyvaz, bu gələn.

Misri qılınc dəstindədi,
Ərəb atın üstündədi,
Şirin canın qəsdindədi,
Bu gələn Eyvaz, bu gələn.

Cəmi dəlilərin xası,
Meydanda var mərd davası,
Koroğlunun qoç balası,
Bu gələn Eyvaz, bu gələn.

Telli xanım da burada idi. Dəmirçioğlu sağalmışdı deyin onun da kefi saz idi. Baxıb, baxıb birdən qayıtdı ki:

– Nigar xanım, görürsənmi durna teli Eyvaza necə yaraşır? Gör o, kişilərə elə yaraşanda bizə necə yaraşar? Gəl, uşaqları göndərək gedib bizə də durna teli gətirsinlər.

Elə bu sözdə Eyvaz gəlib çatdı onların bərabərinə. Atdan düşüb Nigar xanıma, Koroğluya, Dəmirçioğluya, xanımlara salam verdi, ondan üzünü Koroğluya tutub dedi:

– Eşidirsənmi? Xanımlar durna teli istəyirlər. İzin ver, gedim onlara durna teli gətirim.

Koroğlu bir istədi izin verməsin. Qorxdu ki, gedə başına bir xəta-zad gələ. Bir də fikirləşdi ki, getsə yaxşıdı. İgidin başı qalda gərək. Bərkə-boşa düşsə yaxşıdı. Döndü Nigar xanıma soruşdu:

– Nə deyirsən? Getsin, getməsin?

Nigar döndü Eyvaza baxdı. Gördü vallah Eyvaz elə baxır, elə baxır ki, elə bil gözləri ilə dil olub yalvarır. Ürəyi tablamadı. Onu sındırmaq istəmədi. İzin verdi.

Dəmirçioğlu işi belə görcək irəli yeriyib dedi:

– Koroğlu, izin ver mən də gedim.

Kosa Səfər dedi:

– Sən hələ təzə yorğan-döşəkdən durubsan.

Dəmirçioğlu qoymadı ki, Kosa Səfər sözünü qurtarsın, dedi:

– Yox, Kosa Səfər, gedəcəyəm. Heç o yan-bu yanı yoxdu.

Koroğlu dedi:

– Səbəbi nədi ki, sən belə hökmən getmək istəyirsən?

Dəmirçioğlu dedi:

– Birinci odu ki, Eyvaz hələ cavandı, tək gedə bilməz. İkinci də odur ki, durna telini Telli xanım istədi. Yaraşmaz ki, mən evdə otıram, bu səfərə başqası gedə.

Koroğlu ona da izin verdi. Bu dəmdə Bəlli Əhməd dəlilərin içindən çıxdı. Dedi:

– Koroğlu, izin ver, mən də gedim.

Koroğlu Bəlli Əhmədə də izin verdi. Yol uzaq olduğuna görə Eyvaz Qıratı mindi. Dəmirçioğlu ilə Bəlli Əhməd də hərəsi bir seçmə at minib yola düzəldidər. At sürdülər, dərə keçdilər, düz getdilər, gəlib Bağdad ətrafına çatdılar.

Baxdılar burada o qədər durna var, o qədər durna var ki, çınqıl kimi. Atları ota buraxıb, özləri ox yaylarını götürüb başladılar durna ovlamağa. Ha birini, ha beşini, on beşini... Qərəz, bir-iki saatın içində bir aləm dur-

na vurdular. Əyləşib bunların tellərini yolub heybələrə yığdılar, ətlərindən də kabab çəkib xurma ağacının dibində yeməyə başladılar. O ola durna ətinin kababı, xurma ağacının sərini... yeyib, içib hərəsi bir tərəfdə yuxuya getdilər.

Sən demə, Bağdad paşası Aslan paşanın qoruqçusu bunlara göz qoyurmuş. Elə ki, onlar yuxuya getdilər, qoruqçu daban aldı Aslan paşanın yanına ki, bəs:

– Nə oturursan? Üç nəfər nabələd adam gəlib, bu namda, bu nişanda; özləri də filan bulağın başında yatıblar. Amma içlərində bir nəfər var, lap Koroğlunun özüdür ki, durub.

Qoruqçu bu sözləri decək, xotkarın fərmanı düşdü Aslan paşanın yadına. Koroğlunun Türkmana gedib Ərəb Reyhanla vuruşmağı, Eyvazı Çənlibelə gətirməyi bütün aləmə səs salmışdı. Xotkar bu işdən sonra götürüb genə bütün paşalara fərman yazmışdı ki, bəs Koroğlunun ya özünü, ya dəlilərini öldürənə ənam verəcək, görüb xəbər verməyəni dar ağacından asacaq. Fərmandan birisi də gəlib Bağdadda Aslan paşaya çatmışdı. Odu ki, indi qoruqçu Koroğlu adını çəkcək, Aslan paşa qoşun böyüyünü çağırıb hökm elədi ki, hazırlaşsın.

Bəli, təbil vuruldu. Qoşun yığıldı. Yaraqlanıb, yasaqlanıb yola düşdülər.

Qırat ayaqlarını yerə döyüb kişnəməyə başladı. Dəmirçioğlu ilə Bəlli Əhməd Qıratın səsinə yuxudan ayılıb gördülər ki, qoşun dörd bir yanı tutub. Bəlli Əhməd əl elədi qılınca. Dəmirçioğlu tutdu onun əlindən ki:

– Nə eləyirsən? Görmürsən Eyvaz yatıb? Onu oyatmamış dava eləmək olmaz. Sonra bir-birimizdən ayrı düşərik. Eyvaz ələ keçər.

Bunu deyib Dəmirçioğlu başladı Eyvazı oyatmağa. Amma nə qədər elədi, Eyvaz oyanmadı. Səslədilər, tutub silkələdilər bir nəticə hasil olmadı. Qoşunun da ki dalı kəsilmirdi. Dönmüşdü çəyirtkəyə, gəldikcə gəlirdi. Dəmirçioğlu axırda əlacsız qalıb sazı götürüb aldı, görək nə dedi:

Qoşun gəlib dörd yanımız aldılar,
Belə nə yatmısan, ayıl, Eyvaz xan!..
Hər tərəfdən mansıraya saldılar,
Axırda olarıq zayıl, Eyvaz xan!..

Qəbul qılma müxənnətin sözünü,
Sənə ərz eylədim sözün düzünü,
Dur göstər yağıya dönməz üzünü,
Gün kimi aləmə yayıl, Eyvaz xan!..

İnsafdırmı Bəlli Əhməd tutula,
Qulac qolu dal gərdəndə çatıla,
Dəmirçioğlu qul adına satıla,
Koroğlu dəlisi sayıl, Eyvaz xan!..

Eyvaz sazın səsinə yuxudan oyandı. Baxdı ki, qoşun hər tərəfi alıb. İstədilər durub atlansınlar. Baxdılar ki, at hayanda idi. Atları çoxdan halqamərəkə eləyib, kəmənd atıb tutublar. Qaldılar piyada. Bu tərəfdən də Aslan paşa əmr verdi ki, hücum eləyib onları tutsunlarö qoşun hərəkətə gələndə Dəmirçioğlu bir dəli nərə çəkib, əl atdı misri qılınca. Dəlilər üç tərəfdən özlərini vurdular dəryayi-ləşkərə. Sağdan vurdular, soldan çıxdılar, soldan vurdular, sağdan çıxdılar. Amma nə qədər qırdılarsa, nə qoşunun dalı kəsildi, nə də ki, bir yol tapıb aradan çıxa bildilər. Piyadalıq dəliləri əldən-dildən saldı. Amanlarını kəsdi. Axırda onları bir-birlərindən ayrı salıb təklədilər, üçünü də tutub atları ilə bərabər şəhərə gətirdilər.

İndi bunlar burada qalmaqda olsunlar, sənə kimdən deyim, Xoca Əzizdən.

Koroğlunun bir bəzirgan dostu var idi. Adı Xoca Əziz idi. Xoca Əziz neçə illər Koroğlu ilə dostluq eləmişdi. İndi Eyvazgil tutulan vaxtda o da mallarını satmaq üçün Bağdada gəlmişdi. Qoşun elə ki, Eyvazgili tutub şəhərə tərəf gəlməyə üz qoydu, bazara səs düşdü ki, bəs üç nəfər quldur tutublar, asmağa aparırlar. Bazar adamı hamısı çıxdı onların tamaşasına. Xoca Əziz də bu adamların içində idi. . Gözlə ha gözlə, axırda dəstənin ucu açıldı. Aslan paşa keçdi, qoşun böyükləri keçdi, atlılar keçdi. Bir də baxdılar ki, budu, bir bölük qoşun dustaqları ortalığa alıb gətirir. Xoca Əziz gördü nə? Tutulan Eyvazdı, Dəmirçioğlu, bir də Bəlli Əhməddi. Dünya-aləm Xoca Əzizin gözündə qaraldı. Dedi: "Ey dadi-bidad!.. Bu zalım oğlu zalım uşaqları öldürəcək". Qaldı mat-məəttəl ki: "Nə təhər eləyim? Mənim burda əlimdən bir iş gəlmiyəcək. Burada qılınc vurmaq lazımdır. Xəbərə getsəm də buradan Çənlibelə azı bir həftəlik yoldu. Mən gedəsi, xəbər verəsi, Koroğlu gələsi, yəqin ki, onları öldürərlər".

Xoca Əziz elə bu götür-qoyda idi bir də gördü budu, dustaqlardan bir az aralı üç dənə at gətirirlər. Belə baxanda Qıratı tanıdı. Öz-özünə dedi: "Ey dili qafil, tapmışam. Nə təhər olsa, gərək Qıratı ələ keçirib Koroğluya xəbər çatdıram". Bunu deyib Xoca Əziz düşdü onların dalına. Gəlhagəl, gəlhagəl, gəlib çatdılar Aslan paşanın imarətinin qabağına.

Aslan paşa dedi:

– Özlərini zindana salın, atları buraya gətirin.

Keşikçilər Eyvazgili aparıb saldılar zindana. Mehtərlər də atları çəkdilər Aslan paşanın qabağına. Aslan paşa əmr elədi, mehtərbaşı qabaqca Dəmirçioğlunun atını minib gərdişə gətirdi. Bir o başa sürdü, bir bu başa sürdü, gətirib Aslan paşanın qabağında saxladı. At Aslan paşanın xoşuna gəldi. Ondan mehtərbaşı Bəlli Əhmədin atını minib cövlana gətirdi. Aslan paşa bu atı da bəyəndi. Növbə Qırata gəldi. Yazıq Xoca Əziz içini yeyə-yeyə qalmışdı. Bilmirdi neynəsin. Ürəyində qoymuşdu ki: "Əgər bütün var-yoxdan da çıxmalı olsam, gərək Qıratı ələ keçirdəm". Bəli, mehtərbaşı Qıratı mindi, nə qədər elədisə, at yerindən tərpənmədi. Mehtərbaşı axırda hirslənib ata bir taziyana çəkdi. Qırat bir az da qulaqlarını salladı. Mehtərbaşı bir taziyanə də çəkəndə at quyruğunu qısdı, gözləri-

nin birini yumdu, axsaya-axsaya yeriməyə başladı. Aslan paşa gülüb dedi:

– Görünür ki, bunlardan ikisi ağadı, birisi nökər. Bu nökərin atıdı. Çünki elə sir-sifətindən də nökərə oxşayır.

Sonra üzünü mehtərbaşıya tutub dedi:

– O iki atı ilxıya qat! Bu ələngəni də ver o qoruqçuya. Qoy aparıb minsin. Genə ayağını yerdən götürər.

Qıratı verdilər qoruqçuya. Aslan paşanın hərəkəti qoruqçuya yaman dəymişdi. O, gətirdiyi xəbərə görə ənam gözləyirdi, xələt gözləyirdi. İndi bir şilxor yabının birini vermişdilər yedəyinə. Odu ki, qoruqçu yaman pərt olmuşdu. Xoca Əziz işi belə görəndə ürəyində Qırata afərin dedi. Sonra camaatı yarıb özünü qoruqçuya yetirdi. Dedi:

- Ayə, qoruqçu, neçə verim bu şilxor yabıya?

Söz qoruqçunu lap götürdü. Başladı söyüb savaşmağa, Xoca Əziz onu danlayıb başladı dəlil-dəlayil eləməyə ki: "Balam day bizi niyə söyürsən? Biz nə günahın sahibiyik?"

Qərəz, o yan-bu yan, Xoca Əziz yağlı dilini işə salıb qoruqçunun hirsini yatırdı. Axırı ki, Xoca Əziz bir az pul verib, Qıratı qoruqçudan aldı.

Xoca Əziz dayanmayıb, atı birbaş çəkdi düşdüyü mənzilin həyətinə. Tez qabağına bir az arpadan, samandan töküb özünü yetirdi bazara. Bir batman qır-saqqız, bir top da bez alıb gəldi evə. O qədər gözlədi ki, qaş qaraldı. Ocağı asıb qır-saqqızı tökdü tiyana, əridib clədi mum kimi. Sonra bunu bezin üstünə sürtüb möhkəm-möhkəm sarıdı Qıratın belinə, özü də çıxıb oturdu üstünə. Qır-saqqız Xoca Əzizi elə tutdu ki, kəndir-qayış kimi. Elə ki, Xoca Əziz arxayınlaşdı, bildi ki, day yıxılmayacaq atın başını balaca boşladı. At götürüldü, nə götürüldü? Elə bil ki, Çənlibeldə bala qoyub gəlib. Yazıq Xoca Əzizdə nə Xocalıq qalmışdı, nə Əzizlik. Bayaq ha huşunu itirdi. At nə qədər yol getdi – bilmədi, necə getdi, bilmədi. Bir də at bərk kişnədi. Xoca Əziz atın səsinə gözlərini açıb gördü Çənlibeldədi.

Dəlilər Qıratın səsini eşitcək gəldilər. Baxdılar ki, Qırat budu, elə gəlir,elə gəlir, az qalır dırnaqları çatlaya. Amma ki, təkdi. Eyvaz da üstündə yoxdu. At bir az yaxınlaşdı. Gördülər nədisə üstündə bir şey qaralır. Qaldılar məəttəl ki, görəsən bu nə sirdi. Bu dəmdə at özünü yetirdi. Süzüb, düz Koroğlunun qabağında dayandı. Üzünü gəldiyi tərəfə tutub, elə kişnədi ki, dağ-daş lərzəyə gəldi. Sonra Koroğluya baxıb ayqlarını yerə döyməyə başladı. Koroğlu vəfalı atının boynunu qucaqlayıb üzündən-gözündən öpdü. Baxdılar ki, atın üstündə bir adam var, amma özündə deyil. Yapışdılar qolundan ki, düşürsünlər. Ha çəkdilər, qopmadı ki, qopmadı. Axırda baxıb gördülər ki, özünü qır-saqqızla ata yapışdırıb.

Qərəz, uzun baş ağrısı olmasın, kişini elə bez qarışıq atdan götürüb, yerə qoydular. Koroğlu baxdı ki, Xoca Əzizdi. De su, zad, Xoca Əziz özünə gəldi. Koroğlu soruşdu:

– Bu nə əhvalatdı?

Xoca Əziz dedi:

Qoç Koroğlu, sənə xəbər söyləyim,
Sənin Eyvazından xəbərin varmı?
Qaranlıq könlünü işıq eləyim,
Sənin Eyvazından xəbərin varmı?

İgid də igiddən çəkərmi minnət?
Paşa qabağında buyurur cəllad
Hanı Dəmirçioğlu, o Bəlli Əhməd?
Sənin Eyvazından xəbərin varmı?

Xoca Əziz xocaların qəhrində,
Xan Eyvaz da qızıl gülün təhrində,
Qolu bağlı gördüm Bağdad şəhrində
Sənin Eyvazından xəbərin varmı?

Söz tamama yetişdi. Xoca Əziz sazla dediyi kimi, sözlə də dedi:

– Koroğlu, Eyvazı, Dəmirçioğlunu, Bəlli Əhmədi Aslan paşa tutub zindana salıb. Özünü tez yetirməsən, bir də onların üzünü görə bilməyəcəksən.

Elə bil ki, dəlilərin üstünə su səpdilər. Xanımlar hamısı başlarını aşağıya saldılar. Koroğlu dönüb Nigara baxdı. Gördü vallah Nigar bir haldadı, bir haldadı ki, alma yanaqları Səmərqənd kağızı kimi ağarıb. Ala gözləri bahar buludu kimi dolub. Yaqut dodaqlar bir dəqiqədə elə solub, elə bil lalədi, şaxtaya düşüb. Koroğlu elə istəyirdi ağzını açsın ki, Nigar xanım yerindən qalxdı. Nə Koroğluya baxdı, nə dəlilərə baxdı, yavaş-yavaş təpənin lap ucqarına gəldi. Bir Eyvaz gedən yollara baxdı, bir uzaqdakı başı qarlı dağlara baxdı. Saçından üç tel ayırıb, basdı mərmər sinəsinin üstünə, dedi:

Başı ərşə duran dağlar,
Dağlar, Eyvazı neynədiz?
Üç igidi udan dağlar,
Dağlar, Eyvazı neynədiz?

Qarğasam, tökülər daşın,
Borandan ayrılmaz başın,
Düşər daşın, düşər leşin,
Dağlar, Eyvazı neynədiz?

Oğul deyib ağlayaram,
Dağ çəkərəm, dağlayaram,
Coşub qılınc bağlayaram,
Dağlar, Eyvazı neynədiz?

Mən Nigaram, ah çəkərəm,
Daşın çaylara tökərəm,
Yerində bürc-bar tikərəm,
Dağlar, Eyvazı neynədiz?

Dünya Koroğlunun gözündə qaraldı, elə bil ki, Çənlibel başına dolandı. Əlini atıb Qıratın yüyənindən tutdu. Elə qəzəblə ata sıçradı ki, Qıratın əvəzinə ayrı bir at olsaydı, çoxdan beli sınmışdı. Onda üzünü Kosa Səfərə tutub dedi:

Xəbər verin dəlilərim oyansın,
Tutulubdu bir Eyvazım, əldədi!
Misri qılınc qızıl qana boyansın,
Tutulubdu bir Eyvazım, əldədi!

Yatmışdım aşkara gördüm duşumu,
Əzəlindən mən bilirdim işimi.
Çəkin, yəhərləyin çərləmişimi,
Tutulubdu bir Eyvazım, əldədi!

Düşmənlərim tamaşaya durarlar,
Şad oluban kef məclisi qurarlar.
Koroğlu getməzsə, yəqin qırarlar,
Tutulubdu bir Eyvazım, əldədi!

Söz tamam oldu. Koroğlu dedi:

– Mən getdim. Siz dalca gələrsiniz, Bağdad bağlarında sizi gözləyəcəyəm. Kim səhər tezdən hamıdan qabaq gəlib mənə salam verso, yüz qızıl alacaq.

Bunu deyib, atın başını boşladı. Qırat iki dal ayaqları üstə qalxdı, Bağdad tərəfə üz qoydu.

Dəlilər tələ-təhlili hazırlaşdılar. Yaraqlanıb, yasaqlanıb yola düşdülər. Nə qədər getdilər, nə təhər getdilər bilmirəm, səhər dan yeri söküləndə Koroğlu bir də gördü ki, Dəli Mehtər, Kosa Səfər, Çopur Mehdi, İsabala, Tüpdağıdan, Toxmaqvuran, Halaypozan, Tanırıtanımaz, Dilbilməz onun qabağında əl qılıncda daynıblar. Belə baxanda gördü Bağdad bağlarında xurmanın sayı var, amma dəlilərin sayı yoxdu.

Dedi:

– Yaxşı gəlibsiniz. Amma hələ tezdi. Bir az gözləyək, bəlkə bir şey öyrənə bildik. Şəhərə belə girsək, bizi tanıyar, uşaqları tələf eləyərlər.

Hələ Koroğlu sözünü qurtarmamışdı, bir də gördülər budu, bir atlı çaparaq sürüb çölə tərəf gedir.

Koroğlu dedi:

– Kosa Səfər, o adam şəhərdən gəlir. Bir qabaqla gör, bəlkə bir şey öyrənəsən.

Kosa Səfər atı əldən qoydu. Bir suiçim saatda atlının başının üstünü aldı. Baxdı ki, bu əynində çuxa, ayağında bağdadı bışmaq, başında tirmə şal, cılkürək, qarnıyoğun bir kişidi.

Kosa Səfər dedi:

– Ay kişi, bir dayan görüm. Belə haraya tələsirsən?

Kişi cavab verib dedi:

– Tələsirəm, tələsirəm. Çöldə biçinçilərim var. Onlara çörək aparıram. Tez şəhərə qayıtmalıyam.

Kosa Səfər soruşdu:

– Yaxşı, şəhərdə nə var ki belə? Xeyir ola?!

Kişi dedi:

– Aslan paşa Koroğlunun üç dəlisini tutub. Bu gün onları asacaqlar. Böyük şadyanlıq olacaq. İndi gərək mən tez şəhərə qayıdam ki, həm asılanda orada olam, həm də basdırılanda hərəsinin qəbrinə bir qara daş atam ki, allah o dünyada mənə əcri xeyir versin.

Kişi elə bunu deməyini gördü. Kosa Səfər alıcı quş kimi onun üstünə şığıyıb, xirtdəyindən yapışdı. Murdar ət kimi sallaya-sallaya Koroğlunun qabağına gətirdi. Yerə qoyanda Koroğlu baxdı ki, kişi çoxdan cəhənnəmə vasil olub. Soruşdu ki:

– Bunu niyə belə elədin?

Kosa Səfər əhvalatı danışdı. Koroğlu üzünü dəlilərə tutub dedi:

– Atdan düşüb hərəniz bunun üstünə bir qara daş atın. Qoy o dünyada allah əcr payını çox eləsin.

Yeddi min yeddi yüz yetmiş dəli atdan düşüb hərə onun üstünə bir daş tulladı. O qədər daş yığıldı ki, yekə bir dağ oldu. Deyirlər ki, indi də o dağ qalır. Özü də atalar deyiblər ki, oradan keçəndə lənətləmə oxumaq böyük savabdı.

Qərəz, Koroğlu bildi ki, uşaqları bu gün asacaqlar. Dəlilərə hay vurdu, hamı atlandı. Yavaş-yavaş şəhərə tərəf sürməyə başladılar.

Bir az da getmişdilər, gördülər bir qoca kişi biçin biçir. Amma elə ağlayır, elə ağlayır ki, yaş gözündən dolu kimi tökülür.

Koroğlu yaxın gəlib soruşdu:

– Ay əmi, niyə ağlayırsan?

Qoca heç başını da qaldırmayıb dedi:

– Neynirsən? Səndən ki mənim dərdimə dərman olmayacaq, çıx yolunla get!

Qoca sözü nə qədər yayındırmaq istədisə, Koroğlu əl çəkmədi. Kişi gördü olmayacaq, axırda dedi:

– İndi ki əl çəkmirsən, qabaqca mənə de görüm sən kimsən? Bu başındakı dəstə-tifaq nədi?

Koroğlu dedi:

– Mən Muradbəyli tərəflərdənəm. Buradan mal almağa gəlmişik. Yollar şuluqdu deyin yaraqlı-yasaqlı gəlmişik.

Qoca Muradbəyli sözünü eşidəndə bir fikrə cumdu. Dedi:

– Yaxşı, deyirsən ki, Muradbəyli tərəfdənsən. De görüm Koroğlunu tanıyırsan, ya yox?

Koroğlu gördü qocada söz var. Dedi:

– Tanıyıram. Niyə tanımıram!

Qoca dedi:

– İndi ki tanıyırsan, mənə de görüm Koroğluya dost adamsan, ya düşmən?

Koroğlu dedi:

– Dost olarıq. Nə var ki? Bu şeyləri məndən niyə soruşursan?

Qoca dedi:

– Bala, düzdü, mən nə Rüstəm Zal olmuşam, nə Giziroğlu Mustafa bəy deyiləm, nə də Koroğluya tay olan deyiləm. Amma cavanlığımda mən də özümə görə bir kişi olmuşam. Düşmənə arxa çevirməmişəm.

Kişi bir az dayandı. Yengi ilə gözünü silib dedi:

– Bizim bu Bağdadda bir paşa var. Adına Aslan paşa deyərlər. Çox namərd, çox müxənnət, çox da hiyləgər adamdı. İndi üç gündü ki, Koroğlunun üç dəlisini tutub zindana salıb. Dünən car çəkib xəbər verib ki, bu gün onları asdıracaq. Bala, doğrusu ki, mən elə mərd oğulların belə namərd əlində ölməyini qəbul eləyə bilmirəm.Əgər mərdi-mərdana meydan açsaydı, təkbətək vuruşub öldürsəydi, mənə yer eləməzdi... Neynim, qocalığın üzü qara olsun. İndi mənim yüzdən artıq yaşım var. Əlimdən bir iş gəlmir. Atalar deyiblər, adam əli ilə iş görə bilmədi, güc verər dilinə. Dil də ki, oldu bağlı, ixtiyarı oldu bəylər, paşalar əlində, onda əlac qalır gözə. Adam dəm verir gözünün yaşına.

Qoca sözünü qurtaran kimi Koroğlu dəlilərə hökm elədi ki, qocaya kömək eləsinlər. Dəlilər tutuquşu kimi doluşdular zəmiyə. Bir suiçim saatda qocanın bütün taxılını biçib-dərzləyib, yığdılar bir tərəfə. Qoca matmat baxırdı ki, görəsən bunlar kimdilər, nə eləmək istəyirlər. Bir fikrindən keçdi ki, bəlkə bunlar Aslan paşanın adamlarındandılar. Taxılı yandırmaq istəyirlər. Amma baxdı ki, yox. Bu, düşmənçiliyə oxşamır.

Elə ki, dəlilər qurtardılar, Koroğlu qocaya dedi:

– Qoca, bil və agah ol! Dediyin Koroğlu mənəm. İndi bu saat sənin o Aslan paşanın ürəyinə bir od qoyacağam ki, məhşərəcən yansın. Biz bu saat şəhərə girəcəyik. Sən də bir böyük xurcunla Aslan paşanın xəzinəsinin qabağında məni gözlərsən.

Koroğlu bunu deyib dəlilərə hay vurmaq istəyirdi ki, yola düşsünlər, qoca dedi:

– Koroğlu, ayaq saxla, görürəm ki, Aslan paşa səni yaman qəzəbləndirib. Odu ki, gözlərin qızıb. Ancaq şəhərə belə girmək olmaz. Səni tanıyarlar. Sən özün şəhərə tək gir. Adamların da qoy beş-beş, on-on olub camaata qarışsınlar, ələ girsinlər.

Kosa Səfər dedi:
– Koroğlu, qocanın sözü ağıllı sözdü. Nə deyirsən?
Koroğlu üzünü dəlilərə tutub dedi, görək nə dedi:

Uca-uca dağ başında,
Yaz bir yana, qış bir yana.
Titrəşir ağzım içində,
Dil bir yana, diş bir yana.

Nə edək, dəlilər nə edək!
Düşmanın bağrını didək!
Xan Eyvaza kömək edək!
Dörd bir yana, beş bir yana.

Hər nə oldu, mənə oldu,
Qaynadı peymanam doldu,
Gördün ki, düşman güc gəldi,
Qov bir yana, qaş bir yana.

Koroğlunun yox əlacı,
Misirdən gəlir xəracı.
Çəkəndə misri qılıncı,
Leş bir yana, baş bir yana!

Sərkərdələr o saat hərə öz dəstəsini böldü. Koroğlu dəliləri hazır görüb dedi:

– Dəlilərim, mən Aslan paşanın məclisində olacağam. Onların o qədər başlarını qatacağam ki, siz yerlərinizi tuta biləsiniz. Camaatın arasına qarışıb meydanı elə halqa-mərəkə eləyərsiz ki, misri qılınclar çəkiləndə bir adam da tərpənə bilməsin. Amma gözünüz məndə olsun. Mən əlimi bığlarıma çəkməmiş bir adam yerindən tərpənməsin.

Koroğlu sözünü qurtardı. Ondan paltarlarının üstündən bir aşıq paltarı geyindi, çiyninə də bir saz salıb yola düşdü.

Bəli, Koroğlu aşıq paltarında meydana tərəf getməkdə olsun, qoca xurcun üçün evə getməkdə olsun, sənə kimdən deyim, Aslan paşadan.

Aslan paşa car çəkdirib bütün camaatı meydana yığmışdı. Meydan bir bəzənmişdi, bir bəzənmişdi ki, elə bil toy-bayramdı. Cəlladlar dəliləri qolu bağlı gətirib dar ağacının yanında saxlamışdılar. Aslan paşa bir kef-damaqda idi ki, gəl görəsən. Meydanın başında taxt qurdurub əyləşmişdi. Elə hey üzünü sədrəzəmə tutub deyir:

– Dayan, gör xotkar bizə nə ənamlar göndərəcək... Zarafat deyil ha... hələ indiyə kimi bir paşa Koroğlunun bir dəlisinin gözünü piləyə bilməyib. Mənə Aslan paşa deyərlər.

Bəli, cəlladlar tənabları yağlayıb hazırladılar. Təbil vuruldu. Sədrəzəm irəli gəlib camaata deməlisin dedi, tapşırılmasın tapşırdı. Ondan bir

dəstə yaraqlı əsgər gətirib camaatın qabağına bir cərgə düzdülər ki, işdi, bəlkə birdən qarışıqlıq-zad oldu. Elə ki, hər iş qurtardı, cəllad Eyvazı dar ağacına gətirdi.

Dəmirçioğlunun qan başına vurdu. Bir güc vurdu, iki güc vurdu ki, qollarının ipini qıra bilsin, amma hər dəfə güc vurduqca ip onun ətini kəsib içəriyə girirdi. Dəmirçioğlu başa düşdü ki, onun qollarını mumlu kirişlə bağlayıblar. İşi belə görəndə ümidi üzüldü, ürəyi kövrəkləndi, aldı görək nə dedi:

Hanı mənim qoç Koroğlum,
Gələ girə bu meydana!
Çəkəndə misri qılıncı
Qəbzəsi qana boyana!

Qırat bir burdan atıla,
Müxənnət ölkən çapıla!
Koroğlu burda tapıla,
Hərəniz qaça bir yana!

Ondan üzünü Aslan paşaya tutub dedi:

Dəmirçioğlunu dindir,
Suçunu boynuna mindir,
Biz iki dəlini öldür,
Paşa, qıyma Eyvaz xana!

Elə bu dəmdə Koroğlu özünü saldı meydana. Aslan paşa gördü ki, budu bir aşıq çiynində saz girdi ortalığa.

Dedi:

– Ayə, yanşaqsanmı?

Koroğlu dedi:

– Bəli, paşam, yanşaqam.

Aslan paşa dedi:

– Ayə, heç Koroğlunun sözlərindən bilirsənmi?

Koroğlu dedi:

– Ay paşa, izin ver, sənə söz oxuyum, söz olsun. Koroğlu nə adamdır ki, onun sözü belə məclisdə oxuna?!

Paşa dedi:

– Yox, sən bilmirsən! Mən Koroğlunun üç dəlisini tutmuşam. Bu şadyanalıq da onun şadyanalığıdır. İndi sən bir az Koroğlunun sözlərindən de ki, onların ürəkləri açılsın.

Koroğlu bir dönüb dar ayağında dayanan Eyvaza, Dəmirçioğluya, Bəlli Əhmədə baxdı, bir də dönüb camaatın içində dayanan dəlilərinə baxıb, üçtelli sazı bağrına basdı. Barmaqlarını cütləyib tellərə elə vurdu ki, meydan səsə gəldi. Qızılquş kimi bir dəfə meydanı fırlanıb dedi:

Dəlilərim, bu gün dava günüdü,
Müxənnət ölkəsi talanmaq gərək!
Qoç igidlər yarasından bəllənər.
Şərbət tək qanına yalanmaq gərək!

Mərd igidlər nərə çəksin davada,
Şahin kimi şikar tutsun yuvada,
Misri qılınc cövlan vursun havada,
Bağırsaq cəmdəyə dolanmaq gərək!

Koroğlu içəndə düşmən qanını,
Mərd meydanda nərəsindən tanını,
Qırın vəzirini, tutun xanını,
Leş-leşin üstündə qalanmaq gərək!

Aslan paşa dedi:

– Sağ ol, aşıq! Lap Koroğlu kimi oxuyursan.

Koroğlu dönüb dar ayağındakı dəlilərə baxdı. Gördü onlar üçü də Koroğlunu tanıyıblar. Dəmirçioğlu gözünü zilləyib bir dar ağacına, Bəlli Əhməd də bir dar ağacına. Bildi ki, onlar qollarının açılmağına bənddilər ki, ağacları dibindən çıxarıb işə başlasınlar. Dönüb Eyvaza baxdı. Gördü yox, Eyvaz özgə haldadı. Dar ağacının dibində dayanıb gözlərini zilləyib Koroğluya. Özü də sevindiyindən gözləri dolub. Koroğlu onu belə görəndə ürəyi tab gətirmədi. Dedi:

Canım paşa, gözüm paşa,
Paşa, qoy gəlsin Eyvazı!
Budu sənə sözüm paşa,
Paşa, qoy gəlsin Eyvazı!

Göydən ildırım tökdürrəm,
Yurdunda bostan əkdirrəm,
Torpağın dara çəkdirrəm,
Paşa, qoy gəlsin Eyvazı!

Əyləşib paşalar, bəylər,
Sinəmdən baş verib millər,
Koroğlu iltimas eylər,
Paşa, qoy gəlsin Eyvazı!

Koroğlu oxumağında olsun, paşa qulaq asmağında, dəlilər də gözləməyində. Sizə kimdən deyim, kimdən deyim, Giziroğlu Mustafa bəydən.

Bağdad tərəflərdə Giziroğlu Mustafa bəy adında adlı-sanlı bir igid var idi. Giziroğlu Mustafa bəy, doğrudan da, qoçaq, qolu qüvvətli bir adam

idi. Atası keçmişdə gizir olmuşdu. Sonra xotkarın üzünə ağ olduğuna görə onu dar ağacından asdırmışdılar. Deyirlər ki, Giziroğlu Mustafa o zamandan qırx atlı ilə dağlara çəkilmişdi. Paşalarla ədavət saxlayırdı. Hərdən atasının düşmənlərindən birinin üstünə gedib, tutub dar ağacından asardı, yenə də çıxıb dağlara çəkilərdi.

Giziroğlu Mustafa bəy çoxdan idi ki, Koroğlu ilə qabaqlaşmaq, onunla ayırd eləmək istəyirdi. İki qoçun başı bir qazanda qaynamaz, deyiblər. Odu ki, Giziroğlu da deyirdi: "Ya gərək Koroğlunun adı deyilə, ya mənim". Koroğlu da Giziroğlu Mustafa bəydən çox eşitmişdi. Üzünü görməmişsə də, amma gücünə, qüvvətinə bələd idi. Özü də bilirdi ki, Giziroğlu o dağ mənim, bu dərə sənin onun dalınca gəzir.

Bəli, xəbər gəlib çatdı Giziroğlu Mustafa bəyə ki, Aslan paşa Koroğlunun üç dəlisini tutdurub, özlərini də bu gün asdıracaq. Göziroğlu öz adamlarını başına yığıb dedi:

Səfərimdi şəhri-Bağdad,
Kimdi mənnən köçən gəlsin!
Yeddi hoqqa, hazar peşə
Məndən artıq içən gəlsin!

Bilirsənmi halım necə?
İlə dönər mənə gecə.
Yeddi boynu bir qılınca,
Mərəndi tək biçən gəlsin!

Hanı bu bağçanın gülü?
Oxumur şeyda bülbülü,
Koroğlu, üç əsir dəli,
Şirin candan keçən gəlsin!

Sonra Mustafa bəy sazla dediyi kimi, dillə də dedi ki:

– Mənim Koroğlu ilə haqq-hesabım var, bu öz yerində. Bir gün gələr, görüşərik, haqq-hesabımızı kəsərik. Amma Aslan paşanın bu nakişiliyinə mən dözə bilmərəm. Axı, Koroğlunun dəlilərinin ki, onunla heç bir işi yox imiş. Bütün görənlər deyirlər ki, çölün düzündə durna ovlayırmışlar. Aslan paşa bu nakişiliyini eləyir ki, xotkara xoş gəlsin. İndi ki, o xotkara quyruq bulayır, mən də onun quyruğunu kəsib soxaram gözünə, başqalarına da ibrət olar. Mən qoymayacağam o, dəliləri öldürsün.

Başının adamları Giziroğlunun sözünü bəyəndilər. Bu mərdliyinə afərin dedilər. Durub hamısı yaraqlandılar, Bağdada gəldidər. Meydandan bir az aralı bir təpə kimi yer var idi, Giziroğlu çıxdı təpənin üstünə ki, görsün meydanın ortasında nə var, nə yox? Baxdı ki, Koroğlu aşıq paltarında oxuyur. Onun bu igidliyinə məəttəl qalıb, ürəyində afərin dedi:

– Dayanın görək bu işin axırı nə olacaq. Mən heç inana bilmirəm ki, o bu qoşunun içindən öz dəlilərini qurtarıb qaçırda bilə. And içirəm, dayanıb axıracan gözləyəcəyəm. Əgər gördüm ki, gücü çatmır, gedib kömək eləyəcəyəm. Yox, gücü çatdı, qurtardı, onda dalınca gedib şəhərdən çıxandan sonra onunla ayırd eləyəcəyəm. Ya ona verən allah, ya mənə.

Bunu deyib atdan düşdü, başladı gözləməyə. Bu zaman Koroğlu da meydanda gərdiş eləyib oxuyurdu. Baş qatırdı ki, dəlilər özlərini yaxşı yerləşdirə bilsinlər. Giziroğlu gözlədi, gözlədi gördü yox, deyəsən Koroğlu heç dava eləmək fikrində deyil. Ağlına gəldi ki, bəlkə Koroğlunun dəlilləri hələ gəlib çıxmayıb təkdi deyən qorxur. Qoy burada olduğumu ona bildirim.

Giziroğlu Mustafa bəyin bir şeşpəri var idi ki, ucu haça. Bu elə bir şeşpər idi ki, məşhuri-aləm. Arvadlar uşaqlarına qarğış eləyəndə "səni görüm Giziroğlunun şeşpərinə rast gələsən" deyərdilər. Giziroğlu haman haça şeşpəri qaldırdı başına, bir dəfə hərləyib tulladı. Şeşpər gəlib meydandakı məscidin günbəzinə elə dəydi ki, şeşpərdən od töküldü. Aslan paşa dik yerindən qalxdı ki:

– O nədi? Göydən od tökülür.

Koroğlu bir də gördü qabağına bir şey düşdü. Belə baxanda gördü Giziroğlunun haça şeşpəridi. O saat başa düşdü. Dedi:

– Paşa! Od göydən tökülmür. O od həmişə sənin başının üstündədi.

Koroğlu hələ sözünü qurtarmamışdı, bir də baxdı ki, Aslan paşanın sədrəzəmi əkilmək istəyir. Sazı döşünə basıb dedi:

Laf eyləmə, Aslan paşa,
Sədrəzəm qaçdı sandım.
Havadakı uçan quşlar
Yuvasından uçdu sandım.

Aslan paşa tez dönüb ətrafına baxdı. Sədrəzəm, doğrudan da, əkilmək istəyirdi. Aşıqdan şübhələnmişdi. Deyəsən ürəyinə dammışdı ki, bu, Koroğludu. Amma ki, Aslan paşanın birdən dönüb ətrafına baxmağından qorxub yerində oturdu. Aslan paşa üzünü ona tutub dedi:

– Nə var! O nə idi?

Sədrəzəm ağzını paşanın qulağına yapışdırıb dedi:

– Paha sağ olsun, mənim bu aşıqdan gözüm su içmir. Bu, Koroğluya oxşayır.

– Koroğlu gördü ki, sədrəzəm işi başa düşüb. Onun sözünü yalansıtmaq üçün aldı sözünün ikinci xanəsini dedi:

Meydanda igidlik satdı,
Gəlmədi, günü yubatdı,
Giziroğlu şeşpər atdı,
Şeşpər yerə keçdi sandım.

Bunu deyib, Koroğlu yerdəki şeşpəri göstərdi. Aslan paşa baxdı ki, şeşpər, doğrudan da, Giziroğlu Mustafa bəyindi. Tez cəllada hökm elədi ki, işə başlasın. Cəllad o saat cumdu Eyvazın üstünə. Tutub yuxarı qaldırmağa başladı. Koroğlu Eyvazı dara gedən görüb götürdü sözün üçüncü xanəsini dedi:

Koroğluyam, bilin nədən
Qara bağrım oldu zədən.
Eyvazdımı dara gedən?
Yaralarım sancdı sandım.

Koroğlu sözünü tamam elədi. Dönüb dəlilərə baxdı, gördü hamısı hazır dayanıb işarə gözləyir. Özləri də elədilər, elədilər ki, acıqlarından dodaqlarını gəmirib bığlarını çeynəyirlər. Bir dəfə meydanı fırlandı. Sonra üzünü Dəmirçioğlugilə tutub dedi:

Arif olun üç igidlər,
Nər girər meydana indi.
Qırılar zəncirlər, iplər,
Nər girər meydana indi.

Çənlibeldən laçın gəlib,
Qollarını açın, gəlib,
Qabağından qaçın gəlib,
Nər girər meydana indi.

Cəllad Eyvazı dar ağacına gətirmişdi. Gözləyirdi ki, aşıq qurtarsın, sonra ipi eyvazın boğazına keçirsin. Koroğlu gərdiş eləyə-eləyə onun yanına gəlib dedi:

Lovğa-lovğa baxma mənə,
Sar qonanmaz yasəmənə,
Qan uddurram indi sənə,
Batar meydan qana indi.

Koroğlu bir də fırlandı, aldı sözün o biri xanəsini dedi:

Dəlilərim, səf-səf durun!
Su üzündə cələ qurun!
Bu abdalın boynun vurun!
Dönsün meydan qana indi.

Hay deyəndə qoşa gəlin!
Huy deyəndə coşa gəlin!
Koroğluyam, xoşa gəlin!
Qan qarışsın qana indi.

Dəlilər hərəkətə gəldidlər. Koroğlu bir dəli nərə çəkib dedi:

Hoydu, dəlilərim, hoydu,
Yeriyin meydan üstünə!
Havadakı şahin kimi,
Tökülün al qan üstünə!

Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin,
Kimi tənab qılınclasın,
Kiminiz düşmən üstünə.

Koroğlu çəkər haşanı,
Bəylər edər tamaşanı,
Mən özüm Aslan paşanı,
Hərəniz bir xan üstünə.

Koroğlu oxuya-oxuya əlini bığına çəkdi. Dəlilər töküldülər. Ara qızışdı. Koroğlu bir həmlədə özünü Aslan paşaya çatdırdı. Misri qılıncın çəkilməyi ilə Aslan paşanın başının yerə düşməyi bir oldu. Dəlilər tənabları qılıncladılar. Eyvazı, Dəmirçioğlunu, Bəlli Əhmədi azad elədilər. Koroğlu bir də onu gördü ki, meydanın hər başında bir dənə dar ağacı qalxır-düşür, hər dəfə də on-on beş adamı xurd-xaşıl eləyir. Baxdı ki, biri Dəmirçioğlu, biri də Bəlli Əhməddi, hərəsi öz dar ağacını çıxarıb alıb çiyninə düşüb qoşunun içinə.

Koroğlu qılınc vura-vura özünü çatdırdı xəzinənin qapısına. Gördü qoca burdadı. Qapıya bir əmud ilişdirdi. Bayaq ha qapı parça-tikə olub yerə töküldü. Çağırdı ki:

– Qoca gəl!

Qoca gəldi. Koroğlu soruşdu:

– Bəs xurcunun hanı?

Qoca dedi:

– A bala, vallah sevindiyimdən bilmirəm heç nə elədim.

Koroğlu dedi:

– Eybi yoxdur. Gir içəriyə!

Qoca girdi içəriyə Koroğlu ona bir kisə qızıl verdi. Dəlilərdən ikisini də qoşdu ona ki:

– Aparın bunu sağ-salamat qoyun evinə, sonra gəlin.

İndi gəl sənə kimdən deyim, Giziroğlu Mustafa bəylə Koroğludan. Elə ki, Koroğlu əlini bığına çəkdi, meydan qarışdı bir-birinə, əvvəl-əvvəl Giziroğlu heç bir şey anlamadı. Handan gendən başa düşdü ki, məsələ necə imiş. Başının atlılarına dedi:

– Balam, day burada bizlik heç bir iş yoxdur. Mən day ona qol çəkdim. İndi qaldı bircə mənim onunla öz haqq-hesabım. Gedək!

Bunu deyib adamlarını da götürüb çəkilib getdi. Elə ki, dava qurtardı, Koroğlu ətrafa nəzər salıb gördü Giziroğlu yoxdu. O saat məsələni başa düşdü. Bildi ki, Giziroğlu onun yolunu kəsəcək. İndi qəsdən çəkilib gedib ki, dəlilər onların savaşmağını görməsinlər. Elə ki, dəlilər hamısı kefləri saz, damaqları çağ atlanıb Çardaqları Çənlibelə tərəf yol başladılar, Koroğlu üzünü Kosa Səfərə tutub dedi:

– Kosa Səfər, buradan Çənlibelə neçə yol var?

Kosa Səfər dedi:

– Buradan Çənlibelə iki yol var. Biri haman bu yoldu ki, gedirik. Biri də dağ yoludu ki, bax, o təpələrin dalından diklənir. Amma o yol çox çətindir. Özü də bir yarım dəfə bu yoldan uzaqdı.

Koroğluya da elə bu lazım idi. Üzünü dəlilərə tutub dedi:

– Siz bu yol ilə gedin! Mən dağ yolu ilə gedəyəcəm. Əgər siz məndən qabaq Çənlibelə çatdınız, demək ki, uşaqları siz tək, mənsiz qurtarıbsınız. Aslan paşanın xəzinəsi də hamısı sizə çatacaq. Yox, əgər mən tez çatdım, onda xəzinə hamısı mənimdi.

Bunu deyib Koroğlu day cavab gözləmədi. Bayaq ha Qırata bir qamçı göstərib təpəni aşdı. Dəlilər işdən bixəbər hərə öz atına minib yola düşdülər. Koroğlu Qıratı qaytarıb təzədən təpəyə çıxdı. Elə ki, arxayın oldu ki, day dəlilər çıxıb gediblər, ondan yola düşdü, papağını da gözünün üstünə qaldırıb, Qıratı yavaş-yavaş çay kənarı ilə sürməyə başladı. Elə bir az getmişdi, birdən Qırat qulaqlarını dikləyib, şaxə qalxdı. Bir də uzaqdan at kişnəməyi eşidildi. Koroğlu dönüb baxanda gördü Giziroğlu Mustafa bəy öz Alapaça atının üstündə budu, elə gəlir, elə gəlir ki, tozu dumana qatıb, dumanı toza. Qırat Alapaçanın səsini eşitcək dayandı. Koroğlu nə qədər elədisə at yerindən tərpənmədi. Koroğlu qanrılıb geriyə baxdı ki, görsün Giziroğlu uzaqdadı, yaxında, bir də onu gördü ki, təpəsinə bir əmud dəydi. Koroğlu özünü atın üstündə saxlaya bilməyib təpəsi üstə yerə gəldi, yumbalanıb çaya düşdü. Giziroğlu tez əlindəki əmudu yerə atıb qılıncını çəkdi ki, düşüb onun başını kəssin, Koroğlu cəld sudan çıxıb onun öz əmudunu götürdü, Giziroğlunun təpəsinə elə bir əmud vurdu ki, bu dəfə də Giziroğlu dığırlanıb çaya düşdü. Cəld qalxıb sudan çıxmaq istəyəndə Koroğlu əlini uzadıb yapışdı onun əlindən, çəkib çıxartdı bayıra. Ondan əl elədi misri qılınca ki, dava başlasın Giziroğlu dedi:

– Koroğlu, əl saxla! Sənin mənimlə bir ədavətin-zadın yoxdu ki?

Koroğlu dedi:

– Mənim xeyr. Sənin mənimlə bir ədavətin var.

Giziroğlu dedi:

– Yox, mənim də yoxdu. Mən istəyirdim biləm, görəm sən güclü olarsan, ya mən? Onu da ki, gördüm. Day bundan sonra bizim vuruşmağımız axmaqlıdı. Əl ver, dost olaq!

Koroğlu ilə Giziroğlu əl verdilər, görüşdülər, öpüşdülər, bir-biri ilə dost olub ayrıldılar. Koroğlu Çənlibelə tərəf, Giziroğlu da öz dağlarına tərəf yol başladı. Koroğlu getməkdə olsun, biz görək Giziroğlu nə elədi.

Giziroğlu oradan birbaş gəldi çatdı öz adamlarına. Soruşdular ki: "Nə oldu? Hanı Koroğlunun başı?". Giziroğlu əhvalatı necə olmuşdusa, onlara danışdı. Adamların arasında pıçapıç başlandı ki, bəs yalan deyir. Heç qorxudan Koroğlunun gözünə də görünməyib. Giziroğlu nə qədər dedisə, inanmadılar. Axırda Giziroğlu qəzəblənib dedi:

– İndi ki belə oldu, gəlin gedək Çənlibelə, soruşun onun özündən. Əgər o, mərd adamdırsa düzünü deyər. Yox, əgər namərdlik eləsə, yalan danışsa, mən lap sizin gözünüzün qabağında onunla vuruşum, siz də tamaşa eləyin.

Hamı bu sözə razı oldu. Atlanıb Çənlibelə tərəf yol başladılar.

Kororğlu bir tərəfdə getməkdə olsun, Giziroğlu da başının adamları ilə bir tərəfdən getməkdə olsun, indi eşidin dəlilərdən!

Dəlilər at sürdülər, yol yordular. Səhər dan yeri təzəcə söküləndə gəlib Çənlibelə çatdılar. Xanımlar qabağa çıxdılar. Kosa Səfər uzaqdan Nigar xanımı görcək qışqırdı ki:

– Nigar xanım, barcə de görüm Koroğlu gəlib, ya yox?

Nigar xanım dedi:

– Yox. Gəlməyib.

Kosa Səfər dedi:

– Çox yaxşı. Axırı ki, heç olmasa bircə dəfə mərci biz apardıq. Mənzil başına ondan tez gəldik.

Elə bu dəmdə Qırat bərk kişnədi. Dönüb gördülər Qırat yağı qoruğunda otlayır. Korğlu da böyrü üstə göy otun üstündə uzanıb gülə-gülə deyir:

– Hardasınız? Sizi gözləməkdən gözümün kökü saraldı ki...

Kosa Səfər dedi:

– Yenə mərci sən uddun!

Koroğlu dedi:

– Mərci mən uddum. Ancaq bizim bir adətimiz də var axı. Həmişə mənzil başında mənə hamıdan qabaq kim salam versə, mən ona yüz qızıl verərəm. O başdan hərənizə yüz qızıl borcluyam. İndi də ki səhər tezdən yenə də yeddi min yeddi yüz yetmiş dəli hamınız birdən gəlibsiniz. Aslan paşanın xəzinəsində də ki, bu qədər qızıl elə ancaq olar. Odu ki, xəzinə sizə çatır. Necə istəyirsiniz eləcə də öz aranızda bölüşdürün.

Dəlilər hamısı atlardan töküldülər. Süfrə açıldı. Dəlilər yeyib-içməkdə, çalıb-oynamaqda olsunlar, eşit Giziroğlunun dəstəsindən. Dəstə gəlib o zaman çatdı ki, dəlilər şirin kefdə idilər. Mustafa bəy dedi:

– Bu saat bunların keflərini pozmaq heç insafdan deyil. Gözləyək qurtarsınlar, sonra.

Bir tərəfdə dayanıb gözləməyə başladılar.

Elə ki, saqi birbaş məclisi dolandı, keflər duruldu, başlar ayazıdı, Nigar xanım dedi:

– Koroğlu, indi danış görək, necə getdiz? Uşaqları necə qurtardız?

Koroğlu başdan başlayıb axıracan əhvalatı xanımlara, Bağdada getməyib Çənlibeldə qalan dəlilərə danışdı. Amma Giziroğlunun adını da çəkmədi. O barədə bir kəlmə də kəsmədi. Nigar xanım gözlərini bir dəfə süzdürüb Koroğluya bir qıyqac baxdı. Dedi:

– Ay Koroğlu, sən ki, belə iş üzə bilənsən, igidsən, görəsən bu dünyada sənin kimi ikinci bir adam da var, ya elə anan səni tək doğub?

Koroğlu heç bir söz demədi. Yavaşca qalxıb Aşıq Cünunun sazını aldı, basdı bağrına. Dedi:

Anadan oğlul doğulubdu,
Giziroğlu Mustafa bəy.
Bu dünyaya tək gəlibdi,
Giziroğlu Mustafa bəy.

Nizəsinin ucu qanlı
Dəliləri dəmir donlu,
Bir igiddi adlı-sanlı,
Giziroğlu Mustafa bəy.

Bir atı var Alapaça,
Aman vermir Qırat qaça,
Şeşpərinin ucu haça,
Giziroğlu Mustafa bəy.

Bir atadan kaş olaydıq,
Bir-birindən xoş olaydıq,
Doğmaca qardaş olaydıq,
Giziroğlu Mustafa bəy.

Hay deyəndə haya basar,
Huy deyəndə huya basar,
Koroğlunu çaya basar,
Giziroğlu Mustafa bəy.

Koroğlu sözünü qurtaran kimi Giziroğlu Mustafa bəy gizləndiyi yerdən çıxıb məclisə gəldi. Dedi:

– Koroğlu, sən, doğrudan da, mərd adamsan. Ancaq özgəsini çox şişirdib, özünü çox kiçildirsən. Dayan, indi mən düzünü danışacağam.

Ondan Giziroğlu başlayıb əhvalatı necə olmuşdusa, əvvəldən axıra kimi danışdı. Nə bir kəlmə o yana elədi, nə bir kəlmə bu yana. Koroğlu ilə Giziroğlu təzədən qucaqlaşdılar, öpüşdülər, görüşdülər, qardaş oldular. Giziroğlunun adamları da gəlib məclisə girdilər.

Məclis təzədən başladı.

Həmzənin Qıratı aparması

Bağdad əhvalatından sonra xotkar ətrafa namələr yazıb, adlı-sanlı paşaları, sərkərdələri, pəhləvanları, qoşun böyüklərini yanına çağırdı. Böyük bir məclis quruldu. Elə ki, məclis arəstə oldu, hər kəs öz yerini tutdu, xotkar dedi:

– Nə qədər ki, bu Koroğlunun səsi kəsilməyib, dünya üzündə zindəkanlıq bizə haram olacaq. Sizi çağırmışam ki, məsləhət tökəsiniz görək, necə cləyək ki, onu dünya üzündən silək. Budu, günü-gündən onun başının adamları çoxalır. Dünyanın hansı yerində bir dələduz varsa gedib ona qoşulur. Axırda bir gün görəcəyik ki, budu, qoşun düzəldib şəhərlərimizi, kəndlərimizi alır. Ondan sonra ya gərək gedib ona nökərdən-naibdən olaq, ya da ki, qaçıb dağlarda, daşlarda qaçaqlıq eləyək.

Elə ki, xotkar sözünü qurtardı, paşalar verdilər ağız-ağıza. Hərəsi bir cür tədbir tökdü. Biri dedi: aldadaq, qonaq çığaraq, tutub dar ağacından asaq. Biri dedi: adamlarından ələ keçirək, pul verək, qızıl verək, öldürtdürək. Biri dedi: adam göndərək, görək nə istəyir, verək barışıq eləyək. Biri dedi: sən başa düşmürsən.

O birisi dedi:

– Sən qorxaqsan.

Qərəz, bu məclisdə bir səs-küy qalxdı ki, ağız deyəni qulaq eşitmədi.

Bunlar deyişməkdə olsunlar, sənə kimdən deyim, toqatlı Hasan paşadan. Bu Hasan paşa kim ola, kim olmaya, haman toqqatlı Hasan paşa ola ki, atların üstündə Alı kişinin gözlərinin çıxarılmasını məsləhət görmüşdü, Həsən xan da oun gözlərini çıxartdırıb dünya işığına həsrət qoymuşdu.

Hasan paşa xotkarın sağ əli idi. Həmişə onun əziz günlərində süfrəsinin başında oturar, ağır günlərdə də yasdığının dibini kəsərdi. Özü də həm paşa idi, həm də çox bacarıqlı qoşun böyüyü idi. Dava dəsgahının min bir fənd-felini sinədəftər eləmişdi. İndiyə kimi xotkar onu hansı qulluğa buyurmuşdusa, birə beş yerinə yetirmişdi.

Qərəz, Hasan paşa da bu məclisdə idi. Elə ki, səs-küy qalxdı, xotkar fikir verib gördü ki, bu danışanların heç biri qoşun çəkib Koroğlunun üstünə getmək fikrində deyil. Hamı ondan qorxur. Elə bir təhər eləmək istəyirlər ki, ilanı Seyid Əhməd əli ilə tutalar. Xotkar üzünü Hasan paşaya tutub dedi:

– Hasan paşa, söz sənindi.

Hasan paşa durub zəmini-ədəb öpdü, dedi:

– Xotkar sağ olsun, xotkar əmri ki var, allah əmridi. Sən doğru buyurursan. Koroğlu, doğrudan da, çox tüğyan eləyib. Mən indiyə kimi ona fikir vermirdim. Deyirdim paşalar özləri onun öhdəsindən gələrlər. İndi ki, iş bu əndazəyə minib, baş üstə. Onun atasının gözlərini mən çıxartdırmışam. İnşallah xotkarın sayəsində özünü də bu İstambul şəhərində dar ağacından asaram. Ancaq xotkar sağ olsun, onun çoxlu adamları var ki, gəlib lap böyük-böyük məclislərə girib, söhbətlərə qulaq asırlar. Sonra ona xəbər verərlər, odu ki, mən öz fikrimi təklikdə sənə deyəcəyəm.

Məclis adamları Hasan paşanın bu sözündən ürəkdə rəncidə oldularsa da, xotkarın qorxusundan büruzə verə bilmədilər. Xotkar Hasan paşaya əhsən deyib, məclisi dağıtdı. Elə ki, tək qaldılar, Hasan paşa dedi:

– Xotkar sağ olsun, Koroğlu bu saat çox güclənib. Onu aldatmaqla tora salmaq olmaz. Biz gərək üç tərəfdən qoşun çəkib onu haqla-mərəkə eləyək, hamısını bir yerdə qırıb qurtaraq. Yoxsa onu tək öldürməkdən bir kar aşmaz.

Xotkar dedi:

– Hasan paşa, sənə qırx gün möhlət verirəm. Əgər onu muzməhər eladin, səni özümə sədrəzəm eləyəcəyəm. Yox, eləyə bilmədin, onda...

Hasan paşa dik qalxıb dedi:

– Sənə qurban olum! Mən əgər onu qolu bağlı sənin qabağına gətirə bilməsəm özüm-özümü həlak eləyərəm. Ancaq sən bütün paşaların, qoşun böyüklərinin ixtiyarını mənə ver!

Xotkar dedi:

– Külli-ixtiyarsan. Necə istəyirsən, elə də elə!

Hasan paşa zəmini-ədəb öpüb mürəxxəs olmaq istəyəndə xotkar dedi:

– Bir də bu zalım oğlu zalım bu tərəfə bir dənə karvan buraxmır. Hamısını soyur. Gərək birtəhər eləyib yaraqlı-yasaqlı karvan düzəldəsən, bir az şəhərə mal gətirtdirəsən. Yoxsa bütün şəhərdə danışırlar ki, bəs xotkar qalıb Koroğlunun əlində aciz. Şəhərə mal gətirtdirə bilmir.

Hasan paşa əlini gözünün üstünə qoyub dedi:

– O da mənim gözüm üstə!

Onda xotkar Hasan paşaya rüsxət verdi. Özü də bütün paşalara namə yazdı ki, bəs, Hasan paşa onların üstündə külli ixtiyardı. Kim onun buyruğuna əməl eləməsə dar ağcından asılacaq.

Qasid nameləri aparmaqda olsun, sən eşit Hasan paşadan.

Hasan paşa oradan birbaş Toqata qayıdıb bir məclis düzəltdi. Tanıdığı, bildiyi böyük sərkərdələri, qoşun böyüklərini, pəhləvanları yanına çağırdı. Elə ki, yerli yerin tutdu, Hasan paşa özü məclisə gəldi göz gəzdirdi. Hamını gözdən keçirtdi. Arxayın oldu ki, hamısı öz bildiyi, tanıdığı, etibar elədiyi adamlardı. Başladı xotkar məclisində olanların hamısını onlara danışmağa. Hamı əhvalatdan hali olandan sonra çıxardıb xotkarın möhürlü naməsini onlara oxutdu, ondan dedi:

– Bilin və agah olun! Bizim tədbirimiz elədi ki, Koroğlunun üstünə üç tərəfdən qoşun çəkək. Gərək elə eləyək ki, o, göz açmağa macal tapa bilməsin. İndi sizi bura yığmaqdan mənim muradım budu ki, deyəsiniz görüm, bu işə kim boyun qoya bilər? Kim bu üç qoşundan birinin sərkərdəsi ola bilər?

Məclisin üstünə elə bil su səpdilər. Daşdan, divardan səda çıxdı, məclisdən səda çıxmadı. Onda Hasan paşa dedi:

– Qoşunun birisin mən özüm aparacağam. Özü də qənşər tərəfdən gedəcəyəm. O biri qoşunların biri sağ tərəfdən, biri sol tərəfdən gəlib baş qatacağlar ki, onlara da mən hər bir kömək eləyəcəyəm.

Yenə də məclisdən səs çıxmadı. Hasan paşa belə görəndə əmr elədi, iki badə doldurub gətirdilər. Əl atıb hər badəyə bir dənə qiymətli ləl saldı. Ondan dedi:

– O kimdi ki, bu badəni alıb içə. Bu ləli cibinə qoyub, bu işə boyun qoya. Mən əhd eləyirəm ki, Toqat paşalığını ona bağışlayam, üstündə də pərdeyi-ismətdə olan qızlarımdan birini ona verim.

Bu sözdə məclisin baş tərəfindən bir nəfər cavan adam ayağa durdu. Bu adam kim ola, kim olmaya, ərzincanlı Bolu bəy ola.

Bolu bəy Ərzincan qalasında qoşun böyüyü idi. İgid oğlanlardan biri idi. Özü də çoxdan idi ki, Hasan paşanın böyük qızı Dünya xanıma aşiq idi. Ancaq indiyə kimi neçə dəfə əl altından adam salmışdı, qızın ürəyini almaq istəmişdisə də, qız hər dəfə demişdi ki, iti görüm, qurdu görüm, onu görməyim. O da cürət eləyib Hasan paşanın yanına elçi göndərə bilməmişdi. Çünki bilirdi ki, Hasan paşa qızlarını çox istəyir. Onların bir sözünü iki eləməz. İndi ki, Hasan paşa işi gətirib bu əndazəyə mindirib, Bolu bəy fürsəti qənimət bilib ayağa durdu. Elə o ayağa durcaq Hasan paşa sevincək dedi:

– Mərhaba! Bolu bəy! Elə mən bilirdim ki, bu işə axırda sən gedəcəksən.

Bolu bəy irəli yeriyib badənin birini Hasan paşadan aldı. Dedi:

– Paşa sağ olsun! Sən bilirsən ki, mən bu işin öhdəsindən gələrəm. Ancaq mənim bir şərtim var.

Hasan paşa dedi:

– Şərtini de! Hər nə olsa yerinə yetirəcəyəm.

Bolu bəy çox hiyləgər adam idi. O, necə deyərlər, şeytana papaq tikib təpəsinə də deşik qoyardı. Bir dəfə gözlərini dolandırıb məclisə baxdı. Sonra üzünü Hasan paşaya tutub ucadan dedi:

– Paşa, mən bilirəm ki, bu xotkar əmridi. Odu ki, buradakı əhdə arxayınam. Bilirəm ki, burada xilaf söz olmaz. Necə ki, əhd eləmisən, Toqat paşalığını verəcəksən, məni də özünə nökər eləyib qızını verəcəksən. Mənim sözüm onda deyil. Mənim şərtim budu ki, gərək pəhləvan Qəcər Alını, bir də Mehtər Murtuzu mənə verəsən.

Qəcər Alı Toqatın lap arzuman pəhləvanlarından idi. Hələ indiyə kimi onun arxasını yerə vuran, qılıncının qabağında qalxan olmamışdı. Mehtər Murtuz da düz yeddi il Koroğluya mehtərlik eləmişdi. Çənlibeli yaxşı tanıyırdı.

Hasan paşa dedi:

– Şərtin şəkər üstə! Hamısına razıyam.

İş belə olanda Bolu badəni içdi. Ləli də götürüb qayıtdı yerinə oturdu. Ondan Hasan paşa ikinci badəni qaldırdı, dedi:

– İndi növbə ikincinindi.

Elə bu sözdə bir qasid toz-torpağa bulanmış özünü saldı məclisə. Hasan paşaya baş əyib ona bir namə verdi. Hasan paşa naməni oxuyub gördü ki, Ərəb Reyhandandı. Yazıb ki, "Hasan paşa, eşitmişəm Koroğlunun üs-

tünə qoşun çəkirsən. Bil və agah ol! Koroğlu mənim düşmanımdı. Əgər razı olsan, mən də onun üstünə gedərəm".

Hasan paşa şadlığından bilmədi ki, nə eləsin. O, Ərəb Reyhanı tanıyırdı. Bilirdi ki, zor adamdı. Koroğlu ilə olan əhvalatını da eşitmişdi. Üzün məclisə tutub dedi:

– İkinci adam da öz ayağı ilə gəldi.

Bunu deyib Hasan paşa badəni qaldırıb qasidə verdi.

Dedi:

– Badəni iç! İçindən ləli də aparıb ağana ver! Deynən ki, yolunu gözləyirik. Tez gəlsin. Gözümün üstə yeri var.

Qasid badəni içdi. Ləli öpüb cibinə qoydu. Mürəxxəs olmaq istəyəndə Hasan paşa vəzirinə tapşırdı ki, qasidi aparıb yedirsin, içirsin, bir az da pul verib yola salsın. Naməyə də bir cavab yazsın. Vəzir qasidi də götürüb getdi. Məclisdəkilər soruşdular ki, "namə kimdən idi?" Hasan paşa dedi:

– Ərəb Reyhandan.

Hamı şad oldu. Hasan paşa əmr elədi çalanlar, oxuyanlar, oynayanlar gəldilər. Kef başlandı. Elə ki, yedilər, içdilər, damaqlar duruldu, Mehtər Murtuz zəmini-ədəb öpüb dedi:

– Paşam sağ olsun, xotkara da qurban olum, sənə də. Sizin buyruğunuz allah buyruğudu. İndi ki, bizi göndərirsən, gedəcəyik. Ancaq orasını deyim ki, Koroğlunun igidliyinin düz yarısı Qıratdandı. Nə qədər ki, o, Qıratın üstündədi, biz ona heç nə eləyə bilmərik. Əgər Koroğlunu muzməhəl eləmək istəyirsənsə, birtəhər elə, o atı onun əlindən çıxart!

Söz deyəsən Hasan paşanın beyninə batdı. Məclisdəkilər də Mehtər Murtuzun sözünü təsdiqlədilər. Hasan paşa dedi:

– Murtuz, dərdi bilən dərmanın da bilər. De görüm, nə təhər eləmək olar ki, Qıratı onun əlindən çıxardaq?

Mehtər Murtuz dedi:

– Paşa, vallah nə bilim? Day onun atını pul ilə alası deyilik ki, gərək elə bir adam ola ki, canından keçə, Çənlibelə gedə. Ya gətirə, ya da ki, başını Koroğluya təslim verə.

Paşa məclisə baxdı. Hamı başını aşağı dikdi. Hasan paşa özü də bilirdi ki, bu çox çətin işdi. Heç kəs qol qoymaz. Fikirləşib yol axtardı ki, nə eləsin, bir də məclisin lap başmaq çıxanından bir cır-cındır adam qalxdı ayağa. Paşa baxdı ki, bu Keçəl Həmzədi.

Keçəl Həmzə sayılmayan, urvatı olmayan bir adam idi. Məscidə qoymazdılar ki, başmaq oğurlayar, tövləyə qoymazdılar ki, quşqun oğurlayar. Keçəl Həmzə kef məclisi başlananda gəlib birtəhər özünü salmışdı içəriyə ki, qarnını doyursun.

Qərəz, Həmzə məclisin ortasına yeriyib dedi:

– Paşa sağ olsun, bu işə mən gedərəm. Qıratı gətirdim, gətirmişəm, yox gətirə bilmədim, Koroğlu işi başa düşdü, nə olsun? Bir keçəl başdı, qoy qurban olsun sənə.

Hasan paşa dedi:

– Bala, Həmzə, əgər sən gedib Qıratı gətirsən, mən səni dünya malından qəni elərəm.

Həmzə dedi:

– Paşa, mənə tək dünya malı lazım deyil.

Paşa dedi:

– Sənə bəylik verərəm.

Həmzə dedi:

– Yox, paşa, o da mənə lazım deyil.

Hasan dedi:

– Səni özümə oğulluğa götürərəm.

Həmzə dedi:

– Yox, qurbanın olum. Mənə təkbətəklikdə bunların heç biri lazım deyil. Üçünü də birdən nə sən verməzsən, nə də mən istəmirəm. Gəl, mən səndən elə bir şey istəyim ki, mənim üçün bunların hamısından qiymətli olsun, sənin üçün hamısından ucuz.

Hasan paşa dedi:

– İstə görüm, o nədi elə?

Həmzə dedi:

– Deyirsiniz ki, Koroğlunun nə qədər igidliyi varsa, onun tən yarısı Qıratdı. Bu yarısını mən gətirəcəyəm. Sizə qalacaq yarısı. O yarısından da bir pay düşəcək Bolu bəyə. Sənə qurban olum, bu pay üçün sən ona Toqat paşalığını verdin, ləl verdin, bir də böyük qızın Dünya xanımı verdin. Gəl, bu yarısı üçün də kiçik qızını ver mənə, getdim Qıratı gətirim.

Hasan paşa dedi:

– Ay axmaq, niyə bəyəm, bir qız nə oldu ki, bəylikdən, mal-dövlətdən, mənə oğul olmaqdan qiymətli oldu?

Həmzə dedi:

– Paşa, sən bilirsən ki, keçəl çoxbilmiş olar. Mən də gəlir-çıxarını bilən adamam. Mən bilirəm ki, sən bu üç şeyin üçünü də mənə verən deyilsən. Amma qızı versən, mən olaram sənin kürəkənin. Kürəkən ki, var, elə oğula bərabər bir şeydi. Ondan sonra elə bəylik də öz-özünə gələcək, mal-dövlət də.

Məclisdəkilər hamısı keçəlin fərasətinə afərin dedilər. Hasan paşa getdi fikrə. Bilmədi nə eləsin. Qızı Keçəl Həmzəyə verməyə ürəkdən razı deyildi. Amma bu tərəfdən də fikirləşdi, Qırat gəlsə Koroğlu qırılacaq. Onda da ki, sədrəzəmlik ona çatacaq.

Dedi:

– Həmzə, razıyam.

Həmzə dedi:

– Yox, paşa sağ olsun! Zəhmət çək öz dilindən bir dənə kağız yaz, möhrünü də bas üstünə, ver qoyum cibimə. Ondan sonra mənə möhlət qoy. Vədə başına gətirdim – haqqımı ver, gətirmədim – boynumu vur.

Hasan paşa çar-naçar öz dilindən bir dənə qol kağızı yazdı. Möhrünü də üstünə basıb verdi Həmzəyə. Həmzə kağızı alıb qoydu qoltuğuna. Ondan Hasan paşaya dedi:

– İndi mənə izin ver mürəxxəs olum. Yolçu yolda gərək. Bunu deyib Keçəl Həmzə məclisdən çıxdı. Hasan paşa bu işə çox şad oldu. Məclisi dağıtdı. Bolu bəyə deməlisin dedi, tapşırılmasın tapşırdı, yola saldı ki, gedib hazırlaşsın. Özü də bir namə yazıb bir qasidlə bayazidli Əhməd tacirbaşıya göndərdi ki, "Sənlə çox vacib işim var. Başını orada islat, burda qırxdır!".

Bəli, qasid Əhməd tacirbaşı üçün Bayazidə getməkdə olsun, Bolu bəy hazırlaşmaq üçün Ərzincana getməkdə olsun, sənə kimdən deyim, keçəl Həmzədən.

Keçəl Həmzə çarığını geydi, patavasını bərkitdi, dəstərxanına bir-iki çörək qoyub belinə bağladı, düşdü yolun ağına. Pay-piyada, günə bir mənzil, təyyi-mənazil, orda ayla, illə, burda müxtəsər dillə, az getdi, çox dayandı, çox getdi az dayandı, bir axşam gəlib Çardaqlı Çənlibelə çatdı.

Deyirlər ki, Koroğlu Ağ Qayada durub karvan yollarına baxırdı. Bir də gördü ki, budu, bir nəfər gəlir. O qədər gözlədi ki, Həmzə gəlib qayanın dibinə çatdı. Başladı cığır yuxarı dırmaşmağa. Koroğlu qayadan düşüb kəsdi onun qabağını ki:

– Dayan! De görüm kimsən? Haradan gəlib, haraya gedirsən?

Həmzə baxdı ki, qabağındakı bir oğlandı, bir oğlandı ki, adam üzünə baxmağa ürək eləmir. Boy-buxun, qol-biləк. Süysünün əti qat-qat tökülüb, qara bığlar kəl buynuzu kimi "deşərəm ha, deşərəm" deyir. Gözlər tərlan gözü kimi oyur-oyur oynarır. Belində bir qılınc var ki, allah göstərməsin. Həmzə bildi ki, bu, Koroğludu, hiylə niqabını çəkdi üzünə. Özünü tanımamazlığa vurub dedi:

– Koroğlunu axtarıram.

Koroğlu soruşdu:

– Neyləyirsən Korğlunu?

Həmzə dedi:

– Qadan-balan mənim bu canıma gəlsin. Mən ilxıçıyam. Ömrümü, günümü bəy-paşa qapısında çürüdüb, ilxıya getmişəm. O, necə deyərlər qurbağalı gölməçələrdən su içməkdən dodaqlarım ziyil töküb. Anamı görüm ki, məni doğan gün bir qara daş doğaydı. Başım keçəldi. Onun ucbatından heç bir qapıda duruş gətirə bilmirəm. Nə qədər işə can yandırsam da, elə ki keçəl olduğumu bildilər, çıxardıb qovurlar. Day bu keçəlliyim üzündən gen dünya mənə dar olub. İndi başına dönüm, Koroğlunu deyib gəlmişəm. Deyirlər o, çox mərd adamdı. Çörəyə qızırqanan deyil. Ya budu məni qoysun elə qapısında, bacasında süfrəsinin qırıq-quruğundan yeyib dolanım, ya da bu başımı çəkib bədənimdən qopardsın, bu dünyanın dərd-qəmindən azad olum.

Bunu deyib Keçəl Həmzə elə ağladı, elə ağladı ki, gözünün yaşını bıldır-bıldır tökdü. Koroğlunun kcçələ yazığı gəldi. Dedi:

– Dur, gedək! O Koroğlu dediyim elə mənəm.

Bunu eşitcək Həmzə düşdü Koroğlunun ayaqlarına ki:

– Qurban kəsilim sənə, Koroğlu, məni qapından qovma!

Koroğlu onu qaldırıb dedi:

– Dur ayağa! Kişisən. Kişi bir qarın çörəkdən ötəri ayağa yıxılmaz.

Keçəl Həmzə durdu. Koroğlu dedi:

– De görüm, əlindən nə iş gəlir?

Həmzə dedi:

– Can Koroğlu, mən bilirəm ki, bu başla sən məni nə kababçı eləməyəcəksən, nə şərabçı. Elə mənə bir dənə at tapşır, bəsləyim sənin üçün. Dədə-baba sənətim odu.

Koroğlu Keçəl Həmzəni götürüb gəldi. Dəlilər Həmzəni görüb dedilər:

– Ay Koroğlu, bunu haradan tapıb gətirdin? Bunun gözləri Üçtəpə sağsağının gözləri kimi qayır-qayır qaynayır. Heç əməlli adama oxşamır. Rədd elə getsin.

Xanımlar da dəlilərin sözlərini təsdiqlədilər.

Koroğlu xanımları, dəliləri sakit eləyib dedi:

– Görürsünüz, yazığın birisidi. Bizə nə eləyəcək? Qoyun süfrəmizin qırıq-quruğundan yeyib qapıda, bacada dolansın.

Keçəl Həmzə qırıq-quruqdan yeyib qapıda-bacada qurdalanmağa başladı. Xanımlar, dəlilər nəyə buyurardılarsa, gedərdi. Getdiyi işi yaxşı da yarıdardı. Belə zirəkliyinə görə get-gedə dəlilərin, xanımların yanında Keçəl Həmzənin hörməti də artdı.

Koroğlu da Keçəl Həmzənin diribaşlığını görüb, onun adını dəyişdirib Kaloğlan qoydu. Tövlədə bir yük yabısı var idi. O qədər yükləmişdilər ki, sümükləri çıxmışdı. Ona baxmağı da Keçəl Həmzəyə tapşırdı. Keçəl Həmzə yabıya muğayat olmağa başladı. Amma başladı nə başladı...

Axşam tumarlayır, səhər tumarlayır, yabıya bir can yandırırdı ki, gəl görəsən. Tövlədəki atların otundan, arpasından oğurlayıb, yabının qabağına tökürdü. Bir neçə gündə yabını elə kökəltdi, elə kökəltdi ki, dərisinə sığmaz elədi.

Bir gün Koroğlu tövləyə atların yanına gəlmişdi. Yabıya baxıb matməəttəl qaldı. Dedi:

– Ay Kaloğlan, sən ata nə yaxşı muğayat olurmuşsan. İndi ki belə ata baxmaq əlindən gəlir, Dürat bu il çox sınıqdı, tapşırıram onu sənə. Gərək onu da Qırata çatdırısan.

Bu işə xanımlar, dəlilər razı olmadılar. Amma Koroğlu onlara qulaq asmadı.

Keçəl Həmzə bir neçə gün Dürata çox yaxşı baxdı. Elə ki, at başladı dirçəlməyə, birdən arpasını xırpadan kəsdi. Dürat yenə də başladı arıqlamağa.

Koroğlu işi belə görüb soruşdu:

– Ay Kaloğlan, bu ata nə oldu belə, genə gün-gündən dala gedir? Olmaya yaxşı baxmırsan?

Keçəl Həmzə dedi:

– Mən əlimdən gələni eləyirəm, ağa! Amma at, o necə deyərlər, gecə-gündüz içəridə başından bağlıdı. Ayaqlarından buxoviudu. Nə eşik üzü görür, nə gün üzü. Yəqin ki, ondan sınıxır.

Qırat ilə Dürat bir tövlədə bağlanırdı. Atların ikisinin də ayağında buxov var idi. Özləri də ayrı-ayrı açarlarla açılırdı. Koroğlu çıxartdı Düratın açarını Keçəl Həmzəyə verdi. Xanımlar, dəlilər bunu eşidib dedilər:

– Ay Koroğlu, sən nə eləyirsən? Tanımadığın, bilmədiyin bir adama etibar eləyib, Düratın buxov açarını niyə verirsən?

Koroğlu yenə də xanımları, dəliləri sakit elədi ki:

– Qorxmayın, heç zad olmaz.

Keçəl Həmzə bir neçə gün də yenə də Düratı dərisinə sığmaz elədi. Amma ki, vaxt keçirdi. Keçəl Həmzə Çənlibelə gələni də az qalırdı bir ay olsun. Hasan paşaya verdiyi vədə tamam olurdu. Çox fikir-xəyaldan sonra, çox götür-qoydan sonra gecələrin birində öz-özünə dedi: "Mən bir il də burada qalsam, Koroğlu Qıratın nə mehtərçiliyini mənə verəcək, nə də buxovunun açarını, Toqatda nə tınayırlar ki, Qırat hansıdı, Dürat hansıdı. Elə bunu aparım, paşanı aldadım, qızı alım, beş gün bu dünyada kef çəkim".

Keçəl Həmzə bunu deyib, gecə xəlvətcə Düratı yəhərlədi. Minib asta qaçan namərddi, deyib birbaş Toqat deyib daban aldı.

Sabah açıldı. Dəli Mehtər yerindən qalxıb atlara baş çəkmək üçün tövləyə gəldi. Gördü nə Dürat var, nə də Keçəl Həmzə. Başı lovlu gəldi Koroğlunun yanına ki:

– Nə durubsan? Nə Dürat var, nə də Keçəl Həmzə...

Dəlilər çaxnaşıb, bir-birlərinə dəydilər. Xanımlar da bir yandan düşdülər Koroğlunun üstünə. De başladılar məzəmmət eləməyə ki:

– Biz sənə demədikmi tanımadığın adama etibar eləyib atı tapşırma. İgidin atını apardılar, ya arvadını, ikisi də namusdan sayılır. Bizim qorxumuzdan quş quşluğu ilə Çənlibelin həndəvərinə gələ bilmirdi. Koroğlunun, Çənlibelin, dəlilərin adı gələndə paşalar, bəylər tir-tir əsirdilər. Gör indi iş nə yerə gəldi ki, bir keçəl gədənin birisi gəlib burdan at apardı. İndi bu xəbər ətrafa yayılacaq, düşmənlər üstümüzə ayaq alacaq. Özün öz əlinlə elə iş elədin ki, aləm yığılsaydı sənə eləyə bilməzdi. İndi de görək Düratı haradan tapacaqsan? Necə gətirəcəksən?

Koroğlu dedi:

– Dürat gedib, Qırat durur. Minib gedib, tapıb gətirrəm. Az məni məzəmmət eləyin.

Dəlilər başladılar deyinməyə ki: gedərsən... gətirərsən... Sən nə bilirsən ki, o kimdir? Haradan gəlmişdi? Atı haraya apardı?

Koroğlu qəzəblənmişdi. Taqsırkardı deyin bir söz deyə bilmirdi. Amma ki, acığından bığlarını gəmirirdi. Birdən dik qalxdı ayağa. Üzünü Eyvaza tutub dedi:

– Eyvaz, mənə şərab!

Eyvaz şərab gətirdi. Koroğlu yeddi badəni dalbadal içdi. Ondan Dəli Mehtərə dönüb çağırdı ki:

– Atı yəhərlə!

Qıratı ifçin yəhərləyib Koroğlunun qabağına çəkdilər. Elə bil ki, Koroğlunun dili lal olmuşdu. Bir kəlmə nədi, heç dodağını da tərpətmədi. Atı minib yola düşdü.

Koroğlu Qıratı sürməkdə olsun, sənə deyim Həmzədən.

Həmzə canının qorxusundan bir yerdə düşüb dincəlməyib at sürürdü. Yolun üstündə Qırx dəyirmanlar deyilən bir yer var idi. Oraya çatmağa az qalmışdı ki, dönüb geri baxdı. Gördü vallah yolda toz dumana qarışıb, duman toza. Bir də diqqət eləyəndə gördü budu, Koroğlu Qıratın üstündə elə gəlir, elə gəlir ki, ley kimi. Keçəl Həmzənin tüpürcəyi qurudu. Ha udqundu, gördü yox, ağzının suyunu da uda bilmir. Elə onu eləyə bildi ki, Düratı qamçılayıb, özünü tez Qırx dəyirmanlıların qapısına saldı. Atdan düşdü. Atı dəyirmanın qapısında dirəyə bağlayıb tələsik çağırdı:

– Ay dəyirmançı, bir tez eşiyə çıx!

Dəyirmançı tez eşiyə çıxıb soruşdu:

– Qardaş, nə istəyirsən? Nə var?

Həmzə dedi:

– Bax, o yol ilə gələn qoç Koroğludu. Çənlibeldən gəlir. İlxısına qotur düşüb. Nə qədər dava-dərman eləyibsə bir şey çıxmayıb. Axırda həkimkimyagər dəyirmançı beyni buyurub. İndi dəyirmançı beyni axtarır ki, atların qoturunu qurtarsın. Məni Hasan paşa göndərib ki, dəyirmançılara xəbər verəm. Tez başına çarə qıl ki, yetişsə ömrünü tamam eləyəcək.

Dəyirmançı dili tutar-tutmaz dedi:

– Ay qadan alım, bəs mən nə eləyim? Onun əlindən necə qurtarım? Bir bölük köç-külfətim var. Gəl məni tərkinə al bir yana qaçırt.

Həmzə dedi:

– Soyun paltarını, al mənim paltarımı gey, get dəyirmanın donuzluğunda gizlən. Mən Koroğlunun ağzını bir yana salaram çıxar gedər. Sala bilməsəm də qoy məni öldürsün. Sən yazıqsan. Uşaqların yetim qalar. Mən subay-salıq adamam.

Dəyirmançı tez paltarını çıxarıb onun paltarını geydi. Qaçıb donuzluğa girdi. Həmzəyə də elə bu lazım idi. Tez onun paltarını geyinib dəyirmanın içinə girdi. Özünü guppadan unluğun içinə salıb, üzünü-gözünü o ki var una buladı.

O tərəfdən Koroğlu özünü dəyirmanın qapısına yetirib çağırdı ki:

– Ay dəyirmançı, çölə çıx!

Keçəl Həmzə dəyirmançı paltarında bayıra çıxıb soruşdu:

– Nə buyurursan? Mənə görə nə qulluq?

Koroğlu dedi:

– İndicə mənim qabağımca buraya gələn atlı necə oldu?

Keçəl Həmzə dedi:

– Odu, girib içəridə dəyirmanın donuzluğuna, gizlənib. Bilmirəm nə işi varsa, səni görən kimi qaçıb donuzluğa girdi. Mənə dedi ki, yerimi deməyəsən.

Koroğlu atdan sıçrayıb düşdü. Dedi:

– Bir bu atı saxla görüm.

Həmzə atı tutdu. Koroğlu dəyirmana girdi. Ağzını donuzluğa tutub dedi:

– Ayə! Ay keçəl! Belə çıx!

Dəyirmançı bir az da o yana çəkilib dedi:

– Haraya çıxım? Mənim sənin ilxının qoturuna dərman olası beynim yoxdu. Ölsəm də çıxmaram.

Koroğlu dedi:

– Ayə! Ay keçəl! Qotur nədi? Beyin nədi? Belə çıx! Sənlə işim çoxdu.

Koroğlu gördü yox, bu öz xoşuna donuzluqdan çıxmaq istəmir. İrəli yeridi. Dəyirmançı qorxub lap dibə çəkildi. Koroğlu bir addım da irəli atdı. Dəyirmançı qorxudan lap küncə qısılmaq istəyəndə paltarı ilişdi dəyirmanın çarxına. Çarx az qalmışdı dəyirmançını bir təhər eləsin ki, Koroğlu aman verməyib cəld onun qıçından tutdu, çəkdi bayıra. Baxdı ki, Həmzə nə gəzir. Bu, dəyirmançı imiş. Başa düşdü ki, Həmzə onu aldadıb. Tez bayıra tullandı. Eşit, gör indi Həmzə nə elədi.

Keçəl Həmzə Çənlibeldə Dürata baxdığı zaman Qıratın da yan-yörəsinə hərlənib özünə mehriban eləmişdi. Bir də Qıratın belə bir xasiyyəti var idi ki, Koroğlu onun yüyənini kimə tapşırsaydı, ona üzəngi verərdi. Odur ki, Koroğlunun başı içəridə dəyirmançıya məşğul olan müddətdə Həmzə Qıratın gözlərini tumarlayıb minmişdi. Koroğlu dəyirmandan çıxıb baxdı ki, Keçəl Həmzə Qıratın belində dəyirmandan da bir az aralı durub, Koroğlu bir az qəzəbləndi, misri qılıncını çəkib hücum eləmək istədi. Ancaq baxdı ki, bundan bir fayda olmayacaq. Qırat ayağını götürsə, heç quş da ona çata bilməz. Başladı onu dilə tutmağa. Dedi:

– Ayə, Kaloğlan, atı yeyin sürmüşəm, tərləyib. Elə minib incitmə! Düş, al yedəyinə bir az gəzdir, təri soyusun.

Həmzə dedi:

– Eybi yoxdu. Mən elə yavaş-yavaş sürüb gedəcəyəm. Soyuyar. Bunu deyib Həmzə başladı atı gərdişə gətirməyə. Koroğlu baxdı ki, həmzə at minməkdə çox naşıdı. Yüyəni qorxudan elə dartır ki, dəhnə az qalır atın çəvçələrini kəssin. Koroğlunun ürəyi tablamadı. Dedi:

Canım Həmzə, gözüm Həmzə,
Həmzə, incitmə Qıratı!
Budu sənə sözüm, Həmzə.
Həmzə, incitmə Qıratı!

Qıratdı mənim dirəyim,
Əriyər, qalmaz ürəyim,
Sən olasan duz-çörəyim,
Həmzə, incitmə Qıratı!

Qırat mənim iki gözüm,
Belə dərdə necə dözüm?
Həmzə, sənə budu sözüm,
Oğul, incitmə Qıratı!

Eşidər paşalar, bəylər,
Şadlıq xəbərini söylər,
Koroğlu iltimas eylər
Bala, incitmə Qıratı!

Həmzə dedi:

– Koroğlu, igidliyin var. Adın-sanın var. Mərd adamsan. Bir ay süfrənin qırıq-quruğundan yemişik onu niyə dilinə gətirib başımıza vurursan? Heç sənə yaraşan sifət deyil. Bir də bir at nədi ki, onun üçün bu qədər yalvarıb-yaxarırsan?

Koroğlu dedi:

– Həmzə, mən bilirəm ki, sən bu atı aparıb saxlayan, minən deyilsən. Düzünü de görüm, səni kim öyrədib göndərib?

Həmzə dedi:

– Koroğlu eşit və agah ol! Mən Çənlibeldə sənə nə demişəmsə hamısı doğrudu. Bu keçəl baş bu gen dünyanı mənə dar eləyib. Bir adam rəğbət eləyib məni qapısına qoymur. İndi bu atı aparıram Toqatda verəm Hasan paşaya, bəlkə bu yolla bir ağ günə çatam.

Koroğlu dedi:

– Ayə, bu tədbir Hasan paşanındı, ya elə sən özün bu fikrə düşmüsən?

Həmzə dedi:

– Xeyr, Hasan paşanındı. Məni o göndərib.

Koroğlu dedi:

– Bala, indi ki belədi, düş, atı ver özümə, dünya malından nə deyərsən, nə qədər pul istəyirsən, sənə verim.

Həmzə güldü, dedi:

– Koroğlu, sən dünya görmüş adamsan. Niyə, sən bilmirsən ki, keçəli allah da aldada bilməz. Yaxşı mən atdan düşəndən sonra sən Koroğlu məni sağ buraxarsan? Yox, aşna, üz vurma! Keçəl suya getməz.

Koroğlu dedi:

– Ayə, Kaloğlan, indi sən elə atı mənim əlimdən alıb aparıb Hasan paşaya verəcəksən?

Keçəl Həmzə dedi:

– Koroğlu, keçəl mərd olar. Mən sənin nəinki atını, heç bir tükünü də qıyıb Hasan paşaya verməərəm. Mən bilirəm ki, sən axırda gəlib öz atına

sahib olacaqsan. Mən ona görə belə eləyirəm ki, ortada bir ağ günə çıxam. Hər nə vaxt ki Toqata gəldin, atın üzəngisini özüm basıb səni ona mindirəcəyəm. İndi day məni bağışla, gedim. Yolum uzaqdı.

Koroğlu gördü Həmzə atı aparır, dedi:

– Həmzə, indi ki, yola gəlmirsən, atı aparırsan, barı əylən, onun qiymətini deyim, aldanıb ucuz verməyəsən.

Bunu deyib, Koroğlu sazı basdı döşünə, dedi:

Əylən deyim Qıratın qiymətini,
Səksən min sərkərdə, mala da vermə!
Səksən min ağ tüklü qəmər öyəcə,
Səksən min xəzinə pula da vermə!

Səksən min ilxıya, səksən min ata,
Səksən min mahaldan gələn barata,
Səksən min kotana, səksən min cütə,
Səksən min kotanlı kala da vermə!

Həmzə dedi:

– Koroğlu, arxayın ol, mən atı dünya malına verməyəcəyəm. Hasan paşa ilə şərtim var. Atı ona verib onun kiçik qızı Dona xanımı alacağam.

Koroğlu dedi:

– A zalım, belə atı da bir qıza verərlərmi?

Sazı döşünə basıb, aldı sözün axır xanəsini dedi:

Koroğlu dövlətin endirsin düzə,
Say götür hamısın səksən min yüzə,
Səksən min gəlinə, səksən min qıza,
Səksən min ərgənə, dula da vermə!

Həmzə dedi:

– Koroğlu, mən işin olanını sənə dedim. İndi özün bil. Mənə nə ad verirsən, ver! Day mən gedirəm.

Koroğlu dedi:

– Həmzə, indi ki belə oldu, apar get, muradına çat! Ancaq mən gəlincə atı yaxşı saxla! Qoyma incitsinlər. Sən ki bilirsən. At ki var, igidin qardaşıdı.

Bu sözdə Koroğlunun ürəyi kövrəldi. Sazı yenə də döşünə basdı, dedi:

Həmzə, atı yaxşı saxla!
At igidin qardaşıdı.
Gündə muğayat ol, yoxla!
At igidin qardaşıdı.

Yay olanda dağa yollat!
Yaz olanda ifçin nallat!
Qış olanda məxmər çullat!
At igidin qardaşıdı.

Atı sevib bəslə körpə,
Hayqıranda çıxsın sarpa,
Hər yeyəndə qırx tas arpa,
At igidin qardaşıdı.

Uzaq-uzaq yollarınan
Beli ipək çullarınan
Hoqqa yarım nallarınan,
At igidin qardaşıdı.

Məclis qurdum çoxlarınan,
Dava etdim oxlarınan,
Qara polad mıxlarınan,
At igidin qardaşıdı.

Sərin-sərin yu suyunan,
Quyruğun bağla muyunan,
Qoç Koroğlu çox öyünən
At igidin qardaşıdı.

Həmzə dedi:
– Koroğlu, arxayın ol! İnşallah gələrsən, görərsən.
Koroğlu dedi:
–Həmzə,get. Amma mənim bu sifarişimi də Hasan paşaya çatdır:

Get de o paşaya, köç eləməsin,
Qıratı gətirrəm, qala qoymaram!
Qoşunun qıraram, varın talaram,
İlxısında bir day qala qoymaram!

İçmişəm badəni indi meyxoşam,
Qıratın dərdindən dəli, sərxoşam,
Sözlərimi eşit, yaxşı bil, paşam,
Dağıdıb ölkəndə qala qoymaram!

Qoç Koroğlu ha xışımnan yerisə,
Duman, çiskin dağlarını bürüsə,
Nə ki pərdə altda qızın var isə,
Gətirrəm, birini qala qoymaram.

Həmzə dedi:

– Gözüm üstə! Çatdırıram. Ancaq tez gəl!

Keçəl Həmzə bunu deyib, Qıratı səyirtdi, gözdən itdi. Koroğlu Düratı qaytarmağa gəlmişdi, Qıratı da əlindən verdi. Dəyirmanın qapısında yerə oturdu, aldı görək nə dedi:

Çünki oldun dəyirmançı,
Çağır gəlsin dən Koroğlu!
Verdin Qırı aldın Dürü,
Döy başına yan, Koroğlu!

Qırat əldən getdi barı,
Canda qaldı intizarı.
Üyüd arpa, buğda, darı
Al şahadın sən Koroğlu!

Uca dağları döşlətdin,
Ağır alaylar boşlatdın,
Yüz il lotuluq işlətdin,
Axır oldun xam, Koroğlu...

Qırat burdan getdi büyün,
Sinəmə vurdu dağ, düyün,
Gedim dəlilərə nə deyim?
Öl, burada qal, Koroğlu!

Koroğlu özü də ac idi, atı da arpasız. Koroğlu gecəni ac-susuz yatdı. Elə ki, sabah açıldı. Bir də baxdı ki, budu, bir kişi qabağında da iki yüklü öküz gəlir. Kişi gəlib yetişdi. Bir Koroğluya baxdı, bir paltar-maltarına, şəst-bəstinə, dedi:

– A qardaş, dəyirmançı hanı?

Koroğlu dedi:

– Dəyirmançı yoxdu. İndi dəyirmanda mən dururam.

Kişi inanmadı. Amma Koroğlu da macal vermədi. Bayaq ha öküzlərin üstündən çuvalları düşürüb dəyirmana apardı.

Sonra kişidən soruşdu:

– Qardaş, bunların içində heç arpa varmı? Mənim atım arpasızdı. Qorxuram damaq ola. Bir az ona arpa verim, yesin.

Kişi dedi:

– Çuvalların ikisi arpadı, ikisi buğda.

Koroğlu baxdı ki, arpa çuvalları yarımçıqdı. Tez ikisini qarışdırıb bir çuval elədi. Düratın qabağına qoydu. Kişi istədi qoymasın. Koroğlu ona bir tərs baxdı. Kişi gördü ki, bu, o dəyirmançılardan deyil. Bir az oyanbuyan eləsə, çəkib cəngini ayıracaq. Yavaşca çəkilib bir tərəfdə durdu. Koroğlu özü də yaman ac idi. Dürat arpasını yeyənə qədər buğdanı da tö-

küb üyütdü. Unluğa bir az su buraxıb tez xamır qatdı, ocaq çatdı, çörək bişirdi. Öküzün də birini kəsdi? Kabab çəkdi. Yeyib, toqqanın altını bərkitdi. Doyandan sonra dönüb kişiyə baxdı. Gördü kişi kirimişcə durub, maddım-maddım baxır onun üzünə. Dedi:

– Əmi, özünü itirmə, bu şeyləri ki, mən yedim, pulu neçə eləyir?

Kişi dinmədi. Koroğlu gördü ki, kişi ondan qorxub. Çıxartdı taxılın da, öküzün də iki qat pulunu verib onu razı saldı. Sonra Düratı minib yola düşdü.

Dəlilər, xanımlar Koroğludan çox nigaran idilər. Gözlərini yola dikib onu gözləyirdilər. Bir də gördülər ki, budu, Koroğlu gəlir. Gəlir, amma necə gəlir, Dürat yedəyində, başın dikib aşağıya. Özü də elədi, elədi ki, elə bil dəyirmançıdı. Dəlilər, xanımlar o saat başa düşdülər ki, Keçəl Həmzə dəyirmanda Koroğlunu aldadıb, Qıratı qaçırdıb. Hamı başını aşağı saldı. Nə bir salam, nə bir kalam. Heç kefini, halını da soruşmadılar.

Koroğlu gəlib çatdı. Eyvaz onun qabağına çıxdı. Aldı görək nə dedi:

Təzə sövdakər olubsan,
Bu sövdan mübarək olsun!
Alış-veriş öyrənibsən,
Bu sövdan mübarək olsun!

Niyə girdin dəyirmana?
Bizi qoydun yana-yana,
Atı verdin Kaloğlana!
Bu sövdan mübarək olsun!

Sən Eyvazı qoydun xəstə,
Get, cömərddən mətləb istə.
De bir, neçə verdin üstə?
Bu sövdan mübarək olsun!

Koroğlu neçə-neçə səfərlərə getmişdi, amma heç olmamışdı ki, qayıdanda dəlilər belə eləsinlər. Amma bu dəfə... Hələ o bir tərəfə dursun ki, xanımlar onun üzünə baxmırdı, dəlilər salam vermirdi. Eyvazın töhmətli sözləri Koroğluya dağdan ağır gəlmişdi. Koroğlu elə bir hala düşmüşdü ki, az qalırdı gözlərindən yaş gəlsin. Sazı sinəsinə basıb qəmli-qəmli dedi:

Keçər dövran belə qalmaz,
Şad ol könül, nə məlulsan?!
Dəlilərim salam almaz,
Şad ol könül, nə məlulsan?!

Geydiyin igid kürküdü,
Dünya Süleyman mülküdü,
Dövlət ki, var, əl çirkidi,
Şad ol könül, nə məlulsan?!

Koroğluyam, deyim sənə,
Od tutub alışdı sinə,
Aşıqlığım bəsdi mənə,
Şad ol könül, nə məlulsan?!

Dəlilər o qədər incimişdilər ki, bu sözlər də ürəklərini yumşaltmadı. Heç birisi Koroğlunun üzünə baxmadı. Hələ bəziləri başladılar dinib-danışmağa. Birisi dedi:

– İndi ki, biz dəlilərin sözü Koroğlunun yanında bir çürük qozdur, day bizim burada qalmağımızdan nə çıxsın?

Söz Koroğluya acıq gəldi. Bir tərəfdən Qırat əlindən getmişdi. Bir tərəfdən Həmzə kimi biri onu aldatmışdı. Öz dərdi özünə bəs deyildi, indi dəlilər belə deyirlər.

Öznü saxlaya bilməyib birdən qayıtdı ki:

– Mən heç kəsi burada güclə saxlamıram. Kim getmək istəyir, çıxıb getsin. At mənimdi, vermişəm, özüm billəm.

Bu söz dəliləri götürdü. Hamısı vəlvələyə düşdü. Getmək üçün hazırlaşmağa başladılar. Nigar işi belə görəndə ayağa durdu. Dəlilər dayandılar. Nigarın dəlilərin arasında o qədər hörməti var idi ki, bir sözünü iki eləməzdilər. Dəli Həsən qayıdıb oturdu. Eyvaz oturdu. Dəmirçioğlu oturdu. Dəlilər hamısı bir-bir qayıdıb oturdular. Nigar özü də onların arasında oturub, üzün də Koroğludan o yana çevirdi.

Bu məlul, müşkül vaxtında Nigarın küsməyi Koroğlunun ürəyini lap qubarlandırdı. Üzünü ona tutub dedi:

Uca dağların başına,
Çıxmağı kimdən öyrəndin?
Sən mənim dəli könlümü
Yıxmağı kimdən öyrəndin?

Nə durubsan xaçın kimi?
Maç görmədim maçın kimi,
Acıqlanmış laçın kimi,
Baxmağı kimdən öyrəndin?

Ərisin dağların qarı,
Tökülsün çaylara sarı,
Koroğlunun gözəl yarı,
Küsməyi kimdən öyrəndin?

Söz tamam oldu. Amma Nigar heç bir cavab vermədi. Heç başını qaldırıb onun üzünə də baxmadı. Koroğlu gördü yox, bu elə küsmək deyil. Nigar da üz çevirib.

Bu, Koroğluya hamısından bərk yer elədi. Sazı döşünə basdı görək nə dedi:

Ala gözlü Nigar xanım,
Üzün məndən niyə döndü?!
Sənə qurban şirin canım,
Üzün məndən niyə döndü?!

Qoyun otlar quzu ilə,
Ayağının tozu ilə,
Müxənnətin sözü ilə
Üzün məndən niyə döndü?!

İgidin yatmasın baxtı,
Yana çevrilməsin taxtı,
Koroğlunun məlul vaxtı
Üzün məndən niyə döndü?!

Nigar bir tərs-tərs ona baxıb dedi:
– Sən işi o yerə çatdırmısan ki, dəlilərə gedin, deyirsən?
Əlini uzadıb sazı ondan aldı. Dedi:

Binadan gözəl olmayan
Telin qədrini nə bilir?
Çöldə gəzən boz sərçələr
Gülün qədrini nə bilir?

Kəl qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən
Balın qədrini nə bilir?

Utan, qoç Koroğlu utan!
Dağların damənin tutan!
Sənin kimi başa çatan
Elin qədrini nə bilir?

Ustad deyir ki, Koroğlu Nigar xanımın bu sözündən sonra bir kəlmə də kəsmədi. Öz taqsırını başa düşdü. Üç gün, üç gecə ac, susuz yatdı.

Dəlilər də başa düşdülər ki, pis eləyiblər. Ona ürək-dirək vermək əvəzinə bir az da ürəyini sıxıblar. Qəlbinə toxunublar. Nə qədər o yan-bu yana keçdilərsə Koroğlu oyanmadı. Deyirlər ki, o belə vaxtlarında üzü üstə düşüb üç gün, üç gecə yatardı. Dəmirçioğlu dedi:

– Nigar xanım, bu iş Eyvazla səndən aşacaq. Siz gərək onun ürəyini alasız.

Nigar dedi:

– Yaxşı. Qoy yatsın. Durana macal siz dağılıb gedin. Gözünə görünməyin. Eyvaz onu mənim yanıma gətirər, mən işi yoluna qoyaram.

Dəlilər tədbir tökməkdə olsunlar, sizə kimdən deyim – Koroğludan.

Üç günün tamamında Koroğlu yuxuda gördü ki, Toqatda Hasan paşanın qabağındadır, Qırat da altında. Diksinib yuxudan oyandı. Baxdı ki, Eyvaz oturub onun başının üstündə. Özü də elədi, elədi ki, bircə sözə bənddi ağlasın. Koroğlunun ürəyi Səməndər kimi alışdı, yandı. Sazı bağrına basıb dedi:

Eyvaz, məndən nə istərsən,
Candımı, başdımı, nədi?
Axıdırsan ala gözdən
Qandımı, yaşdımı, nədi?

Məclisdə dolanmır sağın,
Sinəm üstə getməz dağın,
Tökülübdü qaşqabağın,
Boranmı, qışdımı, nədi?

Dayan, qoç Korğlu, dayan!..
Sözlərini elə bəyan!
Yatıbsan qəflətdən oyan!
Gördüyün duşdumu, nədi?

Eyvaz dedi:

– Dur gedək! Dəlilər, xanımlar səni gözləyir.

Korolu dedi:

– Yox, Eyvaz! Yalan deyirsən. Mən ki dəliləri, xanımları özümdən elə incitdim, onlar day bir də mənim üzümə baxmazlar.

Eyvaz nə qədər elədisə, Koroğlu durmadı. Dedi:

– Yox, Eyvaz! Mən gedib Qıratı gətirməyincə onların üzünə çıxa bilmərəm.

Eyvaz dedi:

– Bu fikrə mən də razıyam. Di onda dur ayağa, geyin, yar-yaraq götür, get!

Koroğlu durdu ayağa. Elə bir addım atmışdı, bir də baxdı vallah kimdisə bir saz çalır, bir oxuyur ki, gəl görəsən. Qulaq verib gördü çalıb-oxuyan Nigardı. Amma elə çalır, elə oxuyur ki, göydə gedən quşlar az qalır qanad saxlayıb tamaşaya dursun.

Belə baxanda gördü Nigar Yağı qoruğunun yanındakı çəmənliyin başında dayanıb, üzünü ona tutub deyir:

Ay ağalar, ay qazılar,
Ay bu gələn yar olaydı!..
Haqdan beləymiş yazılar,
Ay bu gələn yar olaydı!..

Bağçalar olmasın barsız,
Heyvalar olmasın narsız,
Heç gözəl olmasın yarsız,
Ay bu gələn yar olaydı!..

Ay bimürvət, çıxdı canım,
Müjganlarım tökdü qanım,
Sənə qurban Nigar xanım,
Ay bu gələn yar olaydı!..

Eyvaz dedi:

– Gördün ki? Di gəl!

Koroğlu Nigara tərəf yönəldi. Gəlib çəmənə çatana nə gördü? Burada bir məclis qurulub ki, gəl görəsən. Dəlilər, xanımlar hamısı geyinib-kecinib onu gözləyirlər.

Koroğlu məclisə girdi. Eyvaz özü saqi dolandırmağa başladı. Yedilər, içdilər, keflər kökəldi, damaqlar çağaldı, inciklik yaddan çıxdı. Yenə də əvvəlki kimi oldular. Koroğlu Keçəl Həmzənin işini necə ki, olmuşdu onlara danışdı. Sonra sazı götürüb dedi:

Allahı çağırıb düşərəm yola,
Bu dərdi sinəmdə qala qoymaram.
Qıratım həsrətdi, yolum gözləyir,
Düşmənlər əlində qala qoymaram.

Ah çəkərəm, hərdən köysüm ötürrəm,
Yola düşüb mətləbimi bitirrəm,
Ya ölərəm, ya Qıratı gətirrəm,
Ayı dolansa da, ilə qoymaram.

Koroğluyam, qoç oğluyam, qoçam mən,
Çətindi ki, mərd meydandan qaçam mən,
Havada dövr edən tərlan quşam mən,
Sarlar şikarımı ala qoymaram.

Koroğlu ayaqdan geyindi, başdan qıfıllandı, başdan geyindi, ayaqdan qıfıllandı. Misri qılınc bağladı, qalxan asdı. Əmud götürdü. Dava libasının üstündən bir kürk geyindi. Çiyninə də bir saz keçirtdi. Tək başına, payi-piyada Toqata yola düşdü. Az getdi, çox getdi, gecəni gündüzə qatdı, özünü Toqat şəhərinə yetirdi. Baxdı ki, hava qaranlıqlaşır. Bir qarının qapısını döyüb dedi:

– Ay qarı nənə, bu gecəliyə məni qonaq saxlayarsanmı?

Qarı dedi:

– Niyə saxlamıram. Qonaq allah qonağıdı.

Koroğlu qarıya bir ovuc pul verib dedi:

– İndi ki, elədi, al, mənə yemək hazırla!..

Qarı pul çox görüb soruşdu:

– +Pulun qalanını neyləyim?

Koroğlu dedi:

– Qalanı nədi? Hamısını al!

Qarı soruşdu:

– Tək canına bu qədər şeyi neynirsən?

Koroğlu gülüb dedi:

– Qonağım var. On adamlıq xörək bişir!

Koroğlu içəri girib oturdu. Qarı da tez ayağa durub bazara üz qoydu. Yağdan, düyüdən, ətdən alıb gətirib, on adamlıq xörək hazırladı.

Elə ki xörək hazır oldu, qarı gəldi ki:

– Yaxşı, xörək hazırdı. Sənin də yoldaşların gəlmədi. Bəs nə eləyək?

Koroğlu dedi:

– Onlar day gələsi olmadılar. Çək gətir buraya!

– Elə hamısını?

Koroğlu dedi:

– Bəli. Elə hamısını.

Qarı əvvəlcə inanmadı. Sonra gördü ki, yox balam, bu elə düz danışır. Fikirləşdi ki, yaxşı çəkib apararam. Bu day əjdaha-zad deyil ki... Bir qarnı var da... Yediyini yeyər, qalanı da mənim on-on beş günümə bəsdi.

Qərəz, qarı ortalığa yekə bir məcməyi qoyub plovu çəkdi. Məcməyi təpə kimi qalandı. Yazıq qarı nə qədər hıqqındı, məcməyini yerdən götürə bilmədi. Koroğlu işi belə görüb durub gəldi. Məcməyini götürüb evə gətirdi, ortalığa qoydu, qollarını çırmayıb əyləşdi. Qarı fikirləşdi ki, mənim oturub bununla bir yerdə yeməyim yaxşı deyil. O yeyər, doyar, qalanını mən xırda-xırda yeyərəm.

Koroğlu qarını çağırdı ki:

– Qarı nənə, gəl yeyək!

Qarı dedi:

– Sən ye! Mən ac deyiləm.

Koroğlu dedi:

– Nə yemisən ki, ac deyilsən? Gəl! Sonra peşman olarsan.

Qarı dedi:

– Yox, sən ye! Mən elə qoxusu ilə doymuşam.

Koroğlu bir də dedi:

– Qarı nənə, gəl! Bax, sonra peşman olarsan ha...

Qarı genə naz elədi. Koroğlu ilişdi plova. Birinci tikədə plovun ürəyi üzüldü. İkinci, üçüncü... qarı gördü bu, bir-iki tikə də vursa, məcməyidə bir şey qalmayacaq. Düşdü əl-ayağa ki, plovdan şişəcəyəm. Ancaq day bir dəfə yemirəm demişdi, düşmüşdü boynuna. Yaxınlaşa bilmirdi. Elə bu fikirdə idi ki, "ay allah, bir də çağıraydı, bir-iki tikə də mən yeyəydim".

Koroğlu dedi:

– Qarı nənə, gəl, peşman olarsan.

Qarı tez çökdü məcməyinin başına. Qərəz, yedilər, içdilər, qarınlarını doyurdular. Koroğlu bir düzəldi. Pələ bığlarını eşib qulaqlarının dalına keçirdi. Qarı da ortalığı yığışdırdı. Əyləşib söhbətə başladılar.

Qarı soruşdu ki:

– Qonaq, sazından görürəm yanşaqsan. Amma heç bizim yerlərin yanşağına oxşamırsan.

Koroğlu dedi:

– Mən Qafın anrı tərəflərindənəm. Bizim yerlərin adamları elə belə olur.

Qarı dedi:

– Yaxşı, evin-eşiyin, kürün-külfətin varmı?

Koroğlu gördü ki, qarı birtəhər danışır. Dedi:

– Yox. Təkəm. Heç kəsim yoxdu.

Qarı bir qımcandı. Dedi:

– Bəs niyə indiyə kimi evlənməmisən?

Koroğlu dedi:

– Nə bilim? Bir elə halal süd əmmişini tapa bilməmişəm.

Qarı güldü. Dodaqlar ki, açıldı. Koroğlu gördü ki, qarının ağzında diş adına bircə dənə kötük var.

Dedi:

– Qarı nənə, niyə soruşursan?

Qarı hirslənib başladı donquldanmağa ki:

– Mənə qarı niyə deyirsən? Dişlərimə baxırsan. Hamısı nuzladan tökülüb.

Koroğlu dedi:

– Yaxşı, gəlin bacı ol! Bundan sonra sənə gəlin bacı deyərəm.

Qarı dedi:

– Çox nahaq yerə. Mən hardan oldum sənin bacın?

Koroğlu baxdı ki, qarının fikri başqadı. Dedi:

– Yaxşı, qarı nənə, sənin nəyin var, nəyin yoxdu?

Qarı dedi:

– Dövlətindən hər şeyim var. Bax, evim var. Həyətim var, inəyim var, danam var, toyuğum var, özü də hər gün yumurtduyur.

Koroğlu dedi:

– Kür-külfət sarıdan nəyin var?

Qarı irişə-irişə dedi:

– Heç nəyim. Elə mən də sənin kimi subay-salığam.

Koroğlu məsələni lap başa düşdü. Day dinmədi. Qarı gördü qonaq day danışmır, dedi:

– Sənin qonaqların gəlmədi. Bu sazı da ki, bir çalmadın.

Koroğlu dedi:

– Eybi yoxdu. Sabah gələrlər çalarıq.

Qarı dedi:

– Sabah mən evdə olmayacağam. Həmzə bəyin toyuna gedəcəyəm.

Koroğlu dedi:

– Nə Həmzə bəy? Həmzə bəy kimdi?

Qarı nənə başladı ki:

– Həmzə bəy Hasan paşanın kürəkənidi. Çox igid oğlandı. Gedib, o Koroğlu var ha... eşidibsən ki?

Koroğlu dedi:

– Hə. Eşitmişəm.

Qarı dedi:

– Hə, Həmzə gedib o Koroğlunun atını gətirib. Hasan paşa da ona bəylik verib, üstəlik də qızı Dona xatını verir ona. Sabah toylarıdı. Mən də gəlinlərin, qızların içində olacağam.

Koroğlu soruşdu:

– Ay qarı nənə, belə ay gəlin xanım, bəs Koroğlunun atını harda saxlayırlar?

Qarı dedi:

– Hasan paşanın tövləsində. Amma çər dəymiş deyirlər yaman bəddi. Yanına bir adam qoymur. Day Hasan paşanın tövləsində mehtər qalmayıb, hamısını şil-küt eləyib. İndi arpa-samanını bacadan tökürlər.

Qərəz, Koroğlu öyrənməlisin öyrəndi, bilməlisini bildi, ondan qarıya dedi:

– Gecə keçir. Gəlsənə yataq.

Qarı dedi:

– Nə olar? Elə mən də səhər tezdən toya gedəcəyəm. İstəsən sən də gələrsən. Bir az çalıb-oynayarsan, nəmərdən-zaddan alarsan.

Qərəz, gecəni yatdılar. Səhər Koroğlu durdu. Geyindi, kecindi. Qarını çağırıb bir ovuc da pul verdi.

Dedi:

– Əgər gecə gəlsəm, şeydən, meydən alarsan. Yeyərik. Yox, gəlmədim, özün üçün xərclərsən. Ancaq dayan, sənə bir-iki kəlmə sözüm var. Onu deyim, ürəyimdə qalmasın.

Bunu deyib Koroğlu sazı aşırdı, dedi:

Bir qarıya qonaq oldum,
Nə yaman çəmxanası var.
Dövlətini xəbər aldım,
Bir inək, bir danası var.

Qarı gəlir bizə yavuq,
Elə bil ki, tutub soyuq,
Çeşdəliyə bircə toyuq,
Axşama qayğanağı var.

Qarı deyəndə tozlanır,
Gəlin deyəndə nazlanır,
Qabaqda qarpız gizlənir,
Dalında buzxanası var.

Koroğlunun hədyan işi,
Qovğadan açılmır başı,
Düşüb otuz iki dişi,
Bir kötük nişanası var.

Koroğlu sözünü qurtarıb sazı çiyninə saldı. Yavaş-yavaş gəlib Hasan paşanın imarətinə çatdı. Baxdı ki, bir toydu, bir toydu... gəl görəsən. Məclis paşa, bəy, xan, tacirlərlə doludu.

Bəli, eşitdilər ki, aşıq gəlib, hamı sevindi. Koroğlunu çəkib məclisə apardılar. Amma baxdılar ki, bu aşıq heç onlar görən aşıqlardan deyil. Boy uca, kürəklər enli, süysün elədi ki, kəl süysünü kimi... boynunun əti girdin-girdin, bığları kələ buynuzu kimi. Sirindən-sifətindən zəhm tökülür. Məclisdəki paşalardan biri dedi:

– Aşıq, hara aşığısan?

Koroğlu dedi:

– Qafın anrı tayındanam, ağrın alım!

Paşa dedi:

– Koroğlunu tanıyırsanmı, aşıq?

Koroğlu dedi:

– Çox yaxşı tanıyıram. Bir dəfə o mənim başıma elə bir iş gətirib ki, dünya durduqca yadımdan çıxmayacaq.

Hasan paşa soruşdu:

– Nə iş?

Koroğlu dedi:

– Paşa sağ olsun, o Koroğlunun bir çərən dəymiş atı var. Adına da Qırat deyərlər.

Paşalardan biri istədi danışsın, Hasan paşa qoymadı. Koroğluya dedi:

– Danış, danış!

Koroğlu dedi:

– Hə, paşa. At çox yaxşı atdı. Amma ki, dəlidi. Günlərin bir günü yolla gedirəm. Elə bax bu saz da çiynimdə. Bir də onu gördüm ki, məni qamarladılar. Gözümü bağlayıb dik götürdülər. Hara getdik, necə getdik, bilmədim. Bir də gözümü açdılar, baxdım ki, bir dağın üstündəyəm. Qabağımda da bir kəlpeysərin biri dayanıb. Sən demə, bura Çənlibel imiş, o kəlpeysər də Koroğlu. İndi denən məni buraya niyə gətiriblər? Sən demə, bu atın yenə dəliliyi tutb. Nə qədər dava-dərman eləyirər, bir şey çıxmır. Yanına adam qoymur ki, qoymur. Girinə kim keçirsə, şil-küt eləyir. Axırda Koroğlunun bir kimyagər həkim dostu var, onu tapırlar. Həkim gorbagor deyir ki, bəs bu atın cini var. Gərək bunun yanında üç gün, üç gecə

saz çalına, söz oxuna ki, bəlkə bunun cini yata. O vaxtlar hələ Koroğlu çalıb-oxumaq bilməzdi. Sən demə, mən başı daşlını bunun üçün gətiriblərmiş. Qərəz, başağrısı olmasın, məni itələyib saldılar bu atın yanına. O üç gündə mən nə çəkdim allah bilir. Day, o necə deyərlər, anadan əmdiyim süd burnumdan gəldi.

Hasan paşa tez soruşdu:

– At necə oldu? Sağaldımı?

Koroğlu dedi:

– Sağaldı! Elə Koroğlu da ondan sonra çalıb-oxumaq binasını qoydu. Deyirlər indi genə də beşdə, on beşdə atın cini tutur. Day Koroğlu özü çalıb-oxuyub onu sağaldır.

Yenə də paşalardan biri istədi danışsın, Hasan paşa gözünü ona ağartdı. Sonra aşpazı çağırdı ki:

– Apar, aşığı yedirt, içirt, doydur, sonra buraya gətir.

Aşpaz Koroğlunu götürüb aşpazxanaya apardı. Hasan paşa o qədər gözlədi ki, onlar məclisdən çıxdılar, ondan sonra yavaş-yavaş paşalara dedi:

– Qoy yesin, doysun, gəlsin. Atın dərdini dedi, dərmanını da özünə elətdirəcəyəm.

Paşalar hamısı bu fikrə əhsən dedilər. Kef başlandı. Paşalar kef çəkməkdə olsunlar, görək Koroğlu necə oldu.

Aşpaz Koroğlunu gətirdi aşpazxanaya. Bir böyük sini plov çəkdi, bir qab da şərab töküb qoydu qabağına. Koroğlu soruşdu:

– Bu nədi?

Aşpaz dedi:

– Sənin üçün qoymuşam da... ye!

Koroğlu dedi:

– Ayə, bu heç mənim dişimin dibində qalmaz. Burada nə var ki, mən nə yeyim?

Aşpaz dedi:

– Evin yıxılsın, day ondan artıq yeməyəcəksən ki? Gör bir nə qədərdi.

Koroğlu dedi:

– Ayə, zarafat eləmə! Bəri elə görüm!

Əlini atıb qazanlardan birini çəkdi qabağına. Bir pəncə, iki pəncə, üçüncü pəncədə aşpaz baxdı ki, çıxdı qazmağa. Tutdu Koroğlunun əlindən ki:

– Sən olasan o inandığın, bir mənə de görüm sən kimsən? Hara adamısan?

Koroğlu elə bildi ki, aşpaz onu istəyən adamdı. Dedi:

– Koroğlunun adını eşidibsənmi?

Söz elə Koroğlunun ağzından çıxcaq aşpaz bağırdı. İstədi haray çəksin. Koroğlu dik qalxıb, tutdu onun hulqumundan. Yavaşca belindən iki qatlayıb, basdı boş qazanın içinə. Ağzını örtdü, özü də üstündə əyləşib, o biri qazanı çəkdi qabağına.

Qərəz, neçə qazan boşaltdı bilmirəm, neçə tuluq boşaltdı bilmirəm, baxdı ki, day doyub. Özünü düzəltdi. Yağlı əlləri ilə bığlarını da eşib, durdu ayağa, gəldi paşaların məclisinə.

Hasan paşa soruşdu:

– Aşıq doydunmu?

Koroğlu dedi:

– Bəli, qurbanın olum. Doydum.

Hasan paşa dedi:

– De indi bir çal, oxu, qulaq asaq.

Koroğlu sazı köklədi, dedi:

– Kimdən deyim?

Hasan paşa dedi:

– Sən deyirsən ki, Qıratı görmüsən. Bir az onun tərifindən de! Xasiyyətindən, nişanından oxu, görək necə atdı.

Koroğlu dedi:

– Paşa sağ olsun, çərən dəymiş çox yaxşı atdı, bircə o cini olmaya.

Ondan sazı basdı döşünə, dedi:

Paşa, sənə nişan verim Qıratı,
Əbrişim ipəkdən yalı gərəkdi.
Bir mina boyunlu, uca sağrılı,
Bir yarım hoqqadan nalı gərəkdi.

Armudu dırnaqlı, hündür boyunlu,
Meydana girəndə yüz min oyunlu,
Dəyirman mədəli, ac qurd yeyimli,
Ortası qoluna dolu gərəkdi.

Qaranlıq gecədə yol çaşırmayan,
Düşmən qabağında ər düşürməyən,
Üstündə əl-ayaq yığışılmayan
Koroğlunun atı dəli gərəkdi.

Söz tama yetdi Hasan paşa dedi:

– Aşıq, dediyin haman Qırat mənim tövləmdədi. İndi de görüm, mən ki onu Koroğlunun əlindən çıxartmışam, mən igidəm, Koroğlu?

Koroğlu dedi:

– Paşa, əgər doğrudan da, belədirsə, ondan sən igid adamsan. Ancaq paşam, igidlik ondu. Sən onun birini eləmisən. Qulaq as, o birilərini də mən deyim:

Sənə deyim qoç igidin nişanın:
Açа yağılarla meydan gərəkdi.
Nərə çəkib atılanda ortaya,
Qaça qabağından düşmən gərəkdi.

Təslim deyib qəniminə enməyə,
Əcəl çağı yoldaşından dönməyə,
Düşmən qabağında heç vaxt sinməyə,
Meydanlarda qızmış aslan gərəkdi.

Qoç Koroğlu meydan açıb öyünü,
Namərd sinəsinə çəkər düyünü,
Ac qurdlardan saldırmağa qoyunu,
Qurd ağazlı qoçaq oğlan gərəkdi.

Hasan paşa dedi:

– Aşıq, birini eləmişəm. Doqquzunu da görərsən. İndi səni aparacağam Qıratın yanına. Bir bax, gör odu, ya yox?

Koroğlu bunu eşitcək sazı basdı bağrına, dedi:

Canım Qırat, gözüm Qırat,
Yarəb, Qırat dururmu ola?!
Hasan paşa mehtərləri
Otun, suyun verirmi ola?!

Qırata xələt biçəndə,
Üstündə badə içəndə,
Şeşpər yalmandan keçəndə
Sərxoş-sərxoş yerirmi ola?

Qoç Koroğlu hanı, hanı?
Dostunla düşmənin tanı!
Qırat ilə Eyvaz xanı
Bir də gözüm görürmü ola?

Söz tamam oldu. Hasan paşa ayağa durub dedi:

– Gedək, aşıq!

Koroğlu dedi:

– Gedək, paşa! Amma bu başdan şərtimi sizə deyim. Hamımız bir gedək tövlənin ağzına. Mən Koroğlunun sözlərindən birini oxuyum. Siz də qapının deşiklərindən baxın. Əgər mənim çalmağım, oxumağım ata əsər elədi, sözüm yoxdu. Girirəm. Yox, əgər eləmədi, onda istəyir lap boynumu vur, mən onun yanına girən deyiləm. Mən ondan gördüyümü görmüşəm.

Paşa razı oldu. Koroğlu qabaqda, paşalar dalda düzəldilər yola. Hasan paşa üzdə razı olmuşdu. Amma daldada adamlarına tapşırmışdı ki, göz eləyəndə aşığı itələyib Qıratın yanına salsınlar. Qapını da bağlasınlar ki, bəlkə öz canının qorxusundan atı sağalda.

Bəli, gəlhagəl hamısı bir yerdə gəlib çıxdılar tövlənin qabağına. Koroğlu qapının deşiyindən baxdı, gördü vallah Qırat elə bil qoxu alıb. Göz-

lərini dikib qapıya. Elə baxır, elə baxır ki, adamın ürəyi yanır. Tez geri çəkildi. Dedi:

– Hə, paşam, indi mən çalıb oxuyacağam. Siz ata baxın.

Paşalar arı kimi suvaşdılar qapının çatlarına.

Koroğlu başladı:

Bizim elin dəliləri,
Girər meydana mərd olu.
Ölüncə meydandan qaçmaz,
Girəndə meydangərd olu.

Sarp qayalarda yurd olmaz,
Müxənnətə söz dərd olmaz.
Çaqqal əniyi qurd olmaz,
Yenə qurd oğlu qurd olu.

Dəlilərim fovcu-fovcu,
At minib düşmən qovucu,
Belində misri qılıncı,
Koroğlu kimi mərd olu.

Qırat Koroğlunun səsini eşitcək, az qaldı ki, tövləni başına götürsün. Elə oynadı, elə oynadı ki, gəl görəsən. Hasan paşa yanındakı adamlarda sağ islahat qoymadı. Sevindiyindən onu dürtmələdi, bunu dirsəklədi. Hamısını çimdikdən keçirdi. Koroğlu qurtarcaq Hasan paşa özün atdı onun üstünə ki:

– Aşıq, tez ol, gir içəriyə. Səni dünya malından qəni eləyəcəyəm. İndi Koroğlu tanıyar ki, biz kimik. Qoy indi beş özündən deyəndə, on beş də bizdən desin.

Qapını açdılar, Koroğlunu itələyib saldılar Qıratın yanına. At Koroğlunu görcək kişnədi, elə kişnədi ki, dam-daş lərzəyə gəldi. Koroğlunun ürəyi atlandı. Sazı basdı döşünə, dedi:

Çənlibeldən səni deyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim Qırat, gəl!
Dəmir libas, polad geyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim Qırat, gəl!

Əzəldən biləydim sənin halını,
Əşrəfidən kəsdirərdim nalını,
Yüz gözələ toxudardım çulunu,
Alma gözlüm, qız birçəklim Qırat, gəl!

Neçə vaxtdı məni qoydun piyada,
Müxənnətlər yaxşı yetdi murada,

Günbəgündən dərdim oldu ziyada,
Alma gözlüm, qız birçəklim Qırat, gəl!

Qabaqda qalırmı arpan səhərə,
Üzəngilər nə yaraşır yəhərə,
Dəlilər salmışdı məni qəhərə,
Alma gözlüm, qız birçəklim Qırat, gəl!

Mənim atım atım-atım atılar,
Qulaqları qarğı kimi çatılar,
Ucuzluqda min tümənə satılar,
Alma gözlüm, qız birçəklim Qırat, gəl!

Koroğlu sözü qurtarıb sazı bir tərəfə qoydu. Qucaqlayıb atın üzündən-gözündən öpüb duz kimi yalamağa başladı. Qırat da burnun onun qoynuna, qoltuğuna soxub elə iyləyirdi, elə iyləyirdi ki, elə bil inək balasını iyləyir.

Koroğlu elə bil yuxudan ayıldı. Öz-özünə dedi: "Ey dili-qafil, nə eləyirsən? Sən yağı içindəsən. Özünü tanıdarsan". Tez qapıya yaxınlaşıb dedi:

– Paşa, indi siz bir az aralı durun, mən atı çıxardım, gəzdirim, bir az hava-zad dəysin. Sonra tapşırım özünüzə. Amma, paşa, bilmirəm, gərək məni razı salasan.

Hasan paşa dedi:

– Arxayın ol, aşıq! Səni qızıla quylayacağam. Amma hələ biz çəkilməmiş çıxartma. Ziyanlıq-zad eləyər.

Hasan paşa qabaqda, qalan paşalar da dalda daban aldılar. Haraya? Haraya? Birbaş qalanın bürcünə. Orada oturub başladılar gözləməyə. Elə ki, paşalar getdilər, Koroğlu ətrafa baxıb gördü yəhər bir tərəfdədi. Götürüb basdı atın belinə.

Koroğlu atı yəhərləməkdə olsun, paşalar bürcdə gözləməkdə, sənə kimdən deyim Keçəl Həmzədən.

Keçəl Həmzə olmuşdu Həmzə bəy.

Bu gündə ki, toyu idi. Axırı ki, mətləbinə çatmışdı. Day dünyada bir kef var idi, o da Həmzədəydi.

Elə ki, toy günü oldu,səhər tezdən Həmzə durub bəy paltarını geyindi, bəy papağını başına qoydu, keçəlini örtdü, adamların gözündən yayınıb özünü verdi Dona xanımın pəncərəsinin qabağına.

Dona xanımın imarəti meydanın qabağında idi. O, pəncərədə oturub, camaata tamaşa eləyirdi. Bir də gördü ki, budu, Həmzə bir tozlana-tozlana gəlir ki, elə bil xotkar oğludu. Gözlədi, gözlədi, Həmzə gəlib pəncərənin altına çatanda başını çıxardıb dedi:

– Ədə, Həmzə!

Həmzə səsindən onu tanıdı. Ürəyi meydan kimi açıldı. Tez başını qaldırıb dedi:

– Can Həmzə! Həmzə deyən dillərinə Həmzə qurban olsun. Nə buyurursan?

Dona xanım dedi:

– Həmzə, görəsən mənim başı batmış atam məni vermək üçün day bir adam tapa bilmədi. Elə gərək sənə verəydi?

Həmzə dedi:

– Xanım, hanı mənim kimi adam ki, o da tapaydı? Kim mənim kimi igid ola bilər ki, gedib Koroğlunun Qıratını gətirə?

Dona dedi:

– Ədə, keçəl, bəs sən heç utanmadın bir qızdan ötrü gedib elə bir igidin atını oğurladın?

Həmzə dedi:

– Xanım, niyə elə deyirsən? Bu, oğurluq deyil. Buna oğurluq deməzlər. Bu igidlikdi. Koroğlunun atını gətirmək özünü gətirməklə tən yarıdı. Hələ bir az da ondan artıqdı.

Dona xanım dedi:

– Həmzə, indi ki belə oldu, budu sənə deyirəm. Ya gərək gedib Koroğlunun özünü də gətirəsən, mən baxam görəm o necə oğlandı, ya da ki məndən sənə arvad olmayacaq.

Həmzəni gülmək tutdu. Ucadan bir şaqqanaq vurdu, güldü. Dedi:

– Rəhmətliyin qızı, mən hələ onun dilsiz-ağızsız, qılıncsız-qəmzəsiz atını gətirmişəm, atan onun əlində aciz-avara qalıb. Day az qalıb ki, bütün osmanlı qoşunun yığıb buraya töksün, yenə də o atın öhdəsindən gələ bilmir. Koroğlu özü buraya gəlsə, gör nə olar? Onda gərək atan kəlmeyi-şəhadətini bu başdan deyə ki...

Ondan Həmzə dedi:

– Bir də ki, xanım, day iş-işdən keçib. Bu gün bizim toyumuzdu. İnşallah mətləbimə çatıb, qoyacağam bu keçəl başı o mərmər döşün üstünə.

Dona xanım dedi:

– İstəyir bir toy olmasın, min toy olsun. Koroğlu buraya gəlməyincə məndən sənə arvad olmayacaq.

Dona xanım sözünü deyib hirslə pəncərədən çəkildi. Həmzənin dərdi artdı. Qaldı məəttəl ki, nə eləsin. Bu da paşaya deyilməli söz deyil ki, gedib deyə, ya şikayət eləyə, qol kağızından-zaddan ala. Deyər, o da cavabında deyər ki: "Ay əfəl oğlu əfəl, sən məndən qız istədin, mən də verdim. Day gəlib sizə yer də salıb yığası deyiləm ki? Get, o sən, o da sənin arvadın. Nə eləyirsiniz, öünüz bilərsiniz". Dona xanım da ki yezid qızı yeziddi. Dediyindən çətin dönə.

Həmzə elə bu fikir-xəyalla gəlib çatdı meydana. Baxdı ki, meydanda qaça-qaçdı. Soruşdu:

– Ayə, nə var? Haraya qaçırsız?

Əhvalatı ona danışdılar. Həmzə belə baxanda gördü paşalar da hamısı dırmaşıblar bürcə. Məsələni başa düşdü. Bildi ki, aşıq-zad sözdü. Gələn Koroğlu özüdü. Tez özünü verdi tövlənin qabağına. Elə Həmzə tövlənin

qabağında, tövlənin qapısı açıldı. Həmzə baxdı ki, bəli, qoç Koroğlu Qırat da yedəyində tövlədən çıxır. Tez yüyürüb üzəngini basdı ki:

– Koroğlu, söz dəyirmandakıdı.

Koroğlu belə baxanda gördü üzəngini basan Həmzədi. Dedi:

– Ayə, Kaloğlan! De görüm, bir qızı ala bildin, ya yox? Deyəsən sir-sifətini düzəldibsən?

Həmzə dedi:

– Can Koroğlu, sir-sifətimi düzəltmişəm, qızı da almışam. Sənin bu gəlməyin lap işi düzəltdi. Sən gəlməsəydin işim şuluq idi.

Koroğlu soruşdu:

– Necə?

Həmzə Dona xanımın hərbə-qadağasını ona dedi: Koroğlu güldü, dedi:

– Ayə, bəs Hasan paşa hanı?

Həmzə dedi:

– Qıratın qorxusundan qaçıb dırmaşıb qalanın bürcünə. İndi sənin Koroğlu olduğunu biləndə qorxuram qaça dırmaşa arvadının çiyninə.

Koroğlu dedi:

– Dayan, dayan, gör indi onun başına nə həngamə açacağım.

Həmzə dedi:

– Koroğlu, sən Qırat üçün gəlmişdin, onu da minmisən. Mən sənin yerinə olsam, səssiz-səmirsiz sürüb gedərəm.

Koroğlu dedi:

– Əgər atı səssiz-səmirsiz aparsam, mən də olaram Həmzə də. Onda sənlə mənim aramda day nə təfavüt qalar?

Həmzə başını saldı aşağıya. Koroğlu dedi:

– Utanma! De görüm, bu qaladan çıxmaq üçün neçə yol var?

Həmzə dedi:

– Beş. Ancaq gərək qoşun bəndləri kəsməmiş sən qaladan çıxasan. Yoxsa sonra çətin olar.

Koroğlu Həmzə ilə görüşüb, ata bir üzəngi göstərdi. At bayaq ha özünü yetirdi meydana. Süzüb düz dayandı meydanın ortasında. Hasan paşa dedi:

– Ayə, aşıq, bir o başa, bir bu başa sür görüm, necə yeriyir.

Koroğlu atı bir o başa, bir bu başa sürdü. Hasan paşa dedi:

– Ayə, aşıq, sənin at minməyin də varmış ki... nə yaxşı sürürsən?

Koroğlu dedi:

Laf eləmə, Hasan paşa,
Ağır-ağır ellərim var.
Bir tamaşa eyləyərsən,
Qılınc çalan qollarım var.

Uca dağlardan daşlanı,
Ağır alaylar boşlanı,
Gəlsələr dava başlanı,
İgid-igid dəllərim var.

Mən anadan mərd olmuşum,
O Çənlibeldən gəlmişəm,
Koroğluyam, at minmişəm,
Yüz min belə fellərim var.

Koroğlu meydanda gərdiş eləməkdə olsun, eşit sənə deyim Həmzədən. Həmzə oradan özünü birbaş yetirdi Dona xanımın pəncərəsinə. Çağırdı ki:

– Ay Dona xanım! Ay Dona xanım!

Dona xanım gəldi pəncərəyə ki:

– Nə avr, ədə?!

Həmzə dedi:

– Muştuluğumu ver! Gəlmişəm səni atanın toyuna çağırım.

Dona xanım dedi:

– Ədə, nə danışırsan? Atamın toyu nədi?

Həmzə dedi:

– Atanın toyudu da... İndi bu saat başlanır. Səhər bizim toyumuz idi. İndi də Hasan paşanın toyudu. Bir meydana bax!

Dona xanım baxdı ki, meydanın düz ortasında bir oğlan Qıratın üstündə dayanıb. Dedi:

– Ədə, o kimdi elə?

Həmzə dedi:

– Dona xanım, axır ki, bu bəhanən də kəsildi. Qoydum bu keçəl başı o mərmər döşün üstünə. Koroğludu, Koroğlu.

Dona xanım əvvəl inanmadı. Bir də baxanda gördü vallah bu atla meydanda bir gərdiş eləyir ki... üzün tutub Hasan paşaya deyir:

Muradbəyli derlər bizə,
Meydanda mərdlik işləni.
Qoç igiddən oğul törər
Düşmən gözündə beşləni.

Uca dağlarda duraram,
Çəkib bəzirgan vuraram,
Gündə üç içki quraram,
Yüz min tumənlər xərcləni.

Hay deyəndə haylarım var,
Hoy deyəndə hoylarım var,
Qurdlarım var, ayılarım var,
Hay vursam şəhrin boşlanı.

Koroğlu oxuyanda paşalardan biri əyilib Hasan paşaya dedi:

– Hasan paşa, mənə nə deyəcəksən de, sənin bu aşığından gözüm su içmir. Bu, deyəsən Çənlibel adamıdı. Hələ lap az qalıram deyim ki, elə Koroğlu özüdü.

Hasan paşa elə bil yatmışdı, yuxudan oyandı. Diksinib qalxdı. Dedi:

– Yox əşi. Yəni biz o qədər axmaq olduq ki, o gəlib bizi belə biləyinə sarıdı.

Paşa dedi:

– Hasan paşa, sən mənim sözümü qəribçiliyə salma! Bu Koroğludu. Adam yolla Həmzə bəyi çağırtdır, ondan soruşaq.

Həmzəni çağırdılar. Hasan paşa soruşdu:

– Ayə, Həmzə bəy, bax gör o Koroğlu deyil ki?

Həmzə baxdı ki, Koroğlu Qıratın üstündə, bundan sonra min dənə Hasan paşa gəlsin, ona bir şey eləyə bilməz. Yalandan bir əlini gözlərinin üstünə qoyub baxdı, qışqırdı ki:

– Eviniz yıxılsın, Koroğlu olmayanda bəs kimdi? Atı ona kim verdi?

Elə bil ki, dünya-aləm Hasan paşanın gözlərində qaraldı. Tez qoşun böyüklərinə əmr elədi ki,bütün yolları, bəndləri tutsunlar. Qoşun hərəkətə gəldi. Koroğlu baxdı ki, qoşun yolun birini tutdu. Üzünü Hasan paşaya tutub dedi:

Bir qasiddən xəbər aldım,
Beşdi qalanın yolları.
Hayqırdım tüplər dağıldı,
Boşdu qalanın yolları.

Bunu deyib Koroğlu özünü ikinci yola vurdu. Qoşun qabağı kəsdi. Koroğlu misri qılıncı çəkib özünü qoşuna vurdu. De birini, beşini, on beşini, qoşun dağıldı. Koroğlu atı vurdu yola. Gördü at çətinlik çəkir. Qəsdən yola o qədər daş tökmüşdülər ki, Koroğlu gördü atın ayaqları inciyəcək; bir tərəfdən də onu bürclərdən oxa basırlar. Atın başını döndərib yenə meydana qayıtdı. Dedi:

Kamandar atar oxunu,
Al eylədim mən çoxunu,
Qırat tökər nal-mıxını,
Daşdı qalanın yolları.

Sözünü deyib özünü vurdu üçüncü yola. Bir tərəfdən Qırat, bir tərəfdən də Koroğlu özü, day Hasan paşanın qoşununda qoşunluq qoymadılar. Qırıb tökdülər. Amma sən gəl ki, qoşunun dalı gəsilmirdi. Biri ölürdü, beşi gəlirdi. Koroğlu yolların hansına özünü vurdusa aradan çıxa bilmədi. Day yollarda leş-leşin üstünə qalandı. Koroğlu təzədən atı meydana qaytardı dedi:

Koroğlu deməz yalanı,
Hay vursam ölkən talanı,
Leş-leşin üstə qalanı,
Leşdi qalanın yolları.

Toqat qalasının üç tərəfi quru idi, bir tərəfi su. Buradakı Tona çayı idi. Hasan paşa qəsdən üç tərəfi tutdurub çay tərəfi açıq qoymuşdu ki, Koroğlunu bu yollarda öldürsünlər, ya da ki, özünü çaya vurub orada boğulsun. O bilirdi ki, Tona çayından salamat çıxmaq olmaz.

Koroğlu bir ətrafa baxdı. Bir də dönüb çaya baxdı. Sonra əyildi, Qıratıq boynunu qucaqlayıb dedi:

Mindim Qıratın belinə,
Kaş ki, düşmən yüz olaydı.
Çəkəndə misri qılıncı
Dərə, təpə düz olaydı.

Atı minmişəm gəzməyə,
Düşmən bağrını əzməyə,
Tona çayını üzməyə
Qırat bir qəvvas olaydı.

Verin yeddiillik xəracı,
Paşalar gətirsin bacı,
Koroğlu çəkib qılıncı,
Düşmən üzbəüz olaydı.

Bunu deyib Koroğlu atı vurdu Tona çayına. At qulanlarına qədər batdı suya. Su çıxdı Koroğlunun qurşağına. Koroğlu baxdı ki, su ata güc eləyir, at suya güc eləyir. Gördü yox belə olsa su atı yıxacaq. Bir dəli nərə çəkib dedi:

Ceyrana bənzər qaçışın,
Addımla, qurban qoluna!
Tərlana bənzər uçuşun,
Əl çatmaz ipək yalına!..

Kəsdirrəm gümüşdən yəhər,
Tumarlaram axşam, səhər.
Götür burdan qaç bir təhər,
Sikkə vurdurram nalına!..

Koroğluyam, güman belə,
Deməyinən gəlməz dilə,
Məni çıxart Çənlibelə,
Qotaz düzdürrəm çuluna!

Koroğlunun sözləri elə bil ata qol-qanad verdi. Odu ha üzüb çaydan çıxdı. Koroğlu dönüb geriyə baxdı. Gördü Hasan paşa hələ də bürcdədi.

Çağırıb dedi:

– Hasan paşa, bu dəfə bürcə çıxdın əlimdən qurtardın. Görüm gələn dəfə haraya çıxacaqsan. Eybi yoxdu. Borclu borclunun sağlığını istər. Görüşərik.

Sözünü deyib Koroğlu yol başladı. Gəlhagəl, gəlhagəl, gəlib Çənlibelə çatdı. Qırat Çənlibelin qoxusunu alcaq elə kişnədi ki, dağlar, daşlar dilə gəldi. Dəlilər töküldülər. Atı tutdular. Koroğlunu düşürüb gətirdilər. Hamı yığıldı.

Soruşdular ki:

– Koroğlu, danış görək nə elədin? Atı necə gətirdin?

Koroğlu ta dəyirmanda Həmzə ilə söhbətdən Tona çayınacan bütün əhvalatı danışdı. Dəlilər onu incitdiklərinə peşman oldular. Başlarını aşağı saldılar.

Koroğlu dedi:

– Utanmayın! Siz haqlı idiniz. Mən gərək etibar eləyib açarları ona verməyəydim. Ancaq bir işdi oldu. Amma siz də yadınızdan çıxarmayın ki, mən Koroğluyam.

Nigar xanım gördü ki. Koroğlu yenə qızışır. Tez söhbəti çevirdi. Dəlilərə göz basıb dedi:

– Koroğlu, biz sənin Koroğlu olmağını bilirik. Əgər bilməsəydik, sənin başına yığılmazdıq. Düzdü, igidsən, qoçaqsan, iş üzü bilənsən. Amma belə sir-sifəti çox qarasan ey!..

Dəlilər hamısı gülüşdü. Koroğlu özü də güldü. Sonra sazı döşünə basıb dedi:

Mənə qara deyən gözəl,
Qaşların qara deyilmi?
Tökülübdü dal gərdəndə,
Saçların qara deyilmi?

Çənlibeldə qurdum bina,
Bənzəyirsən aya, günə,
Ağ üzündə dənə-dənə
Xalların qara deyilmi?

Koroğlu mayıldı sizə,
Qulaq verin saza, sözə,
Siyah sürmə ala gözə,
Çəkibsən qara deyilmi?

Qaçaq Nəbi

...Bəy Nəbinin haqqını kəsdikdən sonra hiddətlənmiş Nəbi bir ilin zəhmət haqqı əvəzində bəyin bir quzusunu götürüb evlərinə qayıdır. Bir quzu otarmayacağını atasına söyləyir.

Alı kişi oğlunun tutduğu bu hərəkətdən xoşlanmayıb quzunu bəyin yanına gətirib deyir:

– Oğlumun haqqını kəsdiyin üçün o, sizin quzuya getməyəcək.

Bu sözlər bəyin acığına gəlir, Alı kişini qapısından qovur.

Nəbi bir il kənddə qalır. Ancaq haqqının bəydə qaldığını unutmayıb cürbəcür yollarla bəyə sataşır. İş o yerə çatır ki, kənd koxası, Nəbini bu hərəkətlərinin üstə dama salır.

Bir gün Mollu kəndinə gələn Şuşa taciri Davud zirək bir cavan olan Nəbinin kim olduğunu camaatdan xəbər alıb öyrəndikdən sonra, Alı kişinin yanına gəlir. Bir qədər kənar danışıqdan sonra tacir Davud deyir:

– Oğlun Nəbini ver aparım!

Alı kişi:

– Mənim oğlum nəyinə gərəkdir?

Davud:

– Oğulluğa götürəcəyəm.

Alı kişi:

– Bəs mən özüm nə edim? O ki, mənim sağ əlimdir.

Davud:

– Mən hər ikinizi saxlaram, – deyir.

Bir tərəfdən ağır vergilər, digər tərəfdən biyar Alı kişiyə göz verib işıq vermirdi.

Nə etsin? Əgər Nəbini işə göndərməsə, kiçik oğlu Mehdini, qızılçalı qızını necə saxlasın? Ayın çox vaxtını o, biyara gedir. Alı kişi razı olur. Davud onun könlünü almaq üçün bir qədər pul verir, Nəbini Şuşa qalasına aparır.

Nəbi bir müddət tacir Davuda nökər olur. Öz zirəklik, qoçaqlığı ilə Şuşa qalasında məşhurlaşır. Birinci gündən tacir Davud Nəbiyə pis baxmağa başlayır. Şuşanın məşhur alverçisi kərbəlayı Fərhad bundan istifadə edərək Nəbini öz tərəfinə çəkir. Nəbi tacir Davuddan haqq-hesabını istədikdə o:

– Mən sənin atana pul verib səni almışam. Gərək bir il də mənim yanımda işləyəsən, – dyeir.

Bu söz Nəbiyə toxunur. Onu söyüb dükandan çıxır.

Aradan bir müddət keçdikdən sonra Nəbi atasının ölüm xəbərini alır. Qardaşı Mehdini, anasını başsız qoya bilmədiyi üçün zorla kərbəlayı Fərhaddan haqq-hesabını alıb, Mollu kəndinə gəlir. Nəbi nökərçiliyin "ləz-

zətini" gördüyü üçün rəncbərlik fikrinə düşür. Bu isə ona əl vermir. Çünki torpaqsız, kəlsiz nə edə bilər? Bunları almaq üçun pul lazımdır. Nəbi muzdurluğa başlayıb qardaşı Mehdini də quzuya göndərir.

Nəbi yuxarı Mollu kəndində bir qızı, qız da onu sevir. Bu qızın atası ortabab kəndli idi. Evlənmək üçün Nəbiyə pul lazım olur. O, bir neçə adamdan pul istəyir, amma əli boşa çıxır. Ən yaxın yoldaşlarından Kərim adlı birisi onun yanına gəlir. Onun bikef olduğunun səbəbini soruşur. Nəbi Həcəri gətirməyə borc tapa bilmədiyini söyləyir. Kərim Nəbiyə əl tutur, toy edib Həcəri ona gəlin gətirir.

***

Bir yay Mollu kənd yüzbaşısı Alamahmudbəy səhər tezdən kəndə gəlir, kimsəni işə buraxmayıb biyara göndərmək istəyir.

Nəbi qardaşı Mehdi ilə yuxarı Mollu kəndinə işləməyə gedirlər. Yüzbaşı Alamahmudbəy Nəbinin qabağına çıxıb bağırır:

– Ə, hansı cəhənnəmə gedirsən? Məgər bilməyirsən ki, aşağı Mollu kəndliləri bəylik biyarına getməlidirlər?!

Nəbi:

– Nə olsun ki?

– Necə nə olsun ki?.. Xalq necə, sən də elə! Düş qoşul camaata.

Nəbi:

– Xalq bəlkə özünü Araza atacaq. Mən də gedim atım? Qoymazsınız gedək fəhləliyimizə?

Nəbinin bu sözləri Alamahmudbəyə ağır gəlir, ona əl qaldırır.

Nəbi camaatı biyara getməyə qoymur. Bəy onu tutdurur. Haman saat Nəbinin tutulmasını bilən Həcər atasına xəbər verir. Həcərin atası Alamahmudbəyin yanına gəlir. Bir qədər cərimə verdikdən sonra Nəbini buraxdırır.

Bir gün Qubadlının bəyləri – Məmmədbəy, İldırımbəy, Məmmədəlibəy Mollu mülkünün yataqlarını bölmək üçün gəlirlər. Nəbi kəndliləri bir yerə toplayıb yerlərin bəylər də verilməməsi üçün onların arasında təbliğat aparır. Kəndlilər bəyləri kənddən qovurlar.

Bu iş üstündə bəylər Nəbini tutmaq istəyirlər. Bunu bilən kəndlilər vaxtında Nəbini xəbərdər edirlər. O, qaçır. Bir aya kimi qaçaq düşür, sonra üzə çıxır.

Qubadlı bəyləri Nəbinin bu kəndə bir bəla olacağını hiss edərək onu yox etmək üçün ciddi tədbirlər görməyə başlayırlar.

Nəbinin doğulduğu, yaşadığı kəndin yaxınlığında Mərğuzlu deyilən bir kənd vardır. Mərğuzlu kəndində yaşayan alverçi Kərbəlayi Baxşəli axşam Mollu kəndinə gedərkən Qubadlı Məmmədəlibəyin qardaşı Məmmədbəy ona rast gəlir, onu vurub öldürür.

Səhər tezdən Kərbəlayi Baxşəlinin meyiti tapılır. Mərğuzlular elə bilirlər ki, bunu mollular edib. Odur ki, iki kənd arasında toqquşma olur.

Nəbi hər iki kəndin camaatını sakit etmək üçün araya girir. Bəylər Nəbidəki dili, onun bacarıqlı adam olduğunu bilib Kərbəlayi Baxşəlinin ölümünü Nəbinin üstünə atırlar. Pristav Əliağabəy Cavanşirov Nəbini tutub qazamata göndərir.

Nəbi qazamatda bir neçə gün qalır. Bir gecə Nəbi oturduğu ağzıbirin qapısını döyür. Qapıçı kiçik pəncərədən onun nə istədiyini xəbər alır. Nəbi bayıra çıxmaq istədiyini bildirir. Qapı açılan kimi Nəbi qapıçını boğazlayıb içəri çəkir. Onu boğub öldürür, paltarını geyib qazamatdan qaçır.

Nəbi Gorus qazamatından çıxıb öz kəndlərinə gəlir. Həcərlə görüşdükdən sonra Şahüseyni, onun iki qardaşını, bir də Kərimi çağırıb bir qədər dərdləşdikdən sonra deyir:

– Məni qaçaq salan bəylər oldu. Gəlin son damla qanımız qalana qədər vuruşaq!

Yoldaşları razılıq verirlər. Nəbi özündən sonra Mehdini incidəcəklərini bilir. Odur ki, qardaşını da götürüb kənddən çıxır.

Gecə ikən gəlib Məmmədəli bəyin ilxısından hərə bir at seçir, sonra da Pristav Əliağabəyin divanxanasından hərə özünə bir tüfəng götürüb dağlara çıxırlar.

Nəbi kiçik dəstəsilə Qaryaginə gəlir. Xramdan kəndinin yaxınlığında bir təpəni özlərinə məskən edirlər. Nəbi burada dinc oturmayıb, bəylərə dolaşır, onların mal-qarasını tutub kəndlilərə paylayır.

Bir gün Ağdamdan gələn Məmmədəlibəyin şərikini Nəbinin dəstəsi yolda soyur. Məmmədəli bəy bu acı xəbəri eşitcək at minib öz dəstəsilə Nəbini üzük qaşı kimi araya alır. Qızğın atışma başlanır.

Nəbi düşməni məğlub edir. Haman günü Şuşa qalasına gəlir. Sonra Laçınla Şuşa qalası arasında olan Turşsuda məskən salırlar. Nəbi qaraçılarla yaxından dostlaşır. Ələ keçirdikləri qoyun-quzunu, başqa yeməli, geyməli, şeyləri ac-diləncı kəndlilərə payladığı kimi bu dəfə də qaraçılara paylayır.

Bir gün Nəbi yenə də karvan soyur. Bu xəbər Şuşa qəza naçalnikinə çatır. Bir qədər atlı götürüb Nəbini axtarmağa başlayırlar. Təsadüfən Nəbi o günü yoldaşlarını Dəvəboynuna göndərmişdi. Özü isə Turşsuda idi.

Nəbi darıxaraq iki quzu tapıb qaraçıların yanına gəlir. Quzunları kəsib damaxla yeməyə başlayırlar.

Şuşa qəza naçalnikinin qazaqları Nəbini axtarmağa başlayırlar. Qaraçılar qazaqların gəldiyini Nəbiyə xəbər verirlər. Nəbi aynalı tüfəngini götürüb, düşmən qabağına getmək istərkən qaraçılar qoymurlar. Haman saat Nəbini keçə palaz altında gizlədirlər. Qazaqlar gəlib çıxırlar. Naçalnik Nəbini xəbər alır. Onlar Nəbinin Gorus tərəfə getdiyini söyləyirlər. Qazaqlar getdikdən sonra Nəbi çıxır. Çalıb, oxuyub, oynadıqdan sonra Nəbi boz atını minib özünü yoldaşlarına yetirir. Yığışıb Mollu kəndinə gəlirlər. Nəbi, Həcər kəndlilərlə görüşdükdən sonra yoldaşları ilə birlikdə Cənubi Azərbaycana keçir.

Nəbi baharda öz yaylaqları Salvaraltı dağına gəlir. Onun igidliyi, əliaçıqlığı dillərdə dastan olur. Ağasından balaca incimiş hər çoban tez dəyənəyi onun başına vurub birbaş Nəbinin yanına gəlir, onun dəstəsinə qoşulurdu.

Zəngilanın Çaytumas kəndində yaşayan Allahverdi adlı birisi kənd koxasını öldürüb qaçır. Allahverdi təklikdə heç bir şey edə bilməyəcəyini, bu dağlarda tələf olacağını hiss etdiyindən, Nəbinin dəstəsinə qoşulmağı qət edir. Allahverdi Nəbinin yanına boş getmir. O, gecənin birində Nəbinin düşməni olan Məmmədəlibəyin qardaşının yatmış yerdə başını kəsib xurcuna qoyur. Nəbinin Salvaraltı dağında olduğunu bilib onun yanına gəlir.

Nəbi Allahverdinin nə üçün gəldiyini xəbər alır.Allahverdi başına gələn müsibəti ona nağıl etdikdən sonra Məmmədbəyin kəsilmiş başını xurcundan çıxarıb Nəbinin ayaqları altına atır. Nəbi, Allahverdini öz dəstəsinə qəbul edir.

Məmmədəlibəy qardaşı Məmmədbəyin ölümünü Nəbidən görür. Tez pristav Əliağabəyə xəbər verir. Nəbinin Salvaraltı dağında olduğunu eşidib yüzə kimi atlı ilə ora gedirlər. Qaryagin, Şuşa bəyləri də bunlara qoşulurlar.

Nəbini üzük qaşı kimi araya alan düşmən sevinir. Nəbi isə heç pozulmayıb yoldaşlarına deyir:

O qarlı dağları düşman bürüdü,
Çar tərəfdə qoşun sürü-sürüdü.
İgidlərim, bu gün dava günüdü,
Mərd olub nər kimi girək meydana,
Gücmüzü göstərək bu gün divana.

Əliağa lotudur, dəyməyin ona,
Məmmədəli girib nə yaman dona,
Qırın qazaqları düzün yan-yana!
Nər oğlu nər kimi girək meydana,
Gücümüzü göstərək bu gün divana.

Nəbi indi möhkəm tutub işini,
Ac qurdlara qıcıdıbdır dişini,
Qırın bu bəyləri, tökün leşini!
Dərə dolsa tökək leşi meydana,
Gücümüzü göstərək bu gün divana.

Nəbi sözünü qurtaran kimi Şahüseyn bir tərəfdən, Mehdi və başqaları da o biri tərəfdən düşüb düşmən qoşununu elə qırırlar ki, qazaqlardan qaçanı qaçır, qaçmayanı sıldırım qayalardan qoyun-quzu kimi dərə aşağı tökülüb, tələf olurlar. Məmmədəlibəy qazaqlardan da qabaq qaçıb atın ba-

şını enişə qaytarır. Nəbi onu vurmaq istəmirsə də, amma, yenə keçmişi yadına salıb aynalını sazlayır. Pristav Əliağabəyi qolundan yaralayır. Əliağabəy gəlib Zəngəzur naçalniki Səlimbəy Rüstəmbəyova şikayət edir. Səlimbəy qoşun götürüb Nəbini nə qədər axtarırsa da tapa bilmir.

Nəbi qış vaxtı İrana keçir, dostu Rəhmanullaxanın yanına gəlir. Bir ay burada qalır. Gəncə qubernatoru Nəbinin İranda Rəhmanullaxanın yanında olduğunu bilib ona kağız yazır ki, onu tutub rus konsulluğuna təslim versin. Rəhmanullaxan bu işdən Nəbini xəbərdar edir. Nəbi qaçdıqdan sonra qubuernatora Nəbinin burda olmadığını yazır.

Qış qurtardıqdan sonra Nəbi öz dəstəsi ilə yenə Azərbaycana gəlir. O, arvadı Həcər, həm də Mollu əhli ilə görüşmək üçün doğma kəndinə gəlir. Qubadlının Xucman kənd sakini Lütvəlibəy Nəbinin Mollu kəndində olduğunu eşidib, əlli nəfərə kimi atlı cəm edib gəlirlər. Nəbini sevən yoxsul kəndlilər Lütvəlibəyin gəldiyini ona xəbər verirlər.

Nəbi ayağa qalxır, öz paltarını dəyişib çoban paltarı geyir. Altdan silah bağlayır. Yoldaşlarını götürüb Mollu kəndinə gələn yolun bir tərəfində gizlədir. Özü isə əlinə ağac alıb yolun tam ortasında dayanır. Lütvəlibəy gəlir, o, Nəbini çoban bilib deyir:

– Nəbini bu tərəflərdə görmədinmi?

Nəbi özünü karlığa vurub ona yaxın gəlməsini əli ilə işarə edir.

Lütvəlibəy hirslənir, atını sürüb Nəbiyə tərəf çapır, ona bir qamçı vurur. Ağzını Nəbinin qulağına yaxınlaşdıraraq bərkdən çığırmaq istərkən Nəbi Lütvəlibəyin qulağından yapışıb yoldaşlarına işarə edir. Onlar qazaqlara hücum edib atışırlar. Nəbi isə Lütvəlibəyi dərəyə çəkib onun sağ qulağını kəsir, sağ ovcunun içinə bağladıqdan sonra atın dalına sarıyır,atı qamçılayır, at Lütvəlibəyi götürüb qaçır. Yerdə qalan atlıları Nəbi, yoldaşları qırıb tələf edirlər. Sonra Nəbi öz dəstəsi ilə Qafan meşələrinə çəkilir.

Nəbi Qafana gedəndən sonra Səlimbəy böyük qüvvə ilə onu axtarır, tapa bilməyib geri qayıdır.

Bir gün Nəbi, Zəngəzur mahalında kiçik bir kəndin yanından keçərkən qulağına hay-küy səsi gəlir. O, boz atını irəli sürür. Söyüd ağacının altında Zəngəzur mahalının üçüncü məhlə pristavı Mehdibəyi fağır bir kəndlini ağaca sarıyıb döydüyünün üstünə çıxır, ona deyir:

– Ə bu fağırı niyə öldürürsən?

Mehdibəy başını yuxarı qaldırır, Nəbini öz dəstəsi ilə görcək əlindəki tatarı yerə düşür, yarpaq kimi əsməyə başlayır. Nəbi Mehdibəyi çoxdan axtarırdı, fürsəti fövtə verməyib, onun paltarını əynindən çıxarıb kəndliyə verir, özünü isə ağaca sarıyıb:

– Eşitsəm bir də siz fağır-füqəranı incidib, onlara əl qaldırırsınız, torpağınızı torba ilə daşıtdırıb birbaş Araza tökdürəcəyəm! – deyib gedir.

Zəngəzur naçalniki Səlimbəy Rüstəmbəyova səhər tezdən çatır ki, Nəbi üçüncü hissə pristavı Mehdibəyi soyundurub ağaca sarımışdır. Səlimbəy Rüstəmbəyov çox qəzəblənib haman saat atlı dəstə götürüb Nəbini axtarmağa çıxır.

Pristav Mehdibəyin ağaca sarınması xəbəri bütün mahala yayılır. Mahal çinovnikləri bu xəbərdən daha da qorxuya düşürlər. Naxçıvan naçalniki Slavaçinski bu xəbəri eşidən günün səhəri atını minib Səlimbəy Rüstəmbəyovun yanını gedir:

– Səlimbəy, sənin bu Nəbi haqqında fikrin nədir? Nə vaxta kimi bu zalım oğlu mahalı çatıb-çapacaqdır?

– Mən lap başımı itirmişəm, bu dələduzla üç-dörd rota əsgər də bacara bilməz.

– Mən hələ işin gerisindən qorxuram. O, bu gün Mehdibəyi soymuş, sabah gecəylə gəlib sənin arvad-uşağını lap yorğan-döşəyi ilə oğurlar.

Səlimbəy Slavaçinskiyə baxıb deyir

– Bəs nə etməli?

Slavaçinski:

– Nəbi üç günə kimi bu mahallardan yox olmalıdır. Qubernator əmr etmişdir ki, Nəbi bir həftəyə kimi tutulub həbs edilməzsə, bütün mahal pristavlarının işi yuxarı veriləcək.

Səlimbəy qorxuya düşüb deyir:

– Yol göstər, bəlkə bir tövr ilə Nəbini yox edə bilək.

– Biz Nəbini açıqda döş-döşə gəlməklə tuta bilməyəcəyik. Elə hiylə düzəltmək lazımdır ki, Nəbi özü gəlib bizə təslim olsun.

– Nə kimi hiylə lazımdır, sən de, mən can-başla həll etməyə hazıram.

– İndi ki, belə oldu, qoy bir fikirləşim.

Hər ikisi razılaşdıqdan sonra Slavaçinski Səlimbəyin yanında qalır. Səlimbəy kəndin ətrafında bir çox atlılar qoyur ki, qarəul çəksinlər.

Səhər tezdən kəndə belə bir xəbər yayılır: "Nəbi Slavaçinski qazaqlarını qarın-qarına bağlayıb, getmişdir".

Bu xəbər Slavaçinskini daha da qorxuya salır. Adam göndərib ətraf bəyləri çağırtdırır. Bəylər yığışıb bir qədər söhbətdən sonra Nəbi haqqında danışmağa başlayırlar.

Slavaçinski:

– Həcər tutulub həbs olunmayınca, Nəbi gəlib təslim olmayacaqdır. Bu açıq məsələdir ki, Nəbi arvadının həbsdə yatmağına razı olmayacaq.

Bəylər Slavaçinskinin fikrini yerbəyerdən alqışlayırlar.

Sabahı Slavaçinski və bəylər çıxıb gedirlər.

Səlimbəy gecə ikən dörd nəfər atlı ayırıb Mollu kəndinə göndərir. Atlılar Mollu kəndinə gəlir, Həcəri tutub Səlimbəyin hüzuruna aparırlar. Səlimbəy Həcərin ayağına qandal vurub Gorus qazamatına göndərir.

Həcərin tutulması səhər tezdən ətrafa yayılır. Nəbini, onun arvadı Həcəri sevən kəndlilər, Səlimbəyin yanına təvəqqəyə gəlirlər. Səlimbəy kəndlilərin xahişini rədd edir.

Həcər neçə dəfə qazamatdan qaçmaq istəyirsə bacarmır.

Qazamat qulluqçularından biri Həcərə vurulur. Gecə qapını açıb içəri girir. Həcər onun fikrini duyub tez yerindən qalxır, yanındakı xörək qabını onun başına çırpır. Qazamat qulluqçusunun başı yarılır.

Bir gün Nəbinin ən yaxın adamlarından biri Həcəri görmək üçün Gorus qazamatına gəlir. Həcər gələn kəndlini görcək ürəklənib deyir:

– Get mənə bir kağız, bir də qələm gətir.

Kəndli qələm, kağız tapıb Həcərə gətirir. Həcər Nəbiyə belə bir məktub yazır:

Qazamat istidir yata bilmirəm,
Qubernat güclüdür bata bilmirəm.
Ayaqda qandalaq qaça bilmirəm,
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Qazamat istidir, ağrıyır başım,
Axır gecə-gündüz qanlı göz yaşım
Olubdu daş-divar mənim sirdaşım,
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Mən gələndə şamamalar gülüdü,
Dörd yanımı atlı, qazaq bürüdü,
Yazıq canım qazamatda çürüdü,
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Həcər məktubu kəndliyə verir, kəndli məktubu alıb birbaş Mollu kəndinə gəlir. Oradan da səhər tezdən çıxıb Nəbini axtarmağa başlayır. Nəbini tapıb Həcərin məktubunu ona verir.

Nəbi Həcərin məktubunu alıb məzmunundan xəbərdər olandan sonra, Həcəri tək xilas etmək fikrinə düşür. Yoldaşlarını Camal qalasına qoyub əhvalatı bilmək üçün Mollu kəndinə gəlir. Bir neçə kəndlidən Həcər haqqında dürüst məlumat aldıqdan sonra, boz atını minib Gorusa tərəf gəlir.

Gorusun bir neçə kilometrliyində Nəbi Qarabağa gedən tacirlərə rast gəlir. Qarabağda satmaq üçün apardıqları mallarını alır, özlərini də qol-qola bağlayır. Yaxındakı kəndlər enib haman malları paylayır, yoluna davam edir. Gorus dağının dalında Nəbini isti vurur, bir kölgəlik tapıb uzanır.

Kənd strajniki aşağı çinli çar qulluqçusu qol-qola bağlanmış tacirlərə rast gəlirkən soruşur:

– Ə, sizi kim qarın-qarına bağlayıb?

Tacirlərdən biri:

– Başına dönüm, qaçaq Nəbi bizim var-yoxumuzu əlimizdən aldı, özümüzü də bu kökə saldı.

Strajnik bunu eşidən kimi tacirlərin qolunu açır, tələsik Gorus naçalnikinin yanına gəlib, Nəbinin bu tərəflərdə olduğunu bildirir. Naçalnik yüz atlı götürüb, birbaş Gorusun dağına gəlir, Nəbini mühasirəyə alır.

Nəbi boz atın kişnəməsinə ayılır. Kazakları yaxınlıqda gördükdə cəld sıçrayıb ata minir, aradan çıxmaq istəyir. Kazaklar Nəbini gülləyə tuturlar. Qurtara bilməyəcəyini hiss edən Nəbi boz atın yalını tumurlaya-tumarlaya söyləyir:

Gorusun qaşında yıxılıb yatdım,
İstinin dərdindən qan-tərə batdım,
On iki taciri qol-qola çatdım,
Boz at qurtar məni, aman günüdür!

Gümüşdən döydürrəm sənin nalını,
Yüz gözələ hördürrəm yalını,
Sən gəl pozma mən Nəbinin halını,
Boz at qurtar məni aman günüdür!

Sonra elə bir nə'rə çəkdi ki, kazaklar pərən-pərən düşdülər. Nəbi cəld özünə səngər tapıb daldalanır, aynalı tüfəngi işə salır.

***

Nəbinin qardaşı Mehdi gecənin bir aləmində ayılıb Nəbinin mənzilinə gəlir. Nəbini tapmadıqda yoldaşlarından onun harada olduğunu soruşur. Xanhüseyn:

– Nəbi dünəndən bəri gözümə dəymir.

Mehdi tövləyə enib görür ki, boz at da yerində yoxdur. Tez yoldaşlarından birini götürüb Gorusa tərəf gedirlər. Gorusun dağına bir xeyli qalmış aynalının səsini, Nəbinin nərəsini eşidirlər. Onlar arxadan yol tapıb səngərə doğru çapırlar.

Birdən boz at ayağını yerə döyüb kişnəyir. Nəbi dönüb görür ki, enişdən beş-on atlı gəlir. Nəbi bunları görən kimi özünü itirmir. Elə nərə çəkir ki, hər iki tərəf daş kimi donub qalır. Mehdi yoldaşı ilə yaxınlaşıb səngərlərə yatırlar. Atışma getdikcə qızışır. Nəbi yoldaşlarını görüb ürəklənir:

Yenə düşmən gəlib nizama durdu,
Naçalnik mat qalıb boynunu burdu,
Qoçaq Mehdim gələn kazağı vurdu,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Qardaşı yanında, ay qoçaq Nəbi!

Nəbiyəm, düşməni sallam talaya,
Qoymayın sağ gedib çıxa Qalaya,
Qubernat mat qalsın belə bəlaya,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Yoldaşı yanında, ay qoçaq Nəbi!

Düşməni məğlub etdikdən sonra Nəbi Xocaxana tərəf gəlir. Kəndə girib Niftəlibəyi öldürdükdən sonra çıxıb gedirlər.

Niftəlibəyin öldürülməsi xəbəri kəndə yayılır. Səfərbəy, Hüseynbəy, Teymurbəy və digər bəylər Nəbinin dalınca at çapıb, Qılıncan dərəsində tutuşurlar.

Nəbinin üzərinə dolu kimi güllə yağır. O, yoldaşlarına ürək vermək üçün oxuyur:

Qılıncan dərəsi qana boyansın,
Aynalı səsinə dünya oyansın,
Bəylərin yer-yurdu od tutub yansın,
Buraxmayın bir təkini bəylərin!

Ovuc-ovuc içək düşmən qanını,
Alaq qubernatın, bəyin canını,
Dağıdaq onların xanımanını,
Buraxmayın bir təkini bəylərin!

Nəbi deyir: sayıq olun, yatmayın,
Düşmənə havayı güllə atmayın,
Amandı kəndlini bəyə qatmayın,
Buraxmayın bir təkini bəylərin!

Bəylərin məcbur edib gətirdiyi kəndlilər Nəbinin sözlərini eşitdikdə, Nəbiyə güllə atmaqdan boyun qaçırıb geriyə üz qoyurlar. Nəbi Teymurbəyi vurur, o biri bəyləri isə Xocahana qədər qovub geri qayıdır. Nəbi oradan birbaşa Gorusa gəlib çıxır. Gorus qaşında ikinci toqquşmaya rast gəlir. Bu belə olur:

Gorus naçalniki tərəfindən Gorus ətrafında, Nəbini tutmaq üçün kəndləri gəzən iyirmiyədək atlıya Nəbi özü rast gəlir. Atışma başlanır. Nəbi atlıları qırıb çatır vəcdə gələrək deyir:

Gəldik çıxdıq biz Gorusun qaşına,
Səngər tapıb can vermədik qoşuna,
Gör nələr gətirdik düşmən başına,
Əcəldən amansız ay qaçaq Nəbi!
Düşmənin gözünə ay bıçaq Nəbi!

Mehdi, Allahverdi mənim ürəyim,
Bir mən, bir at, bir aynalı tüfəngim,
Düşməni gör necə yan-yana sərdim,
Əcəldən amansız ay qaçaq Nəbi!
Düşmənin gözünə ay bıçaq Nəbi!

Nəbi minər boz atının üstünə,
Aynalı tüfəngi alar dəstinə,
Gülləni yağdırar düşmən üstünə,
Əcəldən amansız ay qaçaq Nəbi!
Düşmənin gözünə ay bıçaq Nəbi!

Nəbi atlıların patron, silahlarını yığıb gecə ikən Gorusa qayıdır.

***

Nəbinin yolunu səbirsizliklə gözləyən Həcər darıxmış halda dağınıq saçlarını sinəyə saz edib qazamat pəncərəsindən baxa-baxa Nəbi nigarançılığını belə bəyan edir:

Bu dünyada çəkdim olmazın cəfa,
Zalım fələk qoymur sürək bir səfa,
Necə oldu ondakı o gözəl vəfa?
Tehranda tutdular, nədi gəlmədi,
Nə üz verdi görən, Nəbi gəlmədi?

Ellər matdır fələk qıyan oyuna,
Sarılmadım mən doyunca boyuna,
Həsrət qaldı Nəbi qardaş toyuna,
Tehranda tutdular, nədi gəlmədi,
Nə üz verdi görən, Nəbi gəlmədi?

Onsuz bu dünyaya etmərəm nəzər,
Atlı kazak dörd bir yanımda gəzər,
Həcər qalıb qazamatda intizar,
Tehranda tutdular, nədi gəlmədi,
Nə üz verdi görən, Nəbi gəlmədi?

Nəbi öz dəstəsilə şəhərə çatan kimi qazamata hücum edir, qapıçıları öldürüb qazamata girir. Şəhər divanxanasını tar-mar etdikdən sonra Həcəri boz atın tərkinə alıb, şəhərdən çıxır.

Nəbinin qazamatı dağıtması xəbəri naçalnikə çatır. Naçalnik kazaklara əmr edir ki, Nəbini tutsunlar. Kazaklar Nəbi adını eşitcək qorxa-qorxa çıxıb bir neçə havayı güllə atdıqdan sonra geri qayıdırlar.

Nəbi Həcəri azad etdikdən sonra bir müddət İranda qalır, sonra Azərbaycana gələrək Salvaraltı dağına çıxır.

Naxçıvan naçalniki Salvaçinski Nəbini Salvaraltı dağında olduğunu bilən kimi Səlimbəyə xəbər göndərir. O da bir qədər atlı ilə Nəbini tutmaq üçün Salvaraltı dağına gəlir.

Kəndlilər Səlimbəyin gəlməsini Nəbiyə xəbər verirlər. Nəbi yoldaşlarını cəm edərək onlara nə deyir:

Mehdi sağdan cumsun igid qoç kimi,
Ər meydanda dursun gərək daş kimi,
Şahüseynlə Qoca tərlan quş kimi
Gərək bu gün vuraq düşməni daşa!
Bu meydanda cəmdək qarışsın başa!

Nəbinin gücünü düşmənlər bilsin,
Yağılar ağlasın, dost-aşna gülsün,
Yer üzündən naçalniklər silinsin,
Gərək bu gün vuraq düşməni daşa!
Bu meydanda cəmdək qarışsın başa!

Söz qurtaran kimi Nəbinin dəstəsi hücuma keçir. Həcər də əlinə tüfəng alıb qabağa gələn kazakları bir bir dənləyir.

Atışma getdikcə şiddətlənir. Düşmən tab gətirə bilməyib qaçır.

Nəbi bir tərəfdən düşmənin qaçdığını, o biri tərəfdən Həcərin bu davada nər kimi atışdığını görüb daha da ürəklənir:

Mən bir qoç iyidəm düşmüşəm qaçaq,
Qardaşım Mehdidir özümdən qoçaq,
Qubernat bu işdən olubdu naçaq,
Mahalda desinlər qaçaqdı Nəbi,
Arvadı özündən qoçaqdı, Nəbi!

Mehdinin əlindən dad edər fələk,
Naçalniklər mənə gəlirlər kələk,
Həcərə yaraşır desinlər pələng,
Mahalda desinlər qaçaqdı Nəbi,
Arvadı özündən qoçaqdı, Nəbi!

Qubernat, naçalnik gəlsə soymaram,
Düşmənin qanından içsəm doymaram,
Zalımda qısası yəqin qoymaram,
Mahalda desinlər qaçaqdı Nəbi,
Arvadı özündən qoçaqdı, Nəbi!

Bunu deyib Nəbi elə nərə çəkir ki, dağ-daş titrəyir. Düşməni qabağına qatıb o qədər qovur ki, gətirib Yelləcədən aşağı tökür. Özü təpənin üstünə çıxıb son sözünü belə söyləyir:

Nəbi deyir: Yelləcədə durmuşam,
Əlimdə tüfəngim bığım burmuşam,
Hər gülləyə bir kazakı vurmuşam,
Mahalda desinlər qaçaqdı Nəbi,
Arvadı özündən qoçaqdı, Nəbi!

Nəbi bir oğlandı hər yeri gəzər,
Üstü götürdükcə patronu düzər,
Bəy əmrilə soldat, üstünə süzər,
Mahalda desinlər qaçaqdı Nəbi,
Arvadı özündən qoçaqdı, Nəbi!

Nəbi düşməni qovduqdan sonra Piri qalasına gəlir. Məğlub olmuş Səlimbəy yenidən bir neçə bəydən, Gəncə qubernatorundan aldığı kazaklarla Nəbini axtarmağa başlayır. Nəbinin Piri qalasında olduğu xəbərini alaraq oraya gəlir. Nəbi isə oradan Kəlbəcərin Pəriçınqıl dağına qalxır. O, burada Kəlbəcərdən İstisuya gedən düşməni Nəsibbəyin qardaşını öldürür. Bu xəbər də Səlimbəyə çatır. Səlimbəy silahlı qüvvə ilə Pəriçınqıl dağına gəlib, dağı üzük qaşı kimi araya alır.

Nəbi düşmən tərəfindən üzük qaşı kimi araya alındığını görcək xilas olmaq fikrinə düşür. Qaranlıq gecədə o, yoldaşlarını çağırıb tonqalın işığında Səlimbəyə bu məzmunda məktub yazır:

Pərçınqıl dağında salmışam məskən,
Döşəyim çınqıldır, yastığım tikən,
Çiynimdə yapıncı, köynəyim kətən,
Divanı çaşbaşa salan qoçağam,
Bəylərin gözünə iti bıçağam!

Qırdıqca kəsilmir kazağın dalı,
Çınqılda vuruldu pristav Alı,
Nəbiyə halaldır bəylərin malı,
Divanı çaşbaşa salan qoçağam,
Bəylərin gözünə iti bıçağam!

Nəbiyəm, atımın ayağı ala,
Qubernat başına gətirrəm bəla,
Qoymarıq tumunuz yer üstə qala,
Divanı çaşbaşa salan qoçağam,
Bəylərin gözünə iti bıçağam!

Nəbi məktubu torpağa sancdıqları ağacın üstünə sarıyır. Şeylərini yığışdırıb sıldırım qayalardan, keçilməz dar cığırlarından zor-güc ilə keçərək, gecənin qaranlığında öz dəstəsilə görünməz olur.

Bir az keçmir ki, ay doğur. Düşmənlər qara dağlar döşündə bitən qaratikan kollarını Nəbinin adamları bilib güllə atırlarsa da, heç bir cavab ala bilmədiklərindən səhərə kimi közləməyə məcbur olurlar.

Dan yeri ağarar-ağarmaz Səlimbəyin dəstəsi dağa dırmanır. Burada Nəbini tapa bilmədikləri üçün çox pərt olurlar. Nəhayət məktubu tapıb Səlimbəyə yetirirlər.

Səlimbəy məktubun məzmunundan xəbərdar olduqda hiddətlənir, gətirdiyi kazaklarla Nəbini axtara-axtara Zəngəzura gəlib çıxır.

Bir müddətdən sonra Nəbi Həcərlə bərabar İrana gedir. Baharda Nəbi Azərbaycana qayıdıb, Üçtəpə dağını özünə məskən edir.

Bir gün Nəbi Həcəri Telliqaranın yanında qoyub yoldaşları ilə dağkeçisi ovuna çıxır.

Dağbəyi Kinikorbəyin iki nəfər adamı Nəbiyə rast gəlir. Nəbi onların kim olduğunu bilcək, birsini öldürür, o birisi isə qaçır.

Nəbinin Üçtəpədə olduğunu Kinikorbəyə xəbər verirlər.

Kinikorbəy əlliyə kimi atlı götürüb Üçtəpəyə gəlir.

Həcər düşmən qoşununun gəldiyini görcək Telliqaranı səsləyir. Hər ikisi səngərə girib atışırlar. Nəbi güllə səsini eşidərək yoldaşları ilə birlikdə geri qayıdır.

Həcər Nəbini görcək ürəklənib:

– Ə, gələn Kinikorbəydir, özünü tez yetir – deyə bağırır. Nəbi cəld səngərə yatır.

Mehdi, başqaları da hərə bir səngərə yatıb atışırlar. Kinikorbəyin adamlarını qırıb qurtardıqdan sonra özünü də tuturlar. Həcər Nəbinin bu qoçaqlığını görcək deyir:

Üçtəpə dağına xəbə yayıldı,
El-oba yuxudan onda ayıldı,
Yasavullar dərə-dərə yayıldı,
Nəbi yenə burda bir ad eylədi,
Dağbəyini tutub nə dad eylədi!

Nəbinin dəstəsi yenə quruldu,
Üçtəpə düzündə kazağı vurdu,
Haray çatdı Kinikorbəy buyurdu,
Yenə Nəbi burda bir ad eylədi,
Dağbəyini tutub nə dad eylədi!

Nəbi bir ləhzədə çıxdı oraya,
Kinikoru tutub çəkdi araya,
Yasavullar onda qaçdı haraya,
Nəbi yenə burda bir ad eylədi,
Dağbəyini tutub nə dad eylədi!

Həcər sözünü qurtarandan sonra Nəbi Kinikorbəyi öldürüb dərəyə atır.

Həcəri öz doğma kəndlərində qoyub yoldaşları ilə birlikdə İrana adlayır. Nəbi İranda da dinc durmur. Bəylərlə, xanlarla vuruşur, tutulacağını hiss edərək yenə Azərbaycana qayıdır.

Nəbinin Azərbaycana qayıtdığını bilən yerli bəylər böyük qüvvə ilə ona axtarmağa başlayırlar. O vaxtlar Nəbi gah Qafan meşələrində, gah da

Gorusdan yuxarı Kəpəz deyilən dağda olur. Gəncə qubernatoru Nəbinin tutulmasını qəti təklif edir. Səlimbəy Rüstəmbəyov Zəngəzurdan, Qara Əliağa Qaladan üç yüzə kimi atlı ilə Nəbini axtarmağa çıxırlar.

Nəbi öz dəstəsi ilə Çiçəkli yaylasından Qubadlıya gəlirkən təsadüfən yolu Qubadlının Seytar deyilən kəndinin yanındakı meşədən düşür. Bu meşəyə el arasında qaranlıq meşə deyirlər. Nəbi burada bir çobana rast gəlir. Ondan pulla qoyun alıb, kabab bişirir. Yeməyə oturduqları vaxt Səlimbəyin dəstəsi tərəfindən üzük qaşı kimi araya alınırlar. Nəbi özünü itirmir. Rahatca çörəyi yedikdən sonra qalxıb atlara minmək istədikləri vaxt düşmən güllələri dolu kimi yağdırır. Nəbi dəstəsi ilə səngərlərə doluşurlar. Qızğın atışma başlanır. Nəbinin kiçik dəstəsi salamat qalır. Nəbi oradan Qafana keçir. Bir aya kimi Qafanda qaldıqdan sonra Salvaraltı dağına gəlir, Həcəri götürüb yenə İrana keçir.

Nəbi İranda Rəhmətullaxanla görüşür, onun yanında qalır. Bir gün Nəbi qardaşı Mehdini Həcərin yanında qoyub Azərbaycana gəlir.

Gəncə qubernatoru Nəbinin İranda olduğunu bilib oradakı rus konsuluna yazır ki, nə vasitə ilə olursa olsun, Nəbini tutub təslim etməlidir.

Rus konsulu Nəbinin harada olduğunu, kimin evində qaldığını bildikdən sonra xanın oğlu Niyazını çağırıb deyir:

– Əgər sən Nəbini öldürüb, meyidini bizə təslim etsən, şəxsən mən səni Rusiyaya göndərib yaxşı vəzifə verərəm.

Rəhmətullaxanın oğlu razı olur. Konsulxanadan çıxıb evlərinə gəlir. Təsadüfən haman gün Mehdi Həcəri tək qoyub ova çıxıbmış. Rəhmətullaxanın oğlu Nəbinin harada olduğunu Həcərdən xəbər alır. Həcər ona yerli yerində məlumat verdikdən sonra Mehdi görünür. Rəhmətullaxanın oğlu Mehdini görən kimi xəncəri çəkib onu vurmaq istəyir. Mehdi ona aman verməyib birinci güllәsi ilə onu vurur. Güllənin səsinə adamlar toplaşır. Mehdini tutub həbs edirlər. Həcər isə göz dustağı saxlanılır. Həcər qürbət eldə belə vəziyyətini görcək Azərbaycana, Nəbiyə belə bir məktub yazıb göndərir:

Dağların döşləri çiskin, dumandır,
Vətəndən çıxalı xeyli zamandır,
Qürbət eldə halım, mənim yamandır,
Mehdini tutdular, gələsən Nəbi!
Düşmənin əlindən alasan, Nəbi!

İranın dağları qardır, borandır,
Arazın kənarı yazdır, arandır,
Mehdini tutdular, Həcər talandır,
Mehdini tutdular, gələsən Nəbi!
Düşmənin əlindən alasan, Nəbi!

Qohumdan, qardaşdan üzüldü əlim,
Gülüb danışmağa varmayır dilim,

Yanımda görünmür qoç oğlu Kərim,
Mehdini tutdular, gələsən Nəbi!
Düşmənin əlindən alasan, Nəbi!

O vaxtlar Nəbi Qafanın rayonunun Xocahan kəndinin yaxınlığındakı meədə imiş. Məktub əvvəlcə Mollu kəndində Nəbinin əmisinə, sonra özünə çatır. Həmən günü Nəbi İrana adlayır.

Nəbi İrana keçən kimi kəndlilərlə görüşür. Mehdinin nə üçün tutulduğunu, harada saxlanıldığını yerli-yerində öyrənir. Gecəynən kiçik dəstəsi ilə Mehdinin saxlanıldığı yerə gəlir. Dama çıxır, baca boyda bir deşik açıb Mehdi üçün ip sallayır. Beləliklə, Mehdini çıxardır. Gecəynən özlərini Araza yetirirlər. Azərbaycana keçdikdən sonra Həcəri kəndlərində qoyub özü Qafan meşələrinə çəkilir. Bu hadisədən sonra Nəbi bir müddət İrana getməyir.

***

Ağası Hacı Qəmbər Çoban İsmayılın haqqını kəsdiyindən o, acıqlanıb kişiyə nalayiq söz deyir. İsmayılın bu hərəkəti Hacı Qəmbərin oğlunu qəzəbləndirir. Onlar vuruşurlar. İsmayıl bıçaq ilə onu yaralayıb qaçır. Haman gündən İsmayıl gizlin yaşamağa, ətraf bəylərə əziyyət verməyə başlayır.

Bir müddət İsmayıl Gəncə ətrafında qaçaqlıq edir. Tək olduğuna baxmayaraq, yerli bəylər onunla bacara bilmirlər. Şamxor koxasını döyənlər də qaçıb İsmayılın yanına gəlirlər. İsmayıl bunları da götürüb Qafan meşələrinə gəlir. Nəbinin dəstəsinə qoşulur. İsmayılın iyidliyi haqqında xalq belə bir qoşma da qoşmuşdur:

Gorusun qaşına qoşun yürüdü,
Nəbinin dəstəsi durdu, yeridi,
Dörd tərəfi atlı kazak bürüdü,
Nəbinin dəstəsi fəğan eylədi.
Kazakın işini yaman eylədi.

Tapmayıb bir səngər girdilər kola,
İsmayılla Mehdi verdi qol-qola,
Kazakları qırıb tökdülər yola,
Nəbinin dəstəsi fəğan eylədi.
Kazağın işini yaman eylədi.

Gəncəli İsmayıl dikəltdi başın,
Mehdilə tutdular Gorusun qaşın,
Səlimbəy axıtdı gözünün yaşın.
Nəbinin dəstəsi fəğan eylədi.
Kazakın işini yaman eylədi.

Bu dava belə olmuşdu: Nəbi arandan dağa qayıtdıqda yolu Gorus meşəsindən düşür. Bu zaman naçalnik Səlimbəy, pristav Əliağabəy böyük dəstə ilə Nəbini axtarırlarmış. Gorusdan bir qədər aşağı Nəbi ilə üz-üzə gəlirlər. Qızğın vuruşma başlanır. Bu davada İsmayıl böyük qoçaqlıq göstərir.

Nəbi Salvaraltı dağına, oradan da Qarabağa gəlir. Dəvəboyu deyilən sərt, çıxılmaz bir yerdə özlərinə məskən salırlar. Bəylər, Nəbinin bu tərəfdə olduğunu eşitcək böyük bir qüvvə ilə Dəvəboyuna gəlirlər. Lakin Nəbi haman günü aradan çıxıb yenə Qafan meşələrinə çəkilir. Bəylər əlacsız qalıb Gorusa qayıdır, belə qərara gəlirlər ki, Nəbini yenə kəndlilərdən tələb etsinlər. Vəziyyət olduqca qorxulu şəkil alır. Kənd koxaları kəndliləri döyür, söyür, Nəbini onlardan istəyirlər. Xocahan bəylərindən Niftəlibəy kəndliləri bir dama yığıb axşamdan səhərə kimi çubuq altına salaraq Nəbini tələb edir. Kəndlilər kənd koxasını döyüb damın qapısını qırdıqdan sonra hərə öz evinə çəkilir. Kəndlilərin bu çıxışından qorxan bəylər kənd ətrafına kazak qoyurlar.

Nəbi öz adamları vasitəsilə işdən xəbərdar olur. İsmayılı göndərir ki, Niftəlibəyi öldürsün. İsmayıl ata minib Xocahana gəlir. Düz yolda pusquda duran kazakların üstünə çıxır. İsmayıl tez əlini tüfəngə atır. Atışırlar. Kazaklar əvvəl onun atını vurular. İsmayıl: "Atım vuruldu, özüm barı salamat qurtarım", – deyib özünə səngər tapır. Səhərə kimi atışırlar. İsmayılın gülləsinii qurtardığını görən kazaklar ona hücum edirlər. Tutub qolunu bağlayıb birbaş Gorusa, oradan da Şuşa qalasına aparırlar ki, bu da Nəbini çaşdırmaq üçün bir vasitə olur. İsmayılı qalada çox incidirlər. Nəbi də İsmayıldan nigaran qaldığından onu axtarmağa başlayır, ancaq tapa bilmir. Nəbi öz kəndlərinə dönür.

İsmayıl bu məzmunda bir məktub yazıb Nəbiyə göndərir:

Duman gəlib bizim dağı bürüdü,
Baxtım məni gör haraya sürüdü,
Yazıq canım bu qalada çürüdü,
Yetiş harayıma durma, gəl, Nəbi!
Düşmənin əlindən məni al, Nəbi!

Polad canım bax tuş oldu bir yaya,
O gündən ki, gətirdilər buraya,
İndi bildim ömrüm gedəcək zaya.
Yetiş harayıma durma, gəl, Nəbi!
Düşmənin əlindən məni al, Nəbi!

Qaladan görünür Dəvəboyunu,
Kazaklar gətirir başıma oyunu,
Anam görməz İsmayılın toyunu.
Yetiş harayıma durma, gəl, Nəbi!
Düşmənin əlindən məni al, Nəbi!

Məktubu Mollu kəndinə gələn bir nəfər kəndli ilə göndərir. Məktub haman günü Nəbiyə çatır. Nəbi öz dəstəsi ilə qalaya gəlir. Gecəynən şəhərə girir. Qazamatı dağıdıb İsmayılı qurtarırlar. Nəbi şəhərdən çıxan kimi dalınca düşmən atlıları düşür. Düz iki gün, iki gecə vuruşurlar. Düşmən Nəbinin kiçik dəstəsinin qarşısında davam gətirə bilməyib qaçır. Nəbi öz dəstəsi ilə Murov dağına gələrkən yolda bəylərin üç arabasını soyur, malları kəndlilərə paylaya-paylaya Murov dağına çıxırlar.

Nəbinin Murov dağında olduğunu bilən Gəncə qubernatoru, beş yüzə kimi atlı göndərir. Nəbi vəziyyəti belə görərək yoldaşlarına ürək verir, hamı səngərlərə yatışırlar. Atışma başlanır. Bu şer də dava məqamında Nəbi üçün deyilmişdir:

Murov dağlarında quruldu dava,
Çəkdi kazakları pristav ağa,
Güllələr yağanda pozuldu hava,
Nəbi burada da tufan eylədi,
Kazağın işini fəğan eylədi.

Dərədən çıxanda bir bölük kazak,
Aynalı işlədi, qopdu tozanaq,
Nəbinin şəstinə bu sözü yazaq:
Nəbi burada da tufan eylədi,
Kazakın işini fəğan eylədi.

Düşmənin qoşunu yüyürdy dağa,
Qabaqda durmuşdu pristav ağa,
Nəbi qoymaz düşmən keçə qabağa,
Nəbi burada da tufan eylədi,
Kazakın işini fəğan eylədi.

Nəbi düşməni azdıra-azdıra Qubadlıya, oradan da Qırxlar dağına gəlib çıxır. Nəbinin Qırxlar dağında olduğunu eşidən bəylər, onu rahat buraxmayıb, yenidən böyük bir qüvvə ilə oraya gəlirlər. Nəbinin dəstəsini mühasirəyə alırlar. Atışma əsnasında Nəbinin dəstəsindən bir nəfəri vururlar. Bir az keçmir ki, Nəbinin boz atını da yüngül yaralayırlar. Nəbi işi belə görəndə:

Qırxlar dağında bir dava qurdular,
Kazak, soldat, bəd nizama durdular.
Pristavlar boz atımı vurdular,
İndi apararlar həbsə yar məni,
Bu çılpax zindanlar edər xar məni.

Dağlar uca idi, aşa bilmədim,
Atım yaralandı qaça bilmədim.

Bu vuruşdan heç baş açа bilmədim.
İndi apararlar həbsə yar məni,
Bu çılpax zindanlar edər xar məni.

Nəbi sözünü deyib qurtardıqdan sonra, dava meydanına nəzər salıb gördü ki, Mehdi düşmənə şir kimi döşənmişdir. Nəbi ürəklənib elə bir nərə çəkir ki, qoşun yerində quruyub qalır. Nəbinin səsini eşidən yoldaşları tökülüşüb düşmənə təpinirlər. Düşmən əlindən sağ-salamat qurtardıqdan sonra Nəbi haman saat Naxçıvan səmtində olan Keçili yaylağına keçir.

Nəbi yoldaşlarını Keçili yaylağında qoyub, ailəsini görmək məqsədilə Mollu kəndinə yollanır. Mahal naçalnikləri Nəbini tuta bilmədikləri üçün daha da hiddətlənirlər. Yığışıb belə bir qərara gəlirlər ki, Nəbini yenə də kəndlilərdən tələb etsinlər. Bu qərarı bütün bəylərə bildirirlər. Kənd strajnikləri yenidən işə başlayır, yoxsul kəndlilərdən tələb edirlər ki, Nəbini tutub hökumətə versinlər, ya da kənddə gecələdiyi vaxt öldürsünlər. Bu zaman Nəbi Xocahan kəndinin yaxınlığından keçirmiş. Bir nəfər kəndli ona rast gəlir. Nəbini görən kəndli, onun ayağına düşüb müsibəti söyləyir.

– Kənddə kazak varmı?

– Çoxdur.

– Elədə sən get işinə, mən gəlib sizin yerinizə onlara cavab verərəm.

Kəndli gedir. Nəbi özünü meşəyə verib, gün batana kimi gözləyir. Sonra Xocahan kəndinə gəlib boz atını birbaşa Lütvəlibəyin qapısına sürüb dayanır.

Lütvəlibəy və bir neçə bəylər oturub şirin söhbət eləyən vaxtda Nəbi içəri girir. Lütvəlibəy onu görən kimi istəyir dad-həşir sala, ancaq Nəbi qapını kəsdirib deyir:

– Canınızı istəyirsinizsə, yerinizdən tərpənməyin!

Bəylər qorxularından yerlərindən tərpənmirlər. Nəbi deyir:

– Ə sən məni axtarırsan? Bu da mən!

– İşimiz yoxdur, kəndliləri də incitmərik.

– Qulaq as, iki bənd sözüm var, deyim gedirəm:

Atam mərddir, mən əzəldən qoçağam,
Düşmənin gözünə iti bıçağam,
Yoxsul üçün ipək kimi yumşağam,
Sizlər üçün yaradıblar sərt məni,
Bacarırsan, indi özün tut məni.

Yaxşı bax sən qoç Nəbinin boyuna.
Anan durar matəminə, loyuna,
Sizin kimi sürü-sürü qoyuna,
Yaradıblar iti dişli qurd məni,
Bacarırsan, indi özün tut məni.

Nəbi əvvəl Lütvəlibəyi, sonra o biri bəyləri öldürür. Car çəkib yoxsulları yığır. Lütvəlibəyin varını kəndlilərə paylayıb gecəynən çıxıb gedir.

Nəbinin Xocahan kəndinə gəlib bəylərin başına oyun açması səhər ətrafa yayılır. Nəbini tutmaq üçün Mollu kəndinə qoşun gedir.

Kazaklar kəndə soxulub arvad-uşaqları incidir. Kazakların kəndi çalıb-çapmasını görən Həcər, kənd arvadlarını başına toplayıb, kazakları daşa basaraq kənddən qovurlar. Səlimbəy vəziyyəti belə görüb kazakları geri çağırır, Nəbini başqa kənddə axtarmağa başlayırlar. Təsadüfən haman gecə Nəbi yuxarı Mollu obasına gəlir. Dostu Xudayarın evində qalır. Rahatlıq üçün üst paltarını soyunub yatır. Kənd koxası hardansa Nəbinin burda olduğunu bilib Səlimbəyə xəbər verir.

Səlimbəy müsəlləh qüvvə ilə gəlib kəndi mühasirəyə alır. Gecənin bir aləmində Nəbi evdən eşiyə çıxır. Kazaklar Nəbini tuturlar. Qollarını bağlayıb Səlimbəyin hüzuruna aparırlar.

Səlimbəy Nəbini qandallayıb Gorus qazamatına aparır. Bu əhvalatı eşidən kəndlilər Nəbini azad etmək üçün Gorus həbsxanasına gəlirlər. Lakin heç bir iş bilmədikləri üçün dönüb Qafan meşələrinə gedirlər.

Qubernator Nəbini Gəncəyə gətirir. Bir ay Gəncədə qaldıqdan sonra Nəbini Gorusa aparırlar. On beş gündən sonra müxtəlif yerlərdən gəlmiş hökumət adamlarının iştirakı ilə Nəbinin dara çəkiləcəyi elan olunur. Xəbər Nəbiyə çatır

Görək xəbəri eşidən Nəbi nə deyir:

Yenə aynalını allam əlimə,
Bir qıy vurub minnəm boz at belinə,
Mən hayıfam, düşmən getsin ölümə,
Mərd iyiddir, qaçıb qurtarar Nəbi,
Düşmən üstə güllə yağdırar Nəbi.

Çiskin, duman çökdü yenə dağlara,
Külək vurub, yağış yağar bağlara,
Görünməyib mərd namərdə yalvara,
Mərd iyiddir, qaçıb qurtarar Nəbi,
Düşmən üstə güllə yağdırır Nəbi.

Sözünü tamam edəndən sonra Nəbi qaçmaq fikrinə düşür. Amma necə qaçsın! Ətrafda soldatlar gəzişirlər. Nəbi gecəni birtəhərlə yuxulayıb səhəri açır. Asılmağına da iki gün qalır.

Nəbi pəncərənin yoğun dəmirlərini bir-bir qopardaraq yerə tökür. On metr hündürlükdən yerə enmək üçün Nəbiyə ip gərəkdir. Kamerada ip olmadığından Nəbi kamerada olan adyalları yığıb bir-birinin ucuna calayır. Adyalların bir ucunu pəncərənin dəmirinə bağlayıb, o biri ucunu bayıra sallayaraq yavaş-yavaş aşığıya enir. Sağ-salamat həbsxananı tərk edir, obalarına gəlir. Nəbinin qazamatdan qaçması bütün mahallara yayı-

lır, çar qulluqçuları yenidən qorxuya düşürlər. Bu dəfə qubernator özü məsələyə qatışır. Səlimbəyə, Mahmudbəyə, başqa bəylərə böyük qüvvə verərək Nəbini axtarmağa göndərir.

Nəbi yoldaşlarını Qafan meşəsində qoyub Qarçıvandakı dostunun yanına gələrkən, yolda bir dəstə tacirə rast gəlir. "Əliboş kəndə nə gedim" deyib haman tacirlərin mallarını əlindən alıb Qarçıvan kəndinə gəlir. Gətirdiyi malı yoxsullara paylayır. Çuğul kənd koxası Nəbinin bu kənddə olduğunu bilir, pristava xəbər verir. Haman saat kazaklar kəndi üzük qaşı kimi araya alırlar. Kəndlilər Nəbini gizlədirlər. Nəbi çoban paltarı geyinir, kənddən çıxıb, tez özünü yoldaşlarına yetirir. Gecəynən Nəbinin dəstəsi yenidən Qarçıvana gəlir. Nəbi yoldaşlarına deyir: "Ə, güllə atmayın, kəndliləri qırarsız". Bir nəfər kəndli ilə pristava belə bir xəbər göndərir: "Mən burdayam. Sözün varsa mənimlə danış! Arvad uşağı əsir eləmə!" Pristav bu xəbəri eşidən kimi kazaklarla Nəbinin olduğu yerə gəlir. Vuruşma başlanır. Kazakları gülləyə basıb pərən-pərən edirlər. Nəbi Zəngilana, oradan Qubadlıya gəlib Həcəri götürür, birbaş Naxçıvan yaylaqlarına çəkilir. Naxçıvan naçalniki Slavaçinski Nəbinin bu tərəflərdə olduğunu eşitcək Səlimbəyə xəbər verir. Səlimbəy böyük bir qüvvə ilə Naxçıvana gəlir. Nəbi isə Salvaraltı dağına qayıdır. Səlimbəy Nəbini izləyib Salvaraltı dağına tərəf gəlir. Kəndlilər Nəbiyə xəbər verirlər ki, Qubadlı pristavı Teymurəlibəy qubernatordan beş yüz patron alıb ona söz verib ki, Nəbinin ölüsünü ona təslim etsin. Nəbi bu xəbəri eşitcək yoldaşlarına belə deyir: "Ə, baxıram bizim patron azlıq edəcək, gəlin gedək Qubadlı pristavının hüzuruna". Yoldaşları razılaşaraq Həcəri yaylaqda qoyub, Qubadlıya gəlirlər. Gecə ayın aydınlığında Teymurbəyin evinə doluşurlar.

Bəy, Nəbini görən kimi canını qorxu alır. Nəbi deyir:

– Ə, qorxma mən eşitmişəm ki, qubernatordan beş yüz güllə alıbsan ki, mənim ölümü ona təslim edəsən. Mən isə öz ayağımla yanına gəlmişəm.

Bəy:

– Ə, Nəbi, zarafatı boşla, adamların sözünə inanma, gəl otur, mən də qərib oğlanam.

Nəbi:

– Ə, qoçaq, dur o beş yüz patronu ver bəri!

Bəy:

– Ay canım, zarafat eləmə, məndə patron nə gəzir?

Nəbi yenə deyir:

– Eşitmirsən! Məni yubatma, patronları ver! Yoxsa...

Pristav işin pis nəticə verəcəyini görüb beş yüz patronu Nəbiyə verir.

Nəbi oradan çıxıb birbaş Salvaraltı dağına gəlir. Bu zaman Səlimbəy dağı mühasirəyə alır. Kəndlilər Nəbinin burada olmadığını söyləyirlərsə də, Səlimbəy yenə əl çəkməyir.

Bu dəfə kazakları ətrafda qoyub bir neçə kazakla obaya gələn Səlimbəy alaçıqları axtarır. Nəbinin burada olmadığını yəqin etdikdən sonra bir

neçə qoyun kəsdirib kabab bişirtdirir, istirahət etməyə başlayır. Həcərin burada olduğunu xəbər verirlər. Bəy onu yanına çağırtdırır.

Həcər Səlimbəyin yanına gəlir. Həcərə bir xeyli baxıb haman bu yerdə ona güllə atdığını xatırladır.

Səlimbəy:

– Ay qız, bu Nəbini harda gizlədibsən?

Həcər:

– Düyünçəmdə.

Səlimbəy:

– Ay qız, açıq de görüm Nəbi haradadır?

– Sən də namussuzluğuna salıb arvad xeylağını incitmə!

Bu söz Səlimbəyə toxunur, əmr edir Həcərin qollarını bağlatdırır.

Yaylaqda qızlar, gəlinlər Həcərin tutulmağından qüssələnirlər. Gecə olduğu üçün Səlimbəy yaylaqda qalır.

Nəbi Qubadlıdın Salvaraltıya gəlir. Yolda kəndlilər Nəbini işdən hali edirlər. Səlimbəyin orada olduğunu bilən kimi, Nəbi ilk növbədə Həcəri azad etmək, sonra Səlimbəylə hesablaşmaq istədiyini yoldaşlarına bildirir.

Yaylağın sərin havası, əmlik quzunun əti kazakları kefləndirir, şirin yuxuya verir. Nəbi obadan bir qədər uzaq dayanır. Obada olan itlər hürməsin deyə, it sahiblərinə gecəynən xəbər göndərir ki, itlərini gizlətsinlər. Hər kəs öz itini alaçığa çəkib qabağına yal tökür. Nəbi obaya girir. Həcərin dustaq olduğu alaçığa gəlib onu xilas edir. Sonra obadan çıxhaçıxda bir güllə atır. Qazaqlar, Səlimbəy güllə səsinə ayılırlar. Ara qarışır, itlər də tökülüb kazaklara hücum edir. Bu tərəfdən də Nəbi onları güllələyə tutur.

Səlimbəyin dəstəsi Nəbinin qabağında tab gətirə bilməyib dərə aşağı qaçır.

Nəbi bu dəfə özünü Ərikli dağına verir. Yolda Naxçıvana gedən Xocahan bəylərinə rast gəlib onları soyur. Bu xəbər Slavaçinskiyə çatır. O də Səlimbəyə xəbər verir, yenə böyük bir qüvvə ilə Ərikli dağına gəlib onu üzük qaşı kimi araya alırlar.

Qızğın atışma başlanır. Mehdi, Şahüseyn, Telliqara və başqaları səngərə doluşurlar. Arabir Nəbi yoldaşlarına ürək vermək üçün nərə çəkir.

Nəbinin yaxın yoldaşı Qoca, qabaq səngərdə düşmənə göz verib işıq vermir. Bu anda baraban vurulur, bir dəstə də köməyə gəlir. Qoca dəstənin hansı tərəfdən gəlməsini bilmək üçün başını səngərdən çıxarıb baxanda, düşmən gülləsi onu ağır yaralayır. Görək Qoca yaralandıqda Nəbini necə haraya çağırır:

Tüfəngi doldurub aldım əlimə,
Kəməri bağladım qoşa belimə,
Əcəlim gəlməmiş getdim ölümə,
Özünü yetir, ay qaçaq Nəbi!
Yoldaşı özündən ay qoçaq Nəbi!

Səngərdə yatmışam indi yaralı,
Qoç Mehdidən düşdüm xeyli aralı,
Ölüm gəlir cavan ömrüm saralı,
Özünü yetir, ay qaçaq Nəbi!
Yoldaşı özündən ay qoçaq Nəbi!

Yoldaşlarım hanı gəlməz yanıma
İndi gərək qan eyləsin qanıma,
Qoca deyir: xəbər verin anama,
Özünü yetir, ay qaçaq Nəbi!
Yoldaşı özündən ay qoçaq Nəbi!

Nəbi Qocanın ölümünü eşidib görək yoldaşlarına nə cür ürək verir:

Qoymayın-qoymayın düşmən yayına,
Gülləni yağdırın kazak başına,
Canım Mehdi hücum elə qoşuna,
Nəbi gərək burda bir ad eyləsin.
Düşmənin işini bidad eyləsin.

Nəbi indi düşmənləri qovalar,
Naçalniki, pristavı yaxalar,
Qocanın qisasın bəylərdən alar,
Nəbi gərək burda bir ad eyləsin.
Düşmənin işini bidad eyləsin.

Nəbi son nərəsini çəkir. Atışma getdikcə daha da şiddətlənir. Nəbinin nərəsindən ürəklənmiş yoldaşları, yerləri möhkəm olduğu üçün düşmənə göz verib, işıq vermirdilər. Vəziyyəti belə görən kazaklar Nəbinin vuruşuna tab gətirə bilməyib, qaçmağa üz qoyurlar.

Səlimbəy nə qədər çağırır ki, "Ə, qaçmayın!" olmur. İşi belə görən Səlimbəy özü də qaçır. Nəbi bunları qovduqdan sonra Qocanın meyidini götürüb Naxçıvan qalasına yollanırlar.

Nəbi ilə bacara bilməyən bəylər, naçalniklər, hökumət adamları yenidən Həcəri tutub Gorus qazamatına göndərirlər. Həcərə bu dəfə qazamatda olmazın əziyyətlər verirlər. Xüsusən Simon deyilən birisi Həcərə sataşmağa başlayır. Həcər belə bir ağır vaxtda, hər işi gözünün qabağından keçirərək görək Nəbini necə arzulayır:

Yastığım kərpicdir, döşəyim saman,
Yorğanım həsirdir üşüdüm aman.
Hər tərəf hasardır, hər tərəf duman.
Hardasan, hardasan, ay qoçaq Nəbi!
Adını qoyublər ay qaçaq Nəbi!

Gorusun düzünə hopubdur sazax,
Düzülüb qaraul, soldatla kazax,
Əlimdə qələm yox bir kağız yazax,
Hardasan, hardasan, ay qoçaq Nəbi!
Adını qoyublər ay qaçaq Nəbi!

Nəbi Həcərin tutulması xəbərini eşidərək, yoldaşlarını götürüb Salvaraltı yaylağını gəlirlər. Nəbi burada Həcərin tutulması əhvalatını daha ətraflı öyrəndikdən sonra Həmtəli obasına gəlir.

Bu zaman Hayıq adlı birisi Nəbinin Həmtəli dağında olduğunu pristava xəbər verir. Pristav Nəbini haman obada mühasirəyə alır. Nəbi düşmənin qüvvəsinin az olduğunu gördükdə hücum edərək qovur, Yantəpəyə yola düşürlər. Pristav yenidən Səlimbəydən qüvvə alıb Yantəpədə Nəbinin qabağına çıxır. Qızğın atışma başlanır. Nəbi kazakları qırır, boz atına minib yoldaşları ilə aradan çıxır. O, atının davada şücaətini görüb deyir:

Boz atım davada pələngdir, pələng,
Qızılquş baxışlı, gözləri fişəng,
Belimdə qılıncım, çiynimdə tüfəng,
Boz atım yeriha, aman günüdür,
Həcərin dustaxda yaman günüdür!

Naçalnik, qubernat hey kağız yazar,
Onların yazdığın qoç Nəbi pozar,
Yeri boz at, Həcər qaldı intizar,
Boz atım yeriha, aman günüdür.
Həcərin dustaxda yaman günüdür!

Nəbi sözünü tamam edib quş kimi boz atını sürüb Gorus dağına çıxmaqda olsun, Həcər də qazamatda intizarda.

Nəbi öz dəstəsi ilə Gorusa girir. Özünü tez qazamat qapısına yetirib qapıçıya deyir:

– Mən qazamat naçalnikini görmək istəyirəm.

Qapıçı deyir:

– Neynirsən?

Nəbi deyir:

– Qaçaq Nəbidən onun üçün təzə xəbər gətirmişəm.

Qapıçı Nəbi adını eşidən kimi özünü naçalnikə yetirir. Onu işdən xəbərdar edir. Naçalnik deyir:

– Burax gəlsin!

Qapıçı Nəbini içəri buraxır. Nəbi naçalnikin otağına girir. Naçalnik xəbər alır:

– Ey dəli musurman, nə üçün gəlmisən?

Nəbi deyir:
–Bu dəqiqə, sənə deyim nə üçün gəlmişəm:

Mərd oğulam mənlə bacarmaz fələk,
Dava günü düşmənə gəlləm kələk,
Aç qapını Həcərin üzün görək,
Buraxmasan allam canını indi.

Naçalnik deyir:
– Ə, sən mənə Nəbidən xəbər gətirmisən, ya mənə söz oxumağa gəlmisən?
Nəbi deyir, qulaq as birini də deyim:

Nəbinin adını qoyubsuz qaçaq,
Dəstəsi başında özündən qoçaq.
Olarsan sən bu işindən naçaq,
Buraxmasan allam canını indi,
Ovucla içərəm qanını indi.

Naçalnik çığırıb deyir:
– Ə, ləvənd oğlu, ləvənd! Sən nə hətərən-pətərən sözlər danışırsan?!
– Səbir elə, sözümün axırıdır:
Nəbi deyir:

Mən Nəbiyəm keçmişəm öz canımdan,
İçdikcə doymaram düşmən qanından,
Gəlmişəm Həcəri alım zindandan,
Buraxmasan allam canını indi,
Ovucla içərəm qanını indi.

Qazamat naçalniki Nəbi adını eşidən kimi yarpaq tək əsməyə başlayır:
– Ə, Nəbi, amanın günüdür, çıx get buradan.
Nəbi deyir:
– Həcəri aparmamış getmərəm!
Naçalnik:
– Ancaq təvəqqe edirəm, məni öldürməyəsən. Həcəri buraxıram.
Nəbi:
– Tez ol, sənin lə işim yoxdur.
Naçalnik gedib Həcəri gətirir.
– İndi mənə bir kağız ver ki, bizi qapıçı buraxsın.
Naçalnik tez bir kağız yazıb Nəbiyə verir. Həcər, Mehdi və başqa yoldaşları ilə görüşdükdən sonra Salvaraltı yaylağına gedirlər.
Nəbi bir aya kimi Salvaraltı yaylağında qalır. Ellər arana köçdükdə Nəbi Həcəri öz doğma kəndləri Aşağı Mollu kəndinə gətirir, dostu Yusifə tapşırır, özü isə hara isə gedir.

Həcərin qaçırılması hökumət adamlarını yenidən qorxuya salır.

Nəbinin Qafan meşəsində, Hacaxun qayasında olduğunu bilən Səlimbəy, Qafarbəy, Məmmədbəy, başqa bəylər qoşun götürüb Qapana gəlirlər. Hacaxun qayasını mühasirəyə alırlar. Ciddi atışma başlanır. Nəbinin Xanış adında bir yoldaşı vurulduqdan sonra, boz atını da vururlar.

Boz atının ölümünü görən Nəbi, bu sözləri deyir:

Qismətimiz buymuş dağlarda gəzək,
Zülmkar şahlara namələr yazaq,
İnsafdırmı bir iyidə, yüz kazaq!
Kazakın, əfsərin əlindən haray,
Quduz pristavın əlindən haray.

Nə pis yerdə düşmən vurdu atımı,
Tamam kəsmək istəyirlər zatımı,
Öldürə bilmədim qubernatımı,
Kor yapalaxların əlindən haray,
Quduz pristavın əlindən haray.

Nəbi sözünü qurtarıb elə bir nərə çəkir ki, dağ-daş titrəyir.

Xanışı basdırdıqdan sonra Nəbi bu tərəfləri tərk edərək, Sisyan mahalına gəlir. Yoldaşlarını Sətəndaşda qoyaraq özü Dulus kəndinə gəlir. Dulus kəndinin koxası vergi vermək istəməyən kasıb bir kəndlini döydüyünü, onun arvad-uşağını evdən bayıra atdığını görüncə özünü saxlaya bilməyib haman koxanı vurub öldürür.

Xəbər Sisyan mahalının naçalnikinə çatır. Bu tərəfdən də Nəbini təqib edən kazaklar təsadüfən gəlib buraya çıxırlar. Nəbinin Çətəndaşda olduğunu bilib böyük bir qüvvə ilə oraya gəlirlər. Nəbinin yoldaşları, Mehdi, Telliqara hərə öz səngərinə yatır. Qazaqlarla atışma başlanır. Nəbinin ən yaxın dostu Lüt Abış vəziyyətdən Nəbini xəbərdar edir. Nəbi atına minib, başqa kəsmə yollarla özünü yoldanşlarına yetirir.

Vuruşma qızışır. Nəbinin yaxın dostu Telliqara öz səngərindən qabaq səngərə keçmək istəyəndə düşmən gülləsi onu yaralayır. Telliqara səngərə yıxılır.

Nəbi Telliqaranın vurulmasını bilcək çox qəmgin olur. Düşmən çox olduğu üçün tez də özünü səngərə atır.

Telliqaranın intiqamını almaq üçün yoldaşlarına ürək verən Nəbi elə bir nərə çəkir ki, düşmən qaçmağa üz qoyur.

Xucuqlu Mahmudbəy çoxdandı ki, Nəbinin sorağında idi. Ancaq onu harada tapıb, onunla necə hesablaşacağını bilmirdi. Xucuqlu Mahmudbəyə el arasında ala Mahmud deyirdilər. O, eşidir ki, Nəbini tuta bilmirlər. Altmışa kimi atlı götürüb qubernatorun yanına gəlir, deyir: "Mənə kazak ver, gedirəm Nəbini tutmağa". Qubernator buna kazak verir. Mahmudbəy yüzdən yuxarı kazak götürüb Nəbini gəzməkdə olsun, indi görək Nəbi nə

edir: haman gün Nəbi Şuşa qalasından gələn tacirlərin şeylərini alıb yoxsul kəndlilərə paylamışdı. O, Maltəpəyə dırmananda Mahmudbəy öz dəstəsi ilə görünür. Nəbi tez yoldaşlarını səngərə dağıdır, tez də atışma başlayır. Mahmudbəy təbil vurdurub şeypur çaldırır. Nəbiyə bu heç də təsir etmir. Özünü səngərə yıxıb qabağına çıxan düşmənləri bir-bir qırır. Mahmudbəy qoşunun qabağında can yandırdığı üçün Nəbi daha da hiddətlənir. Mahmudbəyi nişan alır, ilk güllədə onu vurub dərə aşağı salır. Başçılarını itirmiş qoşun qaçır. Nəbi vəcdə gəlir:

Maltəpədə düşmən bizə tuş oldu,
Naçalnik, pristav qabaqda durdu.
Güllə atılcağın təbil vuruldu.
Nəbi burda yenə nə kar eylədi,
Mahmudbəyin halın naçar eylədi.

Nəbi sözün deyər mərdi-mərdanə,
Göz veribən işıq verməz divana,
Mahmudbəyi boyayıbdır al qana.
Nəbi yenə burda nə kar eylədi,
Mahmudbəyin halın naçar eylədi.

Nəbigil Əliyan meşəsində bir qədər qaldıqdan sonra Camal qalasına gəlirlər. Gəncə qubernatoru Nəbinin Camal qalasında olduğunu eşitcək, Səlimbəyə xəbər verir. Səlimbəy ətraf bəyləri də çağırıb birbaş Camal qalasına gəlirlər. Qalanı üzük qaşı kimi araya alıb gülləni dolu kimi yağdırmağa başlayırlar. Nəbi bu davada Tarverdi adlı bir yoldaşını da qurban verir.

Nəbinin gözü Həcərə, Mehdiyə sataşır. Onların nər kimi vuruşduğunu, düşmənin getdikcə qüvvədən düşməsini görüb sevinir, bu sözləri deyir:

Camal qalasında yıxılıb yatdım,
Aynalı tüfəngi doldurub atdım,
Qoşun yeridikcə qan-tərə batdım.
Qoy sənə desinlər ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

Mehdi minib kürən atın belinə,
Həcər alıb tüfəngini əlinə,
Nəbi gedər Ordubadın elinə.
Qoy sənə desinlər ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

Bəylər ağlar, deyər allah amandı,
Zalım Nəbi Koroğludan yamandı,

Gəlin bir görüşək axır zamandı.
Qoy sənə desinlər ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

...Nəbini tuta bilmədiklərini görən bəylər, naçalniklər, hərə öz yerinə çəkilib kor-peşman otururlar.

Qubernator işi belə görəndə Naxçıvan naçalniki Slavaçinski, Səlimbəy, onun qardaşı Mahmudbəyi çağırıb əmr edir ki, Nəbinin adamlarını tək-tək öldürtməklə, o dəstəni dağıtsınlar. Sonradan Nəbini tutmaq asandır. Razılaşıb bütün kəndlərdə gizlin adamlar qoyurlar.

...Mehdinin Qarçıvanda olduğunu bilən Hayıq adlı bir varlı balası Mehdini öldürmək, hökumətdən mükafat almaq fikrinə düşür. Gecə tüfəngini götürüb Mehdi olan evin qapısına gəlir, pəncərədən Mehdini atır.

Kənd koxasının evində olan pristav güllənin səsinə bayıra çıxır. Atışmanın nədən baş verdiyini bilib atlıları oraya göndərir. Mehdi atlıların gəlişindən qarıxmayıb, düşmənə aman verməyir. Atlılardan bir neçəsini vurur. Hayıq fürsətdən istifadə edərək Mehdinin arxa tərəfinə keçir, onu yaralayır. Qana batmış Mehdi qardaşı Nəbini haraya çağırır:

Dostdan, aşinadan üzüldü əlim,
Söz deməyə indi varmayır dilim,
Ayrıldım qardaşdan, qırıldı belim,
Tez yetir özünü haraya, Nəbi!
Düşmən məni aldı araya, Nəbi!

Gör neçəsi darışıbdır canıma,
Xəbər verin, mənim yazıq anama,
Varsın ellər, qan eləsin qanıma
Tez yetir özünü haraya, Nəbi!
Düşmən məni aldı araya, Nəbi!

Güllə dəyib, Mehdi batıbdır qana,
Şahüseyn bilməyib gələ yanına,
Nəbi gərək qan eləsin qanına,
Tez yetir özünü haraya, Nəbi!
Düşmən məni aldı araya, Nəbi!

Yaralı Mehdi son gülləsi qalıncaya qədər atışır.

Pristav, Mehdinin meyidini arabaya qoyub öz idarəsinə göndrir.

Nəbi Qarçıvan meşəsini çıxar-çıxmaz ürəyi sıxılır. O, yoldaşlarına: "Siz gedin, mən Mehdiyə dəyib qayıdıram", – deyir. Yoldaşları Nəbinin tək geri qayıtmasına razı olmurlar. Həcərlə birlikdə hamı geri qayıdır.

Nəbi Qarçıvandan yeni çıxmış arabaya rast gəlir. Arabanı saxlayaraq haraya getdiyini, nə apardığını arabaçıdan xəbər alır. Arabaçı – "Nəbinin

qardaşı Mehdinin meyididir, naçalnikin idarəsinə aparıram", – cavab verir.

Nəbi Mehdi adını eşitcək özündən gedir, yerə yıxılır. Bir az sonra ayılır. Həcər Mehdinin cənazəsi üstünə göz yaşlarını bahar buludu kimi axıdır. Nəbi deyir:

Göylərə qalxıbdır mənim amanım,
Havaya sovruldu dinim, imanım,
Firqətindən yandı, kül oldu canım.
Bu zalım fələyin əlindən haray,
Pristav, əfsərin əlindən haray.

Bir yanım qaya, bir yanım barıdı,
Ah çəkməkdən qara bağrım sarıdı,
Mehdi kimi qoç qardaşım varıdı,
Bu zalım fələyin əlindən haray,
Pristav, əfsərin əlindən haray.

Nəbi sözünü tamam etdikdən sonra aslan kimi nərə çəkib Qarçıvan kəndinə hücum etmək istəyir. Yoldaşları onun tələf olmağından qorxub getməyinə razı olmurlar. Nəbi üzünü yoldaşlarına tutub deyir:

Həsrət oldum mən görmədim elimi,
Mehdinin ölməyi əydi belimi,
Qanmadım düşmənin fitnə-felini,
Gərək düşmənlərdən qan alıb gedək.
Pristav yurduna od salıb gedək.

Nəbi deyir: dərdin lap yüzü keçdi,
İndi bildim düşmən qanımdan içdi,
Taxıl tək düşmənlər nəslimi biçdi,
Gəlin iyidlərim, qan alıb gedək,
Qubernat canına od salıb gedək.

Nəbi sözün qurtardıqdan sonra Qarçıvana hücum edirlər. Kəndə girib əllərinə keçən varlıları öldürdükdən sonra, haman gecə Həcərlə birlikdə başı bəlalı Arazın o tayına keçirlər...

Qurbani

Ustadnamə

Qadir allah, budur səndən diləyim,
Sən mərdi namərdə möhtac eyləmə!
Qeybi-xəzinədən yetir ruzisin,
Sən mərdi namərdə möhtac eyləmə!

Qadir allah, sənin kərəmin çoxdu,
Tənəli söz xəncər, nizədi, oxdu.
Qardaşın qardaşa vəfası yoxdu,
Qardaşı qardaşa möhtac eyləmə!

Namərd körpüsündən ölsəm, keçmənəm,
Karvan olsam, mənzilinə düşmənəm,
Əlindən camını alıb içmənəm,
Sağ əli sol ələ möhtac eyləmə!

Şair olan deyər sözün varısı,
Varısı olmasa, olsun yarısı,
Qoy lap olsun gözlərimin birisi,
Bu gözü o gözə möhtac eyləmə!

Dəllək Murad deyər sözün zatını
Əl-ələdən ötkündü, işin çətini,
Qurda-quşa qismət elə ətini,
Atanı oğula möhtac eyləmə!

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun.

Sən nüdrətən bir məclisə varanda,
Yaxşı əylən, yaxşı otu, yaxşı dur!
Dindirəndə mərifətdən xəbər ver,
Görən dəsin qardaşımdan yaxşıdı.

İgid mərifəti gərək dilində,
Qocanın əsası gərək əlində,

Beyqeyrət oğullar ata yerində,
Heç qalmasa, qaldığından yaxşıdı.

Dəllək Murad, bir vaxt gələr qonağın,
Ona məsrəf olar dügilə yağın,
Bircə gülər üzün, açıq qabağın.
Şirin dilin hamısından yaxşıdı.

Ustadlar ustadnəməni iki yox, üç deyər, biz də deyək üç olsun düşmənin ömrü puç olsun.

Yüz il də olasan bir bağa bağban,
Axır sərəncamı bağ sənə qalmaz.
Nə can qalar cəsədivin içində,
Nə də ki cəsədin sağ sənə qalmaz.

Mərd olasan, bu meydanda durasan,
Çox pəhlivanları yolda yarasan,
Yüz əlli minarə sən qurdurasan,
Heç birindən bir otaq sənə qalmaz.

Səməd deyilənə baxmaz, yerirsən,
Dağcan olsan, qılçan qalmaz, ərirsən,
Daş altında, torpaq üstə çürürsən,
Axır sümüklərin sağ sənə qalmaz.

Ustadlar belə nəql edirlər ki, qədimlərdə baş Xudafərin körpüsü ilə Araz-Kür qovşağı arasında Araz boyu yeddi yüz yetmiş iki ev yaşayırdı . Bunların hamısı Dirili Hüseynalı xana baxırdı. Hüseynalı xan çox arxalı, çox varlı, dövlətli bir xan idi.

Hüseynalı xanın atadan anadan doğma Mirzalı xan adında bir qardaşı var idi. Mirzalı xan çox yumşaq xasiyyətli bir adam idi. Özünün də züryətdən heç nəyi yox idi. Qardaşlar nə qədər ki, ataları sağ idi, bir yerdə yaşayırdılar. Elə ki, ata öldü, Hüseynalı xan öz oğlanlarına arxalanıb, qardaşı Mirzalı xanı evdən çıxartdı. Atanın var-dövlətindən Mirzalı xana bir çürük cövüz də vermədi. Mirzalı xan hara əl atdısa, heç bir yerə əli bənd almadı. Axırda çarəsiz qalıb oturdu öz yoxsul daxmasında. Halal zəhmətiylə dolanmağa başladı.

– Günlərin bir günündə Mirzalı xan arvadını çağırıb dedi:

– Arvad, bütün bu işlər ona görə başımıza gəldi ki, bizim züryətimiz, arxa-köməyimiz yoxdu. Deyirlər ki, el duası müstəcəb olar. Bir qurban götür, gedək ocağa, kəsək yetim-yesirə paylayaq, bəlkə bir övladımız ola.

Sabahı Mirzalı xan bir karlı qurbanlıq götürüb getdi ocağa. Kəsib nəziri payladı.

Allah-taala bunların qurbanını qəbul eylədi. Belə ki, bir müddət sonra Mirzalı xanın on dörd gecəlik ay kimi bir oğlu oldu.

Mirzalı xana müjdə getdi. Mirzalı xan olub-qalanını xərc eyləyib ac qarınları doydurdu, çılpaq əyinləri keydirdi. Sonra uşağa ad qoymaq istədilər. Bir ağıllı qoca kişi gəlib dedi:

- Oğlanın adını mən qoydum Qurbani. Çünki bunu qurbanla tapıbsınız.

Oğlanın adını qoydular Qurbani, tapşırdılar dayələrə. Tainki uşaq yeddi yaşa çatdı, bir kamil molla tapıb uşağı tapşırdılar ona. Molla başladı uşağa dərs verməyə. Bir neçə ilin müddətində uşaq bütün elmlərdən xəbərdar oldu. Belə ki, molla dərs deməkdən aciz qalıb, sifariş elədi:

– Ey Mirzalı xan, Qurbaniyə daha elm kifayətdir. O, bütün elmləri sinədəftər eləyib, açarını qoyub cibinə.

Bəli, Mirzalı xan mollanın xələtini göndərib, Qurbanini də evə gətirdi. Qurbani evdə yaşamağa başladı. Mirzalı xan da ki onun üstündə nanə yarpağı kimi əsirdi.

Bir gün Qurbani qapıda durmuşdu, adamlara baxıb köksünü ötürürdü. Mirzalı xan onu bu halda görüb dedi:

– Ay oğul, camal səndə, kəmal səndə, fərasət səndə, niyə köksünü ötürürsən?

Qurbani dedi:

– Dədə, qulaq as, sana bir ərzim var.

Mirzalı xan dedi:

– Ərzin nədi, xeyir olsun?

Qurbani dedi:

– Allah mal-dövlət verəndə bizə öküz də verməyib ki, gedib yerdənzaddan əkək, bir az azuqə qazanaq. Mən bu işə sirr qalmışam ki, niyə belə olur? Niyə biri varlı, o biri kasıb yaşayır, biri mallı, biri malsız olur.

Mirzalı xan dedi:

– Oğul, mənim Hüseynalı xan adlı bir qardaşım var ki, bünövrədən qolu zorludu. Atamızdan qalan var-dövləti çəkib əlimdən alıb. Gücüm çatmır ki, ondan ata payı alam.

Onun üçün də mən belə kasıb olmuşam.

– Dədə, məni əmimin yanına apar təvəqqə eləyim. Bəlkə bizə cüt öküz verə, biz də gətirib pərəkardan-zaddan əkək.

Mirzalı xan dedi:

– Oğul, o çox nainsaf qardaşdı. Mən rəva bilmərəm ki, sən ondan şey istəyəsən. İstəsən də sözünü yerə salacaq.

Qurbani dedi:

– Yox, dədə, sən məni apar, mən istəyim, qoy verməsin. Zərəri yoxdur.

Mirzalı xan naəlac qalıb dedi:

– Yaxşı gedək, evinin yerini göstərim. Ancaq sana bir zəy də verməyəcək.

Qurbani dedi:

– Sən məni apar, eybi yoxdu, qoy verməsin.

Mirzalı xan Qurbanini qabağına qatdı, aparıb qardaşı Hüseynalı xanın evinə saldı, özü də kənarda dayandı. Hüseynalı xan Qurbanini görəndə baxdı ki, vallah, bir gözəl oğlan gəlib onun yanında dayanıb ki, misli-mənəndi dünyada yoxdu. Öz-özünə dedi: "İnsanda da bu qədər gözəllik olarmı? Bu haradan gəlib çıxdı? "

Qurbani baxıb gördü ki, əmisinin evində çox varlı-karlı qonaqlar var.

Hüseynalı xan üzünü çevirib Qurbanidən soruşdu:

– Bala, sən kimsən? Buraya nə mətləbə gəlmisən?

Qurbani dedi:

– Əmi, mən qardaşın oğluyam. Dədəmlə sənin yanına gəlmişəm.

Hüseynalı xan dedi:

– Sənin dədən kimdi? Sən kimin oğlusan?

Qurbani dedi:

– Mənim dədəmi tanımırsanmı? Sənin qardaşın Mirzalı xan.

Hüseynalı xan bu sözləri eşidən kimi Qurbaninin gözlərindən öpüb öz yanında əyləşdirdi və qardaşı Mirzalı xanı da yanına çağırıb dedi:

– Qardaş, sənin ki, belə oğlun var imiş, bəs bu vaxta kimi mənə niyə demirdin? Uşağı da belə saxlayarlarmı? Tamam çalın-çılpaqdı ki...

Mirzalı xan dedi:

– Qardaş, xatirinə dəyməsin, səndə nə sifət görmüşəm ki, oğlumu da sənə tanış verəydim? Mən sənin yanına gəlmirdim. Qurbani zorla gətirdi.

Hüseynalı xan dedi:

– Bəs oğlun nə mətləbə gəlib?

Mirzalı xan dedi:

– Özündən xəbər al, gör nə mətləbə gəlib. Mən heç zad bilmirəm.

Hüseynalı xan dedi:

– Oğlum, nə diləyin var, dilə! Qorxma, hər nə istəsən verəcəyəm.

Qurbani dedi:

– Dədəm səndən mənə ayrı cür sözlər danışıb. Onun üçün söz deməyə cürət eləmirəm.

Hüseynalı xan dedi:

– Dədənə fikir vermə! Söylə görüm, nə deyirsən?

Bu danışıq arasında ortalığa yemək gəldi. Yedilər, içdilər, qutarandan sonra Hüseynalı xan Qurbaniyə dedi:

– İndi sözünü deyə bilərsən.

Qurbani dedi:

– Əmi, bircə cüt öküz üçun gəlmişəm. Camaat hamısı əkin əkir. Biz əlacsız, boynuburuq qalmışıq. Yeməyə cörək tapmırıq. Bir boyun öküzümüz olsa, yerdən-zaddan əkərik.

Hüseynalı xan dedi:

– Mənim gözüm üstə! Sənə bir cüt öküz verdim.

Hüseynalı xan əmr elədi, Qurbaniyə bir cüt öküz verdilər. Qurbani öküzləri götürüb sevinə-sevinə evlərinə gəldi. Gecəni yatdılar, sabahı Qurbani dedi:

– Dədə, mən yer əkməyə gedirəm. Sən də mənə çörək gətirərsən.

Qurbani öküzləri götürüb kövşənə gəldi, qoşub yer əkmək istədi. Amma ögüzlər xam idilər, getmədilər ki, getmədilər. Hərəsi bir tərəfə çəkdi. Qurbani nə qədər çalışdı, nə illah elədi, əməl olmadı ki, olmadı. Axırda dedi:

– Allah ki, adamdan üz döndərdi, bəndənin verməyindən bir şey çıxmaz. Görünür, biz elə həmişə kasıb dolanacayıq.

Öküzləri açıb buraxdı. Özü də yıxılıb bir zağada yatdı. Qurbaninin göz evi örtülü, könül evi açıq idi. Onun yuxusuna Gəncə şəhərində Ziyad xanın qızı Pəri xanım girdi. Pəri xanımın əlini Qurbaninin əlinə verib, onları bir-birinə buta elədilər. Bu iki aşiq-məşuq yuxuda görüşdülər, alışdılar, verişdilər.

Qurbani yatmaqda olsun, eşit Mirzalı xandan, Mirzalı xan çaydan-çörəkdən götürüb Qurbaninin dalınca getdi.

Ora Qurbani, bura Qurbani, tapa bilmədi. Baxdı ki, çöldə bir keçəl dana otarır. Mirzalı xan onun yanına gəlib Qurbanini, öküzləri ondan soruşdu. Keçəl dedi:

– Əmi, oğlun o zağanın içərisinə girdi. Öküzlərin birini canavar yedi, biri də batlağa batıb öldü. Oğlunun da ürəyi geçib, qalıb zağada.

Mirzalı xan özünü yetirdi zağaya. Gördü Qurbani bərk yuxunun içindədi. Onun o tərəf bu tərəfinə keçdi, çağırdı, amma çifayda, Qurbani ayılmadı ki, ayılmadı. Mirzalı xan keçəli də çağırdı. Qurbanini köməkli götürüb evə apardılar. Evdə də nə qədər elədilər, Qurbanini ayılda bilmədilər. Mirzalı xan çoxbilmiş, dünyagörmüş adamları çağırıb dedi:

– Siz bilərsiniz, mənim oğlumun dərdi nədi? Bu niyə yuxudan ayılmır?

Dedilər:

– Sənin oğlunun dərdini qarılar bilər. Onları çağır. Mirzalı xan gedib ipək qarını da, köpək qarını da, napak qarını da çağırdı. Əvvəl-əvvəl napak qarı gəldi, Qurbaninin vəzmini əlinə alıb dedi:

– Ay aman, bununku onnandı...

Dedilər:

– Qarı nənə, onnandı nədi? Nə danışırsan?

Qarı dedi:

– Belə qadanızı alım, onnandı ey! Çaydan keçəndə qurbağadan qorxub, ürək-göbəyi düşüb, dəli olub. Tez qaçım, qalxıb məni dalayacaq, mən də sizi dalayacağam, siz də başqalarını dalayacaqsınız, bir tufan qopacaq ki, ulax qovalayıb, keçi başı tutan qalmayacaq.

Qarını qovdular, çölə çıxartdılar. Köpək qarı irəli gəlib Qurbaninin gözlərinin içərisinə baxdı, geri durdu, dedi:

– Ay aman, bunu tısbağa dalayıb, qudurub, Qalxıb bu saat məni dalayacağ. Mən də sizi dalayacağam. Adamlar hamısı quduracaq. Tez başına kül eləyin, ölsün.

Onu da qovdular. İpək qarı irəli gəldi. Qurbaninin biləyini əlinə aldı, dedi:

– Hə, vəzmi yerindədi. Sevda vəzmidi. Mirzalı xan, bunun sağ əli mənim əzizimin başına olsun. İki gün daha yatar layimәst, üçüncü gün qalxar, ya badəsindən söylər, ya sevgisindən. Üçüncü gün olanda bunun başına qırx qız-gəlin yığ. Qalxanda dərdini söyləyəcək.

Bəli, vaxt gəldi keçdi. Qurbani üçüncü gün ayılıb gördü ki, başına çoxlu qız-gəlin yığılıb, dedi:

– Ay dədə, xalxınkı buradadı. Bəs mənimki haradadı?

Mirzalı xan dedi:

– Oğul, ölmüsən o dünyadan danış, sağsan, bu dünyadan. Sənınki, mənimki nədi?

Qurbani dedi:

– Dədə, bir başı limçə, bir başa çömçə olsa, dərdimi sənə söyləyə bilərəm.

Mirzalı xan dedi:

Oğul, bir başı limçə, bir başı çömçə nə deməkdir? Sən mənimlə lap qarğadili danışırsan.

Qurbani dedi:

– Dədə, ona həm dəm, həm də qəm çömçəsi deyərlər. O, gahdan dəmə çalar, gahdan qəmə.

Bəli, gətirdilər Qurbaniyə bir dənə saz verdilər. Qurbani sazı aldı əlinə, öpüb gözünün üstünə qoydu. Zilini zil, bəmini bəm eylədi, sinəsinə basıb aldı görək nə dedi:

Yatmışdım, üstümə gəldi ərənlər,
Səfil, nə yatmısan, oyan, dedilər.
Oyandım qəflətdən, açdım gözümü,
Al, abi-kövsərdən iç, qan dedilər.

Oyandım qəflətdən, açdım gözümü,
Ərənlər payinə sürtdüm üzümü,
Dindirdilər, haq söylədim sözümü,
Doxsan min kəlməmə bəyan dedilər.

Qurbani, batıbsan qəm dəryasına,
Ovçunun məskəni dağ arxasına,
Bir siyqəl versənə könül pasına,
Aşiqi məşuqa qurban dedilər.

Mirzalı xan dedi:

– Ay oğul, bir əməlli bizə başa sal, görək nə deyirsən? Biz sənin sözündən heç zad başa düşmürük.

Qurbani atasının cavabında dedi:

– Dədə, qulaq as, bir ağız da deyim, bəlkə başa düşəsən.

Aldı Qurbani:

Bir kimsənə gəldi mənim üstümə,
Yazılı şəninə yə minəl-əta!
İmam ola, damad-Əhmədi-Mürsəl,
Doldurub camini eylədi əta.

Tərəhhüm eylədi abi-kövsərdən,
Onunçun keçmişəm can ilə sərdən,
İstədim mətləbim payi-Qənbərdən
Kəramət eylədi mənə bir buta.

Eşq əlindən namus-arım qalmadı,
Nə bir səbrim, nə qərarım qalmadı,
Qurbaniyəm, ixtiyarım qalmadı,
Dönmüşəm kamana, qəddimdi düta.

Mirzalı xan dedi:

– Hə, oğul, indi başa düşdüm. Sənə buta veriblər. Ancaq de görüm, butanı sənə harada veriblər və sən haraya gedəcəksən?

Qurbani dedi:

– Dədə, mən Gəncə şəhərinə gedəcəyəm. Gəncəli Ziyad xanın qızı Pəri xanımı mənə buta veriblər.

Mirzalı xan dedi:

– Oğul, səni heç bir yana buraxmaram gedəsən. Gedək, əmin Hüseynalı xanın öküzlərinin cəriməsini ver, sonra danışarıq.

Qurbani razı oldu. Hər ikisi Hüseynalı xanın evinə getdilər. Hüseynalı xan baxdı ki, Qurbani o Qurbani deyil. Bunun həm kamalı, həm də gözəlliyi qat-qat artıb. Özü də çiynində bir saz var.

Mirzalı xan ağlayıb dedi:

– Sənin qolların sınsın, qardaş! Səni heç səxavət sahibi olmayasan! Sən öküzləri verdin, bu apardı, ondan bəri bəlayə düşüb, dərd-azarını bilmirəm.

Hüseynalı xan Qurbanidən dərdini soruşdu.

– Əmi, qulaq as! Mən dərdimi dillə desəm, dilim yanar, sazla deyim.

Aldı Qurbani:

Haqqım əmr eylədi, gəldim dünyaya,
Gözüm açdım, mayil oldum o burca.
Arif oldum, haqq kəlamın oxudum,
Əlif qəddim dal yazılmış o burca.

İsmin xəbər aldım, dedi Vəlidi,
Göydə gəzən Cəbrayıldı, Pəridi.
Qapıçısı şahi-Mərdan Əlidi,
Məhəmməd meraca gedər o burca.

Qurbani der, arayıban tapmışam,
Qırxlar məclisindən bir pay qapmışam.
Kəbədəsə mən də birin yapmışam,
Min könüldən bir yol gedər o burca.

Mirzalı xan dedi:

– Qardaş, öküzlərini öldürüb. Onu heç hara buraxma getsin. Deyir, bilmirəm, yuxuda mənə badə içirdiblər, buta veriblər, gedəcəyəm butamın dalınca.

Hüseynalı xan üzünü Qurbaniyə tutub dedi:

– Oğul, de görək o nə butadı? Nə badədi?

Qurbani dedi:

– Əmi, bu saat deyim.

Qurbani sözı kökləyib, basdı sinəsinə, aldı görək nə dedi:

Könül qalxdı Bərdə sarı yeridi,
Orda bir şəhər var, adı Gəncə, hey...
Gözəlləri, məhbubları, xubları,
Xub batıblar mala, mülkə, gəncə, hey...

Qurbani bu bəndi qurtaran kimi atası bir odun parçası götürüb basdı döşünə, dedi:

– İndi ki, belə oldu, qoy bir neçəsini də mən deyim.

Aldı Mirzalı xan:

Başına döndüyüm gül üzlü oğul,
Dərd çəkməyə heç kim olmaz məncə, hey!
Gözəl sevib, abdal olub çaşıbsan,
Tayın yoxdu soltanca, hey, xanca, hey!

Aldı Qurbani:

Qarıncalar yuvasını qayırdı,
Gözəl kəklik balarını doyurdu,
Fələk vurdu gözü yaşlı ayırdı,
Aram düşüb nazlı yardan gencə, hey!

Aldı Mirzalı xan:

Yatmaq üçun gözlərinin xabı var,
Dərd çəkməyə mən yazığın tabı var,
Hər adamın tayı, tuşu, babı var,
Tutmaq olmaz hər yetənlə pəncə, hey!

Aldı Qurbani:

Qurbani der, vüsalına ermədim,
Əl uzadıb qönçə gülün dərmədim,
İran gəzdim, Turan gəzdim görmədim,
Gözəllikdə, məhbubluqda onca, hey!

Aldı Mirzalı xan:

Mirzalıyam, əldən getdi varımız,
Kimlər çəkər namus-arımız,
Çünki olduq xeyrə, şərə yarı biz,
Gəlsən bölə borcu sənnən təncə, hey!

Camaat hamısı Mirzalı xana minnət-sünnət eyləyib dedilər:

– Əşi, Qurbani haqq aşağı olub. Qoy məşuqunun dalınca varsın getsin. Ümid var Pəri xanımı götürüb qayıdar.

Hüseynalı xan dedi:

– Qardaş, Qurbani ilə işin olmasın. Qoy getsin, inşallah, genə salamat qayıdar. Başından bir tük əskik olsa, mən zamın.

Mirzalı xan oğlunun üzündən-gözündən öpüb ağlaya-ağlaya dedi:

– Oğlum, gəl bu daşı ətəyindən tök, məni başı kəsik qoyub getmə.

Qurbani başını bulayıb, sazı sinəsinə basdı, aldı görək atasına nə cavab verdi:

Ey ata, can gedib, qalıbdı nəfəs,
Bu nişanda belə yarı görmüşəm,
Bunca ki, gözəli tapmadı könül,
Ah çəkibən, intizarı görmüşəm.

Gözəllikdə kimsə yoxdu təhrində,
Onunçün çəkirəm yarın qəhrin də,
Nə İran, nə Turan, Gəncə şəhərində
Canlar alan o nigarı görmüşəm.

Ay ata, sən məni etmə günahkar,
Bəsdi bunca nə elərsən ahü-zar?
Qurbani der, əldən gedir ixtiyar,
Xublar şahı o sərdarı görmüşəm.

– Mirzalı xan çar-naçar razı oldu. Qurbani camaatla, atası ilə, qohum qardaşı ilə, əmisi ilə əltəmən edib ayrıldı, Gəncə şəhərinə tərəf getməyin binasını qoydu. Az getdi, üz getdi, dərə təpə düz getdi, yolda Saleh sövdəyər adında bir adama rast gəldi. Saleh sövdəyər ondan soruşdu: - Oğul,

haradan gəlib, haraya gedirsən? Qurbani dedi: - Əmi, kandan gəlib, məkana gedirəm. Saleh sövdəyar soruşdu: - Sən bir tikə uşaqsan. Nə bilirsən, kan dədi, məkan nədi!!! Qurbani ona dedi: - Əmi, kan bu dünyadı, məkan o dünya! Saleh sövdəyar dedi: - Sən bu səfərindən məni hali elə, görüm, hara gedirsən? Qurbani aldı, görək ona nə cavab verdi:

Əvvəl başdan yerim bimәkan oldu,
Görünür gözümə haralar mənim.
Əyyub kimi sinəm şanbaşan oldu,
Görünür gözümə yaralar mənim.

İslam olan məzhəbimiz şərifdi,
Dərdli olan bu odları görübdü,
Ala gözlü bir dilbərim gedibdi,
Şahi-Mərdan gəlsə çaralar mənim.

Əvvəl başdan qara gəlibdi yazı,
Kimdi olsun bu dünyadan irazı?!
Məhəmməddən bizə qalıbdı yazı,
Qurbaniyəm, işim aralar mənim.

Saleh sövdəyərin buna çox yazığı gəlib dedi:

– Oğul, mən istəyirəm səni bu yoldan qaytaram. Sənin kimi ağıllı, kamallı oğlanın bu qorxulu yola ketməyi yaxşı deyil. Məgər bir adam olmadı ki, səni buraxmaya? Sən gəl bu daşı ətəyindən tök, bu yoldan qayıt. Get, öz yerinə birinin qızını al. Nə çox gözəl. Gəncə hara, bura hara? Yoldaca itib öləcəksən. Mənim sözümə baxsan ziyan çəkməzsən, gözəllərdən birini seçib alarsan.

Qurbani ona cavab verdi:

– Əmi, üz vurma! Mən qayıda bilməyəcəm.

Səleh sövdəyər kördü ki, oğlan qayıtmayacaq, ona bir kağız yazıb verdi, dedi:

– Arazın qırağındakı ev mənim əmim oğlunun evidi. Adamları Arazdan o taya keçirir. Al bu kağızı, ona ver, sənə kömək elər.

Qurbani ondan kağızı aldı, xudahafizləşib özünü yetirdi Arazın qırağına, Mustafa adlı bir adamın yanına. Saleh sövdəyərin verdiyi kağızı ona verdi. Mustafa baxdı ki, bu elə bir oğlandı ki, qüdrətin qələmi cuşa gələndə əvvəl qələmini buna çalıb. Məgər bunun yiyəsi yoxmuş, nə imiş ki, belə gözəl uşağı çöllərə buraxıb. Dünyanın altında mənim gözümün ağı-qarası bircə qızım var, kaş onu alaydı, başqa yerə getməyəydi.

Qurbani dedi:

– Əmi, mən tələsirəm. Məni tez Arazdan o tərəfə keçir, uzaq səfərim var.

Görək Mustafa ondan nə cür əhvalpürsən olur, Qurbani nə cür cavab verir.

Aldı Mustafa:

Cavan oğlan, nə məkandan gəlirsən?
Səbəb nədi, de, düşmüsən çölə sən?
Gözəl sevib, abdal olub çaşmısan,
Mən baxıram, nabələdsən yola sən.

Aldı Qurbani:

Başına döndüyüm, ay pirü qoca!
Bir pəri səlıbdı, çöllərə məni,
Nə günüm gündüzdü, nə gecəm gecə.
Bir pəri salıbdı çöllərə məni.

Aldı Mustafa:

Mal istəsən dövlətim var, varım var,
Namusum var, qeyrətim var, arım var.
Oğul olsan, gözüm üstə yerin var.
Bir qızım var, ona həmdən olasan.

Aldı Qurbani:

Xəbər alsan, budu sözümün düzü,
Sızıldayır yaram, səpmə gəl duzu.
Cavad xan bacısı, Ziyad xan qızı,
O pəri salıbdı çöllərə məni.

Aldı Mustafa:

Mustafa bil, ilqarında bütündü,
Yeri oğul, mənzilinə yet indi,
Axtarıb Pərini tapmaq çətindi,
Duam budu: sevdiciyin alasan.

Aldı Qurbani:

Qurbaninin dərdi olub ziyada,
Allahı çağırram, yetişər dada,
Bir gözəl seçmişəm fani dünyada.
O pəri salıbdı çöllərə məni.

Mustafa baxdı ki, Qurbaninin butası var. O, haqq aşığıdı. Onu yoldan qaytarmaq olmaz. Ona xeyir-dua verdi, kömək edib Arazdan keçirdi, yola saldı.

Qurbani günə bir mənzil gedib tainki gəlib Bərdə şəhərinə yetişdi. Şəhərin ucqarı ilə gedəndə o, birdən toy səsi eşitdi. Düz toy olan yerə getdi. Burada toy məclisi keçirən Aşıq Saleh adlı bir adam idi. Adamlar Qurbaninin əlində saz görüb yuxarı başa dəvət elədilər. Bu, aşıq Salehə ağır gəldi. İstədi Qurbanini qovsun, camaat yerbəyerdən dedi:

– Xeyr, aşığı qovmaq olmaz. Qoy o da oxusun.

Aşıq Saleh dedi:

– Dərya olan yerdə qətrə nə qələt elər? O mənim qabağımda nə deyəcək? İndi oğuldu, dediyim sözə cavab versin.

Aldı Aşıq Saleh:

Get dolangilən, xamisən hələ,
Püxtə olmağa çox hünər gərək,
Mürği-qafilə həmzəban olub,
Dövrə qalxmağa balü-pər gərək.

Qurbani başını bulayıb güldü, dedi:

– Aşıq, qabağındakını uşaq hesab eləmə! İndi qulaq as gör, mən nə deyirəm. Səni saz dilləndirir. Sən sazı dilləndirmirsən.

Aldı Qurbani:

Dost bizi buyurdu xidmət şərifə,
Dedik ki, baş üstə, kafü ləmü kaf!
Fitnə qaşlı, cadu gözlü sevdiyim,
Çoxların eləyib həyyü ləmü kaf.

Aşıq Saleh Qurbaninin bu oxumağının qabağında qaldı gözlərini döyə-döyə. Camaat yerbəyerdən qışqırdı:

– Aşıq deyən yaxşıdı. Aşıq, dalın de gəlsin!

Aldı Qurbani:

Sidqi dürüst olan yetişər haca,
Kimsə də kimsəyə etməz iltica,
Peyğəmbər ki, qədəm basdı, meraca,
Pişvazinə gəldi mimü lamü kaf.

Mehdi görər qoşununun sanını,
İnsan üçün qurar haqq mizanını,
Bir gün alar Qurbaninin canını,
Bir gözləri cəllad kafü lamü kaf.

Aşıq Saleh ömründə belə sözlər eşitməmişdi. Çölə çıxmaq bəhanəsilə adamların dal tərəfindən yayınıb, başmağının bir tayını da qoyub, bayaq məclisi buraxıb qaçdı.

Hay-küy düşdü. Dedilər.

– Aşıq, xahiş edirik, bir neçə söz də deyəsən.

Qurbani həzaratın sözünü sındırmadı. Sazı döşünə basıb aldı görək nə dedi:

İbtida eyləyib girdim meydana,
Aşıqlar ustadı, görün, handadı?
Pünhani dərdlərim çoxdu canımda,
Dürr-gövhərlərim hələ kandadı.

Nazlı yar əlindən sinəsi dağam,
Sürəyya tək yatmamışam, oyağam,
Şahindən ayığam, qazdan sayığam,
Dü çeşmim gözləyir, sübhü dandadı.

Mənə badə verib həzrəti Əli,
O nə ki, buyurub demişəm: - Bəli,
Qurbaninin fikri, zikri, xəyalı,
Axır ki, mətləbi Pəri xandadı.

Qurbanini o gecə saxlayıb, çox hörmət elədilər. Səhər açıldı. Qurbani camaatla xudafizləşib buradan yola düşdü, ta ki, gəlib bir bostana çıxdı. Bostançıdan bir yemiş aldı. Oturub yemişi yedi. İstədi durub getsin, bostançı dedi:

– Oğul, gəl mənə oğul ol, burada bostan, bağ becərib dolanaq. Aşıqlıqdan nə qazanacaqsan ki, sazı çiyninə salıb kəndbəkənd gəzirsən?

Qurbani başını bulayıb dedi:

– Əmi, mən kəndbəkənd gəzən aşıqlardan deyiləm. Mənimki başqadı. Qulaq as, bir neçə söz deyim, onda bilərsən.

Qurbani sazı sinəsinə basıb aldı görək nə dedi:

Başına döndüyüm, ay Pərizadə,
Can içində cana vermərəm səni,
Neynərəm bostanı, neynərəm bağı,
Yüz bağü bostana vermərəm səni.

Dağlarda maralsan, çöllərdə ceyran,
Ordubad, Naxçıvan boyuna heyran,
Tamaşaya gələr cəmi Gülüstan,
Küllü Dağıstana vermərəm səni.

Qurbani der, can içində can gələ,
Yaş yerinə gözlərimdən qan gələ,
Camalın görməyə Suleyman gələ,
Təxti-Suleymana vermərəm səni.

Bostançı bunu belə görüb dedi:

– Sən eşqdən, qızdan, gözəldən danışırsan. Səndən mənə oğul olmaz. Get allah-taala işinə fərəc versin!

Qurbani bostançı ilə xudafizləşib oradan keçdi. Mənzil aldı, daban bərkitdi, ta ki, gəlib Gəncə yaxılığında Şeyxin qəbrini ziyarət elədi. Üzünü Şeyxin qəbir daşına sürtdü. Sonra Şeyxin günbəzində oturub bir az dincəlmək istədi. Bir də gördü ki, budu, üç dərviş peyda oldu. Dərvişlər gəlib Qurbaniyə salam verdilər, əleyk alıb əyləşdilər. Qurbanidən xəbər aldılar:

– Oğul, haralısan? Haradan gəlib, hara gedirsən?

Qurbani dedi:

– Gəncə şəhərinə kedəcəyəm. Burada Şeyxin qəbrini ziyarət eləyirəm.

Dərvişlər bir-birilə himləşdilər ki, biz axşama kimi boğazımızı yırtırıq, beş şahı qazana bilmirik. Bizə hörmət qoyan yoxdur. Camaat aşıqlara hörmət qoyur, çox pul verir. Gəlin, bunu da özümüzə yoldaş eləyək. Elə ki, gəzdik, dolandıq, qazandıq, sonra başını batırarıq, pulları götürərik. Bunlar bu fikri eləməkdə qalsınlar, sizə xəbər kimdən verim, Pəri xanımın əmisi oğlu Mahmud bəydən.

Mahmud bəy o günü şikara çıxmışdı. Ov gəzə-gəzə gəlib Şeyxin qəbrinin yanına çıxdı. Baxdı ki, Şeyxin qəbrinin üstündə bir dəstə dərviş, içərilərində də bir aşıq var.

Mahmud bəy çox sevindi ki, bunu bir az oxutdurub keyfimizi açarıq. Çünki şəhərdə Qara Vəzir çalıb-çağırmağı qadağan eləmişdi. Elə Mahmud bəy bu fikirdə idi ki, bu tərəfdən dərvişlərdən birisi Qurbaniyə dedi:

– Oğul, gəl sən də bizim oğlumuz ol. Bir yerdə kəndlərə gedək, məclis keçirək, pul qazanaq.

Qurbani dərvişlərin kələyini başa düşüb dedi:

– Baba dərvişlər, sazla bir neçə söz deyim, sonra eybi yoxdur, yoldaş olarıq. Mən də çölçü, siz də çölçü.

Aldı Qurbani:

Fənd eləmə, felli dərviş,
Belə kar eyləmək olmaz,
Yıxıban könül evini,
Mürğü zar eyləmək olmaz.

Mahmud bəy aralıdan qulaq asırdı. Gözlədi ki, görsün aşıq gerisini nə cür deyəcək.

Aldı Qurbani:

Söylə dərdin bilənlərə,
Dərd başına gələnlərə
Hər üzünə gülənlərə
Etibar eyləmək olmaz.

Qurbaniyə gətir məzə,
Dərd üstündə dərdim təzə,
Dərd biləni dərd bilməzə
Giriftar eyləmək olmaz.

Söz tamama yetən kimi Mahmud bəy atını dərvişlərin üstünə sürüb dedi:

– Deyin görüm, bu aşığa nə deyibsiniz ki, o belə oxuyur? Siz aşığa bir söz deməsəniz, üçünüzü də qırmanclayacağam.

Dərvişlər dedilər:

– Vallah, biz heç nə deməmişik.

Mahmud bəy Qurbanidən soruşdu:

– Bu dərvişlərinki qalsın, indi aşıq, sən də de görüm, haralısan, adın nədi?

Qurbani dedi:

– Qaradağlıyam, adım da Qurbanidi.

Mahmud bəy dedi:

– Düzünü de görüm, o dərvişlər sənə nə dedilər ki, sən o sözləri oxudun?

Qurbani dedi:

– Xan sağ olsun, onlar fikirləşdilər ki, məni işlətsinlər, sonra da öldürüb qazandığımı özlərinə götürsünlər.

Mahmud bəy dedi:

– İndi mən onların başına oyun gətirim, sən də tamaşa elə. Bu saat onları atın quyruğuna bağlayıb, bu düzü biyabanda parça-parça edəcəyəm.

Qurbaninin insafı qəbul eləmədi. Onları Mahmud bəyin əlindən alıb dedi:

– Qoy çıxıb varıb getsinlər. Necə deyərlər, yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi.

Bəli, Qurbani dərvişləri Mahmud bəyin qəzəbindən qurtardı. Mahmud bəy dedi:

– İndi, ay aşıq, bir ağız oxu, əgər xoşuma gəlsə, səni öz evimdə saxlayıb, nə mətləbin var, yerinə yetirəcəyəm.

Qurbani sazı döşünə basıb, Mahmud bəyin qulluğunda görək nə dedi:

Yerlə göy yoxkən bir nəzər qıldı,
Əritdi gövhəri, dürr eylədi şah...

Yox yerdən aləmi bərqərar etdi,
Cismini qəndildə nur eylədi şah.

Gətirdi kəlamı cümlə cahana,
Qırxları göstərdi əhli-ürfana.
Peyğəmbər xitabın yetdi dəhana,
Həbibin söhbətin şur eylədi şah.

Dirili Qurbani, götür, din indi!
Boynundadı məhəbbətin kəməndi.
Dərya üstdə oynadırdı səməndi,
Özün Cabrayıla pər eylədi şah.

Mahmud bəy dedi:

– Aşıq, sən çox yaxşı oxuyursan. Özün də çox kamil adama oxşayırsan. Ölüncə mən sənə xidmət eləyəcəyəm. Ancaq mənim Pəri xanım adlı bir əmim qızı var. Gəncə xanı Ziyad xanın qızıdı. Özü də dünya gözəlidir. Gəncədə bir əzazil vəzir var ki, adı Qara Vəzirdi. Bu vəzir Pəri xanımı öz oğluna almaq istəyir. Oğlu da bir axmağın biridi. Amma hamı Qara Vəzirdən qorxur. Onun qorxusundan bir aşıq oxuyanda Pəri adı çəkə bilməz. İndi mən səni evə aparacağam. Ancaq sənlə bir şərt kəsirəm. Mənim evimdə oxuyanda gərək elə şey oxuyasan ki, içərisində Pəri sözü olmaya.

Əgər Pəri adı çəksən, Qara Vəzir səni də öldürər, mənim də nəslimi kəsər.

Qurbani dedi:

– Yaxşı, şərtlərinə əməl elərəm.

Mahmud bəy dedi:

– Mən deyən kimi oxusan, altımdakı kəhər atı da, bir yaxşı saz da sənə verib, səni dünya malından qəni edəcəyəm.

Mahmud bəy Qurbanini evə gətirdi. İndi sizə kimdən xəbər verim, Pəri xanımdan.

Pəri xanım həmin axşam yatıb aləmi-vəyğada gördü ki, butası Qurbani Gəncəyə gəlib. Yuxudan sərsəm ayıldı. Çağırdı başında olan qızları, dedi:

– Qızlar, şəhərə düşün! Bu boyda, bu buxunda bir oğlan şəhərə gəlib. Kim onun yerini öyrənib mənə xəbər gətirsə, boyunbağımı ona verəcəyəm.

Qızlardan Mələksuma adlı biri yaman diribaş idi. Şəhərdə nə olsaydı, o saat bilərdi. O dedi:

– Mən bu saat onun yerini öyrənib sənə deyərəm.

Mələksuma bütün şəhəri gəzdi, Pəri dediyi boyda-buxunda oğlan görə bilmədi. Qız öz-özünə fikirləşdi: "Yaxşı, mən Mələksuma olam, şəhərə bu sifətdə adam gəlsin, mən onu tapmayam? Bu olası iş deyil".

Bu fikir ilə evə gəlirdi. Mahmud bəyin qapısından baxanda gördü ki, Pəri xanım söylədiyi nişanda oğlan budu burdadı. Dedi: "Mənim qıçım sınsın. Mən hər yeri gəzmişəm, niyə buraya girməmişəm?"

Sevinə-sevinə Pəri xanımın yanına gəldi. Pəri xanım onu görən kimi dedi:

– Ay qız, Mələksuma, gözlərimin kökü saraldı, ürəyim partladı, de görüm, nə xəbər gətirmisən?

Mələksuma dedi:

– Xanım, əvvəl-əvvəl müjdəmi ver, sonra deyim. Verməsən, demərəm.

Pəri xanım boyunbağını çıxarıb ona verdi.

Mələksuma gülüb dedi:

– Bunla uşaq aldadırsan?.. Üzüyüm yoxdu, qızıl üzük də ver sonra deyim. Başmağım yoxdu, başmaq ver, sonra deyim. Dədəmə də bir dəst paltar, anama də bir çəpkən al, sonra deyim.

Pəri xanım onun dediklərinin hamısını verdi.

Mələksuma gülə-gülə dedi:

– Xanım, sən dediyin oğlan Mahmud bəyin evindədi. İlahi, o kimin yarı olacaqsa, bəxtəvər onun başına.

Pəri xanım çox sevindi. Axşamı salıb, bir dəstə qızla gedib Mahmud bəyin evinə girdi, elə bu zaman Mahmud bəy üzünü Qurbaniyə tutub dedi:

– Aşıq, başına dönüm, Şeyx günbəzində sənə tapşırdığımı yadından çıxarma, bir neçəsini oxu, ürəyimiz açılsın.

Qurbani sazı götürüb kökləməyə başladı. Pəri xanımın bir dəstə qızla gəlməyi ona əyan olmuşdu. Sazı sinəsinə basıb aldı görək nə dedi:

Ay ariflər, bu dünyanın üzündə
Təzəcə açılan güllər sevinsin!
Başı ağ lələkli, gülgəz yanaqlı,
Telləri dağıdan yellər sevinsin!

Bu vaxt Pərinin üzünə yel dəyib, onun tellərini dağıdırdı. Onun üçün də Qurbani bu sözü deyirdi. Qurbani aldı gerisini:

Gəlsin bahar fəsli, açılsın yazlar,
Göllərə tökülsün ağ quba qazlar,
Bəynişan oğlanlar, şahzadə qızlar,
Onlarla danışan dillər sevinsin!..

Qurbani der: mən yeməərəm narıncı,
Yar yara baxarmı belə zarıncı?
Almanı, heyvanı, narı, turuncu,
Onları oynadan əllər sevinsin!

Mahmud bəy dedi:
– Aşıq, sözlərin ruhumu oxşadı, canıma yatdı. Birini də oxu!
Qurbani "baş üstə!" deyib, aldı sazı:

Bir pərzad görmüşəm sizin ellərdə,
Çün cismü canimin namidarıdı,
Günəş nişanəli, qəmər misallı,
O cahan xubinin cülvədarıdı.

Dost bilsə yarının gəldiyin, neylər?
Yar yolunda qara bağrını teylər,
Nəsihət qəmzənə ver ki, qan eylər,
Gözəllər şuxinin sitəmkarıdı.

Mahmud bəy dedi:
– Aşıq, biz şərt kəsdik ki, Pəri adı tutmayasan.
Pəri xanım kənardan qulaq asırdı. Mahmud bəyin bu sözünü eşidib güldü. Qurbani Pəri xanımın güldüyünü görüb, sazı döşünə basdı, dedi:

Cəbinin təcəlla, camalın günəş,
Kulli şeyün halik - allah deyibdi.
İki qabi-qovsun, qürrətüleyinin,
Bilmirəm qanıma nə susayıbdı.

Təbəssüm eyləyir hərdən nazənin,
Mərifət anlayıb, mənasın bilin,
Ya müşk-ənbərdi siyah kəkilin,
Ya şəbi-yeldadı, ya rəqayibdi.

Elmin mədənisən, kərəmin kanı,
Sənsən bu dünyanın dəri-imanı;
Qurbani, bəsdi, sən həddini tanı,
Mələyik üzünə durma, ayıbdı!

Qurbani oxumağın qurtaran kimi, Pəri xanım gedib lap pəncərənin qabağında dayandı. Qurbani dövran sürürdü, saz döşündə oynayırdı. Gözünü çevirib gördü ki, Pəri xanım pəncərinin lap qabağına gəlib. Qurbani onu görcək, ürəyi cuşa gəldi, sazı sinəsinə basıb aldı görək nə dedi:

Gecə-gündüz vaxtı-bivaxt ağlaram,
Çeşmim yaşı ceyhun olur, sellənir,
Yaz mövsimi bülbül dil-dil ötəndə,
Bağ-bağçalar nərgizlənir, güllənir.

Qayıtmaq istəməz gözüm gözəldən,
Qayıtsa artırar dərdim təzəldən,
Ellərdə qaydadı ruzi-əzəldən,
Gözəllərin şamaması əllənir.

Mərd odu ki, işin tuta mərdilən,
Ər istəsən, keç namərddən, ər dilən,
Rəmz anlayan, söz düşünən, dərd bilən,
Aləmlərdə şöhrətlənir, bəllənir.

Könlüm tələb edib, axtarar yarın,
Xalq içrə zay eylər namusun, arın,
Yar yarına gündə olsa məqarun,
Gönülü şad olur, ruhu tellənir.

Qurbaniyəm, dərd çəkmişəm nəhanlar,
Xəyalım sevməkdi pəritək cananlar,
Yanaşsa üzünə müştaq dəhanlar.
Nəfəs dəyər, cığaları yellənir.

Dövran qurtardı. Pəri xanım da qayıdıb evlərinə getdi, qızlara dedi:

– Qızlar, muradımı aldım. Allah sizi də muradınıza yetirsin. Qurbaninin üzünü gördüm.

O biri tərəfdən Mahmud bəy də Qurbaniyə dedi:

– Qurbani, axı mən sənə demişdim ki, Pəri adı tutmayasan. Sən genə də şərti pozub, Pəri adı tutdun.

Qurbani dedi:

– Ay Mahmud bəy, vallah, sözün qafiyəsi gəlmədi. Onun üçün qafiyə yerinə dilim dolaşdı, bir pəri sözü işlətdim. Məni bağışla, ta demərəm. Amma burası var ki, mən dediyim pəri göydəki pərilərdəndi.

Bəli, yatdılar, sabah açıldı. Mahmud bəy dedi:

– Aşıq, nə təmənnan varsa, istə.

Qurbani dedi:

– Səndən hcç bir şey istəmirəm. Dünya malı mənə lazım deyil. Ancaq mənə bir adam qoş, gedim sazbənddən bir saz alım.

Mahmud bəy ona bir adam qoşub dedi:

– Apar bunu sazbənd Usta Bədəlin yanına. De ki, buna bir yaxşı saz versin.

Mahmud bəy qoşan adam Qurbanini sazbənd Usta Bədəlin dükanına gətirdi. Salamməleyk, əleykəsalamdan sonra Qurbani ona dedi:

– Usta, mənə elə bir saz ver ki, öz-özünə süxənvərlik eləsin.

Ustanın buna acığı tutub dedi:

– Yox, sənə bir saz verim ki, gedib özü pul qazansın, gətirib səni də saxlasın. Bu bir tikə uşağın danışdığı sözə bax.

Qurbani dedi:

– Usta, niyə acığın tutur? Bax, o asılan sazı istəyirəm.

Usta qəzəblənib dedi:

– Dədə Yediyar kimi usta aşıq o sazı çala bilmir, indi sən çalacaqsan? Get, hələ ağzının qatığını sil!

Qurbani dedi:

– Sən o sazı mana ver, gerisi ilə işin yoxdu.

Usta Bədəl sazı alıb acığlı-acığlı Qurbaniyə verib dedi:

– Al, əgər sazı dindirə bilsən, pulsuz sənə bağışlaram, dindirə bilməsən, vay sənin gününə!

Qurbani sazı alıb döşünə, zilini zil, bəmini bəm eylədi, saz süxənvərlik eləməyə başladı. Usta Bədəl bunu görəndə lap heyran qalıb dedi:

– Oğul, o sazı sənə bağışladım. Əhsən sənin fərasətinə. Amma götür, kirimişcə buradan get. Yoxsa Dədə Yediyar eşidər, aşına zəhər qatar.

Qurbani dedi:

– Yox usta, anam məni elə öyrətməyib. Sazı kirimişcə apara bilməyəcəyəm. Bir neçə bənd sənin üçün oxuyacağam, sonra aparacağam.

Usta Bədəl, nə qədər elədisə, Qurbani razı olmadı. Götürdü sazı, ustaya görək nə dedi:

Usta, bir qız sevdim sizin diyarda,
Cəmi gözəllərin o sərdarıdı,
Maşallah, aydı, həm gündü şöləsi,
Mömin kimsələrin səbəbkarıdı.

Usta Bədəl dedi:

– Oxumağına yaxşı oxuyursan, amma birdən huri-pəri adı çəkib mənim evimi yıxarsan ha!.. Sən allah, o adı çəkəcəksənə oxuma, kirimişcə get!

Qurbani dedi:

– Qorxma, mən pəri adı çəkməyəcəyəm.

Aldı Qurbani gerisini:

Canan bilsə gəldiyimi, can eylər,
Canın dost yolunda ərməğan eylər,
Qaşı cəllad, qəmzələri qan eylər,
Mələklər şahinin sitəmkarıdı.

Mənim dərsim əlifdədi, beydədi,
Bir gözəl sevmişəm, cana faydadı,
Desələr: Qurbani, bu nə sevdadı?
Söylə: bir Pərinin yadigarıdı.

Usta Pəri adını eşidən kimi dəxilin dalından çıxıb, Qurbanini itələyə-itələyə bayıra çıxartdı ki:

– Ay qardaş, məni qana calamaq istəyirsən? Mənlə qardaş ki, olmayacaqsan? Yeri get. Bir bölük colma-cocuğum var, başımı kəsdirib düzlərdə qoyarsan.

Qurbani birtəhər qapının yanında dayanıb dedi:

– Usta, qorxma, heç zad olmaz, qoy axırını da deyim, sonra gedim.

Usta nə qədər elədisə, Qurbanini sakit eləyə bilmədi. Sazı döşünə basıb dedi:

Bir Pəri sevmişəm, sizin ellidi.
Gözəlliyi hamılara bəllidi,
Şux göz, mina gərdən, incə bellidi
Gecə, gündüz işim ahü zarıdı.

Əcayib gözəldi, nə xoş dilbərdi,
Camalına cümlə aləm əfzəldi,
Ağzında dişləri ləlü gövhərdi,
Sinəsi dağların təzə qarıdı.

Qurbani der: zülfün ucu xəyətdi,
Qurandakı qulhuvəllah əhətdi,
Desələr sərində bu nə halətdi?
De ki, bir Pərinin yadigarıdı.

Usta Bədəl qışqırdı ki:

– Ay aman, bunun ağzından qan iyi gəlir. Bu saat mənim balalarımın başını kəsdirəcək. Mən gedirəm, dükanı da verirəm sənə. Sən ol, dükan olsun, istəyirsən axşama kimi oxu.

Usta Bədəl tələm-tələsik çıxıb getdi. Mahmud bəy qoşduğu adam da nə qədər yalvardı ki: "Qurbani, gəl gedək evə" – Qurbani razı olmayıb dedi:

– Yox mən evə getməyəcəyəm. Mən şəhərin arasına çıxacağam.

Gəncə şəhərində bir daş mehmanxana vardı. Kənardan gələn qəriblər, yersiz adamlar hamısı daş mehmanxananın çayçısında olardı. Qurbani şəhərin arsına çıxıb bir adamdan soruşdu:

– Qəriblər bu şəhərə gələndə harada qalırlar?

O adam daş mehmanxananı ona nişan verib dedi:

– Bax, o mehmanxanada qalırlar, get ora. Bu adam da birbaş qaçıb Dədə Yediyara xəbər verdi ki:

– Aşıq, nə durubsan? Bəs şəhərə bir cavan aşıq gəlibdi, daş mehmanxananın çayçısında gəlib-gedənə meydan oxuyur.

Dədə Yediyar dedi:

– O necə aşıqdı ki, bizim şəhərə gəlib. Onunla meydana girəcəyəm. Özünü da bağlayıb sazını əlindən alacağam.

Dədə Yediyar bayaq özünü saldı daş mehmanxanaya. Camaat hamı yığışmışdı Qurbaninin başına. Pəri xanım da qızları çəkib bir kənarda da-

yanmışdı. Dədə Yediyarı görən kimi bir kağız ona yolladı ki: "Nccə ki, sağsan, dolanacağını mən verəcəyəm. Sən Qurbanini sındırma. Onunla işin olmasın".

Dədə Yediyar başını bulayıb dedi:

– Belə şeylər mənim başıma girməz. Mən Dədə Yediyaram. Hər yetən çiyninə saz alıb, mənim yerimdə aşıqlıq eləyə bilməz. O ki bura gəlib, iki qoçun başı bir qazanda qaynamaz. Ya bu şəhərdə o aşıqlıq eləməlidi, ya mən.

Dədə Yediyar meydana girib, Qurbanini öz çənginə dəvət elədi. Qurbani onun qənşərinə gəlib dedi:

– Ağsaqqal aşıqsan, məni cavan görüb deyişmə. Hörmətini saxla, bağlanarsan pərt düşərsən.

Dədə Yediyar acıqla dedi:

– Ədə, sən nəsən ki, məni də bağlayasan. Bu saat bircə kəlmə ilə boğazını qurudub sazını əlindən alacağam. Buna bax, yad ölkədən basa-basa gəlib, burada meydan sulayır.

Qurbani dedi:

– Yaxşı, de gəlsin, cücəni payızda sayarlar.

Ustadlar deyirlər ki, bu məclisdə Dədə Yediyar Qurbaniyə üç qatar lap o çətin püxtə sözlərdən dedi. Bu sözlər elə sözlər idi ki, hələ heç kəs açа bilməmişdi. Biri peyğəmbərdən, biri immamətdən, biri də nəmruddan, şəddan idi.

Dədə Yediyar bəzən heç özü də bu qıfılbəndələri açа bilmirdi. O bunları öz ustadından öyrənib, sinədəftər eləmişdi. Hər yerdə ki, çətinliyə düşdü, bu üç qatarı dalbadal deyib bağlardı, sazını əlindən alıb yola salardı. Odu ki, indi də bu sözləri Qurbaniyə dedi. Qurbani sözlərin üçünün də mənasını, məxrəcini açdı. Dədə Yediyar da, qulaq asanlar da mat-məhəttəl qaldılar. Yerbəyerdən ona "afərin!" dedilər. Qurbani sazın zilini zil, bəmini bəm eləyib basdı döşünə, təzanəni simlərə çəkib elə bir qıfılbənd dedi ki, Dədə Yediyar qaldı gözlərini döyə-döyə. İş bu yerə çatanda Qurbani irəli yeriyib Dədə Yediyara dedi:

– Usta, mənim sənинlə işim yoxdu. Sən özün elədin. Mən heç vaxt sənin kimi ağsaqqalın qabağında saz götürüb meydana çıxmazdım. Məni bağışla. Usta elə genə də sənsən. İzin versən, mən də özümü sənə şagird billəm.

Dədə Yediyar onun alnından öpüb, dönə-dönə alqışlamaqda olsun, indi sizə xəbər verim Qara Vəzirdən.

Qurbaninin gəlib Dədə Yediyarı bağlamağı Qara Vəzirə xəbər verildi. Qara Vəzir çox qəzəblənib dedi;

– Boğazından asdıracağam. Onun nə həddi var ki, gəlib mənim şəhərimdə tüğyan eləyir. Dədə Yediyar kimi usta aşığı el içində xar eləyir.

Qara Vəzir əmr elədi, Qurbanini tutub zindana saldılar. Qurbani zindana qalmaqda olsun, eşit Pəri xanımdan.

Pəri xanım Qurbaninin zindana salınması xəbərini eşitdi. Gözlərinin yaşı ab-leysan kimi qırmızı yanaqları aşağı axmağa başladı. Baş kəniz Şahi Xubanı çağırıb dedi:

– Get, girəvələ, birtəhər zindanbana pul ver. Qurbanini zindandan çıxart. Hatəm bağçasına gətir. Mirvari boyunbağımı, almaz üzüyümü sənə verəcəyəm.

Şahi Xuban o saat zindanbanın yanına gəldi. Zindanbana bir-iki qızıl verdi. Qızılı görən kimi zindanbanın gözləri işıqlandı. Qurbanini zindandan çıxarıb Şahi Xubana verdi. Şahi Xuban onu bir gizli yerdə pünhan eləyib dedi:

– Mən Pəri xanımın xas kəniziyəm. Sən hələlik burada otur, axşam düşən kimi Hatəm bağçasına gələrsən. Pəri xanım səni Hatəm bağçasında gözləyəcək.

Qurbani bunu eşidib sazı götürdü, aldı görək Şahi Xubannan Pəri xanıma necə sifariş göndərdi:

Şahi Xuban, mənim ərzi-halımı,
Əlbət-əlbət nazlı yara deyərsən!
Xəstə düşdüm, qaldım onun kuyində.
Üzü dönmüş sitəmkara deyərsən!

Səni o görcəyin əlbət dindirdi,
Aşıq məşuqunu oda yandırdı,
Dərdim anbar-anbar, dərmanım birdi,
Mən qalmışam nə avara deyərsən!

Qazanmadıq bu dünyanın malını,
Geyinmədik yaşılını, alını,
Dirili Qurbaninin ərzi-halını,
Yalvara-yalvara yara deyərsən!

Sözünü Qurbani dillə də dedi:

– Şahi Xuban, sən get! Axşamdan bir saat geçəndən sonra Hatəm bağçasına Pəri xanımın hüzuruna özüm gələcəyəm.

Şahi Xuban gəlib Qurbanini qurtarmağını Pəri xanıma söylədi və onun sifarişini dedi. Pəri xanım çox şad olub axşamı gözlədi.

Bəli, Qurbani axşamı saldı, durub yavaşca üz qoydu Hatəm bağçasına. Ta ki yaxınlaşıb gördü ki, bağın darvazası bağlıdı. Başladı bağın dörd tərəfini gəzməyə. Heç bir yandan yol tapmadı. Bir qədər də hərlənib, bir su kulufu tapdı. Naəlac qalıb başladı su kulufu ilə içəri girməyə. Qəzadan bağa bir tülkü dadanmışdı. Ona görə də bağban gətirib haman kulufun ağzında tələ qurmuşdu. Qurbani istədi su kulufundan başını çıxartsın, birdən başı keçdi tülkü tələsinə. Çalışıb birtəhər başını tələdən çıxartdı, girdi bağa. Özünü yetirdi hovuzun başına. Əl-üzünü yudu. O tərəf bu tərəfə

baxdı. Pəri xanımı görmədi. Hovuzun yuxarı başında bir sərv ağacı var idi, onun dibində oturdu. Çox qəmləndi. Sazı sinəsinə basıb, gözlərini sim, göz yaşını təzənə eləyib, aldı görək nə dedi:

Qəm əlindən sinə yırtdım, baş açdım.
Hicr əlindən dadü bidad eylədim,
Özüm öz əlimlə yıxdım evimi,
Müddəilər evin abad eylədim.

Toxmü həsrət sinəm üstə əkdirdim,
Gözümün yaşıyla bəhrə yetirdim,
Cəfa çəkdim dərd xirmanı götürdüm,
Onun adın töhmətabad eylədim.

Gözlərimdən zərrə-zərrə yaş kəsdim,
Yar yolunda üz döşədim, baş kəsdim,
Şirin sevdim, Fərhad kimi daş kəsdim,
Onu Bisütunda abad eylədim.

Mələklər yığılmış sabü-solumda,
Fələk məni qoymuş min dərd əlində,
Qurbani der, bivəfa yar yolunda,
Heyif, cavan ömrüm, bərbad eylədim!

Qurbani sözünü tamama yetirib yuxuya getdi. O, biri tərəfdən Pəri xanım bağa gəldi. Hər tərəfi gəzdi, Qurbanini tapmadı. Yorulub o da bir ağacın dibində oturdu. Qarabaş gəldi hovuzun kənarına. Elə su doldurmaq istəyəndə baxdı ki, suda bir adam şəkli var. Qayıdıb yuxarı baxanda, gördü sərv ağacının dibində bir oğlan yatıb, elə bil on dörd gecəlik aydı, bulud altından çıxıb. Özünü itirib, qabı boş götürdü. Pəri xanımın yanına qayıtdı. Pəri xanım qabı alanda gördü boşdu. Acığı tutub dedi:

– Çəpəl, mən səni suya göndərmişdim, bəs suyun hanı? Qabı boş gətirmisən?

Qarabaş cavab verdi:

– Xanım, acığın tutmasın. Əgər mən görəni sən görsəydin, özün də bura gəlib çıxmazdın.

Pəri xanım soruşdu:

– Nə gördün?

Qız cavab verdi:

– Hovuzun başında, sərv ağacının dibində bir oğlan yatıb, elə bil Yusifdi, Kənandan gəlib.

Pəri bu sözü eşitcək qarabaşı də götürüb gəldi hovuzun başına. Gördü öz sevgilisi Qurbanidi burada yatıb. Pəri xanım on iki hörük saçlarından bir tel ayırıb, aldı görək nə dedi:

Şirin yuxusuna qurban olduğum,
Sərasim et, mehribanım, ay oğlan!
Bu həsrət gözlərim baxsın gözünə,
Təzələnsin din, imanım, ay oğlan!

Gənardan baxmaqla doya bilmirəm,
Üzüm üzün üstə qoya bilmirəm,
Xuban yanımdadı, deyə bilmirəm.
Aç gözünü, çıxdı canım, ay oğlan!

Artırma gönlümün dərdi-sərini,
Yaxşı var, yaman var, burda görünü,
Başına dolandır məzlum Pərini,
Aç gözünü, yox təvanım, ay oğlan!

Qurbani Pəri xanımın sözlərinə yuxudan ayıldı. Gözlərini açıb Pəri xanımı başının üstündə gördü. Yerdən qalxıb sazı sinəsinə basıb, aldı görək nə dedi:

Bu gün nə xoş gündü, nə xoş saatdı,
Qədəm basdın Pəri xanım, xoş gəldin!
Ləblərin aşiqə abi-həyatdı,
Təzələdin ruh-rəvanım, xoş gəldin!

Gözlərin nərgizdi, hüsnün mahtaban,
Açılıb gül, süsən, sünbül, ərğəvan,
Zanbağı, yasəmən, bərgi-ireyhan,
Fəsli-bahar gülüstanım, xoş gəldin!

Şad elədin Qurbaninin didarın,
Həsrətin çəkirdim sən kimi yarın,
Saldın bağa küllü cəmi dostların,
Gözəllər şahvarı canım, xoş gəldin!

Qurbani baxıb gördü ki, Pəri xanım saçlarını darayıb, bahar buludu kimi üzünə töküb. Onu görəndə eşqi cuşa gəldi, aldı görək onun tellərini nə cür tərifləndi:

Gündüzün mehridi, gecənin mahi,
Qüdrət üçün sirri-ilahi zülfün,
Ucun tutan gedər həşri-behiştə,
Mömünlərin püştü pənahı zülfün.

Şəmsi mat elədi camalın şoqi,
Dəridə qalmadı qəmərin zövqi,

Katibin ərşi ki, cənnətin fövqi,
Nurdan sənə çəkmiş külahi zülfün.

Qurbani der: gözüm, yuxudan oyan,
O min bir adı etginən bəyan,
Sərasər yazılıb ayeyi-Quran,
Katiblər şərh edər, ənahi-zülfün.

Pəri xanım davam gətirə bilməyib, aldı görək öz dərdini yarına nə dillə izhar elədi:

Altı yol gəlmişdim, bununla yeddi,
Öldüm bu bağçanı gəzə-gəzə mən,
Dedim: yar sevmişdim, unutdu, getdi,
Öldüm bu bağçanı gəzə-gəzə mən.

Gözüm doymaz sənin kimi canandan,
Cananın itirən tez olar candan,
İnanmırsan soruş Şahi Xubandan,
Öldüm bu bağçanı gəzə-gəzə mən.

Pəri sənə qurban, Dirili Qurban,
Yolunda fədadı bu baş ilə can.
Bir əlimdə fanus, yanımda Xuban
Öldüm bu bağçanı gəzə-gəzə mənö

Aldı Qurbani görək onun cavabına nə dedi:

Şəb-nişin eləyir yola düşmüşəm,
Yar, mənim gəldiyim bilmədinmi sən?
Dərdini çəkməkdən dəli olmuşam,
Yar, mənim gəldiyim bilmədinmi sən?

Mən qurbanam sənin kimi canana,
Olmuşam dərdindən dəli-divana,
Dağılsın otağım, ev ilə xana,
Yar, mənim gəldiyim bilmədinmi sən?

Qurbani deyər: sən sonasan, sona,
Bir zaman görməsəm, yanaram, yana,
Qarabaş göndərdim əhdi-peymana,
Yar, mənim gəldiyim bilmədinmi sən?

Pəri xanım Şahi Xubanı qaravulçu qoydu. Sonra Qurbanini də götürüb mənzilinə gəldi, başladı söhbətə. Tainki sabaha yaxın onları yuxu tutdu. Qol-boyun olub yatdılar.

Bir zaman Pəri xanım oyanıb gördü ki, gün çıxıb hər yeri işıqlandırıb. Tez Qurbanini durğuzub dedi:

– Ay aman, tez ol get, Qara Vəzir bilsə, səni də öldürəcək, məni də.

Qurbani bunu eşitcək gülümsünüb Pəriyə belə cavab verdi:

Ey Salatın, aşıqların sərində,
Sənin zülfün kimi bişitab olmaz,
Camalına, Pəri, müştaq olalı,
Bidar olan gözlərimdə xab olmaz.

Misir şəhri derlər ona varmışam,
Yusif-Kənan sevdasına girmişəm,
Mən fələk ayını göydə görmüşəm,
Yerdə sənin kimi mahitab olmaz.

Qurbani der: budu səndə nəzərim,
Mən səni sevmişəm gül üzlü yarım
Ta sən sağ ol, şirin dilli nigarım,
Mən ölsəm, bu aləm heç xarab olmaz.

Qurbani sözünü qurtaran kimi, Pəri Qurbaninin əlindən yapışıb dedi:

– Qurbani, allahı sevirsən get! Qara Vəzir gəlib görər, səni də öldürər, məni də.

Qurbani dedi:

– Pəri, sən allah qulaq as, bircəsini də deyim, sonra gedim. Qorxma, heç zad olmaz.

Pəri çar-naçar razı oldu. Aldı Qurbani, görək nə dedi:

Səhər bülbülləri nə fəqan eylər,
Düşərsə güzarı çəməndən ayrı,
Səhər-səhər qönçəsindən ayrılan,
Şəqayiqlər gülməz səməndən ayrı.

Yanında dayanan yoldaşların var,
Sirrini saxlayan sirdaşların var,
Sənin elin, günün, qardaşların var,
Mənim kimsənəm yox, yar, səndən ayrı.

Dedim, Pəri, nə elərsən məhpara,
Mənim həsrət gözüm heç uymaz xara,
Bir qətrə yaş tökdün, bir də dübara,
Əqiqdən, yaqutdan, yəməndən ayrı.

Qurbani der: məgər axır zamandı?
Sevgi sevgisindən ayrı yamandı,

Bağrım dəlik-dəlik, sinəm peykandı,
Mənim üzüm gülməz vətəndən ayrı.

Qurbani sözünü qurtarıb, Pəri ilə görüşdü, bina qoydu getməyə. O biri tərəfdən Qara Vəzir durub getdi zindana ki, görsün bu Qurbani deyilən necə aşıqdı. Bütün zindanı axtardılar, dustağı tapa bilmədilər. Vəzir oradan birbaş yügürdü xanın yanına ki, bəs bu gecə Qurbani yox olub.

Ziyad xan bu sözü eşitcək qəzəblənib dedi:

– And olsun allaha, bu kün onu tapdın, canın qurtardı, tapmadın, sənin nəslini yer üzündən kəsəcəyəm.

Qara Vəzirin canına qorxu düşüb dedi:

– Xan sağ olsun, aman ver, harada olsa axtarıb taparam. Qara Vəzir yola düşüb Qurbanini axtarmaqda olsun, sənə xəbər verim Qurbanidən. Qurbani düz birbaş Ziyad xanın yanına getdi. Ziyad xan ondan kim olduğunu soruşdu. Qurbani dedi:

Xan sağ olsun, mən Qurbaniyəm. Zindandan çıxıb, sənin yanına gəlmişəm. Boyun mənim, qılınc sənin!

Ziyad xan qəzəblənib dedi:

– Nə hədlə mənim zindanımdan qaçmısan?! Bu saat səni tikə-tikə doğradacağam! Hələ sənin bu şəhərə gəldiyin bəs deyil, zindandan da qaçırsan? Callad!

Callad hazır olub dedi:

– Xan, mənim üçün nə buyruq?

Ziyad xan dedi:

– Bu aşığın boynunu vur!

Qurbani gördü ölüm ayağıdı, cəllad onu öldürəcək, üzünü Ziyad xana tutub dedi:

– Xan sağ olsun, aman ver bir neçə söz deyim, sonra callad boynumu vursun.

Ziyad xan işarə elədi, cəllad əl saxladı. Aldı Qurbani görək nə dedi:

Başına döndüyüm, ay xanlar xanı,
Gönlümün mətləbin bil, ondan öldür!
Sən ol tanrı, mənə qəzəbnak olma,
Lütf elə, üzümə gül, ondan öldür!

Qəm əhliyəm, dindirmirsən dinmərəm,
Eşq oduna alışmışam, sönmərəm,
Ta ölüncə dediyimdən dönmərəm,
Apar yar qoynuna sal, ondan öldür!

Qurbaniyəm, eşq əlindən büryanam,
Ta ölüncə mən o qıza qurbanam,
Qulluğunda gözü bağlı tərlanam,
Çalış, şikar bəndin al, ondan öldür!

Saraydakılar yerbəyerdən xana yalvarıb dedilər:

– Ədalətli xan, aşığın ah-vəbalı səni tutar, şəhərimiz viran olar. Onu öldürtmə. Azad elə, getsin.

Ziyad xan baxdı ki, doğrudan da, Qurbani öldürülməli oğlan deyil. Özü də çox ağıllı-kamallı aşıqdı. Ona rəhmi gəlib calladı azad elədi, dedi:

– Səni öldürməyib, cavanlığına bağışladım. Get, bir də qatırçının qatırını ürkütmə. Tez, bu saat Gəncədən çıx! Əgər Gəncədə qalsan, səni öldürtdürəcəyəm.

Qurbani ondan razılıq eləyib, saraydan çıxdı, düz Mahmud bəyin evinə gəldi. Mahmud bəy ona çox hörmət-izzət eləyib dedi:

– Qurbani, doğrusunu de görüm, sən bu Gəncə şəhərinə nə mətləbə gəlmisən?

Qurbani dedi:

– Bəy, mən aşiqəm, məşuqumun dalınca gəlmişəm.

Mahmud bəy dedi:

– Kimə aşiqsən? Düzünü de, gizlətmə.

Qurbani dedi:

– Bəy, mən haqq aşiqiyəm. Haqq aşiqi yalan danışmaz. İzin ver, nə mətləbə gəlmişəm, onu sazla deyim.

Mahmud bəy dedi:

– İzindi.

Qurbani sazı döşünə basıb, zilini zil elədi, bəmini bəm, aldı görək nə mətləbə gəldiyini Mahmud bəyə nə cür dedi:

Başına döndüyüm Gəncənin bəyi,
Mətləbimdi, Pəri üçün gəlmişəm.
Buyur cəlladlara töksün qanımı,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Kiçiklərdən xəta, böyükdən əta,
Mərd iyid odu ki, dediyin tuta,
Şahlar şahı mənə veribdi buta,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Heç çıxmadım nazlı yarın köşkünə,
Bulanmadım ənbərinə, müşkünə,
Tərəhhüm eylə mən qərib miskinə,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Qurbani der: diriliyəm, mən diri.
Yolunda qoymuşam, can ilə səri.
Axtardığım yardı, şikarım Pəri,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Mahmud bəy dedi:

– Deməli, sən mənim əmim qızı Pəriyə aşiq olmusan? Bu çox çətin məsələdi. Əmim Pərini sənə verməyəcəkdir. Pəri xanımı Qara Vəzir öz oğluna almaq istəyir. Ancaq sənə bir yol göstərəcəyəm, o yoldan getsən, bəlkə Ziyad xanın sənə rəhmi gələ, qızını verə. Gedib Ziyad xanın qapısında olan elçi daşının üstündə otararsan. Qara Vəzir ilə Ziyad xan bazara gedəndə səni görəcəklər. Əmim Qara Vəziri yanına göndərəcək ki, get gör aşıq nə istəyir. Qara Vəzir gəlib sənə nə desə, yaxın durma. Dünya malına aldanıb, daşın üstündən qalxma. Elə yerində otur ki, otur. Sonra səni əmim çağırıcaq. Onda dərdini əmimə açıb de. Əmim rəhmkar adamdı. Ümidim var ki, haqq aşıqlığına nəzərən, Pərini sənə versin.

Qurbani, Mahmud bəy dediyi kimi, gəldi Ziyad xanın elçi daşının üstündə oturdu. Sabah ertəsi Ziyad xan gördü ki, elçi daşının üstündə bir aşıq oturub. Üzünü Qara Vəzirə tutub dedi:

– Qara Vəzir, get gör o, aşıq nə istəyir. Pul-para istəyirsə ver, yola sal getsin.

Qara Vəzir ikiqat olub, Qurbaninin yanına gəldi. Qara Vəzir Qurbanini görməmişdi, odu ki, onu tanımadı. Qurbanidən soruşdu:

– Aşıq, nə istəyirsən? Nə mətləbə elçi daşının üstündə oturmusan? Pul istəyirsən, pul verim. Mal istəyirsən, mal verim, ancaq dur burdan get!

Qurbani dedi:

– İstəyim-zadım yoxdu. Elə belə oturmuşam. Buradan da heç yerə getməyəcəyəm.

Qara Vəzir hər nə dedi, Qurbani razı olmayıb, elə "xeyr" dedi. Axırda acığı tutub dedi:

– Sənin xeyir günün olmasın, bəs sən burda niyə oturmusan ki, heç şey də istəmirsən? İndi ki, belədi, lap istəyirsən, ölüncə otur.

Qara Vəzir bunu deyib getdi. Ziyad xan soruşdu:

– Nə oldu?

Qara Vəzir dedi:

– Xan sağ olsun, heç nə istəmir, özü də oturduğu yerdən durmur.

Ziyad xan çar-naçar özü Qurbaninin yanına gəlib gördü ki, dünən hüzuruna gələn aşıqdı, dedi:

– Aşıq, axı mən dünən sənə əmr elədim ki, Gəncədən çıxıb gedəsən. Niyə getməmisən? Məndən nə istəyirsən?

Ziyad xanın ağzından bu söz çıxan kimi, Qurbani sazı göynəyindən çıxarıb, aldı görək nə dedi:

Bir Pəri sevmişəm sizin ellərdə,
Məni camalına heyran eylədi,
Bunca bir gözəli bulmadı gönül.
Gəzdi bu cahanı, seyran eylədi.

Əsli şahzadədi, ismidi Pəri,
Yolunda qoymuşam can ilə səri,
Bir təklif eylədi, getdim içəri,
Dindirdikcə gönlüm xəndan eylədi

Gümüş piyalələlim, altun ayaqlım,
Sürahı gərdənlim, qaymaq dodaqlım,
O ceyran yerişlim, ayna qabaqlım,
Qurbani der: məni candan eylədi.

Qara Vəzir çoxbilmiş adam idi. Qurbaninin sözlərini anladı. Onun mətləbini başa düşdü. Ürəyində dedi: "hərif deyəsən Pəriyə yiyələnmək istəyir". Odur ki, üzünü Ziyad xana tutub dedi:

– Xan sağ olsun, aşıqdı da. Ağzına gələn sözü deyir. Fikir vermə, dur gedək.

– Xan, izin ver, birin də deyim, gör səndən nə istəyirəm.

Ziyad xanın cavabına gözləməmiş, aldı Qurbani sözünün gerisini:

Ellər köçdü yaylağına, dayandı,
Sizin dağdan qar almağa gəlmişəm.
Gönül quşu dövr eləyir bu bağda,
Zənbur mənəm, bar almağa gəlmişəm.

Sevgilimin qaşı Kəbə küncüdü,
Mən öləndə kimlər onu yöncüdü?
Ağız süddü, diş dürr, dəhan incidi,
Sərraf mənəm, nar almağa gəlmişəm.

Başına döndüyüm, şahların şahı,
Səni gördü gözüm, çəkmərəm ahı,
Qurbani der: budu sözün kütahı.
Müxtəsəri, yar almağa gəlmişəm.

Ziyad xan dedi:

– Qara Vəzir, heç kəs cürət edib mənim gözlərimin içinə bu sözü deyə bilməzdi. Bu aşıq cürət eləyib söylədi. Görürsənmi, o mənim qızımdan ötrü gəlib. De görüm, nə tədbir tökürsən?

Qara Vəzir dedi:

– Xan, fikrini-zadını dağıtma. Burada tədbir-zad yoxdu. Belə deməkdə sən qazını vermək istəyirsən, nədi?

Ziyad xan dedi:

– Mənim fikrim budu ki, bu aşığı buradan boş qaytarmayım.

Qara Vəzir dedi:

– Xan, Pəri kimi qızı bir aşığa vermək olmaz.

Ziyad xan dedi:

– Qara Vəzir, aşığın ah-naləsindən qorxuram. Mən onu buradan boş qaytara bilməyəcəyəm. Bir də ki, deyiblər: yaxşı saxla aşığı, bədnamçıdı, el gəzər.

Qara Vəzir dedi:

– İndi ki, sənin könlünün quşu uçdu, onu ver bizim ixtiyarımıza, qoy onu bir imtahana çəkək. Əgər imtahandan çıxsa, görsəm ki, haqq aşağıdı, qızı verərsən, sözüm yoxdu.

Ziyad xan razı oldu. Qara Vəzir Qurbanini saraya gətirib bir otağa saldı. Gözlərini bərk-bərk bağladı Qırx calladı düzdü, dedi:

– Əlinizi qoyun qılıncın dəstəsinə. Münəccim deyil, rəmdar deyil, nə biləcək?

Calladlar Qara Vəzirin dediyi kimi elədilər. Qara Vəzir dedi.

– Qurbani, bu saat burada nə var, tap görək?

Qurbani təzənəni simlərə çəkib dedi:

Dedim: könül, sevmə xublar xubunu,
Onun hər muyunda yüz min qal olu,
Səni min bəlaya giriftar elər.
Bilmək olmaz qəbzəsində əl olu.

Qurbani bunu tapdı. Vəzir o saat işarətlə calladlara qandırdı ki, qılıncın dalını ona tərəf qaldırsınlar.

Vəzir nə elədiklərini ondan soruşdu.

Aldı Qurbani, görək nə cür cavab verdi:

Qırxlar məclisində söylənir adım,
Ərşə büləndolub dadü fəryadım,
Su yerinə qan içici cəlladım,
Bilmək olmaz, üryan qılınc dal olu.

Qara vəzir baxdı ki, Qurbani bunu da tapdı. O saat qızı Nigarın qulağına dedi:

– Qızım, indi sən tədbir tök!

Nigar dedi:

– Dədə, bu aşığı dolaşdırsam mənə nə verərsən?

Vəzir dedi:

– Qızım, hər nə istəsən verərəm.

Qız dedi:

– Dədə, Pəri xanımın çənəsinin iki tərəfində qoşa xal var. Ürəyimizdə gəl onu tutaq. Qurbani hardan tapacaq ki, bizim ürəyimizdən Pəri xanımın çənəsində olan dörd xal keçir?

Qara Vəzir Qurbaniyə dedi:

– Qurbani, tap görək ürəyimizdən bu saat nə keçir?

Aldı Qurbani, görək nə cavab verdi:

Camalı Yusifin, ibni-Yaqubun,
Aləmə şəms olan hüsnü həbibin,
Ala gözlü, şirin sözlü məhbubun,
Zənəxdanı dörd şölədi xal olu.

Bu sözdən Nigar lap xırp kiridi. Məhəttəl qalıb dedi:

– Daha mənim bu aşığa sözüm yoxdu. Dədə, sən özünü pis kişi eləmə! Bu haqq aşığıdı, hər şeyi bilir. Qoy Pəri xanımı versinlər ona.

Qara Vəzir dedi:

– Ay qız, dəli olma! Bəs qardaşın? Bəlkə mən öləm, o, Pəri xanıma sahib ola.

Qurbani Qara Vəzirin sözünə gülüb, aldı gerisini:

Günəş nə yandırıb, qəmər nə yaxar,
Qətrələr oyanıb, ümmana axar,
Qurbani der, kim şahına gəc baxar,
Onun kamalına tez zəval olu.

Bu imtahanda Pəri xanım da kənarda durub tamaşa eləyirdi. O, bu işlərin hamısını görürdü. Elə ki, Qurbani Qara Vəzirin bu imtahanından çıxdı, o şad olub şükr elədi. O biri tərəfdən Qara Vəzir çox məyus olub, qəm dəryasına qərq oldu. Nigar xanım dədəsini kefsiz görüb dedi:

– Dədə, qəm yemə! Qurbanini tora salmaq mənə borc olsun.

Nigarın da bunu deməkdə məqsədi o idi ki, birtəhər eləyib, Qurbaniyə özü getsin, Nigar bir cövüz ləpəsini bir məcməyiyə qoyub üstünü bərk-bərk örtdü, gətirib aşığın qabağına qoydu, dedi:

– Aşıq, çörək ye, sonra genə də başlarsan.

Qurbani dedi:

– Xanım qız, payın çox olsun! Aşıq məclis yaraşığıdı. Aşığı da belə qarşılayarlarmı? Sənin çörəyini mən sazla yeyəcəyəm, – deyib, aldı Qurbani:

Ayın lam içində, sin arasında,
Yar mənə göndərdi bir çövüz indi,
Aylar, illər həsrətini çəkdiyim,
Lütf eylə, ləbimə bircə yüz indi.

Gözəllər yığılıb qıya baxanda,
Zülfü dal gərdəndə qıya baxanda,
Nigar pəncərədən qıya baxanda,
Ömrümün rişəsin bircə yüz indi.

Nigar xəlvətcə qızlara dedi:

– Qızlar, daldada gözlərinizə sürmə çəkin.

Qızlar daldaya keçib, gözlərinə sürmə çəkməyə başladılar. Bunu görən Qurbani aldı görək nə dedi:

Gözəllər oturmuş göz bulağında,
Sürmə tək qovruldum göz bulağında,
Qüdrət çeşməsində, göz bulağında,
Qurbani, çalxanıb bircə üz indi.

Qurbani ikinci imtahandan da qurtardı. Nigar Mahi qarabaşı Pərinin paltarı ilə bəzədi, Pərinin şəklinə saldı, əlinə badə verdi, Qurbani olan otağa gətirib dedi:

– Aşıq, al yarını. İndi sən onunsan, o da sənin.

Pəri xanım kənarda oturub əli göydə dua eləyirdi ki, Qurbani imtahanlardan çıxsın. Mahi qarabaş Qurbaniyə tərəf gələndə aldı Qurbani, görək nə dedi:

Alçaq yerdən duman qalxar,
Dağı dolana-dolana,
Göy üzünü alar bulud,
Mahı dolana-dolana.

Kimi ağa, kimi nökər,
Nökər olan cəfa çəkər,
Bülbül ağlar, qaş-yaş tökər,
Bağı dolana-dolana.

Pəri xanım davam gətirməyib, istədi yerindən qalxıb badəni Qurbaniyə özü versin. Nigar onu yerə basıb qoymadı. Qurbani bunu hiss etdi. Aldı körək nə dedi:

Qurbani murada yetdi,
Canan gəldi, burdan ötdü,
Nobat gəldi, mana yetdi,
Saqi dolana-dolana.

Qurbani üçüncü imtahandan da qurtarıb, dördüncü imtahana addadı. Nigar bir qoyun kəsdirdi. Pəri xanıma da bir alma verib dedi:

– Al, bu almanı kəs, camaata payla.

Pəri xanım almanı doğrayıb camaata paylamaq istəyirdi, birdən fikri dağıldı, barmağını bıçaq kəsdi. Amma özü bilmədi, əli ilə tellərini geri eləmək istəyəndə birdən barmağının qanı sıçrayıb buxağına düşdü. Bunu onların heç biri bilmədi, ancaq Nigar gördü. Nigar o saat bərkdən aşığa dedi:

– Aşıq, aradan nə keçdi? Onu tapsan bilərəm ki, doğrudan da, haqq aşığısan ki, haqq aşığı.

Qurbani dedi:

– Xanım darıxma, bu saat deyərəm. Aldı Qurbani:

Başına döndüyüm, alagöz Pəri,
İşin qurub otağında saqinin,
Çahar zülfü bir-birinə vuruldu,
Qanlar oynar buxağında saqinin.

Nigar baxıb gördü ki, Qurbani bunu bildi. Qoyunun qara bağrından bir qədər götürüb ocağa tutdu. Qurbanidən aradan nə keçdiyini soruşdu.

Aldı Qurbani:

Qara bağrım bıçağında saqinin.
Doğram-doğram olub közə tutulu,
Sevdiciyim yağnan bala qatılı,
Ay ilə gün bir-birinə çatılı.
Humay kimi dövr eylərəm havada,
Babam öldü, yetim qaldım yuvada,
Bir əli əllərdə, ağzı duada,
Bir əli də ayağında saqinin.

Qurbani der: bu dərd məndə qalınca,
Canım çıxıb yar xətrini alınca.
Payız gecələri sabah olunca,
Çeşmim yağı çırağında saqinin.

Nigar xanım o saat Pəri xanımın çarqatına bircə qırnıq sürmə çəkdi. Bunu ancaq Nigar bildi. Ondan başqa heç kəs bilmədi. Öz-özünə fikirləşdi ki, bunu Qurbanidən soruşacağam, görək biləcək, ya yox?

Qurbani bunu hiss etdi, aldı görək nə dedi:

Nəzakət vaxtında, xublar çağında
Baxdım, yar yanağı sayalanıbdı.
O alma yanağı, büllur buxağı,
O zəhri zülfləri halqalanıbdı.

O zəhri zülfləri, köksündə çəprəs,
Zər zərbab üstündən, ətlası çərkəs.
Yaxası mürəssə, çatqısı Gülgəz,
Çarqatının ucu sürmələnibdi.

Qurbaniyəm, dərdim etdim hekayət,
Kimlərdən eyləyim kimə şikayət?
Pərim bir görünə, edəm ziyarət,
Canım yar yolunda cəfalanıbdı.

Qara Vəzir dedi:

– Qurbani, bir şərtim də var. Yerinə yetirsən, Pəri xanım səninkidir, yetirməsən boynunu vurduracağam.

Qurbani dedi:

– Qara Vəzir, nə qədər şərtin varsa de, mən Pəri xanımın yolunda hamısına razıyam.

Qurbaninin gözlərini bərk-bərk bağladılar. Qara Vəzir bir dəstə qız topladı. Başladı qızları bir-bir Qurbaninin qabağından keçirməyə ki, Qurbani onları tanısın.

Qurbani sazı döşünə basıb başladı qızları birbəbir nişan verməyə:

Nə əcəb sevdaya düşdüm,
Deyin, bundan Pərim gəlsin!
Əcəl şərbətini içdim,
Deyin, bundan Pərim gəlsin!

Dağların başı dumandı,
Didəmin yaşı ümmandı,
Bu gələn Şahi Hubandı,
Deyin, bundan Pərim gəlsin!

Yolunda qoymuşam canı,
Kiprikləri tökər qanı,
Bu gələndi Şəhrəbanı,
Deyin, bundan Pərim gəlsin!

Əyninə geyib qırmızı,
Yalav-yalav yanır üzü,
Bu gələn vəzirin qızı,
Deyin, bundan Pərim gəlsin!

Mən ağlaram zarı-zarı,
Bu zülmü götürməz tarı,
Bu gələn Qurbani yarı,
Əcəb gəlsin, Pərim gəlsin!

Qurbani bu imtahandan da çıxdı. Nigar dedi:

– Dədə, mən bunun öhdəsindən gələ bilmədim. Hər nə fənd-fel elədim, tapdı. İndi çarə ona qalıb ki, məkrə salam.

Qara Vəzir dedi:

– Nə eləyirsən elə, axır ki, qoy Ziyad xanın nəzərindən düşsün.

Nigar gecəyarını verdi araya, Pərinin yanına gəlib dedi:

– Xanım, sizə zülm eləyirlər. Sizi bir-birinizdən ayırırlar. Mən bir yaxşılıq eləmək istəyirəm. Sizi burada tək qoyub gedəcəyəm. Heç olmazsa doyunca görüşün, danışın.

Nigar onları aldadıb, aynadan o biri tərəfə keçdi, orada gizləndi. Qurbani ilə pəri içəridə qaldılar. Qurbani sazı götürüb dedi:

Qəm yemə, qəm yemə, divana gönlüm,
Həmişə ruzigar belə dar olmaz!
On bir il çəkmişəm zimistan qəhrin,
O nə güldü, çevrəsində xar olmaz?!

Siyah zülfü daraq ilə dara gör,
Öz könlünü öz dərdinə dara gör,
Gözəllərin neçəsini dara gör,
Özgə bağda belə heyva, nar olmaz.

Əgər şahdan bizə qəzəb olmasa,
Qəzəb atəşindən əzab olmasa,
Ortalıqda çuğul, kəzzab olmasa,
Dünya bahar olar, boran, qar olmaz!

Hər bir adam öz yerində oturmaz,
Ağlın zaya verməz, fəhmin itirməz,
İgidlər könlünə şübhə gətirməz,
Necə dağdı, quzeyində qar olmaz?!

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə, artar azarı,
Sağ olsun dünyada vəfalı yarı,
Bir mən ölməgilən dünya tar olmaz!

Nigar baxdı ki, onun gizləndiyini Qurbani bilibdi. O saat qapıdan içəri girib dedi:

– Qadanızı alım, mən elə zarafat eləyirdim. İndi çıxıb gedirəm, söhbət eləyin.

Nigar gedib bağda gizləndi ki, görsün bunlar nə cür görüşürlər. Bunu da Qurbani hiss elədi, aldı görək nə dedi:

Ay ağalar, ay qazılar.
Yar yaman allatdı məni,

Əl atdım yarın dəstinə,
Yar kənara atdı məni.

Tor qurdum çeşmim gölünə,
Qurbanam sonam telinə,
Düşdüm dilbilməz əlinə,
Aldı, ucuz satdı məni.

Qurbanidi mənim adım,
Adəm atadı bünyadım,
Şeş atdım, çahar oynadım,
Axır fələk uddu məni.

Nigar baxdı ki, Qurbani onun gizləndiyini genə də bilib, geri qayıdıb dedi:

– Vallah, getmək istəyirəm, amma sizin söhbətinizdən ayrılıb gedə bilmirəm. Məni bağışlayın, daha gedirəm, lap arxayın söhbət eləyin.

Nigar bu dəfə doğrudan da çıxıb getdi. Amma Pəri ondan şübhəli idi. Bilirdi ki, Nigar xəbisin, əyyarın biridi, genə də gizlənə bilər. Odu ki, Qurbaninin heç üzünə də baxmayıb bir tərəfdə dayandı. Qurbani elə bildi ki, Pəri ondan küsüb. Odu ki, sazı döşünə basıb dedi:

Durub dolanım başına,
Aşığından küsən dilbər!
Gözlərini dik gözümə,
Nə mən dinim, nə sən dilbər!

Mina qəddin zəbərcəddi,
Nə desən cana minnətdi.
El köçüb, otaq xəlvətdi,
Gəlsən alam busən, dilbər!

İtirmişəm maralımı,
Bir sinəsi yaralımı,
Günüz səbr-qəralımı.
Gecə yuxum kəsən dilbər!

Qurbani özünə bəydi,
Yar həsrəti qəddin əydi.
Nə dedim xətrinə dəydi,
Bu mən dilbər, bu sən dilbər!

Pəri arxayın oldu ki, Nigar çıxıb kedib, Qurbaniyə tərəf döndü. Qurbaninin ürəyi atlandı, başı havalandı, gözləri od tutub yandı, dedi:

Yar, səni ədalət bildim,
Mən qapına dada gəldim,
Çox cəfa çəkdim yolunda,
Ömür verdim, bada gəldim.

Ləbin içib çeşmim qanı,
Olmuşam cəllad qurbanı
Qoynundu əttar dükanı,
Nə əcəb bu dada gəldim.

Qurbanidi mənim adım,
Mövlamdan aldım muradım,
Sinəndi çarşım, bazarım,
Şəkərə, nabata gəldim.

Pəri xanım on iki hörük saçlarından bir tel ayırıb döşünə basdı, aldı görək Qurbaniyə nə dedi:

Dərdin alım, əsmər oğlan.
Dur gəl qoynuma, qoynuma!
Yazıq canım sana qurban,
Dur gəl qoynuma, qoynuma!

Aldı Qurbani:

Ala gözlü, nazlı Pəri,
Yox, Pəri, gələ bilmərəm.
Sənə qurban canü sərim,
Yox, Pərim, gələ bilmərəm!

Aldı Pəri:

Otağına qədəm basdıq,
Qəsdim budu qatam dostluq,
Salım döşək, qoyum yastıq,
Dur gəl qoynuma, qoynuma!

Aldı Qurbani:

Nigar pəncərədən baxar,
Üzüyün barmağa taxar,
Məkr elər, evmizi yıxar,
Yox, Pərim, gələ bilmərəm!

Aldı Pəri:

Mən Pəriyəm, boyum bəstə,
Zülfüm dal gərdəndə dəstə
Yerin sallam sinəm üstə,
Dur gəl qoynuma, qoynuma!

Aldı Qurbani:

Özüm gördüm ərənləri,
Mənə badə verənləri,
Qurbaninin nadan yarı,
Yox, Pərim, gələ bilmərəm!

Qurbani gedib ayrı otaqda yıxıldı yatdı. Pəri də bu otaqda qaldı. Səhər açıldı, sabahınız xeyir olsun, Qara Vəzir qızı Nigarın yanına gəlib dedi:

– Qızım, neylədin? Qurbanini dolaşdıra bildinmi?

Nigar dedi:

– Yox, dədə, mən heç zad eləyə bilmədim. Özün bir tədbir gör!

Bunlar bu danışıqda idilər, qasid gəlib Qara Vəzirə dedi:

– Səni Ziyad xan çağırır.

Qara Vəzir durub Ziyad xanın yanına gəldi. Ziyad xan üzünü ona tutub dedi:

– Qara Vəzir, sən güclü adamsan. Gərək ədaləti də nəzərdə tutasan. Qurbaniyə bu qədər zülm elədiyimiz bəsdi. Gəl qızı verək, varıb getsin. Biz onun gönlünü sındıra bilmərik. O, haqq aşığıdı. Əvvəl-axır qız onundu, sən oğluna ala bilməyəcəksən.

Qara Vəzir dedi:

– Xan sağ olsun, mənim bir imtahanım da var. Gedək onu da eləyək. Tapsa, sözüm yoxdu, ver getsin.

Xan razı oldu. Qara Vəzir əmr elədi Qurbanini gətirdilər bağa. Gözlərini bərk-bərk sarıyıb, bir alma ağacının dibinə apardılar. Payızın axırı idi. Bərk soyuq idi. Ağacların yarpaqları tökülmüşdü. Alma ağacının başında bir neçə alma qalmışdı. O biri tərəfdən Pəri xanıma xəbər verdilər ki, Qurbanini bağa apardılar. Bu dəfə Qara Vəzir onu öldürtdürəcək, başına çarə qıl! Pəri xanım qızlardan da bir neçəsini götürüb ayaqyalın, başaçıq özünü yetirdi bağa. Qurbani Pəri xanımın gəlməyini başa düşdü, sazı götürdü, aldı görək nə dedi:

Axşamdan yağan qar çıxıbdı dizə,
Kəsilib bulaqdan yolu qızların,
Sənəyin doldurub qoyanda düzə,
Üşüyüb barmağı, əli qızların.

Gözəllər yığılıb hamısı kəndə.
Sənəyin doldurub burdan ötəndə.
Şamaxı şəddəli gərdənbənd təndə
Əyrimcədən keçər beli qızların.

Qurbani der: bu dərdləri biləsiz,
Qohum-qardaş yığılasız, gələsiz,
Adna axşamında bəlgə qoyasız.
Kəsilə qovaası, qalı qızların.

Bu zaman ağacdan yerə bir alma düşdü. Qara Vəzir o saat almanı götürüb gizlətdi ki: "Oğuldusa bilsin. Nə biləcək ki, bu vaxt ağacda alma olar?".

Aldı Qurbani görək nə dedi:

Üç ay yay dolanıb payız olanda,
Məst olub sığışmır budağa alma,
Laladan, qonçadan artıq deyilsən,
Versənə nəfsinə qadağa, alma!

Qara Vəzir bir dənə də nar götürüb o biri cibinə qoydu ki, görək nə deyəcək.

Aldı Qurbani:

Səni yaradıbdı Cəlili Cabbar,
Hüsnün kitabının adı gərdiyar,
Özü xırdacana, məməsi gülnar,
Narnan düzüləydin otağa, alma!

Sən ha Qurbaninin canın üzərsən,
Qaş oynadıb, gözlərini süzərsən,
Xəsyətindi, əldən-ələ gəzərsən,
Yoxdu sənə qorux-qadağa, alma!

Qurbani sözünü qurtarana macal Pəri əvvəlcə Qurbani ilə görüşən suyun başına gəlib, girələnməyə başladı ki, görsün Qurbaninin başına nə oyun açırlar. Qurbani bunu də hiss etdi. O saat sazı sinəsinə basıb, görək nə dedi:

Heç gəlmirsən bulaq üstə,
Gündə üç yol gəlirəm mən,
Üzümə soyuq baxırsan,
Ürəyini bilirəm mən.

Kaş ki, gözəl olmayaydın,
Saralıban, solmayaydın,

Mənnən aşna olmayaydın,
Ayrılanda ölürəm mən.

Gül dibini xara qoydun,
Bülbülü ah-zara qoydun,
Qurbanin biçarə qoydun,
Gedirsən get, gəlirəm mən.

Qara Vəzirin əlacı lap kəsildi. Bilmədi ki, neyləsin. Daha heç bir bəhanə tapa bilməyib, qaldı gözlərini döyə-döyə.

O biri tərəfdən də Pəri qızlarla solmuş bənəfşədən, çiçəkdən yığırdı ki, nə məqsədə buraya gəldiyini heç kəs bilməsin. Qurbani bunu başa düşüb aldı nə dedi:

Başına döndüyüm, ay qəşənk Pəri,
Adətdi, dərərlər yaz bənəfşəni,
Ağ nazik əllərnən dər, dəstə bağla.
Tər sinən üstünə düz bənəfşəni.

Başına döndüyüm, bağa gəl, bağa,
Üzün hörmətindən bağa nur yağa,
Dəstə-dəstə dərib, taxır buxağa,
Bənəfşə qız iylər, qız bənəfşəni.

Səhər olcaq nə bülbüllər oxuşdu...
Hökm olundu, sülcymanlar yerişdi,
Qurbani der: gülün vaxtı sovuşdu,
Daha iyləmərik biz bənəfşəni.

Belə, ərz olsun, Qara Vəzir Qurbanini götürüb bağdan çıxartdı. Onun fikri başqa idi. Aparıb Qurbanini kənarda öldürtmək istəyirdi. Pəri xanım onların kələyini başa düşüb, yavaş-yavaş dallarınca getməyə başladı. Qara Vəzir bunu görüb fikrindən çəkindi. Qurbani bunu bildi, aldı görək nə dedi:

İstəyirsən gəlib mana yetəsən,
Ayaq götür, ta ki yara yetincə,
Ömrüm bağçasının gülün dərərlər,
Dost bağından az kənara yetincə.

Hər iyidin sığındığı başına,
Əl aparmaq olmaz haqqın işinə,
Suyu gəlib çatıb novun başına,
Həsrət çəkir ta ki, pərə yetincə.

Qurbani, sözün yara asta söylə,
Sızıldaşır yaram, yar, asta söylə,
Bir ac qarın doydur, yar, az tas eylə,
Nigah-nigah könüllərə yetincə.

Vəzirlə Ziyad xan Qurbanini gətirib Osman adlı bir zatıqırıq bəyin evində qoydular. Özləri də başqa otağa girdilər.

Vəzir Ziyad xana dedi:

– Gəl nərtaxta oynayaq! Sən məni uddun, Pəri xanımın ixtiyarı səndədi, ver Qurbaniyə. Yox, mən uddum, onda Qurbaninin də, Pəri xanımın da ixtiyarını ver mənə, nə elərəm, elərəm.

Xan razı oldu. Nərtaxta oynadılar. Bir neçə dəfədən sonra vəzir Ziyad xanı uddu. O saat cəlladlara əmr elədi ki:

– Qurbanini bu saat bura gətirin!

Cəlladlar Qurbaninin yerini öyrənib qapıdan içəri daxil oldular. Bu zaman Qurbani çox şirin yuxuya getmişdi. Cəlladlar ona bir neçə çəkdilər, yuxudan oyadıb dedilər:

– Dur, vaxtın tamamdı! Ta sənə yatmaq yaramaz.

Pəri xanım özünü tez Qurbani olan otağa salıb dedi:

– Zalım cəlladlar, niyə döyüb öldürürsünüz?! Onun məgər pasbanı yoxdu? Siz allahı məgər sevmirsiniz?

Cəlladlar onu kənara itələyib, Qurbanini döyə-döyə aparmaq istədilər. Pəri xanım ağlaya-ağlaya cəlladların ayağına yıxıldı, göz yaşı axıtdı, bənövşə kimi tellərini üzünə tökdü, payız xəzəli kimi yanaqlarını saraltdı. Qurbani bunu görən kimi eşqi cuşa gəldi. Sazı götürüb, görək nə dedi:

Xəstə düşüb, qürbət eldə yataram,
Bir kimsənəm yoxdu oyada məni.
O siyah tellərin, şirin dillərin
Salıbdı sönməyən ay oda məni.

Evinin dalında çeşmədə su var,
Gözüm gördü, könlüm eylədi qubar.
Məndən qeyri bəlkə bir sevgisi var,
Ol səbəbdən salmır o yada məni.

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə artar azarı.
Hərdən oğrun baxır o mənə sarı,
Baxışı yandırar ay oda məni.

Cəllad sözə fikir verməyib, Qurbanini döyə-döyə Qara Vəzirin yanına apardı. Qurbani içəri girəndə gördü ki, Ziyad xan da burdadı. Bir az toxdadı.

Vəzir ona dedi:

– İndi toyunu mən tutum, sən də tamaşa elə!

Qurbani Ziyad xanın üzünə baxdı. Ziyad xan dedi:

– Aşıq, nərtaxtada mənim gücüm fələyə çatmadı. Taleyə uduzdum. İndi isə Qara Vəzirin ixtiyarındasan.

Aldı Qurbani, görək nə cavab verdi:

Ləməkan şəhrindən gəldim cana mən,
Canlar əhli bir canana yetişdim,
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Qətrə idim, bir ümmana yetişdim.

Bir gözəlin ələyindən ələndim,
Bəli dedim, bəlasına bələndim,
Yeri, göyü yaradandan diləndim,
Göhəri axtardım, kanə yetişdim.

Qurbani der: göz gözlədim, göz aldım,
Səmağ oldum ağılmənddən söz aldım,
Düz tərpəndim, mərufumu tez aldım,
Ədəb götürdüm, yol-ərkanə yetişdim.

Ziyad xan dedi:

– Qurbani, bəlkə sənin atandan, anandan gələn oldu. Söylə görüm, səni soruşanlara nə cavab verim?

Aldı Qurbani:

Yaralandım ürəyimin başından,
Yara deynən, yaralarım bağlasın,
Oxlanmışam kirpiyindən, qaşından,
Mən ölürəm, onu allah saxlasın!

Naşı təbib dərdə dərman etmədi,
Canan gəlib, göz evimdən ötmədi,
Həsrət öldüm, əlim yara yetmədi,
Vəzir də mənim tək kamın almasın!

Qurbaninin dərdi həddən ziyadə,
Çağırsam ağamı, yetişər dadə,
Desələr necoldu o binəva, de,
Mən al geydim, o qaralar bağlasın!

Qurbani sözünü qurtaran kimi, Qara Vəzir onu cəlladlara verib dedi:

– Aparın onu Gəncə çayının üstündə doğrayın, qanlı paltarını da mənə gətirin.

O biri tərəfdən Pəri xanım da göz yaşına dəm vermişdi, özünü yeyib-tökürdü. Leyli kimi saçlarını dağıdıb üzünə tökmüşdü, dad-fəğan eləyib ağlayırdı. Cəlladlar onun ağlamağına, sıtqamağına baxmayıb, Qurbanini öldürməyə apardılar.

Axşam idi, toran çalmışdı. İtnən qurd bir-birindən güclə seçilirdi. Göyün üzünü qara duman basmışdı. Adamlar ordan-burdan toplanıb, kənardan Qurbaninin aparılmağına tamaşa edirdilər. Qurbani Qara Vəzirin imarəti yanından keçəndə ayağını saxladı, yalvarıb cəllada dedi:

– Heç olmasa, mənim qolumu bir az boşaldın, üç kəlmə sözüm var, deyim, genə bağlayıb aparın.

Cəlladlar dedilər:

– Əşi, dəli-zad olmamısan ki? Biz səni ölümə aparırıq, ya deyişməyə? Elə də şey olar?

Qurbani dedi:

– Onda, burda öldürün. Mən getmirəm. Ta bir neçə söz deməsəm, getməyəcəyəm.

Cəlladlar dedilər:

– Qolunu boşalda bilmərik. İndi ki, hökmən demək istəyirsən, elə qolu bağlı də.

Qurbani qolu bağlı dedi:

Vəzir, sana qarğayıram,
Haqq diləyin yetirməsin!
Göydən min bir bəla ensə,
Birin səndən ötürməsin!

Evindən düşəsən naçaq,
Sağ gözünə batsın bıçaq!
Oğul-uşaq düşsün qaçaq.
İstədiyin gətirməsin!

Oturuban ağ otaqda,
Qan qusasan laxta-laxta,
Sənin görüm ölən vaxtda,
Dilin kəlmə gətirməsin!

Qurbani qaldı burada,
Çağır, allah yetsin dada.
Meyidin qalsın arada,
El yığılıb götürməsin!

Bu zaman göy guruldadı, bir ildırım şığayıb Qara Vəzirin evinin üstünə düşdü. Ev gurhagurla uçub yerə töküldü. Nərilti, gurultu hər yeri bürüdü. Cəlladlar Qurbanini qoyub qaçdılar. Qara Vəzir evinin, uşağının ha-

yına qaldı. Qurbani yadından çıxdı. Vanəfsə, şivən Gəncə şəhərini tutdu. Bir nəfər gəlib Qurbaninin qolunu açdı. Qurbani buradan öz dostunun evinə getdi. Sabah oldu. Ara bir qədər sakitləşdi. Qurbani tezdən burdan çıxıb, Pərinin otağına tərəf baxdı. Gördü ki, Pəri külafirəngidə başını yastığa söykəyib ağlayır. Qurbaninin dərdi qubar elədi, götürdü sazı, görək nə dedi:

Gözəl Pərim, gəl allahı sevərsən,
Daldalanma, bir də görkəz yara üz!
Astana gör, yarın astanasında,
Qulluq eylə, xidmət eylə, yara yüz!

Sağdan vurdu, soldan çıxdı sağ ələm,
Sağ qoşundu, sol ləşkərdi, sağ ələm,
Bedahatdı mən bu dərddən sağalam,
Təbib birdi, dərman minbir, yara yüz!

Qurbani der: bura gəldim yar için,
Kəs ciyərim, doğra bağrım, yar için,
Yar oldu ki, yardan sonra yar için,
Yaxa yırta, zülf dağıda, yara yüz!

Pəri xanım axşamı araya verib, Qurbanini çağırdı yanına. Sonra bir molla da çağırdı. Gözünün yaşı ilə Şıx oğlu Şaha bir məktub yazdırdı. Molla Pəri xanımın sözlərini tərsinə, öz istədiyi kimi yazmışdı. Mollanın kağızda yazdığı sözlər Qurbaniyə əyan oldu. Molla kağızı müşəmmələyib Qurbaniyə vermək istəyəndə o dedi:

– Molla, dayan, qoy bir neçə söz deyim, sonra verərsən.

Qurbani aldı sazı:

Gecə-gündüz bulud keçər havalar,
Belə getməz, əlbət gəlir bir də yaz...
Oxuyar bülbüllər muğam, havalar,
Sızıldaşır yaram, aman, bir də yaz!

Bulud olan qalxar havada gəzər,
Aşiq olan yarçün bağrını əzər,
Qəvvas olan girər dərində gəzər,
Bir dərin var, bir dayaz var, bir də yaz!

Qurbani güldəstə bağlar oxuna,
Sinəm buta, yarım müjgan oxuna,
Bir namə yaz, hər divanda oxuna,
Görən deyə, var əllərin, bir də yaz!

Molla Qurbaninin sözündən sonra əvvəlki məktubu cırıb Şıx oğlu Şaha yaxşı bir namə yazdı. Pəri mollanı razı eləyib yola saldı. Naməni Qurbaniyə verib dedi:

– Qara Vəzir bizi bir-birimizdən ayıracaq. Onun hələ nə qədər başı qarışıqdı, mən bir məsləhət görürəm ki, sən bu naməni götürüb, özünü Şıx oğlu Şaha çatdırasan. O, çox rəhmkar şahdı. Bəlkə allah-taala könlünə rəhm saldı, bizə kömək elədi. Yoxsa, heç bir yerdən bizə imdad yoxdu.

Qurbani onun sözlərinə razı oldu, tədbirinə afərin dedi, bircə dənə almazı vardı, onu çıxardıb Pəri xanıma verib dedi:

– Al, bunu yadigar saxla! Şər deməsən, xeyir gəlməz, qəzadı, bəlkə yolda öldüm, itdim.

Pəri xanım dedi:

– İnşallah, heç zad olmaz. Sən İsfahan kimi yerə gedirsən. Sənə çox xərclik lazımdı. Bütün dünyanın malı hamısı məndədi. Ala, mən sənə qızıl verim, yolda xərcləyərsən.

Bu söz Qurbaniyə bərk toxundu. Götürdü görək nə dedi:

Bir almaz göndərdim yara yadigar,
Almadı almazı, bağrı daş Pəri,
Könül tələb elər məndən nəyim var
Od tutub cismimi alataş, Pəri!

Bülbül ayrılığı sitəmdi gülə,
Gülabatın naxış süsən-sünbülə,
Badilə mintənə, üstdən silsilə,
Sərəndazdan töküb başa-baş, Pəri!

Bir gözəlin ələyindən ələndim,
Bəli, dedim, bəlasına bələndim,
Yan çevirdim, hər bir yana diləndim,
Qurbaniyəm görüş, halallaş, Pəri!

Qurbani Pəri ilə görüşüb yola rəvan oldu. Bərkitdi çarıqların dabanın, qırdı yerin damarın, günə bir mənzil, Hacı Bulağa tərəf getməyin binasın qoydu. Bu getməkdə olsun, al xəbər Pəri xanımdan.

Pəri xanımın Mikayıl adlı bir nökəri var idi. Mikayıl Pəri xanım ilə Qurbaninin sirrini bilirdi. Onlar Mikayıldan sirr gizlətmirdilər. Qurbani gedəndən sonra Pəri xanım Mikayılı çağırıb dedi:

– Mikayıl, mən özüm də Qurbanini bir sınaqdan keçirmək istəyirəm. Ola bilərmi, bir neçə qızla oğlan paltarı geyinəm, sən də bizimlə gedəsən. Onunla işim var.

Mikayıl dedi:

– Xanım, niyə olmur, çox yaxşı olar.

Pəri xanım bir neçə qızla bərabər kişi paltarı geyindi. Mikayılı da götürüb Qurbaninin dalınca yola düşdü. Bir müddətdən sonra baxdılar ki, Hacı Bulaqda Qurbani bir nar ağacının dibində oturub çörək yeyir. Onlar atlarını düz Qurbaniyə tərəf sürdülər. Qurbani baxıb gördü ki, bir dəstə atlı gəlir. O, heç fikir vermədi. Pəri xanım dəstə ilə bir kənarda atdan düşdü. Qızların birini çağırıb dedi:

– Gedib o adama deyərsən ki, bizim padşah xəstədi, rəmmallar onun xəstəliyinə haqq aşığının başını dərman buyurublar. İndi gəlmişəm sənin başını kəsməyə.

Qız Qurbaninin yanına gedib, Pəri xanımın dediyi sözləri ona dedi:

Qurbani sazı köynəyindən çıxardıb basdı döşünə, görək qıza nə cavab verdi:

Sallana-sallana gələn salatın,
Gəl belə sallanma, göz dəyər sana.
Al yaşıl geyinib durma qarşımda,
Yayın bədnəzərdən göz dəyər sənə.

Gəl görüm, gəl görüm, kimin yarısan?
Hansı bəxtəvərin vəfadarısan?
Kölgədə bəslənmiş quzey qarısan,
Səhərin yelləri tez dəyər sənə.

Qurbani der: heç kəs yarın öyməsin,
Düymələ yaxanın çarpaz düyməsin,
Dəstələ zülflərin yerə dəyəmsin,
Yollar qubarlanar, toz dəyər sənə.

Qız üzünü çevirib Pəri xanıma dedi:

– Gör bizə nə deyir? Bu bizi deyəsən qıza oxşadır?

Qız Qurbaninin çiynindən dartıb dedi:

– Tez dur gedək!

Qurbani dedi:

– Öldürəcəksən, öldürəcəksən, qoy bir qatar da deyim, sonra öldür.

Aldı Qurbani, görək nə dedi:

Uçdu, köç eylədi könül karvanı,
Mayalar düzülüb yollara doğru.
Naşı ovçu kəsib ov bərəsini,
Marallar ürküşüb çöllərə doğru.

Alçalsın dağların, görünsün köçü,
Cənnəti-məvadı qoynunun içi,
Müəttər zülfləri, müsəlsəl saçı,
Hərdam şitab eylər bellərə doğru.

Sevdiyimin iyid imiş atası,
Əskik olmaz heç iyidin xatası,
Qaşı kaman, sinəm onun butası,
Qatı yay çəkilib qollara doğru.

Baxçalarda qurudulur barama,
Naşı təbib məlhəm eylər yarama,
Dedim: Pərim, zülflərini darama,
Könül kəştə çıxar xallara doğru.

Qurbaniyam, nalәm yandırır daşı,
Üstümə gəlməsin təbibi-naşı,
Ümmana dönübdü gözümün yaşı,
Qalxıban axışır sellərə doğru.

Qız qışqırıb dedi:

– Dur qabağıma düş! Bilmirəm sən bizi nə hesab eləyirsən? Biz arvad-zad deyilik ki, bizə eşq oxuyursan! Bu saat başını bədənindən ayıracağam.

Qurbani dedi:

– Qoy, bir qatar sözüm var, onu da deyim, sonra hara deyirsən gedərəm.

Qız dedi:

– Tez de, qurtar!

Aldı Qurbani:

Qapına gəlmişəm, sayılam, sayıl,
Haqq verən paylara mən oldum qayıl,
Qızıl qıtmağından tökdür həmayıl,
Dünya olsun sana Özü xoşsifətdi, adı xoşnişan,
Yeriyir qabaqca Mikayıl, Pərim!
Fərištə zülflərin tarümar olmuş,

Asılıb gərdəndən həmayıl, Pərim.
nəğail, Pərim!
Qurbani qurbandır şahın dərdinə,
Dərviş bilər xirqə nədi, dəri nə?
Ağam qiya baxdı, atdı dərinə,
Yetmiş il bənd etdi Cəbrayıl, Pərim!

Qız bərkdən qışqırıb dedi:

– Dur qabağıma düş, sənə deyirəm.

Qurbani dedi:

– Qəzəblənmə, bir qatar da sözüm var, onu da deyim, sonra apar!

Aldı Qurbani:

Pərinin bağında seyran eylədim,
Almalı, alçalı yaza rast gəldim,
Almasın, heyvasın dərdim, döşürdüm,
Könül istədiyi naza rast gəldim.

Gözəllər gözəli, gözəllər xası,
Silindi, qalmadı könlümün pası.
Sinəni bənzətdim şonqar yuvası,
Oğlan paltarında qıza rast gəldi.

Qurbaniyəm, görcək nəzər eylədim,
Gözəlləri gördüm, həzər eylədim,
Yeddisiylə bağda bazar eylədim,
Hesabda yanıldım, yüzə rast gəldim.

Söz tamam oldu. Qızlar baxdılar ki, Qurbani onları tanımışdır. Pəri xanım bir xəlvətə çəkildi, mərdanə paltarını çıxardıb zənənə paltarı geydi, sonra Qurbaninin yanına gəldi. Bir qədər söhbətdən sonra Pəri xanım Qurbaniyə xeyir-dua verib yola saldı, atı minib özü də Gəncəyə qayıtdı.

Qurbanı mənzilbəmənzil gedib Xudafərinə çıxdı. Bir kəndə çatdı. Kənddən keçmək istəyəndə gördü bir qoca kişi kərpic kəsir.

Qurbani baxdı ki, qoca onun sözlərindən oxuyur. Ancaq düzgün oxumur. Bir kəlmə ordan, bir kəlmə burdan deyir. Kəlmələrin də baş-ayağını yeyib, kələ-kötür eləyir. Bu Qurbaniyə çox əsər elədi, öz-özünə dedi: "Adə, bu kişi mənim sözlərimi niyə belə oxuyur. Mən məyər belə söz demişəm? Mən zəhmət çəkib düz ağac əkmişəm, bu balta ilə orasını-burasını kələ-kötür eləyir. Bilsəydim mənim sözlərimi belə oxuyacaqlar, heç deməzdim". Qurbani onun yanına gəlib kərpicinin bir neçəsini ayaqladı, bəzisini əzdi, bəzisini də əyri-üyrü elədi. Qoca qayıdıb Qurbaninin üzünə dik baxıb dedi:

– Oğul, aşıqlar mərifətli olar, mən axı zəhmət çəkib o kərpicləri düzəltmişəm, sən niyə elə əzirsən? Dəli-zad deyilsən ki?

Qurbani dedi:

– Ay əmi, deyəsən acığına getdi?

Kişi dedi:

– Əlbəttə, getdi. Axı mən onların üstündə zəhmət çəkmişəm. Sən mənim zəhmətimi heç eləyirsən.

Qurbani dedi:

– Pəs a kişi, onda sən mənim sözlərimi niyə pis oxuyursan? Baş-ayağını yeyib, kələ-kötür eləyirsən? Axı o da mənim zəhmətimdi, onu da mən zəhmət çəkib düzəltmişəm.

Kişi diqqətlə Qurbaniyə baxıb dedi:

– Oğul, sən kimsən?

Qurbani dedi:

– Mən Qurbaniyəm.

Kişi dedi:

– Oğul, yəqin sənin sözlərini pis oxumuşam. Bağışlaginən. Lap yaxşı öyrənib düz oxuyaram. Sən bizim elin dil əzbərisən. Nə dərdin var mənə söylə! Mənim kərpic kəsməyimə baxma. Hər nə desən, əməl elərəm.

Qurbani dedi:

– Əmi, mənim dərdim-zadım yoxdu. Ancaq mənə bir neçə çörək ver, yol çörəyim qurtarıb.

Kişi dedi:

– Oğul, mənim yaxşı evim, yaxşı oğlanlarım var. Gedək, bu gecə bizə qonaq ol. Yol çörəyi də düzəldim. Gətirib yolda çörək vermək layiq deyil.

Qurbani dedi:

– Yox, çörək gətirirsən gətir, gətirmirsən, mən gedirəm.

Kişi nəaləc qalıb dedi:

– Onda sən bulağın ağzında dur, qoyma su gəlib ləkləri dağıda. Mən bu saat gedib sənə çörək gətirim.

Bəli, Qurbani bərənin ağzında durdu. Kişi beli ona verib evə getdi. Qurbani bərk yuxusuz olduğundan uzandı. Elə bu uzanmaqla Qurbanini yuxu apardı. Kişi gəlib gördü ki, Qurbani yatıb. Su da ləkləri, arxları dağıdıb. Kişi qıymadı onu yuxudan oyatsın. Bu yatmaqla Qurbani düz axşamacan yatdı. Bir vədə gözün açanda baxdı ki, axşamdı. Ətrafına göz gəzdirib gördü kişi səssiz-səmirsiz işləyir, dedi:

– Əmi, bəs məni niyə oyatmamısan? Axşam düşüb ki...

Kişi gülüb dedi:

– Nə eləyək axşam düşüb? Xarabalıq-zad deyil ki? gedərik evə, səhər tezdən səfər eləyərsən.

Qurbani dedi:

– Əmi, qulaq as, bu dağlara bir neçə sözüm var, deyim, sonra gedək.

Qurbani sazını çıxardıb, görək nə dedi:

Duran dağlar, sizlə həmdərd olmaram,
Dağlar, əsirgədiz qarı da məndən,
Səyrəğibin tənə-tənə sözləri,
Vurdu cida, saldı yarı da məndən.

Bu köynəyin bu yaxası, bu bağı,
Bu sinəmin bu düyünü, bu dağı,
Bağban idim, mən becərdim bu bağı.
Bağban əsirgədi narı da məndən.

Bu dünya dediyin bir boş ələkdi,
Haqqın min bir adı dildə gərəkdi,
Qurbani der: çərxi dönmüş fələkdi,
Cəbrilə ayrıldı Pəri də məndən.

Söz qurtaran kimi kişi dedi:

– Doğrudan da, mən sənin sözlərinin baş-ayağını yeyirmişəm. Kişi Qurbaniyə yalvar-yaxar eyləyib, evinə apardı. O gecə qonaq saxladı, çox hörmət elədi. Sabah açılan kimi Qurbani kişi ilə halal-hümmət eləyib yola düşdü. İsfahana getməyin binasını qoydu. De, günə bir mənzil, bir neçə gündən sonra İsfahana çatdı. Bir kişidən xəbər aldı:

– Ay qardaş, Şıx oğlu Şahın yanına gedəcəyəm. Namə gətirmişəm. Onu görə bilərəmmi?

Kişi dedi:

– Onu görmək çətindi. Ancaq mən təhrini öyrədərəm, o yol ilə tez gedərsən. Sən buradan düz get mehtərxanaya. Mehtərxanada bir mehtərbaşı var. Bir yaxşı adamdı. Olsun ki, səni Şıx oğlu ilə tez görüşdürər.

Qurbani kişiyə dua eləyib, düz mehtərbaşının yanına getdi. Salam-kalamdan sonra mehtərbaşı baxıb gördü ki, bir qəşəng, kamallı, qərib bir oğlandı, soruşdu:

– Oğul, nə təmənnaya mənim yanıma gəlmisən?

Qurbani dedi:

– Əmi, Şıx oğlu Şaha naməm var. Gəlmişəm məni onun yanına aparasan. Naməni gərək öz əlimlə verəm.

Mehtərbaşı dedi:

– Oğul, Şıx oğlu Şah üç aydan bir atlara baş çəkməyə gəlir. O gələndə mən sənə xəbər verərəm, sən burada durarsan, gəlib buradan keçəndə naməni ona verərsən. Bundan başqa ayrı əlac yoxdu.

Qurbani mehtərxanada qalmalı oldu. Nağılçı dili yügürək olar. Üç ay gəldi keçdi. Şıx oğlu Şah atlara baxmağa gəlmədi. On bir ay keçdi, genə gəlmədi. On bir aydan sonra bir səhər Qurbani mehtərxananın qapısına çıxmışdı, o tərəf-bu tərəfə baxırdı, bir də gördü ki, budu Şıx oğlu Şah gəlir. Qurbani onun yolunun üstündə dayandı. Şah gəlib keçəndə Qurbani ədəb salamı verdi, naməni ona uzatdı. Padşah naməni alıb cibinə qoydu. Atlara baş çəkəndən sonra gedib qızıl taxta çıxdı. Naməni açıb oxuyanda gördü ki, Gəncə şəhərindən Ziyad xanın qızı Pəri yazıb ki, "Qara Vəzir bizə zülm eylədi. Məni öz sevgilim Qurbanidən ayırdı. Göz yaşımla sənə namə yazıb, kömək istəyirəm. Ey ədalətli şah, bizə bir əlac eylə!"

Şıx oğlu Şah məktubu oxuyan kimi kərəmi cuşa gəldi, o saat mehtərbaşını çağırıb dedi:

– O mənə namə verən adamı yanıma gətir.

Mehtərbaşı Qurbaninin yanına gedib dedi:

– Şıx oğlu Şah səni çağırır, ancaq qorxma, toxdaq ol. Nə dərdin varsa, bitdən-birəyə hamısını söylə.

Bəli, Qurbani yol aldı, gedib padşahın barigahına girdi. Baş əyib xidmət məqamında əl-əl üstə dayandı. Şıx oğlu Şah baxıb gördü ki, bu bir cavan aşıqdı, dedi:

– Oğlan, nə mətləbə gəlmisən? Dərdin nədi? Utanıb, çəkinib eləmə. Hamısını mənə de.

Qurbani dedi:

– Şah sağ olsun, dərdimi dilimlə desəm, dilim yanar. İzin ver, sazla deyim.

Şah dedi:

– İzindi, de.

Aldı Qurbani, görək Şıx oğlu Şaha nə dedi:

Mürşüdü kamilim, Şıx oğlu Şahım,
Bir ərzim var qulluğuna, şah mənim.
On bir aydı sər tovlanda bəklədim,
Olsana dərdimə bir agah mənim.

Şıx oğlu Şah mehtərbaşının üzünə baxdı. Mehtərbaşı mətləbi başa düşüb dedi:

– Şah sağ olsun, bu da bunun baxtındandı. Həmişə üç aydan bir mehtərxanaya, atlara baş çəkməyə gəlirdin. Bu dəfə on bir ay çəkdi. On bir ay bu yazıq mənim yanımda qalıb, yolunu gözləyib.

Şıx oğlu Şah dedi:

– O yeкəlikdə Gəncədə bir adam olmadımı sənin ərzinə qulaq asıb, dərdinə çata? De görüm, kim sənə nə eləyib? Mən Qara Vəzirə divan tutacağam.

Aldı Qurbani, görək nə dedi:

Dərin-dərin dəryaları boyladı,
Xəncər alıb qara bağrım teylədi,
Oğlu ölmüş Vəzir qəza eylədi,
Getməz damağımdan dudi-ah mənim.

Yığılıban bir araya gəldilər,
Şirin canım eşq oduna saldılar,
Döydülər, söydülər, yarım aldılar,
Axıtdılar göz yaşım billah, mənim.

Talib olan dərsin alar pirindən,
Qəvvas olan dürr götürər dərindən,
Gözü yaşlı keçdim Xudafərindən,
Yüküm oldu qəmü-hicran, ah mənim.

Qurbani fikir elədi ki, mənim buna heç töhfəm yoxdu. Mən bundan necə təmənna edim. Odu ki, aldı dübarə sazı, Görək Şıx oğlu Şahdan nə cür üzr istədi:

Oxuyur bülbüllər, budu, gəldi yaz,
Qurbaninin canı yolunda niyaz,

Sərim sədağadı, üzüm payəndaz,
Candan qeyri yoxdu matahım mənim.

Şıx oğlu Şah baxdı ki, bu çox ağıllı, kamallı, çox da kamil bir adamdı, dedi:

– Oğlum, de görüm mətləbin nədi? Nə istəyirsən?

Qurbani sazı dəlləndirdi:

Gəncə dağlarından, uzaq yollardan,
Əlbəttə ki, bir murada gəlmişəm.
Eşqin sitəmindən, çərxin əlindən,
Bir şahım var, ona dada gəlmişəm.

Fəraqət evimdə otduğum yerdə,
Oxuyub elmimə çatdığım yerdə,
Bir şirin yuxuda yatdığım yerdə,
İçirdiblər mənə badə, gəlmişəm.

Bülbül idim, ayrı düşdüm gülümdən,
Fələk vurdu,cida saldı elimdən,
Qurbaniyəm, Qara Vəzir əlindən,
Şıx oğluna şikayətə gəlmişəm.

Söz tamama yetdi. Qurbani sazla dediyin sözlə də şaha danışdı. Şah bərk qəzəbləndi. O saat Becanı çağırıb dedi:

– Becan, gedərsən, bu aşığın sevgilisini alıb özünə verərsən. Əgər Qara Vəzir o yan-bu yan eləsə onun bütün nəslini qılıncdan keçirib, qapısına tikan kolu basarsan.

Becan "bəçeşm!" deyib, o saat Gəncəyə rəvan oldu.

Bunlar Gəncəyə gəlməkdə olsunlar, eşit Qara Vəzirdən. Qara Vəzir xəbər tutdu ki, Qurbani gedib Şıx oğlu Şaha şikayət eləyib, o da Becanı göndərib ki, Pərini alıb ona versin. Tez öz qohum-əqrəbasını başına yığıb dedi:

– Dəli Becan gəlib nəslimizi kəsəcək. Nə qayırıq ki, bəladan qurtaraq?

Qara Vəzir gördü ki, heç kimdən səs çıxmadı. Özü hiyləyə əl atdı. Bir erkəci öldürtdürüb, humayın ağına bükdürdü, səs saldı ki, bəs Pəri xanım ölüb. Bəli, camaat yığıldı. Gəncənin yaxınlığında bir mürsəl ocağı var, bunun yanı qəbrsanlıqdı. Erkəci götürüb qəbrsanlıqa apardılar. Bir qəbr qazıb basdırdılar, sonra da xeyrat verməyə başladılar. Mollalar dua, Quran oxuyurdular, qız-gəlinlər ağlaşırdı. Halva paylayırdılar ki, Becan kəcavə ilə gəlib, haman qəbrsanlığın yanında dayandı. Bir adam qəsdən qabı halva ilə doldurub, Becanın qabağına apardı ki:

– Buyurun, halva yeyin! Hörmətli adamımız ölüb. Ona xeyrat veririk.

Becan xəbər aldı:

– Ölən kimdi?

Dedilər:

– Ziyad xanın qızı Pəri xanımdı.

Becan üzünü Qurbanıyə çevirib dedi:

– Oğul, baxtından küs! Sevgilin ölüb. Başın sağ olsun! İndi də görüm, fikrin nədi? Nə eləyək?

Qurbani dedi:

– Becan, izin ver bir neçə söz deyim, sonra özün bilərsən, nə eləyərsən, eləyərsən.

Qurbani sazı çıxarıb döşünə basdı, aldı görək nə dedi:

Fələk, sənllə eləşməyə bir belə meydan ola,
Tut əlimi, fürsət səni, lütf ilə ehsan ola.
Getmiş idim mürşüdümə dərdimə dərman qıla,
Mən nə bilim, mən gəlincə xak ilə yeksan ola.

Kölgəsində zülflərinin bir zaman yatmaq gərək,
Tabutu sərv ağacından, kəfəni yarpaq gərək.
Tez yuyun, tez götürün ki, mənzilə çatmaq gərək,
Bari-ilahım, necə qıydın bir belə canan ölə.

Bir gül ki, dərəmmirsən, dərib xəndan eyləmə!
Bir könül ki, hörəmmirsən, yıxıb viran eyləmə!
Haqq-taladan səda gəldi: Qurbani, qəm eyləmə,
Qorxum budu: bu gün burada çoxları peşman ola.

Qurbani bu sözləri deyəndə mollalar, camaat hamısı dönüb Qara Vəzirə baxdılar. Becan da Qara Vəzirin üzünə tərs-tərs baxdı. Qara Vəzir işi belə görəndə Becana baş əyib dedi:

– Becan sağ olsun, gördüyün kimi, biz burada Pəri xanıma yas qurmuşuq, ağlayırıq. Qurbani sevgilisinin qəbri üstündə diz çöküb göz yaşı axıtmaqdansa, gəlib saz çalır, oxuyur. Mən bilmirəm bu nə cür adamdı?

Qurbani dedi:

– Vəzir Becan, üçcə kəlmə sözüm var, icazə ver onu deyim, işin nə yerdə olduğunu özün başa düşərsən.

Becan dedi:

– De!

Aldı Qurbani, görək nə dedi:

Zina əhli bihəyalar şərm-həyanı atdılar,
Adam oğlu yoldan çıxıb, bir-birin aldatdılar,
Qazılar rüşvət alıb, şəriəti satdılar,
Bu divan ki, divan deyil, ədalət divan gözəl.

Axşam olcağın məşriqdə batdı şəms, doğdu qəmər,
Yer üzünə qülqülə düşdü ki, oldu ta səhər,
Bir hüsnü camal gördüm mən, ağlım itdi sərasər,
Pərim girib o niqaba, yanında canan gözəl.

Gəl biçarə Qurbani, gərək bu cəbrə dözəsən,
Əl uzadıb o yasəmən bağdan bir gül üzəsən,
Yaşı yetirdin əlliyə, altmışa sən, yüzə sən,
Əslimiz turabdandır, məskənimiz kan gözəl.

Qurbani dedi:

– Becan sağ olsun, əmr elə qoy qəbri açsınlar, gör orada dəfn olunan nədi? Əgər Pəri xanım olsa, mənim sazımı alıb, özümü də onun yanına basdırarsan. Yox, əgər Pəri olmasa, onda görərsən ki, mən düz deyirəm, ya yox.

Becan qəbri açdırıb gördü ki, erkəcin cəmdəyini üryan edib, humayun ağına büküb basdırıblar qəbrə. Becan üzün tutdu Qara Vəzirə, bir də Pəri xanımın atası Ziyad xana, dedi:

– Bilmirəm, Pəri xanım yerdədi, göydədi, haradadırsa, bu saat gətirərsiniz bura. Yoxsa, hər ikiniz öldürtdürəcəyəm.

Ziyad xan bütün günahı Qara Vəzirin boynuna atdı. Qara Vəzir canının qorxusundan o saat Pəri xanımı Becanın hüzuruna gətirdi, Becan Pəri xanıma dedi:

– Məndən çəkinib utanma. Düzünü de görüm, bu aşığa gedərsənmi?

Pəri xanım dedi:

– Becan sağ olsun, mən öz fikrimi namə ilə Şıx oğlu Şaha yazmışdım. Amanın bir günüdü. Nə eləyirsən elə, məni bu Qara Vəzirin əlindən qurtar.

Becan dönüb Qara Vəzirə dedi:

– Qara Vəzir, budu, sənə deyirəm. Bunların xərcini çəkib Qaradağa apararsan, orada öz xərcin ilə bunlara toy elərsən, Əgər dediyimi elədin, canın qurtardı, eləmədin, bütün nəslini kəsəcəyəm. Şıx oğlu Şahın əmrini gərək yerinə yetirəm.

Qara Vəzir nə qədər elədi olmadı. Becan ondan toyun xərcini alıb, Qurbaniyə toy eləməyə başladı. Qurbani öz toyunun ilk məclisində aldı görək nə dedi:

Özün şah, aşikar adın həqayiq,
Özüncə cilovdar Cəbrayıl, Pərim!
Dua əfsunudu firiştə zülfün,
Cəmi bəlalardan təfail, Pərim!

Özün naseh, kəlamında imamət,
Səcdə elər ona gündə təmamət,
Əcəb norəstədi xub qəddü-qamət,
Əcəb şəhla, əcəb şəmayıl Pərim!

O məhrəm sirrinə əyyarlığım yox,
İqrarıma, bil ki, inkarlığım yox,
Mənim səndən qeyri heç bir yarım yox,
Canü baş yoluna ha qayil, Pərim!

Qurbani, girişmişsən, meydanın dərin,
Oxuyanlar bilir dəryanın dürün,
Bir qıya baxanda yandırdı pərin,
Yetmiş min il qaldı Cəbrayıl, Pərim!

Qurbani sözünü tamam elədi. Toy başlandı, yeddi gün, yeddi gecə yedilər, içdilər, çaldılar, oynadılar, hamısı da Qara Vəzirin hesabına. Səkkizinci gün kəcavələr bəzəndi. Qurbani ilə Pəri Qaradağa yola düşdülər. Karvan yola düşəndə bir aşıq sazını döşünə basıb, Qurbaninin buradakı toyunu bu duvaqqapma ilə bağladı:

Qaşı qəmər, gümüş kəmər,
Qurşayıb belə yaraşır.
Üzündə xal, dodağı bal,
Xam şəkər dilə yaraşır.
Bir bəri bax, bəyaz buxaq,
Darçına, hilə yaraşır.
Dərin kamal, güllü dəsmal,
Al gözəl ələ yaraşır.
Ay qabağa, gül yanağa,
Yanağı gülə yaraşır.

Gözlər ala, başa bəla,
Çəkilib qara qaşları.
Oğrun baxdı, evim yıxdı,
Etmədi çara qaşları.
Zülmü çox, insafı yox,
Aparır dara qaşları.
Huş getdi, Məcnun etdi,
Saldı diyara qaşları.
Ağıl zaydı, qıldı sayıl,
Düşməyə çölə yaraşır.

Qaş oynatdı, işvə satdı,
Mayıl oldum gül camala.
Bimürvət, verib ziynət,
Tər əndama, xətti-xala.
İlğar verdi, qəsdə girdi,
Sonra düşdü kəc xəyala.

Sevdim yaman, çəkdim aman,
Əcəb düşdüm qeylü qala.
Hərzə sözü, cadu gözü,
Fitnəyə, felə yaraşır.

Kaman qurub, oğrun durub.
Mənə işvə-naz eyləyir.
Corab toxur, cəh-cəh oxur,
Qumru tək avaz eyləyir.
Yanağı gül, saçı sünbül,
Zimistanı yaz eyləyir.
Dərdim bilir, şirin gülür,
Pozğun kefim saz eyləyir.
Sevdim əzəl, əcəb gözəl,
Mahala, elə yaraşır.
Qurban ona örtüb cuna,
Görəsən haralıdı bu?
Fal açıb, ovçudan qaçıb,
Dağların maralıdı bu,
Yan-yan baxır, kirpik qalxır,
Qaşları qaralıdı bu.
Dostun atıb, yasa batıb.
Hüseyn tək yaralıdı bu.
Ömrün üzür, əcəb süzür,
Sonadı, gölə yaraşır.

Aşıq Qərib

Sizə kimdən və nə yerdən danışım, Təbriz vilayətindən. Təbriz vilayətində Məmməd söydəgar adında bir kişi vardı. Bunun dünya üzərində bir qızı və iki oğlu vardı. Böyük oğlunun adı Rəsul, kiçiyinin adı Heydər idi, qızının adı isə Nərgiz xanım idi. Məmməd söydəgar bir müddət ticarətlə məşğul oldu, o, övladlarını öz tərbiyəsi altında böyüdüb hərəsini müəyyən yaşa yetirdikdən sonra bunları məktəbə qoydu. Bir gün Məmməd söydəgar bazarda əhvalını pis görüb haman saat dükanını bağlaıb evə gəldi, Arvadı Banıxanım əri üçün yer salıb türkəçarə eləməyə başladı. Amma getdikcə Məmməd söydəgarın əhvalı pisləşdi. Məmməd söydəgar bir gün arvadı Banıxanımı çağırıb dedi:

– Arvad, ölüm ki var, yuxu kimi bir şeydir, kim bilir bəlkə bu gün, sabah düşüb öldüm. Sənə deyəcək iki vəsiyyətim vardır. Birincisi budur ki, oğlum Rəsul üçün varlı yerdən qız alma, ikinci vəsiyyətim də budur ki, qızım Nərgizxanımı varlıya ərə vermə. Çünki o təbəqə çox nanəcib olur.

Məmməd söydəgar vəsiyyətin tamam etdikdən sonra ömrünü övladlarına bağışladı. Rəsul atasını layiqicə dəfi etdikdən sonra başladı ehsan verməyə.

Sizə kimdən və nə yerdən danışım, İsfahan şəhərindən. İsfahan şəhərində qırx lotu vardı. Neçə vaxt idi ki, bu lotuların əlinə bir ov keçmirdi. Bir gün lotubaşı dedi ki, gəlin gedək padşahın xəzinəsini kəsək. Lotular bu niyyətlə evdən çıxıb padşahın imarətinə tərəf gəlməkdə oldular. Günorta idi. Lotubaşı ertədən yolu bələdləyib xəzinənin yarılmasını axşama qoydu. Vaxt təyin eləyib geri qayıdırdılar ki, bir keçəl əlində iri qovun yolla gedirdi. Lotubaşı keçəli tutub qovunu əlindən aldı. Keçəl ha ağladı ki, qovunu ver, lotubaşı vermədi, axırda keçəl dedi:

– Lotubaşı, sən qovunu ver, mən sənə bir xeyirli yer deyim.

Lotubaşı dedi:

– O necə yerdir?

Keçəl dedi:

– Təbriz şəhərində Məmməd söydəgar deyilən biri vardı. O, bu günlərdə vəfat edibdir. Oğlu Rəsul atasının var-yoxunu ehsan verib, fəqir-füqəraya paylayır.

Lotubaşı keçəlin qovununu verdi və yoldaşlarına dedi:

– Uşaqlar, yolçu yolda gərək.

Qırx lotu bir-birinə qoşulub Təbriz deyib yola düşdülər.

Məmməd söydəgarın oğlu Rəsul atasının qırxını verirdi. Axşam azanı idi. Gördü ki, qapı döyülür, durub çıxdı bayıra. Qapını açıb gördü ki, bir dəstə adam-biri molla, biri tacir, biri məşədi, biri axund qiyafəsində qapıda hazır durublar. Rəsul xəbər aldı:

– Qonaqlar,siz kimsiniz və kimi istəyisiniz?

Lotubaşı dedi:

– Biz mərhum atan Məmməd söydəgarın ən yaxın dostlarındadıq. Atanın ölümünü eşidib gəlmişik başsağlığı verək

Lotular elə qapıda başladılar ağlamağa. Rəsul baxıb gördü ki, bunlar gözlərindən yaşı bahar buludu kimi axıdırlar. Rəsul başladı bunlara təsəlli verməyə. O, qırx lotunu qonaq otağına dəvət etdi. Lotular oturub bir qədər mərhumu yalanbaşdan yad edib, göz yaşı axıtdılar. Bunların içərisində bir axund vardı, başladı yasin oxumağa. Rəsul bunları həqiqi dost bilib süfrə saldı. Hər cür yeməkdən araya gətirdi. Lotular o ki var yedilər. Qurşaqlarının altını bərkidəndən sonra "fatihə" deyib əllərini süfrədən çəkdilər. Süfrə yığıldı, araya çay gəldi. Çay vaxtında lotubaşı əlini cibinə salıb bir dəstə qumar kağızı çıxarıb araya atdı. Rəsul diqqətlə baxırdı. Yan alıb lotubaşıdan xəbər aldı:

– Əmi, bu kağızlar nə olan şeydir?

Lotubaşı dedi:

– Bu kağızların adına qəmdağıdan kağızı deyirlər. Biz mərhum atanın ehsan məclisində çox ağlayıb göz yaşı tökmüşük. Ürəyimiz çox kədərlənmişdir. Bir qədər bu kağızla oynayaq ki, bəlkə ürəyimiz açılsın.

Rəsul xəbər aldı:

– Bu kağızı nə cür oynayırlar?

– Bunu bala, pulla oynayırlar. İstəyirsən sən də bizimlə oyna.

Rəsul razı oldu, dedi:

– Mən razıyam, ancaq oynamağı bacara bilmirəm.

Lotubaşı dedi:

– Nə eybi var, öyrədərik bacararsan.

Başladılar Rəsula qumar oynamağı öyrətməyə. Rəsul qumar kağızlarını tanıyıb oyunu öyrəndikdən sonra anasından bir qədər pul götürüb başladı oynamağa.

Lotular bir neçə dəfə bilə-bilə öz pullarından Rəsula uduzdular. Oyun Rəsulun çox xoşuna gəldi, başladı şirin-şirin oynamağa. O vaxta qədər oynadı ki, bir vədə yan-yörəsinə baxıb gördü ki, atasının nə pulları vardı, hamısını uduzub. Belə ki, səhər çörək almağa bir qara quruşu da qalmayıb.

Rəsul ayağa durub qonaqlar üçün yer saldı, özü də öz otağına keçib yatdı.

Sabah açılan kimi lotubaşı ayıldı, yoldaşlarını səsləyib dedi:

– Uşaqlar, bu beyfərasətdə daha pul qalmadı, gəlin gün çıxmamışkən yayınaq.

Lotular qalxıb hərə öz yorğan-döşəyini və evdə olan ağırdan-yüngüldən nə vardısa, yığışdırdıqdan sonra İsfahan deyib birbaş getməkdə olsunlar.

Gün bir boy qalxmışdı. Rəsul durub ayağa əl-üzünü yuyub dedi:

– Gedim bir qonaqlara baş çəkim.

Durub qonaq otağına gəldikdə nə gördü, qapı açıqdır, qonaqlar da yoxdur. Bir o yana, bir bu yana baxıb gördü ki, yatdıqları yorğan-döşək və balışları da aparmışlar.

Kor-peşman anasının yanına gəlib onu işdən hali etdi. Rəsulun anası dedi:

– Oğul, onlar İsfahan lotuları imiş, eybi yoxdur, sən də get bir sənətə qurşan, nə edək, fələk yazımızı belə yazıbmış.

Rəsul anasının bu sözündən sonra evdən bayıra çıxıb birbaş Rastabazara gəldi, istədi dəmirçilik sənətinə qurşansın, xoşuna gəlmədi. Bir qədər irəli gedib gördü ki, bir kişi qabağına bir qədər taxta yığıb dülkəriklə məşğuldur. Bu sənət də onun xoşuna gəlməyib, istədi pinəçilik ilə məşğul olsun. Bir saata kimi pinəçi dükanının qabağında durub pinəçilərə baxdı. Bu sənət də xoşuna gəlmədi.

Rəsul birbaş bazar yuxarı getməyə başladı. Gördü ki, bir qoca kişi balaca bir dükanda oturub papaq tikməklə məşğuldur. Rəsul dayanıb dükanın qabağında diqqətlə papaqçıya baxırdı. Qoca papaqçı başını yuxarı qaldırıb gördü ki, dükanın qabağında bir nəfər oğlan dayanıb.

Papaqçı xəbər aldı:

– Oğul, nə istəyirsən?

Rəsul dedi:

– Əmican, iş axtarıram.

Papaqçı dedi:

– Bala, mənə şəyird durarsanmı?

Rəsul dedi:

– Nə üçün durmaram. Aylığım necə olacaq?

Papaqçı dedi:

– Əlinin qabiliyyətinə baxaram.

Rəsul razı oldu. Bir gün cümə axşamı idi, Rəsul ustasından izin alıb atasının qəbrini ziyarət etmək üçün qəbiristanlığa yollandı. Atasının qəbri üstə oturub ağladıqdan sonra: – İlahi, məni bu zillətdən qurtar-deyib, yenidən ağlamağa başladı. O qədər ağladı ki, bihuş olub yerə sərildi.

Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misalı bir bağdadır, bunun başının üstündə ceyran kimi gözəl qız, qaş kaman, gözlər piyalə, burun hind fındığı, sinə Səmərqənəd kağızı, məmələr şamama kimi yumurlanıb ipək köynəkdən baş vermişdir, baxanın əqlini aparır. Bu qızın yanında bir dərviş, dərviş qızın əlini Rəsula uzadıb:

– Rəsul, bu qız tiflisli Xacə Sənanın qızı Şahsənəmdir, bunu sənə buta verirəm, çox çəkməz biri-birinizə çatarsız, – deyib çəkildi.

Rəsul Şahsənəmin gözəlliyini görcək əqli başından çıxıb, dəlicəsinə ayılıb, gördü ki, qəbiristanlıqdadır, amma yanında heç kimsə yoxdur. Vahimə içərisində qalıb, bədəninə qorxu düşdü. Ağzı köpüklənə-köpüklənə birbaş evlərinə tərəf qaçmağa başladı. Anası Banıxanım oğlunu bu halda görən kimi xəbər aldı:

– Oğul, bu nə gündür düşübsən, sənin üst-başını kim cırmışdır?

Rəsul anasının sualına cavab verməyib hönkür-hönkür ağlamağa başladı.

Rəsulun səsinə ətrafdakı qonşular yığılıb xəbər aldılar ki, nə var, nə olmuşdur?

Rəsul dedi:

– Mən dərdimi dil ilə desəm, dilim alışıb-yanar. Mənə bir saz verin, dərdimi sazla deyəcəyəm.

Haman saat Rəsul üçün bir saz gətirdilər. Rəsul ürəyi alışa-alışa sazı sinəsinə basıb, görək nə dedi:

Qadir həqdən mən bir dilək dilədim,
Şükür muradımı verdi, ah mənim.
Cümə axşamında, cümə günündə,
Ərənlər yerişdi nəzərgah mənim.

Gənc yaşımda gördüm dünya qəmini,
Bu zalım fələyin sərəncamını,
Nuş etdim röyada eşqin camını,
Göründü gözümə doğru rah mənim.

Vaqeədə Rəsula buta verdilər.
Doldurub camını buta verdilər.
Tiflisdə Sənəmi buta verdilər.
İşim oldu zikri illəllah mənim.

– Rəsul sözünü tamam edib ağlamağa başladı. Anası Banıxanım oğlunun boynunu qucaqlayıb dedi:

– Oğul, heç bir şey başa düşə bilmədim, açıq de görüm, nə demək istəyirsən?

Rəsul sazını sinəsinə basıb anasını başa salmaq üçün görək nə dedi:

Başına döndüyüm gül üzlü ana!
Ana, mən Tiflisə getməli oldum!
Bir dilbərin eşqi düşdü sərimə,
Ana, mən Tiflisə getməli oldum!

Əlimə almışam sədəfli sazı,
Fələk yazdı mənə belə bir yazı.
Yuxumda görmüşəm bir ala gözü,
Ana, mən Tiflisə getməli oldum!

Rəsulam, ahıma dağlar dayanmaz,
Dərdim çoxdur mənim kimsələr bilməz,
Can ana, bu yerlər mənə əl verməz,
Bacı, mən Tiflisə getməli oldum!

Rəsul sözünü tamam etdikdən sonra anası dedi:

– Oğlum, sən hara, Tiflis hara? Gəl sən bizi gözüyaşlı qoyub getmə.

Rəsul dedi:

– Anacan, dayanmağa halım yoxdur, gərək mən gedim.

Anası dedi:

– Oğul, indi ki, gedirsən, bizi də özünlə apar.

Rəsul razı olub anasını, bacısını və bir də kiçik qardaşı Heydəri yanına alıb dost-aşnası ilə halal-hümmət etdikdən sonra Təbriz şəhərindən çıxıb Tiflisə getməyə başladılar. Bir müddət gəldikdən sonra yolda bunları bərk boran tutdu. Haraya getdiklərini bilməyib, çaşıb qaldılar.

Rəsul gördü ki,, kiçik qardaşı ağlayır, Nərgiz bacısı bihuş bir halda yerə yıxılıb. Belə bir vəziyyəti görərək sazını sinəsinə alıb öz halına münasib görək nə dedi:

Vətənimdən etdin məni didərgin.
Çərxin dönsün fələk, Heydərim ağlar.
Bu duman, bu çiskin, bilmirəm nədir,
Hər tərəfin neçin, qaralı dağlar!

Göydən enir yerə ləpə-ləpə qar,
Bacı, qardaş, ana üzümə baxar,
Biz ölsək burada sənsən günahkar,
Yarı saldın məndən aralı, dağlar!

Kimimiz var, burda bizi dindirə,
Kimsənə yox, halım yara bildirə,
Qorxum budur tufan bizi öldürə,
Rəsul köysü qala yaralı, dağlar!

Söz tamama yetən kimi boran dayandı. Başladılar yol getməyə.

Ustad dili yügürək olur. Rəsul, anası, bacısı və kiçik qardaşı Heydər sağ və salamat gəlib çatdılar Tiflis şəhərində Kotan dağına. Bunlar qəribdilər. Heç bir yeri tanımayırdılar. Bir qədər yol gəldikdən sonra Rəsulun yolu bir qarının daxmasının qabağından düşdü. Qarı bayıra çıxdı. Rəsul qarını görən kimi sazın sinəsinə basıb görək ondan nə xəbər aldı:

Başına döndüyüm, qurban olduğum,
Şəhr Tiflis dedikləri budumu?
Sənəm yarım məlhəm eylər yaraya,
Şəhr Tiflis dedikləri budumu?

Qarı baxıb gördü ki, bunlar qəribdirlər. Bu tərəfdən də Sənəmin adını çəkdi.

Aldı qarı:

Gəzə-gəzə sən də gəldin buraya,
Eşitdiyin şəhr Tiflis buradır.
Sənəm burda məlhəm eylər yaraya,
Eşitdiyin şəhr Tiflis buradır.

Aldı Rəsul:

Baxça burda, bağban burda, bar burda,
Heyva burda, alma burda, nar burda,
Xacə adlı bir qohumum var burda.
Dedikləri, şəhr Tiflis budumu?

Aldı qarı:

Baxça desən, bağban desən var burda,
Cana min cür dərman desən var burda,
İndi bildim, oğlan, getmə, qal burda.
Eşitdiyin şəhr Tiflis buradır.

Aldı Rəsul:

Rəsulam, silinməz gönlümün pası,
Sərimdə dolanır eşqin sevdası,
Tiflis əhli, Şahsənəmin babası...
Dedikləri, şəhr Tiflis budumu?

Aldı qarı:

Məryəməm, mərdlərin qurban sərinə,
Hər axşam Şahsənəm çıxar sərinə,
Qorxma oğlan, verrəm əlin-əlinə,
Eşitdiyin şəhər Tiflis buradır.

Söz tamama yetişdi. Dünyada ustadlar dilində iki cür qarı var. Biri köpəyi qarı, biri ipəyi qarı. Bu qarı ipəyi qarıdandı. Xoş sifətlə Rəsula dedi:

– Oğlum, sən qal burda, mən gedim Şahsənəm xanıma muştuluq verim.

Rəsul dedi:

– Qarı nənə, tələsmə!

Qarı dedi:

– Ay oğul, necə yəni tələsməyim. Düz bir il ruzigardır ki, Şahsənəmin nə gecəsi gecədir, nə gündüzü gündüz. Hələ mənim özümü də burada aylıxçı qoyub ki, Tiflis şəhərinə yeni gələn qəriblərin xəbərini ona yetirim. İndi şükür olsun allaha ki, sən özün öz əlin-ayağınla gəlib çıxmısan. Mən də kasıb bir arvadam. Mənə də bir xələt çatar.

Rəsul dedi:

– Qarı nənə, bu yaxınlıqda qəhvəçi dükanı var, ya yox?

Qarı dedi:

– Nə üçün yoxdur, istəyirsən elə buradaca sizin üçün çay qoyum. Siz çayınızı için, mən gedim Şahsənəmə xəbər verim.

Rəsul dedi:

– Qarı nənə, xəbəri sonra verərsən. Düş qabağımıza, bizi apargilən qəhvəxanaya.

Qarı Rəsulgili qatıb qabağına birbaş Dəli Mahmudun qəhvəxanasına apardı.

Rəsul qarının ovcuna bir qızıl beşlik basıb yola saldı.

Dəli Mahmud Rəsulun anasını, bacısını arvadlara məxsus olan otağa apardı. Qayıdıb Rəsuldan xəbər aldı:

– Ey qərib, hardan gəlib, haralara gedərsən?

Rəsul dedi:

– Təbrizdən gəlirəm.

Qəhvəxanada oturanlar Təbriz adını eşidən kimi yerbəyerdən dedilər:

– Qərib, Təbrizdən bizim üçün bir neçə söz oxu!

Rəsul sazın sinəsinə alıb, görək Təbrizi necə tərif elədi:

Ay ağalar, gəlin sizə söyləyim,
Açılar baharda gülü Təbrizin.
Toyda, bayramlarda atlaz geyirlər,
Kəsilməz yaşılı, alı Təbrizin.

Təbrizin ətrafı dağdır, meşədir,
İçində oturan bəydir, paşadır,
Səkkiz min məhəllə, beş min küçədir,
Çarşısı, bazarı, yolu Təbrizin.

Pəhlivanlar qisvət geyir, yağlanır,
Cümlə bəzirkanlar burda əylənir,
Üç yüz altmış yükü birdən bağlanır,
Əldən-ələ gəzər malı Təbrizin.

Söz tamam olan kimi yerbəyerdən "afərin!" dedilər.

Bu şəhərdə Güloğlan deyilən birisi vardı. Bu mağamda o əli sazlı gəlib qəhvəxanaya çıxdı, bir-iki hətərən-pətərən dedikdən sonra dedi:

– Görəsən bu Tiflis şəhərində mənim qabağıma bir aşıq çıxa bilərmi?

Ellik yerbəyerdən qalxıb dedilər:

– Güloğlan, sazını vur qoltuğuna var get, sən Qəribin qabağında heç bir iş görə bilməzsən.

Güloğlan dedi:

– Hanı o Qərib?

Bclə dcyəndə Qərib çıxıb qabağa, alıb sazı sinəsinə dedi:

– Güloğlan, dörd yarpaq söz deyəcəm, cavab verə bilsən, mən buradan birbaş Təbrizə qayıdacağam və aşıqlıq sözünü üstümdən götürəcəyəm.

Əhli-məclis razı oldu, alıb görək nə dedi:

Xəbər söylə mənə, ay ustabaşı,
Əlindəki sazı necə çalırsan?
Əzəl mənə ulduzların sayın de,
Ver cavabım, qalsın başın ağrısız!

Güloğlan cavab verə bilmədi. Qərib alıb ikinci yarpağını, görək necə dedi:

O necə şeydir ki, dolar, boşalar,
Ruzigar əsdikcə yerində durar,
Geyibən yaşılı, gələr boşalar,
Ver cavabım, qalsın başın ağrısız!

Qərib gördü ki, Güloğlan qaçmaq istəyir, dedi:

– Qaçma, axır yarpağını deyim.

Qərib:

Qəribəm, sualım eşit, döz indi,
Qəvvas isən dəryalarda üz indi,
O nədir ki, baş yox, əli yüz indi,
Ver cavabım, qalsın başın ağrısız!

Söz tamam oldu. Güloğlan baxıb gördü ki, bunun qabağında dayanan halı yoxdur, sazın vurub qoltuğuna çıxıb getdi.

– Məclis dağılandan sonra Dəli Mahmud Qəribdən nə üçün gəldiyini xəbər aldı. Qərib başına gələni Dəli Mahmuda danışıb Şahsənəmin ona buta verildiyini söylədi.

Mahmud dedi:

– Qərib, qəm yemə, nə qədər bu bədənimdə can var, Sənəmi sənə yetirməyə çalışacağam.

Qərib burada qalmaqda olsun, sənə xəbər verim Şahsənəmdən, necə ki, Qəribin yuxusuna girib ona Şahsənəmi buta verdilər, Şahsənəmin də yuxusuna girib Qəribi ona buta verdilər. Şahsənəm gün o gündən Qərib deyib dəli-divanə olmuşdu. Bu tərəfdən qarı özünü saxlaya bilməyib, yetirib əhvalatı Şahsənəmə söylədi. Şahsənəmin atası eşitdi ki, Dəli Mahmudun dükanına bir qərib aşıq gəlib, çalıb-oxumaqda ona tay tapılmır, görməmiş Qəribin ustalığına heyran oldu. Dəli Mahmud üçün xəbər göndərdi ki, qonağın göndərsin bizə.

Dəli Mahmud Qəribi işdən hali etdi, hər ikisi o gün Xacənin evinə getdilər.

Şahsənəmin atası Qəribi xoş sifətlə qəbul etdi, bir qədər söhbətdən sona Qərib aldı sazı kökləməyə.

Bu anda Şahsənəmin qulluqçusu Ağcaqız gəlib keçəndə qəribi gördü, gözü Qəribə düşdü, dayanıb qapının arxasından baxdı. Qərib onu görüb hər iki tərəfdən dərdi cuşa gəldi, alıb görək nə dedi:

Bir söz ilə eldən elə atıldım,
Bu qərib ellərdə yaxdı nar məni,
Həsrətini çəkib yandım, kül oldum,
Ahu gözlüm, nə haldayam, gör məni.

Səbrə taqətim yox, gəlməz qərarım,
Ərşə buləND olub ah ilə zarım,
Bəlli deyilmidir sənə əhvalım?
Saraldıbdı qoynundakı nar məni.

Qərib belə oxuyanda Ağcaqız özünü saxlaya bilmədi, tez yüyürüb Şahsənəmin yanına getməktə olsun, aldı Qərib:

Qərib deyir: getmə könül oğrusu,
Başımdan keçməz heç sevda ağrısı,
Sənə mən söyləyim sözün doğrusu,
Gəl maralım, al maralım, sar məni.

Söz tamama yetdi, Şahsənəmin atası Qəribin belə oxumasından xoşlanıb, dedi:

– Qərib, bu axşam mənə qonaqsan.

Qərib razı oldu. Xacə durub o biri otağa keçdi ki, tədarük görsün.

Sənə deyim Ağcaqızdan. Ağcaqız özünü yetirib Şahsənəmin yanına axsaya-axsaya dedi:

– Atanın bir Qərib adında qonağı gəlib, səhərdən bəri elə oxuyur, gəl tamaşa elə.

Şahsənəm bir qaravaş da götürdü. Hər üçü gəlib pəncərədən bu biri otağa baxmaqda olsunlar, Qərib bunları görən kimi alıb sazı görək nə dedi:

Pəncərədən mayıl-mayıl baxan yar,
Üç gözəlin birisinə mən qurban.
Şirin canı eşq oduna yaxan yar,
Üç gözəlin birisinə mən qurban.

Ağcaqız dedi:

– Xanım, bu mənim üçün oxuyur. Bayaq da məni görən kimi oxudu.

Şahsənəm Qəribi görən kimi bildi ki, bu onun butasıdır. Ağcaqıza cavab vermədi. Ağcaqız bir az da özünü qabağa verdi.

Aldı Qərib:

Birisinin ayağında məsti var,
Birisinin can almağa qəsdi var,
Birisinin burda yaxın dostu var,
Üç gözəlin birisinə mən qurban.

Ağcaqızın ayağında məst vardı, məst adı eşidən kimi dedi:

– Gördünüz, mənim üçün oxuyur.

Bunlar başladılar çəkişməyə, kiçik qulluqçu da qarışdı bunlara. Qərib bunu görəndə axır yarpağı görək necə tamamladı:

Üç gözəlin biri bizə qohumdur,
O birisi əl dəyməmiş qovundur,
Aşıq Qərib, birisi sənin ovundur,
Üç gözəlin birisinə mən qurban.

Söz tamama yetdi, Ağcaqız yenə dedi:

– Xanım gördünmü, mənim üçün oxuyur.

Belə deyəndə Şahsənəmin əlində aynası vardı, aynanı əlində tutub gözlərindən bahar buludu kimi yaş axıtdı.

Qərib butasını belə görəndə yenidən sazı alıb, görək nə dedi:

Sərxoş-sərxoş baxır eyvan otaqdan,
Şahsənəm əlində aynası gözəl,
Cümlə aləm gəlir tamaşasına,
Büllur piyaləsi, sağrısı gözəl.
Yar məni dindirir şirin dil ilə,
Gözə sürmə çəkir gümüş mil ilə,
Otağı bəzənib qızıl gül ilə,
Süsəni, sünbülü, xalısı gözəl.

Alışan otaqlı, xoş imarətli
Gözəllər içində qəddi-qamətli,
Ahu baxışlıdır, laçın cürətli,
Uçmağa, qonmağa, cıqqası gözəl.

Aşıq Qərib sözünü deyər avazla,
Dindirəndə canım alır, o nazla,
Yanım eyvanında cüt qoşa qızla,
Şahsənəm əladır, hamısı gözəl.

Söz tamama yetib, Şahsənəm bir qədər toxdaq tapıb qızlarla öz otağına çəkildi.

Xacə gəlib çıxdı, bir qədər şirin söhbətdən sonra məclis quruldu. Tiflisin yaxın-uzaq yerlərindən Qəribin məclisinə axışıb gəldilər. Xacə dedi:

– Qərib, mənə Ərzurumu tərif elə, səsin mənə çox xoş gəlib.

Xacə belə deyəndə görək Qərib nə dedi:

Ağalar, ərzimə bir qulaq verin!
Adı dildə dastandır Ərzurumun,
Bir belə səfalı yer görünməyib,
Şanı dildə dastandır Ərzurumun.

Səfalıdır o yerlərin havası,
Hər tərəfdən gəlir bülbül səsası,
Ahular yığnağı, laçın yuvası,
Adı dildə dastandır Ərzurumun.

Qərib sözünü tamam etdi, qonaqlar yeyib-içdikdən sonra hərə öz mənzilinə getdi. Qərib üçün Xacə yer salıb otaqların birində onu rahat etdi.

Şahsənəm gecəni araya salıb Ağcaqızı Qəribin dalınca göndərib özü bunları bağda gözləməkdə olsun.

Ağcaqız qalxıb Qəribin yatdığı otağın qabağına gəldi. Qərib yatmamışdı. Ağcaqız pəncərədən onu səslədi. Qərib pəncərədən boylanıb gördü ki, gələn Ağcaqızdı. Xəbər aldı:

– Nə üçün gəldin?

Ağcaqız dedi:

– Qərib, Şahsənəm səni bağda gözləyir.

Qərib Şahsənəmin adını eşidən kimi özünü pəncərədən atıb, Ağcaqızla bağa getdilər.

Şahsənəm üç gecəlik ay kimi ağacların arasından çıxdı. Yaşılbaş sona kimi bulaq başında durub, Qəribin yolunu gözləyirdi. Qərib özünü yetirib gördu ki, bulaq başında butası dayanıb siyah saçların hörür, şövqü də suya düşüb, gözləri intizardadır, dedi:

Ey dili-qafil, dil ilə buna yanaşsam, dilim alışar. Alıb sinə sazını, görək nə dedi:

Bulağın başında saçın hörəndə,
Göründü gözümə maya qaşların,
Gör necə düşübdür sulara şövqün,
Bənzəyir üç günlük aya qaşların.

Camalın veribdir cahana şövqü,
Hər baharda artar bülbülün zövqü,
Yandırdı qəlbimi camalın şövqü
Oxşayır göz üstə yaya qaşların.

Qaşların bəzirgan, gözlərin xacə,
Baxışın sehirgar, yanağın qönçə,
Sevindir Qəribi barı bir gecə,
Ağlımı veribdir zaya qaşların.

Söz tamama yetdi. Şahsənəm dönüb Qəribi dalı qatda görən kimi atılıb boynuna sarıldı, iki aşiq sarmaşıq kimi sarılıb bir-birinə, yumşaq otların üstündə uzandılar. Ağcaqız da bir tərəfdən bunların keşiyini çəkməkdə olsun.

Səhərin təmiz yeli Şahsənəmin ruxsarına dəyib ayıltdı Qərib dedi:

– Ey mənim gözümün işığı, qəlbimin soltanı, gedirsən, nədir?

Şahsənəm dedi:

– Bəli, gedirəm, məni atamdan istə, atam məni sənə verər, verməsə, mən heç kimə getməyəcəm.

İki həsrətli əhd-peyman edib ayrıldılar.

Qərib Şahsənəmdən ayrılaraq anasının yanına gəlib dedi:

– Ana, Şahsənəmi mənim üçün istə.

Qəribin anası Dəli Mahmudu da özü ilə götürüb Xacənin yanına gəldilər.

Qəribin anası Şahsənəmi qayda üzrə oğlu üçün istədi.

Xacə dedi:

– Nə eybi var, razıyam, ancaq oğlun qırx kisə qızıl başlıq verməlidir.

Qəribin anasının boğazının yolu qurudu, birbaş oğlunun yanına gəlib dedi.

– Oğul, Xacə qırx kisə qızıl istəyir.

Qərib dedi:

– Ana, allahın köməyi ilə qırx kisə qızıldı qazanaram.

Qərib sazını alıb evdən bayıra çıxdı. Gəlib Dəli Mahmudun yanına, Xacənin dediyini ona yetirdi. Dəli Mahmud dedi:

– Oğul, allah kərimdir, səbr et, görək işin axırı haraya çıxır.

Qərib burada qalmaqda olsun.

Şahvələd Şahsənəmin əmisi oğlu idi. O, eşitdi ki, əmisi qızını Qərib adında bir nəfər təbrizli istəyir, qız da onu istəyir, elçi göndərdi əmisinin yanına. Xacə Şahsənəmi Şahvələdə nişanladı. Elçilər mübarəkbad edib bu şad xəbəri Şahsənəmə yetirdilər.

Şahsənəm eşitdi ki, atası Qəribin elçilərini rədd edib, Şahvələdə söz verib, günü oldu qara, gecə-gündüz Qərib deyib ağlamağa başladı.

Bu tərəfdən Şahvələd gözəl bir xonça tutub bir imansız qarı tapıb xonçanı göndərdi Şahsənəm üçün.

Qarı Şahsənəmin yanına gəlib xonçanı qoydu qabağına. Şahsənəm xəbər aldı:

– Qarı nənə, bu xonçanı kim göndərib?

Qarı dedi:

– Bıy, qadan alım, necə ki, kim göndərib, sənin nişanlın Şahvələd!

Şahsənəm Şahvələd adını eşidən kimi xonçanı alıb tulladı. Ağcaqıza da tapşırdı ki, köpək qarını atın pilləkəndən, itib getsin cəhənnəmə.

Ağcaqız qarını itələyib saldı pilləkəndən aşağı. Qarı diyirlənə-diyirlənə enib, – vay öldüm! – deyib, onbasını tuta-tuta özünü yetirdi Şahvələdə.

Şahvələd qarının gəlməyini görcək, çıxıb xəbər aldı:

– Qarı nənə, necə gəldin?

Qarı dedi:

– Ağrın ürəyimə, necə gələcəyəm? Nişanlın Sənəm xonçanı məndən qabaq həyətə tullayıb özümü də o qədər döydü ki, rəhmətlik nənəmin adı yadımdan çıxdı.

Şahvələd dedi:

– Qarı nənə, sən dünyagörmüş bir adamsan, biz necə edək ki, Qəribi bu Tiflisdən rədd edək?

Qarı dedi:

– Nə bilim, mən sizin işinizə qatışan deyiləm.

Şahvələd cibindən bir çəngə pul çıxardıb qarının ovcuna basıb dedi:

– Qarı nənə, nə olar, fikirləş görək.

Qarı pulu görən kimi gözləri işıqlanıb dedi:

– Mənim gözüm üstə.

Qarı ayrılıb Qəribi axtarmaqda olsun.

Şahsənəmin Qəribə aşiq olması və Şahvələdin adamını qovması xəbəri qızın atasına yetişdi. O, öz arvadını Şahsənəmin yanına göndərdi ki. "get qızına öyüd ver, bizi biabır eləməsin. Qərib kasıb bir oğlandır, o bizə tay deyil".

Şahsənəmin anası durub qızının yanına gəldi, ərinin dediyini qızına söylədi, Şahsənəm başını aşağı salıb bahar buludu kimi gözündən yaş axıda-axıda görək anasına nə cür cavab verdi:

Başına döndüyüm gül üzlü ana,
Ana, mən yazığı nə dindirirsən?
Südünü əmmişəm, mən qana-qana,
Ana, mən yazığı nə dindirirsən?

Sarılıxda heyvalardan sarıyam,
İsmim pakdır, sulardan da duruyam,
Verməsəz də mən Qəribin yarıyam,
Ana, mən yazığı nə dindirirsən?

Şahsənəm belə deyəndə anası onun ağzına bir sillə vurub dedi:

– Mən deyirəm bizi biabır eləmə, sən deyirsən, mən Qəribin yarıyam.

Sənəm dedi, onda qulaq as:

Qaynasın, qaynasın peymanə dolsun,
Qoy saralsın güli irəngim solsun,

Bu işə əl vursan, dörd oğlun ölsün,
Ana, mən yazığı nə dindirirsən?

Şahsənəm qurbandı oğlun Həbibə,
Məni salmagilən qeyri təbibə,
Ana, razı olun gedim Qəribə,
Ana, mən yazığı nə dindirirsən?

Söz tamam oldu, anası çıxıb getdi, Şahsənəm oturub ağlamaqda və Qəribin yolunu gözləməkdə olsun. Sənə deyim Şahvələdin qarısından.

– Qərib oturmuşdu daş üstə, vətənə doğru baxırdı. Qarı özünü Qəribə yetirib onu tanımamazlığa vurub dedi:

– Oğul, bu aralarda təbrizliQəribin evi haradadır?

Qərib xəbər aldı:

– Qərib nəyinə gərəkdir?

– Məni Şahsənəm göndərib.

Qərib Şahsənəmin adını eşidən kimi qalxıb dedi:

– Nənə, Qərib mənəm. Tez de görüm, Şahsənəm nə xəbər göndərib?

İmansız qarı özünü yerə vurub gözünün yaşını axıda-axıda dedi:

– Oğul, mənim sənə yazığım gəlir, sən Şahsənəm deyib Təbrizdən buraya durub köç-külfətnən gəlibsən. Amma Şahsənəm sənə çox vəfasızlıq etdi.

Qərib xəbər aldı:

– Neccə?..

Qarı dedi:

– Necəsi yoxdur. Odur, Şahsənəm əmisi oğlu Şahvələdə nişanlandı, bu gün-sabah da toyu olacaq, özü də məni göndərdi ki, sənə deyəm ta bir də sən Şahsənəm adını çəkməyəsən.

Qərib qarıdan belə eşidəndə ürəyi dəmirçi kürəsi kimi od tutub yandı. Sazını əlinə alıb Şahsənəmin bağına gəldi. Bağa girib gördü ki, Şahsənəmin həmişə gəzib-dolandığı bağ bu gün elə sakitlikdir ki, gəl görəsən, bağın hər tərəfindən qəm insanın ürəyinə qara yağış kimi yağır. O, bir qədər də Şəhsənəmin yolunu gözləyib gördü ki, gəlib çıxmadı. Qəribin dərdi təzələndi, Şəhsənəmin ona göndərdiyi sözü xatırlayıb sazını alıb, bu münasibətlə görək nə dedi:

Xaraba qalasan Tiflis şəhəri,
Heç səndə oynayıb gülən yoxumuş,
Bülbül susub, bağ pozulub, gül solub.
Yad bağların etibarı yoxumuş

Mən gedirdim dostum çıxdı qabaqdan,
Acı sözün salmaz məni damaqdan,
Bizim güldən yad güllərə qonmaqdan,
Yad sonanın etibarı yoxumuş

Aşiq Qərib gəlməginən yad oldu,
Sınıx könlüm məlul oldu, şad oldu,
İstəkli dilbərim bizdən yad oldu,
Yad olanın etibarı yoxımuş.

Qərib günü axşam etdi. Şahsənəm çıxmadı. Qaş qaraldı, Tiflisin bütün lampaları yandı, kasıb-kusub evinə çəkildi. Şahsənəm yenə də gəlmədi. Qərib qarının sözünü təsdiqləyib dönüb getməkdə olsun. Şahsənəmin birdən yadına düşdü ki, Qərib hərdənbir bağa gəlir. Ağcaqızı çağırıb dedi:

– Get gör, Qərib bu tərəflərdədirmi? Çağır gəlsin sərv ağacının altına.

Ağcaqız çıxıb özünü bağa saldı, Qərib bir də gördü ki, ağacların arasından bir şey ağarır, irəli yeriyib gördü ki, Ağcaqızdır. Ağcaqıza söz deməyə macal verməyib, alıb görək nə dedi:

Səni gördüm ağlım oldu pərişan,
Əridi ürəyimin yağı, Ağcaqız!
Qıya baxıb, könül evin yıxansan,
Tanımırsan solu-sağı, Ağcaqız

Camalın seçilməz üç günlük aydan,
Qaşların seçilməz kamandan, yaydan.
Bir xəbər ver mənə saçı leyladan
Səhərdən gəzirəm bağı, Ağcaqız!

Mən Qəribin dərdi yaz qələm ilə,
Günmü keçirdirəm qəm-ələm ilə.
Məndən Şahsənəmə sən salam elə
Gəlməsə dağdaram bağı, Ağcaqız!

Söz tamama yetdi, Ağcaqız dedi:

– Evi yıxılmış oğlu, bir səbr et gör, nə deyirəm!

Qərib dedi:

– De görüm!

Ağcaqız dedi:

– Qərib, məni Sənəm göndərib, dedi ki, sərv ağacının altında məni gözləsin, gəlirəm. Təqsir məndə olub, səhərdən bəri mən bir qədər ağır tərpənmişəm. Get, sərv ağacının altında gözlə!

Qərib gəlib sərv ağacının altında oturdu. Quşların cəh-cəhi, bülbüllərin gözəl nəğmələri, güllərin xoş ətri Qəribin huşunu apardı, elə ki, özünü bilmədən yıxılıb qaldı.

Ağcaqız özünü Şahsənəmə yetirib dedi:

– Şahsənəm, gəl çıxaq bağa, bülbüllər elə ötüşür ki, gəl görəsən, Qəribi də gəzək tapaq!

Şahsənəm razı oldu, hər ikisi bağa çıxdı, ta ki Ağcaqız haman yerə çatıb Şahsənəmə dedi:

– Şahsənəm, sən burada gözlə, mən sərv ağacının altına dəyim, bəlkə Qəribi tapa bildim.

Ağcaqız icazə alıb sərv ağacının altına gəldi, gördü ki, Qərib elə yatıbdır, heç özündə deyil. Ağcaqız siyah saçlarından üç tel ayırıb sinəyə saz görək Qəribi necə oyadır:

Eyvandan enib yürüdü,
Oyan ovçu, ovun gəldi!
Şövqü aləmi bürüdü,
Oyan ovçu, ovun gəldi!

Ağcaqız gördü ki, Qərib oyanmır, alıb ikinci yarpağını, görək necə dedi:

Siyah zülfün tökmüş üzə,
Sürmə çəkmiş qaşa, gözə.
Eyvanından endi düzə,
Oyan, ovçu, ovun gəldi!

Qərib yenə ayılmadı.

Şahsənəm bağın başından səs gəldiyini eşidib Ağcaqızı çağırdı. Ağcaqız gəldi, Şahsənəm ondan xəbər aldı:

– Ay qız, bağda kim var?

– Xanım, Qərib sərv ağacının altındadır, çağırıram oyanmır.

Şahsənəm yüyürüb özünü Qəribə yetirdi, nə qədər çağırdısa, ayılmadı. Şahsənəm leyli hörüklərindən üç tel ayırıb saz əvəzinə sıxdı nar məmələrinin arasına, gör Ağcaqıza nə dedi:

İki gözüm Ağca gəlin,
Qərib oyanmaz, oyanmaz.
Eşqilə oldum divanə,
Qərib oyanmaz, oyanmaz.

İçmişəm qırxlar camından,
Keçərəm indi canımdan.
Sərv ağacı kölgəsindən,
Qərib oyanmaz, oyanmaz.

Sənəm deyir aç gözünü,
İstər öpsün ağ üzünü,
Tərə qərq edib özünü,
Qərib oyanmaz, oyanmaz

Qərib ayılmadı, Sənəm ağlaya-ağlaya gəlib oturdu çarhovuzun qırağında. Ağcaqızı yenə göndərdi.

Ağcaqız gəlib bu dəfə Qəribi elə silkələdi ki, Qərib dik atıldı.

Qərib xəbər aldı ki, nə olub?

Ağcaqız dedi:

– Şahsənəm düz bir saatdır ki, kəsdirib yanını, ayılmayırsan.

Qərib Ağcaqızdan belə eşidəndə sazı alıb, görək öz halına uyğun nə dedi:

Əcəb yerdə məni bərk huş apardı,
Yarın gəldiyini heç bilməmişəm.
Fələk vurub baxtım yenə çevirdi,
Yarın gəldiyini heç bilməmişəm.

Zalım fələk yazdı belə yazımı,
Gör necə çevirdi qışa yazımı.
Ürəyimdə qoydu mənim arzımı,
Yarın gəldiyini heç bilməmişəm

Qərib deyir: uzun illər gülmədim.
Ağlayıban göz yaşımı silmədim,
Yarı mənzilində təkcə görmədim,
Yarın gəldiyini heç bilməmişəm.

Belə deyib ağlamağa başladı. Bu tərəfdən Ağcaqız qaçıb Şahsənəmi onun yanına göndərdi.

Şahsənəm gəlib gördü ki, Qərib yanıqlı-yanıqlı oxuyub ağlayır. Daldan qulac qollarını Qəribin boynuna salıb "can Qəribim", – deyib onu qucaqladı.

İki həsrətli sarmaşıq gül ağacına sarılan kimi bir-birinə sarılıb doyunca görüşdükdən sonra Qərib dedi:

– Ey qəlbimin soltanı, mən səndən ayrılmalı oldum.

Şahsənəm bu sözü Qəribdən eşidən kimi, elə bil onu ildırım vurdu, xəbər aldı:

– Nə üçün? Bu nə sözdür danışırsan?

Qərib dedi:

– Atan Xacə səni mənə vermək istəyirsə, niyə məndən qırx kisə qızıl istəyir?

Şahsənəm dedi:

– Elə bundan ötrü məni atırsan, sən qırx kisə qızıl deyirsən, mən əlli kisə gətirim gəlim, təki məni tərk etmə.

Qərib dedi:

– Can Şahsənəm, bu insafdan çox kənar olur, gəl sən mənə izin ver, gedim öz əlimin rənci ilə qırx kisə qızıl qazanım, verim atana. Sonra şadlıqla toy edək.

Şahsənəm dedi:
– Bəs nə vaxt gələrsən?
Qərib dedi:
– Bu əhd-peymana and olsun, yeddi ildən uzaq sürməz
Belə deyəndə Şahsənəm başladı ağlamağa, Qərib Sənəmin bahar buludu kimi axan göz yaşını görcək, ürəyi alışdı, saza əl atdı:
Aldı Qərib:

Başına döndüyüm gül üzlü, Sənəm,
Getdim yar, əgləndim, bəlkə gəlmədim,
Bu ayrılıq bizə həqdən verildi,
Getdim yar, əgləndim, bəlkə gəlmədim

Aldı Şahsənəm:

Başına döndüyüm gül üzlü cavan,
Get Qəribim, sağlıq ilə gələsən,
Vardır, mən bilirəm səndə məhəbbət,
Get Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Dön bəri, dön bəri, bir üzün görüm,
Al yanaqlarının qurbanı olu,
Bir əmanətim var, qoy sənə verim,
Getdim yar, əgləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Qurbanı olduğum qaragöz Qərib,
Layıqmıdır məni buraxıb getmək?
Sənsən mənim yəqin dərdimə təbib,
Get Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Payız gələr, bağlar tökər xəzəli,
Neyləyirəm səndən qeyri gözəli,
Getdim yar, əgləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Qərib, bu sözlərin həqqə yaramaz,
Sözündə durmayan bəndə mərd olmaz,
Eldə gözəl çoxdur sənə yaramaz,
Get Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Səndən kimsənəyə gəlməz gümanım,
Ala gözlü pərim, qaşı kamanım,
Yeddi ilə kəsdim əhdi-peymanım,
Getdim yar, əgləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Sənəm deyir getmə, yollar çamurdur,
Sənin bağrın daşdı, yoxsa dəmirdir.
Yeddi il dediyin xeyli ömürdür,
Get Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Qərib deyər: viran qalsın bu vətən,
Qorxum budur gülə sarmaşa tikən,
Qayıtmasam qınar məni hər yetən,
Getdim yar, əgləndim, bəlkə gəlmədim.

Söz tamam oldu. Hər iki həsrətli yenidən görüşüb, öpüşüb halal-hümmət etdikdən sonra Şahsənəm dedi:

– Qərib, indi haraya getmək istəyirsən?

Qərib dedi;

– Ruma getmək fikrindəyəm.

Qərib belə deyəndə, Şahsənəmin xatirinə gəldi ki, Qərib Ruma getsə, ondan da gözəlini tapar.

Aldı Şahsənəm:

Başına döndüyüm, qurban olduğum,
Amandır Qəribim, getmə Ruma sən!
Gəzdiyin yerlərdə yad eylə məni,
Amandır Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Əgər mövlam mənə kömək olarsa,
Ağlama sevdiyim, yenə gələrəm!
Əcəl şərbətini canım dadmasa,
Ağlama sevdiyim, yenə gələrəm!

Aldı Şahsənəm:

Lənət olsun o günlərə, o dəmə,
Yazıq canım necə dözsün sitəmə,

Sən getsən bürünnəm qaraya, qəmə,
Amandır Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Canım Sənəm, qorxma gedib gələrəm,
Səndən qeyrisinə könül vermərəm,
Sən istəsən, mən Hələbdə qalaram,
Ağlama sevdiyim, yenə gələrəm!

Aldı Şahsənəm:

Şahsənəm deyir ki: halım yamandır,
Uca dağlar başı qardır, dumandır.
Bu ayrılıq bizə xeyli zamandır.
Amandır Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Rəsuldum, Qərib dedilər adıma,
Mövlam yetişəcək mənim dadıma
Qürbət eldə Sənəm düşsə yadıma,
Canımı odlara atıb, gələrəm.

Söz tamama yetdi, Qərib yenidən Şahsənəmlə görüşüb ayrıldılar.

Qərib birbaş anasının yanına gəldi. Qəribin anası gördü ki, oğlu səfər libasındadır, xəbər aldı:

– Oğul, haraya gedirsən?

Qərib dedi:

– Ana qulaq as deyim.

Aldı Qərib:

Qurbanın olaram, gül üzlü ana,
Gedirəm qürbətə gəzim bir zaman,
Bir səfər sevdası vardır başımda,
Gedirəm qürbətə gəzim bir zaman .

Aldı anası:

Nə sevdadır yenə düşüb başına,
Oğul, gedib ağlar qoyma sən bizi!
Bağrımı döndərdin tey qızıl qana
Oğul, gedib ağlar qoyma sən bizi!

Aldı Qərib:

Canım ana, gəl ağlatma sən məni,
Mən eylədim həqqə əmanət səni,
Tapşırıram sənə butam Sənəmi,
Gedirəm qürbətə gəzim bir zaman.

Aldı anası:

Mən kömək istərəm sənə xudadan,
İşinə fərəc versin böyük yaradan,
Ölsəm, kim götürər məni aradan
Oğul, gedib ağlar qoyma sən bizi!

Söz tamam oldu, Qərib anasından ayrılıb birbaş Mahmudun yanına gəldi. Anasını ona tapşırıb yola düşdü.

Şahvələd eşitdi ki, Qərib gedir, onu öldürmək niyyətilə Tiflisdən çıxdı. O vaxt gəlib çatdı ki, gördü Qərib Kürü addayıb, kor-peşman geri qayıtdı Tiflisə, Şahvələd Şahsənəmə xəbər göndərdi ki, bu gün-sabah toyunu başlayıram. Şahsənəm baxıb gördü ki, zornan da olsa, onu aparacaqlar. Şahvələdə xəbər göndərdi ki, onu yeddi il gözləsin.

Şahvələd Sənəmi yeddi il gözləməkdə olsun, sizə deyim Qəribdən.

Ustad dili yügürək olar. Qərib bir müddət yol gedib axır gəlib çatdı Hələb şəhərinə. Qərib Hələb şəhərini görən kimi təbinə zor gəlib Hələb şəhərini görək nə cür tərif etdi:

Şükür olsun yaradana,
Sənə gəldim, Hələb şəhri,
Ayrı düşdüm vətənimdən,
Sənə gəldim, Hələb şəhri.

Ayrıldım qönçə gülümdən,
Köksü sarı bülbülümdən.
Bir kəkilli sünbülümdən,
Sənə gəldim, Hələb şəhri.

Ayrıldım nazlı yarımdan,
Üzüm gülməz ah-zarımdan,
Ayrılıban həmtayımdan,
Sənə gəldim, Hələb şəhəri.

Söz tamam olub, gəlib çıxdı bir qəhvəçi dükanına. Bir neçə müddət burada qalıb çalıb oxuduqdan sonra Qəribin səsi yayıldı Hələbə ki, bir belə aşıq gəlib, heç bir ustad qabağında dayana bilməyir.

Bu xəbəri eşidən yaxın-uzaq yerlərdən qəhvəçi dükanına gəlib Qəribin oxumasına qulaq asırdılar.

Qərib burada günün keçirməkdə olsun, sənə deyim Tiflisdən.

Qərib neçə vaxt idi getmişdi. Şahvələd Şahsənəmi ələ keçirmək üçün gündə bir tədbir görürdü, amma Şahsənəm Qərib deyib gecə gündüz ağlayır, təsəlli almaq üçün hər gün onun anasının yanına gəlirdi.

Bir gün Şahvələd eşitdi ki, Şasənəm hələ də Qəribdən əl çəkməyib, gecə-gündüz Qəribin anasının evindədir, onlara əl tutur. Güloğlanı tapıb dedi:

– Al bu pulu, get Qəribi harada görsən vur öldür, qanlı köynəyini gətir, ver anasına.

Güloğlan Şavələddən pul alıb üz qoydu getməyə. Bir qədər dərə-təpə gəzib, Qəribi tapa bilmədi, gördü ki, yolun ortasında bir ulaq otlayır, dedi:

– Kim bilir, Qərib indi harada itib-batıbdır, yaxşısı budur, bu ulağın qulağını kəsib öz köynəyimi çıxardıb ulağın qanına bulayaram, aparıb verərəm Qəribin anasına, Şahvələdin yanında da başım uca olar.

Güloğlan ulağın qulağını kəsib öz köynəyini qana bulaşdırıb gəldi Qəribin anasının yanına:

– Ana, başın sağ olsun, oğlun mənimlə gəlirdi, yolda onu hərəmilər soyub öldürdülər, bu da onun qanlı köynəyi deyib, sonra da gəldi Şahvələdin yanına.

Qəribin ana və bacısı qanlı köynəyi basıb bağırlarına: "Qərib!" – deyib ağlamağa başladılar.

Şahsənəm eşidi ki, Qəribin qanlı köynəyini Güloğlan gətirib gəlibdir, qara paltar geyib gəldi Qəribin anasının yanına. Neçə gün, neçə gecə matəm saxladılar. Qəribin anası və bacısı o qədər ağladılar ki, iki gözdən oldular, dünya işığına həsrət qaldılar .

Qəribin getməsindən düz altı il yarım keçmişdi. Qəribin anası da taqətdən düşmüşdü. Amma Qəribin ölməsinə inanmırdı.

Şahvələd Şahsənəm üçün adam göndərdi ki, hazırlaşsın, bu yaxınlarda toy edəcəyəm. Şahsənəm durub gəldi Qəribin anasının yanına, dedi:

– Ana, Şahvələd mənim toyumu lap yaxınlaşdırıb, mən də əhd etmişəm Qəribdən başqa heç kimə getməyəcəyəm. Təvəqqe edirəm, dur gedək yol kənarında oturaq. Hələbə gedən bəzirganların birisi ilə Qərib üçün bir xəbər göndərək, tezliklə özünü mənə yetirsin.

Qəribin anası razı oldu, gəlib oturdular yol üstə. Xacə Əhməd deyilən birisi Hələb şəhərinə gedirdi. Gördü ki, yol kənarında üç fəqir oturub. Bəzirgan Əhməd gəlib bunlara əl tutmaq üçün pul verdi. Qəribin bacısı pulu almayıb, görək bəzirgan Əhmədə nə dedi:

Sənə qurban olum, bəzirganbaşı,
Gözlərəm yolları, gəlmədi qardaş,
Nə gecəm gecədir, gündüzüm gündüz,
Gözlərəm yolları gəlmədi qardaş.

Yeddi ildir yollranı gözlərəm,
Xəncər alıb bağrım başın teylərəm,
O gəlməsə bu qürbətdə neylərəm,
Gözlərəm yolları gəlmədi qardaş,

Yaman olur qarlı dağlar burcası,
Bir dərdim var, qardaş onu açası,
Sənəm butasıdır, məndə bacısı,
Gözlərəm yolları, gəlmədi qardaş.

Əhməd bəzirgan dedi:

– Anam, bacım, siz kimsiniz və nə yerin adamlarısınız?

Qəribin anası dedi:

– Bəzirganbaşı, biz sail deyilik. Mən Təbrizli Məmmədin külfətiyəm, bu da oğlumun nişanlısıdır. İndi oğlum yeddi ildir ki, Hələb şəhərinə pul qazanmaq üçün gedib, bu vaxta qədər heç bir xəbər yoxdur. Əhməd bəzirgan Məmmədin adını eşidən kimi: – Vay, o mənim ən yaxın dostumdur, – deyib görək nə söylədi:

Əhməd bəzirgandır bil mənim adım,
Sizi gördüm ərşə çıxdı fəryadım,
Əvvəl sail bildim, kömək elədim,
Xəbər ver, oğlunu tapım gətirim.

Aldı Qəribin anası:

Gəlişin haradan bəzirganbaşı,
Sən alıb-satırsın alı, qumaşı,
Gecə gündüz axıdıram göz yaşı,
Gözdən oldum oğul-oğul deməkdən.

Aldı Əhməd bəzirgan:

Gəlişimdir nənə, Təbriz elindən,
Mən alıb satıram dünya malından,
Söylə nənə, gəlsin kalamın dildən,
Xəbər ver oğlunu tapım gətirim.

Aldı Qəribin anası:

Aləm bilir çoxdur sinəmdə dərdim,
Doqquz ay qoynumda oğul bəslədim,
Qara gözlü novcavanı itirdim,
Gözdən oldum oğul-oğul deməkdən.

Aldı Əhməd bəzirgan:

İtirmərəm mən Məmmədin nanını,
Həqq özü versin muradını,
Söylə görüm sən oğlunun adını,
Xəbər ver oğlunu tapım gətirim.

Aldı Qəribin anası:

Fələk tökdü qara küllər başıma,
Rəhm eylə sən, gözdən axan yaşıma,
Qəribin həsrəti düşdü huşuma.
Gözdən oldum, oğul-oğul deməkdən.

Söz tamama yetdi. Əhməd bəzirgan dedi:

– Ana, indi bildim oğlunun adını, səbr et. Hələb şəhərinə çatan kimi oğlunu tapıb göndərərəm.

Şahsənəm, bəzirgandan belə bir söz eşidəndə sevinir, bəzirgan Əhmədin əlini öpüb görək Qəribi üçün ona necə yalvardı

Qulun olum sənin, gül üzlü xacə,
Degilən Qəribə durmasın, gəlsin!
Yeddi ildir həsrətini çəkirəm,
Deginən Qəribə durmasın, gəlsin.

Əhməd bəzirgan Şahsənəmdən də belə eşidəndə dedi:

– Qoy bunu sınaqdan keçirim.

Aldı Əhməd bəzirgan:

Qurban olum sənə alagöz xanım,
Razı olsan səni oğluma allam,
Bivəfadan nə kar çıxacaq sənə,
Razı olsan səni oğluma allam.

Aldı Şahsənəm:

Sözünü bilmədin bəzirgan xacə,
Yolunda çəkmişəm xeyli işgəncə,
İnsafını dəyişmək qızılı tunca,
Deginən Qəribə durmasın, gəlsin.

Şahsənəm belə deyəndə, alıb Əhməd bəzirgan görək onun müqabilində necə dedi:

Aldı Əhməd bəzirgan:

Heç kəs bilməz yəqin mənim halımı,
Xərc edərəm əldə olan varımı,
Qoyaram yolunda şirin canımı,
Soraqlaşıb Qəribini taparam.

Aldı Şahsənəm:

Yeddi ildir mənim yarım gedibdir,
Sirrimmi söyləmək sənə ayıbdır,
Şahsənəm butası aşıq Qəribdir,
Deginən Qəribə durmasın, gəlsin!

Aldı Əhməd bəzirgan:

Əhməd bəzirganam, indi gedərəm,
Rumi, Şami, bütün indi gəzərəm,
Qul olsa pul verib, alıb gətirrəm,
Soraqlaşıb Qəribini taparam.

Söz tamama yetib, təkrar Şahsənəm Əhməd bəzirgandan təvəqqe etdi ki, Qərib harada olsa onu tapıb gətisin.

Əhməd bəzirgan söz verib, üstəlik:

– Qızım, mənim nə oğlum var, nə də qızım, səni sınayırdım, xatircəm ol, Qəribini tapıb sənə yetirərəm, – deyib yola rəvan oldu.

Sənə deyim Qəribdən. Qərib bir müddət Hələb şəhərində qəhvəxanada çalıb oxuyurdu, belə ki, Qəribin ustalığı ətrafa yayılmışdır.

– Hələb paşası eşitdi ki, Qərib adında birisi Hələbə gəlib bütün aşıqları bağlayıb. Əmr verib haman saat onu hüzuruna istədi. Adamlar gəlib Qəribi axtarmaqda olsunlar, bu tərəfdən də Əhməd bəzirgan gəlib çıxdı Hələbə. Girib qəhvəçi dükanına camı şərbətlə doldurub, Sənəm verdiyi üzüyü camın içinə salıb dedi:

– Kimdir burada Qərib, qalxsın ayağa, bu camı alıb içsin.

Heç kim yerindən qalxmadı bu anda Qərib əlində saz içəri girdi, Əhməd bəzirgan bir də təkrar etdikdə, Qərib alıb camı çəkdi başına, gördü Şahsənəmin üzüyü camın içindədir, üzüyü alıb öpüb gözünün üstünə qoyandan sonra ürəyi dəmirçi kürəsi kimi od tutub yandı. Sazını sinəsinə basıb görək Əhməd bəzirgan nə dedi.

Aldı Qərib:

Başına döndüyüm bəzirgan xacə,
Canım xacə, necə gördün Sənəmi?
Nə gündüzüm gündüz nə gecəm gecə,
Canım xacə, necə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Həq sənə göndərsin Xızır İlyası,
Ağlar, sızlar gördüm nazlı Sənəmi,
Vardır sənə Şahsənəmin duası,
Ağlar, sızlar gördüm nazlı Sənəmi,

Aldı Qərib:

Mən gələndə dərilmədi gülləri,
Mənə qismət oldu Hələb çölləri,
Söylənirmi Şahsənəmin sözləri,
Canım xacə necə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Yaxın dostlar durub ararlar,
Uçan quşdan səni Qərib, sorarlar,
Anan, bacın geyinibdir qaralar,
Qaralar içində gördüm Sənəmi.

Aldı Qərib:

Bizim ellər bahar idi, yaz idi?
Göllərində ördək idi, qaz idi?
Şahsənəmim gəlin idi, qız idi.
Ağlar, sızlar gördüm nazlı Sənəmi.

Aldı Əhməd bəzirgan:

Mən gələndə sizin ellər yaz idi,
Göllərdəki ördək idi, qaz idi.
Şahsənəmin gəlin deyil, qız idi,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.

Söz tamam oldu. Qərib dedi:

– Əhməd bəzirgan, hazırlaş gedək.

Bu anda ərəb paşasının adamları içəri girib Qəribi tutub apardılar paşanın yanına. Əhməd bəzirgan da düşdü bunların dalına, gəlib çıxdılar paşanın hüzuruna.

Hələb paşası xəbər aldı

– Ey qərib, sən kimsən və nəçisən?

Qərib dedi

– İzin ver, deyim.

Paşa izin verdi.

Aldı Qərib:

Ayrıldım elimdən gəldim qürbətə,
Ağlaram, sızlaram kimsəm yox mənim,
Qərib olub düşdüm dildən-dilə,
Ağlaram, sızlaram kimsəm yox mənim.

Gənc yaşımda tərk elədim vətənim,
Qürbət ellər olub mənim məskənim,
Gözüyaşlı gözüyolda Sənəmim,
Ağlaram, sızlaram kimsəm yox mənim.

Aşıq Qərib yanıq-yanıq söyləsin,
Enib eşqin dəryasını boylasın,
Həq səni dünyada namdar eyləsin,
Ağlaram, sızlaram kimsəm yox mənim.

Söz tamam oldu, Hələb paşası dedi:

– Mən bilirəm, sən qəribsən, ölkədə heç kimin yoxdur. Ancaq deyirlər ki, sən çox zor aşıqsan. Əgər bizim aşıqla döş-döşə gəlib onu bağlaya bilsən, səni azad edərəm, yox bağlaya bilməsən boynunu vuracam.

Qərib razılıq verdikdən sonra paşa məclis qurdu. Həmin məclisə Hələb şəhərinin möhtərəm adamlarından bir neçəsi çağrıldı. Paşanın aşığı da gəlib həmin məclisə çıxdı. Aşıq dedi:

– Qərib, sən başlayırsan, yoxsa mən?

Qərib dedi:

– Bizlərdə qaydadır, həmişə yolu düşmənə verərik. Sən de, mən də sənin ardınca gəlim. Qərib belə deyəndə, paşanın aşığı sazını alıb görək Qəribə nə dedi.

Aşıq aldı:

Utanmadın gəlib girdin meydana,
Bu meydanda ərkan olur, yol olur,
İndi o dünyanı göstərərəm sana,
Bu meydanda qovğa olur, zor olur,

Aldı Qərib:

Gəl mənimlə sən də girmə meydana,
Mənəm deyən, mənim kimi sərt olur,
Ustad isən, gəl incitmə kəndini,
Bu meydandan qurtaranlar mərd olur.

Aşıq aldı:

Zikr edib mən də gəlmişəm cuşa,
Mat qalarsan sən bu günkü savaşa,
Bir od vurram ayaqların tutaşa,
Onda sənin yəqin dilin lal olur.

Aldı Qərib:

Kamil usta, oturgilən yerinə,
Lovğalanıb düşmə mənim girimə,
Bir aşıq ki, xor baxarsa birinə,
O da qorxmaz, ondan daha mərd olur.

Aldı aşıq:

Ərənlər əlindən badə içdinmi?
Bulanıq çayları üzüb keçdinmi?
Bu meydana girib sərdən keçdinmi?
Aşıqlıqda başqa-başqa hal olur.

Aldı Qərib:

Mən Qəribəm çıxmamışam yolumdan,
Bəd kəlam çıxmayıb əsla dilimdən,
Pələng olsan qurtarmazsan əlimdən,
Bu rüsvaylıq sənə yaman dərd olar.

Qəribin bu sözü aşığı elə tutdu ki, dodaq-dodaqdan qaldırmayıb, fikirli yerində durdu. Yerbəyerdən məclisdəkilər dedilər:

– Qərib, sən həqiqətdə də aşiqsən.

Paşa Qəribdəki fərasəti və onun bülbül kimi cəh-cəh vuran səsinə heyran olub dedi:

– Qərib, mən səni buradan daha buraxmayacağam, gəl qal mənim yanımda. Ye, iç, gəz, kefini çək!..

Paşa belə deyəndə, Qərib sazını alıb yanıqlı-yanıqlı paşaya görək nə cür cavab verdi:

Aldı Qərib:

Sevgilimdən namə gəldi,
İzin ver, paşa, mən gedim,
Ağlar qalıbdır sevgilim,
İzin ver, paşa, mən gedim,

Qürbət elin qəhri məni,
Artırdı könlüm qəmini,

Anam, bacım gözlər məni,
İzin ver, paşa, mən gedim.

Qərib keçib öz canından,
İyid olan qorxmaz qandan,
Uzaq düşdüm mən yarımdan,
İzin ver, paşa, mən gedim.

Söz tamam oldu. Paşa xəbər aldı:

– Qərib, mən bir şey başa düşmədim. Açıq de görək, nə demək istəyirsən? Məyər ki, mənim yanımda qalsan sənin günün xoş keçməzmi?

Qərib başına gələn əhvalatı əvvəldən axıra kimi paşaya nəql edib başladı ağlamağa. Paşa işi belə görən kimi əmr verdi ki, Qəribə qırx kisə qızıl versinlər.

Qərib qırx kisə qızılı alıb heybəsinə qoyduqdan sonra getmək istədi. Gördü çöldə elə bir tufandır ki, göz-gözü görmür. Yer, göy qardan ağ paltar geymişdir. Qərib sazını alıb gözündən bahar buludu kimi göz yaşları axıda-axıda görək nə dedi:

Şikayətim vardır, fələk, əlindən,
Fələk, mənə düşmən oldun ağlaram,
Qorxum budur həsrət qalam yarıma,
Fələk, mənə düşmən oldun, ağlaram,

Bizim ellər dağdır, daşdır, virandır,
Qadir mövlam hər mətləbi verəndir,
Bayırda qar, çovğun, dolu, borandır,
Vətənimdən ayrı düşdüm, ağlaram.

İyid odur öz sirrini gizləyə,
Ciyərini kabab edib duzlaya,
Rəvamıdır Qərib burda gözləyə?
Fələk ilə düşmən oldum, ağlaram.

Söz tamam oldu, paşa gördü ki, həqiqətdə də bayırda elə çovğundur ki, Qəribə getmək mümkün olmayacaq, dedi:

– Qərib, gəl getmə, bu yollarda tələf olarsan.

Qərib başladı ağlamağa, paşa Qəribin ağlamağını görüb ürəyi yandı, əmr verdi ki, Qəribə at versinlər. Haman saat paşanın adamları Qəribə bir yaxşı yügürək at verib, Qəribi yola saldılar.

Qərib bəzirgan və paşa ilə xudahafizləşib Tiflisə sarı gəlməkdə oldu.

Ustad dili yügrək olar. Qərib bir müddət yol gəldikdən sonra altındakı at tab gətirməyib həlak oldu. Qərib heybəsini çiyninə alıb bir qədər piyada yol getdikdən sonra yorulub göy bir çəmənlik içində oturdu. Bir tərəf-

dən vətənindən, o biri tərəfdən sevgilisi olan Şahsənəmdən ayrılmasını və özünün çölü-bəri-biyaban içərisində qalmasını görərək, sazını sinəsinə basıb öz halına münasib görək nə dedi:

Qadir mövla budur səndən diləyim,
Fələk məni daşa çaldı, ağlaram.
İndi bildim muradıma çatmadım,
Fələk məni daşa çaldı, ağlaram.

Əcəl gəldi başım üstə dayandı,
Şirin canım eşqin oduna yandı,
İndi bildim fələk mənə düşmandı,
Fələk məni daşa çaldı, ağlaram.

Düşdü bu yerlərə yolum haradan,
Əlim də üzüldü Sənəm tək yardan,
Qəribin meyitin aparın burdan,
Fələk məni daşa çaldı, ağlaram.

Söz tamam oldu. Qərib qalxıb piyada yol getməyə başladı. Bir qədər yol getdikdən sonra bir nəfər ağ atlı onun qabağına çıxıb salam verdikdən sonra dedi:

– Gəl min tərkimə!

Qərib bu ağ atlının tərkinə minib bir qədər yol getdikdən sonra ağ atlı dedi:

– Ey cavan, yum gözlərini!

Qərib gözünü yumdu, bir dəqiqə keçməmişdi ki, atlı səsləndi:

– Aç gözünü!

Qərib gözünü açıb gördü ki, budur Tiflisə çatıbdır. Atdan düşüb Tiflisə tərəf bir qədər baxdıqdan sonra geriyə döndü ki, atlı ilə xudahafizləşsin, atlının qeyb olduğunu görüncə bildi ki, bu ərələrdəndir. Çox heyifsiləndi.

Qərib sazını alıb bir qədər getdikdən sonra Tiflisin kənarına çatıb öz sevgilisi olan Şahsənəmin qəsrini görən kimi ürəyi dəmirçi kürəsi kimi alışıb yanmağa başladı.

Aldı Qərib:

Min qovğalar çəkdi başım,
Axır çatdım sənə Tiflis,
Baxım sənə qoy doyunca,
Axır çatdım sənə, Tiflis.

Siyah saçları darandı,
Canım həsrətində yandı,

Sənəmin qəsri göründü,
Axır çatdım sənə, Tiflis.

Aşiq Qərib gəldi elə,
Gəzər bağı gülə-gülə,
Gəldiyimi yara söylə,
Şükür gəldim sənə, Tiflis.

Söz tamama yetdi. Qərib Tiflis şəhərinə daxil olub, əvvəlcə qəhvəçi Dəli Mahmudnan görüşdü. Sonra hər ikisi gəldi öz qapılarına, Qərib səslədi:

– Ey ev sahibi!

Qəribin anası Banı səsləndi:

– Kimsən, nəçisən?

Bu səsə bacısı Nərgiz də səsə bayıra çıxdı. Qərib tez bacısının əlindən tutub içəri girdi.

Nərgiz dedi:

– Sən kimsən?

Qərib dedi:

– O divardakı sazı verin, saznan deyim.

Banı dedi:

– Oğul, biz yaslıyıq, bizə saz çalmaq lazım deyil.

Qərib bunların sözünə qulaq asmayıb, alıb sazı görək özünü necə tanıtdırdı:

Aldı Qərib:

Canım ana, gözüm ana,
Ana, mən Qəribəm, Qərib,
Bu gün sizə mehman olum,
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Xoş gəldin, səfa gətirdin,
Oğlum, Qərib, haçan gəldin?
Məni odlara yandırdın,
Oğlum Qərib, haçan gəldin?

Aldı Qərib:

Nə bəlalar çəkdi başım,
Gözümdən tökərəm yaşım,
Bəs hanı Heydər qardaşım,
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Atlılar atın çapardı,
Sınıx könüllər yapardı,
Heydəri Tona apardı,
Oğlum Qərib, haçan gəldin?

Aldı Qərib:

Hacılar elərdi hacı,
Yoxdur dərdimin ilacı,
Sən Nərgiz də mənə bacı,
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Banının ürəyin deşdin,
Boynuna xələtin biçdin,
Harda idin gəldin çıxdın,
Oğlum Qərib, haçan gəldin?

Söz tamama yetdi, anası, bacısı Qəriblə qucaqlaşıb, öpüşəndən sonra gözlərinə işıq gəldi. Qərib xəbər aldı:

– Ana, mənə Şahsənəmdən bir xəbər.

Anası dedi:

– Oğul, bu gün Şahsənəmin toyudur.

Belə eşidəndə Qərib dayana bilməyib anasını, bacısını burada qoyub Mahmudnan Şahvələdin toy məclisinə gəldi. Şahvələdə xəbər getdi ki, gözün aydın olsun, sənin toy məclisinə bir aşıq gəlib çıxdı. Şahvələd və Güloğlan məclisə gəldilər. Güloğlan Qəribi görən kimi tanıyıb qaçmaq istəyəndə Dəli Mahmud onu buraxmadı.

Şahvələd dedi:

– Aşıq, bir qədər söhbət elə.

Qərib: "gözüm üstə" deyib, sazını sinəsinə basıb, özünü Sənəmə tanış vermək üçün görək nə dedi:

Hər gecə, hər gündüz Hələb şəhrində
Qüdrət şərabını içdim də gəldim.
Yar mənə göndərdi bir gözəl namə.
Oxudum qarasın, seçdim də gəldim.

Axşam idi, mən də gəldim xanəmə,
Sirrimi demişdim bacı, nənəmə,
Eşqin xəncərini vurdum sinəmə,
Dərin yaralarım deşdim də gəldim.

Qəribin səsini Şahsənəm o biri otaqdan eşitcək, qızlarla gəlib pəncərənin qabağında durdu:

Aldı Qərib:

Həftədə xəbəri verdilər bizə,
Günorta vaxtında çıxdım mən düzə.
Mədət deyib gəlib çıxdım Tiflisə,
Mövlam qanad verdi, uçdum da gəldim.

Bir əl vurum, xublar girsin oyuna,
Mən qurbanam qamətinə, boyuna.
Aşiq Qərib Şahsənəmin toyuna
Başımdan, canımdan keçdim də gəldim.

Söz tamam oldu. Şahvələd Qəribi tanıyıb Güloğlana dedi:

– Ə, sən bu Qəribi öldürməmişdin?

Güoğlan qorxusundan girdi siçan deşiyinə, Şahvələd xəncəri çəkib Qəribi vurmaq istəyəndə, Dəli Mahmud Şahvələdin qollarını tutub xəncərini dayadı ürəyinə. İşi belə görəndə Şahvələd dedi:

– Qərib, Şahsənəmi sənə verdim.

Camaat yerbəyerdən bu sözü alqışlayıb Qəribin bacısının kəbinini Şahvələdə, Şahsənəmin kəbinini Qəribə kəsib təzədən toya başladılar.

Şahsənəm gəlin otağına keçdi, Qərib bəylik paltarını geyib Sənəmin yanına gəldi. Şahsənəm istədi durub sarmaşa Qəribin boynuna, Qərib dedi :

– Mənə yaxın gəlmə, sənə Şahvələdin əli dəyib.

Qərib belə deyəndə Şahsənəm gözünün yaşını axıda-axıda siyah saçlarından tel ayırıb saz əvəzinə alıb görək nə dedi:

Canım sənə qurban, qaragöz Qərib,
Rahat olmamışam, yar, sən gedəli,
Əynimə geymişəm qəm libasını,
Geyib sallanmadım, yar, sən gedəli.

Evimizin dalında xırda təpələr,
Orda yağış yoxsa, burda səpələr,
Mücrümdədir sən gördüyün tənələr,
Taxıb gəzmədim heç, yar, sən gedəli.

Qış dolandı, yenə bahar açıldı,
Körpə quzu anasından seçildi.
Yeddi ildə on dörd bayram keçildi,
Hənа yaxmamışam, yar, sən gedəli.

Söz tamam oldu, Şahsənəm başladı ağlamağa. Qərib Şahsənəmin belə ağlar görəndə alıb sazı görək onun ürəyini necə ələ aldı:

Dön bəri, dön bəri, bir üzün görüm.
Çoxdandır ayrıldım səndən ax, Sənəm,
Bir-bir libasların tərif eyləyim.
Sən də geyin, qurşan görüm qalx, Sənəm.

Mən görmədim sənin kimi gözəli,
Payız olcaq, bağlar tökər xəzəli,
Dilin şəkər, dodağındır məzəli,
Gözüm nuru dur aynaya bax, Sənəm.

Dillərdə dastandır Tiflis alması,
Min tümənə dəyər saçın hörməsi.
Yar, sənə gətirdim Hələb hənası,
Ağ əllərə yaraşır, bir bax, Sənəm.

Yüz minə dəyər ki, üzünün yaşmağı,
İncə belə bağla qızıl qurşağı,
Ayağına geyibsən zər başmağı,
Qərib deyir: dur aynaya bax, Sənəm!

Söz tamam oldu, istəklilər barışıb öpüşdülər.

Qərib yenidən toy etdi. Hər iki həsrətli bir-birilə muradına çatıb şad günlər və uzun ömür keçirdikdən sonra yerə keçdilər. Siz də atdayıb dövrə keçin.

İZAHLAR

Miflər

"Antologiya"ya daxil edilmiş miflər, əsasən, "Azərbaycan mifoloji mətinləri" (tərtib edəni Arif Acalov). – B: Elm, 1988-ci il kitabından seçilmişdir. 10 saylı mif V.Vəliyevin "Azərbaycan şifai xalq ədəbiyyatı", – B: ADU nəşr., 1970. 37, 38 saylı miflər isə "Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20 cilddə, 1-ci cild. Xalq ədəbiyyatı" (Tərtib edənlər T.Fərzəliyev, İ.Abbasov). – B:Elm, 1982-ci il kitablarından götürülmüşdür. 17, 18, 25 saylı mifləri B.Abdulla toplamışdır.

Nağıllar

Tərtibə daxil edilmiş "Üç şahzadə", "İlyasın nağılı", "Ağ quş " "Azərbaycan nağılları",V cilddə, 1-ci cild (Tərtib edənlər M.H.Təhmasib, Ə.Axundov). – B: Azərb. E A nəşriyyatı, 1960-cı il kitabından götürülmüşdür. "Yeddi qardaş, bir bacı", "Ağ atlı oğlan", "Loğmanla şəyirdi", "Tülkü-tülkü tünbəki", "Tülkü və Hacıleylək", "Əliyarla Dovşan" nağılları "Azərbaycan nağılları", V cilddə, 5-ci cild (tərtib edəni Ə.Axundov).– B: Azərb.EA nəşriyyatı, 1964-cü il kitabından seçilmişdir. "Zəmanənin hökmü" nağılı "Azərbaycan nağılları", V cilddə, 3-cü cild (tərtib edəni Ə.Axundov). – B: Azərb. EA nəşr. 1960-cı il kitabından götürülmüşdür. "Vəfalı at" nağılı "Azərbaycan nağılları", – B: Gənclik, 1982-ci il kitabından götürülmüşdür. "Dostluğun sirri", "Uçan xalça", "Ağıllı qızın nağılı", "Loğman", "Padşahla dəmirçi", "Padşahla pinəçi", "Pinəçi", "Faydalı məsləhət", "Ağıllı uşaq", "Üç sənətkar", "Hiyləgər Tülkü", "Arıların qəzəbi", "Siçanla pişik", "Ayının yuxusu", "Şirlə tülkü", "Bülbülün nağılı", "Tülki ilə canavar", nağılları "Azərbaycan nağılları" (Toplayanı N.Seyidov). – B: Azərnəşr, 1976-cı il kitabından seçilmişdir.

Əfsanələr

Əfsanə örnəkləri "Azərbaycan xalq əfsanələri" (Toplayanı, tərtib edəni Sədnik Paşayev). – B: Yazıçı, 1985-ci il kitabından seçilmişdir.

Rəvayətlər

"Qırxqız", "Axsadin baba", "Bibiheybət", "Əshabi-kəf", "Löküm qalası", "Əjdaha qalası", "Nuh dabanı", "Qarı körpüsü" örnəkləri "Azəraycan folkuloru antologiyası" II kitabda, 2-ci kitab (topl.,tərt.ed.Ə.Axundov). – B: Azər.EA nəşriyyatı 1968, "Ağrıdağ", "Qızqalası", "Bayandur", "Dad-

mələk dağı", "Zar", "Astiaq", "Tomris", "Makedoniyalı İsgəndər", "Dirilik suyu", "Xacə Nəsrəddin Tusi ilə bostançı", "Teymurləng", "Xətai" rəvayətləri "El çələgi" (Tərtib edəni T.Fərzəliyev, İ.Abbasov). – B: Yazıçı, 1983, "İsgəndərin ağlaması", "Bu gün əsl pəhləvan yıxmısan", "Uşağın böyük ağlı", "Sən xanım olası gözəlsən", "Abbasbəyli", "Nadir şahın peşmançılığı", "Sevinirlər ki..", "Can,can a Kərəm", "Köhnə Naxçıvanı" örnəkləri "Azərbaycan xalq söyləmələri" (Topl., tərt. edən. S.Pirsultanlı), – B: Yazıçı, 1992, "Nizami və Gəncə əmiri", "Sən Həcərsən" rəvayyətləri "Azərbaycan xalq əfsanələri" kitabından götürülmüşdür. "Bəs kişilər hanı?" örnəyi B.Abdullanın 5-ci sinif "Ədəbiyyat". – B: Çaşıoğlu nəşr. 2001-ci il dərsliyindən götürülüb.

Təmsillər

"Bu tülkü imiş", "Yavaş-yavaş döşə də çatasıyam", "Böyüklərlə gəzirəm", "Dovşanların qərarı", "Dəvə və tülkü", "Şir və qarğa", "Sərçə indi ən böyük padşahdır", "Şir və tülkü", "Tülkü və çaqqal", "Kəsib sanayırlar", "Mən carçıyam", "Pişikdəndə balaca oldum", "Torağayın intiqamı", "Leylək, tülkü və vağ", "Qızılquş və gürzə", "Andın iki başı olur", "Siçanla qurbağanın dostluğu" təmsilləri "Azərbaycan xalq söyləmələri" (topl., tərt. ed. S. Pirsultanlı). – B:Yazıçı, 1992-ci il kitabından seçilmişdir.

"Tülkü ilə kəklik", "Tülkü ilə canavar", "Tülkü ilə qurd", "Tülkü ilə ilan", "Aslanla dovşan", "Şir, qurd, tülkü", "Ac qurd" örnəkləri "Azərbaycan nağılları" V cilddə, 5-ci cild. – kitabından götürülmüşdür. "Tülkü ilə pələng", "Qurd", "Dəvə ilə tikan" təmsilləri tərtibə "El çələngi" kitabından daxil edilmişdir.

Lətifələr

Kitaba daxil edilmiş lətifələr bu qaynaqlardan seçilmişdir: "Bəhlul Danəndə lətifələri" (topl., tərt.ed.N.Seyidov). – B:Yazıçı, 1979; "Dava yorğan davasıymış" (Tərtib edəni B. Abdulla). – B: Yazıçı, 1993.

Dastanlar

"Dirsə xan oğlu Buğac xan boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Basatın Təpəgözü oldürdüyü boy", "Bəkil oğlu İmranın boyu" "Kitabi-Dədə Qorqud"un sadələşdirilmiş mətnindən götürülmüşdür (B.YNE, 1999). Sadələşdirilmiş mətnin müəllifi Samət Əlizadədir.

"Alı kişi", "Durna teli", "Həmzənin Qıratı aparması" M.H.Təhmasibin tərtibində nəşr olunmuş "Koroğlu" (1956,1975) eposundan tərtibə daxil edilmişdir.Ə.H Tahirovun topladığı "Qaçaq Nəbi" dastanı "El çələngi" kitabından götürülmüşdür. "Qurbani", "Aşıq Qərib" "Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar" (Tərtib edəni B.Abdulla). – B: Yazıçı, 1987-ci il kitabından seçilmişdir.

KİTABIN İÇİNDƏKİLƏR

Miflər

Səmavi miflər 3
Mənşə mifləri 6
Tufan mifləri 8
Təqvim mifləri 11
Heyvan və bitkilərə aid miflər 17
Qeyri adi varlıq mifləri 25

Nağıllar

Sehrli nağıllar

Dostluğun sirri 29
Uçan xalça 40
Ağıllı qızın nağılı 45
Vəfalı at 50
Ağ quş 62
Yeddi qardaş, bir bacı 69
Ağ atlı oğlan 74

Məişət nağılları

Üç şahzadə 94
İlyasın nağılı 102
Zəmanənin hökmü 108
Loğman 113
Padşahla dəmirçi 117
Padşahla pinəçi 121
Pinəçi 124
Faydalı məsləhət 129
Ağıllı uşaq 131
Üç sənətkar 135
Loğmanla şəyirdi 137

Heyvanlar haqqında nağıllar

Tülkü, tülkü, tünbəki 141
Tülkü və hacıleylək 145
Şirlə tülkü 149
Əliyarla dovşan 151
Arıların qəzəbi 153
Siçanla pişik 154
Ayının yuxusu 156
Tülkü ilə canavar 158
Bülbülün nağılı 160

Əfsanələr

Dağ, daş və qayalar

Gəlin daşı 162
Laçın qayası 162
Qanlı qaya 163
Qum-qum daş 163
Çoban və daşa dönən sürü 164
Qaraçənli və dəlidağ 164
Dağların ayrılığı 165
Beşikli dağ 165
Kürsəngi dağı 166

Bulaq, çay və göllər

Qara at bulağı 167
Qanlı göl 167
Qanlı gölün maralları 168
Göyçə gölü 168
Göy Göl 169
Qırxqız gölü və Şahbulaq 170
Mincivan bulağı və Tərtər çayı 171
Pəri bulağı 171

Çiçəklər, güllər

Qızılgül 173
Bənövşə 174
Çoban yastığı çiçəyi 175
Lalə 175
Qızboyu çiçəyi 176

Quşlar, heyvanlar

Səmənər quşu 177
Şanapipik quşu 177
Göyərçin 177
Kəklik 178
Turac quşu 179
Xarı bülbül 179
Bülbül və qaratikan kolu 180
Keçi südü və ilan zəhəri 181
Ağ ilan 181
Simurq quşu və ilan 181
İlan və qaranquş 182
Maralın göz yaşları 183
Ovçu Pirim və üç ceyran 184

Aldədə və Dədəgünəş əfsanələri

Aldədə 185
Mahpeykər 186
Qurdoğlu 187

Naltökən 189
İldırım qılınc 190
Nəkşi-Nigar 190
Atanın od nəfəsi 191
Odlu məzar 192

Rəvayətlər
Ceoqrafi yer adları ilə bağlı rəvayətlər
Ağrıdağ 194
Qırxqız 194
Axsadin baba 195
Bibiheybət 195
Əshabi-kəf 195
Löküm qalası 197
Qız qalası 198
Bayandur 199
Dadməlik dağı 199
Əjdaha qayası 199
Zar 200
Nuhdabanı 200
Qarı körpüsü 201
Tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər
Astiaq 202
Tomris 212
İskəndərin ağlaması 216
Makedoniyalı İsgəndər 216
Dirilik suyu 216
Bu gün əsl pəhləvan yıxmısan 217
Uşağın böyük ağlı 218
Nizami və Gəncə əmiri 219
Xaca Nəsrəddin Tusi ilə bostançı 219
Teymurləng 221
Bəs kişilər hanı? 221
Xətai 222
Sən xanım olası gözəlsən 222
Abbasbəyli 223
Nadir şahın peşimançılığı 224
Sevinirlər ki 224
Nəbinin ərzə qayası 225
Sən Həcərsən 226
Can, can, a Kərəm 227
Köhnə Naxçıvanın 228

Təmsillər

Bu tülkü imiş 229
Yavaş-yavaş döşə də çatasıyam 229
Böyüklərlə gəzirəm 231
Dovşanların qərarı 231
Dəvə və tülkü 231
Şir və qarğa 232
Sərçə indi ən böyük padşahdır 232
Şir və tülkü 232
Tülkü və çaqqal 234
Kəsib sanayırlar 235
Mən carçıyam 235
Pişikdən də balaca olardım 236
Torağayın intiqamı 237
Leylək, tülkü və vağ 237
Andın iki başı olur 240
Siçanla qurbağanın dostluğu 241
Tülkü ilə pələng 241
Qurd 242
Dəvə ilə tikan 243
Tülkü və kəklik 243
Tülkü ilə canavar 244
Tülkü ilə qurd 244
Tülkü və ilan 245
Aslanla dovşan 247
Şir, qurd, tülkü 247
Ac qurd 248

Lətifələr

Bəhlul Danəndə lətifələri

Bişmiş yumurtadan da cücə çıxarmış 251
Torpağın sözü 252
Daha mənə ehtiyac yoxdur 252
Mollanın tamahı 253
Dəmir al, kömür al 253
Yükün nədir? 254
Bəhlul və şagirdi 255

Molla Nəsrəddin lətifələri

Bilənlər bilməyənlərə öyrətsin 257
Paltar nəyinizə lazımdır 257
Qazan da doğarmı? 258
Bir tük ondan, bir tük bundan 258

Yolum o yana düşdü 259
Kişinin sözü bir olar 259
İşin düzəldiyini görüb gülürsən 260
Pişikdirsə, bəs ət hanı? 260
Mindiyini saymırsan? 261
Molla və səyyah 262
İçini bayıra çeviriblər 263
Bir xətt oxu görək 263
Bizim nəslə vergidir 264
Dördayaqlı olardın 264
Mən yerin tapmışam 265
"Əst"ləri görmürsünüz? 265
Qələt yağ küpəsindədir 265
İnşallah 266
Gör necə möhkəm dişləri var 266
Sən peyğəmbərliyə də qəbul etmirsən 267
Utandığımdan üzümü örtürəm 268
Sabah 268
Açar deşiyi 269
Məsdər 269

Dastanlar

Qəhrəmanlıq dastanları
"Kitabi-Dədə Qorqud"dan
Dirsə xan oğlu Buğac xan boyu 271
Salur Qazanın evinin yağmalandığı boy 280
Basatın Təpəgözü öldürdüyü boy 291
Bəkil oğlu İmranın boyu 298
"Koroğlu"dan
Alı kişi 306
Durna teli 315
Həmzənin Qıratı aparması 334

Qaçaq Nəbi 368
Məhəbbət dastanları
Qurbani 396
Aşıq Qərib 454

İzahlar 488

Azərbaycan şifahi xalq ədəbiyyatı
(Antologiya)

İki kitabda
İkinci kitab

Tərtib edəni: Bəhlul Abdulla

Texniki redaktor *Ə.Güləliyev*
Tərtibatçı rəssam *N.Əliyeva*
Kompüter tərtibatı *G.Əhmədova*
Korrektor *M.Feyzullayeva*

Yığılmağa verilib 30.09.2001. Çapa imzalanıb 23.10.2001. Formatı 60x90 $^{1}/_{16}$.
Ofset kağızı. Ofset çapı. Fiziki çap vərəqi 31. Tirajı 1000.

Sifariş № 327

"QIZIL ŞƏRQ" MƏTBƏƏSİ

XXI–Yeni Nəşrlər Evi